# NUR TƏFSİRİ

## ON BİRİNCİ CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**





**نام کتاب:..................................................تفسیر نور (جلد-11)**
**مولف:............................................................محسن قرائتی**
**مترجم:................................................................حاج آرزو**
**ناشر:....................................................................... .فائز**
**تاریخ چاپ:..............................................................1385**
**نوبت چاپ:.................................................................اول**
**تیراژ:......................................................................2000**

**Kitabın adı:.......................................Nur təfsiri (on birinci cild)**
**Müəllif:...............................................................Möhsün Qəraəti**
**Tərcümə edən:........................................................................H. Arzu**
**Nəşr edən:...........................................................................Faiz**
**Çap tarixi:............................................................................2006**
**Çap növbəsi:........................................................................Birinci**
**Tiraj:.....................................................................................2000**

Əziz və diqqətli oxucu! Quran təfsiri tərcüməsinin nə dərəcədə əhəmiyyətli və incə iş olduğunu anlasaq da, nöqsanlardan qaça bilmədik. “Həyy” və “qəyyum” kimi yüzlərcə mirvari tə`birini bəsit şəkildə tərcümə etmək zorunda qaldıq. Gələcəkdə bu ilahi işdə yardımçı olacağınızı düşünürük. Bizə ünvanlayacağınız qeydlər növbəti nəşrlərdə nəzərə alınacaq.

*Dua istəyi ilə tərcüməçi.*

**RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ**
**Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!**

## *Ön söz*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

### *Həmkarlar*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

### *İmtiyazlar*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.
2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.
3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmili üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

Möhsün Qəraəti

## *Ayətullah hacı Seyyid Mehdi Ruhanidən bir neçə xoş söz*

Rəhman və Rəhim Allahın adı ilə

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda "Biz Quranı öyüd üçün asan etdik" buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: "Onlara xatırladılanların bir hissəsini unutdular..."[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: "Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər."[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir "bəyani" bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini şəxsi, çox vaxt isə yanlış əqidəsinin sübutu üçün əsas gətirir.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;
5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında "Səqəleyn"dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

[1] "Maidə" 13.
[2] "Sad" 29.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Uyğun təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Uyğun şərhlərdə müəllifin "bildirişlər" adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) "Səhifeye-səccadiyyə" kitabında Quranın xətm duasında buyurur: "Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil."

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

09 Rəbius-sani, 1414

Mehdi Hüseyni Ruhani

## *Müəllifdən*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə "Nur təfsirini" diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və "Təfsiri-rahnüma", "Nüxbətut-təfsir" kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

Möhsün Qəraəti

*Rəhman və Rəhim Allahın adı ilə*

# "ƏHQAF" SURƏSİ

### *(46-CI SURƏ; 35 AYƏ)*

### *İYİRMİ ALTINCI CÜZ*

### *"ƏHQAF" SURƏSİNİN SİMASI*

Qurani-kərimin 26-cı cüzünün əvvəlində yerləşmiş bu surə 35 ayədən ibarətdir və Məkkədə nazil olmuşdur.

"Əhqaf" dedikdə küləyin təsirindən təpəciklər şəklini almış narın qumlar mənası anlaşılır. Ad qövmünün yaşadığı məntəqə qumsal olduğundan "əhqaf" adlanırdı.

Surə ona görə "Əhqaf" adlandırılmışdır ki, həzrət Hud və Ad qövmünün macəralarından danışılarkən bu söz 21 ayədə işlədilmişdir.

Bu surə "ha, mim" müqəttəə hərifləri ilə başlamış 7 surənin sonuncusudur. Bütün bu surələrdə müqəttəə həriflərdən sonra Quranın nazil olmasından və əhəmiyyətindən danışılır.

İmam Sadiq (ə) buyurur: "Hər cümə gecəsi bu surəni oxuyan kəs üçün nə dünyada, nə də axirətdə qorxu var."[1]

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1, 2:*

﴿حم﴾ ﴿تَنْزِيلُ ٱلْكِتَابِ مِنَ اللَّهِ ٱلْعَزِيزِ ٱلْحَكِيمِ﴾

**"Ha, mim; bu kitab qüvvət və hikmət sahibi olan Allah tərəfindəndir."**

*Ayə 3:*

﴿مَا خَلَقْنَا ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضَ وَمَا بَيْنَهُمَا إِلَّا بِالْحَقِّ وَأَجَلٍ مُّسَمًّى وَٱلَّذِينَ
كَفَرُوا عَمَّا أُنذِرُوا مُعْرِضُونَ﴾

**"Biz göyləri, yeri və onlar arasında olanı yalnız haqq əsasında və müəyyən zaman üçün yaratdıq. (Amma) Küfr edənlər qorxudulduqları şeydən üz çevirdilər."**

**Nöqtələr**

[1] "Təfsiri-İsna Əşəri"

"Ğafir", "Fussilət", "Şura", "Zuxruf", "Duxan", "Casiyə" və "Əhqaf" surələri "ha, mim" müqəttəə hərifləri ilə başlayır, eləcə də "yeddi ha-mim" adı ilə tanınır.

Bir neçə surədə ardıcıl şəkildə "ha, mim; tənzilul kitabi..." ayəsinin təkrarlanmasından aydın olur ki, xüsusi əhəmiyyət daşıyan məsələlər təkrarlanmalıdır.

Qüvvət ("izzət") həm Allah, həm Onun kitabı, həm peyğəmbərlər, həm də möminlərə aid edilmiş sifət və kamilliklərdəndir.[1]

Varlıq aləmi hikmət və haqq əsasında yaradılmışdır. Əgər bir şeyin varlıq səbəbini anlamasaq problem yaradanda yox, elmimizin məhdudluğundadır. Təsadüfi deyil ki, "Duxan", surəsinin 39-cu ayəsində "onların çoxu bilməz" buyurulur.

"Ha-mim" müqəttəə həriflərindən sonra gələn ayələrə bir qədər diqqət yetirdikdə belə bir qənaətə gəlirik ki, Quran Allahın elm və qüvvət, rəhmət və məhəbbət, qüdrət və hikmət qaynaqlarındandır, aydın, aydınladan, düşündürən bir kitabdır, bərəkət səbəbidir.[2]

İnsanın əsas çaşqınlıq amillərindən biri onun dünyanın məhdud və ötəriliyinə lazımınca diqqət yetirməməsi, özünü əbədi saymasıdır. Qurani-kərimdə buyurulur ki, bəzən insan var-dövlət toplayıb onu hesablamaqla gün keçirir və infaq (sədəqə) tövfiqindən məhrum olur.[3] Bəziləri ömrünü möhkəm binalar tikməyə sərf edir.[4] Bir başqaları meydan sulayıb qoşun çəkir, güc nümayiş etdirir.[5] Zənn-gümana qapılıb ölüm və Allahın qəzəbi ilə mübarizəyə qalxanlar da olur.[6]

İnsanlar unudurlar ki, ömrün məhdudluğu hamıya aid olan bir həqiqətdir.[7] Qurani-kərim qəflət bəlasını daim insana xatırladır.

## Bildirişlər

1. Qurani-kərimin nazil olması yalnız qüvvət və hikmət sahibi olan Allahın ixtiyarındadır və insanın gücündə deyil.
2. Qurani-kərimin proqramları səmavi və ilahi olsa da, bəşəriyyətin məhdud düşüncə səviyyəsində nazil olmuşdur.
3. Quran qüvvət və hikmət sahibi olan Allah tərəfindən nazil edildiyi üçün onun proqram və göstərişləri də cəmiyyəti uyğun istiqamətlərə sövq edir.
4. Allahın güc və qüdrəti Onun hikmət və məharəti ilə yanaşıdır.
5. Məqsədli nizam proqramsız olmur. Təbiət və şəriət (təkvin və təşri) haqq və hikmətə əsaslanır.
6. Varlıq nizamında əyinti, davamsızlıq, əskiklik, səmərəsizlik yoxdur.
7. Göylər və yer, bütün varlıq aləmi təsadüfi və hesabsız deyil, müəyyən zaman üçün nəzərdə tutulmuşdur.

---

[1] "Fussilət", 41; "Munafiqun", 8
[2] "Ğafir", 2; "Fussilət", 2; "Şura", 3; "Zuxruf", 2, 3; "Duxan", 3
[3] "Huməzə", 2, 3
[4] "Şuəra", 129
[5] "Qəsəs", 39
[6] "Həşr", 2
[7] "Nisa", 78

8. Yaranışda haqqın təntənəsi üçün axirət həyatının mövcudluğu zərurətdir. (Əgər məad-ölümdən sonra həyat olmasa, bir çox ədalətsizliklər cavabsız qalar.)

9. Varlığın əvvəlindən sonunadək baş verən bütün hadisələr hesablanmışdır və nəzarət altındadır.

10. Dünyanın məhdudluğuna, nemətlərin və hadisələrin ötəriliyinə diqqət insan üçün bir xəbərdarlıqdır, onu dünyapərəstlikdən çəkindirib haqqa yönəldir.

11. Təbiət və şəriət nizamı insanın hidayət və kamilliyi üçündür. Buna baxmayaraq bəziləri nankorluq edib, küfrə uğrayır.

12. Bütün varlıq aləmi haqq yolda hərəkətdədir. Yalnız insan yanlış seçimi ilə aza bilir.

13. Təlim-tərbiyə və təbliğdə xəbərdarlıq da lazımdır.

14. İnsanın haqqa qarşı çıxması onun iradə sahibi olduğunu göstərir.

*Ayə 4:*

﴿قُلْ أَرَأَيْتُم مَّا تَدْعُونَ مِن دُونِ ٱللَّهِ أَرُونِي مَاذَا خَلَقُواْ مِنَ ٱلْأَرْضِ أَمْ لَهُمْ شِرْكٌ فِي ٱلسَّمَاوَاتِ ٱئْتُونِي بِكِتَابٍ مِّن قَبْلِ هَذَا أَوْ أَثَارَةٍ مِّنْ عِلْمٍ إِن كُنتُمْ صَادِقِينَ﴾

**"De ki, Allahın əvəzinə çağırdıqlarınızı görmüsünüz? Göstərin görüm onlar yerdən nəyi yaratmışlar və ya göylərdə nə iştirakları olub? Əgər doğru danışırsınızsa, mənim üçün bundan (Qurandan) başqa bir kitab və elmi nişanə göstərin."**

## Nöqtələr

"Əsarə" sözü bir şeydən qalmış izlər və bir şeyin varlıq nişanələri mənasını bildirir.

Müşriklər də Allahı göylərin və yerin xaliqi kimi qəbul edirdilər.[1] Bu səbəbdən də Allah onları məzəmmət edir ki, nə üçün Allahın əvəzinə bütlərin və başqalarının sorağınca gedir, onlara pərəstiş edib, kömək diləyirlər.

Tövhid məntiqi o qədər güclü və əsaslıdır ki, bu məntiq əsasında müşriklərlə mübahisə edib onları məhkum etmək olar.

İmam Baqir (ə) buyurur: "Bu ayədə kitab deyərkən Tövrat və İncil, elm deyərkən Peyğəmbər (s) canişinlərinin buyuruqları nəzərdə tutulur.[2]

## Bildirişlər

1. Peyğəmbər (s) bütün risaləti boyu hətta müxaliflərlə mübahisə üslubuna münasibətdə Allahın əmrlərinə tabe olmuşdur.

2. Təbliğ və tərbiyədə suallar cavablamaqla başqalarının fitrətini oyatmaq, onları düşüncəyə vadar etmək olar.

---

[1] "Loğman", 25

[2] "Təfsiri-nurus-səqəleyn"

3. Sabitqədəmlik və mətanət təbliğin əsas şərtləridir. Kafirlər üz çevirdikdən sonra da təbliğdən əl çəkməyin.

4. Etiqad məsələlərində başqalarının dedikləri ilə kifayətlənməyin. Öz gördüyünüzü və dərk etdiyinizi qəbul edin.

5. Yalnız yaratmaq qüdrəti olan mövcudun köməyə çağırılmaq səlahiyyəti var. İbadətdə tövhidin kökü yaradılışda tövhiddir.

6. Bütlər və xəyali məbudlar bütün baxımlardan acizdirlər. Onların nə yerin yaranışında, nə göylərin bərpasında rolu var.

7. Müxaliflərlə mübahisə və danışıqda müştərək etiqadlara istinad etmək lazımdır. (Müşriklər Allahın xaliqliyini qəbul edirdilər.)

8. Qurandan öncəki səmavi kitablara ehtiram və etimad göstərilməlidir.

9. Mübahisə və isbatda dəlillər ya fitri, ya nəqli, ya da əqli olmalıdır. Şirkin heç bir dəlili yoxdur.

10. Hər bir müddəanın irəli sürülməsi və qəbulu məntiqi olmalı, elm və dəlillərə əsaslanmalıdır.

11. Xatirələr və yadigarlar, tarixi abidələr və mədəni irslər elm və təkamül göstəricisi olduqda dəyərlidir.

*Ayə 5:*

﴿وَمَنْ أَضَلُّ مِمَّن يَدْعُواْ مِن دُونِ ٱللَّهِ مَن لَّا يَسْتَجِيبُ لَهُ إِلَى يَومِ ٱلْقِيَامَةِ وَهُمْ عَن دُعَائِهِمْ غَافِلُونَ﴾

**"Allahın əvəzinə qiyamətədək cavab verməyəcək və çağırıldığından xəbərsiz birini çağıran kəsdən azğını kimdir?!"**

*Ayə 6:*

﴿وَإِذَا حُشِرَ ٱلنَّاسُ كَانُوا لَهُمْ أَعْدَاءً وَكَانُواْ بِعِبَادَتِهِمْ كَافِرِينَ﴾

**"İnsanlar məhşərə gətirilən vaxt onlar düşmənləri olacaq və ibadətlərini inkar edəcək."**

### Nöqtələr

Ən böyük azğınlıq məbudla tanışlıqda azğınlıqdır. Elmli, qüdrətli, eşidən və görən Allahdan üz çevirib Ondan qeyrilərinə üz tutanlar belə bir azğınlığa düçar olmuşlar. Çünki Allahdan qeyrilərində heç bir iş görmək qüdrəti yoxdur.

5-ci ayə "Yunus" surəsinin 29-cu ayəsinin oxşarıdır. Həmin ayədə buyurulur ki, qiyamət günü müşriklərin məbudları onlara "sizin ibadətinizdən xəbərsiz olduğumuza aramızda Allah şahiddir" söyləyərlər.

Duanı eşidib qəbul edən məbudla, heç nə eşitməyib, heç bir cavab verməyən məbud arasında böyük fərq var.[1]

Uydurma məbudlar hətta eşitsələr də cavab vermək gücündə deyillər.[2]

İnsan həyatında Allahla Allahdan qeyrilərinin rolu arasında fərq:

---

[1] "Ğafir", 60

[2] "Fatir", 14

a) Allahın insan həyatında rolu budur ki, insanın xaliqidir, onun və aləmlərin Rəbbidir, onu çox sevir, duasını eşidir, fəryadına çatır, onu yaxşılığa yönəldir, onu himayə edir, onu təkamülə çatdırır, ona aramlıq verir, onu öyrədir, ona olan nemətini artırır, onun xəstəliyinə şəfa verir, onun gələcək ümididir;[1]

b) İnsan həyatında Allahdan qeyrilərinin rolu haqqında nə demək olar? Onların heç bir yaratmaq qüdrəti yoxdur, insanın istəklərindən xəbərsizdirlər, onun duasını eşitmirlər, duaya cavab vermək gücləri yoxdur, insanın düşmənidirlər, hadisələr qarşısında gücsüzdürlər, nə xeyir vermək, nə də zərər vurmaq gücləri var.[2] Həzrət Yusifin təbirincə, saysız məbudlar yaxşıdır, yoxsa bir olan Allah?!

## Bildirişlər

1. Düşüncə və etiqad azğınlıqları bəşəriyyətin ən böyük azğınlığıdır.
2. Allah yolundan savayı bütün yollar azğınlığa aparır.
3. İnsanlar dünya istəyi ilə Allahdan qeyrilərinə üz tutur. Hansı ki, Allahdan qeyriləri dünyada kömək etsələr də, qiyamətdə insana düşmən olurlar.
4. Dünyadakı qeyri-ilahi və şirkamiz rabitələr qiyamətdə düşmənçilik rabitələrinə çevriləcək.
5. Əgər insan Allahdan istəniləsi bir şeyi başqalarından istəyirsə, onlara pərəstiş etmiş olur və bu iş tövhidlə bir araya sığmır.
6. Uydurma məbudlar öz müridlərinin dünyadakı ibadətlərindən xəbərsizdirlər və qiyamətdə həmin ibadətləri inkar edərlər.

***Ayə 7:***

﴿وَإِذَا تُتْلَى عَلَيْهِمْ ءَايَاتُنَا بَيِّنَاتٍ قَالَ ٱلَّذِينَ كَفَرُواْ لِلْحَقِّ لَمَّا جَاءَهُمْ هَذَا سِحْرٌ مُّبِينٌ﴾

**"Aydınladan ayələrimiz onlara oxunan vaxt küfrə uğrayanlar onlar üçün gəlmiş haqq barəsində deyər: "Bu aşkar bir sehrdir."**

## Nöqtələr

"Mubin" sözü Peyğəmbər (s) buyuruqlarının və möcüzələrinin qeyri-adi təsirini bildirir. Belə ki, insanlar bu kəlam və möcüzələri sehr-cadu kimi qəbul edirlər.

Kafirlər Quran ayələrini eşitdikləri vaxt çox sözlər danışır, müxtəlif cür rəftar edirdilər. Məsələn deyirdilər: "Bunları əvvəllər eşitmişik, istəsək biz də beləsini

[1] "Ər-Rəhman", 3; "Fatihə", 2; "Bəqərə", 143; "Ali-İmran", 38; "Nəml", 62; "Ənkəbut", 69; "Əraf", 196; "Sad", 2; "Rəd", 28; "Ələq", 4; "İbrahim", 7; "Şuəra", 80; "Şuəra", 82
[2] "Həcc", 73; "Əhqaf", 5; "Fatir", 14; "İsra", 56; "Bəqərə", 102; "Yusuf", 39

deyərik[1]; "Quranın bütləri inkar edən ayələrini ləğv et ki, onu qəbul edək"[2]; "Əsas var-dövlətdir, başqa şey yox!"[3]

Kafirlər təkəbbürlə üz çevirir, ayələri təkzib edir, özlərini korluğa və karlığa vurur, onu iftira və bidət sayır, yalnız təəssübdən danışır, heç bir dəlilə istinad etmir, Quran ayələrinin əfsanə olduğunu iddia edir, Allahın kitabını cadu, peyğəmbərini cadugər adlandırırdılar.[4]

### Bildirişlər

1. İnadkarlıq ruhiyyəsi qalib gələndə aydın dəlillər də inkar olunur.
2. Qurani-kərim ayələri aydın və aydınladandır.
3. Peyğəmbərlərin möcüzələri qəlbiqara insanlar üçün inanılmayası, amma maraqlı və qeyri-adi idi.

### *Ayə 8:*

﴿أَمْ يَقُولُونَ ٱفْتَرَاهُ قُلْ إِنِ ٱفْتَرَيْتُهُ فَلَا تَمْلِكُونَ لِي مِنَ ٱللَّهِ شَيْئًا هُوَ أَعْلَمُ بِمَا تُفِيضُونَ فِيهِ كَفَىٰ بِهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَهُوَ ٱلْغَفُورُ ٱلرَّحِيمُ﴾

**"Ya da deyirlər: "(Peyğəmbərin gətirdiyi) İftiradır." De ki, əgər mən onu iftira olaraq Allaha aid etmiş olsam, (həmin vaxt) siz məni Allahın qəzəbindən qoruya bilməzsiniz. Allah qatıldıqlarınızdan (söz-söhbətlərinizdən) daha agahdır. Mənimlə sizin aranızda şahidlik üçün Allah bəs edir. Odur çox bağışlayan və mehriban."**

### Nöqtələr

"İfazə" sözündən olan "tufizun" sözü daxil olmaq, tüğyan qoparmaq mənalarını bildirir.

Əgər bir şəxs yalandan peyğəmbərlik iddiası etsə, onu rüsvay etmək Allahın öhdəsinədir və kimsə bu şəxsi rüsvayçılıqdan qurtarıb, Allah qarşısında müdafiə edə bilməz.

### Bildirişlər

1. Bir sıra ziddiyətli rəftarların və danışıqların səbəbi inadkarlıq və təqvasızlıqdır. (Ötən ayədə Quranın sehr, Peyğəmbərin (s) yalançı olması kimi itdihamlardan danışıldı)
2. Allaha qarşı iftira müqabilində heç vəchlə qarşısı alınmayacaq cəza nəzərdə tutulur.
3. Şübhələri cavabsız buraxmayın.

---

[1] "Ənfal", 31
[2] "Yunus", 15
[3] "Məryəm", 73
[4] "Ənfal", 31; "Yunus", 15; "Məryəm", 73; "Muminun", 66; "Muminun", 105; "Loğman", 7; "Səba", 43; "Casiyə", 25; "Qələm", 15

4. Düşmən yalnız fəsad törətmək üçün danışır.

5. Allaha iman həm günahdan çəkindirən ən üstün vasitə, həm də iman əhli üçün ümid ola bilər.

6. Tərbiyədə tarazlığı gözləyək, həm qorxudaq, həm də ümid verək.

7. Ciddilik məhəbbətlə müşayiət olunduqda dəyərlidir.

8. Hətta kafirlər və risaləti inkar edənlər üçün tövbə qapısı açıqdır.

***Ayə 9:***

﴿قُلْ مَا كُنتُ بِدْعًا مِّنَ ٱلرُّسُلِ وَمَا أَدْرِي مَا يُفْعَلُ بِي وَلَا بِكُمْ إِنْ أَتَّبِعُ إِلَّا مَا يُوحَىٰ إِلَيَّ وَمَا أَنَا إِلَّا نَذِيرٌ مُّبِينٌ﴾

**"De ki, mənim peyğəmbərlər arasında keçmişim var. Mənimlə və sizinlə necə rəftar olunacağını bilmirəm. Yalnız mənə vəhy olunana tabeyəm. Mən yalnız açıq-aşkar qorxudanam."**

**Nöqtələr**

"Bida" dedikdə keçmişdə görünməmiş yeni bir hadisə mənası anlaşılır. Müxaliflər peyğəmbərlərə elə yanaşırdılar ki, sanki həmin vaxtadək peyğəmbər gəlməyib və risalət yeni bir işdir.

Peyğəmbərin qeybdən bildikləri ona Allah tərəfindən əta olunub.[1] Allahın ətası və vəhy olmadan kimsə qeybdən və gələcəkdən xəbər tuta bilməz.[2]

Peyğəmbər (s) yalnız vəhyi deyir.[3] Həzrət əməldə yalnız vəhyə tabe olur. Bu səbəbdən də Peyğəmbərin (s) sözü və əməli insanlar üçün nümunə və dəlildir.

**Bildirişlər**

1. Əziz Peyğəmbərə (s) şübhələri cavablandırmaq əmr olunmuşdu.

2. İlahi rəhbərlər öz haqlılıqlarının müdafiəsində belə ilahi göstərişlər əsasında üsul seçirlər.

3. Peyğəmbərlərin besəti və risaləti tarix boyu davamlı bir cərəyan olmuşdur.

4. Şübhələrə müdara, mülayimliklə cavab vermək lazımdır. Müxaliflər Peyğəmbəri (s) sehrdə ittiham etsələr də, həzrət "aramızda şahidliyə Allah yetər" deyə cavab verir.

5. İnsanlar tanış olmadıqları yeni məsələlərə həssaslıqla yanaşdıqlarından məsələ ilə bağlı tarixi keçmişi bəyan etmək lazımdır.

6. Hər şeyi bilmək peyğəmbərlik şərti deyil.

7. Rəhbər xalqla səmimi danışmalıdır.

8. Müştərək səciyyələrin bəyanında öncə özünüzdən başlayın.

9. Peyğəmbər insanları iman gətirməyə məcbur etməməlidir. Onun vəzifəsi xəbərdarlıq, təhlükəni elan etməkdir.

10. Qafil insanlara xəbərdarlıq onlara ümid verməkdən daha mühümdür.

---

[1] "Hud", 49

[2] "Cinn", 71, 72

[3] "Nəcm", 3, 4

*Ayə 10:*

﴿قُلْ أَرَءَيْتُمْ إِنْ كَانَ مِنْ عِندِ ٱللَّهِ وَكَفَرْتُم بِهِ وَشَهِدَ شَاهِدٌ مِّنۢ بَنِي
إِسْرَائِيلَ عَلَى مِثْلِهِ فَآمَنَ وَٱسْتَكْبَرْتُمْ إِنَّ ٱللَّهَ لَا يَهْدِي ٱلْقَوْمَ ٱلظَّالِمِينَ﴾

**"De ki, əgər (Quran) Allah tərəfindən olsa, Bəni-İsraildən biri onun kimisinə (Tövrata) şahid durub iman gətirdiyi halda siz inkar edib təkəbbür göstərsəniz, (işin sonunu) görmüşsünüz? Həqiqətən, Allah zalım qövmü hidayət etməz."**

**Nöqtələr**

Bir çox hallarda qüruru aradan qaldırmaq lazım gəlir. Ayələrdən birində möminlərə xitabən buyurulur ki, hansınız dininizdən dönsəniz, Allah yerinizə sizdən də üstününü gətirər.[1] Digər bir ayədə Peyğəmbər (s) zövcələrinə buyurulur ki, Peyğəmbər (s) sizə talaq versə, sizdən də yaxşısı nəsibi olar.[2] Hazırkı ayədə isə Məkkə müşriklərinə buyurulur ki, əgər siz Quranı inkar etsəniz də ona zərbə vura bilməzsiniz və öz aqibətiniz haqqında düşünün.

Əksər təfsirçilər bu fikirdədir ki, ayədə şahid deyərkən tanınmış yəhudi alimi Abdullah ibn Salam nəzərdə tutulmuşdur. Bu şəxs yəhudi məclisində İslam və İslam peyğəmbərinin (s) haqq olduğuna şəhadət vermişdir.

**Bildirişlər**

1. İnsan bəzən tutduğu yol və mövqe haqqında düşünməlidir. Haqq çağırışı qəbul etməyən kəs öz təkəbbürünə görə necə cavab verəcək?!
2. Müxaliflərlə danışarkən əqidənizə münasibətdə təəssüb göstərməyin. Belə etsəniz, azad söhbət üçün zəmin yaranar. İslam peyğəmbəri (s) Quranın Allah tərəfindən göndərildiyinə inansa da, "əgər Allah tərəfindən olsa" ifadəsini işlədir.
3. Azğın mühitdə haqqın müdafiəsinə qalxanları xoş sözlərlə yad edək.
4. Küfrün kökü təkəbbürdür.
5. Fərdlər və qruplar arasında təkamül xarakterli sağlam rəqabət böyük dəyərdir.
6. Haqq qarşısında təkəbbür zülmdür.
7. Zülm bəsirət qarşısında maneədir və ilahi lütflərdən məhrumluq səbəbidir.

*Ayə 11:*

﴿وَقَالَ ٱلَّذِينَ كَفَرُواْ لِلَّذِينَ ءَامَنُواْ لَوْ كَانَ خَيْرًا مَّا سَبَقُونَا إِلَيْهِ وَإِذْ لَمْ
يَهْتَدُواْ بِهِ فَسَيَقُولُونَ هَذَا إِفْكٌ قَدِيمٌ﴾

**"Küfr edənlər iman gətirənlər haqqında dedilər: "Əgər (İslam) yaxşı olsaydı, onlar bu dini qəbul etməkdə bizdən qabağa düşməzdilər." Özləri hidayət olmadıqlarından tezliklə deyəcəklər: "Bu çoxdankı bir yalandır."**

---

[1] "Maidə", 54

[2] "Təlaq", 5

## Nöqtələr

Kafirlər elə güman edirlər ki, yalnız onların ağlı işləyir və bütün yaxşı işlərdə onlar qabağa düşəsidirlər. Düşünürlər ki, əgər onlar iman gətirməmişlərsə, demək, iman yaxşı bir iş deyil.

Peyğəmbər (s) risalətin yeni bir iş olmadığını bəyan etdikdən sonra düşmənlər peyğəmbərlik etiqadını şübhə altına alaraq dedilər: "Bu çoxdankı yalan və hiylədir."

## Bildirişlər

1. Kafirlər özlərini müsəlmanlardan daha fərasətli sayırdılar.
2. Düşmən müxtəlif istiqamətlərdən meydana daxil olur, fərqli məntiqlər əsasında fərqli sözlər danışır. Bəzən deyirlər ki, İslam dəyərsiz bir şeydir, yoxsa hamıdan qabaq biz İslamı qəbul edərdik. Bəzən isə peyğəmbərliyi tarixi keçmişi olan yalan sayıb onu qəbul etməkdən boyun qaçırırlar.
3. İslam və müsəlmanlar tarix boyu təhqiramiz təbliğatdan zərər çəkmişlər.
4. Quranın doğru yol göstərməsinə heç bir şək yoxdur, amma inadkar və təkəbbürlü insanlar onu qəbul etmir.
5. Bəzən mürəbbi (tərbiyəçi) tərbiyə etdiyi insanları yanlış meyllər və sözlərlə tanış etməklə sğortalamalıdır.
6. Rəhbər və xalq müxaliflərin iftiralarını öncədən proqnozlaşdırmalıdırlar.
7. Müxaliflər o qədər inadkardırlar ki, həm Quran ayələrini yalan sayır, həm də ondan istifadə müddətinin başa çatdığını bildirirlər.
8. Quranın peyğəmbər dövrünə aid olması və bu gün aktuallıqdan düşməsi çoxdankı iftiradır. Peyğəmbər dövründə də özünü düşüncə sahibi sayanlar bu sayaq danışırdılar.
9. İftira və yalanın çirkinliyi fitri duyulan bir həqiqətdir. Hətta kafirlər İslamı nüfuzdan salmaq üçün onu iftira adlandırırdılar.

*Ayə 12:*

﴿وَمِن قَبْلِهِ كِتَابُ مُوسَى إِمَامًا وَرَحْمَةً وَهَذَا كِتَابٌ مُّصَدِّقٌ لِّسَانًا عَرَبِيًّا لِّيُنذِرَ
ٱلَّذِينَ ظَلَمُوا وَبُشْرَى لِلْمُحْسِنِينَ﴾

**"Qurandan öncə Musanın kitabı imam və rəhmət idi. Ərəbcə olan bu kitab (səmavi kitabları) təsdiq edir ki, zalımlara xəbərdarlıq, xeyir əməl sahiblərinə müjdə olsun."**

## Nöqtələr

9-cu ayədə Peyğəmbərin (s) dilindən nəql olundu ki, o keçmişi olmayan yeni bir peyğəmbər deyil. Bu ayədə uyğun mətləb izlənilir və buyurulur: "Qurandan öncə Musanın kitabı imam və rəhmət idi."

Məlumdur ki, Qurandan öncəki səmavi kitab həzrət İsanın kitabı olmuşdur. Hazırkı ayədə İncilin yox Tövratın yada salınması Mədinədə daha çox yəhudilərin müxalifəti ilə bağlı ola bilər. Bundan əlavə, həzrət İsanın şəriəti həzrət Musa şəriətinin davamı olmuşdur. İncil Tövratı tamamlayan bir kitabdır.

Quranda həzrət İbrahim imam kimi tanıtdırılır, həzrət Musanın kitabı imam adlandırılır, İslam peyğəmbərinin (s) yolu nümunə kimi təqdim edilir və möminlər Allahdan təqvalılar üçün imam diləyir.[1]

9-cu ayədə Peyğəmbər (s), hazırkı ayədə Quran "qorxudan" kimi yad edilir. Necə ki, Allah-taala Peyğəmbəri (s) həm də Quranı müjdəçi adlandırır.[2]

## Bildirişlər

1. Səmavi kitab göndərilməsi ilahi sünnələrdəndir.
2. İnsanlar nümunə və rəhbərə ehtiyaclıdırlar. İlahi rəhmət cilvəsi olan səmavi kitablar xalq üçün imamdır.
3. Adətən diktaturada azğınlıqla müşayiət olunan sultan hökümətlərinin ziddinə olaraq dini imamət hidayət və rəhmət xarakterlidir.
4. Müasirləriniz haqqında xoş sözlər deyərkən keçmişdəkiləri də unutmayın.
5. Səmavi kitablar arasındakı uyğunluq onların haqq olması dəlillərindəndir.
6. Təxribat və böhtanlar qarşısında xoş sözlər və təsdiqlərə də ehtiyac var.
7. Quran öncəki səmavi kitabları təsdiqləmişdir və bu baxımdan da onlar üzərində böyük haqqa malikdir.
8. Səmavi kitab zalımlar üçün xəbərdarlıq, xeyir əməl sahibləri üçün müjdə vasitəsidir.
9. Haqqın qəbulu gözəl əməl, onun inkarı insanın özünə zülmüdür.

***Ayə 13:***

﴿إِنَّ ٱلَّذِينَ قَالُواْ رَبُّنَا ٱللَّهُ ثُمَّ ٱسْتَقَامُواْ فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ﴾

**"Rəbbimiz Allahdır" deyib möhkəm dayananlar üçün heç bir qorxu yoxdur və onlar qəmlənməyəcəklər."**

***Ayə 14:***

﴿أُوْلَئِكَ أَصْحَابُ ٱلْجَنَّةِ خَالِدِينَ فِيهَا جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ﴾

**"Onlar gördükləri işə görə behişt əhlidirlər və daim orada qalacaqlar."**

## Nöqtələr

"Rəbbimiz Allahdır" deyərkən doğru yol seçimi və bu yolda sabitqədəmlik nəzərdə tutulur. Həqiqətən də dildə iman gətirib tövhidi təsdiqləməkdən daha mühümü haqq yolda sabitqədəmlikdir.

"Xəvf", sözü gələcəyə, "hüzn" sözü keçmişə aiddir.

[1] "Bəqərə", 124; "Əhzab", 21; "Fürqan", 74

[2] "Nisa", 165

Haqq söz deyilməli, bu yolda sabitqədəmlik göstərilməli və doğru yolun tələblərinə əməl olunmalıdır.

İnsan təbiəti etibarı ilə aramlıq, rifah və əbədi həyat sorağındadır. Allah uyğun istəklərə çatmaq üçün möhkəm iman və saleh əməli zəruri sayır.

Haqq yolda sabitqədəmlik asan deyil. Amma bu iş müqabilində nemət dolu behişt və qəm-qüssədən uzaqlığın mükafat təyin edilməsi onu asanlaşdırır. Bəli, çətin işləri böyük mükafatlarla asanlaşdırmaq lazımdır.

### Bildirişlər

1. Hazırkı mövqeyimiz bizi qürrələndirməsin və dildə imanla kifayətlənməyək. Ən əsası işin sonudur və gələcəyi nəzərə almaq lazımdır. Həzrət Yusif çətinliklərdən qurtulduqdan və mükafatlar əldə etdikdən sonra dedi: "Pərvərdigara məni müsəlman olaraq öldür və xeyir əməl sahibləri ilə məhşərə gətir."[1]
2. Allah qorxusu insanın başqaları qarşısında qorxusunu aradan qaldırır.
3. Yalnız ardıcıl şəkildə Allah yolunda hərəkət edənlər öz keçmişlərinə görə peşiman olmur.
4. Davamlı yaxşılığın mükafatı behiştdə əbədiyyət və onun nemətləridir.
5. Behişt söz yox, əməl əhlinin mükafatıdır.

***Ayə 15:***

﴿وَوَصَّيْنَا ٱلْإِنسَانَ بِوَالِدَيْهِ إِحْسَانًا حَمَلَتْهُ أُمُّهُ كُرْهًا وَوَضَعَتْهُ كُرْهًا وَحَمْلُهُ
وَفِصَالُهُ ثَلَاثُونَ شَهْرًا حَتَّىٰ إِذَا بَلَغَ أَشُدَّهُ وَبَلَغَ أَرْبَعِينَ سَنَةً قَالَ رَبِّ أَوْزِعْنِي أَنْ
أَشْكُرَ نِعْمَتَكَ ٱلَّتِي أَنْعَمْتَ عَلَيَّ وَعَلَىٰ وَالِدَيَّ وَأَنْ أَعْمَلَ صَالِحًا تَرْضَاهُ وَأَصْلِحْ لِي
فِي ذُرِّيَّتِي إِنِّي تُبْتُ إِلَيْكَ وَإِنِّي مِنَ ٱلْمُسْلِمِينَ﴾

**"Biz insana tövsiyə etdik ki, öz valideyninə yaxşılıq etsin. Anası onu çətinliklə gəzdirdi, çətinliklə dünyaya gətirdi. Hamiləlik dövrü süddən ayrılanadək 30 ay çəkdi. Nəhayət, kamillik həddinə, 40 yaşa çatdıqda deyər: "Pərvərdigara, mənə və valideynimə lütf etdiyin nemət müqabilində şükür və bəyəndiyin kimi əməl etməyim üçün mənə yardımçı ol. Övladlarımı mənim üçün saleh əməl sahibi buyur. Həqiqətən, mən sənə doğru qayıtmışam, müsəlmanlardan, təslim olanlardanam."**

### Nöqtələr

"Kürəh" sözü daxili, "kərəh" sözü xarici çətinlik mənasını bildirir.[2] "Əvzini" dedikdə bir işin görülməsi üçün eşq-əlaqə mənası nəzərdə tutulur. Belə bir eşq-əlaqə ilahi tövfiq adlanır.

---

[1] " Yusuf", 101

[2] "Mufrədate-rağib"

Validedeynə ehsan Allah nəzərində xüsusi dəyərə malik bir işdir. Quranda "vəssəyna" (tövsiyə etdik) sözü beş yerdə işlədilmişdir və onun üçü valideynlə bağlıdır.[1]

Bu ayədə insanın 40 yaşadək keçdiyi dövrlərə işarə olunmuşdur. Qırx yaş fiziki baxımdan ən kamil dövr sayılır.

Ayədən məlum olur ki, ən qısa hamiləlik dövrü altı aydır. Əgər qeyd olunan otuz ay müddətindən iki il süd vermə dövrü çıxılarsa, altı ay qalar.

Hamiləliyin, doğuşun və südvermə dövrünün çətinlikləri anaya xüsusi haqq vermişdir və ona daha çox ehsan etmək lazımdır.

## Bildirişlər

1. Valideynə ehsan bütün səmavi dinlərin diqqət mərkəzində olmuşdur.
2. Valideynə ehsan hər bir ata-ananın övlad boynundakı insanlıq haqlarındandır.
3. Valideynə ehsan üçün onların müsəlman olması şərt deyil.
4. Ailə bünövrəsinin möhkəmliyi və valideyn məqamının qorunması Allahın diqqət yetirdiyi məsələlərdəndir.
5. Valideynə təkcə infaq, yardım və ehtiram yox, hər növ yaxşılıq etmək zəruridir. ("Ehsana" sözü qeyri-müəyyən formada işlədildiyindən bütün ehsanları əhatə edir.)
6. Valideynə zəruri həddə yox, layiqincə ehsan edilməlidir. ("İhsanən" sözündəki tənvin əzəmət göstəricisidir)
7. Valideynin keçmiş zəhmətlərinə diqqət insanın bu yoldakı istiqamətlərini asanlaşdırır.
8. Valideynə ehsanın kamilliyi onun bilavasitə həyata keçirilməsindədir.
9. Ona zəhmətlərinin yada salınması övladlıq hisslərini oyadır.
10. Ananın haqqı atadan çoxdur. Valideyndən danışıldıqdan sonra ananın zəhmətləri yada salınır.
11. Bütün ilahi göstərişlərin, əmr və qadağaların dəlil və fəlsəfəsi var. Amma bəzi dəlillər, o cümlədən valideynə ehsanın dəlilləri bəyan olunmuşdur.
12. Qırx yaş insan təkamülünün və gücünün zirvə həddidir.
13. Allaha şükür üçün Onun yardım və tövfiqinə ehtiyac var.
14. Bəzi nemətlər insana valideynlər və ata-babalar yolu ilə çatır.
15. Fiziki yetkinlik mənəvi yetkinlik üçün zəmindir.
16. Allahın valideynə verdiyi nemətlərə görə övladın şükür etməsi bir növ valideynə ehsandır.
17. Ən üstün şükür yaxşı iş görməkdir.
18. Saleh əməlin dəyəri onun ardıcıllığındadır.
19. Xalisanə, Allahın razılığına uyğun saleh əməl dəyərə malikdir.
20. Saleh nəsil valideyn üçün bir iftixardır.
21. Əgər insan öz duasında həm valideyni, həm də övladları yadda saxlayırsa, bu dua daha üstündür.

---

[1] "Ənkəbut", 8; "Loğman", 14; hazırkı ayə

22. Allaha və valideynə münasibətdə yol verdiyimiz nankorluqlara diqqətli olaq və bunun əvəzini çıxaq.

23. Müsəlman qalmaq və müsəlman ölmək pakların və salehlərin duasıdır.

***Ayə 16:***

﴿أُوْلَئِكَ ٱلَّذِينَ نَتَقَبَّلُ عَنْهُمْ أَحْسَنَ مَا عَمِلُواْ وَنَتَجَاوَزُ عَن سَيِّئَاتِهِمْ فِي أَصْحَابِ ٱلْجَنَّةِ وَعْدَ ٱلصِّدْقِ ٱلَّذِي كَانُوا يُوعَدُونَ﴾

**"Ən üstün əməllərini qəbul edəcəyimiz, pis işlərindən keçəcəyimiz, behişt əhli zümrəsində olan kəslər bunlardır. Bu daim onlara vəd olunmuş həqiqətdir."**

## Nöqtələr

Əməllərin qəbul dərəcələri var:

a) Adi qəbul; "Maidə" surəsinin 28-ci ayəsində buyurulur ki, yalnız təqva əhlindən qəbul olunar.

b) Yaxşı qəbul; "Ali-İmran" surəsinin 37-ci ayəsində buyurulur ki, Allah-taala Məryəmi gözəl şəkildə qəbul etdi.

v) Üstün qəbul; Hazırkı ayədə dua edirik ki, Allah bizi ən üstün şəkildə qəbul etsin.

Əgər insanın əməlləri Allah-taala tərəfindən qəbul olunmasa, Kəbə tikmək də faydasızdır. Həzrət İbrahim Kəbə sütunlarını ucaldarkən qürrələnmədi, əksinə bu əməlin qəbul olunması üçün dua etdi.[1]

Əməllərin mərtəbələri, dərəcələri var: vacib, haram, müstəhəb, məkruh və mubah əməllər. Allah-taala qiyamət günü bu beş əməldən ən üstünləri olan vacib və müstəhəb əməlləri möminlərdən qəbul edər. Onların məkruh və haram işləri bağışlanar, mübah əməllər nə rədd edilər, nə də qəbul olunar.[2]

Yalnız verdiyi vədə diqqətsiz, tələsik vəd verən, verdiyi vədi yerinə yetirmək gücündə olmayanlar sonradan peşiman olur. Amma Allah-taalada bu səciyyələrin heç biri yoxdur.

## Bildirişlər

1. Əməlin dəyəri onun qəbul olunmasındadır.
2. Valideynə ehsan və Allaha təşəkkür saleh əməllərin qəbulu üçün zəmindir.
3. Allah dərgahında günahkar da bağışlana bilər.
4. Valideynə ehsan və Allaha təşəkkür bağışlanmaq üçün zəmindir.
5. Valideynə ehsan və Allaha təşəkkür behiştin açarıdır.
6. Allahın vədi dəyişməzdir.
7. Peyğəmbərlər və onların canişinləri Allahın göstərişlərini və vədlərini ardıcıl şəkildə xalqa çatdırmışlar.

---

[1] "Bəqərə", 127

[2] "Təfsiri-məcməül-bəyan"; "Təfsiri-əl mizan"

*Ayə 17:*

﴿وَٱلَّذِي قَالَ لِوَالِدَيْهِ أُفٍّ لَّكُمَا أَتَعِدَانِنِي أَنْ أُخْرَجَ وَقَدْ خَلَتْ ٱلْقُرُونُ مِن قَبْلِي وَهُمَا يَسْتَغِيثَانِ ٱللَّهَ وَيْلَكَ ءَامِنْ إِنَّ وَعْدَ ٱللَّهِ حَقٌّ فَيَقُولُ مَا هَٰذَا إِلَّا أَسَاطِيرُ ٱلْأَوَّلِينَ﴾

**"Valideynine "uff size, məndən öncə neçə nəsillər gəlib-getdiyi halda gordan xaric olacağımımı vəd edirsiniz" deyən kəsə valideynləri Allahı dada çağıraraq deyər: "Vay olsun sənə! İman gətir, şübhəsiz, Allahın vədi haqdır." O isə deyər: "Bu keçmişlərin əfsanəsindən savayı bir şey deyil."**

*Ayə 18:*

﴿أُوْلَٰئِكَ ٱلَّذِينَ حَقَّ عَلَيْهِمُ ٱلْقَوْلُ فِي أُمَمٍ قَدْ خَلَتْ مِن قَبْلِهِم مِّنَ ٱلْجِنِّ وَٱلْإِنسِ إِنَّهُمْ كَانُواْ خَاسِرِينَ﴾

**"Onlar özlərindən əvvəlki kafir cin və insanlarla Allahın qəti əzabına düçar olacaq kəslərdir. Şübhəsiz, onlar ziyankardırlar."**

## Nöqtələr

"Uff" zara gəlməyin və narazılığın elanı mənasında işlənir.

Ötən ayədə valideynə ehsanın, Allaha imanın, ilahi nemətlər müqabilində şükrün təsirlərindən danışıldı. Bu ayədə isə pis övladın çöhrəsi təsvir olunur. Bu yolla yaxşı və pis övladların danışıq və rəftarları arasında müqayisə aparmaq olar.

Axirət aləmində insanların həşri dedikdə onların eyni zaman və məkanda məhşur olması, səhnəyə gətirilməsi nəzərdə tutulur. Əgər ölülər fərqli bir vaxtda ayağa qaldırılsaydı kafir övladlar valideynlərinə "bəs keçmişdəki qövmlər nə üçün dirilmədi" deyərdi.

Məada, ölümdən sonrakı həyata inanmayan insan öz istedadlarını və ixtiyarına verilənləri ötəri məqsədlər yolunda heç nəyə satmışdır. Belələri qiyamətdə əliboş qalıb peşimanlıq çəkəsidir.

## Bildirişlər

1. Pis övlad öz valideyni ilə kobud danışır. Amma imanlı və canıyanan valideyn övladının hidayəti üçün həm Allahdan yardım diləyir, həm də onu yaxşılığa çağırıb, pislikdən çəkindirir.

2. Adətən axirəti inkar edənlərin nə dəlili, nə də ədəbi olur.

3. Övlad azad və müstəqildir, əməllərinə görə məsuliyyət daşıyır. Onun büdrəmələrini valideynə aid etmək olmaz.

4. Valideyn müsbət nəticə verməsə belə övladlarını tərbiyə etməyə borcludur.

5. Valideyn övladlarının maddi ehtiyaclarını ödəməyə borclu olduğu kimi mənəvi inkişafı üçün də məsuldur.

6. Valideyn axirət və işin sonunu xatırlatmaqla övladlarını tərbiyə etməlidir.

7. Axirətə etiqadsızlıq övladın valideynə münasibətdə hörmətsizliyinə səbəb olur.

8. Axirəti inkar edənlər mömінləri mürtəce və mühafizəkar, özlərini yenifikirli sayırlar.

9. Axirətin inkarı və valideynlə pis rəftar axirət əzabı ilə sonuclanır.

10. Məadın inkarı cinlər və insanlar arasında qədimdən müşahidə olunmuşdur.

11. Övladların küfr üzərində dayanması valideynlərin onlar haqqındakı dualarının qəbuluna mane olur.

12. Allahın sünnəsi bütün azğınlara münasibətdə eynidir.

13. Cinlərin də insanlar kimi vəzifəsi, mədəniyyəti, həyat və ölümü, hesab-kitabı, mükafat və cəzası var.

14. Axirətin inkarı və düşüncə azğınlığı ağır xəsarətdir.

15. Xırda bir sözlə valideynə qarşı kobudluq böyük günahdır və insanı ziyana salır. Belə bir hal Quranda məzəmmət edilir.

*Ayə 19:*

﴿وَلِكُلٍّ دَرَجَاتٌ مِّمَّا عَمِلُوا وَلِيُوَفِّيَهُمْ أَعْمَالَهُمْ وَهُمْ لَا يُظْلَمُونَ﴾

**"Onların (cin və insanların, keçmişdəkilərin və gələcəkdəkilərin) hər biri üçün əməllərinin əvəzi kamil verilsin və onlara sitəm qılınmasın deyə gördükləri işlərə görə dərəcələr var."**

**Nöqtələr**

"Və fi" sözündən olan "liyuvəffiyyəhum" sözü tam şakildə almaq mənasını bildirir. Yəni qiyamət günü fərdlərin mükafat və cəzaları dərəcələr üzrə tam şəkildə verilər.

İnsanın dünya həyatında yetərincə cəzalandırılması və ya mükafatlandırılması mümkünsüzdür. Çünki dünya həyatında məhdudiyyətlər var və birinə verilən cəza o birinə təsir edir, ətrafdakıların narahatlığına səbəb olur. Axı milyonlarla insanı cəhalət, şirk, təfriqə, fəsad və azğınlıqdan xilas edən Peyğəmbəri (s) necə mükafatlandırmaq olar?! Müxtəlif qidalar, geyimlər və rifah vasitələri bu dünyanın ən böyük nemətləridir. Amma uyğun nemətlərdən azğınlar da faydalandığı üçün onları əhəmiyyətli saymaq olmaz. Minlərlə insanı qətlə yetirib, əzab-əziyyətlərə salan cəlladları da dünyada yetərincə cəzalandırmaq olmur. Belələrini edam etmək də kiçik cəzadır.

**Bildirişlər**

1. İlahi dərəcələr insanın əməllərindən asılıdır.

2. Qiyamətdə dərəcələr və rütbələr insanın əməlləri əsasında təyin olunur.

3. Qiyamətin bərpa məqsədlərindən biri əməllərin dəyərləndirilməsidir.

4. Qiyamət möminlər üçün mükafat, günahkarlar üçün cəzadır.

5. Zaman əməlləri məhv etmir, hər bir əməl qiyamət günü kamil şəkildə təcəssüm edir.

*Ayə 20:*

**﴿وَيَوْمَ يُعْرَضُ ٱلَّذِينَ كَفَرُواْ عَلَى ٱلنَّارِ أَذْهَبْتُمْ طَيِّبَاتِكُمْ فِي حَيَاتِكُمُ ٱلدُّنْيَا وَٱسْتَمْتَعْتُم بِهَا فَالْيَوْمَ تُجْزَوْنَ عَذَابَ ٱلْهُونِ بِمَا كُنتُمْ تَسْتَكْبِرُونَ فِي ٱلْأَرْضِ بِغَيْرِ ٱلْحَقِّ وَبِمَا كُنتُمْ تَفْسُقُونَ﴾**

**"(Yada sal) Kafirlər oda salınacaqları gün (onlara deyilər) siz dünya həyatında bəyəndiyiniz nemətləri tələf etdiniz və onlaradan ləzzət aldınız (bu gününüz üçün ehtiyat saxlamadınız). Yer üzündə haqsız təkəbbürünüzə və daim günaha yol verdiyinizə görə bu gün zəliledici əzabla cəzalandırılırsınız."**

### Nöqtələr

İnsan əldən çıxardığı imkanlara və nemətlərə görə elə ölüm anından təəssüf etməyə başlayır. Həzrət Əli (ə) "Nəhcül-bəlağədə" ölüm anı haqqında buyurur: "İnsan son anda ömrünü tələf etdiyi barədə düşünür.[1]

Bəzi Quran ayələrində uyğun hal təsvir olunur və buyurulur ki, insan ölüm anı deyər: "Var-dövlətim mənə fayda vermədi, gücüm-qüvvəm əldən çıxdı."[2]

Bu ayədə də insanlara bildirilir ki, onlar pak nemətləri tələf etdilər, ehtiyat saxlamadılar.

Qiyamətdə bəzən günahkarlar cəhənnəmə, bəzən isə cəhənnəm günahkarlara təklif olunur.[3] Başqa bir mərhələdə günahkarlar cəhənnəmə atılır.[4]

### Bildirişlər

1. Qiyamətdə günahkarlar üçün növbə-növ fiziki və mənəvi işgəncələr var. (Günahkarların cəzalandırılması məzəmmət və təhqirlə müşayiət olunur)
2. Pak nemətlər insana halaldır.[5] Amma bu nemətlərin azğın nəfs istəkləri yolunda sərf edilməsi xəsarətdir.
3. Dünyadakı təkəbbürün cəzası axirətdə alçalmadır.
4. Təkəbbür günahın və haqdan uzaqlığın müqəddiməsdir.
5. Daxili təkəbbür zahirdə pis əməllərə səbəb olur.

### *Ayə 21:*

**﴿وَٱذْكُرْ أَخَا عَادٍ إِذْ أَنذَرَ قَوْمَهُ بِالْأَحْقَافِ وَقَدْ خَلَتِ ٱلنُّذُرُ مِن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ أَلَّا تَعْبُدُواْ إِلَّا ٱللَّهَ إِنِّي أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ عَظِيمٍ﴾**

**"Əhqaf məntəqəsində haqqı xatırlatdığı vaxt Ad qövmünün qardaşının (Hudun) başına gələnləri yada sal. Hansı ki, ondan qabaq da, sonra da xəbərdarlıq edənlər vardı. (O insanlara dedi) Allahdan başqasına pərəstiş etməyin, mən sizin üçün böyük günün əzabından qorxuram."**

---

[1] "Nəhcül-bəlağə", xütbə 109
[2] "Haqqə", 28, 29
[3] "Kəhf", 100
[4] "Haqqə", 30, 31
[5] "Maidə", 4

### Nöqtələr

"Həqəf" sözündən olan "əhqaf" sözü narın qum mənasını bildirir. Bu qumsal məntəqə Ərəbistanın cənubunda, Yəmən, Oman və Ədən arasında yerləşir. Ad qövmü həmin məntəqədə yaşamışdır.[1]

"Əxa ad", yəni "ad qardaşı" ifadəsi ya peyğəmbərin Ad qövmünə qohumluq bağlılığını, ya da peyğəmbərlərin xalqların hidayətinə canıyananlığını göstərir.

"Nurus-səqələyn" təfsirində oxuyuruq: Abbasi Mötəsimin dövründə su təchizatı üçün İraqın Bətainiyyə məntəqəsində quyu qazıldı. Quyunu nə qədər dərin qazdılarsa da, su çıxmadı. Mutəvəkkilin dövründə yenidən quyu qazmağa başladılar. Quyunun təkində daş parçasına çatdılar. Daşı sındırdıqları vaxt soyuq bir külək qopdu və adamlardan bir qismi həlak oldu. İmam Hadidən (ə) həmin hadisə haqqında soruşulduqda həzrət buyurdu: "Həmin yer Əhqafdır və Hudun müşrik qövmü orada yaşamışdır. Onları soyuq külək məhv etmişdir.

### Bildirişlər

1. Keçmişin tarixi ilə tanışlıq və mühüm tarixi hadisələrin yada salınması insanlar üçün dərs, ibrətdir.
2. Peyğəmbərlər insanlarla qardaşcasına rəftar etmişlər.
3. Tarixin bəyanında yersiz müqəddimələrdən çəkinmək, hərəkətlərin, təkamül və süqutların mahiyyətini bəyan etmək lazımdır.
4. Peyğəmbərlər azğınlarla xəbərdarlıq üslubunda danışmışlar.
5. Peyğəmbərlər ilkin olaraq öz ətrafındakılara və öz qövmlərinə müraciət etmişlər.
6. Çətin coğrafi şərait və qeyri münasib mühit peyğəmbərlərin işinə mane olmamışdır.
7. Çoxsaylı peyğəmbərlər göndərmək Allahın sünnəsi, qanunlarındandır.
8. Təkallahçılığa çağırış peyğəmbərlərin şüarı olmuşdur.
9. İşin aqibətini və gələcəyi yada salmaq ən üstün dəvət üsuludur.

***Ayə 22:***

**﴿قَالُوٓاْ أَجِئۡتَنَا لِتَأۡفِكَنَا عَنۡ ءَالِهَتِنَا فَأۡتِنَا بِمَا تَعِدُنَآ إِن كُنتَ مِنَ ٱلصَّٰدِقِينَ﴾**

**"(Ad qövmü həzrət Huda) Dedilər: "Sorağımıza gəlmisən ki, bizi məbudlarımızdan ayırasan? Əgər doğru danışanlardansansa, vəd etdiyini göstər."**

***Ayə 23:***

**﴿قَالَ إِنَّمَا ٱلۡعِلۡمُ عِندَ ٱللَّهِ وَأُبَلِّغُكُم مَّآ أُرۡسِلۡتُ بِهِۦ وَلَٰكِنِّيٓ أَرَىٰكُمۡ قَوۡمٗا تَجۡهَلُونَ﴾**

**"Hud dedi: "(Qiyamətin vaxtı ilə bağlı) Elm yalnız Allaha məxsusdur və sizə yalnız mənə tapşırılanı bəyan edirəm. Amma sizi cahil bir qövm kimi görürəm."**

---

[1] "Əl-təhqiq fi kələmatil-Quran"

### Bildirişlər

1. Peyğəmbərlər xalqın müraciətini gözləmir, özləri onların sorağınca gedirdilər. Onlar adətən həvəslə qarşılanmırdılar.

2. Şirk və bütpərəstlik bəzən o qədər haqlı görünür ki, təkallahçılıq azğınlıq sayılır.

3. Təbii (təkvini) həqiqətlərdən xəbərdarlıq yalnız Allaha məxsusdur.

4. Peyğəmbərlərin də bilmədikləri olub və onlar bunu etiraf ediblər. (Bəzən "bilmirəm" də demək lazımdır.)

5. Peyğəmbərlərin vəzifəsi ilahi risaləti çatdırmaqdır.

6. Həqiqət barədə düşünmək əvəzinə tələsik əzab istənilməsi cəhalət və nadanlıq nişanəsidir.

*Ayə 24:*

﴿فَلَمَّا رَأَوْهُ عَارِضًا مُّسْتَقْبِلَ أَوْدِيَتِهِمْ قَالُوا هَٰذَا عَارِضٌ مُّمْطِرُنَا بَلْ هُوَ مَا
ٱسْتَعْجَلْتُم بِهِ رِيحٌ فِيهَا عَذَابٌ أَلِيمٌ﴾

**"Məmləkətlərinə üz tutmuş bulud topasını görüb dedilər: "O yağışlı bir buluddur." (Hud dedi: belə deyil) O tələsik istədiyiniz əzabdır. Ağrılı əzabla dolu bir külək!"**

*Ayə 25:*

﴿تُدَمِّرُ كُلَّ شَيْءٍ بِأَمْرِ رَبِّهَا فَأَصْبَحُوا لَا يُرَىٰ إِلَّا مَسَاكِنُهُمْ كَذَٰلِكَ نَجْزِي ٱلْقَوْمَ
ٱلْمُجْرِمِينَ﴾

**"(Həmin külək) Rəbbinin əmri ilə hər şeyi bir-birinə vurar. Sübhi bir halda açdılar ki, evlərindən savayı bir şey görünmürdü. Günahkarları belə cəzalandırarıq."**

### Nöqtələr

"Ariz" deyərkən səmada görünən bulud topası nəzərdə tutulur. Belə bir bulud topası bütün üfüqü tutur. "Əvdiyə" sözü dərə və sükunət məhəlli mənasını bildirən vadi sözünün cəm formasıdır.

"Tudəmmir" sözü "tədmir" sözündən olub məhv etmək mənasını bildirir.

Uzun müddət quraqlığın acısını yaşamış Ad qövmü yağış intizarında idi. Onlar ilk öncə bulud topalarını görüb sevindilər. Sonra anladılar ki, gördükləri görüşünə tələsdikləri əzab bulududur.

### Bildirişlər

1. Yalnız xəbərdarlıq başa çatdırıldıqdan, höccət tamamlandıqdan sonra Allahın əzabı nazil olur.

2. Bəzi buludlar yağışlı olmur, təhlükəli tufan və küləklər gətirir. Müşriklər buludları görüb, onların yağışlı olduğunu düşünsələr də, həzrət Hud əzab buludlarının yaxınlaşdığını bildirdi.

3. Təbiət Allahın həm lütfü, həm də qəzəbi üçün vasitədir.[1]

4. Böyük əzab təkcə axirətə aid deyil. Dünyada da bu qəbil əzablar nazil ola bilər.

5. Allahın qəzəbi nazil olan yerdə onun qarşısını alacaq heç nə yox.

6. Buludlar nizamsız yox, Allahın əmri ilə hərəkət edir.

7. Günahkarlardan qalan nişanələr ibrət sərgisidir.

8. Günahkarların darmadağın edilməsi ilahi sünnə, qanundur.

9. İnsanları məhv edən onların öz əməl və rəftarlarıdır.

*Ayə 26:*

﴿وَلَقَدْ مَكَّنَّاهُمْ فِيمَآ إِن مَّكَّنَّاكُمْ فِيهِ وَجَعَلْنَا لَهُمْ سَمْعًا وَأَبْصَارًا وَأَفْئِدَةً فَمَا أَغْنَى عَنْهُمْ سَمْعُهُمْ وَلَا أَبْصَارُهُمْ وَلَا أَفْئِدَتُهُم مِّن شَيْءٍ إِذْ كَانُوا يَجْحَدُونَ بِآيَاتِ ٱللهِ وَحَاقَ بِهِم مَّا كَانُوا بِهِ يَسْتَهْزِؤُونَ﴾

**"Həqiqətən, onlara (Ad qövmünə) sizə vermədiyimiz imkanları vermişdik. Onlara qulaq, göz və qəlb verdik. Amma qulaqlarının, gözlərinin və qəlblərinin onlara faydası olmadı. Allahın ayələrini daim inkar edirdilər. (Nəhayət) Məsxərəyə qoyduqları əzab onları yaxaladı."**

**Bildirişlər**

1. İmkan əldə etmək üçün çalışmaq lazımdırsa da, bütün imkanlar Allahın əlindədir.

2. Super güclərin darmadağın edildiyini görənlər özləri üçün nəticə çıxarmalıdır.

3. İmkan, var-dövlət inkişaf səbəbi olmaya da bilər.

4. İnsan nəsihət qəbul etmək istəməsə, maddi və fiziki imkanların heç bir faydası yoxdur.

5. İstənilən bir imkan saleh insanın əlində dəyərlidir. Başqaları ixtiyarlarındakı imkanlardan istifadə etməklə ətrafdakılara əzab-əziyyət verir.

6. Kafirlərin inkar və istehzası onların məhvinə səbəb olur.

7. Allah insanların rəftarına münasib cəza verir.

*Ayə 27:*

﴿وَلَقَدْ أَهْلَكْنَا مَا حَوْلَكُم مِّنَ ٱلْقُرَى وَصَرَّفْنَا ٱلْآيَاتِ لَعَلَّهُمْ يَرْجِعُونَ﴾

**"Həqiqətən, ətrafınızdakı abadlıqları məhv etdik və ayələrimizi müxtəlif şəkillərdə bəyan etdik ki, bəlkə (batildən) dönələr."**

**Bildirişlər**

---

[1] "Hicr", 22

1. Xəbərdarlıq başa çatdıqdan sonra Allahın qəzəbi nazil olur.
2. Bizə yaxın qövmlərin tarixini mütaliə edək. Belə bir mütaliə daha təsirlidir.
3. Təbliğat çeşidli olmalıdır.
4. İnsanın təkamülü fitrət və Allah yoluna qayıdışdadır.

*Ayə 28:*

﴿فَلَوْلَا نَصَرَهُمُ ٱلَّذِينَ ٱتَّخَذُوا۟ مِن دُونِ ٱللَّهِ قُرْبَانًا ءَالِهَةًۢ بَلْ ضَلُّوا۟ عَنْهُمْ وَذَٰلِكَ إِفْكُهُمْ وَمَا كَانُوا۟ يَفْتَرُونَ﴾

**"Yaxınlıq üçün Allahın əvəzinə seçdikləri məbudlar nə üçün onlara yardım etmədi? Əksinə, onların yanından yox oldular. Budur onların azğınlıqları və uydurduqları."**

**Bildirişlər**

1. Uydurma məbudların təsirsizliyindən ibrət götürmək lazımdır.
2. İnsanda Allaha doğru fitri bir cazibə var. Hətta bütpərəstlər Allaha yaxınlaşmaq üçün öz bütlərini vasitə sayırlar.
3. Elə birinə sığınaq ki, çətin gündə hazır və fəal olsun.
4. Bütlərin yardımı puç xəyal və əsassız mövhumatdır.

*Ayə 29:*

﴿وَإِذْ صَرَفْنَآ إِلَيْكَ نَفَرًا مِّنَ ٱلْجِنِّ يَسْتَمِعُونَ ٱلْقُرْءَانَ فَلَمَّا حَضَرُوهُ قَالُوٓا۟ أَنصِتُوا۟ فَلَمَّا قُضِىَ وَلَّوْا۟ إِلَىٰ قَوْمِهِم مُّنذِرِينَ﴾

**"Bir vaxt cinlərdən bir qrupunu Quranı dinləsinlər deyə sənə doğru göndərdik. Dinləməyə hazır olduqda dedilər: "Sakit olun (və qulaq asın) elə ki, (dinləmələri) başa çatdı qövmlərinə xəbərdarlıq üçün onların yanına qayıtdılar."**

**Nöqtələr**

Quranla tanışılıq insanın baxışını aydınlaşdırır və genişləndirir. Quran buyurur ki, şüur və iradə sahibi təkcə insan deyil. Deməк, eyni şəraitdə daha çox gücə malik varlıqlar da mövcuddur.

Olsun ki, bu ayədə özünü ağıllı sayan müşrik və azğın insanlara etiraz olunur. Onlar ilahi ayələrə iman gətirmədikləri halda cinlər ayələri eşidən kimi iman gətirdilər və təbliğatçı oldular.

**Bildirişlər**

1. Varlıq aləminin ixtiyarı Allahın əlindədir. (Allah istədiyi vaxt hərəkət yolları dəyişir)
2. Cinlər də insanlar kimi ağıl sahibidirlər məsuliyyət daşıyırlar. Seçim aparmaq gücü olan cinlər həm də öz həmnövlərini dəvət edə bilir.
3. Cinlər də anlayır ki, Quranı dinləyən vaxt susmaq lazımdır.

4. Haqqı tanıdıqdan sonra addım atmaq lazım gəlir.

5. Təbliğə yaxınlardan başlamaq lazımdır.

6. İnsanda dinləmək istedadı və sözü qəbul üçün hazırlıq olduqda bir neçə ayə və xəbərdarlıq da təsir göstərir.

7. Cinlər də ictimai bir həyat yaşayır.

***Ayə 30:***

**﴿قَالُواْ يَا قَوْمَنَآ إِنَّا سَمِعْنَا كِتَابًا أُنزِلَ مِن بَعْدِ مُوسَى مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ يَهْدِي إِلَى ٱلْحَقِّ وَإِلَى طَرِيقٍ مُّسْتَقِيمٍ﴾**

**"Dedilər: "Ey qövmümüz! Həqiqətən, biz Musadan sonra nazil olmuş, özündən əvvəlki kitabları təsdiqləyən bir kitabdan eşitdik. Bu kitab insanları haqqa, doğru yola hidayət edir."**

**Bildirişlər**

1. Bəşəriyyətin peyğəmbəri həm də cinlərin peyğəmbəridir. Bir qrup cin dini, peyğəmbər ayinlərini öz cəmiyyətlərində təbliğ etməyə vəzifəlidir.

2. Cinlər peyğəmbərlərin tarixindən və səmavi kitablardan xəbərdardırlar.

3. Cinlər səmavi kitabın mahiyyətindən agahdırlar.

4. Səmavi kitablar arasındakı uyğunluq onların haqq olduğunu göstərir.

5. Cinlər ayələri eşidib haqqı anladılar. Amma insanlar, Əbu-Cəhl və Əbu-Ləhəb kimi şəxslər bir ömür Peyğəmbərlə (s) yaşasalar da haqqı anlamadılar.

6. Haqq yol doğru, ifrat və təfritdən uzaq orta yoldur.

***Ayə 31:***

**﴿يَا قَوْمَنَآ أَجِيبُواْ دَاعِيَ ٱللَّهِ وَءَامِنُواْ بِهِ يَغْفِرْ لَكُم مِّن ذُنُوبِكُمْ وَيُجِرْكُم مِّنْ عَذَابٍ أَلِيمٍ﴾**

**"Ey qövmümüz! İlahi dəvətçini qəbul edin, ona iman gətirin ki, Allah günahlarınızı bağışlasın, sizi ağrılı əzabdan amanda saxlasın."**

**Nöqtələr**

Quranda iman, tövbə, yaxşı borc, təqva Allahın mərhəmətini cəlb edən amillər kimi tanıtdırılır.

Bu ayədə tövhid, nübüvvət, məad kimi bütün əqidə əsaslarına işarə olunmuşdur.

**Bildirişlər**

1. Dini təbliğatda mərhəmət hisslərindən və ictimai bağlılıqlardan bəhrələnək.

2. Peyğəmbərlər xalqı özlərinə yox, Allaha doğru çağırırlar.

3. Təbliğdə və yaxşılığa çağırışda uyğun əməllərin təsirlərini bəyan edək.

4. İman küfr və şirk kimi bəzi günahları yuyur. Xalqın tapdanmış haqları isə başqadır, onları ödəmək lazımdır.

5. Cinlər də insanlar kimi məsuliyyət daşıyır. İtaət etməyən cinlər günahkar sayılır və Allahın qəzəbinə gəlir.

*Ayə 32:*

**﴿وَمَن لَّا يُجِبْ دَاعِيَ ٱللهِ فَلَيْسَ بِمُعْجِزٍ فِي ٱلْأَرْضِ وَلَيْسَ لَهُ مِن دُونِهِ أَولِيَآءُ أُوْلَئِكَ فِي ضَلَالٍ مُّبِينٍ﴾**

**"Hər kəs Allahın çağırışçısına cavab verməsə yer üzündə (ilahi əzabın) qarşısını ala bilməz. Onun Allahdan savayı heç bir yardımçısı olmayacaq. Onlar aşkar azğınlıqdadırlar."**

**Bildirişlər**

1. Cinlərin seçim qüvvəsi və ixtiyarı var.
2. Təşviq və hədə yanaşı olamlıdır.
3. Küfr insanı çıxılmaz vəziyyətə salır. İnsan nə özü qaçıb qurtara bilir, nə də başqasına yardım gücündə olur.
4. Allah yolundan savayı bütün yollar aşkar azğınlıqdır.

*Ayə 33:*

**﴿أَوَلَمْ يَرَوْاْ أَنَّ ٱ اللهَ ٱلَّذِي خَلَقَ ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضَ وَلَمْ يَعْيَ بِخَلْقِهِنَّ بِقَادِرٍ عَلَى أَنْ يُحْيِيَ ٱلْمَوْتَى بَلَى إِنَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾**

**"Görmədinizmi ki, göyləri və yeri yaratmış və bu yaranışda aciz qalmamış Allah ölüləri dirildə bilər? Bəli, O hər işə qadirdir."**

**Nöqtələr**

"Ləm yəyə" sözü güc mənasını bildirən "əyy" sözündəndir.

Əgər bu ayəni cinlərin danışığının davamı saysaq, məlum olar ki, cinlər arasında da məadı inkar edənlər var.

**Bildirişlər**

1. Məadın mümkünlüyünü qəbul etmək üçün Allah-taalanın varlıq aləmindəki qüdrətini yada salaq.
2. Allahın qüdrəti mütləq və sonsuzdur.
3. Məadı inkar edənlər insanın dirildilməsini göylərin və yerin yaranışından çətinmi sayır?

*Ayə 34:*

**﴿وَيَوْمَ يُعْرَضُ ٱلَّذِينَ كَفَرُواْ عَلَى ٱلنَّارِ أَلَيْسَ هَذَا بِالْحَقِّ قَالُواْ بَلَى وَرَبِّنَا قَالَ فَذُوقُواْ ٱ لْعَذَابَ بِمَا كُنتُمْ تَكْفُرُونَ﴾**

**"Kafirlər oda salınan gün (onlara deyilər) bu (cəhənnəm) haqq deyilmi? Deyərlər: "And olsun Rəbbimizə, deyilən kimidir." (Allah onlara) Buyurar: Yol verdiyiniz küfrə görə əzabı dadın."**

**Nöqtələr**

20-ci ayədə də kafirlərin oda salınmasından danışıldı. Həmin ayədə kafirlər məzəmmət olundu ki, onlar dünyadakı nemətləri əldən verib ehtiyat saxlamadılar. Bu ayədə isə onlardan soruşulur: "Qiyamət haqq deyilmi?"

Kafirlər qiyamətdə Allahın rübubiyyətini və məhşər həqiqətini etiraf edər.

**Bildirişlər**

1. Qiyamətdə həm fiziki həm də psixoloji əzab var.
2. Qiyamətdə peşimançılıq və etirafın faydası yoxdur.

***Ayə 35:***

**﴿فَاصْبِرْ كَمَا صَبَرَ أُوْلُواْ ٱلْعَزْمِ مِنَ ٱلرُّسُلِ وَلَا تَسْتَعْجِل لَّهُمْ كَأَنَّهُمْ يَوْمَ يَرَوْنَ مَا يُوعَدُونَ لَمْ يَلْبَثُواْ إِلَّا سَاعَةً مِّن نَّهَارٍ بَلَاغٌ فَهَلْ يُهْلَكُ إِلَّا ٱلْقَوْمُ ٱلْفَاسِقُونَ﴾**

**"(Ey peyğəmbər) Ülul-əzm peyğəmbərlər səbir etdiyi kimi səbir et və onlar üçün tələsmə. Vəd ediləni görəcəkləri gün deyərsən (dünyada) bir saatdan artıq qalmayıblar. (Bu) Bir xəbərdarlıqdır. Fasiqlərdən savayı kim həlak olar?"**

**Nöqtələr**

"Əzm" sözü həm istək və iradə, həm əzəmət və şəriət mənalarını bildirir. "Ülul-əzm" dedikdə şəriət sahibi olan peyğəmbərlər nəzərdə tutulur.

Quranda peyğəmbərlərin səbri haqqında bir sıra ayələr var: "Həqiqətən, səndən öncəki peyğəmbərlər əziyyət və inkarla üzləşdilər. Amma Allahın qalibiyyəti çatınca səbir etdilər"; "(Peyğəmbərlərin) Hər biri səbirlilərdəndir."[1]

**Bildirişlər**

1. Kafirlərin İslam peyğəmbərinə (s) münasibətdə inadkarlığı, əzab-əziyyətləri o qədər dözülməz idi ki, o, Allahın təsəlli və tövsiyələrinə ehtiyac duyurdu.
2. Kafirlərin cəzalandırılmasının yada salınması möminlərdə səbir və sabitqədəmlik üçün zəmin yaradır.
3. İnsanın nümunəyə ehtiyacı var. İnsanın tərbiyə və inkişafında idealların xüsusi təsiri var.
4. Peyğəmbərlər eyni dərəcədə olmamışlar. Onlar səbir baxımından bir-birindən fərqlənir.

---

[1] "Ənam", 34; "Ənbiya", 85

5. İslam peyğəmbəri (s) də ülul-əzm peyğəmbərlərdəndir. Yoxsa ona həmin peyğəmbərlər kimi səbirli olmaq tapşırılmazdı.

6. Kafirlərin inadkarlığı və əziyyəti o qədər böyük idi ki, aləmlərə rəhmət olan bir kəs əzab istəməyə vadar olmuşdu.

7. Rəhbərin geniş qəlbi olmalıdır.

8. İnsanlara möhlət verməк Allahın sünnəsi, qanunudur.

9. Dünya həyatı axirətlə müqayisədə günün bir saatı kimidir.

10. Quran ən üstün təbliğ vasitəsi, bəyanın zirvəsidir.

11. Fisq fərd və cəmiyyətin məhvinə aparır.

## "MUHƏMMƏD" SURƏSİ

### *(47-Cİ SURƏ; 38 AYƏ)*

### *İYİRMİ ALTINCI CÜZ*

### *"MUHƏMMƏD" SURƏSİNİN SİMASİ*

38 ayədən ibarət olan bu surə Mədinədə nazil olmuşdur. Surənin adı onun 2-ci ayəsindən götürülmüşdür. Həmin ayədə əziz İslam peyğəmbəri (s) həzrət Məhəmmədin (s) adı zikr olunmuşdur.

İslam düşmənləri ilə savaş bu surədə bəyan olunmuş mühüm mövzulardan biridir. Bu səbəbdən də bəziləri həmin surəni "Qital" adlandırmışlar.

Surədə əsasən möminlər və kafirlərdən danışılır, bu iki qrupun dünya və axirətdəki vəziyyəti arasında müqayisə aparılır, Mədinədə təxribat yaradan münafiqcəsinə əməllər nəzərdən keçirilir. Müharibədə əsir düşənlərə münasibət, infaqa dəvət, düşmənlərin mədhi və onlarla saziş mövzuları hazırkı surədə nəzərdən keçirilən nöqtələrdir.

Hədisdə oxuyuruq: Biz Əhli-beytin (ə) və düşmənlərimizin halından xəbər tutmaq istəyən "Məhəmməd" surəsini tilavət etsin.[1]

Rəvayətlərdə qeyd olunur ki, əziz Peyğəmbər (s) məğrib namazında bu surəni oxuyarmış.[2]

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1:*

﴿ٱلَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ ٱللهِ أَضَلَّ أَعْمَالَهُمْ﴾

**"(Allah) Küfr edib (insanları) Allahın yolundan uzaqlaşdıranların əməllərini puça çıxardı."**

---

[1] "Təfsiri-məcməül-bəyan"

[2] "Təfsiri Mərağі"

## Nöqtələr

Qurani-kərimin 114 surəsi arasında 11 surənin birinci ayəsi düşmənlərə xəbərdarlıq və onların məzəmməti mövzusundadır:

1. "Ənam" surəsi: "Kafirlər Rəblərinə şərik qərar verirlər."
2. "Tövbə" surəsi: "Allah və Onun rəsulu kafirlərdən zara gəlmişlər."
3. "Əhzab" surəsi: "Ey peyğəmbər! Allahdan qorx, kafirlərə və münafiqlərə tabe olma."
4. "Muhəmməd" surəsi, hazırkı ayə.
5. "Mumtəhinə" surəsi: "Ey iman əhli! Mənim düşmənlərimi və öz düşmənlərinizi hami seçməyin."
6. "Munafiqun" surəsi: "Əgər münafiqlər sənin yanına gəlsələr..."
7. "Məaric" surəsi: "Münafiqlərdən və düşmənlərdən biri əzab istədi."
8. "Bəyyinə" surəsi: "Kitab əhlindən olan kafirlər və müşriklər onlara aydın dəlil gətirilsə belə öz küfr və şirklərindən əl çəkəsi deyil."
9. "Fil" surəsi: "Rəbbinin fil səhabələri ilə nə etdiyini görmədinmi?"
10. "Kafirun" surəsi: "Ey peyğəmbər! Kafirlərə de."
11. "Məsəd" surəsi: "Əbu-Ləhəbin əlləri kəsilsin."

"Allahın yolundan uzaqlaşdırırlar" cümləsi iki cür mənalandırıla bilər:

a) Özləri Allahın yolundan uzaqlaşırlar;

b) İnsanları Allahın yolundan uzaqlaşdırırlar.[1]

"Onların əməllərini puça çıxarar" cümləsi iki cür anlaşıla bilər:

a) Allah-taala kafir və müşriklərin yaxşı əməllərini (məsələn sədəqə və infaqlarını) onların küfrlərinə və xalqı azdırdıqlarına görə puça çıxarar. Belə ki axirət günü onların əməl naməsində yaxşı əməllər tapılmaz.

b) Allah-taala düşmənlərin İslama qarşı tələşlarını təsirsizləşdirər və düşmənlər məqsədlərinə çatmazlar.

Kafirlərin əməlləri puçdur. Bu məsələ Qurani-kərimdə bir neçə şəkildə bəyan olunmuşdur: "Kafirlərin əməlləri tufanlı gündə möhkəm küləyə düşmüş kül kimidir;"[2] "Kafirlərin əməlləri məhv olar;"[3] "Kafirlərin əməlləri təşnələrin su zənn etdiyi ilğım kimidir"[4]

## Bildirişlər

1. Psixoloji baxımdan bəzən təbliğata müqəddiməsiz başlamaq lazım gəlir.
2. Adətən, bir çaşqınlıq başqa bir çaşqınlığa səbəb olur. Bəziləri öncə küfrə yol verir, sonra başqalarının imanına mane olur.
3. Kafirlərin tələşları faydasız qalar. Onların səylərinin nəticəsi yoxdur. İnsanlar gec ya tez həqiqəti anlayacaqlar.
4. Allah yolunun düşmənləri var və bu düşmənlər bir yerdə oturmur.
5. Əməllərin puça çıxması kafirlər üçün bir növ əzabdır.

---

[1] "Təfsiri-məxzənul-irfan"

[2] "İbrahim", 18

[3] "Kəhf", 105

[4] "Nur", 39

### *Ayə 2:*

**﴿وَٱلَّذِينَ ءَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّالِحَاتِ وَءَ ءَامَنُواْ بِمَا نُزِّلَ عَلَى مُحَمَّدٍ وَهُوَ**
**ٱلْحَقُّ مِن رَّبِّهِمْ كَفَّرَ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَأَصْلَحَ بَالَهُمْ﴾**

**"Allah iman gətirib saleh işlər görənlərin, Məhəmmədə haqq olaraq Rəbləri tərəfindən nazil olana inananların pisliklərini pərdələyər, işlərini sahmana salar."**

## Nöqtələr

"Bal" sözü ya iş və hal, ya da ruh və qəlb mənasını bildirir.

"İman gətirib" təbirinin təkrarı göstərir ki, vəhyə iman Allaha iman çəkisində olmalıdır. Düzgün dünya görüşü və allahpərəstlik təklikdə bəs etmir, İslam peyğəmbərinin (s) risalətinə və onun şəriətinə inanmaq da lazımdır.

Saleh əməllər dedikdə təkcə xeyir işlər nəzərdə tutulmur. Çünki bütün saleh işləri görmək insanın imkanından xaricdir. Bu nöqtəni nəzərə alaraq buyurulur ki, insanların pis işləri aradan qaldırılar. Yəni nəzərdə tutulan insanın gücü həddində saleh iş görməsidir.

"Məhəmmədə nazil olan" dedikdə həm Quran, həm də peyğəmbər sünnəsi nəzərdə tutlur. Quranda buyurulur ki, Peyğəmbərin (s) sözləri nəfs istəklərinə əsaslanmır.[1]

Peyğəmbərə (s) namaz və oruc əmri gəldikdən sonra höccətül-vidada canişin təyin etmək göstərişi verildi.[2] Bu səbəbdən də ayədəki müjdə Peyğəmbərə (s) nazil olan bütün göstərişlərə iman gətirənlərə aiddir.

## Bildirişlər

1. İmanın dərəcələri, mərhələləri var.
2. İman və əməl bir-birindən ayrılası dəyərlər deyil.
3. İlahi göstərişlərə kamil itaətlə müşayiət olunan iman dəyərlidir.
4. Peyğəmbər göstərişlərinə itaət həqiqi ölçülərə əsaslanır.
5. Dini hökmlər və şəriət insanların tərbiyə və takamülü üçündür. (Allahın rübubiyyəti tələb edir ki, bəndələrin inkişafı və tərbiyəsi üçün həqiqi və nöqsansız proqram göndərilmişdir.)
6. İlahi vəhyə və göstərişlərə uyğunluq haqlılıq ölçüsüdür.
7. İslam peyğəmbəri (s) özündən bir söz deməyib. Onun söylədikləri bütünlüklə vəhydir.
8. İlahi lütfə çatmaq üçün iman təklidə bəs etmir, saleh əmələ və peyğəmbərə də ehtiyac var.
9. İman və saleh əməl keçmiş büdrəmələri aradan qaldırır, gələcəyi sığortalayır.
10. Küfr əməli puça çıxarır, iman və saleh əməl əməlləri islah edir.

---

[1] "Təfsiri-Fürqan"
[2] "Maidə", 67

11. Günahlar və pisliklər saleh əmələ mane olur. Öncə günahlardan uzaqlaşmaqla İslam üçün zəmin yaratmaq lazımdır.

12. Allah-taala kafirlərə xəbərdarlıq və möminlərə müjdə ilə Peyğəmbər (s) və iman əhlinə təsəlli verir.

*Ayə 3:*

﴿ذَٰلِكَ بِأَنَّ ٱلَّذِينَ كَفَرُواْ ٱتَّبَعُواْ ٱلۡبَٰطِلَ وَأَنَّ ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّبَعُواْ ٱلۡحَقَّ مِن
رَّبِّهِمۡ كَذَٰلِكَ يَضۡرِبُ ٱللَّهُ لِلنَّاسِ أَمۡثَٰلَهُمۡ﴾

**"Bu (iki növ aqibət) ona görədir ki, küfr edənlər batilə uymuş, iman gətirənlər Rəbbləri tərəfindən gələn haqqa itaət etmişlər. Allah-taala insanlar üçün bu sayağı hallarına uyğun hesab çəkir."**

**Nöqtələr**

Kafirlərin və möminlərin aqibətinin müqayisəsi və fərqləndirilməsi Quranın tərbiyə üsullarından biridir. Bu üsulla bir neçə ayədə ardıcıl şəkildə rastlaşırıq.

Bu ayədə haqq və batilə əsaslanan iman və küfr bir-birindən seçilmişdir. Belə bir fərqləndirmə Quranın müxaliflərlə rəftar məntiqini açıqlayır.

**Bildirişlər**

1. İnsanın yaxşı və ya pis aqibəti onun düşüncə və əməllərindən asılıdır.

2. Batilə meyl küfrə meyl üçün zəmindir.

3. Haqqa mane olan istənilən bir yol batil və əsassızdır. Haqq və batil arasında üçüncü yol yoxdur.

4. Batl insanlar, haqq Allah tərəfindəndir. Səmavi həqiqətlər puç deyil.

5. Quran haqqın bariz və aydın nümunəsidir. (Ötən ayədə bu məsələyə toxunuldu.)

6. İnsanın səadəti və bədbəxtliyi ilə bağlı misallardan istifadə Quranın tərbiyə üsuludur.

*Ayə 4:*

﴿فَإِذَا لَقِيتُمُ ٱلَّذِينَ كَفَرُواْ فَضَرۡبَ ٱلرِّقَابِ حَتَّىٰٓ إِذَآ أَثۡخَنتُمُوهُمۡ فَشُدُّواْ ٱلۡوَثَاقَ
فَإِمَّا مَنَّۢا بَعۡدُ وَإِمَّا فِدَآءً حَتَّىٰ تَضَعَ ٱلۡحَرۡبُ أَوۡزَارَهَا ذَٰلِكَ وَلَوۡ يَشَآءُ ٱللَّهُ لَٱنتَصَرَ
مِنۡهُمۡ وَلَٰكِن لِّيَبۡلُوَاْ بَعۡضَكُم بِبَعۡضٍ وَٱلَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ ٱللَّهِ فَلَن يُضِلَّ أَعۡمَٰلَهُمۡ﴾

**"Kafirlərlə (savaş meydanında) üzbəüz gəldiyiniz vaxt onları məğlub edincə boyunlarını vurun. (Sizə əsir düşsələr) Onları bərk-bərk bağlayın. Sonra ya (azad edərək) minnət qoyun, ya fidyə alaraq buraxın ki, savaşın ağır yükü yerə qoyulsun. Budur (Allahın göstərişi) və Allah istəsəydi (ildırım, zəlzələ və digər bəlalarla) həmin kafirlərdən intiqam alardı. Amma Allah (savaş əmri verdi ki) bəzilərinizi bəzileriniz vasitəsi ilə sınamaq istədi. Allah-taala Onun yolunda öldürülənlərin əməllərini heç vaxt puça çıxarmaz."**

## Nöqtələr

"Əsxəntumuhum" dedikdə düşmən üzərində tam qələbə mənası anlaşılır. "Və saq" sözü bağlamaq üçün ip kimi vasitə mənasını bildirir.

İslamda cihadın bir neçə fəlsəfəsi var: İnsanın özünü və başqa məzlumları müdafiə etməsi;[1] Fitnə-fəsadın qarşısını almaq məqsədi;[2] Tövhid mərkəzini qorumaq məqsədi;[3] İlahi hökm və hədlərin müdafiəsi;[4]

Bu ayə savaş meydanına aiddir. Yəni düşmənlər savaş meydanında sizi məhv etmək istədiyi vaxt qətiyyətlə vuruşun, onları öldürün. Tam qələbə çalıb düşmənin məğlubiyyətinə əmin olduqdan sonra onları əsir götürün və İslam rəhbərinin məsləhətinə uyğun onlarla davranın. Savaş başa çatdıqdan sonra fidyə almaqla və ya fidyəsiz onları azad edə bilərsiz.

Bəziləri elə güman etmişlər uyğun ayədə istənilən bir şəraitdə kafirlərin öldürülməsi əmr edilir. Belə bir qənaətə gələnlər "hərb və əsarət" sözlərinə lazımınca diqqət yetirməmişlər. Şübhəsiz ki, uyğun iki təbir müharibədən danışıldığını göstərir.

Ayədə savaşın sonunda fidyə alaraq və ya fidyəsiz əsirlərin azad edilməsi tapşırılır. Əsirlərin qul kimi saxlanılması zəruri sayılmamışdır. Yalnız İslam rəhbərinin göstərişi bunu zəruri edə bilər.

Peyğəmbərdən (s) Allah yolunda şəhid haqqında soruşuldu. Sual verənlər maraqlanırdılar ki, özünü göstərmək məqsədi, hər hansı təəssüblə vuruşub ölənlər şəhiddirmi? Həzrət buyurdu: "Şəhid Allah yolunu qorumaq üçün vuruşub öləndir."[5]

## Bildirişlər

1. Kafirlər arasından yalnız sizin qarşınızı kəsənləri aradan götürün.
2. Müsəlman döyüşçü təlim görmüş, hazırlıqlı və şücaətli olmalıdır.
3. Düşmənə hücumda məqsəd mühüm və həssas nöqtələri ələ keçirməkdir.
4. Nə qədər ki düşmən əldən düşərək təslim olmayıb, əsir götürmək və qənimət toplamaq fikrinə gəlməyin.
5. Savaşda möhkəm olun ki, düşmən sui-istifadə edə bilməsin, əsirlər qaçmasın.
6. Cəbhədə komandana ixtiyar verilməlidir.
7. Cihadda məqsəd zülmün qarşısını almaq və ya onu aradan qaldırmaqdır. Bu səbəbdən İslam əsirlərin bağışlanmasını tövsiyə edir.
8. İslami cihadda həm güc, həm də mərhəmət lazımdır.
9. Əsirləri təmənnasız azad etmək onları fidyə alıb azad etməkdən irəlidir.
10. Savaş ilahi sınaq zəminələrindəndir.

---

[1] "Həcc", 39; "Tövbə", 36
[2] "Bəqərə", 193
[3] "Həcc", 40
[4] "Tövbə", 29
[5] "Təfsiri-Fürqan"

11. Cihadda məqsəd fatehlik, istismar, hədə-qorxu, rəqabət, intiqam, həsəd yox, Allah dinini qorumaqdır.

12. Savaşda bəziləri şəhid olsalar da, Allah onların məqsədlərini gerçəkləşdirir, şəhidlərin zəhməti puça çıxmır.

13. Savaş sınaq meydanıdır, kafirlər sınaq vasitəsi. Bu sınağın qəhrəmanı şəhidlərdir.

*Ayə 5:*

﴿سَيَهْدِيهِمْ وَيُصْلِحُ بَالَهُمْ﴾

**"Allah tezliklə onları (uca məqama) hidayət edər, hallarını və işlərini islah buyurar."**

*Ayə 6:*

﴿وَيُدْخِلُهُمُ الْجَنَّةَ عَرَّفَهَا لَهُمْ﴾

**"Onlar üçün vəsf etdiyi behiştə daxil edər."**

**Bildirişlər**

1. İlahi hidayət daimidir, ölüm və şəhadətdən sonra da davam edir.
2. Cihada gedərkən öz həyatınız və ailənizin həyatı üçün qorxmayın.
3. Allah yolunda şəhadət bütün çatışmazlıqların əvəzini ödəyir. Büdrəmələr bağışlanır, eyblər əfv olunur.
4. Şəhidin işlərinin islahını Allah öz öhdəsinə götürmüşdür.
5. Təşviq və böyük mükafat güclü stimuldur.
6. Mükafat barədə öncədən xəbərdarlıq onu əldə edərkən duyulan ləzzəti artırır.

*Ayə 7:*

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن تَنصُرُوا ٱللَّهَ يَنصُرْكُمْ وَيُثَبِّتْ أَقْدَامَكُمْ﴾

**"Ey iman gətirənlər! Əgər Allaha yardım göstərsəniz, Allah da sizə yardım edər və addımlarınızı möhkəmləndirər."**

**Nöqtələr**

İnsan məhdud varlıqdır. Onun Allah yoluna yardımı da məhduddur. Amma Allah nəhayətsizdir və Onun yardımı sonsuz qüdrətindən qaynaqlanır.

Allah müəyyən işlər üçün şərt qoymuşdur: Allahın insana diqqəti üçün insanın Allahı yada salması şərtdir;[1] Allahın yardımı üçün insanların din yoluna yardımı şərtdir;[2] Allahın bərəkəti üçün insanların təşəkkürü şərtdir;[3] Allahın öz əhdinə vəfa qılması üçün insanların vəfadarlığı şərtdir.[4]

---

[1] "Bəqərə", 152
[2] Hazırkı ayə
[3] "İbrahim", 7
[4] "Bəqərə", 40

Həzrət Əli (ə) buyurur: "Əgər Allaha yardım etsəniz, Allah da sizə yardım göstərər və addımlarınızı möhkəmləndirər... Allah sizin yardımınıza ehtiyaclı deyil... Allah özü qüvvət və hikmət sahibi olduğu halda yardım istəmişdir. Göylərin və yerin qoşunları Onun ixtiyarındadır. Allah sizi sınağa çəkmək, yaxşılıq üçün ən üstün amili müəyyənləşdirmək üçün yardım istəyir."[1]

**Bildirişlər**

1. Allahın mükafat və cəzası insanın əməllərinə uyğundur.
2. Düşüncəsi, dili və əməli ilə İslama yardım göstərəni Allah da himayə edir.
3. İlahi yardımlar arasında sabitqədəmlik ən üstün yardımdır. (İlahi yardımın ardınca sabitqədəmlik zikr olunur)
4. İlahi mükafatlar bizim əməllərimizdən daha artıqdır.
5. Hərbi kafirlərlə cihad dinə yardım nümunələrindəndir.
6. İlahi dinin yayılması yolunda əməli addımlar iman şərtidir.
7. İlahi lütflərdən bəhrələnmə insanın təlaşlarından asılıdır. (Yerinizdə oturub Allahdan yardım gözləməyin.)

***Ayə 8:***

**﴿وَالَّذِينَ كَفَرُواْ فَتَعْسًا لَّهُمْ وَأَضَلَّ أَعْمَالَهُمْ﴾**

**"Küfr edənlər məhv olsun. (Allah) Onların əməllərini məhv etdi."**

***Ayə 9:***

**﴿ذَلِكَ بِأَنَّهُمْ كَرِهُواْ مَآ أَنزَلَ ٱللَّهُ فَأَحْبَطَ أَعْمَالَهُمْ﴾**

**"(Onların məhvinə) Səbəb budur ki, Allahın nazil etdiyinə düşmən oldular. (Allah) Onların əməllərini puça çıxardı."**

**Nöqtələr**

"Təs" büdrəmək, süqut etmək, üzü üstə yıxılmaq mənalarını bildirir.

Ən üstün tərbiyə yollarından biri mübarizə aparmaqdır. Ötən ayədə şəhid olmuş möminlərə, bu ayədə kafirlərə xitab edildi. Belə bir müqayisə mücahid möminlər üçün müjdədir. Möminlər haqqında buyurulur ki, Allah onların addımlarını möhkəmləndirər. Bu ayədə isə kafirlərin süquta uğrayacağı bildirilir.

**Bildirişlər**

1. İnadkar kafirlər də lənətlənəsidir. (Ayələrdən birində Əbu-Ləhəbə nifrin olunur)
2. Küfr məhvə aparan səbəbdir.
3. İlahi göstərişlərə münasibətdə ikrah küfr nişanələrindəndir.
4. İnsan öz küfrü və ikrahı həddində cəzalandırılır.

---

[1] "Nəhcül-bəlağə", xütbə 183

5. Qurana münasibətdə ikrah və ondan üz çevirmək xeyir əməlləri puça çıxarır.

6. Niyyət və şövq əməllərə dəyər verir. İlahi göstərişləri narazılıqla qarşılayan insanın əməlləri dəyərsizdir.

***Ayə 10:***

**﴿أَفَلَمْ يَسِيرُواْ فِي ٱلْأَرْضِ فَيَنظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ ٱلَّذِينَ مِن قَبْلِهِمْ دَمَّرَ ٱللَّهُ عَلَيْهِمْ وَلِلْكَافِرِينَ أَمْثَالُهَا﴾**

**"Yer üzündə gəzmədilərmi ki, özlərindən əvvəlkilərin aqibətini görsünlər? Allah onları həlak etdi. Bu kafirlər üçün də həminki kimi cəzalar olacaq."**

**Nöqtələr**

"Tədmir" sözündən olan "dəmmər" sözü puça çıxmaq, alt-üst olmaq mənasını bildirir. Bu sözlə yanaşı işlənən "əla" hissəsi uyğun halın şiddətini göstərir.

Quranda insanların öz əməlləri və xasiyyətləri onların məhvi səbəbi kimi göstərilir: Bəziləri tüğyan qopardığı üçün həlak oldu;[1] Bəziləri inkarına görə məhv oldu;[2] Bəziləri məkr və hiylələri səbəbindən puça çıxdı;[3] Bəziləri günahına görə məhv oldu;[4] Bəziləri yol verdikləri zülm-sitəmə görə məhvə düçar oldular.[5]

**Bildirişlər**

1. Özlərindən əvvəlkilərin başına gələnlərdən ibrət götürməyənlər məzəmmətə layiqdir.

2. Səfər, səyahət məqsədli olmalıdır. Millətlərin tarixini öyrənmək, ibrət götürmək üçün səfərə çıxmaq lazımdır.

3. Tarixin mütaliəsi və millətlərin taleyi ilə tanışlıq insanın dünya görüşü və imanına təsir göstərir.

4. Əsas rifah içində yaşamaq yox, xoş aqibətə nail olmaqdır.

5. Allahın işləri hikmətə əsaslanır və qanunauyğundur.

6. Allahın iradəsi tarix və azğın başçılar üzərində qalib və hakimdir.

7. Allahın qəhr-qəzəbi bir neçə nümunə ilə məhdudlaşmır. Allah öz qəzəbini müxtəlif şəkillərdə göstərə bilər.

***Ayə 11:***

**﴿ذَلِكَ بِأَنَّ ٱللَّهَ مَوْلَى ٱلَّذِينَ ءَامَنُواْ وَأَنَّ ٱلْكَافِرِينَ لَا مَوْلَى لَهُمْ﴾**

**"(Kafirlərin cəzalandırılması) Buna görədir ki, Allah iman gətirənlərin yardımçısıdır. Həqiqətən, kafirlərin heç bir hamisi yoxdur."**

---

[1] "Haqqə", 5
[2] "Əhqaf", 25
[3] "Nəml", 51
[4] "Ənfal", 54
[5] "Kəhf", 59

### Nöqtələr

Bütün varlıq aləmi Allahın vilayətinə daxildir və bu baxımdan mömin ilə kafir arasında fərq yoxdur. Burada isə "məvla" deyərkən dost və yardımçı nəzərdə tutulmuşdur.

Bu dünyada zahirən yardımçısız görünən möminlər qiyamət günü Allahın himayəsində olar.[1] Amma dünyada çoxlu dostları və yardımçıları olan kafirlər qiyamətdə köməksizdir.[2]

### Bildirişlər

1. İman Allahın himayəsinə nail olmaq üçün vasitədir, küfr bu himayənin əldən verilməsi amilidir.
2. Kafirlərin və müşriklərin bu dünyadakı hamiləri qiyamət günü gücsüzdür.

*Ayə 12:*

﴿إِنَّ ٱللَّهَ يُدْخِلُ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّالِحَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا ٱلْأَنْهَارُ وَٱلَّذِينَ كَفَرُواْ يَتَمَتَّعُونَ وَيَأْكُلُونَ كَمَا تَأْكُلُ ٱلْأَنْعَامُ وَٱلنَّارُ مَثْوًى لَّهُمْ﴾

**"Həqiqətən Allah-taala iman gətirib saleh işlər görənləri altından çaylar axan bağlara daxil edər. Küfr edənlər isə (dünya həyatından) bəhrələnir, heyvan kimi yeyib-içirlər. Onların son məskəni oddur."**

### Nöqtələr

Bu ayədə kafirlər yemək baxımdan dördayaqlılara oxşadılır. Bu oxşatmanın bir neçə səbəbi ola bilər:

a) Heyvanların bütün səyi yemək üçündür. Həzrət Əli (ə) buyurur: "Heyvanların dərd-səri qida əldə etməkdir. Kafirlərin də kam almaqdan savayı məqsədi yoxdur."[3]

b) Heyvanlar qəflətdədirlər, kafirlər də qiyamət və ilahi vəzifələrdən xəbərsizdir.

v) Heyvanlar yediklərinin halal və ya haram olmasını bilmirlər. Bəzi insanlar da halal-haram barədə düşünmür. Quran təbirincə, onlar zəhmətsiz irs və mal əldə etdikləri vaxt başqalarının haqqı barədə düşünmədən ondan istifadə edirlər.[4]

Həzrət Əli (ə) buyurur: "Bütün gücünü qarnı yolunda sərf edən insanın dəyəri ondan ifraz olan şeydir."[5]

### Bildirişlər

---

[1] "Bəqərə", 256
[2] "Bəqərə", 256, hazırkı ayə
[3] "Nəhcül-bəlağə", namə 45; "Nəcm", 29
[4] "Fəcr", 19
[5] "Ğurərul-hikəm"

1. Möminlərin behiştə daxil edilməsi Allahın vilayət cilvələrindəndir.

2. İman və saleh əməl əhli elə bir məqamdadır ki, Allah özü onları behiştə daxil etməyi öhdəsinə götürmüşdür.

3. Bütün canlılar az və ya çox maddi baxımdan bəhrələnir. Amma əsas meyar işin sonudur.

4. İnsanları haqqa doğru təşviq etmək üçün onların təbii meyllərindən istifadə edin. (İnsan bağ və çaydan xüsusi bir ləzzət alır)

5. İlahi hədlər çərçivəsində ləzzət almaq olar. (Heyvan sayağı ləzzətlər Quranda məzəmmət olunur)

6. İnsanda nəfsin ən böyük tüğyanı qarınquluuqdadır. Məqam və mal istəyi, şəhvət arabir tüğyan qoparırsa, qarın daim insanladır. (Quran çeşidli ləzzətlər arasında qidalanmanı ayrıca qeyd edir)

7. Kafirlərin həyatı mahiyyət baxımınca heyvani həyatdır, aqibət baxımından cəhənnəmlikdir.

8. Dəyərləndirmə apararkən işin sonunu nəzərə alın.

***Ayə 13:***

**﴿وَكَأَيِّن مِّن قَرْيَةٍ هِيَ أَشَدُّ قُوَّةً مِّن قَرْيَتِكَ ٱلَّتِي أَخْرَجَتْكَ أَهْلَكْنَاهُمْ فَلَا نَاصِرَ لَهُمْ﴾**

**"Nə çox şəhərlər ki, (onların əhli) çıxarıldığın şəhərdən (onun əhlindən) daha qüvvətli idi. Biz onları həlak etdik və onlara yardım edən tapılmadı."**

## Nöqtələr

Quran əhalisi iman gətirməmiş, peyğəmbərlərlə düşmənçilik edən yerləri öncə "kənd" adlandırır, əhali iman gətirdikdən sonra isə həmin yeri "şəhər" kimi yad edir.

Peyğəmbərlər şair, kahin, sehrbaz, divanə sayılmaqla yanaşı qətllə, işgəncə ilə, sürgünlə, həbslə hədələnirdilər.[1]

Hazırkı ayədə peyğəmbərə təsəlli verilir ki, düşmənçilik edən Məkkə əhlindən daha güclü olan qədim qövmlər həlak edilib.

İslam peyğəmbəri (s) öz istəyi ilə hicrət etsə də, kafirlərin yaratdığı şərait onu bu işə vadar etmişdi. Bu səbəbdən də Allah-taala həzrətin Məkkədən çıxmasında Məkkə əhlini suçlandırır.

## Bildirişlər

1. Tarixlə tanışlıq çətinliklər qarşısında müqavimət üçün stimuldur.

2. Tarixdə məhv edilmiş sitəmkar qövmlər çox olub.

3. Qeyri-ilahi güclərdən qorxmayın. Onlar Allahın qüdrəti qarşısında acizdirlər.

4. Kafirlər üçün həm dünyəvi, həm də üxrəvi əzab var.

---

[1] "Qəsəs", 20; "Şuəra", 116; "Əraf", 88; "Şuəra", 29

5. Zalım super güclərin sonu yoxdur.

6. Bir çox sıxıntılar və təzyiqlər insan üçün təkamül amili olur. (Allah-taala Məkkə əhlini Peyğəmbərə (s) münasibətlərinə görə qınasa da, bu hicrət bərəkətli oldu.)

7. Dini islahatçılar və təbliğatçılar istənilən əzab-əziyyətə hazır olmalıdırlar.

8. Allahın qəzəbi qarşısında heç bir yardımçı yoxdur.

*Ayə 14:*

﴿أَفَمَن كَانَ عَلَىٰ بَيِّنَةٍ مِّن رَّبِّهِۦ كَمَن زُيِّنَ لَهُۥ سُوٓءُ عَمَلِهِۦ وَٱتَّبَعُوٓاْ أَهْوَآءَهُم﴾

**"Rəbbi tərəfindən aydın dəlillə gələn kəs pis əməlləri gözündə bəzənmiş, azğın nəfs istəklərinə tabe olan kəs kimidirmi?!"**

**Nöqtələr**

"Bəyyinə" dedikdə əslində iki şeyi bir-birindən ayıran nəzərdə tutulur. Ayədə "bəyyinə" deyərkən haqqı batildən ayıran aşkar dəlillər nəzərdə tutulur.[1]

Peyğəmbər insanların sorağına məntiq və aydın dəlillə gəlir. Amma insanlar tutduqları yolu bəyənib, öz nəfs istəklərinə tabe olaraq peyğəmbərlə rəftar edirlər.

İslam peyğəmbərinin (s) risaləti aydınladan dəlillərlə müşayiət olunur. Həzrət peyğəmbər (s) Allah tərəfindən tapşırıq almışdır və özündən bir söz demir.[2]

**Bildirişlər**

1. Möminin istinadgahı aydın dəlillərdir. Kafirlər isə öz zən-gümanlarına istinad edirlər.

2. Fərdiyyətçilik allahçılıqla tam ziddir. Dəlillər qarşısında boyun əyməyən insan özünün və başqalarının nəfs istəklərinə tabe olasıdır.

3. İnsan pisliklə fitrətən müxalifdir. O bir pis iş görmək istədikdə ona gözəl libas geyindirir.

4. Aydın dəlillər göstərmək Allahın rübubiyyət tələblərindəndir.

5. Bəzi işlər zatən çirkindir. Yəni bu işləri zatən dəyişmək mümkünsüzdür. Onlara libas geyindirilsə də faydasızdır.

6. İnsan öz nəfs istəklərinə çatmaq üçün çirkin işlərə don geyindirir ki, onu bəyənilmiş vəziyyətə gətirsin.

*Ayə 15:*

﴿مَّثَلُ ٱلْجَنَّةِ ٱلَّتِي وُعِدَ ٱلْمُتَّقُونَ فِيهَآ أَنْهَٰرٌ مِّن مَّآءٍ غَيْرِ ءَاسِنٍ
وَأَنْهَٰرٌ مِّن لَّبَنٍ لَّمْ يَتَغَيَّرْ طَعْمُهُۥ وَأَنْهَٰرٌ مِّنْ خَمْرٍ لَّذَّةٍ لِّلشَّٰرِبِينَ وَأَنْهَٰرٌ مِّنْ عَسَلٍ
مُّصَفًّى وَلَهُمْ فِيهَا مِن كُلِّ ٱلثَّمَرَٰتِ وَمَغْفِرَةٌ مِّن رَّبِّهِمْ كَمَنْ هُوَ خَٰلِدٌ فِي ٱلنَّارِ
وَسُقُواْ مَآءً حَمِيمًا فَقَطَّعَ أَمْعَآءَهُمْ﴾

---

[1] "Təfsiri-nümunə"

[2] "Ənam", 57

**"Allahdan qorxanlara vəd olunmuş behişt belə vəsf olur: Orada qoxusu dəyişməyən sudan, dadı dəyişməyən süddən, içənlərə ləzzət verən şərabdan, xalis və təmiz baldan çaylar var. Onlar üçün orada hər növ meyvələr mövcuddur. Onları Rəbləri tərəfindən bağışlanma gözləyir. (Onlar) Odda əbədi qalan, qaynar sudan içərək daxilləri parçalanan kəslər kimidirmi?!"**

## Nöqtələr

Behişt haqqında 12-ci ayədə qısa şəkildə deyilənlər hazırkı ayədə şərh edilir.

Bu ayədə növbənöv behişt çaylarından danışılır. Amma xüsusi bir qrup üçün behiştdə xüsusi çeşmə var.[1] Həmin çeşmədən yalnız Allaha yaxın olanlar içər.

Hər bir şey üçün kamillik var. Suyun kamilliyi qoxusuzluğunda, südün kamilliyi dadının dəyişməməsində, içkilərin kamilliyi onların dadında, balın kamilliyi onun xalisliyindədir.

"Ənhar", yəni "çay" sözünün təkrarlanmasından belə anlaşılır ki, süd, bal, şərab və su axan neçə-neçə çay var.

İmam Hüseyn (ə) buyurur: "Behiştdə behişt əhlinə nəsib olan bağışlanma onlar üçün ən böyük nemətdir." Həzrət "Tövbə" surəsinin 72-ci ayəsinə istinad etmişdir.[2]

Olsun ki, behiştdə bağışlanma deməklə behişt əhlində arxayınlıq yaradılır. Çünki behişt əhli dünyadakı büdrəmələrini yada salıb pərişan ola bilərdilər.[3]

## Bildirişlər

1. Dünyanın günaha aparan zinətlərindən danışılarkən behişt gözəlliklərini yada salıb insanları haqqa çağırın.
2. Təqvalı olduqlarından dünyanın ötəri ləzzətlərindən çəkinənlər davamlı ləzzətlərə çatasıdır.
3. Xoş aqibət vədi insanları haqq və təqvaya sövq edən səbəbdir.
4. Çeşidlilik bəşəriyyətin təbii istəyidir.
5. Behiştdə maddi və fiziki nemətlərlə yanaşı mənəvi və ruhani nemətlər var.
6. Behişt nemətləri istənilən bir nöqsan və dəyişkənlikdən uzaqdır.
7. Behiştin suyu və havası nemətlərin vəziyyətini dəyişib onları xarab etmir.
8. Behiştdə nemətlər Allahın mərhəməti sayəsində əldə olunur.
9. Behiştdə istənilən qədər növbənöv meyvələr var.
10. Cəhənnəmdə qaynar su kafirlərə zorla içirilər.
11. Təşviq və hədə yanaşı olanda fayda verir.
12. Məad cismanidir. (Süd və bal, kafirlərin içinin doğranması bunu təsdiq edir.)
13. İnsanın qiyamətdəki cismi onun dünyadakı cismindən fərqlənir. (Dünyada mədə parçalandıqda ölüm labud olur. Axirətdə isə belə deyil.)

---

[1] " "Mutəffifin", 28

[2] "Bihar", c. 8, s. 140

[3] "Təfsiri-rahnoma"

*Ayə 16:*

﴿وَمِنۡهُم مَّن يَسۡتَمِعُ إِلَيۡكَ حَتَّىٰٓ إِذَا خَرَجُوا مِنۡ عِندِكَ قَالُوا لِلَّذِينَ أُوتُواْ ٱلۡعِلۡمَ
مَاذَا قَالَ ءَانِفًا أُوْلَٰٓئِكَ ٱلَّذِينَ طَبَعَ ٱللَّهُ عَلَىٰ قُلُوبِهِمۡ وَٱتَّبَعُوا أَهۡوَاءَهُمۡ﴾

**"Onlardan bir dəstəsi (zahirdə) səni dinləyənlərdir. Amma səndən uzaqlaşan kimi elm və bilik sahiblərinə deyirlər: "O indicə nə dedi?" Onlar qəlbləri Allah tərəfindən möhürlənənlər, nəfs istəklərinə tabe olanlardır."**

**Nöqtələr**

Möminlərin və kafirlərin halı bəyan olunduqdan sonra münafiqlərin peyğəmbərlərin buyuruqlarına yanaşması yada salınır. Hansı ki, Peyğəmbərin (s) buyuruqları səmavi vəhydir. Peyğəmbərə (s) xitabən buyurulur ki, zahirdə özünü müsəlman göstərən kafirlər səninlə olanda Quranı dinləsələr də, sənin doğru dediyinə inanmır, kitabına iman gətirmirlər. Onlar Quranı dərk etməyə qadir deyil. Bu səbəbdən də sənin buyuruqlarını anlayan ardıcıllarınla görüşdükdə "bu kişinin danışdıqları nədir" deyib məsxərəyə qoyurlar. Peyğəmbərin (s) nəzərinə çatdırılır ki, onların dərk etməməsinin səbəbi ayələrin çətinliyi yox, öz içlərindəki inadkarlıq ruhiyyəsidir. Allah onların qəlbini möhürləyib ki, həqiqəti anlamasınlar və yalnız nəfs istəkləri ardınca getsinlər.

Nəfs istəklərinə itaət məsələsinin qəlblərin möhürlənməsi məsələsindən sonra zikr olunması göstərir ki, insan ağlını əldən versə, nəfs istəklərinə tabe olar.[1]

**Bildirişlər**

1. Peyğəmbərlə istər kafir, istər münafiq, hər kəs görüşə bilirdi.
2. Müxaliflərin pərdəli hərəkətlərinin ifşası xalq üçün gərəklidir.
3. Münafiqlər haqq əhli arasında təfriqə salmağa çalışırlar.
4. Sual verməkdə məqsəd aranı qarışdırmaq, imanları süstləşdirmək, təhqir və ya istehzadırsa, bu sayağı sual məzəmmət olunmalıdır.
5. İlahi vəhy və peyğəmbərlərin buyuruqları tam elmidir və alimlər tərbiyə edir.
6. Müsəlmanlar arasında parçalanma salmaq ideoloji hücum növüdür.
7. İnsan öz puç əməlləri və nəfs istəklərinə tabeçiliyi ilə qəlbinin möhürlənməsinə zəminə yaradır. Beləcə, vəhyi və ilahi maarifi dərk etmək qüvvəsi əldən çıxır.
8. Dinləyicilərin çox olması bizi qürrələndirməsin. Onların deyilənləri qəbul etməməsi mümkündür.
9. Vəhy və Quranın məsxərəyə qoyulması qəlbdə kin-küdurət yaradır və insanı həqiqətlərin dərkindən məhrum edir.
10. Qəlb möhürlənəndə peyğəmbərin də sözləri təsir etmir.
11. İnsanın qəlbi və ruhu fitrətən haqqın qəbuluna hazırdır. Qəlbi möhürləyən müəyyən amillər var.

---

[1] "Təfsiri-hidayət"

12. Peyğəmbəri (s) hörmətdən salmaq istəyən kəs əslində Allaha qarşı çıxır.
13. Bəşəriyyətin əsassız istəkləri çoxdur.
14. Nəfsə itaət Allaha itaətlə bir araya sığmır.

***Ayə 17:***

﴿وَٱلَّذِينَ ٱهْتَدَوْا۟ زَادَهُمْ هُدًى وَءَاتَاهُمْ تَقْوَاهُمْ﴾

**"Allah hidayət olanların hidayətini artırır, onlara pəhrizkarlıq ruhu əta edir."**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, bəziləri Peyğəmbərdən (s) haqq sözlər və Quran ayələri eşitsələr də, onu qəbul etmək istəmirdilər. Bu ayədə isə həmin ayələr və buyuruqlar vasitəsi ilə ruhi və mənəvi baxımdan inkişaf edənlər yada salınır.

Hidayətin artırılması, pəhrizkar ruh əta olunması dedikdə sırf hidayət və elmin yüksəldilməsi yox, ruhi təkamül nəzərdə tutulur.[1]

Möminlərin hidayətini artıran bir neçə amil var: Allahın nazil etdiyi ayələr və maarif, Peyğəmbərin (s) buyuruqları və hikmətləri, möminlərin münafiqlər qarşısında səbir və dözümü.[2]

**Bildirişlər**

1. İnsan tərəfindən hidayətin qəbulu Allah tərəfindən hidayətin artırılması üçün zəminədir.
2. Hidayətin mərhələləri və mərtəbələri var.
3. Hidayətin qəbulu insanın ruhi tutumunu artırır.
4. İnsan tərəfindən atılan bir addım Allah tərəfindən atılan bir neçə addımla davam edir.
5. Həqiqi hidayət insanı təqvaya yönəldir.
6. Təqva hidayəti qəbul edənlər üçün ilahi hədiyyədir.

***Ayə 18:***

﴿فَهَلْ يَنظُرُونَ إِلَّا ٱلسَّاعَةَ أَن تَأْتِيَهُم بَغْتَةً فَقَدْ جَاءَ أَشْرَاطُهَا فَأَنَّىٰ لَهُمْ إِذَا جَاءَتْهُمْ ذِكْرَاهُمْ﴾

**"(Kafirlər iman gətirmək üçün) Qəfildən soraqlarına gələcək qiyaməti gözləyir? Hansı ki onun nişanələri gəlmişdir. Soraqlarına gələn vaxt onların dərk etməsinin nə faydası olacaq?!"**

**Nöqtələr**

---

[1] "Taha", 114
[2] "Təfsiri-safi"

"Əşrat" sözü nişanə və əlamət mənasını bildirən "şərət" sözünün cəm formasıdır. Ayədə uyğun söz Peyğəmbərin (s) özündən nəql olunmuş rəvayətə əsasən onun besətinə işarədir.[1] Çünki artıq son Peyğəmbər (s) və son kitab göndərilmişdir və Allahın xəbərdarlığı başa çatmışdır. İstənilən bir günah, fəsad, küfr və inkar qiyaməti yaxınlaşdırır.

"Əs saət" sözü adətən qiyamət mənasında işlədilsə də, bu söz qiyamət əzabının müqəddiməsi olan dünya əzabına işarə ola bilər.

İbn Abbas nəql edir ki, əziz Peyğəmbər (s) höccətül vidada (Salman Farsi ona ən yaxında dayandığı vaxt) buyurdu: "Sizə qiyamətin nişanələrini xəbər verimmi?" Sonra həzrət buyurdu: "Namaza diqqətsizlik, nəfs istəklərinə itaət, varlılara hörmət və dini dünyaya satmaq."[2] Bəzi rəvayətlərdə qiyamətin bərpası ilə bağlı yüzdən artıq əlamət sadalanır.[3]

## Bildirişlər

1. Daş qəlbli kafirlər dəlilləri müşahidə etsələr də iman gətirmir, son möhlətlərin ötüb keçməsinə tamaşa edirlər.
2. Qiyamətin bərpası və kafirlərin məhvi qəfildən olasıdır.
3. Qiyamətin nişanələri, müqəddimələri var.
4. Düşünməyin ki, tövbə yolu həmişə açıqdır və həmişə geri dönmək olar.

***Ayə 19:***

﴿فَٱعْلَمْ أَنَّهُ لَا إِلَـهَ إِلَّا ٱللهُ وَٱسْتَغْفِرْ لِذَنبِكَ وَلِلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَاتِ وَٱللهُ يَعْلَمُ مُتَقَلَّبَكُمْ وَمَثْوَاكُمْ﴾

**"Bil ki, Allahdan savayı heç bir məbud yoxdur. Özün mömin kişilər və qadınlar üçün bağışlanma dilə. Allah sizin gedib-gəlməyinizi, bir yerdə dayanmağınızı bilir. (Bütün hallarınızdan agahdır)"**

## Nöqtələr

"Mutəqəlləb" dedikdə yerdəyişmə, "məsva" dedikdə dayanacaq nəzərdə tutulur.

"Ğafir" surəsinin 55-ci ayəsində bildirilir ki, bütün peyğəmbərlər məsum olduqlarından onların tövbəsi və bağışlanma istəyi belə anlaşıla bilər: istiğfar (tövbə) günah olmayan yerdə də ibadətdir; yaxşı bir işi tərkinə görə tövbə; bağışlanma istəyini xalqa öyrətmək məqsədi; istiğfarın peyğəmbəri yüksək dərəcəyə qaldırması; insanların peyğəmbərə münasibətdə yol verdikləri günaha görə istiğfar; Allahın əzəmətini, öz heçliyini görən insanın istiğfar etməsi mümkündür.[4]

---

[1] "Təfsiri-məcməül-bəyan"
[2] "Təfsiri-nurus-səqəleyn"
[3] "Təfsiri-bürhan"
[4] "Təfsiri-məcməül-bəyan"; "Təfsiri kəbiri Fəxr-Razi"; "Təfsiri-əl mizan"

Bəzi təfsirçilər bildirirlər ki, "zənb" sözü günah mənasında işlənməyə də bilər. Bu sözün rəftar müqabilində cəza mənasını bildirməsi də mümkündür. Bu mənada "zənb" sözü Allaha doğru dəvət müqabilində müxaliflərdən yetişən əzab-əziyyət kimi anlaşılmalıdır. İlahi dəvət ağırlaşdıqca bu dəvətlərə qarşı əzab-əziyətlər də ağırlaşır. Bu mənada istiğfar müxaliflərin şərindən qurtuluş istəyi kimi qəbul edilməlidir.[1]

Quranda həzrət Davudun, Musanın və İbrahimin də istiğfarı yada salınır.

Böyük insanların xalq üçün bağışlanma istəməsi Quranda təkrar-təkrar qeyd olunmuş nöqtədir. Həzrət İbrahimin öz ata-anası, möminlər, hətta əmisi üçün bağışlanma istəyi, həzrət Yaqubun öz övladları üçün mərhəmət diləməsi, həzrət Musanın öz qardaşına görə tövbəsi, mələklərin insanlar üçün istiğfarı, bu ayədə İslam peyğəmbərinin (s) möminlər üçün bağışlanma istəməsi misal göstərilə bilər. Bu özü də bir növ şəfaətdir.

**Bildirişlər**

1. Möminlərə mükafat, kafirlərə cəza verildiyini görəndə bil ki, hər iş Allahın əlindədir.
2. İnsan agahlıqla iman gətirməlidir. Əqidə üsullarında təqlid caiz deyil.
3. İlahi nizamda Allahın övliyaları onun lütfünü əldə etmək üçün vasitədir. Allah heç bir vasitəsiz bağışlaya bilirsə də, həzrət Peyğəmbərə (s) dua və istiğfar göstərişi verir.
4. Rəhbər xalqa can yandırmalıdır.
5. Peyğəmbər həm qadınlara, həm də kişilərə dua edirdi. Peyğəmbər üçün meyar cinsiyyət yox, möminlik idi.
6. Təkcə Peyğəmbərin (s) bağışlanma istəyi ilə kifayətlənməyin. Özünüz də Allahın hüzurunu duyub günah etməkdən çəkinin.
7. İnsan başqalarından öncə özünü islah etməlidir.
8. Bütün insanlar, hətta peyğəmbərlər Allahın lütfünə ehtiyaclıdırlar.
9. Allah insanları bağışlamaq istəyindədir. Buna görə də peyğəmbərinə göstəriş verir ki, insanlar üçün bağışlanma diləsin, vasitə olsun.
10. Allahın insanların bütün hallarından xəbərdarlığı onların büdrəmələrinə görə nigarançılığa səbəb olmuş, istiğfar istəyi ilə nəticələnmişdir.
11. Allahın elmi qeyri-məhduddur, heç nə Ona gizli qalmır. (Bizim hərəkətdə olmağımız və ya bir yerdə dayanmağımız Allah üçün fərqsizdir.)

***Ayə 20:***

﴿وَيَقُولُ ٱلَّذِينَ ءَامَنُواْ لَوْلَا نُزِّلَتْ سُورَةٌ فَإِذَآ أُنزِلَتْ سُورَةٌ مُّحْكَمَةٌ وَذُكِرَ
فِيهَا ٱلْقِتَالُ رَأَيْتَ ٱلَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ يَنظُرُونَ إِلَيْكَ نَظَرَ ٱلْمَغْشِيِّ عَلَيْهِ مِنَ
ٱلْمَوْتِ فَأَوْلَىٰ لَهُمْ﴾

**"İman gətirənlər deyir: "Nə üçün (cihadla bağlı) surə nazil olmur?" Elə ki, qəti və aydın bir surə nazil olur və onda cihad adı çəkilir qəlbikorları bir**

[1] "Təfsiri-fürqan"

**halda görürsən ki, ölümdən huşunu itirənlər kimi sənə baxırlar. Həmin ölüm onlar üçün daha yaxşıdır."**

### Nöqtələr

"Surə" sözü Quran terminidir və sonradan düzəlməyib.

Ayədə qəlbikorlar deyərkən münafiqlər nəzərdə tutulmayıb. Çünki münafiqlər möminlər zümrəsindən deyil. Ayədə möminlərdən danışılır.[1] Demək, bəzən iman varsa da, qəlb tam sağlam deyil.

"Surətun muhkəmə" deyərkən ayələri mutəşabeh yox, qəti və aydın olan surələr nəzərdə tutulur.

### Bildirişlər

1. Möminlərdən bir dəstəsi cihad əmri gözləyir. Onlar cihada hazırlıqlarını daim dilə gətirirlər.
2. Möminlər öz həyatlarının istənilən bir yönümündə ilahi göstərişləri əsas tuturlar.
3. Cihad əmri ilahi vəhy və göstərişlərə əsaslanmalıdır.
4. Yalnız möhkəm və aydın dəlillər olduqda cihad mümkündür.
5. Savaş və cihad ilahi göstərişlərdə əsas məqsəd deyil. Bu göstəriş digər hökmlərdən biridir.
6. Cihad əmri fərdlər üçün sınaq meydanıdır.
7. İnsanların baxışına əsasən onları dəyərləndirmək olar.
8. Cihad qorxusu qəlbin xəstəliyini göstərir. Süst imanlı insanlar cihad əmri verildikdə ölüm barədə düşünürlər. Necə ki can verən insan ölümü müşahidə edir.
9. Kafirlərə ölüm və onlardan uzaqlıq şüarları Qurana əsaslanır.

### *Ayə 21:*

﴿طَاعَةٌ وَقَوْلٌ مَّعْرُوفٌ فَإِذَا عَزَمَ ٱلْأَمْرُ فَلَوْ صَدَقُواْ ٱللَّهَ لَكَانَ خَيْرًا لَّهُمْ﴾

**"İtaət etmək və ölçülü danışmaq lazım. Əmr qətiləşdiyi vaxt Allaha doğru desələr (sədaqətlə vuruşsalar) şübhəsiz, onlar üçün daha yaxşıdır."**

### Nöqtələr

"Taət" dedikdə müəyyən həddə itaət nəzərdə tutulur. "Əzmul-əmr" ifadəsi qəti əzm və iradə ilə müşayiət olunan hal mənasını bildirir. Bəziləri bu ifadəni savaşın qızışması mənasında izah etmişlər.

Zəif imanlı fərdlər cihaddan qorxduqları üçün itaətsizlik etməklə yanaşı yersiz bəhanələr gətirirdilər. Quran müxtəlif ayələrdə onların bəhanələrinə işarə etmişdir: Bizim savaş gücümüz yoxdur;[2] ailəmiz əmin-amanlıqda deyil, evlərimiz

---

[1] "Təfsiri-əl mizan"

[2] "Bəqərə", 249

müdafiəsizdir;[1] hava istidir;[2] savaşa qatılsaq günaha düşərik; Təbuk savaşında bəhanə gətirirdilər ki, Rum qızlarına baxmağımız fitnəyə səbəb olar, buna görə cəbhəyə getmirik; amma Quran həmin fərariliyi fitnə sayır;[3] indi savaş üçün münasib vaxt deyil, yaxşı olar təxirə düşsün;[4] bəla və zərərə düşəcəyimizdən qorxuruq.[5]

Hazırkı ayədə isə buyurulur ki, savaş əmri verilən vaxt bəhanə gətirmək əvəzinə itaət edib yaxşı sözlər danışsanız münasibdir.

**Bildirişlər**

1. Mömin ilahi göstərişlərə münasibətdə tam mütidir.
2. Həm söz, həm də əməl düzgün və yerində olmalıdır.
3. Allahın göstərişləri haqqında xoş sözlər danışın.
4. Cihad və müdafiə ağıl və fitrət baxımından bəyənilmişdir.
5. Cihad qorxusunun kökü sədaqətsizliyimizdədir.
6. Allahın cihad əmri insanların xeyrinədir.

***Ayə 22:***

﴿فَهَلۡ عَسَيۡتُمۡ إِن تَوَلَّيۡتُمۡ أَن تُفۡسِدُواْ فِي ٱلۡأَرۡضِ وَتُقَطِّعُوٓاْ أَرۡحَامَكُمۡ﴾

**"(Ey qəlbi xəstə, imanı zəif kəslər) Əgər (cihaddan) üz çevirsəniz, sizdən ancaq bu gözlənilir ki, yer üzündə fəsad törədəsiniz, qohumluq bağlarını qırasınız."**

**Nöqtələr**

Təfsirçilər "təvəlləytum" sözünü iki cür mənalandırmışlar: cəbhəyə arxa çevirib pis işlərlə məşğulluq və qohumluq rabitələrini qırmaq; xalqa hakimiyyəti ələ alıb, başqalarını sıxıntıya salmaq. İkinci məna ayələrin axınına daha çox uyğundur.[6]

Ayə canlarını qorumaq üçün cihaddan üz çevirən zəif imanlı insanlara xitabən buyurur ki, cihaddan qaçmaqla özünüzü qoruyacağınızı düşünməyin; çünki fərarilik fəsad və qətl zəminəsini gücləndirir; bunun sizə də təsiri var; cahiliyyət dövründə olduğu kimi hətta övladlarınızı öldürməyi sizə caiz edir.

**Bildirişlər**

1. Din və Quran göstərişlərinə itaətsizlik yer üzündə fəsadı gücləndirir.
2. Qohumlarla rabitələrin qırılması yer üzündə fəsad sırasında olan günahlardandır.

---

[1] "Əhzab", 13
[2] "Tövbə", 81
[3] "Tövbə", 49
[4] "Nisa", 77
[5] "Maidə", 52
[6] "Təfsiri-əl mizan"

3. Əgər fitnə-fəsad yayılsa insan öz yaxınlarına da rəhm etməz.

***Ayə 23:***

**﴿أُوْلَئِكَ ٱلَّذِينَ لَعَنَهُمُ ٱللهُ فَأَصَمَّهُمْ وَأَعْمَى أَبْصَارَهُمْ﴾**

**"Onlar Allahın öz rəhmətindən uzaq, (qulaqlarını) kar və gözlərini kor etdiyi kəslərdir. (Nə haqqı eşidər, nə də haqqı görərlər)"**

**Bildirişlər**

1. Savaşdan qaçanlar, fəsad törədənlər və yaxınlarla rabitəni qıranlar Allah tərəfindən lənətlənmişdir.
2. Allahın rəhmətindən məhrumluq öz əməllərinizin nəticəsidir.
3. İmkanlardan faydalanmamaq onlardan məhrumluq kimidir. (Qulağı var amma eşitmir, gözü var amma həqiqəti görmür)
4. Ən böyük mənəvi məhrumiyyət həqiqəti tanımaqdan məhrumiyyətdir.
5. Allahın verdiyi istedadlardan düzgün faydalanmamaq onun mərhəmətindən uzaqlıq göstəricisidir.

***Ayə 24:***

**﴿أَفَلَا يَتَدَبَّرُونَ ٱلْقُرْءَانَ أَمْ عَلَى قُلُوبٍ أَقْفَالُهَآ﴾**

**"Quran haqqında düşünmürlərmi? Yoxsa qəlbləri qıfıllanıb?"**

**Nöqtələr**

"Sad" surəsinin 29-cu ayəsində də Quran ayələri haqqında düşünmək tövsiyə olunur. Quran bərəkətli bir kitabdır. Onu ayələri haqqında düşünülsün deyə göndərdik.

Bu ayə əvvəlki ayənin davamı olaraq Quran haqqında düşünməməyi həqiqətlərə münasibətdə korluq və karlıq kimi dəyərləndirir. İnsan Allahın lənəti səbəbindən bu hala düşür.

**Bildirişlər**

1. Quran təkcə oxumaq, təcvid qaydalarını gözləmək üçün deyil. Quran düşüncə kitabıdır və tilavət sadəcə bir müqəddimədir.
2. Quran ayələri haqqında düşünmək hamıya əmr olunub. Belə bir düşüncə hansısa xüsusi bir zümrəyə aid deyil.
3. Quran ayələri haqqında düşünməyənlər və səthi məlumata malik olanlar Allah tərəfindən məzəmmət edilir.
4. Quranın ali məfhumlarından faydalanmaq üçün geniş və açıq qəlb, düşüncə şərtdir.
5. Qəlb tanışlıq vasitələrindən biridir.
6. Quran ayələri haqqında düşüncə sağlam ağıl və qəlbin nişanəsidir.

*Ayə 25:*

﴿إِنَّ ٱلَّذِينَ ٱرْتَدُّوا عَلَى أَدْبَارِهِم مِّن بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ ٱلْهُدَى ٱلشَّيْطَانُ سَوَّلَ لَهُمْ وَأَمْلَى لَهُمْ﴾

**"Həqiqətən, hidayət yolu (doğru yol) işıqlandırıldıqdan sonra ona arxa çevirənlərin əməllərini şeytan bəzəmiş, onları uzun-uzadı arzularla aldadmışdır."**

**Nöqtələr**

"Səvvələ ləhum" ya çirkinliklərin gözəl göstərilməsi, ya da azğın yolun asan yol kimi təqdim olunması mənası bildirir.

"Əmla" ya möhlət vermək, ya da kömək göstərmək mənalarını bildirir.

Quran şeytanın şər işlərini belə təqdim edir: vəsvəsə, pis işlərə çağırış, çirkin işlərin gözəl göstərilməsi, qorxu və düşmənçilik təlqini, yoxsulluq vədi, vədə xilaflıq, israf və Allah zikrinin yaddan çıxarılması. Quran insan üçün şeytandan iki qurtuluş yolu göstərir: Ona düşmən gözü ilə baxmaq;[1] Allaha pənah aparmaq.[2] Əks təqdirdə xarici və ya daxili şeytan (nəfs) insanı məhvə aparasıdır.

**Bildirişlər**

1. Şeytani vəsvəsələrə aldanış iman üçün bir bəladır. Bu işin sonu mürtədlik və bədbəxtlikdir.
2. Haqqı tanıdıqdan sonra ondan üz çevirmək mürtəce və məzəmmət olunası bir əməldir.
3. Haqq yol aydındır. Bu yoldan xəbərdar olan insan məsuliyyət daşıyır.
4. Əgər yanlış görüntülər və vəsvəsələrlə ciddi mübarizə aparmasaq agahlıq və elmin faydası yoxdur.
5. Pis əməllərin gözəl göstərilməsi və uzun-uzadı arzular şeytanın alətlərindəndir. (Pisliyi yaxşı göstərən hər kəs şeytan sifətdir.)

*Ayə 26:*

﴿ذَلِكَ بِأَنَّهُمْ قَالُواْ لِلَّذِينَ كَرِهُوا مَا نَزَّلَ ٱللهُ سَنُطِيعُكُمْ فِي بَعْضِ ٱلْأَمْرِ وَٱللهُ يَعْلَمُ إِسْرَارَهُمْ﴾

**"Bu ona görədir ki, (qəlbixəstə mürtədlər) ilahi göstərişləri bəyənməyənlərə dedilər: "Biz bəzi işlərdə sizə itaət edəcəyik." Hansı ki Allah onların gizli işlərini bilir."**

**Nöqtələr**

Munafiq fərd özünü qorumaq üçün müxalifləri soraqlayır. Əgər həmin adamlar bütün cəhətlərdən onunla müştərək olsalar, həmin həddə onlarla

[1] "Fatir", 6

[2] "Əraf", 200

həmkarlıq edir, hətta onlara tabe olur. Mədinə münafiqləri də Peyğəmbərə (s) müxalif olan yəhudilərlə bu sayağı əlaqəyə girirdilər.[1]

"Lilləzinə kərihu ma nəzzələllahu" deyərkən surənin əvvəlində adı çəkilən kafirlər nəzərdə tutulur.[2]

## Bildirişlər

1. Narazı fərdlər fitnəkar müxaliflərin hədəfindədir.
2. Munafiqlər ilahi hökmləri bəyənməyənlərə himayə, hətta itaət vəd edir.
3. Münafiqlər kafirlər və İslam düşmənləri ilə əl-ələ verirlər.
4. Narazılar və kafirlərlə dostluq mürtədlik nişanəsidir.
5. Hətta bəzi işlərdə azğınlara itaət məzəmmət olunasıdır.
6. Bəziləri şəxsi mənafeləri xatirinə münafiqcəsinə hərəkət edir. Onlar gah möminlərlə, gah da kafirlərlə yoldaşlıq edirlər. Belə bir münasibət məzəmmət olunur. (Onlar gah nala, gah da mıxa vurur.)
7. Münafiqlərin və narazıların qərarları məxfiyanədir.
8. Münafiqlər bir də ayılır ki, Allah onların məxfi işlərindən xəbərdardır və hər an onları rüsvay edə bilər.
9. Əgər insan inansa ki, Allah onun bütün gizli işlərindən xəbərdardır fitnəkarlığı bir kənara qoyub insanlarla səmimi olar.

*Ayə 27:*

﴿فَكَيْفَ إِذَا تَوَفَّتْهُمُ ٱلْمَلَآئِكَةُ يَضْرِبُونَ وُجُوهَهُمْ وَأَدْبَارَهُمْ﴾

**"Mələklər onların canını alan vaxt (halları) necə olacaq?! Bir halda ki, üzlərinə və arxalarına vurarlar."**

*Ayə 28:*

﴿ذَلِكَ بِأَنَّهُمُ ٱتَّبَعُواْ مَآ أَسْخَطَ ٱللهَ وَكَرِهُواْ رِضْوَانَهُ فَأَحْبَطَ أَعْمَالَهُمْ﴾

**"Bu (sayağı can alma) ona görədir ki, onlar Allahı qəzəbləndirən şeyə tabe oldular, Allahın razılığını bəyənmədilər. Allah da onların əməllərini puça çıxardı."**

## Nöqtələr

"Təvəffa" sözü insana verilən şeyin tam geri alınması mənasını bildirir. Bu söz Quranda ölüm mənasında işlədilmişdir. Əslində ölüm ruhun cisimdən geri alınmasıdır.

"Ənfal" surəsinin 50-ci ayəsində də kafirlərin bu sayağı can verməsi yada salınır.

Üzə vurmaq dedikdə iqbalın təcəssümü, əzabla üzləşmə, arxadan vurma dedikdə Allahın razılığına arxa çevirməyin nəticəsi nəzərdə tutulur.

---

[1] "Təfsiri-nümunə"

[2] "Təfsiri-əl mizan"

### Bildirişlər

1. Ətrafdakıları haqqa qarşı müqavimətə çağıranlar zəlalət içində əzabla can verəcək.
2. Ölüm yoxluq deyil, mələklər tərəfindən ruhun tam çıxarılmasıdır.
3. Mürtəd münafiqlərin cəzası can verən andan başlayır.
4. Məhdud dünya həyatına diqqət, fitnəkarlığın başa çatması və əzabdan xəbərdarlıq insanı fitnəkarlıqdan çəkindirə bilər.
5. Vəhy və Quranla düşmənçilik Allahı qəzəbləndirir, insanın əməllərini puça çıxarır.
6. Kafirlər yol seçimində azad buraxılsalar da, öz əməllərinin acısını dadmağa məcburdurlar.
7. Bəzən insan öz yaxşı əməllərini özü oda atıb yandırır.
8. Allahın razılığı olmayan yolda hərəkət səmərəsiz və məzəmmət olunasıdır.

*Ayə 29:*

﴿أَمْ حَسِبَ ٱلَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ أَن لَّن يُخْرِجَ ٱللَّهُ أَضْغَانَهُمْ﴾

**"Qəlbində xəstəlik olanlar elə güman etdilər ki, Allah heç vaxt onların kin-küdurətini və həsədini aşkarlamayacaq?"**

*Ayə 30:*

﴿وَلَوْ نَشَآءُ لَأَرَيْنَاكَهُمْ فَلَعَرَفْتَهُم بِسِيمَاهُمْ وَلَتَعْرِفَنَّهُمْ فِي لَحْنِ ٱلْقَوْلِ وَٱللَّهُ يَعْلَمُ أَعْمَالَكُمْ﴾

**"Əgər onları sənə göstərmək istəsək simalarından, sözlərinin ahəngindən tanıyarsan. Allah sizin əməllərinizi bilir."**

### Nöqtələr

"Zəğn" sözü şiddətli kin-küdurət mənasını bildirir.

Həzrət Əli (ə) buyurur: "Hər kəs qəlbində bir şey gizləsə, sözlərində və çöhrəsində bilinər."[1]

Həzrət Peyğəmbər (s) Ğədire-Xumda həzrət Əlini (ə) özünə canişin təyin edən vaxt bəziləri dedilər ki, Məhəmməd (s) öz əmioğlusunun əlini qaldırmağa tənbəllik etmir. (Bu sözlər Peyğəmbərin (s) qohumluğa üstünlük verməsinə işarə idi) Həmin vaxt bu ayə nazil oldu.[2]

### Bildirişlər

1. Allahın sirləri gizləməsindən sui-istifadə etməyək.
2. Günahkar təkcə qiyamətdə yox, dünyada da rüsvay ola bilər.
3. Münafiqləri ifşa edib yuxularını qaçıraq.

---

[1] "Nəhcül-bəlağə", hikmət 26
[2] "Təfsiri-bürhan"

4. Fəsad və kin-küdurət nifaq və ikiüzlülük xəstəliyinə səbəb olur.

5. İnsanın xasiyyəti onun çöhrəsinə öz təsirini göstərir. Bəli, insanın siması onun xarakterindən danışır.

6. Nəinki danışıq özü, hətta danışıq tərzi də ədəbli olmalıdır. Münafiqlərin ədəbsiz danışığı onların daxilindəki nifaqı göstərir.

### *Ayə 31:*

﴿وَلَنَبْلُوَنَّكُمْ حَتَّى نَعْلَمَ ٱلْمُجَاهِدِينَ مِنكُمْ وَٱلصَّابِرِينَ وَنَبْلُوَ أَخْبَارَكُمْ﴾

**"Biz hökmən sizi sınağa çəkərik ki, aranızdakı mücahidləri və səbirliləri müəyyənləşdirək. Xəbərləri (əməllərinizi) sınağa çəkəcəyik."**

### Nöqtələr

"İbtila" dedikdə bəzən həqiqətlərin kəşfi üçün fərdlərin sınağa çəkilməsi, bəzən isə ruhiyyələri müəyyənləşdirmək üçün müxtəlif zəminələr yaratmaq nəzərdə tutulur.[1]

"Hətta nələmə" cümləsi "müəyyənləşdiririk" mənasını bildirir. Nəzərdə tutulan cəhl qarşısında "ilm" kökü yox, nişanə mənasını bildirən "ələm" kökküdür. Yəni ilahi sınaq onları tanımaq əlamətidir.

Ötən ayədə oxuduq ki, Allah bizim əməllərimizi bilir. Onun nəisə öyrənmək üçün sınağa ehtiyacı yoxdur. Sınağa çəkməkdə məqsəd odur ki, insanlar bir iş görüb həmin iş əsasında əvəz alsın. Belə bir misal çəkə bilərik: biz bir şəxsin peşəsini bilsək də həmin şəxs bir iş görməsə ona muzd vermirik. Peşə yox, görülən iş dəyərlidir.

İnsanların bir-birindən seçilməsinin mərhələləri var: birinci mərhələdə insanlar küfr və imana görə seçilir. İkinci mərhələdə iman əhli cihada münasibətinə görə fərqləndirilir. Üçüncü mərhələdə cihada gedənlər səbir və müqavimətinə görə dəyərləndirilir. Bəli, ilahi sınaqlar bir-birinin ardınca mərhələ-mərhələ davam edir.

16-cı ayədən hazırkı ayəyədək dəfələrlə münafiqlər və qəlbixəstə insanlar haqqında danışıldı, onların siması təsvir olundu. İndi isə qruplaşdırırıq:

1. Peyğəmbər (s) buyuruqlarının təhqiri (16-cı ayə)
2. Cihad əmrindən qorxu (20-ci ayə)
3. Yer üzündə fəsad və yaxınlarla əlaqələrin kəsilməsi ( 22-ci ayə)
4. Mürtədlik, haqdan dönüş (25-ci ayə)
5. Şeytanın vədlərinə aldanırlar (25-ci ayə)
6. Fitnəkarlı və başqa müxaliflərlə həmkarlıq (26-cı ayə)
7. Allahın qəzəbinə səbəb olan işlər (28-ci ayə)
8. Allahı razı salan işləri bəyənməmək (28-ci ayə)
9. Kin-küdurət salmaq (29-cu ayə)

Bu çirkin işlər müqabilində Allah onların qəlbini möhürləyir, onları lənətləyir, öz rəhmətindən məhrum edir, əzaba düçar edir, üzlərinə və arxalarına vurulur, əməllər puça çıxarılır.

---

[1] "Mufrədati-rağib"

**Bildirişlər**

1. İnsanların sınağı qəti və hamıya aid olan ilahi sünnələrdəndir.
2. İnsanların kimliyini tanımaq üçün savaş meydanı bir zəmindir. Münafiqlər cəbhədə rüsvay olur.
3. Cihadda səbir və sabitqədəmliyin böyük rolu var.
4. İnsanın iddiaları və sözləri əməl meydanında sınağa çəkilir.
5. İlahi dəyərləndirmə meyarı əməli sınaqlarda müvəffəqiyyətdir.

*Ayə 32:*

﴿إِنَّ ٱلَّذِينَ كَفَرُوا۟ وَصَدُّوا۟ عَن سَبِيلِ ٱللَّهِ وَشَآقُّوا۟ ٱلرَّسُولَ مِنۢ بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ
ٱلْهُدَىٰ لَن يَضُرُّوا۟ ٱللَّهَ شَيْـًٔا وَسَيُحْبِطُ أَعْمَٰلَهُمْ﴾

**"Həqiqətən, küfr edən, Allahdan uzaqlaşdıran, doğru yol aydınlaşdıqdan sonra peyğəmbərə qarşı çıxan kəslər heç vaxt Allaha zərər vura bilməz. Çox çəkməz ki, Allah onların əməllərini puça çıxarar."**

**Nöqtələr**

İnsanlar müxtəlif yollarla Allahdan uzaqlaşdırıla bilər: İlahi qanunların təhrifi, dində bidət (yeniliklər), şəkk-şübhə yaratmaq,[1] ilahi rəhbərləri alçatmaq (onları şair, kahin, sehrbaz, divanə adlandırmaq), iman gətirənləri hədələmək, insanları mənasız işlərə məşğul etmək, savaş və qarşıdurma yaratmaq, əl-ayağı bağlayan qanunlar tənzimləmək, dini işlərə azğınların başçılıq etməsi, ləyaqətli insanlar haqqında şayiələr.

İnsan bəzən haqqı qəbul edib bu yolda addım atmaq əvəzinə haqqa qarşı çıxır, özünü pis kökə salır: Allahla düşmənçilik edib inadkarlıq göstərir, Peyğəmbərlə (s) müxalifətə qalxır, insanlarla düşmənçilik edib onların haqqı qəbul etməsinə mane olur, özünə qarşı düşmən mövqedə dayanıb özü-özünü bədbəxt edir.

**Bildirişlər**

1. Küfr insanın özünə, cəmiyyətə və Peyğəmbərə (s) qarşı zülm qaynağıdır.
2. Allah-taala hidayət və kamal yollarını göstərməklə xəbərdarlığı başa çatdırır. (Haqla tanışlıq insan üçün məsuliyyət yaradır)
3. Azğınların küfr və təlaşı Allaha heç bir ziyan vurmur.
4. Haqqı bildikdən sonra inadkarlıq göstərmək əməlləri puça çıxarır.
5. Bəziləri öz hərəkətləri ilə bütün əməllərini puça çıxarıb mükafatdan məhrum olur.

*Ayə 33:*

[1] "Əraf", 75

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَطِيعُواْ ٱللَّهَ وَأَطِيعُواْ ٱلرَّسُولَ وَلَا تُبْطِلُوٓا أَعْمَالَكُمْ﴾

**"Ey iman gətirənlər! Allaha itaət edin, peyğəmbərə tabe olun və əməllərinizi puça çıxarmayın."**

## Nöqtələr

Ayə və rəvayətlərdən belə görünür ki, bəzi əməllər və danışıqlar xeyir əməlləri puça çıxarır. O cümlədən:

1. Minnət qoymaq, ehtiyaclıları incitmək infaqın mükafatını puç edir.[1]

2. İlahi rəhbərlərə qarşı ədəbsizlik;[2] xeyir işlərinizi puça çıxarmamaq üçün Peyğəmbərdən (s) uca səslə danışmayın.

3. Təkəbbür və həsəd;[3] imam Sadiq (ə) buyurur: "Od çırpını yandırdığı kimi həsəd yaxşılıqları puça çıxarır."[4]

4. Allaha münasibətdə şirk;[5] şirkə yol versən bütün əməllərin məhv olar.

5. Şirkin bir növü olan riya[6]

Hədisdə oxuyuruq ki, əziz Peyğəmbər (s) buyurmuşdur: "Hər kəs bir subhanəllah desə behiştdə onun üçün ağac əkilər." Bir şəxs dedi: "Demək, bizim orada xeyli ağacımız var!" Həzrət yuxarıdakı ayəni oxuyub buyurdu: "Ehtiyatlı olun ki, onları yandıracaq od göndərməyəsiniz."[7]

"La tubtilu əmaləkum" cümləsi üç cür izah oluna bilər:

a) İmanınızı qoruyun, müşrik olmayın ki, əməlləriniz batil olar. Çünki şirk əməlləri puça çıxarır.[8]

b) Peyğəmbərə (s) itaətdən çəkinməklə əməllərinizi məhv etməyin.

v) Peyğəmbərə (s) minnət qoymaqla əməllərinizi məhv etməyin.[9]

## Bildirişlər

1. Quran möminlərə müraciət olsa da bu ünvanın bəzi ayələrin başlanğıcında qeyd edilməsi onların şəxsiyyətinə verilən qiymətdir.

2. Mərhələlərin ardıcıllığını gözləyək. Burada Allahın adı peyğəmbərin adından öncə zikr olunur.

3. Təslimçilik, Allah və Onun rəsulunun göstərişlərinə itaət, iman şərtidir.

4. İlahi göstərişlər iki növdür: Allah tərəfindən olan sabit göstərişlər və İslam hakimi tərəfindən zəruri hallarda dəyişə bilən hökmlər.

5. İslam peyğəmbəri (s) məsumdur. Ona qeyd-şərtsiz itaət həzrətin məsumluğunu və ona itaətin zəruriliyini göstərir.

---

[1] "Bəqərə", 264
[2] "Hucurat", 2
[3] "Məkarimul-əxlaq" duası
[4] "Kafi", c. 2, s. 306
[5] "Zumər", 65
[6] "Nisa", 38
[7] "Təfsiri-nurus-səqəleyn"
[8] "Zumər", 65
[9] "Hucurat", 17

6. Möminlər öz imanları ilə qürrələnməsinlər. Onların əməlləri üçün təhlükə var.

*Ayə 34:*

**﴿إِنَّ ٱلَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ ٱللَّهِ ثُمَّ مَاتُوا وَهُمْ كُفَّارٌ فَلَن يَغْفِرَ ٱللَّهُ لَهُمْ﴾**

**"Həqiqətən, küfr edənlər və Allah yolundan uzaqlaşdıranlar, sonra küfr halında dünyadan gedənləri Allah heç vaxt bağışlamayacaq."**

**Nöqtələr**

Bu ayə möminlərə xitab olan iki ayə arasında yerləşmişdir. Möminlər küfrə aparan irtidad halından xəbərdar edilir. Bu təhlükənin sonu çox pisdir.

Allah bütün günahları bağışlasa da ("Zumər", 53) ölüm vaxtınadək tövbə qapısı açıq olsa da, dünyadan küfr halında gedənlər, mürtəd olub tövbə qılmayanlar, münafiqlər bağışlanmır.[1]

**Bildirişlər**

1. Küfr insanın imanlı olduğu vaxtdakı əməllərini də puça çıxarır.
2. İnsanın mömin və ya kafir vəziyyətdə ölməsi mühümdür.
3. Bir şəxsin küfr və inadkarlığı başqalarını da yaxşılıqdan çəkindirir.
4. İnsan ömrünün son anınadək bağışlana bilər.

*Ayə 35:*

**﴿فَلَا تَهِنُواْ وَتَدْعُواْ إِلَى ٱلسَّلْمِ وَأَنتُمُ ٱلْأَعْلَوْنَ وَٱللَّهُ مَعَكُمْ وَلَن يَتِرَكُمْ أَعْمَالَكُمْ﴾**

**"Süstlük göstərib sazişə çağırmayın. Siz üstünsüz, Allah sizinlədir və heç vaxt əməllərinizdən bir şeyi əskiltməz."**

**Nöqtələr**

"Vətr" sözündən olan "yətirəkum" sözü nöqsan və azaltma mənasını bildirir.

Sual: "Ənfal" surəsinin 61-ci ayəsində buyurulur ki, düşmən sülh üçün ağuş açdığı vaxt siz də qanadlarınızı açın və sülh təklifini qəbul edin. Bu ayədə isə sülh tənqid olunur və bildirilir ki, sülhə getməyin. Vəzifəmiz nədir?

Cavab: Cavab olaraq deyə bilərik ki, hər ayədə müəyyən yön nəzərdə tutulmuşdur. Qorxu və süstlükdən yaranan sülh pisdir. Düşmən də bunu arzu edir.[2] Amma qüdrətli bir məqamda zəifə rəhm etmək bəyənilmişdir. Asta yeriş zəiflik əlaməti olmaya da bilər. Bəzən insan yanındakı körpə uşaqla ayaqlaşmaq üçün iti yerimir. Buyurulur ki, siz ruhiyyə, güc və imakan baxımından ali səviyyədə olmalısınız. Belə bir məqamda düşmən sülh təklif etsə qəbul edin.

---

[1] "Nisa", 48

[2] "Qələm", 9

Allahın möminlərlə birlikdə olması xüsusi bir halı nəzərdə tutur. Burada Allahın mücahidlərə yardımına işarə olunur.[1] Başqa bir ayədə də uyğun məna təsdiqlənmişdir.[2]

Allah "siz üstünsünüz" buyuranda bəziləri düşmənin çoxluğunu görüb şübhəyə düşə bilərdi. Bu səbəbdən də Allah əlavə edir: "Allah sizinlədir."[3]

**Bildirişlər**

1. Mömin süstlüyə yol verməməlidir.
2. Qələbə üçün daxili cəbhədə möhkəmlik əsas şərtdir.
3. İman cəbhəsi sülh təklif etmir. (Amma düşmən sülh təklif etsə məsləhət əsasında qəbul olunur)
4. Müsəlmanlara ruhiyyə verin, onlara öz dəyərlərini xatırladın.
5. İlahi yardımlar daim mücahid möminlərlədir.
6. Allah mücahidlərin mükafatına zamindir.

***Ayə 36:***

**﴿إِنَّمَا ٱلْحَيَاةُ ٱلدُّنْيَا لَعِبٌ وَلَهْوٌ وَإِن تُؤْمِنُوا وَتَتَّقُوا۟ يُؤْتِكُمْ أُجُورَكُمْ وَلَا يَسْـَٔلْكُمْ أَمْوَالَكُمْ﴾**

**"Dünya həyatı oyun-oyuncaq, əyləncədən başqa bir şey deyil. Əgər iman gətirsəniz və qorxsanız, Allah sizə mükafat verər, var-dövlətinizi istəməz."**

**Nöqtələr**

"Lə" dedikdə puç məqsədli iş, "ləhv" dedikdə ağıldan qaynaqlanmayan məşğulluq nəzərdə tutulur.

Ötən ayədə süstlükdən qaynaqlanan saziş qadağan edildi. Bu ayədə isə süstlük yaradan əsas amillərə işarə olunur və bildirilir ki, dünya sizi aldatmasın.

Yusif atası üçün əziz övlad, qardaşları üçün rəqib, karvan əhli üçün qul, Züleyxa üçün məşuq, zindandakılar üçün yuxu yozan idi. Dünya da əksəriyyətin nəzərində oyun-oyuncaq və əyləncədir. Möminlər isə ona başqa gözlə baxır. Dünya həyatı möminlər üçün allahşünaslıq məqsədi, saleh əməl bazarıdır. Bəli, dünya həyatı axirət üçün əkinəcəkdir.

Allah oyun və əyləncə məqsədi ilə nə isə yaratmır.[4] Sadəcə insan yaradılanlardan düzgün istifadə etməməklə onları oyun-oyuncaq, əyləncə, bər-bəzək, təkəbbür vasitəsi qərar verir.

**Bildirişlər**

---

[1] "Təfsiri-fürqan"
[2] "Ənbəkut", 69
[3] "Təfsiri-kəbiri-Fəxr Razi"
[4] "Duxan", 38

1. Dünya həyatına əsirlik və dünyapərəstlik möminləri süstlük və zəifliyə aparan əsas amillərdəndir.

2. İman və təqvadan uzaq dünya oyuncaqdır.

3. Təqva iman əsərlərindəndir və yüksək məqamdır.

4. İman və təqva insan həyatını uğursuzluqdan qurtaran iki amildir.

5. İman və təqvanın var-dövlətlə ziddiyyəti yoxdur.

6. İnfaq, yoxsulları doyurmaq, zəkat, xüms və sədəqə göstərişləri hidayət müqabilində muzd yox, bizim öz inkişafımız üçündür.

*Ayə 37:*

﴿إِن يَسْـَٔلْكُمُوهَا فَيُحْفِكُمْ تَبْخَلُواْ وَيُخْرِجْ أَضْغَانَكُمْ﴾

**"Allah sizdən var-dövlətinizi istəsə və israr etsə, xəsislik göstərərsiniz və (bu) sizin kin-küdurətinzi aşkara çıxarar."**

**Nöqtələr**

"Əhfa" sözündən olan "yuhfikum" sözü tələbdə israr mənasını bildirir. "Əzğan" sözü güclü kin mənasını bildirən "zəğn" sözünün cəm formasıdır.

Bəzi insanlar dünya malına o qədər bağlıdırlar ki, Allah da onlardan bir şey istəyəndə qəlblərində kin saxlayırlar.

**Bildirişlər**

1. İnsanın xasiyyətləri onun ilahi əmr və qadağalara münasibətində özünü göstərir.

2. Dünyaya güclü bağlılıq və xəsislik məzəmmət olunasıdır.

3. Allah insana başağrılı və məşəqqətli işlər əmr etməmişdir. (Allahın qanun və əmrləri insanın istedadlarına və imkanlarına münasibdir. Biz də qanun tənzimləyəndə xalqı nəzərə alaq.)

4. Dostların səmimiyyət və ya kin-küdurəti onların səxavət və xəsisliyində özünü göstərir.

*Ayə 38:*

﴿هَٰٓأَنتُمْ هَٰٓؤُلَآءِ تُدْعَوْنَ لِتُنفِقُواْ فِي سَبِيلِ ٱللَّهِ فَمِنكُم مَّن يَبْخَلُ وَمَن يَبْخَلْ
فَإِنَّمَا يَبْخَلُ عَن نَّفْسِهِۦ وَٱللَّهُ ٱلْغَنِيُّ وَأَنتُمُ ٱلْفُقَرَآءُ وَإِن تَتَوَلَّوْاْ يَسْتَبْدِلْ قَوْمًا غَيْرَكُمْ
ثُمَّ لَا يَكُونُوٓاْ أَمْثَٰلَكُم﴾

**"Agah olun! Allah yolunda infaqa dəvət olunan sizsiniz. Bəziləriniz xəsislik edir. Xəsislik edən özünə edir. Allah varlı və ehtiyacsızdır. Ehtiyaclı sizsiniz. Əgər üz çevirsəniz, Allah sizin yerinizə sizin kimi (süst imanlı və xəsis) olmayan başqasını canişininiz edər."**

**Nöqtələr**

Sual: Ötən iki ayədə buyuruldu ki, biz sizin var-dövlətinizdən bir şey istəmirik. Hansı ki, bu ayədə xalq infaqa dəvət olunur və onlardan nə isə istənilir. Bu ayələr bir araya sığırmı?

Cavab: Ayədə "sizdən bir şey istənilmir" deyilərkən hidayət müqabilində bir şey istənilməməsi nəzərdə tutulur. Bəyan olunur ki, bizim özümüzün sizə heç bir ehtiyacımız yoxdur. Bu ayədə isə infaqa dəvətdə məqsəd ictimai ədalətin və birliyin təmini, kin-küdurətlərin aradan qaldırılması və dostluğun bərpasıdır. Əgər cəmiyyətdəki ayrıseçkiliklər aradan qaldırılmasa təbəqələr arası fərq partlayış həddinə çatar. İnsanlar yalnız özlərinə xatir infaqa dəvət olunur. Bu səbəbdən də Allah-taala buyurur ki, xəsislik edən özünə etmişdir. Allah istənilən bir cəhətdən varlı və ehtiyacsızdır.

Təfsirlərdə yazılır ki, əziz Peyğəmbər (s) "xəsislik etməyəcək qövm kimdir" sualına cavab verərkən əlini Salmanın çiyininə qoydu və buyurdu: "Nəzərdə tutulan Salmanın qövmüdür. (İran əhli) And olsun canım əlində olana! Əgər iman surəyyada (ulduzda) olsa, farslardan bir dəstəsi onu ələ keçirər."[1]

Tərbiyə prosesində bir neçə mərhələ nəzərdə tutulmalıdır: qarşı tərəfə xəbərdarlıq, istək və çağırış, şərh və dəlillər, təkrar və qətiyyət, xəbərdarlığın tamamlanması və hədə.

## Bildirişlər

1. Təbliğdə bəzən qarşı tərəfin diqqətini cəlb edəcək sözlər deyilməlidir.
2. Bacardığınız qədər özünüz infaq edin, varislərinizdən bir şey gözləməyin.
3. Allahın istəyi xalisanə, səmimi əməldir.
4. İnsanları infaqa və ətrafdakılara yardıma dəvət etmək lazımdır. Amma onlar azad buraxılmalıdırlar ki, öz seçimləri ilə addım atsınlar.
5. Xəsislik edib xalqı məhrum etdiyini düşünən insan əslində özünü məhrum edib. O izzətini, Allaha yaxın məqamı əldən çıxarıb.
6. Xəsislik ruhiyyədə olan səciyyədir. Xəsislik etmək üçün varlı olmaq zəruri deyil. Bir çox varlılar xəsis deyil.
7. İnfaqa dəvət Allahın ehtiyaclı olduğunu göstərmir.
8. Təbliğdə qarşı tərəfi qürrələndirəcək sözlər deməyək. (İnfaqa dəvət etməklə yanaşı Allahın ehtiyacsızlığı qeyd olunmalıdır.)
9. Təbliğ və dəvətdə xalqa alçalmamaq, ilahi hökmlərin ucalığını qorumaq lazımdır.
10. Siz ilahi hökmləri yerinə yetirməsəniz də onlar öz gücündədir.
11. Keçmişin tarixi ibrətamiz olduğu kimi gələcək də təsirlidir.
12. İnfaqı tərk etmək o qədər təhlükəlidir ki, buna xatir Allah bir millət və ya bir dövləti məhv edə bilər.
13. Təlim-tərbiyədə bəzən hədələmək lazım gəlir.
14. Yer üzü heç vaxt saleh insansız qalmayacaq. (Yer üzünün höccətsiz (ilahi dəlilsiz) qalmaması ilahi qanundur.)

---

[1] "Təfsiri-məcməül-bəyan", "Təfsiri-əl mizan", "Təfsiri-nümunə", "Təfsiri-kəbiri-Fəxr Razi", "Təfsiri Məraği", "Təfsirul-ruhul-məani", "Təfsiri-Şəbbər"

15. Allah məni və sizi yox, müti bəndələrini özünə yaxın sayır. (İlahi dinin davamı üçün hansısa qrup və ya qövmə ehtiyac yoxdur.)

## "FƏTH" SURƏSİ

### *(48-Cİ SURƏ; 29 AYƏ)*

### *İYİRMİ ALTINCI CÜZ*

### *"FƏTH" SURƏSİNİN SİMASI*

29 ayədən ibarət olan bu surə hicri 6-cı ildə, Hüdəybiyyə sülhündən sonra Mədinədə nazil olmuşdur.

Məkkənin fəthi ilə bağlı müjdə, Hüdəybiyyə sülhü, rizvan beyəti, münafiqlərin pozuculuğu, cihaddan qaçanlar və əziz Peyğəmbərin (s) yaxınlarının simasının təsviri bu surənin əsas mövzularıdır.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1:*

﴿إِنَّا فَتَحْنَا لَكَ فَتْحًا مُّبِينًا﴾

**"Həqiqətən, biz sənə aşkar bir fəth verdik."**

*Ayə 2:*

﴿لِيَغْفِرَ لَكَ ٱللهُ مَا تَقَدَّمَ مِن ذَنبِكَ وَمَا تَأَخَّرَ وَيُتِمَّ نِعْمَتَهُ عَلَيْكَ وَيَهْدِيَكَ صِرَاطًا مُّسْتَقِيماً﴾

**"Belə ki, Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni doğru yola hidayət etsin."**

*Ayə 3:*

﴿وَيَنصُرَكَ ٱللهُ نَصْراً عَزِيزاً﴾

**"Allah sənə yenilməz bir qələbə ilə yardım edər."**

**Nöqtələr**

Birinci ayədəki "fəthən mubina" ("aşkar fəth") ifadəsini təfsirçilər müxtəlif şəkildə şərh etmişlər. Alusi, Əbul-Fütuh, Əllamə Təbatəbai və Feyz Kaşani bildirirlər ki, həmin ifadə Hüdeybiyye sülhünə aiddir. Şeyx Tusi, Zəməxşəri və Fəxr Razi kimi təfsirçilər isə uyğun ifadənin Məkkənin fəthinə işarə olduğunu qeyd edirlər. Hər iki qrup rəvayətlərə istinad edir.

Hudeybiyye sülhü ona görə mühümdür ki, Məkkənin fəthi və digər mühüm qələbələrin başlanğıcı olmuşdur. Həmin vaxtadək müşriklər yalnız müsəlmanların

məhvi haqqında düşünürdülər. Sülhü qəbul etdikdən sonra isə müsəlmanları ciddi şəkildə qəbul etdilər. Bu sülh ictimai-siyasi səhnədə mühüm bir qələbə idi.

Hicri 6-cı ildə Peyğəmbərin (s) ətrafında min dörd yüz nəfər vardısa, iki il sonra Məkkənin fəthində bu say on min nəfərə çatmışdı. Bu baxımdan həmin qələbə aşkar fəth sayılmışdır.

İlahi hidayət üsuli-idarəsində qaranlıq nöqtə yoxdur, hər şey aydındır. Həm göndərilən elçi, həm onun gətirdiyi Quran, həm bəyan dili, həm xəbərdarlıqlar, həm də savaş və sülh aşkar idi.[1] Bütün bu şəffaflıq qarşısında muxalifət göstərənlərin azğınlığı da çox aşkar idi.[2]

Bu ayələrdə əziz Peyğəmbərə (s) altı dəfə xitab olunur. Bu vurğulama İslam peyğəmbərinin (s) xüsusi məqamını göstərir.

"Zənb" sözü hər hansı işin davamı mənasını bildirir. Bu söz daha çox günaha, işin pis sonucuna aid edilir.

Şəksiz ki, haqq üçün görülən hər iş azğınları narahat edir. Onlar haqqa çağırışı günah sayır, bu çağırışa müxtəlif maneələr yaradırlar. Onlar haqpərəstlərə işgəncə verir, onlara böhtan atır, ixtilaf salıb şayiə yayırlar. İman Riza (ə) buyurur: "Müşriklər hamıdan çox Peyğəmbəri (s) günahkar sayırdılar. Çünki Peyğəmbər (s) bütpərəstliklə mübarizə aparırdı. Müşriklərin Məkkənin fəthindən qabaq 360 bütü vardı. Məkkənin fəthi, böyük qələbədən sonra isə iradlar qəlblərdə qaldı.[3]

Allah-taala hicri 2-ci ildə qibləni dəyişdikdən, hicri 6-cı ildə Hüdəybiyyə sülhündən, hicri 8-ci ildə Məkkənin fəthindən sonra gələcəkdə nemətlərin kamilləşəcəyini vəd edirdi. Vida həccində uyğun vəd həyata keçirilir, həzrət Əlinin (ə) canişinliyinin bəyanı ilə nemət başa çatdırılır.[4]

### *Hüdəybiyyə sülhü*

Əziz Peyğəmbər (s) hicri 6-cı ilin zil-qədə ayında Həcc məqsədi ilə Məkkəyə üz tutdu. Müsəlmanlar bu səfərə təşviq olundular. Nəhayət min dörd yüz nəfərlik bir dəstə ehram libasında Məkkəyə yola düşdü. Bu işdən xəbər tutan müşriklər Məkkə yaxınlığında (Hüdəybiyyə kəndində) yolu kəsdilər və müsəlmanları Məkkəyə buraxmaq istəmədilər.

Həmin vaxt hər iki tərəfdən nümayəndələrin görüşü baş tutdu. Müşriklər müsəlmanların Peyğəmbərə (s) aşiqliyini, hətta onun dəstəmazından düşən su damlalarını təbərrük saydığını görüb dedilər: "Xalq ki Məhəmmədi (s) bu qədər sevir, onları Məhəmməddən (s) ayırmaq mümkünsüzdür."

Osman müsəlmanların səfiri ünvanında Məkkəyə yola düşdü. Şayiə yayıldı ki, onu Məkkədə öldürüblər. Peyğəmbər (s) hazırlıq üçün bir ağac altında öz köməkçiləri ilə beyəti təzələdi. Bu beyət rizvan beyəti adlandı.

Bir neçə gün sonra Osman sağ-salamat geri qayıtdı. Tərəflərdən olan nümayəndələrin iştirakı ilə bir neçə maddədən ibarət sülh müqaviləsi hazırlandı və

---

[1] "Duxan", 13; "Hicr", 1; "Nəhl", 103; "Əraf", 184
[2] "Əhzab", 26
[3] "Təfsiri-nurus-səqələyn"
[4] "Maidə", 3

həzrət Əli (ə) tərəfindən yazıya alındı. Tərəflər müqaviləni imzaladılar. Onlar öz öhdələrinə götürdülər ki, on il aralarında sülhü qorusunlar.

Nəzərdə tutulurdu ki, müsəlmanlar geri qayıdıb növbəti il üç gün müddətinə Məkkəyə ümrə üçün gəlsinlər. Peyğəmbərin (s) əmri ilə Həcc məqsədi ilə gətirilmiş dəvələr oradaca qurban kəsildi. Müsəlmanlar başlarını qırxıb ehram halından çıxdılar və Mədinəyə döndülər.

Həmin il müsəlmanlar Həccə getməsələr də, on il sülhə təminat verən müqavilənin imzalanması və ümrə ilə bağlı razılığa gəlinməsi aşkar bir qələbə idi. Bu müqavilə müşriklərin aşkar düşmənçiliyinə son qoydu, dinin təbliği və Məkkənin fəthi üçün zəminə yaratdı.

## Bildirişlər

1. Qələbə bəzən savaşsız da baş tutur. (Allah-taala Hüdəybiyyə sülhünü, Məkkənin fəthini qələbə adlandırır.)
2. Əldə olunmuş qələbəni öz fərasətimiz yox, Allahın lütfü bilək.
3. Əziz Peyğəmbər (s) Allahın xüsusi lütfündən bəhrələnirdi.
4. Hər şey Allahın əlindədir. (Allah istəməyincə heç nə baş tutmaz.)
5. Düşmən üzərində qələbə son məqsəd yox, nemətə çatmaq üçün müqəddimədir.
6. Allah üçün təlaş göstərsək Allah özü düşmənlərimizin cavabını verər və onların cilovunu çəkər.
7. Peyğəmbər özü də Allahın hidayət və tövfiqi ilə doğru yolda irəli gedir.
8. Ən üstün, ən aşkar və ən dəyərli şey Allahın mərhəmət buyurduğu şeydir. Allahın aşkar qələbəsi, neməti tamamlaması, doğru yola hidayəti və nəsib etdiyi qələbədən üstünü yoxdur.

### *Ayə 4:*

﴿هُوَ الَّذِي أَنزَلَ ٱلسَّكِينَةَ فِي قُلُوبِ ٱلْمُؤْمِنِينَ لِيَزْدَادُوٓاْ إِيمَانًا مَّعَ إِيمَانِهِمْ وَلِلَّهِ جُنُودُ ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضِ وَكَانَ ٱللَّهُ عَلِيمًا حَكِيمًا﴾

**"İmanlarının üstünə iman gəlsin deyə möminlərin qəlbinə aramlıq nazil edən Odur. Göylərin və yerin qoşunları Allaha məxsusdur və Allah biləndir, hikmət sahibidir."**

## Nöqtələr

"Səkinə" sözü aramlıq mənasını bildirir. Allah kimə belə bir hal lütf edərsə, həmin şəxs bir çox müsbət nəticələrə çatar. O məzəmmətlərdən qorxmaz, təvəkkül edər, əlindən bir şey çıxanda qəmlənməz, əlinə bir şey gələndə həddini aşmaz. Xalqın diqqəti və ya etinasızlığı, şöhrət və ya adsızlıq, yoxsulluq və ya var-dövlət ona təsir etməz.

Kafirlərin qəlbinə qorxu təlqini ilahi yardımlardan olduğu kimi, möminlərin qəlbinə verilən aramlıq da ilahi bir nemətdir.

### Bildirişlər

1. Ruhi tarazlıq yalnız Allahın lütfü sayəsində əldə olunur. Kimsə insann qəlbini aram edə bilməz.

2. Allahın lütflərinə çatmaq üçün ləyaqət lazımdır.

3. Möminin qəlbi aramlıq yeri, Allah zikri aramlıq vasitəsidir.[1]

4. İmanını dərəcələri var, bu dərəcələr artıb-azala bilər.

5. İman həm aramlığa çatmaq üçün müqəddimə, həm də aramlığın nəticəsidir. (Qəlbə aramlıq əta olunması üçün iman zəruridir. Aramlığın nəticəsi isə imanın yüksəlməsidir.)

6. Allahın yerdəki və göydəki qoşunlarına diqqət aramlıq vasitəsidir.

7. Bütün varlıq Allahın qoşunudur.

8. Allahın lütfü və yardımı elm və hikmətə əsaslanır.

*Ayə 5:*

**﴿لِيُدْخِلَ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا ٱلْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَيُكَفِّرَ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَكَانَ ذَٰلِكَ عِندَ ٱللهِ فَوْزاً عَظِيماً﴾**

**"Belə ki, Allah imanlı kişiləri və qadınları altından çaylar axan bağlara daxil etsin, orada əbədi qalsınlar. Allah onların günahlarını örtər. Bu Allah tərəfindən böyük qurtuluş və nəticədir."**

### Nöqtələr

Birinci və ikinci ayələrdə Allah-taala Peyğəmbərə (s) dörd nemət əta etdiyini buyurur. Dördüncü və beşinci ayələrdə möminlərə əta olunmuş dörd nemət yada salınır. Aşkar qələbə, bağışlanma, nemətin tamamlanması, aşkar qələbə sayəsində yardım Peyğəmbərə (s) əta olunmuş nemətlərdir. Qəlb aramlığı, imanın güclənməsi, behiştə giriş və pisliklərin örtülməsi möminlərə əta olunmuş nemətlərdir.[2]

Quranda kəbir, mubin, əzim sözləri ilə yanaşı qeyd olunmuş "fəvz" sözü xeyir və səadətə çatmaq mənasını bildirir.

Behişt paklıq yeridir. Orada zərrəcə bulaşıqlığa yer yoxdur. Behişt əhlinin büdrəmələri paklandıqdan sonra onlar behiştə daxil olar. Olsun ki, "təkvir" deyərkən günahların bağışlanması yox, onların behiştdəkilərin zehnindən silinməsi nəzərdə tutulur. İnsanın ətrafındakılar onun günahını yaddan çıxardıqda insan xəcalət hissindən qurtulur.

### Bildirişlər

1. İlahi aramlığın nazil olması imanın artması və behiştə giriş üçün səbəbdir.

2. Qadınlar da kişilərlə yanaşı qurtuluşa çatar. (Məkkənin fəthi kişilərin vasitəsi ilə gerçəkləşsə də onlarla həm fikir qadınlar da öz vəzifələrinə əməl edib

---

[1] "Maidə", 113

[2] "Təfsiri Mərağı"

ərlərinin və oğullarının cəbhəyə getməsi ilə razılaşdılar. Buna görə onlar da mükafat alasıdır.)

3. İmanlı olmaq o demək deyil ki, insanın heç bir büdrəməsi olmamalıdır.

4. Möminlərin büdrəmələri bağışlandıqdan, onlara göz yumulduqdan sonra behiştə daxil olmaq ləyaqəti qazanırlar.

5. Böyük səadət və qurtuluş dünyada və axirətdə aram qəlbdir. (Təkcə dünyaya aid olan səadət dəyərli deyil.)

*Ayə 6:*

﴿وَيُعَذِّبَ ٱلْمُنَافِقِينَ وَٱلْمُنَافِقَاتِ وَٱلْمُشْرِكِينَ وَٱلْمُشْرِكَاتِ ٱلظَّآنِّينَ بِاللَّهِ ظَنَّ ٱلسَّوْءِ عَلَيْهِمْ دَائِرَةُ ٱلسَّوْءِ وَغَضِبَ ٱللهُ عَلَيْهِمْ وَلَعَنَهُمْ وَأَعَدَّ لَهُمْ جَهَنَّمَ وَسَآءَتْ مَصِيراً﴾

**"Allah Ona münasibətdə bədgüman münafiq və müşrik kişiləri və qadınları əzaba düçar etsin! Pislik onları bürümüşdür. Allah onlara qəzəblənmiş, onları öz rəhmətindən uzaqlaşdırmış və onlar üçün cəhənnəmi hazırlamışdır. Çox pis sonluqdur."**

*Ayə 7:*

﴿وَلِلَّهِ جُنُودُ السَّمَاوَاتِ وَٱلْأَرْضِ وَكَانَ ٱللَّهُ عَزِيزاً حَكِيماً﴾

**"Göylərin və yerin qoşunları Allaha məxsusdur. Allah yenilməz, hikmət sahibidir."**

**Nöqtələr**

"Dairətus-səvi" ifadəsi acı və əhatəli hadisə mənasını bildirir.[1]

Allah-taalanın əziz Peyğəmbərə (s) və möminlərə dörd lütfünün bəyanından sonra bu ayədə münafiqlər və müşriklər bir neçə əzabla hədələnir.

Bu ayədə münafiqlər müşriklərdən öncə zikr olunur. Belə görünür ki, nifaq şirkdən, münafiq müşrikdən pisdir.

Olsun ki, münafiqlər və müşriklər üçün nəzərdə tutulmuş əzab dedikdə axirət əzabı yox, Hüdəybiyyə sülhü və Məkkənin fəthindən sonra onları yaxalamış sıxıntı nəzərdə tutulmuşdur.

Hədisdə oxuyuruq: Allah-taala tövbə və istiğfardan sonra heç bir bəndəni əzaba salmır. İnsan yalnız Allaha bədgümanlıq və başqasına ümid bağladığından əzaba düşə bilər. Rəvayətin davamında imamın hazırkı ayəni tilavət etdiyi bildirilir.[2]

"Göylərin və yerin qoşunu Allaha məxsusdur" cümləsi dördüncü ayədə möminlərə lütf olaraq, hazırkı ayədə müşriklərə və kafirlərə əzab kimi bəyan olunur.

Allah möminlərə xeyir üçün qoşunlar göndərdikdə özünü hikmət sahibi kimi tanıtdırır. Qoşular əzab üçün göndərildikdə isə Allah öz yenilməzliyini və hikmət

[1] "Mufrədate-rağib"

[2] "Bihar", c. 67, s. 399

sahibi olduğunu qeyd edir. Allah möminlərin nəzərinə onların işlərindən xəbərdarlığını, müxaliflərin nəzərinə öz yenilməzliyini çatdırır. Hər iki halda intiqam üçün yox, hikmət əsasında rəftar edildiyi bildirilir.

**Bildirişlər**

1. Yaxşılar təşviq edilərkən azğınların da hədələnməsi lazım gəlir.
2. Eyni bir hadisə bir qrup üçün faydalı, o birisi üçün əzab ola bilər. Aşkar fəth möminlər üçün ilahi lütüf, başqaları üçün əzab idi.
3. Qadınlar da yaxşı və pis sifətlərə yiyələnməkdə kişilər kimidirlər.
4. Allaha münasibətdə bədgümanlıq münafiqlərin və kafirlərin işidir. Möminlər isə Allaha münasibətdə ümidli və məhəbbətlidirlər, Ona təvəkkül edirlər.
5. Münafiqlər və müşriklər şeytənət və azğınlıqda bir-birləri ilə həmfikir və yoldaşdırlar.
6. Mömin öz imanına xatir aramdır. Müşriklər və münafiqlər isə öz azğınlıqları və Allaha münasibətdə bədgümanlıqları səbəbindən iztirab içindədirlər.
7. Münafiqlər və müşriklər dünya və axirətdə Allahın lənətindən uzaqdırlar.
8. Allah öz işini səbəblər vasitəsi ilə həyata keçirir.
9. Allah möminlərə lütüf, kafir və münafiqlərə əzab üçün qoşunlara malikdir.
10. İlahi qüdrətin nümayişi möminlərdə təqva və eşq yaranışında səmərəlidir.

*Ayə 8:*

﴿إِنَّا أَرْسَلْنَاكَ شَاهِداً وَمُبَشِّراً وَنَذِيراً﴾

**"Həqiqətən, biz səni (onların əməllərinə) şahid, müjdəçi və qorxudan kimi göndərdik."**

*Ayə 9:*

﴿لِتُؤْمِنُوا بِاللهِ وَرَسُولِهِ وَتُعَزِّرُوهُ وَتُوَقِّرُوهُ وَتُسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلاً﴾

**"Belə ki Allaha və Onun rəsuluna iman gətirəsiniz, Ona yardım göstərəsiniz, onu böyük tutasınız, səhər-axşam Allaha təsbih deyəsiniz."**

**Nöqtələr**

"Təzir" sözündən olan "tuəzziruhu" sözü ayırmaq mənasını bildirir. Bu söz həzrət Peyğəmbərin (s) istənilən əzab-əziyyətdən hifz olunmasına işarədir.

Olsun ki, şahid deyərkən kamil bir nümunənin təqdimatı nəzərdə tutulur. Yəni Peyğəmbər (s) bütün ölçülərdən kamil insan nümunəsidir.

"Tuəzziruhu" və "tuvəqqiruhu" sözləri Allaha aid ola bilər. Bu sözlərin Peyğəmbərə (s) də aid olması mümkündür. Peyğəmbərin (s) böyük tutulması elə Allahın böyük tutulmasıdır.

**Bildirişlər**

1. Peyğəmbər (s) bütün hallarda bizim əməllərimizə şahiddir.

2. Əməllərimizə nəzarət, qorxu və müjdə Peyğəmbərin (s) vəzifəsidir. İnsanların vəzifəsi isə ilahi hədləri və Peyğəmbəri (s) qorumaq, onu uca tutmaqdır.

3. Müjdə və xəbərdarlıqla yanaşı nümunə təqdim olunması Allahın tərbiyə və hidayət üsullarındandır.

4. Müjdə və xəbərdarlıq, təşviq və tənbeh bəşəriyyətin doğru yol seçməsi üçün iki zəruri ehtiyacdır.

5. Dini hədləri və Peyğəmbəri (s) qorumaq iman şərtidir.

6. Peyğəmbərdən qorxu ehtiram, eşq və mərifətlə müşayiət olunmalıdır.

7. Daim Allahı yadda saxlamalıyıq. Günün başlanğıcı və sonu zikr və dua üçün ən yaxşı vaxtlardır.

***Ayə 10:***

﴿إِنَّ ٱلَّذِينَ يُبَايِعُونَكَ إِنَّمَا يُبَايِعُونَ ٱللهَ يَدُ ٱللهِفَوْقَ أَيْدِيهِمْ فَمَن نَّكَثَ فَإِنَّمَا
يَنكُثُ عَلَى نَفْسِهِ وَمَنْ أَوْفَى بِمَا عَاهَدَ عَلَيْهُ ٱللهُ فَسَيُؤْتِيهِ أَجْراً عَظِيماً﴾

**"Həqiqətən, sənə beyət edənlər əslində Allaha beyət edirlər. Allahın (qüdrət) əli onların əlindən yuxarıdır. Hər kəs əhdi pozsa öz ziyanınadır. Hər kəs Allahla bağladığı əhdə vəfa qılsa, Allah tezliklə ona böyük mükafat verəcək."**

## Nöqtələr

"Beyət" dedikdə əhd-peyman nəzərdə tutulur. Bir şəxsə beyət edən kəs öz canını və malını həmin şəxsin amalları yolunda qurban verməyə hazırlığını bildirir.[1] Cabir ibn Əbdüllah Ənsari deyir: "Biz həmin rizvan beyəti günü ağac altında canımızdan keçəcəyimizi və qaçmayacağımızı bildirərək Peyğəmbərə (s) beyət etdik."

Vəfalı insanlara lütfün bəyanında hazırkı ayədə iki təbir işlədilir: "Allahın əli onların əlindən yuxarıdır" və "böyük mükafat." Əhdi pozanlara münasibətdə qəzəbin bəyanında isə bir təbir işlədilir: "Öz ziyanlarına əhdi pozurlar."

## Bildirişlər

1. Peyğəmbərə (s) iman, onun böyük tutulması əhd şəklində, həmişəlik olmalıdır. Belə bir əhd müvəqqəti və mövsümi ola bilməz.

2. İnsanlardan beyət alınması tövhid və təvəkkül prinsiplərinə zidd deyil.

3. Peyğəmbərin (s) əməlləri və qərarları Allahın iradəsinin gerçəkləşməsidir. Peyğəmbər (s) Allahın iradəsi olmadan addım atmır.

4. Peyğəmbərə beyət Allaha beyətdir.

5. Müsəlmanların rəhbəri böhranlı şəraitlərdə xalqın vəfadarlığını möhkəmləndirərək onlardan beyət almalıdır. (Ayənin nazil olma şənindən belə

[1] "Təfsiri-məcməül-bəyan"

məlum olur ki, İslam peyğəmbəri (s) Hüdəybiyyə sülhündən qabaq böhranlı şəraitdə xalqdan beyət aldı.)[1]

6. İlahi rəhbərə himayədarlıq Allaha himayədarlıqdır.

7. Xalqın beyət və himayəsi sizi qürrələndirməsin Allahın qüdrəti bütün qüdrətlərin fövqündədir.

8. Allahın kimsənin himayəsindən ehtiyacı yoxdur. Əhdi pozmayın, bütün qüdrətlərin fövqündə olan Allahla tərəf-müqabili olduğunuzu yadda saxlayın.

9. Əhdi pozmaq insanın özünü məhv etməsidir.

10. İnsanlara salehlərin və azğınların aqibəti haqqında danışın ki, müqayisə edib seçim aparsınlar.

***Ayə 11:***

**﴿سَيَقُولُ لَكَ ٱلْمُخَلَّفُونَ مِنَ ٱلْأَعْرَابِ شَغَلَتْنَآ أَمْوَالُنَا وَأَهْلُونَا فَاسْتَغْفِرْ لَنَا يَقُولُونَ بِأَلْسِنَتِهِم مَّا لَيْسَ فِي قُلُوبِهِمْ قُلْ فَمَن يَمْلِكُ لَكُم مِّنَ ٱللهِ شَيْئاً إِنْ أَرَادَ بِكُمْ ضَرًّا أَوْ أَرَادَ بِكُمْ نَفْعًا بَلْ كَانَ ٱللهُ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾**

**"Savaşdan qalmış və cihaddan qaçmış ərəblər tezliklə (əməllərinə don geyindirmək üçün) sənə deyəcəklər: "Malımız və ailəmiz başımızı qatdı (sənə qoşula bilmədik). Bizim üçün bağışlanma dilə." Onlar qəlblərində olmayan bir şeyi dillərinə gətirirlər. (Onlara) De ki, Allah sizə ziyan vurmaq və ya xeyir vermək istəsə Allahın qarşısında sizi kim müdafiə edə bilər?! Allah gördüyünüz işlərdən agahdır."**

## Nöqtələr

"Ərab" dedikdə cəmiyyətdən uzaq bədəvi ərəblər nəzərdə tutulur. Onlar mədəniyyətdən uzaq düşənlərdir. Şübhəsiz ki, burada şəhər əhli olmayanlar nəzərdə tutulmur. Peyğəmbərin (s) əmrlərinə itaətsizlik göstərənlər bir növ mədəniyyətdən uzaq düşmüşlər.

Cəbhəyə getməyənlər öz əməllərinə don geyindirir: Gah deyirlər ki, hava istidir,[2] gah deyirlər ki, düşmən çoxdur, biz gücsüzük,[3] gah deyirlər ki, evlərimizin qapı-bacası, divarları yoxdur, nigaranıq,[4] gah deyirlər ki, Rum qızlarına baxıb günaha düşməkdən qorxuruq, bizi savaşa aparıb fitnəyə salma.[5] Bəzən də bildirirlər ki, var-dövlətimiz, ailəmiz başımızı qatdı, savaşa gedə bilmədik.

Cihaddan qaçanlar adətən qorxunu ehtiyat, tamahkarlığı təminat, iradəsizliyi həya, süstlüyü zöhd, qəza-qədər qarşısında zəifliklərini riyazət kimi təqdim edirlər.

## Bildirişlər

---

[1] "Təfsiri-rahnoma"
[2] "Tövbə", 81
[3] "Bəqərə", 249
[4] "Əhzab", 13
[5] "Tövbə", 49

1. Cihadda süstlük səbəblərindən biri mədəniyyətin zəif olmasıdır.

2. Rəhbər gələcəyi görməli, müxaliflərin və münafiqlərin planlarını öncədən dəyərləndirib cavab verməlidir.

3. Müxaliflər və azğınlar öz işlərinə don geyindirirlər.

4. İqtisadi məsələlərə və ailə məsələlərinə diqqət bəzilərini ilahi əmrlərə itaətdən və cihaddan saxlayır.

5. Cihaddan qaçmaq günahdır.

6. Peyğəmbərin (s) başqalarına duası qəbuldur. Bu səbəbdən insanlar Peyğəmbəri (s) vasitə seçir.

7. Bəzən ifşa etmək zəruridir.

8. Cihaddan qaçmaqla malı və canı qorumaq olmaz.

9. Əqidə məktəbini qorumaq vacibdir. İnsan zərərə düşsə belə bu addımı atmalıdır.

10. Munafiqlər və cihaddan qaçanlar sanki Allahın bütün işlərdən xəbərdar olduğunu bilmirlər. Əgər bilirlərsə bir bu qədər nifaq nə üçün?!

***Ayə 12:***

﴿بَلْ ظَنَنتُمْ أَن لَّن يَنقَلِبَ ٱلرَّسُولُ وَالْمُؤْمِنُونَ إِلَى أَهْلِيهِمْ أَبَداً وَزُيِّنَ ذَلِكَ فِي قُلُوبِكُمْ وَظَنَنتُمْ ظَنَّ ٱلسَّوْءِ وَكُنتُمْ قَوْمًا بُوراً﴾

**"İaətsizliyinizin və cihaddan qaçmağınızın səbəbi bu oldu ki (Peyğəmbərin və möminlərin öz ailələrinin yanına heç vaxt dönməyəcəyini güman etdiniz. Bu sizin qəlbinizdə xoş göründü. Bədgümanlıq etdiniz və (bu sayağı) bədbəxt camaat oldunuz."**

***Ayə 13:***

﴿وَمَن لَّمْ يُؤْمِن بِاللهِ وَرَسُولِهِ فَإِنَّآ أَعْتَدْنَا لِلْكَافِرِينَ سَعِيراً﴾

**"Allaha və Onun peyğəmbərinə imanı olmayan hər kəs (bilsin ki) kafirlər üçün şölələnən od hazırlamışıq."**

**Nöqtələr**

"Bur" dedikdə müflislik, rüsvayçılıq və həlakət başa düşülür

İnsan fitrətinin çirkin saydığı işləri şeytan və nəfs bəzəyib xoş göstərir.

Cihaddan qaçanlar elə düşündülər ki, müsəlmanlar məğlub olub öldürüləcəklər. Onlar özlərini qorxuya, məhrumiyyətə və rüsvayçılığa saldılar.

**Bildirişlər**

1. Allah insanların iç fikirlərindən agahdır və bir gün sirləri açar.

2. İnsanı pərişan edən bir çox düşüncələr və təhlillər həqiqətdən uzaqdır.

3. Bəzən bədgümanlıq və azğın fikirlər insana o qədər təsir göstərir ki, onu bədbəxtliyə sürükləyir.

4. Məğlubiyyət qorxusu cihaddan uzaqlıq amillərindəndir.

5. Ailəyə həddindən artıq bağlılıq insanı cihaddan çəkindirən amildir.

6. İnsan bəzən ailəyə o qədər bağlanır ki, hətta ailə-övlada xatir Allahdan və Peyğəmbərdən (s) üz çevirməyə razı olur.

7. Bədgümanlıq və yersiz mülahizələr insanın qəlbini öldürür, onun şəxsiyyətini puça çıxarır.

8. Peyğəmbər göstərişlərinə itaətsizlik imanın həqiqi olmadığını göstərir və imansızlıq üçün zəmin yaradadır.

***Ayə 14:***

**﴿وَلِلَّهِ مُلْكُ ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضِ يَغْفِرُ لِمَن يَشَآءُ وَيُعَذِّبُ مَن يَشَآءُ وَكَانَ اللَّهُ غَفُوراً رَّحِيماً﴾**

**"Göylərin və yerin hakimiyyəti Allaha məxsusdur. O istədiyini (layiq bilib) bağışlayar, istədiyini (layiq bilməyib) əzaba salar. Allah bağışlayan və mehribandır."**

**Nöqtələr**

Allah ədalətli və hikmət sahibi olduğundan insanların ləyaqəti əsasında onları bağışlayır və ya cəzalandırır.

Ayədə öncə mərhəmətdən, sonra əzabdan danışılır. Aydın olur ki, Allahın lütfü qəzəbindən öndədir.

**Bildirişlər**

1. Yalnız mütləq qüdrətə malik olan kəs bağışlamaq haqqına malikdir.

2. Qorxu və ümidin yanaşı olması zəruridir.

3. Tövbə qapısı hamının üzünə açıqdır.

4. Allah keçmişi bağışlamaqla yanaşı öz mərhəməti ilə insanın gələcəyini təmin edir.

5. Allah ehtiyaclı olduğu üçün yox, bağışlayan və mehriban olduğundan əfv edir.

***Ayə 15:***

**﴿سَيَقُولُ ٱلْمُخَلَّفُونَ إِذَا ٱنطَلَقْتُمْ إِلَى مَغَانِمَ لِتَأْخُذُوهَا ذَرُونَا نَتَّبِعْكُمْ يُرِيدُونَ أَن يُبَدِّلُواْ كَلَامَ ٱللهِ قُل لَّن تَتَّبِعُونَا كَذَٰلِكُمْ قَالَ ٱللهُ مِن قَبْلُ فَسَيَقُولُونَ بَلْ تَحْسُدُونَنَا بَلْ كَانُواْ لَا يَفْقَهُونَ إِلَّا قَلِيلاً﴾**

**"Qənimət ardınca (xeybərə) hərəkət etdiyiniz vaxt (Hüdəybiyyəyə) müxaliflər deyərlər: "Qoyun biz də arxanızca gələk." Onlar Allahın sözünü (Allah buyurub ki, xeybərdə yalnız Hüdəybiyyə səhabələri iştirak etsin) dəyişmək istəyirlər. (Onlara) De ki, siz heç vəchlə bizim ardımızca gəlməməlisiniz. Allah öncədən belə buyurub. Onlar tezliklə deyərlər ki, siz bizə həsəd aparırsınız. (İstəmirsiniz ki, qənimətdən bizə də pay düşsün) Xeyir, onlar çox az başa düşürlər."**

### Nöqtələr

Ayənin nazil olma şənində deyilir ki, Allah-taala öz Peyğəmbərinə (s) buyurdu: "Xeybər cəbhəsində yalnız Hüdəybiyyədə olanlar iştirak etsin." Amma Hüdəybiyyədə olmayan müxaliflər. Bu göstərişi dəyişmək istədilər. Onlar ya keçmiş günahlarını yumaq, ya da qənimət əldə etmək üçün xeybərə can atırdılar.[1]

12 və 13-cü ayələrdə Hüdəybiyyədə iştiraka icazə verilməməsinin səbəbi kimi müxaliflərin Allaha qarşı bədgümanlığı və zəif imanlı olmaları bildirilir. Onlar xeybərdə iştirak etməklə imanlı olduqlarını və bədgümanlıqdan uzaqlıqlarını sübuta yetirmək istədilər. Onlar haqlarında deyilənlərin doğru olmadığını göstərmək istəyirdilər.

### Bildirişlər

1. Uğursuzluqların aradan qaldırılması, möminlərin imanın gücləndirilməsi üçün onların qələbənin labüd olduğu səhnələrdə iştirakı lazımdır. Allah Hüdəybiyyədəki çətinlikləri xeybər qənimətləri ilə aradan qaldırdı.
2. Fürsət gözləyən bir qrup qənimətlər bölünən zaman səhnəyə atılır.
3. Müxaliflərin istəklərindən biri də Allahın əmrini pozmaqdır.
4. Mücahidlər üçün xüsusi hesab açmaq və müxalifləri rədd etmək lazımdır.
5. Dediklərinizi Allah kəlamı ilə əsaslandırın.
6. Hədə-qorxudan və böhtandan qorxmayın.
7. Düşmən şəraitə uyğun davranır, şüar verir. Onlar daim haldan-hala düşürlər. Öncə Allahın buyuruğunu dəyişmək istəyirlər. Elə ki müvəffəq olmadılar möminləri paxıllıqda suçlayırlar.
8. Dar baxışlı insanlar pis əməllərini dəyərləndirərkən özlərini qınaq əvəzinə möminləri paxıllıqda itdiham edirlər.

### *Ayə 16:*

﴿قُل لِّلْمُخَلَّفِينَ مِنَ ٱلْأَعْرَابِ سَتُدْعَوْنَ إِلَى قَوْمٍ أُوْلِي بَأْسٍ شَدِيدٍ تُقَاتِلُونَهُمْ أَوْ يُسْلِمُونَ فَإِن تُطِيعُواْ يُؤْتِكُمُ ٱللهُ أَجْرًا حَسَنًا وَإِن تَتَوَلَّوْاْ كَمَا تَوَلَّيْتُم مِّن قَبْلُ يُعَذِّبْكُمْ عَذَابًا أَلِيماً﴾

**"Müxalif çıxan bədəvi ərəblərə de ki, tezliklə güclü bir qövmə qarşı (savaş üçün) çağırılacaqsınız. Ya onlarla vuruşun, ya da İslamı qəbul etsinlər. Əgər itaət etsəniz Allah sizə yaxşı mükafat verəcək. Əgər boyun qaçırsanız, necə ki bundan öncə itaətsizlik etdiniz, sizi ağrılı əzaba düçar edəcək."**

### Bildirişlər

1. Müxaliflərlə danışıq üçün yol saxlayın.

---

[1] "Təfsiri-məcməül-bəyan"

2. Quranın möcüzələrindən biri də gələcəkdən xəbər verməsidir.
3. Müxaliflərə ardıcıl şəkildə baykot etməyin, onlara tövbə yolu saxlayın.
4. Düşməni sadə və gücsüz bilməyin.
5. Mücahidlər agahlıqla döyüşməli, düşmənin hərbi təchizatından öncədən xəbərdar olmalıdır.
6. Həqiqətləri bəyan edərkən düşmənçilikləri bir kənara qoyaq.
7. Düşmənin gücü insanı vəzifədən agah etmir.
8. Müsəlmanlar o qədər hərbi gücə malik olmalıdırlar ki, düşmən geri çəkilməyə məcbur olsun.
9. Savaş meydanında kimin sədaqətli, kimin riyakar olduğu üzə çıxır.
10. Xeyir əməllər keçmişdəki pis əməlləri yuyur.
11. Təlim-tərbiyə və təbliğdə təşviq və mükafata məzəmmət və hədəyə münasibətdə önəm verin.
12. Təşviq və tənbeh yanaşı olmalıdır.

*Ayə 17:*

﴿لَيْسَ عَلَى ٱلْأَعْمَىٰ حَرَجٌ وَلَا عَلَى ٱلْأَعْرَجِ حَرَجٌ وَلَا عَلَى ٱلْمَرِيضِ حَرَجٌ وَمَن يُطِعِ ٱللَّهَ وَرَسُولَهُ يُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا ٱلْأَنْهَارُ وَمَن يَتَوَلَّ يُعَذِّبْهُ عَذَاباً أَلِيماً﴾

**"(Cihada getmədiyi üçün) Kora günah yox, topala günah yox, xəstəyə günah yox. Allah Ona və rəsuluna tabe olanları ağacları altından çayalar axan bağlara daxil edər. Boyun qaçıranı isə ağrılı əzaba düçar edəcək."**

**Nöqtələr**

Korluq, hərəkət qabiliyyətinin olmaması və xəstəlik cəbhəyə getməmək üçün üzürdür. Boyun gödəkliyi və bu kimi başqa səciyyələr üzür sayılmır. Kor, topal və xəstə başqaları kimi hərəkət etnək gücündə deyil.

Bəziləri üçün cəbhəyə getmək vacib olmasa da, onlar mücahidlərə xeyirxahlıq göstərməlidirlər.[1]

**Bildirişlər**

1. Qanun verən kəs bütün amilləri nəzərə almalıdır. Xüsusi hallar üçün xüsusi qanunlar tənzimlənməlidir.
2. Əlillər özlərini təhqir olunmuş hiss etməsinlər, onlara heç bir məzəmmət yoxdur.
3. İnsan öz güc və qüdrəti həddində vəzifəlidir.
4. Üzürlü insanlar behiştdən məhrum edilmir. Bir şərtlə ki, gücləri həddində tabe olsunlar.
5. Peyğəmbər (s) məsumdur. Bu səbəbdən də ona itaət Allaha itaət sayılır.

[1] "Tövbə", 91

6. Behiştə daxil olmaq üçün əsas meyar itaətdir. Bəzən şəfaət də bu istiqamətdə təsirli olur.

*Ayə 18:*

﴿لَقَدْ رَضِيَ ٱللهُ عَنِ ٱلْمُؤْمِنِينَ إِذْ يُبَايِعُونَكَ تَحْتَ الشَّجَرَةِ فَعَلِمَ مَا فِي قُلُوبِهِمْ فَأَنزَلَ ٱلسَّكِينَةَ عَلَيْهِمْ وَأَثَابَهُمْ فَتْحاً قَرِيباً﴾

**"Həqiqətən (Hüdəybiyyədə) həmin ağac altında sənə beyət etdikləri vaxt Allah möminlərdən razı qaldı. Allah onların qəlblərində olanı bildi. Bu səbəbdən də onlara aramlıq göndərdi. Yaxın bir qələbə onlar üçün mükafat qərar verildi."**

*Ayə 19:*

﴿وَمَغَانِمَ كَثِيرَةً يَأْخُذُونَهَا وَكَانَ ٱللهُ عَزِيزاً حَكِيماً﴾

**"Ələ keçirəcəkləri bir çox qənimətlər (nəzərdə tutuldu). Allah yenilməzlik və hikmət sahibidir."**

**Nöqtələr**

Qayda belə idi ki, müamilə həyata keçdikdən sonra tərəflər görüşürdülər. Buna beyət deyilirdi. Amma həmin vaxtdan başlayaraq istənilən bir öhdəçilik və əl tutmaq beyət adlandırıldı.

Peyğəmbər və imama beyət onların Allah tərəfindən təyinatına zidd deyil. Allah peyğəmbər və imamı təyin edir, insanlar öz mütiliklərini göstərərək beyət əli uzadırlar.

"Əl şəcərə" dedikdə Hüdəybiyyə məntəqəsindəki ağac nəzərdə tutulur. İnsanlar həmin ağac altında Peyğəmbərə (s) beyət etdilər. Allah bu beyətə münasibətdə razılığını bildirdiyindən həmin beyət "rizvan" beyəti adlandırıldı.

Beyət şəri bir öhdəçilikdir və ona əməl etmək vacib, onu pozmaq haramdır.

**Bildirişlər**

1. Peyğəmbərə (s) sədaqətlə müşayiət olunan iman Allah tərəfindən razılıqla qarşılanır.

2. Din siyasətdən ayrı deyil. Allah ictimai-siyasi məsələlərdə onun Peyğəmbərinə (s) beyət edənlərdən razıdır.

3. Mühüm hadisələrin qeydə alınması üçün həmin hadisələri fərqləndirən nişanələr sadalanmalıdır.

4. İlahi lütflər səmimi və sədaqətlə rəftar edən insanlara məxsusdur.

5. Aramlıq yalnız möminlərə nəsib olan ilahi hədiyyədir.

6. Xalis və sədaqətli niyyət maddi ləzzətlərə zidd deyil.

7. İlahi Peyğəmbərə (s) sədaqət dünya və axirət lütflərindən faydalanma rəmzidir.

8. Mənəvi nemətlər maddi nemətlərdən ucadır.

9. İnsanın bir səmimi hərəkəti müqabilində bir çox ilahi lütf nəzərdə tutulmuşdur.

10. Aramlıq qələbə üçün müqəddimədir.

11. Qələbələri Allahın lütfü bilək.

12. Əgər çalışıb ləyaqət əldə etsək, ilahi vədlər gerçəkləşəsidir. Allah öz vədlərini yerinə yetirməyə qadirdir.

***Ayə 20:***

**﴿وَعَدَكُمُ ٱللهُ مَغَانِمَ كَثِيرَةً تَأْخُذُونَهَا فَعَجَّلَ لَكُمْ هَذِهِ وَكَفَّ أَيْدِيَ ٱلنَّاسِ عَنكُمْ
وَلِتَكُونَ ءَايَةً لِّلْمُؤْمِنِينَ وَيَهْدِيَكُمْ صِرَاطاً مُّسْتَقِيماً﴾**

**"Allah sizə bir çox qənimətlər vəd etmişdir və onları alacaqsınız. Bunu (xeybər qənimətlərini) sizin üçün tez bir vaxtda hazırladı və insanların sizə uzanan əllərini tutdu. Belə ki, möminlər üçün nişanə olsun və sizi doğru yola hidayət etsin."**

## Nöqtələr

Ötən iki ayədə Peyğəmbərə (s) beyət edənlərə yaxın qələbə vəd olundu. Təbəri, Şeyx Tusi, Zəməxşəri, Məraği, Təbərsi kimi bəzi təfsirçilərin nəzərincə, ayədə xeybərin fəthi nəzərdə tutulmuşdur. Xeybər qalası Mədinənin 200 kilometrliyində idi. Uca hasara alınmış bu qalada on min nəfər yəhudi yaşayırdı. Qalanın ətrafında əkin sahələri vardı. Qala çox möhkəm idi, onun qapılarını 40 nəfər hərəkət etdirirdi.

Xeybər qalası düşmənlər üçün sığınacaq, casus yuvası olduğundan Hüdəybiyyə sülhündən bir ay sonra müsəlmanlar həmin qalaya üz tutdular. Öncə komandanlığı öhdəsinə götürənlər bir iş görə bilmədilər. Nəhayət Peyğəmbər (s) buyurdu: "Sabah bayrağı elə birinin əlinə verəcəyəm ki, Allah və rəsulu ondan razıdır, onu sevir." Növbəti gün Peyğəmbər (s) bayrağı imam Əliyə (ə) verdi.

Allah Peyğəmbərinin doğru yolda olduğunu qeyd etsə də[1] Peyğəmbər (s) yenə də öz namazlarında Allahdan doğru yola hidayət diləməli idi.

Nafilə namazlarının Peyğəmbərə (s) vacib olması, vacib və müstəhəb 51 rəkət namazın 44 rəkətində həmd surəsinin Allah tərəfindən sığortalanmış bir kəsə vacib buyurulması insan üçün bütün hallarda çaşqınlıq təhlükəsinin böyüklüyünü göstərir.

## Bildirişlər

1. Savaş və cihadda qənimət ələ keçirmək caiz işdir və Allahın vədələrindəndir.

2. Müsəlmanların iqtisadi inkişafı Allahın nemətlərindəndir və insanları təşviq edir.

3. Allah müsəlmanlara təkcə qənimət vəd etməmişdir.

4. Bəzi hallarda tələsmək bəyənilir.

---

[1] "Yasin", 3-4

5. Qənimət əmin-amanlıq şəraitində daha şirin olur.

6. Düşmənin sizdən əl çəkməsi də ilahi nemətdir.

7. Hadisələri, qarşılaşdığınız rəftarları acı saymayın. Hər bir hadisə Allahın qüdrətindən danışır.

8. Qənimət, əmin-amanlıq və doğru yola hidayət möminlər üçün mükafatdır.

9. Var-dövlət insanın büdrəməsinə şərait yaradan təhlükələrdəndir. Var-dövlət o vaxt nemətdir ki, hidayətlə müşayiət olunsun.

10. Doğru yola hidayət istəyi heç vaxt tərk olunmamalıdır. Hətta Peyğəmbərə (s) beyətdən, qələbədən, qənimət və Allahın razılığını əldə etdikdən sonra doğru yolda sabitqədəmlik istənilməlidir.

***Ayə 21:***

﴿وَأُخْرَى لَمْ تَقْدِرُواْ عَلَيْهَا قَدْ أَحَاطَ ٱللهُ بِهَا وَكَانَ ٱللهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيراً﴾

**"Digər birini də (nəsibiniz edər) ki, sizin ona gücünüz yox. Amma Allah onları əhatə etmişdir və hər şeyə qadirdir."**

**Nöqtələr**

Quranda dəfələrlə qeyd olunur ki, çətinliyin davamında asanlıq var. Besətin ilk illəri müxtəlif böhtanlar, işgəncələr, fitnələr, hicrətin ilk illəri savaşlar, qətillərlə müşayiət olunsa da, Peyğəmbərin (s) ömrünün son illəri asayiş və izzət içində ötdü. Hazırkı surədə bu məsələyə işarə olunur.

**Bildirişlər**

1. Gələcəkdə qənimətlərə çatmaq vədi Allahın elm və qüdrətinə əsaslanır.

2. Düşünməyin ki, qənimətləri öz fərasətinizlə əldə edirsiniz.

3. Müvəffəqiyyətlərinizlə yanaşı zəifliklərinizi də yadda saxlayın.

4. Allahın vədlərinə inanaq.

5. Allahın ayələri, Ona təvəkkül və müvəhhid insanların tərbiyəsi üçün zəmindir.

6. Yalnız güclü arxaya malik olan kəsin vədinə etibar etmək olar.

***Ayə 22:***

﴿وَلَوْ قَاتَلَكُمُ ٱلَّذِينَ كَفَرُواْ لَوَلَّوُا ٱلْأَدْبَارَ ثُمَّ لَا يَجِدُونَ وَلِيًّا وَلَا نَصِيراً﴾

**"Əgər küfr edənlər sizinlə vuruşsalar (sizinlə mübarizəyə gücləri yoxdur) geri çəkilib arxa çevirərlər və heç bir himayəçi və yardımçı tapmazlar."**

**Nöqtələr**

Əgər ayələri Hüdəybiyyə sülhü ilə bağlı söhbətlərin davamı saysaq onu belə mənalandıra bilərik: Hüdəybiyyə sülhünün səbəbi sizin hərbi baxımdan zəifliyiniz

deyildi. Bu bir məsləhət idi. Əgər Hüdəybiyyədə savaşa girsəydiniz qalib gələrdiniz və düşmənləriniz qaçardı.

İmam Hüseyn (ə) "Ərəfə" duasında belə deyir: "Pərvərdigara, Səni olanın nəyi yox, Səndən məhrumun nəyi var?!"

Qiyamətdə məlum olar ki, kafirlərin heç nəyi yoxdur və onların hakimiyyətini kimsə qəbul etmir.

**Bildirişlər**

1. Zəif müsəlmanlar elə bir izzətə çatdılar ki, güclü düşmənlər onların qarşısında dayana bilmədilər.
2. Allahı olmayanın heç nəyi yox.

*Ayə 23:*

﴿سُنَّةَ ٱللهِ ٱلَّتِي قَدْ خَلَتْ مِن قَبْلُ وَلَن تَجِدَ لِسُنَّةِ ٱللهِ تَبْدِيلاً﴾

**"(Sizin qələbəniz və kafirlərin məğlubiyyəti) Allahın öncədən müəyyənləşdirdiyi bir sünnə, qanun idi. Allahın sünnələrində heç vaxt dəyişiklik görməzsən."**

**Nöqtələr**

Bu ayə də "Mucadələ" surəsinin 21-ci ayəsinə bənzəyir. Həmin ayədə buyurulur ki, Allah bizim və peyğəmbərlərimizin qəti qələbəsini müəyyənləşdirib.

Tarix və tarixi hadisələr qanunauyğundur. İnkişaf və tənəzzülün, izzət və zəlalətin, var dövlət və yoxsulluğun amilləri var. Haqqın batil üzərində qələbəsi Allahın qanunudur.

**Bildirişlər**

1. Tarixi hadisələr təsadüfi deyil, öncədən proqramlaşdırılmışdır.
2. Allahın qanunları zaman və məkanın fövqündə dayanır, bu səbəbdən də yığcam və dəyişməzdir. Bu qanunlarda heç bir nöqsan yoxdur.
3. İlahi qanunlar zaman ötdükcə köhnəlmir, gücdən düşmür.

*Ayə 24:*

﴿وَهُوَ ٱلَّذِي كَفَّ أَيْدِيَهُمْ عَنكُمْ وَأَيْدِيَكُمْ عَنْهُم بِبَطْنِ مَكَّةَ مِن بَعْدِ أَنْ أَظْفَرَكُمْ عَلَيْهِمْ وَكَانَ ٱللهُ بِمَا تَعْمَلُونَ بَصِيراً﴾

**"Allah o kəsdir ki, sizi (Hüdəybiyyədə) onlar üzərində qalib etdikdən sonra, sizi onların, onları sizin əlinizdən qurtardı. Allah bütün işlərinizi görür."**

**Nöqtələr**

Zahirən belə görünür ki, hər iki tərəfin savaşdan əl çəkməsi dedikdə Hüdəybiyyə sülhü nəzərdə tutulur. Çünki Məkkə müşrikləri savaşa hazırlaşmışdılar, Peyğəmbər (s) də müsəlmanlar sədaqət beyəti almışdı. Hər iki tərəf savaş əzmində idi.

Hüdəybiyyə sülhündə Allah-taala bir tərəfdən təcavüzkar müşriklərin qarşısını aldı, digər tərəfdən onların möminlər tərəfindən öldürülməsinə imkan vermədi. Bunun iki səbəbi var: Məkkənin müqəddəsliyi müsəlmanlar tərəfindən pozulmamalı idi, kütlələrin müsəlman olması üçün ilkin müsəlmanların əli qana batmamalı idi. Növbəti ildə ümrə həcci yerinə yetirildi, daha sonra Məkkə fəth olundu. Bütün bunlar Hüdəybiyyə sülhünün bərəkətləri idi. Əgər Hüdəybiyyədə müşriklərdən bir hissəsi öldürülsəydi. Uzun illər sülhdən danışmaq olmazdı, Məkkənin fəthinə aparan yol bağlı qalardı. Bu səbəbdən də Hüdəybiyyə sülhü aşkar qələbə, İslamın izzəti üçün qurtuluş yolu, İslamın tez bir zamanda yayılması üçün zəminə sayılmışdır.

## Bildirişlər

1. Möminlərə lütf baxımından Allahın sünnəsi qəti və labüddür.
2. Bütün qələbələr və inkişaflar Allahın tədbiri və iradəsindən asılıdır.
3. Düşmənin arasında düşməndən amanda qalmaq böyük ilahi nemətdir.
4. Bəzən sülh özü qələbə rəmzi olur.

*Ayə 25:*

﴿هُمُ ٱلَّذِينَ كَفَرُواْ وَصَدُّوكُمْ عَنِ ٱلْمَسْجِدِ ٱلْحَرَامِ وَٱلْهَدْيَ مَعْكُوفاً أَن يَبْلُغَ مَحِلَّهُ وَلَوْلَا رِجَالٌ مُّؤْمِنُونَ وَنِسَآءٌ مُّؤْمِنَاتٌ لَّمْ تَعْلَمُوهُمْ أَن تَطَؤُوهُمْ فَتُصِيبَكُم مِّنْهُم مَّعَرَّةٌ بِغَيْرِ عِلْمٍ لِيُدْخِلَ ٱللهُ فِي رَحْمَتِهِ مَن يَشَآءُ لَوْ تَزَيَّلُواْ لَعَذَّبْنَا ٱلَّذِينَ كَفَرُواْ مِنْهُمْ عَذَاباً أَلِيماً﴾

**"Onlar küfr edən, sizi məscidül-həramdan və qurbanlıqları qurban yerinə çatdırmaqdan uzaq saxlayan kəslərdir. Tanımadan məhv edəcəyiniz, müsəlmanlar tərəfindən bilmədən öldürüləcək imanlı kişilər və qadınlar olmasaydı, sizə zərər toxunmasaydı, (biz Məkkəyə hücum əmri verərdik) belə ki, Allah istədiyini öz rəhmətinə daxil etsin. Əgər (möminlər və müşriklər) bir-birindən ayrı dayansaydılar, hökmən, Məkkə əhli arasında küfr edənləri ağrılı əzabla cəzalandırardıq."**

## Nöqtələr

"Məkuf" dedikdə qurbanlıq üçün saxlanılmış heyvan nəzərdə tutulur. Müqəddəs bir məqsədlə eyni bir məkanda dayanan insan isə "mötəkif" adlanır.

"Məərrə" sözü zərər-ziyan, "təzəyyəlu" sözü ayırmaq mənasını bildirir.

Allah Hüdəybiyyə sülhünü ona görə qəbul etdirdi ki, hücum əmri versəydi qurban yerinə getmək imkanı olmazdı. Məkkəyə hücum edilsəydi tanınmayan müsəlmanlar qətlə yetirilərdi və nahaq qan tökülərdi. Demək, Hüdəybiyyə

sülhünün səbəblərindən biri də Məkkədə yaşayan və tanınmayan müsəlmanların həyatını qorumaq olmuşdur.

İmam Həsən (ə) Müaviyə ilə sülhə razılaşmasının səbəbləri haqqında buyurur: "Mən ümmətin xeyri, nahaq qan axmaması üçün müharibə fikrindən daşındım."[1]

Zəifliyə düçar edilmiş və tanınmayan müsəlmanlar bilərəkdən özünü kafirlərə sipər edən müsəlmanlardan fərqlənir. Ayənin əvvəlində hücum edilməməsi tapşırılır, onun ikinci hissəsində özünü kafirlərə sipər etmiş müsəlmanların öldürülməsinə icazə verilir.

### Bildirişlər

1. Məkkə müşrikləri öz küfrlərinə və inadkarlıqlarına baxmayaraq sülhə getdilər.
2. Həcc mərasiminin, xüsusi yerdə qurban kəsməyin əhəmiyyəti var. (Kafirlərin günahlarından biri bu idi ki, qurbanlıqları qurban yerinə buraxmırdılar)
3. Öz ardıcıllarınıza savaş və ya sülhün səbəblərini bəyan edin. (Allah əmrlərinin fəlsəfəsi var. Hüdəybiyyə sülhünün səbəbi tanınmayan müsəlmanların həyatını qorumaq idi.)
4. Əhəm (daha mühüm) – mühüm prinsipinə riayət etmək ağıl, şəriət və ürf baxımından təsdiqlənir. (Bəli, müsəlmanların qanını tökməmək kafirlərə hücumdan daha mühümdür.)
5. İstər kişi olsun, istər qadın, müsəlmanın qanını qorumaq möhtərəmdir.
6. Müsəlmanlara hətta bilmədən zərər vurmağın məsuliyyəti var.
7. Allah-taala müsəlmanların şəxsiyyətini istənilən bir ləkədən qorumaq istəyir.
8. Aralarında günahsızlar olan qrupa hücum caiz deyil.
9. İslam cəmiyyətinin rəhbəri əmr verərkən bütün zəruri nöqtələri nəzərə almalıdır. (Tələsik göstərişlər başqalarının məzəmməti ilə nəticələnir. Əgər Məkkəyə hücum əmri verilsəydi və tanınmayan müsəlman öldürülsəydi, düşmənlər bu hadisəni əllərində bəhanə tutar və "müsəlmanlar özləri özlərinə rəhm etmirlər" söyləyərdilər.)
10. Düşmənin əlinə bəhanə verməyin.
11. Bəzən sülh İslamın genişlənməsi üçün zəmin olur.
12. Kafirlər Allahın labüd əzabına layiqdir.

***Ayə 26:***

﴿إِذْ جَعَلَ ٱلَّذِينَ كَفَرُواْ فِي قُلُوبِهِمُ ٱلْحَمِيَّةَ حَمِيَّةَ ٱلْجَاهِلِيَّةِ فَأَنزَلَ ٱللهُ سَكِينَتَهُ
عَلَى رَسُولِهِ وَعَلَى الْمُؤْمِنِينَ وَأَلْزَمَهُمْ كَلِمَةَ ٱلتَّقْوَى وَكَانُواْ أَحَقَّ بِهَا وَأَهْلَهَا
وَكَانَ ٱللهُ بِكُلِّ شَيْءٍ عَلِيماً﴾

**"Kafirlər təəssüb, cahiliyyət təəssübünə qəlblərində yer verdikləri vaxt Allah öz peyğəmbərinə və möminlərə aramlıq göndərdi. (Onlar sülhə hazır**

[1] "Kamili-İbn Əsir", c. 3, s. 205

**oldular) Allah daha haqlı olduqları təqva həqiqətinə sahib etdi. Allah hər şeydən agahdır."**

## Nöqtələr

"Həmiyyət" dedikdə istilik, qaynarlıq mənası anlaşılır. Sərt qəzəb və təəssüb də belə adlanır. Təəssüb cəhalətdən qaynaqlandıqda məzəmmət olunur, dini qeyrətdən təsirlənib məntiqi olduqda bəyənilir.

Hüdəybiyyə əhvalatında həzrət Əli (ə) Peyğəmbərin (s) göstərişi ilə sülh məktubunu "Bismillahir-Rəhmanir-Rəhimlə" başladı. Müşriklər etiraz etdikləri vaxt əvvəlki cümlənin yerinə "Bismikəllahümmə" yazıldı. Növbəti dəfə müşriklər "Rəsulullah" sözünə etiraz etdilər. Peyğəmbər (s) həmin ifadəni də məktubdan çıxardı. Bütün bunlar müşriklərin yersiz təəssübünü, Peyğəmbər (s) və onun köməkçilərinin qəlb aramlığını göstərir.

İslam cahiliyyət ənənələri ilə mübarizə aparır.[1]

İnsanda həm Allahla rabitə, həm fəzilətlərin təkamülü, həm də fəsad üçün zəmin var.[2]

Bəzən bir iş üçün bir neçə nəfər namizədliyini irəli sürür. Ola bilər ki, münasib olmayan namizədlər arasında bir nəfərin imtiyazı olsun. Bəzən isə həm münasib, həm də imtiyazlı ola bilər.

Hədisdə oxuyuruq ki, "kəlimətət-təqva" dedikdə iman nəzərdə tutulur.[3]

## Bildirişlər

1. Cahiliyyət təəssübü möminlərin məscidə yolunu bağlayan səbəblərdəndir.
2. İnsanı cahilanə təəssüb qarşısında möhkəm dayandıran onun qəlbindəki aramlıqdır.
3. Əxlaqi pozğunluqlar küfr şəraitində inkişaf edir. Allaha iman azğın istəklərin qarşısını alır.
4. Təəssüb və inadkarlıq əgər dəlil və məntiqə əsaslanırsa dəyərlidir. Məzəmmət olunan isə cahillikdən doğan qəzəb və təəssübdür.
5. Cahilanə rəftarlara eyni qaydada cavab verməк olmaz.
6. Allah möminləri düşmənlərin kin-küdurəti və təəssübü qarşısında tək qoymur.
7. Qəlb aramlığını var-dövlət, vəzifə və çoxluq vasitəsi ilə əldə etmək olmaz. Aramlıq ilahi bir hədiyyədir.
8. Əgər Allah və Rəsulu (s) Hudəybiyyədə sülhə üstünlük verdisə möminlər bu sülhü qorumalıdır.
9. Mövsümi yox, daimi təqva dəyərlidir.
10. İlahi lütf əldə etmək üçün münasiblik və ləyaqət şərtdir.
11. Üstünlük şüar və iddialara əsaslanmır. Seçim elm əsasında aparılmalıdır.

---

[1] "Ali-İmran", 154; "Əhzab", 33

[2] "Rəd", 28; "Fəth", 4; "Ali-İmran", 12; "Əraf", 101; "Zumər", 45

[3] "Təfsiri-nurus-səqəleyn"

*Ayə 27:*

﴿لَقَدْ صَدَقَ ٱللهُ رَسُولَهُ ٱلرُّءْيَا بِالْحَقِّ لَتَدْخُلُنَّ ٱلْمَسْجِدَ ٱلْحَرَامَ إِن شَاءَ ٱللهُ ءَامِنِينَ مُحَلِّقِينَ رُءُوسَكُمْ وَمُقَصِّرِينَ لَا تَخَافُونَ فَعَلِمَ مَا لَمْ تَعْلَمُواْ فَجَعَلَ مِن دُونِ ذَٰلِكَ فَتْحاً قَرِيباً﴾

**"Həqiqətən, Allah həmin yuxunu peyğəmbəri üçün gerçəkləşdirdi. Siz müsəlmanlar, inşaəllah, xatircəmliklə, başlarınızı qırxdırmış halda və kimsədən qorxmayaraq məscidül-hərama daxil olacaqsınız. Allah sizin bilmədiyiniz bir şeyi bilirdi. Bundan əlavə sizin üçün yaxın qələbə (Xeybərdə) qərar verildi."**

## Nöqtələr

Hicri 6-cı ildə əziz Peyğəmbər (s) yuxuda gördü ki, müsəlmanlar rahatlıqla məscidül-hərama daxil olur. Onlar başlarını qırxdırmışdılar və ümrə mərasimini yerinə yetirirdilər. Bu yuxudan sonra Peyğəmbər (s) ümrə mərasimini yerinə yetirmək qərarına gəldi. Onlar Məkkə qapılarınadək irəlilədilər. Əhvalatdan xəbər tutan kafirlər onların yolunu bağlayıb, savaşa başlamaq istədilər. Peyğəmbər (s) də müsəlmanlardan sədaqət beyəti aldı. Amma Allah sülhə önəm verdi. Çünki həmin hücumda Məkkənin tanınmayan müsəlmanları bilmədən qətlə yetirilərdi. Həmin vaxt müsəlmanlar diyə ödəməli olardı və kafirlər bu hadisəni təbliğat vasitəsinə çevirərdilər. Hüdəybiyyə sülhünün böyük bərəkətləri vardı və həmin arada bir çoxları İslamı qəbul etdi.

Bəziləri isə narahat idilər ki, nə üçün əziz Peyğəmbərin (s) yuxusu təbir olmadı? Həzrət buyurdu: "Bu yuxunun bu il təbir olması və gerçəkləşməsi lazım deyil."

Müsəlmanlar Mədinəyə qayıtdılar və sülh müqaviləsinə əsasən növbəti il üç gün Məkkədə ümrə əməllərini yerinə yetirdilər. Amma kafirlər müqaviləni pozdular. Müsəlmanlar hicri 8-ci il heç bir qan tökmədən Məkkəni fəth etdilər.

11, 15, 16-cı ayələr gələcəklə bağlı məlumatlar verir. Peyğəmbərin (s) yuxusu da gələcəkdən danışırdı.

"Fəthən qəriba" ifadəsi həm Xeybər, həm də Məkkə fəthinə işarə ola bilər. Həmin ifadə müsəlmanlar üçün gerçəkdən böyük qələbə olan Hüdəybiyyə sülhü ilə də əlaqələndirilə bilər.[1]

## Bildirişlər

1. Peyğəmbərin (s) yuxusu hökmən gerçəkləşən yuxulardandır.
2. Müsəlmanların qəlb aramlığı ilə məscidül-hərama daxil olması xəbəri Quranın möcüzələrindəndir.
3. Peyğəmbərin (s) yuxusu gerçək olsa da, istənilən bir hadisə haqqında xəbər verərkən öncə "inşaəllah" deyilməlidir.
4. Başın qırxılması, dırnaqların tutulması Həcc və ümrə əməllərindəndir.

---

[1] "Bihar", c. 96, s. 302

5. Zahiri əminamanlıq bəs etmir. Daxili bir arxayınlıq lazımdır.

6. İnsan öz qərarlarının xeyir-ziyanından xəbərsiz olur. Allahın əmrinə tabe olmaq lazımdır. Müsəlmanlar Məkkəyə daxil olmaq istəyirdilər. Amma Allah sülhün daha bərəkətli olduğunu bilirdi.

7. Çox vaxt sülh qələbə üçün müqəddimə ola bilər.

***Ayə 28:***

**﴿هُوَ ٱلَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ ٱلْحَقّ لِيُظْهِرَهُ عَلَى ٱلدّينِ كُلّهِ وَكَفَى بِاللَّهِ شَهِيداً﴾**

**"O öz peyğəmbərini hidayət və bütün dinlərə qalib gəlsin deyə haqq dinlə göndərən kəsdir. Bir işə Allahın şahid olması yetər."**

**Nöqtələr**

İslamın digər dinlər üzərində qələbə çalması ilə bağlı vəd Quranda dəfələrlə təkrarlanmışdır. Bu qələbə həm elmi və məntiqi bir dəlil, həm müsəlmanların yer üzünə varisliyi ilə müşayiət ediləcək gələcəyə işarə ola bilər. Bəli, hicrətin əvvəllərində İslam yer üzünün böyük bir hissəsini nüfuzu altına aldı.

Gələcək bizim nəzərimizcə çox aydındır. Peyğəmbər (s) əhli-beytindən (ə) olan on ikinci məsum imamın (ə) zühuru ilə dünyada ədalət bərpa olunacaq.

**Bildirişlər**

1. Haqqın batil üzərində qələbəsi yalnız Allahın gerçəkləşdirə biləcəyi bir amaldır.

2. Allahın hidayəti və din yolunun doğruluğu İslamın qələbə rəmzidir.

3. Çətin şəraitlərdə ümid vermək zəruridir. (Məkkə kafirləri müsəlmanları Məscidül-Hərama buraxmadıqları vaxt Allah onlara qələbə vəd edir.)

4. Bütün keçmiş dinlər müəyyən zaman üçün nəzərdə tutulmuşdur.

5. Quran gələcəkdən xəbər verir.

6. Xalqın qəbul etməsi mühüm deyil, Allahın şahidliyi yetər!

7. Əgər Allahın ucalığına inanırsınızsa, Onun vədlərinə də etimad göstərin.

***Ayə 29:***

**﴿مُّحَمَّدٌ رَّسُولُ ٱللهِ وَٱلَّذِينَ مَعَهُ أَشِدَّآءُ عَلَى ٱلْكُفَّارِ رُحَمَاءُ بَيْنَهُمْ تَرَاهُمْ رُكَّعاً سُجَّداً يَبْتَغُونَ فَضْلاً مّنَ ٱللهِ وَرِضْوَاناً سِيمَاهُمْ فِي وُجُوهِهِم مّنْ أَثَرِ ٱلسُّجُودِ ذَلِكَ مَثَلُهُمْ فِي ٱلتَّوْرَاةِ وَمَثَلُهُمْ فِي ٱلْإِنجِيلِ كَزَرْعٍ أَخْرَجَ شَطْأَهُ فَآزَرَهُ فَاسْتَغْلَظَ فَاسْتَوَى عَلَى سُوقِهِ يُعْجِبُ ٱلزُّرَّاعَ لِيَغِيظَ بِهِمُ ٱلْكُفَّارَ وَعَدَ ٱللهُ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُوا ٱلصَّالِحَاتِ مِنْهُم مَّغْفِرَةً وَأَجْراً عَظِيماً﴾**

**"Məhəmməd Allahın rəsuludur. Onunla olanlar kafirlərlə sərt, öz aralarında mehribandırlar. Onları daim rüku və səcdə halında görərsən, fəzl və razılığı yalnız Allahdan istəyərlər. Onların nişanəsi çöhrələrindəki səcdə əlamətidir. Budur onların Tövratdakı vəsfi. Onlar İncildə cücərtisi**

**torpaqdan xaric olmuş, möhkəmlənməsi üçün güc verilmiş, əkinçiləri heyran edəcək qədər gövdəsi üstə dayanmış əkinə bənzədilirlər. Allah beləcə möminlər vasitəsi ilə kafirləri qəzəbləndirər. Amma Allah kafirlərdən iman gətirib saleh işlər görənlərə bağışlanma və böyük mükafat vəd etmişdir."**

## Nöqtələr

"Rake" sözünün cəmi olan "rukkə" sözü rükular mənasını bildirir. "Succəd" səcdə edən mənasını bildirən "sacid" sözünün cəmidir. Bu iki təbir ardıcıl şəkildə çox səcdə və rüku edənlərə işarədir.

"Suq" sözü baldır və bitkinin gövdəsi, "şətə" sözü cücərti, "azər" sözü kömək, "istəğləz" sözü möhkəmlik mənasını bildirir.

Surənin başlanğıcında Peyğəmbərə (s) müraciət olunur, surənin sonunda da Peyğəmbər (s) nəzərdə tutulur.

Bu ayədə möminin müəyyən rabitələrinə münasibət bildirilir: Mömin biganələrlə sərtdir, başqa möminlərə münasibətdə mərhəmətlidir, Allah qarşısında rüku və səcdədir, yalnız Allahdan istəyirlər.

İslam cəmiyyətinin əkin sahəsinə bənzədilməsi çox maraqlıdır:

a) Əkin torpaqdan çıxır, əqidə də insanın batininə aiddir;

b) Əkin münbit torpaqda bitir, İslam cəmiyyəti üçün də münasib zəmin lazımdır;

v) Əkin təbii və tədrici inkişaf edir, kök atır. İslam ümməti də mərhələlərlə inkişaf edir və bünövrəli olur.

Hüdəybiyyə müqaviləsində kafirlər həzrət Əlinin (ə) yazdığı "Muhəmməd (s) Allahın rəsuludur" cümləsinə etiraz etdilər. Həzrət Əli (ə) bu tələbə görə narahat oldu. Allah-taala isə eyni cümləni Qurani-kərimdə bəyan etdi.

Peyğəmbərin (s) yaxınları həm dünya, həm də axirət sorağındadırlar. "Fəzl" dedikdə maddi nemətlər, "rizvan" dedikdə mənəvi nemətlər nəzərdə tutulur. Bu da nəzərdə tutula bilər ki, Peyğəmbərin (s) yaxınları öz əməllərinə yox, Allahın fəzlinə ümid bəsləyirlər.

Ayədə möminin zahiri nişanələri də yada salınır: danışıq və əməldə xüzu və xüşu (mütilik və təvazö) eləcə də möminin qəlbində daim inkişafda olan əqidənin möhkəmliyi qeyd edilir.

Matta incilində oxuyuruq: "Növbəti dəfə onlara məsəl çəkib dedi: "Səma qatları bir şəxsin götürüb torpağa əkdiyi xardal dəni kimidir. Bu dən başqa dənlərdən kiçik olsa da cücərəndə böyük bir ağac olur və quşlar onun budaqlarında yuva qurur."[1]

İmam Sadiq (ə) çöhrədə səcdə nişanəsindən danışan ayə haqqında buyurur: "Nəzərdə tutulan möminin gecə oyaq qalmasıdır."[2]

İslam kompleks dindir. Onun siyasi, ictimai və mənəvi yönümləri var.

## Bildirişlər

[1] "Matta incili", bab 13, say 31, 32

[2] "Mən la yəhzər", c. 1, s. 229

1. İlahi vədlər şəffafdır. (Dini bütün dinlərdən üstün olan peyğəmbər həzrət Məhəmməddir (s).)

2. İslam məktəbinin bütün dünyaya yayılması üçün ilahi rəhbər və sədaqətli yardımçılara ehtiyac var.

3. Tərbiyə vasitələrindən və üsullarından biri ideallarin təqdimatıdır.

4. Allahın Rəsuluna (s) iman birinci addımdır. Ən mühüm addım Peyğəmbərlə (s) yoldaşlıqdır.

5. Müsəlmanlar düşmən qarşısında sərt olmalı, möminlərlə mehriban davranmalıdırlar.

6. Biganəlik qadağandır. Müsəlman kimlərisə sevməli, kimlərəsə qəzəblənməlidir.

7. Sevgi və qəzəb meyarı iman və küfrdür. Qəbilə yaxınlıqları, var-dövlətə görə münasibət formalaşdırmaq olmaz.

8. İbadət Peyğəmbərin (s) yaxınları üçün mövsümi yox, daimi işdir.

9. İslam cəmiyyətində namaz xəlvətdə yox, aşkar yerinə yetirilməlidir.

10. Namazın rüku və səcdələri köklü məsələlərdir.

11. Yalnız çox və davamlı ibadət mədh olunur.

12. Hazırkı Tövrat və İncilin təhrif olunmamış hissələri var. Bu səbəbdən də Quran bəzən onlara istinad edir.

13. Ötən səmavi kitablarda da gələcəklə bağlı xəbərlər olub. Tövrat və İncildə İslam peyğəmbərinin (s) yardımçılarının siması təsvir olunur.

14. Səmavi kitabların məsəlləri təbii və əhatəlidir. Bu misalları hamı anlayıb, təcrübədən keçirə bilər.

15. Yalnız təbii, müstəqil və tədrici inkişaf davamlıdır.

16. İslam cəmiyyəti öz ehtiyaclarını təmin etməli, möhkəm və müstəqil olub, öz ayağı üzərində dayanmalıdır.

17. Din siyasətdən ayrı deyil. Rüku və səcdələrlə yanaşı düşmən qarşısında barışmaz mövqe tutmaq lazımdır.

18. Müsəlmanların kəmiyyət və keyfiyyət baxımından inkişafı kafirləri qəzəbləndirir.

19. Allahın Rəsulu (s) ilə rüku və səcdə halında qalıb yanaşı addım atmaq bəs etmir. Bütün işlər iman və saleh əməldən qaynaqlanmalıdır ki, böyük mükafat əldə edilsin.

20. Həqiqi möminlər üçün nəzərdə tutulmuş mükafat təsəvvürə sığmır.

21. Zərərdən uzaqlıq mənfəət əldə etməkdən önəmlidir.

# "HUCURAT" SURƏSİ

### *(49-CU SURƏ; 18 AYƏ)*

### *İYİRMİ ALTINCI CÜZ*

### *"HUCURAT" SURƏSİNİN SİMASI*

18 ayədən ibarət olan bu surə Mədinədə nazil olmuşdur.

"Hucurat" sözü "hucrə" sözünün cəm formasıdır. Surənin 14-cü ayəsində Peyğəmbər (s) evinin hücrələri yada salındığından surə "hucurat" adlandırılmışdır.

Bu ayədə mühüm əxlaqi və ictimai mövzular yada salınır:

1. Peyğəmbərlə (s) rəftar qaydaları və ondan önə keçməmək;

2. Məsxərədən uzaqlıq, pis ləqəblər qoymamaq, bədgümanlıqdan, güdükçülükdən və qeybətdən uzaqlıq;

3. Qardaşlıq əsasında ictimai rabitələrin qurulması, möminlər arasında barışıq yaratmaq, düşmənə qarşı səfərbərlik, ədalətli mövqe, şayiə yaymamaq;

4. İnsanlara iman və təqvasına münasib dəyər vermək, küfr, fisq və günahdan uzaqlıq;

5. Peyğəmbərə (s) eşq və agahlıqla ardıcıllıq, İslamı qəbul edib, onun göstərişlərinə əməl olunmasına görə minnət qoymamaq.

Bu qısa surədə "Ey iman gətirənlər xitabı beş dəfə təkrarlanmışdır. Bu təkrar əxlaqi və ictimai məsələlərin əhəmiyyətini göstərir. Aydın olur ki, İslam dini müsəlmanların bir-birləri ilə, öz rəhbərləri ilə rəftarına xüsusi diqqət yetirir.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1:*

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تُقَدِّمُواْ بَيْنَ يَدَيِ ٱللهِ وَرَسُولِهِ وَٱتَّقُواْ ٱللهَ إِنَّ ٱللهَ سَمِيعٌ عَلِيمٌ﴾

**"Ey iman gətirənlər! (Heç bir işdə Allah və Onun peyğəmbərindən qabağa keçməyin. Allahdan qorxun, Allah eşidən və biləndir."**

### Nöqtələr

"Maidə", "Hucurat", "Mumtəhinə" surələrində hökumət və cəmiyyətlə bağlı məsələlərdən danışılır. Hər üç surə "ya əyyuhəlləzinə amənu" ("ey iman gətirənlər") müraciəti ilə başlayır.

"Maidə" surəsinin başlanğıcında iman gətirənlər sədaqətə çağırılır. "Mumtəhinə" surəsində iman gətirənlərə Allahın düşmənlərini və öz düşmənlərini hami seçməmək tapşırılır. Hazırkı surədə isə Allahın və Peyğəmbərin (s) hökmündən qabağa keçməmək əmr olunur.

Ayə möminlərin mələklər kimi tərbiyə olunması istəyini bəyan edir. Quranda möminlərə Allahın buyuruğundan önə keçməmək, yalnız onun əmrlərinə tabe olmaq tapşırılır.[1]

Quran Peyğəmbərdən (s) qabağa keçmə hallarını bəyan etmir. Beləcə uyğun göstəriş həm etiqadi, həm ictimai-siyasi, həm də iqtisadi sahələrə şamil olunur.

Allah-taala İslam rəhbərindən önə keçməyi qəti şəkildə qadağan edir. Çünki Allahdan və Peyğəmbərdən (s) qabağa keçən insan İslam üsul-idarəçiliyinə ləkə

---

[1] "Ənbiya", 28

vurur, cəmiyyətdə hərc-mərclik yaradır. Beləlləri İslam qanunçuluğunu oyuncağa çevirənlərdir.

Bu ayəyə əməl bir çox xətaların qarşısını alır. Bəzən insanların istəkləri, onların zən-gümanlarına tabeçilik insanı özü də bilmədən Allaha və Onun Rəsuluna (s) müxalif mövqedə qərar verir. Necə ki, bəziləri ibadət, qətiyyət, mübarizə və sadəlik məqsədi ilə addım ataraq Allahdan və Peyğəmbərdən (s) qabağa keçmiş, el məsəlində deyildiyi kimi, aşdan isti kasa olmuşlar.

Ayə və rəvayətlərdən qaynaqlanmayan qanunlara və adət-ənənələrə tabeçilik bir növ Allahdan və Onun Peyğəmbərindən (s) önə keçməkdir.

### *Allah və Onun Rəsulundan (s) qabağa keçmə nümunələri*

Təfsirlərdə və rəvayətlərdə Peyğəmbərdən (s) önə keçməyin bəzi nümunələri qeyd olunur:

1. Qurban bayramındı bəziləri Peyğəmbərdən (s) qabaq qurban kəsdilər.[1]

2. İslam peyğəmbəri (s) kafirlərə təbliğ üçün bir qrup göndərmişdi. Kafirlər Peyğəmbərin (s) nümayəndələrini öldürdülər, onlardan yalnız üçü qaçıb qurtara bildi. Həmin üç nəfər yol üstü Bəni-Amil qəbiləsindən olan iki kafiri intiqam məqsədi ilə qətlə yetirdilər. Hansı ki, həmin iki nəfər günahsız idi. Quran bu özbaşınalığa görə həmin adamları məzəmmət edir, Peyğəmbərdən (s) icazəsiz hərəkət etdikləri üçün qınayır.[2]

3. Bəni-Təmim qövmü Peyğəmbərdən (s) əmir, hakim istədi. Birinci və ikinci xəlifə hərəsi bir şəxsi təklif etdi. Onlar öz namizədlərini müdafiə edərək bir-birləri ilə mübahisəyə başladılar. Onları qınayan ayə nazil oldu.[3]

4. Məsum imamlardan biri yaxın bir şəxsə dua təlim edirdi. Öyrədirdi ki, "La ilahə illəllah... yuhyi və yumit" söyləsin. İmamın hüzurunda əyləşən şəxs tələsərək bir cümlə əlavə etdi. İmam buyurdu: "Sənin dediyin cümlə düzdür. Amma mən nə deyirəmsə onu da söylə." Sonra imam hazırkı ayəni ona xatırlatdı.[4]

5. İslam peyğəmbərinin (s) bəzi səhabələri özlərinə yuxunu, yeməyi, zövcələri ilə yaxınlığı haram etdilər. Həzrət narahat olub, camaatı bir yerə topladı və buyurdu: "Mən özüm yeyirəm, yatıram, ailəmlə yaşayıram. Mənim həyat yolum budur. Kim bu yola tabe olmasa məndən deyil."[5]

6. İslam peyğəmbəri (s) müvəqqəti izdivacı (mütəni) qanuni bildirsə də, ikinci xəlifə onu haram etdi. Onun bu hərəkəti Peyğəmbərdən (s) qabağa düşmək idi.

7. Hicri 8-ci ildə İslam peyğəmbəri (s) Məkkənin fəthi üçün Mədinəyə üz tutanda bəzi müsəlmanlar oruclarını açmadılar. Onlar bilirdilər ki, səfərə çıxan insan oruc tutmamalıdır və Peyğəmbər (s) də orucunu açmışdır. Bu adamlar əslində Peyğəmbərdən (s) qabağa keçmişdilər.

---

[1] "Təfsiri-kəşşaf"
[2] "Təfsiri-kəşşaf"
[3] "Səhihe-buxari", c. 3, s. 123
[4] "Xisali-Səduq", c. 2, s. 62
[5] "Vəsail", c. 23, s. 244

## Bildirişlər

1. Hər hansı istək və ya göstərişdən öncə qarşı tərəfdə psixoloji hazırlıq yaratmaq lazımdır. "Ya əyyuhəlləzinə amənu" müraciəti möminlərin şəxsiyyətini qaldırır, onların əmrə tabe olmaları üçün zəmin olan Allahla rabitələrini bəyan edir.

2. Allahdan və Peyğəmbərdən (s) önə keçməmək ədəb göstərişi olduğundan ayədə də qarşı tərəfə ədəblə müraciət olunur.

3. Allahın halallarını haram, haramlarını haram etmək bir növ Allahdan və Peyğəmbərdən (s) qabağa keçməkdir.

4. Allahın qanununa zidd qanun vermək, bidət qadağandır.

5. Bizim tənzimlədiyimiz qanunların və rəftarlarımızın qaynağı Quran və Peyğəmbər (s) sünnəsi olmalıdır.

6. Peyğəmbərin (s) hökmü Allahın hökmüdür, ona ehtiramsızlıq Allaha ehtiramsızlıqdır.

7. Allahdan və Peyğəmbərdən (s) önə keçmək təqvasızlıqdır.

8. Vəzifəni yerinə yetirmək üçün iman və təqvaya ehtiyac var.

9. Əməli fəaliyyət təqva ilə müşayiət olunmalıdır.

10. Şəxsi zövqlərinə və ictimai adət-ənənələrə görə Allah və onun qanunlarını pozanlar iman və təqvadan uzaqdırlar.

11. Öz ifratçılıqlarımıza don geyindirməyək.

12. Allahın hüzuruna və xəbərdarlığına iman pəhrizkarlıq və Allah qorxusu üçün zəmindir.

*Ayə 2:*

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَرْفَعُوٓاْ أَصْوَٰتَكُمْ فَوْقَ صَوْتِ ٱلنَّبِيِّ وَلَا تَجْهَرُواْ لَهُۥ
بِٱلْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْضٍ أَن تَحْبَطَ أَعْمَٰلُكُمْ وَأَنتُمْ لَا تَشْعُرُونَ﴾

**"Ey iman gətirənlər! (Peyğəmbərlə danışarkən) Səsinizi onun səsindən yuxarı qaldırmayın. Bir-birinizlə ucadan danışdığınız kimi peyğəmbərlə ucadan danışmayın. Məbada (bu ədəbsizliyə görə) əməlləriniz puça çıxsın və agah olmayasınız."**

## Nöqtələr

Ötən ayədə Allah Rəsulundan (s) və ilahi qanunlardan önə keçmək qadağan olundu. Bu ayədə Peyğəmbərdən (s) uca səslə danışmamaq tapşırılır. "Nur" surəsinin 63-cü ayəsində də tövsiyə olunur ki, Peyğəmbəri (s) bir-birinizi çağırdığınız kimi çağırmayın. Onun adını hörmət və ehtiramla çəkin.

Əməli qorumaq onu yerinə yetirməkdən daha mühümdür. Bəzən əməllərimiz elə ilk addımda puça çıxır. Riyakarlıq, özünü nümayişlə başlayan əməl təkəbbürə xatir məhv olur. Bəzi əməllər işin sonunda puça çıxır. Ona görə də Quran buyurur ki, əməlini qiyamətədək aparan, bəladan qoruyan on qat artıq mükafat alar.[1]

[1] "Ənam", 160

Deyilmir ki, hər xeyir iş görənə on qat artıq mükafat veriləcək. Xeyir iş görməklə onun savabını qiyamətədək qorumaq bir-birindən fərqlənir.

Bir rəvayətdə Allahın Rəsulu (s) buyurur ki, hər zikrə görə behiştdə bir ağac əkilər. Bir şəxs "demək behiştdə xeyli ağacımız var" söyləyir. Həzrət (s) buyurur: "Bəli, amma bəzən günah və pis əməllər həmin ağacları yandırır." Sonra həzrət hazırkı ayəni tilavət edir.[1]

Quran əməllərin puça çıxmasını bir dəfə şirklə, başqa bir dəfə Peyğəmbər (s) hüzurunda ədəbsizliklə əlaqələndirir. Demək, Peyğəmbərə (s) qarşı hörmətsizliyin cəzası küfr və şirkin cəzası ilə eyni çəkidədir.

Peyğəmbərin (s) yaxınlarından biri onun hüzurunda bərkdən danışdı. Ucadan danışığın əməllərin puça çıxardığını bildikdən sonra çox narahat oldu. Peyğəmbər (s) buyurdu: "Sən çıxış etdiyin üçün bərkdən danışdın və sənin işin başqalarından fərqlənir."[2]

Ayədə belə bir nöqtə də var ki, bəzi əməllər dərhal təsir göstərir və onların bilərəkdən və ya bilməyərəkdən yerinə yetirilməsi təsirsizdir. Məsələn, insan zəhərli maddəni su bilib içsə də zəhər öz təsirini göstərir. Elektrik naqilini şəbəkəyə qoşulmamış sayıb ona toxunduğumuz vaxt şübhəsiz ki, cərəyanın təsirinə məruz qalasıyıq. Bəzi günahlar qıtlığa, zəlzələyə, ömrün qısalığına, zillətə səbəb olur. Hansı ki, insan bu hadisələrin yaranma səbəblərindən xəbərsiz ola bilər.

Ucadan danışmaq sadəcə ədəbsizlik olsa da, Peyğəmbərin (s) məqamına görə onun hüzurunda belə bir danışıq əməlləri puça çıxarır. Amma Quranda tövsiyə olunur ki, hamıya qarşı ədəbli olub, aram danışaq. Loğman oğluna deyir: Səsini qaldırma, aram danış." Sonra uca səs ulağ səsinə bənzədilir.[3]

Uca səslərlə asayişin pozulması bugünkü dünyanın ciddi problemlərindəndir. Bəzən toy, ad günü, bəzən də əzadarlıq adı ilə insanların rahatlığı pozulur.

### *Peyğəmbərə (s) qarşı ədəbsizlik nümunələri*

a) Peyğəmbər (s) dünyasını dəyişən məqamlarda kağız-qələm istədi və buyurdu: "Sizin üçün bir şey yazmaq istəyirəm ki, məndən sonra yolunuzu azmayasınız!" Orada iştirak edən ikinci xəlifə dedi: "Peyğəmbərin (s) xəstəliyi güclənib, bihudə danışır. Sizin ixtiyarınızda Quran var və onun yazısına ehtiyac yoxdur." Həmin vaxt bu sözlərlə razılaşanların və müxalif çıxanların səs-küyü ucaldı. Həzrət (s) buyurdu: "Qalxın, gedin."[4]

"Əl müraciat" kitabının müəllifi mərhum Əllamə Seyid Şərafəddin buyurur: "Həmin vaxt kağız-qələm gətirməsələr də, Peyğəmbərin (s) yazılmayan fikirlərini oxumaq olar. Rəvayətləri araşdırsaq görərik ki, Peyğəmbər (s) "sizin aranızda iki şey qoyub gedirəm" sözlərini dəfələrlə qeyd etmişdir. Bir çox rəvayətlərdə həmin iki əmanətin Quran və Əhli-beyt (ə) olduğu bəyan edilir.[5]

---

[1] "Bihar", c. 8, s. 186
[2] "Təfsiri-məcməül-bəyan"
[3] "Loğman",19
[4] "Səhihi-Müslim", c. 3, s. 1259
[5] "Vəsail", c. 27, s. 33

Burada da Peyğəmbər (s) Quran və Əhli-beytə (ə) bağlanmağı nəzərdə tutur.

b) İmam Həsən Müctəba (ə) şəhid olduğu vaxt onu babası Peyğəmbərin (s) yanında dəfn etmək istədilər. Ayişə bu işə mane oldu. Nəticədə səs küy qalxdı. İmam Hüseyn (ə) hazırkı ayəni oxuyaraq ətrafdakıları sakitliyə çağırdı və buyurdu: "Peyğəmbərə (s) ölümündən sonra da əvvəlki kimi ehtiram göstərmək lazımdır."[1]

### *İslamda müqəddəsliklər*

Yer üzündə insanların müxtəlif dinlərə etiqadından asılı olmayaraq hamı böyük şəxsiyyətlərə ehtiramı zəruri sayır. Şəhərlər, prospektlər, universitetlər, hava limanları, mədrəsə və müəssisələr həmin şəxsiyyətlərin adı ilə adlandırılır. İslamda da müqəddəsliklər var. Bəzi insanlar, hətta bəzi bitkilər və cisimlər müqəddəs sayılır.

İslamda müqəddəslik səbəbi Allahın müqəddəs zatına bağlılıqdır. Allaha bağlı olan hər şey müqəddəsdir və onların hörməti saxlanılmalıdır. Bəzi müqəddəsliklər:

1. Allah müqəddəslik qaynağıdır. Allaha şərik qoşan müşriklər qiyamət günü öz azğınlıqlarını etiraf edəcək və öz uydurma məbudlarına deyəcəklər: "Bədbəxtliyimizin səbəbi budur ki, sizi aləmlərin Rəbbi ilə bir tutduq.[2] Quranda xeyli məqamlarda Allaha təsbih, həmd-səna deyilir. Biz istənilən eyb və nöqsandan uzaq olan Allahın hörmət və müqəddəsliyini gözləməliyik. Allahın təkcə zatı yox, həm də adları müqəddəsdir.[3]

2. Allah kitabının da xüsusi hörməti və müqəddəsliyi var. Əgər Allah-taala Quranı "Əzim" adlandırırsa,[4] biz hökmən ona təzim etməliyik. Əgər Quran "Kərim" sayılırsa,[5] biz də ona ehtiramla yanaşmalıyıq. Əgər Quran "Məcid" adlandırılırsa,[6] onu uca tutmaq zəruridir.

3. İlahi rəhbərlərin, bütün peyğəmbərlərin və onların canişinlərinin, xüsusi ilə həzrət Məhəmməd (s) və onun əhli-beytinin (ə) xüsusi məqamı var. Bu surədə həzrətə (s) münasibətdə bəzi ədəb qaydaları bəyan olunur: onlardan qabağa keçməyin, onlardan uca səslə danışmayın. Digər ayələrdə Peyğəmbərə (s) salavat göndərmək göstəriş verilir.[7]

Əlbəttə belə bir nöqtəyə diqqətli olmalıyıq ki, Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra da onun, onun canişinlərinin, onun övladlarının, həzrətə (s) yaxın insanların, Peyğəmbər (s) canişini sayılan alimlərin ziyarəti təsirlidir. Hədisdə bildirilir ki, ədalətli fəqihin sözünü rədd edən kəs Peyğəmbər (s) əhli-

---

[1] "Təfsiri-nümunə"
[2] "Şuəra", 97
[3] "Əla", 1
[4] "Hicr", 87
[5] "Vaqeə", 77
[6] "Qaf", 1
[7] "Əhzab", 56

beytinin (ə) sözünü rədd etmiş kimidir. Onların sözünü rədd edən isə Allahın sözünü rədd etmişdir.[1]

Təkcə peyğəmbərlər yox, onlara aid olanlar da müqəddəsliyə malikdir. Quranda buyurulur ki, Musanın körpə vaxtı qoyulduğu sandıq çox müqəddəs idi və onu mələklər aparırdı. Bu sandıq düşmən üzərində qələbəyə səbəb olmuşdu.[2]

4. İslamda valideyn möhtərəm və müqəddəs sayılır. Quranda beş dəfə tövhid sifariş olunduqdan sonra ata-anaya ehsan tapşırılır.[3] Valideynə təşəkkür Allaha təşəkkürlə yanaşı zikr olunur.[4] Valideynə ehtiram o qədər dəyərlidir ki, ona məhəbbətli bir baxış ibadət sayılır. İslamda tövsiyə olunur ki, insan səsini valideynin səsindən yuxarı qaldırmasın, onların icazəsi ilə səfərə getsin. Əgər valideyn səfərə icazə vermirsə bu səfər haramdır və həmin səfərdə namaz tam qılınır.

5. İslamda qədr gecəsi kimi gecələr, məscid kimi yerlər, həcərül-əsvəd kimi cisimlər, zəm zəm kimi sular, imam Hüseynin (ə) türbəti kimi torpaqlar, ehram libası kimi libaslar müqəddəs sayılmışdır. Bütün bunlara ehtiramla yanaşmaq lazımdır.

Quranda oxuyuruq ki, həzrət Musa müqəddəs vadiyə ehtiram olaraq buraya daxil olarkən ayaqqablarını çıxardı.[5]

Məscidül-Həram müqəddəs məkandır və müşriklərin oraya daxil olması qadağandır.[6] İbadət yeri, məscid müqəddəsdir. Məscidə gedərkən gözəl şəkildə, pak halda gedin.[7] Cənabətli, natəmiz fərd məsciddə dayana bilməz.[8]

Məscid o qədər əzizdir ki, həzrət İbrahim, İsmail, Zəkəriyya, Məryəm kimi insanlar onun təmizliyinə məsul olmuşlar.[9] Hətta Məryəmin anası övladının oğlan olacağını düşünüb onu Məscidül-Əqsaya xidmətçi nəzir etdi.[10]

6. İmanlı insanın da müqəddəsliyi, kəraməti var. Mömininin hörməti Kəbənin hörmətindən çoxdur. Mömininin qeybəti haramdır, onun haqqını müdafiə etmək vacibdir. Hətta mömininin qəbrini açmaq haramdır.

## Bildirişlər

1. Başqalarına ədəb öyrətmək üçün onlarla ədəbli rəftar etməliyik. (Bu ayədə Allah-taala mömінləri "ey iman gətirənlər" deyə çağırır.

2. İslam ümmətinin rəhbərinin xüsusi məqamı var. İnsanlar rəhbərin hörmətini gözləməli, onunla ucadan danışmamalı, sözünün üstündən söz deməməlidirlər.

---

[1] "Bihar", c. 27, s. 238
[2] "Bəqərə", 248
[3] "Bəqərə" 83; "Nisa", 38; "Ənam", 151; "İsra", 23; "Əhqaf", 15
[4] "Loğman", 14
[5] "Taha", 12
[6] "Tövbə", 28
[7] "Əraf", 31
[8] "Nisa", 43
[9] "Bəqərə", 125
[10] "Ali-İmran", 35

3. Başqalarının dili ilə böyüklərə hörmətə çağırış gözəldir. (Ayədə Peyğəmbər (s) öz adından yox, Allahın adından bəyan etdik ki, Peyğəmbərlə (s) ucadan danışmayın.)

4. Fərdlərin məqam və mövqeyi onların əməllərinə təsirlidir. (Möminlərin Peyğəmbərə (s) qarşı hörmətsizliyinin ağır cəzası var.)

5. Bəzən insan bilmədən öz kökünə balta çalır.

***Ayə 3:***

﴿إِنَّ ٱلَّذِينَ يَغُضُّونَ أَصْوَاتَهُمْ عِندَ رَسُولِ ٱللَّهِ أُوْلَٰئِكَ ٱلَّذِينَ ٱمْتَحَنَ ٱللَّهُ قُلُوبَهُمْ لِلتَّقْوَىٰ لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ﴾

**"Həqiqətən, peyğəmbərin yanında (ədəb və ehtiramla) səsini aşağı salanlar, o kəslərdir ki, Allah onların qəlblərini təqva üçün hazırlamışdır. Böyük bağışlanma və mükafat da onlara məxsusdur."**

**Nöqtələr**

"Ğəzz" sözü aşağı salmaq, qısaltmaq mənasını bildirir. Quranda bu söz səsin aşağı endirilməsi və baxmamaq tövsiyə olunarkən işlədilmişdir.[1]

Əgər danışıqda ədəb lazımdırsa, rəftarda bu nöqtəyə daha çox diqqət yetirilməlidir.

Aram danışıq ədəb, təvazö, vüqar və aramlıq nişanəsidir.

Bu ayədə buyurulur ki, Allah qəlbləri sınağa çəkir, onlardakı paklıq və təqvanı aşkarlamaq istəyir. Çoxları ikiüzlülükdən özünü ədəbli və təvazökar göstərir, amma təkəbbürlüdür.

İlahi mükafatlar adətən "kərim", "əzim", "kəbir", "ğəyri məmnun" sifətlərinin zikri ilə bəyan olunur. Çünki bütün bu mükafatların qaynağı Allahın sonsuz rəhmət və lütfüdür.

***Danışıqda ədəb***

Bu ayədə Peyğəmbərlə (s) ədəbli danışmaq qaydası öyrədilir. İslamda danışıq qaydası haqqında müəyyən göstərişlər var:

1. Deyilən söz həqiqi olmalıdır;[2]
2. Danışıq xoşagəlimli olmalıdır;[3]
3. Deyilən söz tam və şəffaf olmalıdır;[4]
4. İnsan mülayim danışmalıdır;[5]
5. İnsan alicənablıqla danışmalıdır;[6]
6. Söz qəbul olunacaq və əməl ediləcək şəkildə deyilməlidir;[7]

---

[1] "Nur", 30
[2] "Nəml", 22
[3] "Həcc", 24
[4] "Nisa", 63
[5] "Taha", 44
[6] "İsra", 23
[7] "İsra", 28

7. Danışıqda boş sözlərə yer verilməməlidir;[1]
8. Danışıq əmələ uyğun olmalıdır.[2]

**Bildirişlər**

1. Xilaf iş görəni məzəmmət edək, haqq iş görəni həvəsləndirək. (Ötən ayədə Peyğəmbərin (s) hüzurunda ucadan danışanlar məzəmmət edildi, bu ayədə və sonrakı ayələrdə ədəbli insanlar təşviq olunur)
2. Ədəb daxili təqvanı göstərir.
3. Bir anlıq ədəb təqva göstəricisi deyil.
4. Adətən öncə "məğfirət" sonra "əcr" sözləri işlədilir. Çünki pak olmayan insan ilahi lütflərdən faydalana bilməz.
5. Günahdan paklıq iman və təqva şərti deyil. Bir çox möminlər günaha yol verir, amma tez də tövbə qılır.

***Ayə 4:***

﴿إِنَّ ٱلَّذِينَ يُنَادُونَكَ مِن وَرَاءِ ٱلْحُجُرَاتِ أَكْثَرُهُمْ لَا يَعْقِلُونَ﴾

**"Həqiqətən hücrələrin arxasından səni çağıranların əksəri düşünmür."**

***Ayə 5:***

﴿وَلَوْ أَنَّهُمْ صَبَرُواْ حَتَّى تَخْرُجَ إِلَيْهِمْ لَكَانَ خَيْراً لَّهُمْ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**"Sən onların görüşünə çıxanadək səbir etsələr, şübhəsiz, onlar üçün daha yaxşıdır. Allah bağışlayan və mehribandır."**

**Nöqtələr**

İslam cəmiyyətdə ədəb qaydalarına xüsusi diqqət yetirir. Bu surədə həmin ədəb qaydalarından bəzilərinə işarə olunmuşdur. Ona görə də hazırkı surəni bəzən "adab" surəsi adlandırırlar.

Bu gün Peyğəmbərin (s) divar arxasında çağırılması faktı yoxsa da, uyğun əhvalatda bir çox ibrətlər var. "Ruhul-məani" təfsirində buyurulur ki, İbn Abbas ustadı ilə görüşə gedəndə onun qapısını döymürdü. O ustad özü bayıra çıxanədək gözləyirdi. İbn Abbasdan bunun səbəbini soruşduqda hazırkı ayəni oxudu.

Peyğəmbərin (s) zövcələri sayda otaqları vardı. Otaqlar çox sadə və dəbdəbəsiz idi. Təəssüf ki, Vəlid ibn Əbdül Məlikin dövründə bu otaqları söküb, məscidə qatdılar.[3] Ey kaş həmin hücrələr əvvəlki vəziyyətində qalaydı və insanlar həmin sadəlikdən ibrət götürəydilər"

Həzrət Əli (ə) buyurur: "Ədəbi olmayanın ağlı yoxdur."[4]

**Bildirişlər**

---

[1] "Həcc", 30; "Muminun", 3
[2] "Səff", 2
[3] "Təfsiri-ruhul məani"
[4] "Ğurərul-hikəm"

1. Adətən ədəbsizlik düşüncəsizliyi göstərir.

2. İlahi rəhbərlərə qarşı ədəbsizlik məzəmmət olunur.

3. Ev və ailə möhtərəmdir, kimsənin haqqı yoxdur ki, evin və ailənin hörmətini gözləməsin. Hətta evin xaricindən evin daxilindəkini çağırarkən hörmət gözləmək lazımdır.

4. Zəruri səbəblərdən, məsələn çıxış zamanı ucadan danışanlar məzəmmət olunmur.

5. Başqalarının istirahət vaxtına və proqramına hörmət göstərək. Peyğəmbərin (s) də istirahətə ehtiyacı vardı və ona əziyyət verilməməli idi.

6. İctimai məsuliyyətlər insanı ev qayğılarından azad etmir.

7. Əziz Peyğəmbər (s) xalqla görüş üçün vaxt təyin etmişdi və bayırdan onu səsləməyə ehtiyac yox idi.

8. Ədəbsiz və düşüncəsiz insanlarla ədəbli davranaq, onların ümidini qırmayaq. Peyğəmbər (s) onu ucadan çağıranlarla mərhəmətli davranırdı ki, onlar özlərini dəyişmək üçün fürsət tapsınlar.

***Ayə 6:***

**﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن جَاءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوٓاْ أَن تُصِيبُواْ قَوْماً بِجَهَالَةٍ فَتُصْبِحُواْ عَلَى مَا فَعَلْتُمْ نَادِمِينَ﴾**

**"Ey iman gətirənlər! Əgər bir fasiq sizə mühüm xəbər gətirsə, onu araşdırın. Məbada, (tələsik qərar çıxarasınız) öyrənmədən bir qövmə zərər vurasınız və sonradan peşiman olasınız."**

## Nöqtələr

Şiə və sünni mənbələrində nəql olunmuş çoxsaylı rəvayətlərə əsasən, bu ayə Vəlid ibn Üqbə haqqında nazil omuşdur. Peyğəmbər (s) onu zəkat toplamaq üçün Bəni-Müstələq qəbiləsinə doğru göndərdi. Bu şəxslə həmin qəbilə arasında cahiliyyət dövründən düşmənçilik olduğu üçün Vəlid onun görüşünə gələn xalqın hücum etmək istədiyini düşünüb geri qayıtdı. Peyğəmbərə (s) bildirdi ki, qəbilə zəkat verməkdən boyun qaçırır. Peyğəmbər (s) narahat oldu və qərara gəldi ki, həmin qəbiləni cəzalandırsın. Ayə nazil oldu və Vəlidin yalanının üstü açıldı.

Şübhəsiz ki, Vəlid ibn Üqbə fasiq şəxs kimi tanınmırdı. Əgər belə olsaydı Peyğəmbər (s) onu zəkat ardınca göndərməzdi. Yalnız Vəlidin yalanından sonra onun kimliyi aşkarlandı. Peyğəmbər (s) və möminlər ayəyə əsasən bu şəxsin dediklərinə inanmadılar.

İmam Hüseyn (ə) Vəlid ibn Üqbəyə buyurdu: "And olsun Allaha, mən səni Əli ibn Əbu-Taliblə (ə) düşmənçiliyinə görə qınamıram. Çünki Allah Əlini (ə) mömin, səni fasiq adlandırıb." Sonra həzrət bu ayəni oxudu.[1]

Sual: Bu ayədə araşdırma aparmaq göstərişi verilir. Həmin surənin 12-ci ayəsində isə başqalarını güdmək haram sayılır. Bu iki ayə arasında ziddiyyət yoxdurmu?

---

[1] “Təfsiri-nurus-səqələyn"

Cavab: İnsanların fərdi həyatına müdaxilə edib, onları izləmək olmaz. Amma bir şəxsin əməlləri cəmiyyətə təsirlidirsə, cəmiyyətə xatir onun əməllərini araşdırmaq olar.

### *Fisq nədir, fasiq kimdir?*

"Fisq" sözünün lüğət mənası xaric olmaqdır. Quran leksikonunda doğru yoldan çıxmaq fisq sayılır. Fisq ədalətin ziddidir. Böyük günaha yol verən və tövbə etməyən insan fasiq sayılır.

"Fisq" sözü müxtəlif mənalarda 54 dəfə işlədilmişdir. Məsələn, Firon və onun qövmünün azğınlığı ilə bağlı;[1] münafiqlər haqqında;[2] Peyğəmbərə (s) əziyyət verib, onun göstərişindən çıxanlar haqqında;[3] ilahi qanunlar əsasında mühakimə aparmayanlar haqqında;[4] hiyləgərlər haqqında;[5] yaxşılığa çağırış və pisliyə qadağa vəzifəsini tərk edənlər haqqında;[6] ev-eşik, var-dövləti Allah yolundan üstün tutanlar haqqında;[7] aşkar şəkildə əxlaqsızlıq edənlər haqqında (Lut qövmü ilə bağlı);[8] haram qidalardan istifadə edənlər haqqında;[9] pak qadınlara böhtan atanlar haqqında.[10]

### İctimai problemlərin çarəsi

Tarix boyu peyğəmbərlər çeşidli ictimai və əxlaqi xəstəliklərə düçar olmuş toplumlarla üzləşmişlər. Bu gün də texnoloji tərəqqinin vüsətinə baxmayaraq həmin xəstəliklər öz gücündə qalır. Əcdadlara kor-koranə təqlid, xürafi adət-ənənələrə tabeçilik, zənn-gümana, şayiələrə, əsassız proqnozlara və yuxulara etiqad bu qəbil xəstəliklərdəndir.

Elimsiz mühakimə, elimsiz sitayiş və ya inkar, elimsiz yazmaq və danışmaq ağır xəstəliklərdir. Bütün bu xəstəliklərin dərmanı uyğun ayədəki araşdırmadır. Əgər cəmiyyət diqqətli olub araşdırma aparsa, bütün ictimai xəstəliklərə çarə qılınar.

"Nisa" surəsinin 94-cü ayəsi də bu ayənin oxşarıdır. Həmin ayədə möminlərə əmr olunur ki, Allah yolunda addım atdıqda araşdırma aparsınlar, imanlı olduğunu izhar edəni imansızlıqda suçlamasınlar, qənimətə görə günahsız insanı öldürməsinlər. Çünki əsil qənimətlər Allaha məxsusdur.

Tarixdə bildirilir ki, xeybər savaşından sonra İslam peyğəmbəri (s) Usamə ibn Zeyd adlı bir şəxsi bir dəstə müsəlmanla Fədək kəndlərindən birində yaşayan yəhudilərin üzərinə göndərdi. Usamə Yəhudiləri İslama çağırmalı, ya da onlara

---
[1] "Nəml", 12
[2] "Tövbə", 67
[3] "Maidə", 24-26
[4] "Maidə", 47
[5] "Əraf", 163
[6] "Əraf", 165
[7] "Tövbə", 23
[8] "Ənkəbut", 34
[9] "Maidə", 3
[10] "Nur", 4

zimmə şərtlərini qəbul etdirməli idi. Mirdas adlı bir yəhudi bu xəbəri eşidəndən sonra var-yoxunu və ailəsini götürüb dağa qalxdı. O "la ilahə illəllah, Muhəmmədun rəsulullah" deyərək müsəlmanların istiqbalına çıxdı. Usamə bu şəxsin riyakarlıq etdiyini düşünüb, onu öldürdü. Bu xəbər həzrət Peyğəmbəri (s) çox narahat etdi. Həmin vaxt yuxarıdakı ayə nazil oldu.

## İslamda xəbər mövzusu

İslamda məlumatın ötürülməsi ilə bağlı bir sıra nöqtələr açıqlanmışdır:

a) Quran eşitdiyi xəbəri ölçüb-biçmədən yayan insanı şiddətlə qınayır. Bildirilir ki, əldə olunan məlumat mütəxəssislərə çatdırılsın və yalnız həmin xəbərin düz olduğu təsdiq edildikdən sonra bu barədə danışılsın.[1]

b) Quranda yalan xəbəri yayıb cəmiyyətin asayişini pozanlar üçün ağır cəza nəzərdə tutulmuşdur.[2]

v) İslam peyğəmbəri (s) şərif ömrünün son ilində Həcc səfərində buyurdu: "Mənim dilimdən yalan danışanlar çoxdur və gələcəkdə daha çox olacaq. Bilərəkdən mənim adımdan yalan danışanların yeri cəhənnəmdir. Mənim adımdan nə deyilsə Quran və sünnə ilə tutuşdurun. Uyğun gəlsə qəbul, uyğun gəlməsə rədd edin."[3]

q) İmam Sadiq (ə) atasının adından yalan danışanları lənətləmiş və buyurmuşdur: "Bizim adımızdan nə eşitsəniz, Qurandan və dediklərimizdən bir dəlil tapsanız qəbul, tapmasanız inkar edin."[4]

d) İmam Riza (ə) buyurmuşdur: "Bizim dediklərimizin sənəd-sübutu Quran və Peyğəmbər (s) sünnəsidir."[5]

j) Mühüm İslam elmlərindən biri rical elmidir. Bu elm doğru xəbəri, yalan xəbərdən fərqləndirməklə məşğul olur. Rical elmində hədis nəql edənlərin mötəbərliyi araşdırılır.

## Bildirişlər

1. Mömin insanlar eşitdiklərinə tez inanmamalı, hər sözü araşdırmalıdırlar.
2. Peyğəmbərin (s) səhabələri arasında ədalətsiz kəslər də olmuşdur. Bəzən fasiq və münafiq səhabələrə də təsadüf edilir.
3. Fitnəkarlıqla məşğul olanların ifşa və rüsvay edilməsi caizdir.
4. Fitnə üçün iki zəminə var: fasiqin tələşı və möminlərin sadəlövhlüyü.
5. İslam xalqa etimada önəm verir. Amma fasiqliyi aşkar insan başqalarından fərqlidir.
6. Fasiq şəxs yalan xəbər, bir növ şayiə yaymaqla məşğuldur.
7. İman sadəlövhlüklə bir araya sığmır.
8. Araşdırmanı təxirə salmayın.

---

[1] "Nisa", 83
[2] "Əhzab", 60
[3] "Bihar", c. 2, s. 225
[4] "Bihar", c. 2, s. 250
[5] "Bihar", c. 2, s. 250

9. Bəzən fasiq də doğru danışır. Buna görə də bir qədər səbir edib, araşdırma aparmaq lazımdır.

10. İslam cəmiyyəti informasiya hücumuna məruz qalmışdır və biz diqqətli olmalıyıq.

11. Müdiriyyət gedişində hadisə baş verməmiş onun qarşısı alınmalıdır. Öncə araşdırma, sonra təlaş.

12. İlahi hökmlərin fəlsəfəsinin, hikmətinin açıqlanması insanlarda bu hökmlərin icrasına həvəs yaradır. (Araşdırmanın fəlsəfəsi fitnənin qarşısını almaqdır)

13. Fasiq xəbərçilərin əsas məqsədlərindən biri cəmiyyətdəki əmin-amanlığı pozmaqdır.

14. Araşdırılmamış bir məlumat əsasında addım atmaq cəmiyyəti məhv edə bilər.

15. Tələsik, araşdırmasız hərəkət cəhalət növüdür.

16. İlahi göstərişlərə tabeçilik sonrakı peşimançılığı aradan qaldırır. Araşdırma aparaq ki, sonradan peşiman olmayaq.

17. Ölçü-biçimsiz işin sonu peşimanlıqdır.

***Ayə 7:***

**﴿وَٱعْلَمُوٓاْ أَنَّ فِيكُمْ رَسُولَ ٱللَّهِ لَوْ يُطِيعُكُمْ فِي كَثِيرٍ مِّنَ ٱلْأَمْرِ لَعَنِتُّمْ وَلَـٰكِنَّ ٱللَّهَ حَبَّبَ إِلَيْكُمُ ٱلْإِيمَـٰنَ وَزَيَّنَهُۥ فِي قُلُوبِكُمْ وَكَرَّهَ إِلَيْكُمُ ٱلْكُفْرَ وَٱلْفُسُوقَ وَٱلْعِصْيَانَ أُوْلَـٰٓئِكَ هُمُ ٱلرَّٰشِدُونَ﴾**

**"Bilin ki, aranızda Allahın rəsulu var (siz Ona tabe olmalısınız). O bir çox işlərdə sizə tabe olsa, şübhəsiz, məşəqqətə düşəcəksiniz. Amma Allah imanı sizin üçün sevimli etdi, qəlblərinizdə ona zinət verdi. Sizdə küfrə, fisqə, günaha nifrət yaratdı. Onlar həmin kamala çatanlardır."**

***Ayə 8:***

**﴿فَضْلاً مِّنَ ٱللَّهِ وَنِعْمَةً وَٱللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾**

**"(İmana sevgi və küfrə nifrət) Allah tərəfindən böyük bir fəzl və nemətdir. Allah agah və hikmət sahibidir."**

### Nöqtələr

Ötən ayə ilə bağlı oxuduq ki, Vəlid ibn Əqəbə Peyğəmbərə (s) zəkat vermədiyini yalan demişdi. Xalq hücuma hazır olarkən ayə nazil oldu ki, bir fasiq xəbər gətirdikdə onu araşdırın. Bu ayədə isə Peyğəmbərə (s) tabe olmaq tapşırılır. Bəyan olunur ki, ilahi rəhbər fasiqlərə görə qızışmış həyəcanlara tabe olmamalıdır.

Rəvayətdə bildirilir ki, əgər iman əhlini sevirsinizsə xeyir yoldasınız, günahkarlarla əlaqəlisinizsə, sizdə bir xeyir yoxdur.[1]

---

[1] "Kafi", c. 2, s. 126

Rəvayətlərə əsasən Allahın imanı sevdirməsi ilə bağlı bəyanatın nümunələrindən biri Əli ibn Əbu-Talibin (ə) məhəbbətidir. Küfr və günah nümunələrindən biri isə Peyğəmbər (s) əhli-beyti (ə) ilə düşmənçilikdir.[1]

Hədisdə bildirilir ki, mənəviyyata sevgini və günaha nifrəti nemət saymayanlar ilahi nemətlərə qarşı nankorluq etmişlər. Onların əməli az, təlaşları puçdur.[2]

Kamilliyə çatmaq Allahın peyğəmbərlərə hədiyyəsidir.[3] Peyğəmbərlərin də vəzifəsi başqalarını kamala çatdırmaq olmuşdur.[4] Peyğəmbərlər özləri də kamillik sorağında olmuşlar. Həzrət Musa səhrada həzrət Xızrın ardınca gedir ki, elm yolu ilə kamillik əldə etsin.[5] İman kamillik, səmavi kitablar kamal vasitəsidir.[6] Bu ayədə də həqiqi möminlər kamillik səciyyəsi ilə tanıtdırılır. Quranda təkamül deyərkən mənəvi təkamül nəzərdə tutulur. Yalnız dünyəvi baxımdan tərəqqini kamal saymaq dar düşüncədən doğur.

Müdiriyyət və siyasətdə qərar çıxaran məsum və ya ədalətli olmazsa, istibdad yaradar.[7] Qərar çıxaran şəxs məsum və ya ədalətli olarsa, inkişaf üçün zəmin yaranar.

## Bildirişlər

1. Peşiman olmaq istəmiriksə, peyğəmbərlərin təlimlərinə müraciət edək. (Ötən ayədə peşimançılıqdan danışıldı. Bu ayədə buyurulur ki, peşimançılıqdan qurtulmaq üçün Peyğəmbərə (s) müraciət edin.)
2. Peyğəmbərlərin və ilahi rəhbərlərin mövcudluğu cəmiyyət üçün bir imtiyazdır.
3. Rəhbər xalq üçün əlçatmaz olmamalıdır.
4. Peyğəmbərin xalqla məsləhətləşmək istəyi caizdir. Amma onun xalqa tabeçiliyi yersiz istəkdir.
5. Cəmiyyətdəki problemlər peyğəmbər məktəbindən uzaqlığın, şəxsi səliqələrin nəticəsidir.
6. Dini rəhbər rəy bildirməkdə müstəqil olmalıdır. (Düşmənlər müsəlmanlara məhz belə bir şəxsin rəhbərlik etməsini istəmirlər.)[8]
7. Allah və Peyğəmbər (s) tərəfindən hökm yoxsa həmin məsələdə xalqla məsləhətləşmək olar.
8. Dinə meyl fitri bir meyldir. Allah bu meyli insanda əmanət qoymuşdur.
9. İman qəlbə aiddir və o məcburiyyətlə bir araya sığmır.

---

[1] "Kafi", c. 1, s. 426
[2] "Bihar", c. 74, s. 158
[3] "Ənbiya", 51
[4] "Ğafir", 38
[5] "Kəhf", 66
[6] "Bəqərə", 186; "Cinn", 2
[7] "Hud", 97
[8] "Ali-İmran", 118

10. İman qəlblərin zinətidir. Necə ki dağlar, dənizlər, mədənlər, çiçəklər, şəlalələr yerin zinətidir.[1] (Bəli, insanın zinəti mənəvi kamillikdir. Maddi gözəlliklər isə yerə zinətdir.)

11. Allaha xatir dostluq və Allaha xatir düşmənçilik yanaşı olmalıdır. İman əhlini seviriksə, küfr və günah əhlinə də nifrət etməliyik.

12. Qəlbdə inkar və puç məqsəd tüğyan üçün müqəddimədir.

13. Küfr, fisq və üsyan imanın bəlalarıdır.

14. Pisliklərə nifrət fitri bir meyldir. Bu nifrət təkamül səbəbidir.

15. Küfrə, fisqə, tüğyana nifrət etməyənlər kamilləşə bilmir.

16. İman istəyi, küfr və günaha nifrət Allahın böyük nemətlərindəndir.

17. Allahın fəzli meyarsız və təsadüfi deyl, Onun elm və hikmətinə əsaslanır.

***Ayə 9:***

﴿وَإِن طَآئِفَتَانِ مِنَ ٱلْمُؤْمِنِينَ ٱقْتَتَلُواْ فَأَصْلِحُواْ بَيْنَهُمَا فَإِن بَغَتْ إِحْدَاهُمَا عَلَى
ٱلْأُخْرَى فَقَاتِلُواْ ٱلَّتِي تَبْغِي حَتَّى تَفِيءَ إِلَى أَمْرِ ٱللهِ فَإِن فَآءَتْ فَأَصْلِحُواْ بَيْنَهُمَا
بِٱلْعَدْلِ وَأَقْسِطُواْ إِنَّ ٱللهَ يُحِبُّ ٱلْمُقْسِطِينَ﴾

**"Əgər möminlərdən iki dəstəsi dava-dalaşa başlasalar onlar arasında sülh və dostluq yaradın. Sonradan həmin iki dəstədən biri o birinə təcavüz etsə Allahın əmrinə dönənədək onunla vuruşun. Təcavüzkar geri dönsə (təcavüzdən əl çəksə) həmin iki dəstə arasında ədalətlə sülhü bərqərar edin. Ədalətli olun, Allah ədalətliləri sevir."**

**Nöqtələr**

İman möminlərə dava-dalaşı, çəkişməni qadağan etsə də, onlar məsum olmadıqlarından hər hansı səbəbdən öz aralarında vuruşurlar.

Belə bir halla rastlaşıb fitnəni aradan qaldırarkən ehtiyatlı olmalıyıq ki, məzlumun haqqı tapdanmasın. Zalımla elə rəftar etmək lazımdır ki, onun təcavüzü təkrarlanmasın.

Hədisdə bildirilir ki, din qardaşın istər zalım, istər məzlum olsun, ona yardım et. Əgər məzlumsa, haqqını al, zalımsa zülmünün qarşısını kəs.[2]

Bu ayəni oxuduğu üçün iki əli kəsilən olub. Cəməl savaşında həzrət Əli (ə) müxalifləri tutduqları yoldan çəkinməyə çağırsa da Ayişənin tərəfdarları onu dinləmədilər. Həzrət bu insanların itaətsizliyindən Allaha şikayətləndi. O Quranı əlinə alıb buyurdu: "Bu ayəni onlara kim oxuya bilər?" Müslim Məcaşi adlı bir şəxs dedi: "Mən onu ucadan oxuya bilərəm." İmam buyurdu: "Sənin əllərini kəsəcəklər, şəhid olacaqsan." Müslim dedi: "Mənim şəhadətim Allah yolunda kiçik şeydir." O Quranı əlinə alıb Ayişənin qoşununa tərəf yola düşdü. Müxalifləri Allaha imana çağırıb, qandan çəkindirmək istədi. Onun sağ əlini kəsdilər, Quranı sol əlinə götürdü. Sonra sol əlini kəsdilər. O çətinliklə də olsa ağzı ilə Quranı

[1] "Kəhf", 7

[2] "Vəsail", c. 12, s. 212

qaldırdı. Nəhayət Müslimi şəhadətə yetirdilər. Həzrət Əli (ə) onun şəhadətindən sonra hücum göstərişi verdi.[1]

Bəli, öncə Qurana istinad edib xəbərdarlığı başa çatdırmaq, sonra Allah yolunda vuruşa qalxmaq lazımdır.

## Ədalət

Bu ayədə insanlar arasında ədalətlə sülhün bərqərarı mövzusu üç dəfə xatırlanır. Əslində yaranış haqq-ədalət əsasındadır.[2] Peyğəmbərlər ona görə göndərildi ki, insanlar ədalətə üz tutsun.[3]

Bugünkü dünyada yalnız qanun əsasında ədalət bərpa oluna bilər. Ədalətsizlik isə qanuna riayət olunmamasından yaranır. Amma hansı qanun? İnsanın yaratdığı qanunmu? Hər gün, az qala hər saat dəyişən qanun qanundurmu? Ayrı-ayrı fərdlərin, partiyaların mənafeinə xidmət edən, məhdud bilikli insanların şəxsi düşüncə məhsulu olan qanunlardan nə fayda? Əgər qanun verən özü bir sıra qanunları pozursa buna nə ad vermək olar? Bu qəbil qanunlar müqəddəs və möhtərəm ola bilərmi? Onlardan hansı ədaləti, əmin-amanlığı gözləmək mümkündür?

Yalnız peyğəmbərlər vasitəsi ilə bəşəriyyətə çatdırılmış ilahi qanunlar sülh və ədaləti təmin edə bilər, istənilən bir xətadan uzaq olar. Allahın öz sonsuz elm və hikməti əsasında tənzimlədiyi və peyğəmbərlər tərəfindən göndərilmiş qanunlar təsirlidir.

## Bildirişlər

1. Möminlər arasında qarşıdurma kiçik bir qığılcımdır və müvəqqətidir. Ayədə bu qarşıdurmanın müvəqqətiliyinə işarə var.
2. Müsəlmanlar bir-birləri qarşısında məsuldurlar. Hər hansı qarşıdurmaya biganəlik, məqbul deyil.
3. Müsəlmanları barışdırmaq, onların arasında sülhü bərpa etmək üçün dərhal, yubanmadan qiyam qaldırmaq lazımdır.
4. Əgər iki dəstədən biri inadkarlıq göstərsə İslam ümməti ona qarşı səfərbər olmalıdır.
5. Əmin-amanlıq və ədalətin bərpası üçün düşmənçilik edəni öldürmək də olar. Fitnəkarın qanı dəyərsizdir.
6. Amansızlığa sərt cavab verilməlidir.
7. Düşməni cəzalandırarkən yubanmayaq.
8. İslamda savaş məqsədi müqəddəsdir.
9. Mübarizə məqsədə çatanadək davam etməlidir. Bu istiqamətdə vaxt nəzərdə tutulmur. Xəstə sağalanadək müalicə aldığı kimi, savaş da məqsədə çatanadək davam edir.

---

[1] "Bihar", c. 32, s. 175
[2] "Bihar", c. 33, s. 493
[3] "Hədid", 25

10. İslami mübarizədə şəxsi məqsədlərə, qövmi bağlılıqlara, partiya maraqlarına, intiqama yer yoxdur. Məqsəd yalnız inadkarın Allah yoluna qaytarılmasıdır.

11. Əgər savaşın əvvəlində təcavüzkar tanınmırsa, sadəcə sülh üçün çalışmaq lazımdır. Növbəti mərhələlərdə günahkar müəyyənləşdirilməlidir. Sülh yaratmaqda məqsəd məzlumun müdafiəsi, zalımdan onun haqqının alınmasıdır.

12. Müsəlmanın vəzifələri şəraitdən asılı olaraq dəyişir. Bəzən sülh yaratmaq, bəzən vuruşmaq lazım gəlir.

13. Azğın meyllər tüğyan qoparanda, təhlükə böyük olduqda ardıcıl tövsiyələr zəruridir.

14. Əgər sülh məzlumun haqqını ona çatdırmırsa, bu sülh deyil. Belə bir sülh ölümə aparır və zorla qəbul etdirilmişdir.

15. Çətinliklərə dözmək zəruri olduqda məhəbbət amilindən istifadə edin.

16. Allah ədalət bərqərar olunmadan bağlanılan sülh müqaviləsini bəyənmir.

***Ayə 10:***

﴿إِنَّمَا ٱلْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا۟ بَيْنَ أَخَوَيْكُمْ وَٱتَّقُوا۟ ٱللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ﴾

**"Həqiqətən, möminlər bir-birləri ilə qardaşdırlar. Beləsə, qardaşlarınız arasında (ixtilaf olduqda) sülh və barışıq yaradın. Allahdan qorxun ki, sizə rəhm edilsin."**

## Nöqtələr

Bu ayədə möminlərin rabitələri qardaşlıq rabitələri kimi tanıtdırılır. Uyğun təbirdə müəyyən nöqtələr var: iki qardaşın dostluğu daha dərindir, iki qardaşın dostluğu qarşılıqlıdır, iki qardaşın dostluğu maddi maraqlardan doğmur, fitri istəkdir, qardaşlar biganə qarşısında bir-birinə arxadır, iki qardaşın kökü eynidir, qardaşlığa diqqət güzəştə sövq edir, qardaş qardaşın sevincinə də qəminə də şərikdir.

Bu gün məhəbbəti izhar etmək üçün "rəfiq", "dost", "yerli", "həmvətən" sözləri işlədilir. Amma İslam daha təsirli "qardaş" təbirinə üstünlük vermişdir.

Hədisdə iki din qardaşı bir-birini yuyan iki ələ bənzədilir.[1]

Bu və bundan öncəki ayədə üç dəfə islah etmək göstərişi verilir. Bu göstəriş İslamın sülh və dostluğa diqqətindən danışır.

Ötən ayədə ədalət və sülhü bərqərar etmək tapşırıldı. Bu ayədə sülhü bərqərar edərkən Allahdan qorxmaq tövsiyə olunur. Əgər sizi mühakimə üçün qəbul etsələr Allahı nəzərdə saxlayın və ədalətlə hökm çıxarın. Sizin hökmünüz tərəfdən birinə zülm olmasın.

## Qardaşlıq

Köklü islahat aparmaq İslamın imtiyazlarındandır. Məsələn, buyurlur ki, bütün izzət Allaha məxsus olduğu halda nə üçün izzət üçün onu-bunu

---

[1] "Muhəccətul-bəyza", c. 3, s. 319

soraqlayırsınız?[1] Başqa bir ayədə buyurulur ki, bütün qüdrət Allaha məxsus olduğu halda nə üçün hər saatda birinin başına fırlanırsınız?[2] Hazırkı ayədə isə möminlərin qardaş olduğu vurğulanır və belə bir vəziyyətdə qarşıdurmaların yersiz olduğu bildirilir. Hamıya dostluq göstərişi verilir. Bu səbəbdən də fərdin və ya cəmiyyətin islahı üçün onların düşüncəsi islah olunmalıdır.

Münasibətlərin istiliyində qardaşlıq təbirindən istifadə İslama məxsusdur.

İlkin İslam dövründə Peyğəmbər (s) 740 nəfər ətrafı ilə Nüxəylə məntəqəsində olduğu vaxt Cəbrəil nazil oldu və buyurdu: "Allah mələklər arasında qardaşlıq əqdi bağlamışdır." Həzrət də öz səhabələri arasında qardaşlıq əqdi oxudu və hər müsəlman başqa bir müsəlmanla qardaş oldu. Məsələn Əbu-Bəkr Ömərlə, Osman Əbdür-Rəhmanla, Salman Əbuzərlə, Təlhə Zübeyrlə, Müsəb Əbu Əyyubla, Həmzə Zeyd ibn Harislə, Əbu Dərda Bilalla, Cəfəri Təyyar Məəz ibn Cəbəllə, Miqdad Əmmarla, Ayişə Həfsə ilə, Ümmü Sələmə Süfəyyə ilə, Həzrət Peyğəmbər (s) özü Əli (ə) ilə qardaşlıq əqdi bağladı.[3]

Ühüd savaşında əziz Peyğəmbər (s) göstəriş verdi ki, aralarında qardaşlıq əqdi oxunmuş Abdullah ibn Ömərlə Ömər ibn Cəmuhun cənazələri bir qəbirdə dəfn edilsin.[4]

Doğma qardaşlıq rabitəsi bir gün qırılacaq.[5] Din qardaşlığı isə qiyamətdə də davam edir.[6]

Qardaşlıq əqdi təkcə kişilərə aid deyil. Qadınlar da bir-birləri ilə qardaşlaşa bilərlər.[7]

Dostluq və qardaşlıq yalnız Allahın razılığı üçün olmalıdır. Dünyaya görə dostluq gözlənilən nəticə vermir. Beləri qiyamətdə də bir-birlərinə düşmən olur.[8] Quranda buyurulur ki, qiyamətdə dünya dostları bir-birlərinə düşmən olarlar. Yalnız təqvalılar bu aqibətdən amandadır.[9]

Qardaşlıq götürməkdən də mühümü həmin qardaşlığı qorumaqdır. Rəvayətlərdə din qardaşlığını tərk edənlər ciddi məzəmmət olunur. Tövsiyə olunur ki, din qardaşı üz döndərdikdə belə onunla get-gəl zəruridir.[10]

İmam Sadiq (ə) buyurur: "Mömin mömininin qardaşıdır. Onlar bir bədən kimidirlər. Bədənin bir hissəsi ağrıdıqda o biri hissəsi də narahat olur.[11] Sədi bu hədisi nəzmə çəkmişdir:

Adəm oğlu üzvüdür bir peykərin,
Üzərində dayanmış bir gövhərin.

Bir üzvə dərd gətirərsə ruzigar,

---

1 "Yunus", 65
2 "Bəqərə", 165
3 "Bihar", c. 38, s. 335
4 "Şərhi-İbn Hədid", c. 14, s. 214; "Bihar", c. 20, s. 121
5 "Muminun", 101
6 "Hicr", 47
7 "Nisa", 176
8 "Bihar", c. 74, s. 167
9 "Zuxruf", 67
10 "Bihar", c. 78, s. 71
11 "Kafi", c. 2, s. 133

O biri üzvlər də tutmaz qərar.

Qəlbində dost ağrısına yoxsa qəm,
Layiq deyil adın qoyula adəm.

## Qardaşlıq haqları

Allahın rəsulu (s) buyurmuşdur: "Müsəlmanın müsəlman qardaşı üzərində otuz haqqı var. Bu hüquqlar birbəbir ödənməlidir: əfv və mehribanlıq; sirri gizli saxlamaq; müsəlmanın səhvlərini aradan qaldırmaq; onun üzrünü qəbul etmək; müsəlmanı onu istəməyənlərdən müdafiə etmək; müsəlmana xeyirxahlıq; ona verilən vədlərə əməl etmək; xəstələndiyi vaxt onu yoxlamaq; onun cənazəsinin dəfnində iştirak etmək; onun dəvətini qəbul etmək və ona hədiyyə vermək; onun hədiyyələrini qiymətləndirmək; onun xidmətlərinə görə təşəkkür etmək; ona yardım üçün çalışmaq; onun namusunu qorumaq; onun istəyini yerinə yetirmək; onun problemlərinin həlli üçün vasitəçilik; onun itkisini tapmağa yardım; səbir vuranda sağlamlıq istəmək; salamına cavab vermək; onun sözlərinə ehtiram göstərmək; hədiyyəsinə yaxşı münasibət; andını qəbul etmək; onun dostunu dost, düşmənini düşmən bilmək; hadisələr haqda onu tənha buraxmamaq özün üçün istədiyini onun üçün də istəmək...[1]

Əziz Peyğəmbər (s) "möminlər qardaşdır" ayəsi haqqında buyurmuşdur: "Müsəlmanların qanı bərabərdir. Onlardan biri kiməsə sığınacaq verdikdə başqaları onun əhdinə sadiq olmalıdır. Müştərək düşmənə qarşı səfərbər olmaq lazımdır.[2]

## Quranda sülh və barışıq

Qurandakı sülh, islah, barışdırmaq, salamtçılıq, təbirləri İslamın sülh-səfa içində yaşayışa böyük diqqət yetirdiyini göstərir.[3]

Müsəlmanlar arasında barışıq yaratmaq Quranda bəyan olunmuş ilahi nemətlərdəndir. Allah-taala müsəlmanlara xitabən buyurur ki, İslamdan öncə bir-birinizə düşmən olduğunuzu xatırlayın; Allah sizin qəlblərinizdə ülfət yaratdı.[4] Elə ki, Əvs və Xəzrəc qəbilələri İslamdan öncə 120 il bir-birlərinə düşmən olmuşdular. İslam onlar arasında sülh yaratdı.

İslah və dostluq yaratmaq Allah tərəfindən mərhəmətə səbəb olur.[5] Müsəlmanlar arasında islah üçün vasitəlik edənin böyük mükafatı olcaq.[6]

İslam insanların münasibətinin islahı üçün xüsusi göstərişlər verir:

1. Böyük günah sayılan yalan müsəlmanların dostluğuna xidmət edərsə, caizdir.[1]

---

[1] "Bihar", c. 74, s. 236
[2] "Təfsiri-nümunə"
[3] "Nisa", 128; "Ənfal", 1; "Ali-İmran", 103; "Bəqərə", 208
[4] "Ali-İmran", 103
[5] "Nisa", 129
[6] "Nisa", 85

2. Pıçıltı ilə danışmaq şeytan əməli kimi qadağan olunmuşdur.[2]

Əgər müsəlmanlar arasında sülh məqsədi ilə bu sayağı danışılarsa günah sayılmaz.[3]

3. Anda əməl etmək vacib və andı pozmaq haram olsa da kimsəni barışdırmayacağına and içmiş insanın andı pozması caizdir.[4]

4. Vəsiyyətə əməl etmək vacib olsa da vəsiyyət müsəlmanlar arasında kin-küdurət yaratdıqda İslam həmin vəsiyyətə əməl etməməyə icazə verir.[5]

**Bildirişlər**

1. Qardaşlıq rabitəsi imandan asılıdır. (İqtisadi, siyasi, milli, coğrafi, tarixi maraqlar insanlarda qardaşlıq ruhu yarada bilmir.)

*Qurdların itlərdən ayrıdır canı,*
*Allah şirlərinin birdir ünvanı.*

2. İman qardaşlığı yaşdan, peşədən, savaddan və qazancdan asılı deyil.
3. Kimsə özünü başqalarından üstün saymasın. (Bəli, valideynlə övlad arasında fərq varsa da, qardaşlar bərabərdir.
4. Sülh və asayişin bərqərar olması üçün məhəbbət yaradan, insanı duyğulandıran sözlərdən istifadə edək.
5. Dava-dalaşın qarşısını alıb sülh yaratmaq hamının vəzifəsidir.
6. İslah edən şəxs özünü vuruşan tərəflərə qardaş bilsin.
7. İslah və barışıq yaratmağın bəlaları var, ehtiyatlı olmaq lazımdır.
8. Sülh-səfa ilahi mərhəmət üçün müqəddimədir.
9. Təqvasız cəmiyyət ilahi mərhəmətlərdən məhrumdur.

***Ayə 11:***

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا يَسْخَرْ قَومٌ مِّن قَوْمٍ عَسَى أَن يَكُونُواْ خَيْراً مِّنْهُمْ وَلَا نِسَاءُ مِّن نِّسَاءٍ عَسَى أَن يَكُنَّ خَيْراً مِّنْهُنَّ وَلَا تَلْمِزُواْ أَنفُسَكُمْ وَلَا تَنَابَزُواْ بِالْأَلْقَابِ بِئْسَ ٱلاِسْمُ ٱلْفُسُوقُ بَعْدَ ٱلْإِيمَانِ وَمَن لَّمْ يَتُبْ فَأُوْلَئِكَ هُمُ ٱلظَّالِمُونَ﴾

**"Ey iman gətirənlər! Məbada, bir dəstə o birini məsxərəyə qoysun. Olsun ki məsxərəyə qoyulanlar məsxərə edənlərdən üstündür. Qadınlar da başqa qadınları məsxərəyə qoymasınlar. Olsun ki, onlar o birilərindən üstündür. Aranızda eyb axtarmayın. Bir-birinizi pis ləqəblə çağırmayın. İmandan sonra fisq pis qaydadır. (Sizə yaraşmaz) Hər kəs tövbə qılmasa, onlar həmin sitəmkarlardır."**

**Nöqtələr**

---

[1] "Bihar", c. 69, s. 242
[2] "Mücadələ", 10
[3] "Nisa", 114
[4] "Bəqərə", 224
[5] "Bəqərə", 182

"Ləmz" dedikdə üzdə eyb axtarmaq, "həmz" dedikdə arxada eyb axtarmaq mənası nəzərdə tutulur.[1] "Tənabuz" dedikdə başqalarını pis ləqəblə çağırmaq başa düşülür.[2]

Ötən ayədə möminlər arasında qardaşlıq məsələsindən danışıldı. Bu ayədə qardaşlığıa zərərli işlərdən söz açılır. Ötən ayələrdə sülh və səfadan danışıldı. Bu ayədə isə fitnənin bəzi amilləri araşdırılır. Hazırda məsxərə, təhqir, pis ləqəblə çağırmaq kimi amillərə işarə olunur.

Bəli, İslam göstərişlərinə əməl etməyin bərəkətlərindən biri ictimai mühitin sağlamlaşdırılmasıdır.

Belə ola bilər ki, hazırkı ayədə məsxərə və təhqirin nümunə olaraq bəzi ünvanları bildirilmişdir. Əslində isə müsəlmanlar arasında qardaşlığa zərərli bütün sözlər qadağandır.

Qövm dedikdə qadınlar da nəzərdə tutulur. Amma onların ayrıca zikr edilməsi məsxərə və təhqirin onlar arasında daha çox yayıldığını göstərir.

## Məsxərə və istehza

İstehza zahirdə bir, batində bir neçə günahdır. Məsxərədə başqalarının təhqiri, onların alçaldılması, eyblərin açılması, ixtilaf yaradılması, qeybət, kin-küdurət, fitnə, təhrik, intiqam, başqalarına tənə kimi günahlar da var.

## Məsxərənin kökləri

1. Bəzən məsxərənin səbəbi sərvət olur. Quranda buyurulur ki, vay olsun sərvətinə görə başqalarında eyb axtarana.[3]

2. Bəzən istehzanın səbəbi elm və diplom olur. Quran bu barədə buyurur ki, onlar öz elmlərinə görə şaddırlar, amma məsxərə etdiklərinin cəzası onları bürüyər.[4]

3. Bəzən insan fiziki gücünə görə başqalarını məsxərəyə qoyur. Kafirlər deyirdilər ki, bizdən güclüsü kimdir?[5]

4. Bəzən insanlar ad-sanları səbəbindən başqalarını məsxərəyə qoyurlar. Kafirlər Peyğəmbərin (s) ətrafındakı yoxsulları təhqir edib deyirdilər ki, biz onları rəzil görürük.[6]

5. Bəzən əyləncə məqsədi ilə başqaları məsxərəyə qoyulur.

6. Bəzən var-dövlətə maraq başqalarının məsxərəsinə aparır. Bəziləri zəkata görə Peyğəmbəri (s) məsxərəyə qoyurdular. Quranda buyurulur ki, onların sözlərinin səbəbi tamahlarıdır.[7] Əgər Peyğəmbər (s) həmin zəkatdan onlara

---

[1] "Kitabul-eyn"
[2] "Lisanul-ərəb"
[3] "Huməzə", 1, 2
[4] "Ğafir", 83
[5] "Fussilət", 15
[6] "Hud", 27
[7] "Tövbə", 58

versəydi, razı qalardılar. Amma zəkatdan məhrum qalmaları onları əsəbləşdirmiş, eyb axtarmağa sövq etmişdir.

7. Bəzən cəhalət və nadanlıq məsxərəyə səbəb olur. Həzrət Musa inəkləri öldürməklə bağlı göstəriş verdikdə Bəni-İsraildən olanlar dedilər: "Bizi məsxərəyə qoyursan?" Həzrət Musa bildirdi ki, cahillərdən olmamaq üçün Allaha pənah aparır.[1] O dedi: “Məsxərə cahillərə aiddir və mən cahil deyiləm.

Həzrət Peyğəmbərin (s) mübarək işlərindən biri pis adların dəyişdirilməsi idi.[2] Bəli, pis ad məsxərəyə səbəb olur.

Həzrət Əlinin (ə) qardaşı Əqil Müaviyənin görüşünə getdi. Müaviyə onu təhqir etmək məqsədi ilə dedi: "Salam olsun əmisi Allah tərəfindən lənətlənmiş kəsə." Əqil dərhal belə cavab verdi: "Salam olsun bibisi yoldan çıxmışa." Əbu-Ləhəbin arvadı Müaviyənin bibisi qızı idi.[3]

**Bildirişlər**

1. İman Allah bəndələrinin məsxərəyə qoyulması ilə bir araya sığmır.
2. Xalqı başqalarını təhqirdən çəkindirən kəs təhqiramiz danışmamalıdır.
3. Məsxərə fitnə-fəsadın, kin-kudurətin və düşmənçiliyin açarıdır. (Qardaşlıq və barışığın bəyanından sonra məsxərə qadağan edilir)
4. Təbliğdə məsələ mühümdürsə və ya dinləyicilər fərqlidirsə mövzu hər qrupa ayrıca təkrarlanmalıdır.
5. Məsxərənin kökü insanın özünü üstün saymasıdır. Quran belə bir münasibəti heçə endirərək buyurur: "Özünüzü başqalarından üstün saymamalısınız, olsun ki onlar sizdən üstündür."
6. Biz insanların qəlbindən xəbərsizik. Buna görə də zahirlə kifayətlənməməli, məsələlərə səthi yanaşmamalıyıq.
7. Xalqda eyb axtarmaq əslində insanın özündə eyb axtarmasıdır.
8. Başqalarının eybini danışmaq insanın öz eyblərinin açılmasına səbəb olur.
9. Pis çağırış cavabsız qalmır, gec-tez ara qızışır.
10. Məsxərə və pis adla çağırış günahdır, bu günaha görə tövbə etmək lazımdır. (Əlbəttə tövbə təkcə dilə aid deyil. Təhqirin tövbəsi həmin şəxs haqqında xoş sözlərdir.)
11. Məsxərə fərdlərin şəxsiyyətini alçaldır. Məsxərə edən şəxs tövbə etməsə zalım sayılır.

*Ayə 12:*

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱجْتَنِبُوا۟ كَثِيراً مِّنَ ٱلظَّنِّ إِنَّ بَعْضَ ٱلظَّنِّ إِثْمٌ وَلَا
تَجَسَّسُوا۟ وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضاً أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتاً فَكَرِهْتُمُوهُ
وَٱتَّقُوا۟ ٱللَّهَ إِنَّ ٱللَّهَ تَوَّابٌ رَّحِيمٌ﴾

**"Ey iman gətirənlər! Çox zənn-gümana qapılmaqdan çəkinin. Çünki bəzi gümanlar günahdır. Eyb axtarmayın, biriniz o birinizin qeybətini**

---

[1] "Bəqərə", 67
[2] "Əsadul-ğabə", c. 3, s. 76; c. 4, s. 362
[3] "Bihar", c. 42, s. 112; "Əl-ğarat", c. 2, s. 380

**etməsin. Sizlərdən kim istəyər ki, ölmuş qardaşının ətini yesin? Əksinə, bu sizdə ikrah yaradar. Allahdan çəkinin. Həqiqətən Allah tövbələri qəbul edən və mehribandır."**

## Nöqtələr

Ötən ayənin ardınca bu ayədə bədgümanlıq, eyb axtarmaq, qeybət kimi sifətlərin səbəbləri qeyd olunur. Bu sifətlər möminlər arasında sülh-səfanı, qardaşlığı aradan götürür.

Quranda insanlara münasibətdə xoşgümanlı olmaq tövsiyə edilir. Bədgümanlıq qadağan edilmişdir. "Nur" surəsinin 12-ci ayəsində buyurulur ki, eşitdiklərinizə nə üçün bədgüman olursunuz?!

Hazırkı surənin 9-cu ayəsində müsəlmanların əmin-amanlığı və həyatlarının qorunması üçün təcavüzkarla mübarizəyə çağırış səsləndi. Bu ayədə də insanların şəxsiyyətini qorumaq üçün bədgümanlıq, eyb axtarmaq, qeybət haram bildirilir.

Bu gün dünyanın hüquq müdafiəçiləri insan haqlarından danışır. İslam isə əsrlər boyudur ki, məsxərəyə, təhqirə, eyb axtarmağa, qeybətə qadağa qoymuşdur. Hüquq müdafiəçiləri hələ də bu nöqtərlərdən qəflətdədir.

Qeybət ən amansız yırtıcıya bənzədilir. Hətta canavar da öz həmnövünə hücum etmir.

Olsun ki ölü qardaşın ətini yemək məsəli yalnız qeybətə aiddir. Amma bu misal həm bədgümanlığa, həm də eyb axtarmağa aid ola bilər.

Sual: Nə üçün bir dəqiqəlik qeybətə görə insanın uzun illər yerinə yetirdiyi ibadətlər məhv olur? Məgər bu sayağı cəza ədalətlidirmi?

Cavab: İnsanların uzun illər boyu əldə etdiyi hörməti bir qeybətlə məhv edən insan neçə illər yerinə yetirdiyi ibadəti əldən çıxarmağa layiqdir. Bəli, neçə illik ibadətin puça çıxarılması ədalətli cəzadır.

## Bədgümanlığın növləri

Bədgümanlığın (sui-zənnin) bir çox növləri var. Onlardan bəziləri bəyənilir, bəziləri yox. Məzəmmət olunan bədgümanlıqları nəzərdən keçirək:

1. Allaha münasibətdə bədgümanlıq; hədisdə bildirilir ki, dolanışıq xərclərini ödəyə bilməyəcəyindən evlənməyən insan əslində Allaha münasibətdə bədgümandır. Ona elə gəlir ki, tək adama ruzi verən Allah, iki nəfərə ruzi verməyə qadir deyil. Bu sayağı bədgümanlıq məzəmmət olunur.

2. Xalqa münasibətdə bədgümanlıq; hazırkı ayədə belə bir xasiyyət qınanır...

Amma bəyənilən bədgümanlıqlar da var. Məsələn, əgər təriflənən insan özünə münasibətdə bədgüman olursa, bu yaxşı haldır. Bəli, insan özünü bəyənməməli, gördüyü işləri dəyərsiz saymalıdır. Həzrət Əli (ə) xütbələrindən birində təqvalıların sifətlərini sadalayarkən buyurur: “Təqvalı insanların kamilliklərindən biri budur ki, özlərinə münasibətdə bədgüman olsunlar.” Bəli, özünü bəyənən insanlar əslində elm və iman nurundan məhrumdurlar. Zəif nurla insan həqiqətləri görə bilməz. Əgər böyük bir salona kiçik çıraqla daxil olsanız

oradakı böyük əşyalardan savayı heç bir əşyanı görə bilməzsiniz. Amma əlinizdə güclü bir işıq olarsa, otaqdakı kibrit çöpləri də görünər.

İman nuru zəif olan insanlar yalnız böyük günahları fərqləndirə bilirlər. Ona görə də bəzən deyirlər ki, bizim nə günahımız var, kimi öldürmüşük, kimin evini yıxmışıq?! Onlar yalnız adam öldürməyi, ev yıxmağı günah sayırlar. Amma belələrinin iman nuru güclü olarsa ən kiçik büdrəmələrini də görər, tövbə qılarlar.

Özünə münasibətdə xoşgüman olan, özündən razı insan heç vaxt inkişaf edə bilməz. Belələri daim arxada qalmış keçilən yollara baxır. Onlar arxaya baxıb qürrələnir, qarşıdakı çətinliklərdən xəbərsiz qalır. Bir də ayılırlar ki, çox az yol gəliblər, yolun əsası qarşıdadır.

Nəzərdən qaçırmamalıyıq ki, xoşgümanlıq (hüsnizən) dedikdə sadəlövhlük, tez inanmaq, məsələlərə səthi yanaşmaq nəzərdə tutulmur. Düşmənin hiylələrindən xəbərsiz qalmaq xoşgümanlıq deyil. İslam ümməti yersiz xoşgümanlıq səbəbindən qəflətə düçar olub, azğınların toruna düşməməlidir.

## Qeybət nədir?

Qeybət odur ki, bir şəxs o birinin haqqında xalqın bilmədiyi eybləri açıqlasın. Əgər deyilən söz qarşı tərəfi narahat edirsə, bu sözlərin arxada danışılması qeybətdir.[1]

Allahın Rəsulu (s) buyurur: "Ölülərdən əl çəkin, onların pisliklərini dilə gətirməyin. Bir şəxs dünyasını dəyişəndən sonra onun yaxşılıqlarından danışın."[2]

İmam Sadiq (ə) buyurur: "Qeybət edən şəxs tövbə qılarsa, behiştə sonuncu daxil olur. Yox əgər tövbə etməsə cəhənnəmə ilkin daxil olan şəxs odur."[3]

İmam Riza (ə) imam Səccaddan (s) belə nəql edir: "Hər kəs müsəlmanları hörmətdən salmaqdan çəkinsə, Allah qiyamət günü onun büdrəmələrini görməməzliyə vurar."[4]

Əziz Peyğəmbər (s) buyurur: "Qeybət edən kişi və ya qadının namaz və orucu qırx gün qəbul olmaz."[5]

Əziz Peyğəmbər (s) buyurur: "Qiyamətdə əməl naməsi insanın əlinə veriləndə bəziləri deyər ki, nə üçün bizim yaxşı əməllərimiz qeydə alınmayıb? Onlara cavab verilər ki, Allah sizin yaxşı əməllərinizi nə əskildib, nə də yaddan çıxarıb; etdiyiniz qeybətlər yaxşı əməllərinizi məhv edib." Əksinə, bəziləri öz əməl namələrində xeyir işləri çox görüb, düşünərlər ki, onların naməsi səhv düşüb. Onlara deyilər: "Başqaları sizin qeybətinizi etdiyindən onların yaxşı əməlləri sizin üçün qeydə alınıb."[6]

---

[1] "Vəsail", c. 8, s. 600-604
[2] "Nəhcül-fəsahə", cümlə 264
[3] "Mustədrək", c. 9, s. 117
[4] "Bihar", c. 72, s. 256
[5] "Bihar", c. 72, s. 258
[6] "Bihar", c. 72, s. 259

Həzrət Peyğəmbər (s) Məkkəyə sonuncu səfərində buyurdu: "Müsəlmanın qanı, malı, şəxsiyyəti möhtərəmdir. Necə ki, zilhiccə ayı, həcc günləri möhtərəmdir!"[1]

Rəvayətlərdə qeybət edənin adı şərab içənin adı ilə yanaşı çəkilir.[2] Qeybət edən, şərab içən şəxs behiştdən məhrumdur.

Rəvayətlərə əsasən, din qardaşının qeybətini edən insanın pis işlərini Allah aşkarlayır.[3]

Peyğəmbər (s) buyurmuşdur: "Bir dirhəm sələm 36 zinadan pisdir. Ən böyük riba isə müsəlmanların şəxsiyyəti ilə müamilədir."[4]

Hədisdə bildirilir ki, məsciddə cəmiyyət namazının intizarı ilə əyləşmək ibadətdir. Bir şərtlə ki, həmin şəxs qeybətə yol verməsin.[5]

Peyğəmbər (s) Mədinədəki son xütbəsində buyurmuşdur: "Qeybət edənin orucu qəbul deyil."[6]

## Qeybət günahının yuyulması

Əgər qeybəti olunan şəxs dünyasını dəyişmişsə, onun qeybətini edən insan tövbə qılmalı, Allah dərgahından bağışlanma diləməlidir. Əlbəttə ki, Allah tövbələri qəbul edəndir. Amma qeybəti olunan şəxs sağdırsa, narahat olmayacağı təqdirdə ondan halallıq alınmalıdır. Bəzi təqlid mərcələrinin nəzərincə, əgər həmin şəxs məsələdən xəbər tutduqda narahat olacaqsa, sadəcə tövbə qılmaq və qeybətin əvəzi olaraq həmin şəxs haqqında yaxşı sözlər danışmaq lazımdır.

Şeyx Tusi "Təcrid" kitabının şərhində Peyğəmbərdən (s) nəql olunmuş bir hədisə əsasən buyurur: "Əgər qeybəti olunan şəxs qeybəti eşitmişsə, onun yanına gedib üzürxahlıq etməliyik. Əgər qeybətdən xəbərsizsə onun üçün bağışlanma diləmək lazımdır."[7]

## Qeybətə icazə verilən hallar

Bəzən qeybətə icazə verilir. Bir neçə halı yada salaq:

1. Mühüm işlərdə məsləhət zamanı bir şəxs haqqında məsləhət istəyənə həmin şəxsin eyblərini demək olar.
2. Batil əqidədə olan insanların büdrəmələrini demək olar. Burada məqsəd başqalarının da həmin azğınlığa düçar olmamasıdır.
3. Məhkəmədə şahidlik zamanı həqiqəti demək olar.
4. Məzlumiyyətin izharı üçün zalımın zülmünü demək olar.
5. Utanıb-çəkinmədən, aşkar günah edənlərin qeybəti caizdir.

---

[1] "Şərhi-nəhcül-bəlağə", c. 9, s. 62
[2] "Bihar", c. 72, s. 260
[3] "Muhəccətul-bəyza", c. 5, s. 252
[4] "Bihar", c. 72, s. 222
[5] "Kafi", c. 2, s. 357
[6] "Muhəccətul-bəyza", c. 5, s. 254
[7] "Vəsail", c. 8, s. 205

6. Puç iddiaların rəddi üçün qeybət etmək olar. Məsələn, bəziləri özünü müctəhid, doktor, seyid kimi təqdim edir. Biz isə bilirik ki, həmin adamlarda bu sifətlər yoxdur. Belələri haqqında insanlara agahlıq vermək olar.

## Qeybəti dinləmək

Müsəlman şəxs müsəlmanın qeybtinə qulaq asmamalı, qeybəti olunan şəxsi müdafiə etməlidir. Hədisdə bildirilir ki, hər kəs qeybəti eşidib sussa danışanın günahına şərikdir.[1]

Peyğəmbər (s) buyurur: "Bir şəxs qeybəti eşidib onu rədd etsə, Allah bu şəxsin qarşısında dünya və axirətin min şər qapısını bağlayar. Qeybəti eşidən susub dinləməkdə davam edərsə, danışanın günahı ona da yazılar. Qeybəti olunan şəxsi müdafiə etmək imakanı olduğu halda bu işdən çəkinən dünya və axirətdə zəlil olar.[2]

Rəvayətlərdə qeybət küfr, qeybəti dinləmək və ona razı olmaq şirk sayılmışdır.[3]

"İsra" surəsinin 36-cı ayəsində oxuyuruq: "Qiyamət günü insanın qulağı, gözü və qəlbi sorğuya çəkilər." Bəli, haqqımız yoxdur ki, hər sözü dinləyək.

## Bildirişlər

1. İman insan üçün məsuliyyətlər yaradır. İmanlı insan bəzi əməllərdən çəkinməlidir. (İman bədgümanlıqla, insanlarda eyb axtarmaq, onların qeybətini etməklə bir araya sığmır.)

2. Qəti günahlardan uzaqlıq üçün ehtimal olunan günahlardan çəkinməliyik. (Bəzi gümanlar günah olduğundan bir çox günahlardan uzaq olmaq lazımdır.)

3. İslamda etimad, insanların kəramətli sayılması və onların müdafiəsinə önəm verilmişdir.

4. Qeybətin qarşısını almaq üçün qeybətə yol açan şəraitlər aradan qaldırılmalıdır. (Qeybət yolunda öncə bədgümanlıq, sonra başqalarında eyb axtarmaq xasiyyəti gəlir. Quran da eyni ardıcıllıqla qadağa qoyur.)

5. Günah zahirən şirin olsa da, mahiyyətcə mənfurdur. (Qeybətin mahiyyəti ölü əti yeməkdən ibarətdir. Heç bir günah haqqında belə sözlər işlədilməmişdir.)

6. Misallardan istifadə təbliğ və tərbiyə üsullarındandır.

7. İnsanları pis işlərdən çəkindirərkən onları duyğulandıran təbirlərdən istifadə edək.

8. İstənilən yaşda, istənilən irqdə və istənilən məqamda olanların qeybəti haramdır. ("Əhədukum" təbirindən aydın olur ki, o sahədə nə yaş, nə ad-san, nə elm, nə də cins rol oynayır)

9. İmanlı insanlar bir-birlərinə qardaşdırlar və onların qanı birdir.

10. Ölü özünü müdafiə edə bilmədiyi kimi qeybəti olunan şəxs də orada olmadığından müdafiə imkanına malik deyil.

---

[1] "Ğurərul-hikəm"

[2] "Vəsail", c. 8, s. 606

[3] "Bihar", c. 72, s. 226

11. Əgər diri insanın bədənindən bir parça ayrılarsa, onun yenidən bərpa olması mümkündür. Əgər ölünün bədənindən bir parça ət qoparılsa onu bərpa etmək mümkünsüzdür. Qeybət insanları hörmətdən salmaqdır və bu hörməti geri qaytarmaq çətindir.

12. Qeybət bir növ yırtıcılıqdır.

13. Qeybət təqva ilə bir araya sığmır.

14. Təqva insanı tövbəyə sövq edir.

15. İslamda çıxılmaz vəzyət yoxdur. İnsan tövbə etməklə keçmiş günahlarını aradan qaldıra bilər.

16. Allah öz mərhəməti ilə üzürləri qəbul edir.

17. Allahın tövbələri qəbul etməsi onun mərhəmətini göstərir.

***Ayə 13:***

﴿يَا أَيُّهَا ٱلنَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوباً وَقَبَآئِلَ لِتَعَارَفُوۤاْ
إِنَّ أَكْرَمَكُمْ عِندَ ٱللَّهِأَتْقَاكُمْ إِنَّ ٱللَّهَ عَلِيمٌ خَبِيرٌ﴾

**"Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Bir-birinizi tanıyasız deyə sizi soylar, qəbilələr qərar verdik. Həqiqətən, Allah yanında sizin ən sevimliniz ən təqvalı olanınızdır. Həqiqətən, Allah bilən və xəbərdardır."**

## Nöqtələr

Bəzi təfsirçilər bu ayəni əvvəlki ayələrlə əlaqəli sayaraq bildirmişlər ki, məsxərə və qeybətə şərait yaradan insandakı eqoistlik ruhiyyəsi olduğundan bu ayədə üstünlük meyarı kimi təqva təqdim edilir.

Bu ayədə üç mühüm əsasa işarə olunmuşdur. Qadın və kişinin yaranışındakı bərabərlik, insanlıq səciyyələri arasındakı fərq, üstünlük meyarının təqva olmasıdır. Quranın başqa ayələrində elm, insanın keçmişi, əmanətdarlıq, çalışqanlıq, hicrət kimi meyarlar da zikr olunur.

## Bildirişlər

1. Hansı cinsdən və ya hansı qəbilədən olmaq insana şərəf gətirmir. Bütün bunlar Allah tərəfindən müəyyənləşmişdir.

2. İnsanlar arasındakı zahiri fərqlər iftixar yox tanınmaq üçündür.

3. İnsanlar kəraməti tez unudur. Ən əsası Allah hüzurunda kəramət qazanmaqdır.

4. Quran bütün irqi, firqəvi, qövmi, iqtisadi, mədəni, hərbi üstünlükləri rədd edir, yalnız təqvanı fəzilət meyarı sayır.

5. İnsan fitrətən üstünlük sorağındadır. İslam Yalnız təqva yolunda çalışmağı tövsiyə edir.

6. Təqvalı olduğumuzu izhar etməyək. Allah hamını yaxşı tanıyır.

***Ayə 14:***

﴿قَالَتِ ٱلْأَعْرَابُ ءَامَنَّا قُل لَّمْ تُؤْمِنُواْ وَلَكِن قُولُواْ أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ ٱلْإِيمَانُ
فِي قُلُوبِكُمْ وَإِن تُطِيعُواْ ٱللهَ وَرَسُولَهُ لَا يَلِتْكُم مِّنْ أَعْمَالِكُمْ شَيْئاً إِنَّ ٱللهَ غَفُورٌ
رَّحِيمٌ﴾

**"Bədəvi ərəblər dedilər: "Biz iman gətirdik." Onlara de ki, siz hələ ki iman gətirməmisiniz, bəlkə belə deyəsiniz ki, İslamı qəbul etmişik. Hələ ki iman qəlblərinizə daxil olmayıb. Əgər Allaha və Onun rəsuluna itaət etsəniz, Allah sizin əməllərinizi zərrəcə azaltmaz. Həqiqətən, Allah bağışlayan və mehribandır."**

## Nöqtələr

Ərəblər dedikdə aralarında möminlər də olan bədəvilər nəzərdə tutulmuşdur. "Tövbə" surəsində onlar xoş sözlərlə yad edilir.[1]

Amma onlardan bəziləri özlərini üstün tutur və imanlı olduqlarını iddia edirdilər. Hansı ki onlar yenicə iman gətirənlər idilər.

## İslamla imanın fərqi

1. Dərindən fərq

İslam zahiri bir rəngdir, iman isə qəlbdə kök atmış səciyyədir. İmam Sadiq (ə) "Bəqərə" surəsinin 138-ci ayəsi ilə bağlı buyurur: "İlahi rəng İslamdır." "Bəqərə" surəsinin 256-cı ayəsi ilə bağlı isə belə bəyan edir: "Allahın möhkəm ipindən yapışmaq həmin imandır."

2. Niyyət fərqi

Bəzən insanlar özlərini qorumaq, maddi mənafelər əldə etmək üçün İslamı qəbul edir. İmanın isə yeganə amili mənəviyyatdır. İmam Sadiq (ə) buyurur: "İman gətirməklə insanın qanı qorunur və müsəlmanla evlənmək halal olur. Axirət mükafatı isə qəlb imanına görə verilir."[2]

3. Əməldə fərq

İnsan əməl etmədən də İslamı qəbul edə bilər. İman isə əməllə ölçülür. Hədisdə bildirilir ki, iman əməldə təsdiq olunur.[3] Bəli, imanda İslamın qəbulu var, İslamın qəbulunda isə iman olmaya da bilər.

Başqa bir hədisdə İslamın qəbul olunması Məscidül-Hərama, iman isə Kəbəyə bənzədilir. Kəbə Məscidül-Həramın ortasındadır.[4]

İmam Baqir (ə) buyurur: "İman qəlbdə möhkəmlənən bir haldır. İnsan onun vasitəsi ilə Allaha çatır. İnsanın əməli onun qəlb imanını təsdiqləyir. İslamın qəbulu isə sözdə də ola bilər. Belə bir qəbulun qəlbə təsirsiz qalması mümkündür."[5]

5. Rütbə fərqi

---

[1] "Tövbə", 99
[2] "Kafi", c. 2, s. 24
[3] "Kafi", c. 2, s. 24
[4] "Kafi", c. 2, s. 52
[5] "Kafi", c. 2, s. 26

Hədisdə bildirilir ki, iman İslamdan, təqva imandan, yəqin təqvadan üstündür. İnsanlar üçün yəqindən çox kam alınası bir şey yoxdur.[1]

### Bildirişlər

1. Hər iddiaya, şuara aldanmayın.
2. Yersiz iddaların qarşısını alın.
3. Hər kəs öz hörmətini saxlasın və özünü olduğundan artıq göstərməsin.
4. İslam zahiri, iman isə qəlbə aid olan bir haldır.
5. Kamillik iddiasında olanlarla elə danışmayaq ki, kamillikdən ümidlərini üzsünlər.
6. İmana çatmaq üçün əməli itaət lazımdır və dildə iddialar səmərəsizdir.
7. Peyğəmbərə iatət Allaha itaətlə yanaşıdır. Belə bir göstəriş peyğəmbərin paklığına dəlildir və ona nə üçün niyəsiz itaət olunmalıdır.
8. Allah ədalətlidir və insanın mükafatını zərrəcə əskiltməz. (Düzgün müdiriyyət odur ki, kimsənin haqqından kəsilməsin.)
9. Allah və Onun rəsuluna itaət bağışlanma üçün zəmindir.

***Ayə 15:***

﴿إِنَّمَا ٱلْمُؤْمِنُونَ ٱلَّذِينَ ءَامَنُواْ بِاللَّهِ وَرَسُولِهِ ثُمَّ لَمْ يَرْتَابُواْ وَجَاهَدُواْ
بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ ٱللهِ أُوْلَئِكَ هُمُ ٱلصَّادِقُونَ﴾

**"Yalnız Allaha və Onun rəsuluna iman gətirən, şübhəyə düşməyən, malı və canı ilə Allah yolunda cihad edənlər mömindir. Onlardır (iman iddiasında) doğruçular."**

### Həqiqi möminin siması

Qurani-kərimin dörd ayəsi həqiqi möminin simasını təsvir edir:

1. Həqiqi möminlər Allahın adı çəkiləndə qəlbi titrəyənlərdir. Onlara ilahi ayələr oxunanda imanları artar və yalnız Allaha arxalanarlar.[2]

2. Həqiqi möminlər Allaha və Onun rəsuluna (s) iman gətirənlərdir. Onlar Peyğəmbərlə (s) birlikdə olduqda ondan icazəsiz səhnədən çıxmazlar.[3]

3; 4. Hazırkı surənin 10-cu və 15-ci ayələrində bildirilir ki, möminlər bir-birləri ilə qardaşdırlar.

Əgər bu dörd ayəni ardıcıl nəzrdən keçirsək həqiqi möminin siması aşkarlanar. Quran bu səciyyələrə malik insanları həqiqi mömin sayır.[4] Demək, həqiqi möminlərin Quranda təsdiqlənmiş səciyyələri var: Onların qəlbi var-dövlət yox, Allah eşqi ilə döyünür, daim təkamüldədirlər, başqalarından umacağları yoxdur, yalnız Allaha arxalanırlar, nə şərqə, nə də qərbə bağlıdırlar, ilahi rəhbərə tabedirlər, rəhbərə vəfalıdırlar, özlərini başqalarından üstün saymırlar, hamıya

---

[1] "Kafi", c. 2, s. 51
[2] "Ənfal", 2
[3] "Nur", 62
[4] "Ənfal", 4; 74

qardaş gözü ilə baxırlar, imanları möhkəmdir, imanları elm, ağıl, fitrətə əsaslanır, bildiklərinə əməl etdiklərindən yəqin məqamına çatmışlar, onlar üçün acı və şirin hadisələr təhlükəli deyil, lazım gələndə öz əqidələri yolunda mallarından və canlarından keçirlər.

**Bildirişlər**

1. Quran həm kamillik meyarları göstərir, həm də kamil nümunələr təqdim edir.
2. Peyğəmbərə (s) iman Allaha imanla yanaşı olmalıdır.
3. Sabitqədəmlik gerçək iman nişanəsidir.
4. İman əməl vasitəsi ilə tanınan batini bir həqiqətdir.
5. Cihadsız iman yalnız bir şuardır. (Kamil iman cana və mala münasibətdə fədakarlıq tələb edir.)
6. İslamda cihad Allah yolunda aparılmalıdır.

***Ayə 16:***

﴿قُلْ أَتُعَلِّمُونَ ٱللهَ بِدِينِكُمْ وَٱللهُ يَعْلَمُ مَا فِي ٱلسَّمَاوَاتِ وَمَا فِي ٱلْأَرْضِ وَٱللهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**"De ki, Allah göylərdə və yerdə olanı bildiyi, hər şeydən xəbərdar olduğu halda Ona öz din və imanınızımı tanıtdırırsınız?!"**

**Nöqtələr**

Bəziləri and içərək əziz Peyğəmbərə (s) deyirdilər ki, biz sədaqətlə iman gətirmişik. Ayə nazil oldu ki, anda ehtiyac yoxdur, Allah hər şeydən xəbərdardır.

İnsan öz əqidəsini dəyərləndirmək, islah etmək və ya əminlik qazanmaq üçün onu övliyalara açıqlayırsa, bunun eybi yoxdur. Həzrət Əbdül Əzim Həsəni bu məqsədlə imam Hadiyə (ə) öz əqidəsini bəyan etdi. Amma əqidəni bildirməkdə məqsəd özünü göstərməkdirsə bu addım məzəmmət olunur.

**Bildirişlər**

1. Peyğəmbər (s) qarşısında özünü nümayiş əslində Allah qarşısında özünü nümayişdir.
2. Hər şeydən xəbərdar Allah qarşısında hansısa iddia və nümayişlə çıxış etməyək.
3. Allah həm əşyaların varlığından, həm də xüsusiyyətlərindən xəbərdardır.

***Ayə 17:***

﴿يَمُنُّونَ عَلَيْكَ أَنْ أَسْلَمُوا قُل لَّا تَمُنُّوا عَلَيَّ إِسْلَامَكُم بَلِ ٱللهُ يَمُنُّ عَلَيْكُمْ أَنْ هَدَاكُمْ لِلْإِيمَانِ إِن كُنتُمْ صَادِقِينَ﴾

**"Onlar İslamı qəbul etdikləri üçün sənə minnət qoyurlar. De ki, İslamı qəbul etdiyiniz üçün mənə minnət qoymayın. Doğru deyirsinizsə, sizi imana doğru hidayət etməklə minnət qoyan Allahdır."**

### Nöqtələr

Bəni-Əsəd tayfasının nümayəndələri kimi bəzi insanlar İslamı qəbul etdikləri üçün Peyğəmbərə (s) minnət qoyur və deyirdilər: Biz İslama qucaq açmışıq, bizim qədrimizi bilməlisən. Ayədə onlar məzəmmət olundu.

Allah hazırkı ayədə iman nemətini, "Ali-İmran" surəsinin 164-cü ayəsində peyğəmbərlərin göndərilməsini, "Qəsəs" surəsinin 5-ci ayəsində zəifliyə düçar edilənlərin yer üzünə varis seçiləcəyini insanlara minnət olaraq sadalayır. Məlum olur ki, Allahın hidayəti, məsum rəhbər və haqq hakimiyyət Allahın ən üstün nemətləridir.

### Bildirişlər

1. İslama doğru hidayət və İslamın qəbulu Allah tərəfindən böyük nemət və Onun tərəfindən bir minnətdir.
2. Allah bizim müsəlmanlığımıza, iman və ibadətimizə möhtac deyil.
3. İnsanın özünü Allaha borclu bilməsi sadiq iman nişanəsidir. Sədaqətli müsəlman Allaha minnət qoymur. (Həqiqi müsəlman özünü Allaha borclu bilir)
4. Peyğəmbərə (s) minnət qoymaq elə Allaha minnət qoymaqdır. (Allah Peyğəmbərə (s) minnət qoyulmasına elə cavab verir ki, sanki Onun özünə minnət qoyulmuşdur.)
5. Allah sizi iman mərhələsinə hidayət etdiyi halda siz İslamı qəbul etdiyiniz üçün Allaha minnət qoyursunuz.
6. İnsan üçün son təkamül məqsədi imandır. Müsəlmanlığı bildirmək yaxşı deyil, münafiqlər də belə edirlər.

### *Ayə 18:*

﴿إِنَّ ٱللَّهَ يَعْلَمُ غَيْبَ ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضِ وَٱللَّهُ بَصِيرٌ بِمَا تَعْمَلُونَ﴾

**"Həqiqətən, Allah göylərin və yerin təkini bilir. Allah sizin əməllərinizdən xəbərdardır."**

### Bildirişlər

1. Göylərdə və yerdə kəşf olunmamış sirlər çoxdur.
2. İnsanın gizli niyyətləri bəzən göylərin və yerin qeybindən daha dolaşıq olur.
3. Tövhid əqidəsində dəyərlər özünü nümayişə, minnət və şuara əsaslanmır. Əsas məsələ qəlbdə ixlasdır və bundan yalnız Allah xəbərdardır. (Varlığın sirlərindən agah olan Allah insanın iç imanından xəbərsiz qalarmı?!)

4. Əgər insan Allahın elminə və bəsirətinə əmin olsa, öz əməl və danışıqlarına diqqət yetirər. (Əgər bilsək ki, gizli kamera ilə bizi çəkirlər və ya səsimizi dinləyirlər öz hərəkətlərimizə və sözlərimizə daha çox diqqət yetirərik.)

5. Allahın elmi Onun bəsirəti ilə yanaşıdır. Bu elm icmal, səthi, bir tərəfli, müvəqqəti və inkar olunası deyil.

# "QAF" SURƏSİ

### *(50-Cİ SURƏ; 45 AYƏ)*

### *İYİRMİ ALTINCI CÜZ*

### *"QAF" SURƏSİNİN SİMASI*

45 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur.

Surənin adı onun ilk hərifinin müqəttəə "qaf" hərfi olması ilə bağlıdır.

Digər Məkkə surələrində olduğu kimi bu surədə də əsas mövzu məad, keçmiş qövmlərin aqibəti, yaxşı və pis insanlardır.

Surə insanların axirət dünyasında yenidən diriləcəyinin müxaliflər tərəfindən inkarı ilə başlayır. Qurana istinadən təbiətdə və yaranışdakı məad nümunələri xatırlanır. Ölüm zamanı insanın can verməsi, dünyanın sonu ilə bağlı sarsıdıcı hadisələr bəzi qiyamət hadisələrinin, behişt və cəhənnəm səhnələrinin bəyanı üçün bir müqəddimədir.

Surədə insanları bütün bu təhlükələrdən qoruyan Allah zikri və Allah kəlamına diqqət tövsiyə olunmuşdur.

بِسمِ الله الرحمن الرَحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1:*

﴿ق وَٱلْقُرْءَانِ ٱلْمَجِيدِ﴾

**"Qaf; and olsun əzəmətli Qurana (sənin peyğəmbərliyin və qiyamətin bərpası haqdır)"**

*Ayə 2:*

﴿بَلْ عَجِبُوٓاْ أَن جَآءَهُمْ مُنذِرٌ مِّنْهُمْ فَقَالَ ٱلْكَافِرُونَ هَٰذَا شَيْءٌ عَجِيبٌ﴾

**"Öz aralarından xəbərdarlıq edən peyğəmbərin gəlişinə təəccüb etdilər. Kafirlər dedilər ki, bu (qiyamət haqqındakı sözlər) təəccüblü bir şeydir!"**

**Nöqtələr**

Bu surə Qurani-kərimin müqəttəə hərifləri ilə başlayan 29 surəsindən biridir. Bir daha qeyd edək ki, müqəttəə həriflər Quranın əzəmətini və cazibəsini göstərir. Surədə bu müqəttəə hərifin ardınca Qurana and içilir.

Quranda Peyğəmbər (s), ona nazil olan göstərişlərlə bağlı iki növ təəccüb haqqında danışılır. Bu təəccüblərdən biri müsbət, digəri mənfi yönümlüdür. Quranın ali məfhumlarını dinləyən cinlər bu möcüzə qarşısında təslim olurlar.[1] Kafirlər isə bir neçə məqamda mənfi təəccüb nümayiş etdirirlər:

-Onların özü kimi birisinin peyğəmbər olmasına təəccüb;

-Təkallahçılığa dəvətə təəccüb;[2]

-Sorğu-sual, qiyamətin bərpası ilə bağlı sözlərə təəccüb;[3]

-Yenidən dirilmə məsələsinə təəccüb.[4]

**Bildirişlər**

1. Quran əzəmətli olduğundan ona and içilməsi çox mühüm məsələdir.
2. Əzəmət istəyirsinizsə Qurana üz tutun.
3. Əgər Quran əzəmətli və möhtərəmdirsə, biz də onu uca tutub hörmət göstərək.[5]
4. İstənilən bir kamillik düşüncəsiz insanların nəzərində xoşagəlməzdir. Peyğəmbərlərin insanların öz növündən və öz aralarından olması bəyənilmiş və hikmətli bir işdir. Amma kafirlər bunu xoşlamır, təəccüb edirdilər.
5. Risalətin mühüm nöqtələrindən biri insanlara xəbərdarlıq, onların qorxudulmasıdır.
6. Peyğəmbərlərin göndərilməsinə münasibətdə Allahın hikmətli işlərinin inkarı küfrdür.
7. Kafirlərin məntiqi tarix boyu heyrət və təəccüb olmuşdur. (Bəli, kafirlərin peyğəmbərlik və qiyamətin inkarı üçün heç bir dəlilləri yoxdur. Onların işi yalnız peyğəmbərlərin xüsusi ilə qiyamətlə bağlı xəbərdarlıqlarına təəccüb etməkdir.)

***Ayə 3:***

﴿أَءِذَا مِتْنَا وَكُنَّا تُرَابًا ذَٰلِكَ رَجْعٌ بَعِيدٌ﴾

**"Ölüb torpaq olduqdan sonra (yenidən diriləcəyik?) bu qayıdış olası deyil."**

***Ayə 4:***

﴿قَدْ عَلِمْنَا مَا تَنقُصُ ٱلْأَرْضُ مِنْهُمْ وَعِندَنَا كِتَابٌ حَفِيظٌ﴾

**"Şəksiz, torpağın onlardan əskiltdiyini bilirik, bizdə hifz edən kitab var."**

***Ayə 5:***

﴿بَلْ كَذَّبُواْ بِالْحَقِّ لَمَّا جَآءَهُمْ فَهُمْ فِي أَمْرٍ مَّرِيجٍ﴾

---

[1] "Cinn", 1
[2] "Sad", 5
[3] "Nəcm", 59
[4] "Rəd", 5
[5] "Vaqeə", 77

**"Haqq söz soraqlarına gələndə onu təkzib etdilər. Belə ki, (peyğəmbərlik və məada münasibətdə) başlarını itirmişlər."**

### Nöqtələr

Kafirlər "rəcun bəid" deyərkən bir işin ağıl və ənənə baxımından mümkünsüz olduğunu nəzərdə tuturdular. Yəni insanın dünyaya yenidən qayıdışı ağıl və ənənə baxımından olası iş deyil. Bəli, onların məadın inkarı üçün heç bir dəlilləri yoxdur və yalnız təəccüb edirlər.

"Məric" dedikdə qatışıqlıq, pərişanlıq nəzərdə tutulur. Quran iki dənizin bir-birinə qatılması haqqında danışarkən eyni təbirdən istifadə edir.[1] "Məric" sözü hazırkı qəlibdə Quranda bir dəfə işlədilmişdir və kafirlərin davamlı şəkildə heyranlığını göstərir.

### Bildirişlər

1. Məada diqqət ilahi xəbərdarlıqların mehvəridir.
2. Etiqadi suallara və şübhələrə cavab verin. Kafirlər torpaqdakı insan cisminin yenidən diriləcəyinə təəccüb edirdilər. Quran onlara cavab verir ki, biz bu haldan xəbərdarıq.
3. Bütün maddi dəyişikliklərin hesab-kitabı var və onlar Allahın nəzarəti altındadır.
4. Torpağın çürütmə xüsusiyyəti var.
5. Varlıq aləmindəki zərrələrdən xəbərdarlıq Allahın hər şeyi qeydə almasına zidd deyil. (Məsələn, bəzən deyilir ki, biz bilsək də, sənəd göstərin.)
6. Allah kafirlər üçün də xəbərdarlığı başa çatdırır.
7. İztirab və avaralığın kökü təkzib və küfrdür. Necə ki Quran və Allah zikrinə diqqət aramlıq qaynağıdır.
8. Sabit və möhkəm imanı olmayan kəs hər an bir söz danışır və iztirab içindədir. (Peyğəmbəri (s) sehrbaz, kahin, divanə, kiminsə şagirdi adlandırırdılar.)

*Ayə 6:*

﴿أَفَلَمْ يَنظُرُواْ إِلَى ٱلسَّمَاءِ فَوْقَهُمْ كَيْفَ بَنَيْنَاهَا وَزَيَّنَّاهَا وَمَا لَهَا مِن فُرُوجٍ﴾

**"Başları üstündəki səmaya baxmayıblarmı ki, onun necə düzəldib bəzəmişik və heç bir çatı yoxdur?!"**

*Ayə 7, 8:*

﴿وَٱلْأَرْضَ مَدَدْنَاهَا وَأَلْقَيْنَا فِيهَا رَوَاسِيَ وَأَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍ بَهِيجٍ﴾﴿تَبْصِرَةً وَذِكْرَى لِكُلِّ عَبْدٍ مُّنِيبٍ﴾

**"Yeri döşədik, onda möhkəm dağlar qərar verdik, orada hər növ təravətli bitkilər cücərtdik ki, haqqa üz tutan hər bir bəndə üçün öyüd-nəsihət olsun."**

---

[1] "Ər-Rəhman", 19

## Nöqtələr

"Rəvasi" sözü möhkəm mənasını bildirən "rasiyə" sözünün cəm formasıdır.

Məada münasibətdə təəccüb və məadın inkarının bir neçə kökü var:

a) Çürüyüb torpağa yayılmış ölülərin harada olduğunu kim bilir?

b) Hətta zərrələr müəyyənləşdirilsə, onları toplamağa qüdrət varmı?

Birinci şübhəya cavab olaraq dördüncü ayədə buyuruldu ki, Allah bütün zərrələri tanıyır. İkinci şübhəyə cavab olaraq hazırkı ayədə bəyan olunur ki, Allah zərrələri toplamağa qadirdir. İnsanların nəzərinə çatdırılır ki, Allahın qüdrətini tanımaqdan ötrü göylərə və yerə diqqət yetirsinlər. Baxsınlar ki, göylər necə genişləndirilib və bəzənib? Səmada bir dənə olsun belə çat və nöqsan yoxdur.

Bitkilər arasında cütlüyün (zövciyyətin) bəyanı Quranın elmi möcüzələrindəndir.

İslamda birinci addım düşüncə, bəsirət və tanışlıq, ikinci addım göz yaşı, dua və ibadətdir. Öncə agahlıq və sonra xatırlama. Başqa bir yerdə buyurulur ki, öncə düşünüb, sonra Allahın rübubiyyətini etiraf edirlər.

Qurani-kərim düşüncə sahibləri haqqında buyurur ki, onların göz yaşı düşüncə, mərifət və bəsirətdən qaynaqlanır.[1]

## Bildirişlər

1. Təbiət Allahşünaslıq sinfidir.
2. Xalqı dəvət edərkən nümunələr göstərin. (Məadın mümkünlüyünə əmin olmaq üçün Allahın göylərdə və yerdəki qüdrətini nəzərdən keçirin)
3. Varlıq aləmi haqqında düşünməyib məadı mümkünsüz sayanlar məzəmmətə layiqdir.
4. Səma cisimlərinə nəzm və qanun hakimdir.
5. Dağlar olmasaydı yer möhkəm dayanmazdı.
6. Möhkəmlik və gözəllik Allahın göylərdə və yerdəki məxluqlarının səciyyəsidir.
7. Ölü torpaqdan bitkilərin cücərməsi insanın qiyamətdə oyanışına bir nümunədir.
8. Bitkilərə, təbiət mənzərələrinə baxış insan qəlbində təravət yaradan amildir.
9. Allahın qüdrət nümunələrinə o qədər baxın ki, qəlbinizdə zərrəcə şübhə qalmasın.
10. Ən dəyərli, ən əhatəli, ən yaxın, ən sağlam, ən davamlı, ən məqsədli sevinc Allahın yaratdıqlarına baxmaqdır.
11. Peyğəmbər məktəbində istənilən bir baxış bəsirət, düşüncə, oyanış və ibrət üçün müqəddimə olmalıdır.
12. Qayıdış yolu hamının üzünə açıqdır.

---

[1] "Maidə", 83

13. Əgər insanın dərk etmək üçün qəlbi olsa bütün varlıq aləmi, göy və yer onun üçün mərifət dərsidir.

14. Peyğəmbər məktəbində gözəllik və təravət qəflət yox, təkamül və Allaha yaxınlıq üçündür.

15. Təvazö anlamaq, təkəbbür isə məhrumiyyət üçün zəmindir.

16. Allah dərgahına yalvarış bəndəlik şərtidir.

***Ayə 9, 10:***

﴿وَنَزَّلْنَا مِنَ ٱلسَّمَآءِ مَاءً مُّبَارَكًا فَأَنۢبَتْنَا بِهِۦ جَنَّاتٍ وَحَبَّ ٱلْحَصِيدِ﴾﴿وَٱلنَّخْلَ بَاسِقَاتٍ لَّهَا طَلْعٌ نَّضِيدٌ﴾

**"Səmadan bərəkət dolu su nazil etdik. Onun vasitəsi ilə bağlar, biçiləsi dənlər cücərtdik. Həm də dolu və sıx budaqlı uca xurma ağacları!"**

***Ayə 11:***

﴿رِزْقًا لِّلْعِبَادِ وَأَحْيَيْنَا بِهِۦ بَلْدَةً مَّيْتًا كَذَٰلِكَ ٱلْخُرُوجُ﴾

**"Belə ki, bəndələrə ruzi olsun. Həmin yağışla ölü torpağı dirildik. (Gordan) Xaric olmaq da belədir."**

### Nöqtələr

"Basiqat" sözü uca qamətli, "təlun" sözü yenicə xurmaya çevrilmiş çiçək, "nəzid" sözü bir-birinə sıxılmış, "həsid" sözü biçilən mənasını bildirir.

Əkinçi üçün ən gözəl və ən ləzzətli an məhsulun yığım vaxtıdır.

Bu ayələrdə məadın təsviri üçün yağış və bitkilərin cücərməsi yada salınır.

İmam Baqir (ə) səmadan endirilən su ilə bağlı buyurur: "Yer üzündə səma suyu ilə qatışıq olmayan bir su yoxdur."[1]

Həzrət Əli (ə) yağış yağan zaman yağış suyunu başına və üzünə səpər, buyurardı: "Bu, heç bir əl və qab toxunmamış səma bərəkətidir."[2]

### Bildirişlər

1. Yağış təbii yolla ensə də, əsil həqiqətdə Allahın iradəsindən asılıdır.

2. Yağış yer üzündə həyat və bərəkət vasitəsidir. Bir çox xəstəliklərin aradan qalxmasında, otların cücərməsində, havanın təmizliyində, bulaqların qaynamasında yağışın xeyir və bərəkəti var.

3. Meyvələr arasında xurmanın öz yeri var.

4. Əkinçilik məhsullarının ərsəyə gəlməsi hikmət əsasında və məqsədlidir.

5. İnsanın ruzisi onun bəndəliyi üçün zəmin olmalıdır.

6. Düşüncəyə aid həqiqətlərdən danışarkən hiss üzvləri ilə qavranılanlardan istifadə edək.

7. Allahın qüdrətinə diqqət ölülələrin dirilməsinə etiqadı asanlaşdırır.

---

[1] "Kafi", c. 6, s. 387

[2] "Bihar", c. 59, s. 270

8. Allahın işlərində xüsusi bir komplekslik var. Allah sənəti, hikməti, mərifəti və hidayəti bir araya gətirmişdir. (Xurmanın ucalığı onun çiçəklərinin gözəlliyi sənətkarlıq nümunəsidir. Meyvələrin ruzi olması ilahi hikmətdən danışır. Ölü torpaqdan bir bu qədər məhsulların cücərməsi Allahın qiyamətlə bağlı qüdrətindən danışır.)

***Ayə 12, 13:***

**﴿كَذَّبَتْ قَبْلَهُمْ قَوْمُ نُوحٍ وَأَصْحَابُ ٱلرَّسِّ وَثَمُودُ﴾ ﴿وَعَادٌ وَفِرْعَوْنُ وَإِخْوَانُ لُوطٍ﴾**

**"Onlardan öncə Nuh qövmü, Rəss əshabı və Səmud qövmü (öz peyğəmbərlərini) təkzib etdilər. Ad qövmü, Firon və Lut qardaşları da eynən!"**

***Ayə 14:***

**﴿وَأَصْحَابُ ٱلْأَيْكَةِ وَقَوْمُ تُبَّعٍ كُلٌّ كَذَّبَ ٱلرُّسُلَ فَحَقَّ وَعِيدِ﴾**

**"Əykə əshabı (Şüeyb qövmü) və Tübbə qövmü (Yəmən padşahları) hamısı peyğəmbərləri təkzib etdilər. Mənim əzab vədim onlar üçün qətiləşdi. (Və onlar məhv oldular)"**

### Nöqtələr

Rəss əshabı haqqında bu surədə və Fürqan surəsinin 29-cu ayəsində danışılır. Nümunə təfsirinə əsasən Rəss əshabı Yəmamədə yaşamış və Hənzələ adlı peyğəmbərin müasiri olmuşlar. Onlar öz peyğəmbərlərini quyuya atmışlar. "Rəss" sözü quyu mənasını bildirir. Buna görə də həmin qövm Rəss əshabı adlandırılmışdır. Bəzilərinin nəzərincə, həmin qövm sənubər ağacını özünə məbud götürübmüş. Amma imam Sadiq (ə) həmin qövmün əzaba düçar edilməsi səbəbini belə açıqlayır: "Onların qadınları qadınlarla yaxınlıq edirdilər.[1]

Səmud qövmü, həzrət Salehin qövmü və Ad qövmü həzrət Hudun qövmüdür. Əykə əshabı həzrət Şüeybin qövmündən olan bir qrupdur. Onlar meşəlikdə yaşamışlar. "Hicr" və "Şuəra" surələrində onların adı çəkilir.

"Tubbə" Yəmən padşahlarının ləqəbidir. Tubbə qövmü öz padşahlarına tabeçilik edən yəmənlilər idi. "Duxan" surəsinin 37-ci ayəsində onların adı çəkilir.

Hədisdə oxuyuruq ki, Yəmən padşahı Əvs və Xəzrəc qəbilələrinə dedi: "Siz İslam peyğəmbəri (s) məbus olanadək Yəməndə qalın. Əgər mən də onu görə bilsəm, ona qoşular, ona xidmət edərəm."[2]

Həzrət Lutun qövmü onun qohumlarından ibarət olduqları üçün Quran onları Lutun qardaşları adlandırır.[3] Əlbəttə ki Quran peyğəmbərləri insanlara qardaş sayır. Olsun ki elə bu səbəbdən Lut qövmü ona qardaş kimi təqdim edilir.

### Bildirişlər

---

[1] "Kafi", c. 5, s. 551

[2] "Təfsiri-məcməül-bəyan"

[3] "Təfsiri-məcməül-bəyan"

1. Tarixlə və peyğəmbərlərin problemləri ilə tanışlıq İslam peyğəmbəri (s) üçün təsəlli səbəbidir.

2. Haqq və batil arasındakı ziddiyyət tarix boyu olmuşdur.

3. Allah peyğəmbərlər göndərməklə xəbərdarlığı başa çatdırır. İnsanlar inadkarlıq göstərib haqqı qəbul etmədikdə cəzalandırılır.

4. Bəzi inadkar qövmlər elə dünyada cəzalandırılmışlar.

5. Tarix və qədim qövmlərin taleyi gələcəkdəkilər üçün bir nümunədir.

6. Bir peyğəmbərin təkzibi bütün peyğəmbərlərin təkzibinə bərabərdir. (Hansı ki, insanlar yalnız öz müasirləri olmuş peyğəmbərləri təkzib edirdilər.)

***Ayə 15:***

**﴿أَفَعَيِينَا بِٱلْخَلْقِ ٱلْأَوَّلِ بَلْ هُمْ فِي لَبْسٍ مِّنْ خَلْقٍ جَدِيدٍ﴾**

**"Məgər ilkin yaranışda aciz qaldıq (ki, qiyamətdə sizi yenidən dirildə bilməyək)? Onlar yenidən yaradılışa münasibətdə şübhədədirlər."**

***Ayə 16:***

**﴿وَلَقَدْ خَلَقْنَا الْإِنسَانَ وَنَعْلَمُ مَا تُوَسْوِسُ بِهِ نَفْسُهُ وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ﴾**

**"Həqiqətən, biz insanı yaratmışıq və nəfsinin hər bir vəsvəsəsini bilirik. Biz ona boyun damarından yaxınıq. (Ona hakimik)"**

**Nöqtələr**

"Vəsvəsə" sözünün lüğət mənası asta səsdir. Danışıqda "vəsvəsə" dedikdə insanın qəlbindən keçən xoşagəlməz fikirlərə işarə olunur.

"Vərid" sözü su ardınca getmək mənasını bildirən "vürud" sözündəndir. Nəzərdə tutulan damar ürəklə digər bədən üzvləri arasında qan daşıdığından ona "vərid" deyirlər.

Azğınların tərbiyəsi üçün bütün düzgün üsullardan istifadə olunmalıdır. Ötən ayələrdə Allahın varlıq aləmindəki qüdrət nümunələrindən, Allahı təkzib edənlərin pis aqibətindən danışıldı. Bu ayələrdə insanların vicdan və düşüncələrinə üz tutulur, onların nəzərinə çatdırılır ki, ilkin yaranışda aciz olmayan Allah ikinci yaranışda aciz qalası deyil.

Allahın insana onun boyun damarından yaxın olması mənası "Ənfal" surəsinin 24-cü ayəsində də bəyan olunur: "Allah insanla onun qəlbi arasında "hail" dir.

Vəsvəsə, şək-şübhənin üç qaynağı var: nəfs, şeytan;[1] bəzi insanlar və cinlər.[2]

Allah iki səbəblə insanların bütün işlərindən xəbərdardır:

a) Allah insanların xaliqidir və xaliq məxluqu tanımalıdır.[3]

---

[1] "Əraf", 20

[2] "Nas", 5, 6

[3] "Mulk", 14

b) İnsan Allahın hüzurundadır. Bu səbəbdən də Allahın elmi dəqiq, əhatəli və vasitəsizdir.

Məada, ölümdən sonrakı həyata şək-şübhənin iki kökü var: Allah insanların gördüyü işləri haradan bilir, Allah səpələnmiş zərrələrdən ikinci dəfə necə yarada bilər? Hazırkı ayədə hər iki suala cavab verilir. Allah insanı ikinci dəfə yarada bilər, çünki əvvəlcə bu işi görmüşdür. Allah bütün əməllərdən xəbərdardır, çünki gözə görünməyən vəsvəsələrdən də agahdır.

**Bildirişlər**

1. Hər bir mövcudun yaranışı Allahın onu yenidən yaratmağa qadir olduğuna sübutdur. Bir dəfə yaradan ikinci dəfə də yarada bilər.

2. Müxaliflərlə danışarkən ən qısa və ən yetərli sözlərdən istifadə edin. (Bir işi mümkün sayıb onun oxşarını inkar etmək yanlışdır.)

3. Kafirlərin məadı inkar etmək üçün dəlilləri yoxdur. Onlar yalnız şək-şübhəyə qapılırlar.

4. Əgər sağlam əqidə istəyirsinizsə, vəsvəsələrdən uzaqlaşmalı, nəfsinizi tərbiyələndirməlisiniz. (İnsan qiyaməti ona görə inkar edir ki, qəlbini şək-şübhələrdən təmizləməmişdir.)

5. Allah bütün həyatı boyu insandan xəbərdardır.

*Ayə 17:*

﴿إِذْ يَتَلَقَّى الْمُتَلَقِّيَانِ عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ قَعِيدٌ﴾

**"(Yada sal) İki mələk sağda və solda əyləşib qeydə alırlar."**

*Ayə 18:*

﴿مَا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ﴾

**"İnsan kənarında hazır nəzarətçi (mələk) olmadan dilinə bir söz də gətirməz."**

*Ayə 19:*

﴿وَجَاءتْ سَكْرَةُ ٱلْمَوْتِ بِالْحَقِّ ذَٰلِكَ مَا كُنتَ مِنْهُ تَحِيدُ﴾

**"Ölüm yuxusu həqiqətən gələr. (İnsana deyilər) Bu daim qaçdığın həmin şeydir."**

*Ayə 20:*

﴿وَنُفِخَ فِي ٱلصُّورِ ذَٰلِكَ يَوْمُ الْوَعِيدِ﴾

**"Sur üfürülər. Əzab vədinin gerçəkləşdiyi gün budur."**

**Nöqtələr**

"Qəid" təbiri ilə daim insanla olan iki mələyə işarə edilir. Bu iki mələk sağdan və soldan insana nəzarətçidir.

"Rəqib" dedikdə muğayat olan və nəzarətçi mənaları nəzərdə tutulur. "Ətid" sözü xidmətə hazır mənasını bildirir. İnsanın ağlının başdan çıxdığı hal "səkərə" adlanır. "Təhid" sözü qaçmaq mənasını bildirir.

İnsan ölüm zamanı o qədər qorxub iztirab keçirir ki, Quran həmin halı "səqrətul-məvt" adlandırır. Qiyamətdə də ilahi sorğu həyəcanı insanı bir vəzyətə salır ki, onlar məst, ağlı qaçmış, ixtiyarsız insanlara bənzədilir.[1]

Bədən üzvləri arasında dilə xüsusi nəzarətin zəruriliyi bildirilir. Olsun ki, bunun səbəbi dilin başqa üzvlərdən daha çox işləkliyidir. Dilin işi daha asan, daha ümumi, daha dərin, daha davamlı və daha fəaldır.

İnsana nəzarət, əməllərin qeydiyyatı, ölüm məqamı və qiyamətdə sorğu məsələlərinin vurğulanması böyük xəbərdarlıq və təqva zəminidir.

Nəzarətçilərin və şahidlərin çoxluğuna diqqət insanın əməllərinə təsirlidir. Şahid nə qədər çoxsa günahdan uzaqlıq ehtimalı da böyükdür.

**Bildirişlər**

1. Allah insanın düşüncə və əməllərinə şahiddirsə də, onun müdiriyyəti hesab-kitablıdır, mələklər bütün əməlləri daim qeydə alır.
2. Əgər nəzarət zamanı ən zərif nöqtələr tam qeydə alınırsa belə bir nəzarət etibarlı və dəyərlidir.
3. Mələklər arasında iş bölgüsü var. (Rəvayətlərə əsasən sağdakı mələklər xeyir, soldakı mələklər şər işləri yazır.)
4. İnsan təkcə gördüyü işlərə görə yox, həm də danışdığı sözlərə görə məsuliyyət daşıyır.
5. Ölüm zamanı insan adi halda olmur.
6. Ölüm ağrısı hamı üçündür.
7. Ölümdən qaçmaq istəyi təbii bir xüsusiyyətdir.

*Ayə 21:*

﴿وَجَآءَتْ كُلُّ نَفْسٍ مَّعَهَا سَائِقٌ وَشَهِيدٌ﴾

**"Hər kəs (qiyamət səhnəsinə) gələrsə, onunla iki mələk olar: biri onu önə çəkər, o biri isə onun şahididir."**

*Ayə 22:*

﴿لَقَدْ كُنتَ فِي غَفْلَةٍ مِّنْ هَذَا فَكَشَفْنَا عَنكَ غِطَاءكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ﴾

**"(Ona deyilər) Həqiqətən, bu səhnədən qəflətdə idin. Biz sənin (qəflət) pərdəni kənara çəkdik və bu gün gözün itiləşib."**

*Ayə 23:*

﴿وَقَالَ قَرِينُهُ هَذَا مَا لَدَيَّ عَتِيدٌ﴾

**"Yoldaşı (olan mələk) ona deyər: "İndi (onun əməl naməsi) məndə hazırdır."**

---

[1] "Həcc", 2

*Ayə 24, 25:*

﴿أَلْقِيَا فِي جَهَنَّمَ كُلَّ كَفَّارٍ عَنِيدٍ﴾﴿مَّنَّاعٍ لِّلْخَيْرِ مُعْتَدٍ مُّرِيبٍ﴾

**"(Allah-taala iki mələyə xitabən deyər) Hər bir inadkar kafiri cəhənnəmə atın; xeyirə mane olanı, təcavüz edəni, şübhəyə salanı."**

*Ayə 26:*

﴿الَّذِي جَعَلَ مَعَ اللَّهِ إِلَهًا آخَرَ فَأَلْقِيَاهُ فِي الْعَذَابِ الشَّدِيدِ﴾

**"Bir olan Allahla yanaşı başqa məbud seçəni. Onu ağır əzaba salın."**

## Nöqtələr

Qiyamətdə hökm çıxarılanadək mühakimə mərhələləri keçilər: öncə şahid hazır olar, sonra mühakimə aparılar, daha sonra günah müəyyənləşdirilər, sonda hökm çıxarılar.

"Ətid" sözü mələklərin nizam-intizamına işarədir. "Ənid" sözü inadkar, "mənna" sözü paxıl, "murib" sözü başqalarını şəkkə salan mənasını bildirir. Belə bir şəkk bədbinliklə müşayiət olunur.

"Kəffar" sözü insan vücudundakı küfrün dərinliyini bildirir, ciddi inadkarlıqdan danışır. Belə bir küfr insaanı bütün xeyirlərdən uzaqlaşdırır, zülm-sitəmə sövq edir. Bu qəbil insanlar başqalrını da Allahın yolundan uzaqlaşdırır. Şübhəsiz ki, bu qəbil insanların sonu cəhənnəm və ağır əzabdır.

Xeyir işə münasibətdə insanlar bir neçə zümrəyə bölünür: xeyir işdə öncüllər;[1] xeyir səbəbi olub başqalarını bu yönə dəvət edənlər;[2] xeyirə mane olanlar.

Günah və onun cəzası arasında uyğunluq var. Küfr edib inadkarlıq göstərən, xeyirə mane olub təcavüz edən, şübhə yaradıb şirkə düçar olan insanın əzabı ağır olmalıdır.

İmam Baqir (ə) və imam Sadiq (ə) buyurur: "Qərinə" dedikdə insanın əməllərinə şahid olan mələk nəzərdə tutulur."[3]

İnsanı cəhənnəmə atan mələklər ya "rəqib" və "ətid", ya da "saiq" və "şəhid"dir.

## Bildirişlər

1. Qiyamətdə insanlar təkbətək səhnəyə gətirilər.
2. Qiyamətdə hər bir insanı dünyəvi məhkəmədə olduğu kimi bir mələk müşayiət edib mühakiməyə gətirər.
3. Qiyamətdə qaçmaq və inkar etmək imkanı yoxdur.
4. Hər bir mələyin vəzifəsi və məsuliyyəti müəyyəndir.
5. İnsanın qəfləti dərin və əhatəlidir.

---

[1] "Bəqərə", 148
[2] "Ali-İmran", 104
[3] "Təfsiri-nümunə"

6. Dünya və onun cilvələri insanın gözünə qəflət pərdəsi çəkir.

7. İnsan öz əməlləri ilə özü üçün qəflət pərdəsi hazırlayır.

8. Dünya qəflət evi, axirət oyanış sarayıdır.

9. İnsanın öz əməlləri ilə yaratdığı pərdələr haqqı görən gözü örtür. Pərdələr kənara çəkilən gün insan həqiqətən görür.

10. Qafil insan dünyada darbaxışlıdır. Qiyamət günü isə onun gözü açılır və iti görür.

11. Cəhənnəmə atmaq göstərişi cəhənnəm əhlinin zəlilliyini göstərir.

12. Qiyamətdə insanın əməlləri meyardır. Hansı millətdən, hansı qəbilədən olmağın fərqi yoxdur.

13. İnsanı cəhənnəmə salan cəhalətdən yox, inadkarlıqdan doğan küfrdür.

14. Küfr və şirk həsədə aparan səbəblərdir.

15. İlahi məhkəmənin hökmləri qətidir və bu hökmlərə yenidən baxılmır.

16. Cəhənnəmdə əzabın müxtəlif dərəcələri var.

*Ayə 27:*

﴾قَالَ قَرِينُهُ رَبَّنَا مَا أَطْغَيْتُهُ وَلَكِن كَانَ فِي ضَلَالٍ بَعِيدٍ﴿

**"Onun yoldaşı (şeytan) deyər: "Pərvərdigara, onu tüğyana mən vadar etmədim, o özü uzun-uzadı azğınlıq içində idi."**

*Ayə 28, 29:*

﴾قَالَ لَا تَخْتَصِمُوا لَدَيَّ وَقَدْ قَدَّمْتُ إِلَيْكُم بِالْوَعِيدِ﴿﴾مَا يُبَدَّلُ الْقَوْلُ لَدَيَّ وَمَا أَنَا بِظَلَّامٍ لِّلْعَبِيدِ﴿

**"(Allah buyurur) Mənim hüzurumda höcətləşməyin. Mən bundan önəc sizə əzab vəd etmishdim; Mənim (kafirləri cəhənnəmə atmaqla bağlı) əmrim dəyişməz. Mən heç vaxt bəndələrimə zülm etmərəm."**

*Ayə 30:*

﴾يَوْمَ نَقُولُ لِجَهَنَّمَ هَلِ امْتَلَأْتِ وَتَقُولُ هَلْ مِن مَّزِيدٍ﴿

**"Cəhənnəmə "doldunmu" dediyim gün o cavab verər: "Yenə də varmı?"**

**Nöqtələr**

İmam Sadiq (ə) buyurur: "Qərin deyərkən bu ayədə şeytan nəzərdə tutulur."[1] Təfsirdə oxuyuruq: "Şeytan bəzi günahkarlara "qərin" olar."[2]

İnsanın cəhənnəmə düşməsi səbəblərindən biri onun pis insanla dostluğu və yoldaşlığıdır. Bu ayədə Allah-taala şeytanı insanı cəhənnəmə aparan pis yoldaş kimi tanıtdırır. Cəhənnəm əhli qiyamətdə həm də pis dostlar səbəbindən ah-nalə

[1] Bihar", c. 5, s. 323

[2] "Zuxruf", 36; "Təfsiri-əl mizan"

çəkər. Quranda onların sözü belə bəyan olunur: "Ey kaş filankəsi dost seçməyəydim.[1]

Qiyamətdə günahkarlar öz aralarında, öz rəhbərləri ilə, şeytanla danışarlar. Hər kəs öz günahını başqasının boynuna qoymaq istəyər. Quranda bu sayağı höcətləşmələr yada salınır: bəzən bir-birlərinə deyərlər ki, əgər siz olmasaydınız biz mömin olardıq.[2] Amma onlara cavab verilər ki, belə deyil, siz özünüz iman gətirmədiniz.[3]

Başqa bir səhnədə günahkarlar öz rəhbərlərinə deyərlər ki, biz sizə tabe idik, buna görə bədbəxt olduq. Soruşarlar ki, bu gün bizim çətinliyimizi həll edə bilərsinizmi?[4]

Bəzən isə şeytan məzəmmət olunar. Şeytan cavab verər ki, özünüzü danlayın, mənim işim yalnız dəvət etmək olub.[5] Bu ayədə də şeytan yada salınır. O deyir ki, pərvərdigara, mən onları tüğyana məcbur etmədim.

Cəhənnəm ardıcıl olaraq söyləyir ki, yenədəmi (cəhənnəmə gələsi adam) var? Eyni sözləri cəhənnəm əhli də var-dövlət yığarkən, insanların malını mənimsəyərkən deyirdilər.

### Bildirişlər

1. Pis dost insanı bədbəxt edə bilər. Yaxşılarla dost ola biləsi insan şeytan yoldaşlıq etmişdir.
2. İblis Allahın rübubiyyətini etiraf edir.
3. Bilməliyik ki, qiyamət günü İblis cavabdehlikdən boyun qaçırar.
4. İblis kimsəni məcbur etmədiyini, yalnız tüğyana çağırdığını bildirir.
5. İnsan bir günə qalır ki, şeytan da onu azğın sayır.
6. Cəhənnəm əhli qiyamətdə İblislə höcətləşər.
7. Qiyamətdə şeytanla höcətləşməyin faydası yox. Onunla dünyada mübarizəyə qalxmalıyıq.
8. Allah yalnız xəbərdarlığını başa çatdırdıqdan sonra əzabını nazil edir.
9. Qiyamətdə mübahisələr, höcətləşmələr çıxarılmış hökmü dəyişməz. Allahın hökmünə yenidən baxılmır.
10. Hökmün dəyişməsi və zalımların cəzasının yüngülləşdirilməsi məzlumlara zülm olardı.
11. Günahkarların cəhənnəmə düşməsi onların özlərinə zülmünün nəticəsidir. Allah kimsəyə zülm etməz.
12. Cəhənnəmin bir növ şüuru var. Allah ona xitab edir, o da Allahın suallarını cavablandırır.

***Ayə 31:***

**﴿وَأُزْلِفَتِ الْجَنَّةُ لِلْمُتَّقِينَ غَيْرَ بَعِيدٍ﴾**

---

[1] "Fürqan", 28
[2] "Səba", 31
[3] "Saffat", 29
[4] "İbrahim", 21
[5] "İbrahim", 22

**"Behişti təqvalılar üçün yaxın gətirərlər."**

*Ayə 32:*

**﴿هَذَا مَا تُوعَدُونَ لِكُلِّ أَوَّابٍ حَفِيظٍ﴾**

**"(Onlara deyilər) Budur sizə vəd olunan. Hər bir tövbəkar və özünü qoruyan üçün (ilahi hədlər var)"**

*Ayə 33:*

**﴿مَنْ خَشِيَ الرَّحْمَن بِالْغَيْبِ وَجَاء بِقَلْبٍ مُّنِيبٍ﴾**

**"O kəs ki, qəlbində Rəhman Allahdan qorxmuş və tövbəkar qəlblə (Allahın sorağına) gəlmişdir."**

## Nöqtələr

"Xəşyət" dedikdə ilahi mərifət və Allahın əzəmətindən qaynaqlanan qorxu nəzərdə tutulur.

Quranda üç növ qəlb yad edilir: sağlam qəlb;[1] belə bir qəlb şirkdən, nifaqdan, kin-küdurətdən istənilən bir eybdən uzaqdır; yalvaran qəlb[2] belə bir qəlb hər büdrəmədən sonra Allah dərgahına üz tutur; xəstə qəlb[3] Belə bir qəlbdə ilahi maarifə münasibətdə düşmənçilik var və o azad buraxılarsa xəstəliyi gün-gündən şiddətlənər.

Qonağın süfrəyə yox, süfrənin qonağın yanına gətirilməsi qonaqlığın imtiyazıdır. Həzrət İbrahim süfrəni qonaqların yanına apardı.[4] Qiyamət günü artıq yol getməsinlər deyə behişt təqvalıların yanına gətirilər.

Cəhənnəm əhli cəhənnəmə atılar. Amma behişt əhlinə hörmət göstərilər və behişt onların yanına gətirələr.

Cəhənnəm əhlinə əzab vəd olunmuşdur. Behişt əhli isə xoş xəbərlə müjdələnir.

Tövbəmizi pozsaq da Allahın mərhəmətindən ümidimizi üzməyək. Hər büdrəməyə görə üzür istəyək. "Əvvab" dedikdə ardıcıl şəkildə üzür istəyən, tövbə qılan kəs nəzərdə tutulur.

Həzrət Peyğəmbər (s) İbn Məsuda buyurdu: "Ey Məsud oğlu! Qəlbində Allahdan elə qorx ki, sanki Onu görürsən. Sən onu görmürsənsə də O səni görür." Sonra həzrət hazırkı ayəni tilavət etdi.[5]

## Bildirişlər

1. Tərbiyə prosesində qorxutmaqla yanaşı, təşviq də lazımdır.
2. Paklıq və pəhrizkarlıq behişti insana yaxınlaşdırır.

---

[1] "Şuəra", 89
[2] "Qaf", 33
[3] "Bəqərə", 10
[4] "Zariyat", 27
[5] "Bihar", c. 74, s. 111

3. Əsas məsələ insanın hansı cinsdən olması yox, onun əməlləridir.

4. Günahkarlaraı tövbəyə həvəsləndirin.

5. Behişt yolunu tutmaq üçün Allah yoluna qayıdıb bu yolla getmək lazımdır.

6. Məsum olmayan insan günaha düçar olasıdır. Əsas məsələ onun doğru yola qayıdışı və tövbəsidir.

7. İlahi mərhəmət insanı arxayın salmamalıdır. İmanlı şəxs daim nigaran olmalı, Allahdan qorxmalıdır. (Allah rəhmlilərin rəhimlisi olsa da Onun əzəməti qarşısında mütilik və qorxu lazımdır.)

8. Cərimə, hörmətsizlik, xalqın məzəmməti, qazancın azalması qorxusu ilə nədənsə çəkinsək onun dəyəri yoxdur. Allahın əzəməti qarşısında qorxu insanın qəlbinə aiddir.

9. Günahdan pak qalan yox, büdrəyəndə ciddi tövbə edib müti olan kəs təqvalıdır.

10. Allah dərgahına yalvarış üçün Allahın məqamını tanımaq və ondan qorxmaq lazımdır.

***Ayə 34:***

**﴿ادْخُلُوهَا بِسَلَامٍ ذَٰلِكَ يَوْمُ الْخُلُودِ﴾**

**"(Onlara deyilər) Salamatlıqla behiştə daxil olun. Bu, (sizin üçün) əbədi bir gündür."**

***Ayə 35:***

**﴿لَهُم مَّا يَشَاؤُونَ فِيهَا وَلَدَيْنَا مَزِيدٌ﴾**

**"Behişt əhli üçün orada istədikləri hazırlanıb. Yanımızda (onların istədiyindən də) artıq var."**

**Nöqtələr**

Ötən ayələrdə təqvalıların dörd kamilliyi bəyan olundu: tövbəkarlıq, özlərini və ilahi hədləri qorumaları, Allahın əzəməti müqabilində qorxu, müti qəlb. Behiştin də dörd səciyyəsi bəyan olunur: Əmin-amanlıq və salamatlıq, əbədiyyət, çeşidlilik, nemətlərin çoxluğu.

Dünya nemətlərinin adətən bəlası olur. Behişt nemətləri isə belə deyil:

1. Dünya nemətləri başağrılıdır, behişt nemətləri isə yox;

2. Dünya nemətləri müvəqqətidir, behişt nemətləri isə əbədi;

3. Dünya nemətlərinin çeşidi məhduddur, behişt nemətləri isə istənilən qədərdir;

4. Dünya nemətləri tükənir, behişt nemətləri isə artır.

**Bildirişlər**

1. Dünyada Allahın əzəməti qarşısında qorxu axirətdə qurtuluş səbəbidir.

2. Cəhənnəm əhli alçaldılaraq cəhənnəmə atılır, behişt əhli isə hörmətlə qarşılanır.

3. Allahın həm qəzəbi var, həm də mərhəməti.

4. Cəhənnəm əhlinə əmr olunar ki, Allahın hüzurunda danışmasınlar. Amma Allah və Onun mələkləri behişt əhlini salamlayır.[1]

5. Behişt nemətlərinin əbədiliyi və tükənməzliyi ilə bağlı müjdə ən üstün müjdədir.

6. Dünyada nəfs istəklərini boğan insan behiştdə arzularına çatır.

7. Allah cəhənnəm əhli ilə ədalətlə rəftar edir. Behişt əhlinə isə lütf olunur.

8. İnsanın arzuları bitib-tükənmir. Onu yalnız əbədi nemətlər doyurar.

9. Allah-taalanın behişt əhlinə lütfü onların gözlədiyindən qat-qat artıqdır.

*Ayə 36:*

**﴿وَكَمْ أَهْلَكْنَا قَبْلَهُم مِّن قَرْنٍ هُمْ أَشَدُّ مِنْهُم بَطْشًا فَنَقَّبُوا فِي الْبِلَادِ هَلْ مِن مَّحِيصٍ﴾**

**"Onlardan öncə daha güclü və şəhərlərə yol açmış bir çox nəsilləri həlak etdik. Onların qaçıb-qurtarmağa yolu vardımı?"**

*Ayə 37:*

**﴿إِنَّ فِي ذَٰلِكَ لَذِكْرَىٰ لِمَن كَانَ لَهُ قَلْبٌ أَوْ أَلْقَى السَّمْعَ وَهُوَ شَهِيدٌ﴾**

**"Həqiqətən, bunda oyaq qəlbi olan və ya qəlbən dinləyən üçün öyüd-nəsihət var."**

**Nöqtələr**

"Qərn" dedikdə iki şeyin bir-birinə yaxınlaşması dedikdə. Eyni bir dövrdə yaşayan insanlara "qərn" deyilir. Sonradan (100 və ya 30 illik) zaman kəsiyi belə adlandırılmışdır.

"Bətş" dedikdə bir şeyi zorla almaq, bəzən isə dava-dalaş mənası başa düşülür.

"Nəqb" sözündən olan "nəqqibu" sözü divarda yarıq açmaq mənasını bildirir. Həmin kökdən olan "mənqəbət" sözü insanların ruhuna təsirli kamilliklər mənasını anladır. Ayədə nəzərdə tutulur ki, bəzi qədim qövmlər başqa qövmlər üzərində nüfuzları vasitəsi ilə ölkələr fəth edirdilər.

"Qəlb" dedikdə sənubər şəkilli ürək yox, düşüncə mərkəzi olan qəlb nəzərdə tutulur. İmam Kazim (ə) buyurur: "Qəlb deyərkən ağıl nəzərdə tutulmuşdur."[2]

"Mulk" surəsində oxşar ayə ilə rastlaşırıq. Ayədə cəhənnəm əhlinin dilindən bildirilir ki, əgər haqqı tanısaydıq, düşünsəydik, bu gün cəhənnəmə düşməzdik.[3] Dinləməkdən danışılarkən bu ayədə düşüncə, haqqında danışılan ayədə qəlbin iştirakı önə çəkilir. Demək, qəlb deyərkən, elə düşüncə nəzərdə tutulur.

"Əlqəs səmə" təbiri öyrənmək məqsədi ilə dinləməyə işarədir. Başqa sözlə, nəzərdə tutulan sadəcə qulaq asmaq yox, qəlbən dinləməkdir.

---

[1] "Yasin", 58
[2] "Təfsiri-nurus-səqəleyn"; "Kafi", c. 1, s. 16
[3] "Mulk", 10

"Şəhid" sözü şahid və hazır mənalarını bildirir. Yəni məclisdə iştirak edib deyilənlərə diqqətlə qulaq asan kəs şahiddir. Qulağı söhbətdə, fikri başqa yerdə olan şahid sayılmır.

### Bildirişlər

1. Küfr və şirkə görə bir çox qədim ümmətlərin və mədəniyyətlərin məhvi gələcəkdəkilərin yolunu işıqlandırır.

2. Təcavüzkar zorluların məhvi iman əhli üçün təsəlli və ümid səbəbidir.

3. Haqqı düşmən zorluların məhvi ilahi sünnədir.

4. Tarix və arxeologiya elmi ilahi sünnələrlə tanışlığa, haqq yola istiqamətlənməyə xidmət etməlidir.

5. Allahın qəzəbi nazil olanda materialist qüdrətlər bir heç olur.

6. Qüreyş kafirləri özlərini qüdrətli bilirdilər. Ona görə də Allah-taala buyurur ki, biz onlardan da qüdrətliləri məhv etmişik.

7. İmandan uzaq qüdrət tüğyana, başqalarına təcavüzə, məmləkətlərin işğalına zəmin olur.

8. Allahın qəzəbi nazil olanda qurtuluş yolları qapanır, ən güclülər də çıxılmaz vəzyətə düşür.

9. Yalnız bəsirətli və haqqı eşidəndə qəbul edənlər tarixdən ibrət götürür.

10. Tarixi hadisələrə səthi yanaşmayaq, onları təhlil edib ibrət götürək. Hadisələrdən ibrət götürməyənin qəlbi ölmüşdür.

11. Diqqət və qəlbin iştirakı ilə dinlənilən həqiqətlər təsirlidir.

### *Ayə 38:*

**﴿وَلَقَدْ خَلَقْنَا السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا فِي سِتَّةِ أَيَّامٍ وَمَا مَسَّنَا مِن لُّغُوبٍ﴾**

**"Həqiqətən, biz göyləri, yeri və onlar arasında olanları altı gündə yaratdıq və əziyyət, yorğunluq bilmədik."**

### Nöqtələr

"Luğub" sözü əziyyət və xəstəlik mənasını bildirir. Bu söz bəşəriyyətin məhdud gücünə işarədir. Amma qeyri məhdud qüdrət sahibi olan Allah haqqında belə demək olmaz. Göyləri və yeri yaradan kəs ikinci dəfə yaratmağa acizmi olar?!

Ayədəki "yəvm" sözü bir sutka mənasını bildirmir. Altı gün yaranışdakı altı mərhələyə işarədir. Çünki bizim anladığımız mənada "gün" sözü yanlız göylər və yer xəlq olunduqdan sonra məna kəsb edə bilərdi.

Fəxr Razi belə hesab edir ki, ayədə yəhudilərin əqidəsinə cavab verilir. Yəhudilər deyirdilər ki, Allah yaranışa bazar günü (yekşənbə) başladı və cümə günü bu işi başa çatdırıb şənbə günü istirahət etdi.

Allahın varlıq aləmini yaratmasının xüsusiyyətləri var: yaradıcılıq;[1] məqsədlilik;[2] aləmin genişlənməkdə olması;[3] proqramlı, ölçülü yaranış;[4] hər şey öz həddində kamildir;[5] yaranışın tədriciliyi, mərhələ-mərhələ gerçəkləşməsi.

15-ci ayədə buyurldu ki, Allah ilkin yaranışda aciz qalmamışdır. Bu ayədə isə yaranışda heç bir yorğunluğun baş verməməsi bildirilir.

**Bildirişlər**

1. Səmanın sadə olduğunu düşünməyək. Quran onun çox geniş və təbəqələrə malik olduğunu bildirir.
2. Varlıq aləminin tədricən yaranışında hikmət var. Allah sonsuz qüdrət sahibidir və bütün bunları bir anda yarada bilərdi.
3. Allahın mütləq qüdrətinə münasibətdə hansısa yorğunluqdan danışmaq mənasızdır.
4. Mömin ilahi sifətlərə yiyələnməyə çalışmalı, xeyir işlərdən yorulmamalıdır.

***Ayə 39, 40:***

﴿فَٱصْبِرْ عَلَى مَا يَقُولُونَ وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ الْغُرُوبِ﴾﴿وَمِنَ ٱللَّيْلِ فَسَبِّحْهُ وَأَدْبَارَ السُّجُودِ﴾

**"Onların dediklərinə münasibətdə dözümlü olun. Gün doğmamış, qürubdan öncə Allahına təsbih de, sitayiş et, həmd söylə. Gecənin də bir hissədini Ona təsbihə məşğul ol, səcdələrdən sonra (Allaha təsbih söylə)."**

**Nöqtələr**

İslam istər şad, istər qəmgin olarkən Allaha təsbih söyləməyi tapşırır.[6]

"Taha" surəsinin 130-cu ayəsi də hazırkı ayələrin oxşarıdır.

Əziz Peyğəmbər (s) bəzən müşriklərin təhqiramiz sözlərinə görə pərişan olardı.[7] Bu səbəbdən də Allah onu ürəyini sıxmamağa çağırır.

Müşriklərin bəzi batil əqidələri və yersiz sözləri Quranda nəql olunur:

-Onlar Allahın övladı olduğunu söylədilər, Ona şərik qoşdular, bütləri şəfaətçi götürdülər.

-Onlar əziz Peyğəmbəri (s) sehrbazlıqda, kahinlikdə, şairlikdə, divanəlikdə itdiham etdilər.

Bu səbəbdən də hazırkı ayələrdə dözümlü olmaq tapşırılır, Allahın zikri müxaliflərə qarşı müqavimət yolu kimi təqdim edilir.

---

[1] "Bəqərə", 117
[2] "Ali-İmran", 191
[3] "Zariyat", 47
[4] "Qəmər", 49
[5] "Səcdə", 7
[6] "Fəth", 1-3
[7] "Hicr", 97

Quranda adətən təsbih Allaha həmd oxumaqla müşayiət olunur. Bəli, insan özünü naqis, Allahı kamil saydıqda Ona təsbih deyir, Allah onun naqisliyini kamilliyə çevirdiyindən həmd oxuyur.

Quranda Peyğəmbərə (s) səbir etmək əmri on səkkiz yerdə təkrarlanır. Bunlardan dördü pis sözlər qarşısında səbirlə bağlıdır.[1]

İbn Abbasın dediyinə əsasən, tüludan öncə dedikdə sübh namazı, qürubdan öncə dedikdə günorta və ikinti namazları nəzərdə tutulur. Gecənin bir hissəsi təbiri isə şam və xüftən namazlarına işarədir. "Ədbarəs-sücud" dedikdə nafilə namazları nəzərdə tutulur.[2]

İmam Baqir (ə) buyurur: "Ədbarəs-sücud" təbiri şam namazından sonrakı iki rəkət nafilə namazlarını bildirir."[3]

İmam Sadiq (ə) hazırkı ayə haqqında danışarkən buyurur: "Sübh və şam vaxtı on dəfə söylə: "La ilahə illəllah, vəhdəhu la şərikələh, və ləhul mulku və ləhul həmd, yuhyi və yumitu, və huvə əla kulli şəyin qədir"[4]

İslamda ibadət vaxtları hamının müşahidə edəcəyi ay və günəşə münasib olaraq tənzimlənir.

## Bildirişlər

1. Allahın qüdrətinə diqqət insanı çətinliklər qarşısında səbirli və sabitqədəm edir.
2. Doğru yola hidayət, təlim-tərbiyə səbir və dözümlə həyata keçir.
3. Peyğəmbərlər xəbərdarlıqlar və ilahi tövsiyələr vasitəsi ilə insanları hidayət yoluna yaxınlaşdırırlar.
4. Dil yarasına səbir etmək Peyğəmbər (s) üçün də çətindir. Bu səbəbdən də Allah ona səbirli olmağı tövsiyə edir.
5. Allahın yada salınması insanı səbirli edir.
6. Allaha sitayiş etməklə təsbih söyləmək lazımdır. Allahı eyblərdən pak bilmək bəs etmir, ona həmd oxumaq da zəruridir.
7. Allahın rübubiyyəti Ona sitayiş amilidir. Ona sitayişimiz bizi təkamülə aparır.
8. Allaha təsbih, yəni onu bütün nöqsanlardan pak bilmək Ona sitayişdən öndə gəlir.
9. İbadət və dua üçün imtiyazlı vaxtlar var.
10. İnsan mənəvi baxımdan inkişaf etmək üçün ibadətləri təkrarlamağa və davam etdirməyə ehtiyaclıdır.
11. Peyğəmbərin ardıcılları gecənin bir hissəsini ibadətdə keçirirlər.
12. Vacib zikrlər və namazlardan əlavə müstəhəb namazlar və zikrlər tövsiyə olunmuşdur.

## *Ayə 41:*

[1] "Taha", 130; "Sad", 17; Muzəmmil", 10; hazırkı ayə
[2] "Təfsiri Məraği"
[3] "Vəsail", c. 4, s. 73
[4] "Təfsiri-məcməül-bəyan"

﴿وَٱسْتَمِعْ يَوْمَ يُنَادِ الْمُنَادِ مِن مَّكَانٍ قَرِيبٍ﴾

**"Carçının yaxın bir yerdən car çəkəcəyi günün səsini dinlə."**

*Ayə 42:*

﴿يَوْمَ يَسْمَعُونَ الصَّيْحَةَ بِالْحَقِّ ذَلِكَ يَوْمُ الْخُرُوجِ﴾

**"Elə bir gün ki, (İsrafilin surundan) həqiqi dəhşətli səsi eşidərlər. O gün (qəbirlərdən) xaric olma günüdür."**

**Nöqtələr**

11-ci ayədə ölülərin qəbirdən çıxarılması, bu ayədə isə həmin hadisənin baş verəcəyi vaxt bəyan olunur.

"Yaxın yer" dedikdə həmin səsin bütün qulaqlara çatacaq həddə fəzaya yayılacağına işarə olunur. Hamı bu səsi eyni şəkildə, yaxından eşidər. Həmin gün xüsusi bir vasitəyə ehtiyac duyulmadan bütün məhşər əhli carçının səsini yaxından eşidər.

Bu ayədə "sihə" (dəhşətli səs) deyərkən dünyanın sonunu elan edən birinci səs yox, insanların ayağa qalxması ilə müşayiət olunan ikinci səs nəzərdə tutulur.

**Bildirişlər**

1. Qiyamət gününün və kafirlərin cəzaya çatacağını xatırlamaq insanı səbirli edir.
2. Qiyamət astanasında səma səsi qəti və zəruri bir işdir. (Dəbdəbə xatirinə deyil)
3. Məad cismanidir, insanlar həmin bu torpaqdan ayağa qaldırılar.

*Ayə 43:*

﴿إِنَّا نَحْنُ نُحْيِي وَنُمِيتُ وَإِلَيْنَا الْمَصِيرُ﴾

**"Həqiqətən, dirildən və öldürən bizik, qayıdış bizə doğrudur."**

*Ayə 44:*

﴿يَوْمَ تَشَقَّقُ الْأَرْضُ عَنْهُمْ سِرَاعًا ذَلِكَ حَشْرٌ عَلَيْنَا يَسِيرٌ﴾

**"Elə bir gün ki, yer sürətlə onların üzərində yarılar və onlar qəbirlərindən çıxarlar). Bu həşr (insanların bir yerə toplanması) bizə asandır."**

*Ayə 45:*

﴿نَحْنُ أَعْلَمُ بِمَا يَقُولُونَ وَمَا أَنتَ عَلَيْهِم بِجَبَّارٍ فَذَكِّرْ بِالْقُرْآنِ مَن يَخَافُ وَعِيدِ﴾

**"Biz onların (müxaliflərin) dediklərindən daha agahıq. Sən xalqı məcbur etməyə vəzifəli deyilsən. Kim mənim əzab vədimdən qorxursa Quran vasitəsi ilə ona öyüd ver."**

## Nöqtələr

"Cəbbar" sözü həm əvəz çıxan, həm də məcbur edən mənasını bildirir. Birinci mənada işlənən "cəbbar" sözü Allahın sifətlərindən və adlarındandır. İkinci mənada isə "cəbbar" pis sifətdir.

39-cu ayədə isə buyuruldu ki, təhqir edənlərin dediklərinə səbir et. Növbəti ayələrdə səbri gücləndirən amillər yada salınır: zikr və təsbih, qiyamətin xatırlanması, Allah hüzurunda dayanış, Allahın müxaliflərin dedikləri sözlərdən xəbərdarlığı.

Bu surə Qurana andla başladı və Qurana diqqət tövsiyəsi ilə başa çatdı.

Allah-taala bu ayələrdə qiyamətə şəkk etməməyi tapşırır: Sizin həyat və ölümünüz bizim əlimizdədir; sizi qəbirlərdən çıxarmaq üçün yeri parçalarıq; səpələnmiş insanları bir yerə toplayarıq; bu iş bizim üçün asandır.

## Bildirişlər

1. Allahdan savayı kimsədə diriltmək və öldürmək gücü yoxdur.
2. Hamının Allahın hüzuruna qayıdışı haqqında düşünmək insanın çətinliklər qarşısında müqavimətini gücləndirir.
3. Peyğəmbərin vəzifəsi insanları məcbur etmək yox, dinin təbliğidir. (İnsan dini azad şəkildə qəbul etməlidir)
4. Dini təbliğat Qurana əsaslanmalıdır. Çünki ən üstün xəbərdarlıq vasitəsi Qurandır.
5. Quranın uca, məntiqi və fitri maarifi insanların qəbulu üçün bəs edər və məcburiyyətə ehtiyac yoxdur.
6. Yalnız qiyamətdən qorxan insan öyüd-nəsihət qəbul edir.
7. Dini həqiqətlər insanın fitrətində mövcuddur və onu xatırlatmaq yetər.
8. Qiyaməti qəbul etməyən kəsə ən güclü təbliğatçıların ən iti təbliğatı təsirsizdir.

# "ZARİYAT" SURƏSİ

## *(51-Cİ SURƏ; 60 AYƏ)*

## *İYİRMİ ALTINCI, İYİRMİ YEDDİNCİ CÜZLƏR*

## *"ZARİYAT" SURƏSİNİN SİMASI*

60 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur. Surənin adı onun ilk ayəsindən götürülmüşdür: "Vəz zariyati zərva." Bi ifadə qarşısına çıxan əşyaları pərən-pərən salan güclü küləklər mənasını bildirir.

Surə məad mövzusunun zikri ilə başlayır və eyni şəkildə başa çatır. Surədə tövhid, varlıq aləmində Allahın nişanələri, həzrət İbrahimin qonağı olub onu övladla müjdələyən mələklərin əhvalatı, Lut qövmünün məhv edilməsi barədə

danışılır, Musa və Nuh kimi peyğəmbərlərin əhvalatlarına, ad və səmud qövmünə işarə olunur.

Quran keçmiş peyğəmbərlərin tarixini, onların çəkdiyi çətinlikləri bəyan etməklə İslam peyğəmbərini (s) səbir və sabitqədəmliyə çağırır.

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

*Ayə 1, 2, 3:*

**﴿وَالذَّارِيَاتِ ذَرْوًا﴾ ﴿فَالْحَامِلَاتِ وِقْرًا﴾ ﴿فَالْجَارِيَاتِ يُسْرًا﴾**

**"And olsun əşyaları şiddətlə pərən-pərən salan küləklərə; ağır yüklü buludlara and olsun; and olsun asanlıqla hərəkət edən gəmilərə."**

*Ayə 4, 5, 6:*

**﴿فَالْمُقَسِّمَاتِ أَمْرًا﴾ ﴿إِنَّمَا تُوعَدُونَ لَصَادِقٌ﴾ ﴿وَإِنَّ الدِّينَ لَوَاقِعٌ﴾**

**"And olsun işləri bölüşdürən mələklərə; həqiqətən vəd olunan doğrudur; hökmən cəza (günü) olasıdır."**

**Nöqtələr**

"Zariyə" sözünün cəm forması olan "zariyat" sözü sərt küləklər mənasını bildirir. Bu söz dağıtmaq mənasını bildirən "zərəv" sözündəndir. "Viqr" dedikdə ağır yük mənası anlaşılır. Uyğun söz ayədə yağış dolu buludlar mənasında işlədilmişdir. "Cariyat" dedikdə gəmilər, axan çaylar mənası nəzərdə tutulur.

Rəvayətlərə əsasən "zariyat" dedikdə küləklər, "hamilat" dedikdə buludlar, "cariyat" dedikdə gəmilər, "muqəssimat" dedikdə isə ruzi bölən mələklər nəzərdə tutulur.[1]

"Yusr" sözü "usr" sözünün antonimi olub asanlıq mənasını ifadə edir. "Fəl cariyati yusra" ifadəsi asanlıqla üzən gəmilər mənasını bildirir.

Hazırkı ayələrdə yer üzünə bərəkət olan, gəmiləri və buludları hərəkət etdirən kuləklərə and içilir.

Bəşəriyyətin, heyvanların və otların həyatı yağışdan asılıdır. Küləklər buludları hərəkət etdirir, havanın tənzimlənməsində, yaşıl örtüyün həyatında mühüm rol oynayır.

İstər keçmişdə, istər bu gün gəmiçiliyin mühüm rolu göz qarşısındadır. Ən geniş, ən ucuz və ən təhlükəsiz yol dəniz yoludur. Dünyada bir gün bu nəqliyat vasitəsinin hərəkəti dayansa onun əhəmiyyəti üzə çıxar.

İmam Riza (ə) buyurur: "Hər gün fəcr tülusundan günəş tülusunadək insanlara ruzi bölən mələklər var. "[2]

Ruzi bölünərkən hər fərd, hər qəbilə, hər məntəqə üçün pay nəzərdə tutulur. Ehtiyacı aradan qaldırmaq üçün insanlar insanlar şirkətlərə qatılır, rəqabətlər

---

[1] "Təfsiri-nurus-səqəleyn"

[2] "Mən la yəhzur", c. 1, s. 504

aparır, ticarətlə məşğul olur, ixtiralar edirlər. Fərd və cəmiyyətin ehtiyaclı olması tüğyanın qarşısnı alır. Bəli, rifahla yanaşı çətinlik hikmətə əsaslanır.[1]

Küləklər, yağışlar və gəmiçilikdə ilahi qüdrətə diqqət insanın axirətə daha asan inanmasına səbəb olur. Surənin aəvvəlində ardıcıl şəkildə dörd and içilir. Bu andlarda məqsəd insanları qiyamətin gerçəkliyinə inandırmaqdır.

Ayələrdəki "innəma", "innə", "la" hissələri təkid nişanəsidir.

Həayta keçmiş ilahi vədlərdən nümunələr:

Allah-taala Musanın anasına əmr etdi ki, öz körpəsini suya atsın. Anaya vəd edildi ki, körpəsi ona qaytarılcaq və o peyğəmbər seçiləcək.[2] Bu böyük vəd həyata keçdi.

Allah-taala İslam peyğəmbərinə (s) vəd etdi ki, səni məsxərəyə qoyanlardan ehtiyacsız edərəm.[3] Peyğəmbərə (s) onun adının ucaldılacağı vəd edildi.[4]

Allah-taala dəfələrlə vəd etmişdir ki, haqq batilə qalib gələcək, təqva əhli xoşbəxt olcaq. Bütün bu vədlərə əməl edilir. İmam Hüseynin adı əbədiləşdi, onun qatilləri lənətə tuş gəldi.

Vədə əməl etməməyin bir neçə səbəbi var: acizlik, hiyləgərlik, unutqanlıq. Allahda bu sifətlərin heç biri yoxdur.

## Bildirişlər

1. Təbiət hadisələrinə and İslamın varlıq aləmindəki qanunlara diqqətini göstərir, Allahı tanımaq baxımından varlığa hakim qanunların kəmiyyətini önə çəkir.

2. Allah-taala bəşəriyyətin işlərini mələklər vasitəsi ilə yerinə yetirir.

3. Quran bəşəriyyətin düşüncəsini formalaşdırmaq üçün onun diqqətini hiss olunan və hiss olunmayan şeylərə yönəldir.

4. Ətrafdakıların tərəddüdü müqabilində qətiyyətlə və aşkarcasına haqqı demək lazımdır.

5. Məad və dünyanın sonu vədi ardıcıl şəkildə təkararlanır.

6. Varlıq aləmində qüdrətini göstərən Allah vədinə əməl etməkdə aciz deyil.

7. Bütün bu təbii və qeyri-təbii vasitələr təkcə yeyib-yatmaq, ölüb yox olmaq üçün deyil.

8. Allah həm dünya, həm də axirətlə bağlı vədlərinə əməl edir.

***Ayə 7, 8:***

**﴿وَالسَّمَآءِ ذَاتِ ٱلْحُبُكِ﴾﴿إِنَّكُمْ لَفِي قَوْلٍ مُّخْتَلِفٍ﴾**

**"Yolları çox səmaya and olsun; həqiqətən, siz danışıqca müxtəlifsiniz."**

***Ayə 9:***

**﴿يُؤْفَكُ عَنْهُ مَنْ أُفِكَ﴾**

[1] "Nəhcül-bəlağə", xütbə 91
[2] "Qəsəs", 7
[3] "Hicr", 95
[4] "Şərh", 4

**"Haqdan dönən kəs (gələcəkdə də) azğınlığa sürüklənəcək."**

***Ayə 10, 11:***

**﴿قُتِلَ ٱلْخَرَّاصُونَ﴾﴿ٱلَّذِينَ هُمْ فِي غَمْرَةٍ سَاهُونَ﴾**

**"Ölüm olsun yalançılara (Quran və qiyamət haqqında dəlil-sübutsuz danışırlar); o kəslər ki, qəflətə qərq olmuşlar."**

## Nöqtələr

"Həbikə" və "həbak" sözlərinin cəm forması olan "hubuk" sözü üç mənada işlədilir: yol, zinət və orta hədd. Quranda hər üç məna ilə rastlaşmaq olar.[1]

"ifək" sözündən olan "yufək" sözü azğınlığa sürükləmək mənasını bildirir. Buna görə də azğınlıq səbəbi olan yalan "ifək" adlandırılır.

"Xərs" sözündən olan "xərras" sözü elmi əsası olmayan, zənn-gümana əsaslanan danışıq mənasını bildirir. Dərinliyi bilinməyən çox suya "ğəmrə" deyirlər. Uyğun söz ayədə insanı ağuşuna almış dərin cəhalət mənasında işlədilmişdir.

Bəzilərinin iş-gücü zənn-güman əsasında şayiə yaymaqdır. Onlar öz uydurmaları ilə ətrafdakılarda çaşqınlıq yaradırlar. Şayiəni adətən düşmən sifariş verir, münafiq ortaya çıxarır, sadəlövh insanlar qəbul edir.

İmam Baqir (ə) 9-cu ayə ilə bağlı buyurur: "Peyğəmbər (s) əhli-beytinin (ə) vilayətindən boyun qaçıran şəxs behiştdən məhrum qalasıdır."[2]

## Bildirişlər

1. Məntiq əhli olmayan kəs hər dəfə bir söz danışır. Doğru yol bir, yolsuzluq isə çoxdur. Haqq əqidə birdir, nahaq əqidələr saysızdır.
2. Müxaliflər həzrət Peyğəmbər (s) haqqında müxtəlif sözlər danışırdılar. Onu şair, yalançı, başqa birinin şagirdi, cadugər, cadu olunmuş, divanə, kiminsə əl altısı, qədim əfsanələri nəql edən şəxs adlandırırdılar.
3. Hər bir büdrəmə və günah başqa büdrəmələr və günahlar üçün zəmindir.
4. Dəlil-sübutsuz danışıb, zənn-gümana qapılmaq insanı Allahın lənətinə düçar edir.
5. "Ölüm olsun" şuarı Quran şuarıdır.
6. İslam cəmiyyəti azğın insanları qətiyyətlə rədd etməlidir.
7. İnsan arabir zənn-gümana qapılıb səhvə yol verə bilər. Amma bu yolu davamlı şəkildə izləmək , ömür boyu qəflətdə olmaq təhlükəlidir. (İnsan zənn-güman yox, elm və biliyə istinad etməlidir.)
8. Zənn-gümana qapılıb, qəflət içində ömür sürən insanın həyatı mənasızdır.

***Ayə 12, 13:***

**﴿يَسْأَلُونَ أَيَّانَ يَوْمُ الدِّينِ﴾﴿يَوْمَ هُمْ عَلَى النَّارِ يُفْتَنُونَ﴾**

---

[1] "Muminun", 17; "Saffat", 6; "Ər-Rəhman", 7

[2] "Kafi", c. 1, s. 422

**"Soruşurlar ki, cəza günü nə vaxtdır? O gündür ki, onlar odda yandırılarlar."**

***Ayə 14:***

**﴿ذُوقُوا فِتْنَتَكُمْ هَذَا الَّذِي كُنتُم بِهِ تَسْتَعْجِلُونَ﴾**

**"(Onlara deyilər) Əzabınızı dadın. Bu görüşünə tələsdiyiniz həmin əzabdır."**

**Nöqtələr**

"Fitnə" sözü əslində qızıl və gümüşü qatqıdan təmizləmək üçün oda salmaq mənasını bildirir. Bu ayədə uyğun söz kafirlərə əzabın şiddətinə işarədir.

Kafirlər Peyğəmbərdəndən (s) vəd olunmuş əzabın tez gəlməsini istəyirdilər.[1] Burada Quran bildirir ki, görüşünə tələsdiyiniz əzab budur.

Azğın cəhənnəm əhlinin müəyyən səciyyələri var: ziddiyyətli danışıq, haqdan uzaqlıq, yanlışlıqlar içində qərq olmaq, zənn-gümana əsaslanmaq, əsassız düşüncələr və yersiz suallar, ilahi vədələrin gerçəkləməsinə tələsmək.

**Bildirişlər**

1. Anlamaq üçün soruşmağın eybi yoxdur. Amma bəhanə və haqqın inkarı üçün suallar vermək məzəmmət olunur.
2. Xırdalıqları bilməmək mühüm prinsiplərin qəbul olunmaması üçün səbəb deyil. Bəzilətri qiyamətin vaxtını bilmədiklərindən onu qəbul etmirdilər.
3. Haqqı inkar mövqeyi tutanlarla qəti rəftar edilməlidir.
4. Qiyamət cəzasını insan özü hazırlayır.
5. Kafirlər fiziki olaraq odla, ruhi olaraq "zuqu fitnətəkum" (əzabınızı dadın) xitabı ilə cəzalandırılarlar.

***Ayə 15, 16:***

**﴿إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَعُيُونٍ﴾﴿ءَاخِذِينَ مَآ ءَاتَاهُمْ رَبُّهُمْ إِنَّهُمْ كَانُوا قَبْلَ ذَلِكَ مُحْسِنِينَ﴾**

**"Həqiqətən, təqva əhli bağlarda və çeşmə kənarındadır. Rəblərinin onlara əta etdiyini alarlar. Onlar bundan öncə (dünyada) xeyir iş görmüşdülər."**

***Ayə 17, 18, 19:***

**﴿كَانُوا قَلِيلًا مِّنَ اللَّيْلِ مَا يَهْجَعُونَ﴾﴿ وَبِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ﴾﴿ وَفِي أَمْوَالِهِمْ حَقٌّ لِّلسَّائِلِ وَالْمَحْرُومِ﴾**

**"Gecə az yatardılar, sübhlər istiğfar edərdilər (bağışlanma diləyərdilər). Mallarında dilənçilər və məhrumlar üçün haqq vardı."**

---

[1] "Əraf", 70, 77; "Hud", 32

## Nöqtlər

"Yəhcəun" sözü gecə yuxusu mənasını bildirir. 17-ci ayə iki şəkildə mənalandırlır: təqvalılar gecənin çoxunu oyaq qalır, az hissəsini yatır; müttəqilər gecənin çoxunu ibadət edir və az olur ki, bütün gücəni yatalar. İmam Sadiqdən (ə) hazırkı ayə haqqında soruşulduqda buyurmuşdur: "Az olar ki, onlar gecələr yatsın və ibadət üçün durmasın."[1]

Gözləməməliyik ki, məhrumlar ağız açdıqdan sonra onlara yardım əli uzadaq. İnsanların şəxsiyyətini qorumaq lazımdır.

İmam Sadiq (ə) buyurur: "Dua üçün ən yaxşı vaxt səhərdir. Çünki Allah-taala həmin vaxt istiğfar etməyi tapşırır."[2]

İmam Sadiq (ə) "və bil-əsharihum yəstəğfirun" ayəsi haqqında buyurur: "Ayədə gecə nafiləsinin vitr namazında 70 dəfə istiğfar demək nəzərdə tutulmuşdur."[3]

İmam Baqir (ə) və imam Sadiq (ə) buyururlar: " Ayədə məhrum deyərkən ağıl çatışmazlığı olmadığı halda ruzi əldə edə bilməyən kəs nəzərdə tutulur."[4]

Hədisdə öz elm və fərasəti ilə ruzi qazandığını düşünənlərə cavab verilir. Bildirilir ki, ağıl çatışmazlığı olmayan insanların da dolanışığı təmin edə bilməməsi mümkündür.

## Bildirişlər

1. İnsanların hidayət və tərbiyəsi üçün həm təşviq, həm də xəbəırdarlıq lazımdır.
2. Təqvalı insanları bir bağ və bir çeşmə yox, bağlar və çeşmələr gözləyir.
3. Müvəqqəti ləzzətlərə göz yummaq sayəsində insan daim ləzzətlərə çatır.
4. Behişt əhlinə çeşmələr və bağlarla yanaşı hər an yeni nemətlər lütf olunur.
5. Behişt əhlinə Allahın rübubiyyət şanində nemətlər verilir.
6. Allah-taala behişt nemətlərini təqvalılara əta edir. ("İnsan" surəsinin 31-ci ayəsində buyurulur ki, Allah onları sirab edər.)
7. Bu dünyada əziyyət çəkməyən insan əbədi axirət xəzinəsi əldə etməz. Bəli, axirət mükafatı dünya zəhmətlərinin nəticəsidir.
8. Ehsan və xeyir əməl təqva şərtidir.
9. İlahi mükafatlar insanların əməllərinə uyğundur. Bu gün ətrafdakılara edilən yaxşılıq sabaha yaxşılığa çatmaq üçün zəmindir.
10. Xeyir əməl insanın xarakterində davamlı şəkil almalıdır.
11. Gecəni oyaq qalmaq təqvalıların nişanələrindəndir.
12. Gecələr ibadət və sübhlər istiğfar təqvalıların daimi işidir.
13. Bütün insanlar hətta təqvalılar üçün büdrəmə təhlükəsi var və hamı istiğfara ehtiyaclıdır.
14. Gecə və sübhün bütün zikr və duaları arasında istiğfarın öz yeri var.

---

[1] "Kafi", c. 3, s. 446
[2] "Mustədrək", c. 5, s. 200
[3] "Təhzib", c. 2, s. 130
[4] "Kafi", c. 3. s. 500

15. Sübhlər istiğfar ibadətin zirvəsidir.

16. İslam kopleks bir məktəbdir. Gecə ibadətləri məhrumlara xidmətlə yanaşıdır.

17. Bəziləri maddi çətinlik çəksə də kimsəyə ağız açmır. Belələrinə diqqət lazımdır.

18. Dilənçi və məhruma etdiyiniz yardım onların öz haqqıdır. Çünki Allah-taala insanların var-dövlətindən məhrumlar üçün pay nəzərdə tutur. Etdiyiniz yaxşılığa görə minnət qoymayın.

19. Yoxsulluq təqva şərti deyil. Təqvalı insan varlı da ola bilər. Quran buyurur ki, onların malında məhrumların haqqı var. Demək, onların elə bir həddə sərvəti olmalıdır ki, həm özlərini təmin etsinlər, həm də başqalarına əl tutsunlar.

*Ayə 20, 21, 22:*

﴿ وَفِي ٱلْأَرْضِ ءَايَاتٌ لِّلْمُوقِنِينَ﴾ ﴿ وَفِي أَنفُسِكُمْ أَفَلَا تُبْصِرُونَ﴾ ﴿ وَفِي السَّمَاءِ رِزْقُكُمْ وَمَا تُوعَدُونَ﴾

**"Yer üzündə yəqin əhli üçün nişanələr var, özünüzdə də (ilahi qüdrət və hikmət nişanələri var). Beləsə, nə üçün (bəsirət gözü ilə) baxmırsınız?! Sizin ruziniz və sizə vəd edilən səmada, yuxarı aləmdədir."**

*Ayə 23:*

﴿ فَوَرَبِّ السَّمَآءِ وَالْأَرْضِ إِنَّهُ لَحَقٌّ مِّثْلَ مَآ أَنَّكُمْ تَنطِقُونَ﴾

**"And olsun göyün və yerin Rəbbinə, bizim sözümüz sizin sözünüz kimi haqdır (öz sözünüzə şübhə etmədiyiniz kimi bizim də dediklərimizə şübhə etməyin.)"**

**Nöqtələr**

Quran təbiət və şəriətdəki ayələr vasitəsi ilə hidayət və əminliyə çatmaq üçün hazır qəlbi şərt sayır.[1]

Yerin və insanın yaranışında bir çox əsrarəngiz nöqtələr var. O cümlədən: yerin həcmi, onun sahəsi və qatları, dağlar və dərələr, onun günaəş və difər planetlərdən uzaqlığı, yerin fərqli hərəkətləri, aşkar və gizli xəzinələr, yaşıl örtük, su ehtiyatları, rənglər, daşlar, torpaqlar, meyvələr, otlar, torpağın təmizlənməsi, yer üzündəki canlıların ehtiyaclarının təmini, yəqinlik sorağında olanlar üçün Allahın qüdrət və hikmət nişanəsidir. İnsan vücudunun nütfədən başlamış sonadək müxtəlif mərhələlərdəki durumu Allahın qüdrətini göstərir. İnsanın çeşidli meylləri Allahın hikmət və elmindən danışır.

İnsandakı müxtəlif hiss üzvləri arasındakı uyğunluq, skelet quruluşu, əsəb sistemi, tənəffüs orqanları, həzm sistemi, görmə və eşitmə orqanları, orqanizmin müdafiə sistemi qadir Allahın nişanələridir.

---

[1] "Yunus", 67; "Rəd", 3; "Rəd", 4; "İbrahim", 5; "Nəhl", 79; "Taha", 128; "Hicr", 75; "Rum", 22; "Bəqərə", 2

Həzrət Əli (ə) buyurur: "Allah səni eşidən və görən yaratdı. Həm sevinirsən, həm də qəzəblənirsən, həm aclığı, həm də toxluğu hiss edirsən.[1]

İnsan ona ruzi payı ayırıldığına əmin olmadığından günaha batır, oğurluq edir, əskik satır, tamahkarlıq göstərir.

Ruzi dəqiq hesabla nazil olur.[2]

Ruzinin səmada, yuxarı aləmdə olması bir neçə cür anlaşıla bilər:

a) Səmadan nazil olan yağış, nur və külək nəzərdə tutula bilər;

b) Yer əhlinin müqəddəratı göydə müəyyənləşir;

v) Əbədi ruzi olan behişt səmalardadır;

q) İlahi vədlər səma səmtindən gerçəkləşir.[3]

İnsanın öz danışığı belə bir məqsədlə yada salınır ki, o öz dediklərinə inandığı kimi ilahi vədlərə də inansın.

**Bildirişlər**

1. Elmin inkişafı və təbiətdə sirlərin kəşfi ilə Allahın qüdrət və hikmət nişanələri günbəgün aşkarlanır.
2. Yer üzündə ilahi nişanələr çoxdur və göz qarşısındadır.
3. Allahşünaslıq yəqin və bəsirətə əsaslanmalıdır.
4. İnsanda inam olmasa, nemətlər Allahın nişanəsi sayılmaz.
5. Təbiətin öyrənilməsi iman və tövhid etiqadını gücləndirən vasitədir.
6. İnsan vücudu o qədər əzəmətlidir ki, Allah onu yer kürəsi ilə yanaşı yada salır.
7. İnsanın özünü tanıması onun Allahı tanıması üçün bir yoldur.
8. Kafirlərin və dinsizlərin əsas problemi onların dar baxışlı olmasıdır. Allah-taala buna görə onları məzəmmət edir. (Bəsirət dərin və dəqiq baxışdır)
9. Bəsirətsiz baxış məzəmmətə layiqdir.
10. Ruzi çeşməsi göydədir. (Yağış, işıq, külək, hava və s.)
11. İstənilən bir xeyir və bərəkət, qəzəzb və əzab mükafat və ya cəza olaraq səmadan nazil olur.
12. Səma və yer Allahın müdiriyyəti altında təkamüldədir.
13. Yer əhlinin ruzisinin səmalarda olması Allahın göylər və yer üzərində müdiriyyətini göstərir.
14. Danışıq qabiliyyəti Allahın insana xüsusi lütflərindəndir. Allah öz sözünün doğruluğunu göstərmək üçün insanın danışığını önə çəkir.

***Ayə 24, 25:***

**﴿ هَلْ أَتَاكَ حَدِيثُ ضَيْفِ إِبْرَاهِيمَ الْمُكْرَمِينَ﴾ ﴿ إِذْ دَخَلُوا عَلَيْهِ فَقَالُوا سَلَامًا قَالَ سَلَامٌ قَوْمٌ مُّنكَرُونَ﴾**

**"İbrahim əziz qonaqlarının əhvalatı sənə yetişmədimi? Onun yanına gəlib salam verdikləri vaxt (İbrahim) dedi: "Salam, sizi tanımıram."**

---

[1] "Təfsiri-nurus-səqəleyn"

[2] "Hicr", 21

[3] "Təfsiri-rahnoma"

*Ayə 26, 27:*

﴿ فَرَاغَ إِلَى أَهْلِهِ فَجَاءَ بِعِجْلٍ سَمِينٍ﴾ ﴿ فَقَرَّبَهُ إِلَيْهِمْ قَالَ أَلَا تَأْكُلُونَ﴾

**"O xəlvətcə ailəsinin yanına getdi və kök bir buzov (bişirilmiş halda) gətirdi. Onu qonaqlara yaxın qoydu. (Qonaqların süfrəyə əl uzatmaması onu təəcübləndirdi) Dedi: "nə üçün yemirsiniz?"**

## Nöqtələr

"Rağ" dedikdə insanın xəlvəti şəkildə məclisi tərk etməsi nəzərdə tutulur.

Mələklərdən bir dəstəsi İbrahimi dünyaya övladının gəlişi münasibəti ilə təbrik üçün onun evinə gəldilər. Həzrət İbrahim onları tanımadı qonaqların süfrəyə əl uzatmadığını görüb bunun səbəbi soruşdu. Onlar özlərini təqdim etdilər.

Mələklərin insan şəklində görünməsi bəzi ayələrdə təsdiqlənir. Cəbrəilin Məryəmə nazil olması, Harut və Marutun Süleyman məmləkətinə gəlişi, mələklərin İbrahimə qonaq olması deyilənləri təsdiqləyir.

## *Qonağın gəlişi ilə bağlı qaydalar*

Bu və başqa ayələrdən qonağın gəlişi ilə bağlı müəyyən qaydalar öyrənmək olar: qonaq möhtərəmdir; qonaq daxil olanda salam verməlidir; qonağın salamını almaq lazımdır; ev sahibi qonağın diqqətini cəlb etmədən yemək hazırlamalıdır; yeməyi evdə hazırlayaq; süfrəni tez açaq; ən yaxşı xörəkləri hazırlayaq; qonağı süfrəyə yox, süfrəni qonağa yaxın gətirək; qonaqdan soruşmayaq ki acdır, yoxsa tox; qonağı şəxsən qəbul edək; qonağın süfrəyə əli çatsın; ev sahibini narhat etməmək üçün qonaq açılmış süfrədən meyl etməlidir; öncə qəbul sonra söhbət; qonaqda bəd və xoş xəbər varsa, öncə xoş, sonra bəd xəbəri bəyan etsin (öncə övlad müjdəsi, sonra günahkarlara əzab xəbəri gəlir.

## Bildirişlər

1. İbrahim və onun qonaqlarının əhvalatı eşidiləsi və ibrətamizdir.
2. Xalqın hidayət və tərbiyəsində həm təmsil, həm də dastanlardan istifadə edək.
3. Qonaq qəbulu bir dəyərdir, qonağı əzizləmək İbrahim xasiyyətidir.
4. Daxil olarkən bir nəfər yox, hamı salam ersin.
5. Dərhal və görüşən kimi salam vermək lazımdır.
6. Sözü salamla başlamaq hətta mələklər arasında bir ədəbdir.
7. Salam verəni tanımasaq da onun salamını alaq.
8. Qonaq tanınmasa da əzizdir.
9. İbrahim peyğəmbərin elmi məhdud idi. (Qonaqları tanımadı)
10. Tanınmayan qonaqları da qəbul edək.
11. Mətbəx qonaqların gözü qarşısında olmamalıdır.
12. Yeməyin hazırlanmasında və qonağın qəbulundan ərlə arvad şərikdir.
13. Ev sahibi qonaqların qəbuluna və onların halına diqqətli olmalıdır.

14. Mələklər insan şəklində gəlsələr də yemək yeməzlər.

*Ayə 28:*

﴿ فَأَوْجَسَ مِنْهُمْ خِيفَةً قَالُوا لَا تَخَفْ وَبَشَّرُوهُ بِغُلَامٍ عَلِيمٍ﴾

**"İbrahim qonaqlara görə (onlar yemək yemediyi üçün) daxilində qorxu keçirdi. Onlar dedilər: "Qorxma (biz Allahın mələkləriyik)." Sonra onu bilikli bir oğlanla müjdələdilər."**

*Ayə 29:*

﴿ فَأَقْبَلَتِ امْرَأَتُهُ فِي صَرَّةٍ فَصَكَّتْ وَجْهَهَا وَقَالَتْ عَجُوزٌ عَقِيمٌ﴾

**"İbrahimin zövcəsi (övlad müjdəsini eşidib) fəryad çəkərək üzünə vurdu və dedi: "Qısır bir qarı (necə övlad sahibi olar)?!"**

*Ayə 30:*

﴿ قَالُوا كَذَلِكَ قَالَ رَبُّكِ إِنَّهُ هُوَ الْحَكِيمُ الْعَلِيمُ﴾

**"(Mələklər İbrahimə) Dedilər: "Sənin Rəbbin belə deyib. Əlbəttə o hikmət və elm sahibidir."**

### Nöqtələr

"Əvcəs" sözü bir həqiqəti daxilən hiss etmək mənasını bildirir. "Xəvf" sözündən olan "xifə" sözü qorxu mənasını ifadə edir. Sözün sonundakı tənvin qorxu növünə işarədir. Yəni İbrahimi bir qorxu bürüdü. "Sərrə" sözü ya fəryad, ya da qrup mənasını bildirir. "Səkkə" dedikdə möhkəm zərbə, sillə mənası başa düşülür. "Əcuz" sözü acizlik və qocalıq, "əqin" sözü qısırlıq mənasını ifadə edir.

Həzrət İbrahimin zövcəsi Sara sonsuz olduqğundan həzrət İbrahim Hacərlə evləndi. Amma Allah-taala Saranı qoca yaşında övladla müjdələdi. Bu iş ona ağır gəldiyindən ah-nalə çəkdi, qoca yaşında bu işin çətin olduğunu düşündü.

Bu ayələrdə həzrət İbrahim Saradan övladının olması bəyan edilir. "Ğulamin əlim" ifadəsi İshaqa işarədir. "Saffat" surəsinin 101-ci ayəsində "ğulamin həlim" ifadəsi ilə Hacərdən olacaq İsmaillə bağlı müjdə verilir.

Qorxu və nigarançılıq təbii bir hissdir və yalnız düşmən qarşısında, cəbhədə qorxu məzəmmət edilir. Təbii qorxu hissinin peyğəmbərlərdə olması onlar üçün eyb sayılmır.

### Bildirişlər

1. Qonağın yeməkdən çəkinməsi ev sahibini narahat etməlidir.
2. Peyğəmbərlər də bəşər nəslindəndir və başqaları kimi qorxu və nigarançılıq keçirirlər.
3. Əgər kiçik bir hərəkət başqalarında nigarançılıq yaradırsa, həmin nigarançılığı aradan qaldırmaq üçün tədbir görmək lazımdır.
4. Övladın kamalı onun elm və biliyindədir.
5. Peyğəmbərlər bəzən mələklər vasitəsi ilə gələcəkdən xəbər tuturdular.

6. Qadın həssas və duyğulu bir mövcuddur. Bu mövcud hər hansı təsirə dərhal reaksiya verir.

7. Kişi qadının təbii hislərini cilovlamamalıdır. (Həzrət İbrahim Saranın nigarançılığına etiraz etmədi.)

8. Allahın qüdrəti məhdud deyil. Sonsuz və qoca bir qadın dünyaya istedadlı övlad gətirə bilər.

9. Təbii amillərə Allahın iradəsi hakimdir.

10. Allahın ətaları elm və hikmətə əsaslanır. (Gənc yaşında İbrahimə övlad verməyən Allah qoca yaşında onu övladla müjdələyir.)

## *İYİRMİ YEDDİNCİ CÜZ*

*Ayə 31, 32, 33:*

﴿قَالَ فَمَا خَطْبُكُمْ أَيُّهَا الْمُرْسَلُونَ﴾ ﴿قَالُواْ إِنَّآ أُرْسِلْنَا إِلَى قَوْمٍ مُّجْرِمِينَ﴾ ﴿لِنُرْسِلَ عَلَيْهِمْ حِجَارَةً مِّن طِينٍ﴾

**"(İbrahim) Dedi: "Ey elçilər, sorağınca gəldiyiniz iş nədir?" Dedilər: "Biz zalım qövm üzərinə göndərilmişik ki, (onları həlak etmək üçün) başlarına gil daşlar yağdıraq."**

*Ayə 34, 35, 36:*

﴿مُسَوَّمَةً عِندَ رَبِّكَ لِلْمُسْرِفِينَ﴾ ﴿فَأَخْرَجْنَا مَن كَانَ فِيهَا مِنَ الْمُؤْمِنِينَ﴾ ﴿فَمَا وَجَدْنَا فِيهَا غَيْرَ بَيْتٍ مِّنَ الْمُسْلِمِينَ﴾

**"Onlar (daşalar) Rəbbinin yanında israfçılar üçün nişanlanmışdır. Aralarında olan möminləri oradan çıxardıq. Orada yalnız bir evdə müsəlman tapdıq."**

*Ayə 37:*

﴿وَتَرَكْنَا فِيهَا ءايَةً لِّلَّذِينَ يَخَافُونَ الْعَذَابَ الأَلِيمَ﴾

**"Orada ağrılı əzablardan qorxanlar üçün bir nişanə qoyduq."**

### Nöqtələr

"Xətb" dedikdə insanın tələsş gödtərdiyi mühüm iş nəzərdə tutulur. "Musəvvəmə" sözü əlamətli mənasını bildirir.

Həzrət İbrahimin ardıcıllarında olan həzrət Lut İordaniyanın Sədum məntəqəsində insanları doğru yola çağırırdı. Onun günahkar qövmü həmcinsbazlıqla məşğul idi. Onlar həzrət Lutu dinləmirdilər. Allah həmin məntəqəni alt-üst etdi. Bu qövmün əhvalatı "Əraf", "Hud", "Hicr" və "Ənkəbut" surələrində nəql olunur.

İşdə mərhələlər prinsipi gözlənilməlidir. Həzrət İbrahim öz dövrünün ülul-əzm peyğəmbəri idi. Bu səbəbdən də Lut qövmünü məhv etmək üçün gəlmiş mələklər öncə İbrahimlə görüşdülər. Onlar həzrət İbrahimə nə üçün gəldiklərini bildirib sonra həzrət Lutun yanına getdilər. Allahın daşqalaq əzabı Lut

qövmündən əlavə fil səhabələrinə də nazil oldu.[1] Fil səhabələri Allah evinə (Kəbəyə) hücum etmişdilər. Lut qövmü isə peyğəmbər evinə təcavüz etmək qəsdində idi. Onlar həzrət Lutun qonaqlarına göz dikmişdilər. Hər iki qövm məhv oldu.

Həzrət Luta yardım üçün mələklər əlamətli daşlarla gəldilər. Bədr savaşında İslam peyğəmbərinə (s) yardım üçün əlamətli mələklər nazil edildi.[2]

Təkcə İslam peyğəmbərinin (s) ümməti müsəlman adlanmır. Allaha təslim olan, səmavi dinə iatət edən hər bir kəs müsəlmandır.

**Bildirişlər**

1. Soruşmaq ayıb deyil, peyğəmbərlər də bilmədiklərini soruşurdular.
2. Günahkarlar təkcə axirətdə cəzalandırılmır.
3. Günahkarları cəzalandırmaq dünyada da mələklərin vəzifəsidir.
4. Allahın qəzəbinin və ya mərhəmətinin hesabı, nişanı var.
5. İman qurtuluş açarıdır.
6. Əgər məntəqədə bir nəfər olsun müsəlman varsa, ona diqqət yetirilməlidir.
7. Günahkar cəmiyyət günaha şərait yaratsa da, insanı zorla günaha batırmır. Günahkar məntəqədə sağlam ailə ola bilər.
8. Bəzən fəsad o qədər genişlənir ki, həzrət Lut kimi əziz peyğəmbəri təkcə bir ailə müdafiə edir. Hansı ki bu ailədə də zövcə başqa yol tutur.
9. Allahın həm nemətləri həm də qəzəbi dəlildir.
10. Acı hadisələrdən yalnız qiyamət əzabından qorxanlar ibrət götürür.
11. İlahi əzabdan qorxu bir dəyərdir.

***Ayə 38:***

**﴿وَفِي مُوسَى إِذْ أَرْسَلْنَاهُ إِلَى فِرْعَوْنَ بِسُلْطَانٍ مُّبِينٍ﴾**

**"Musada da (bir ibrət var), bir vaxt ki, onu açıq-aydın dəlillə Firona doğru göndərdik."**

***Ayə 39:***

**﴿فَتَوَلَّى بِرُكْنِهِ وَقَالَ سَاحِرٌ أَوْ مَجْنُونٌ﴾**

**"Firon malik olduğu qüdrət və qoşuna güvənərək üz çevirdi. O dedi: "O (Musa) ya cadugərdir, ya da cin vurmuşun biri."**

***Ayə 40:***

**﴿فَأَخَذْنَاهُ وَجُنُودَهُ فَنَبَذْنَاهُمْ فِي الْيَمِّ وَهُوَ مُلِيمٌ﴾**

**"Biz onu və qoşununu (əzabımızla) yaxaladıq. Bir halda ki, o məzəmmətə layiq idi."**

**Nöqtələr**

---

[1] "Fil", 3

[2] "Ali-İmran", 152

"Sultanin mubin" dedikdə aşkar dəlil nəzərdə tutulur. Bu dəlillə müxaliflərlə mübahisə etmək olar.

"Nəbz" dedikdə əhəmiyyətsiz bir şeyi atmaq mənası anlaşılır. "Məlim" sözü məzəmmət olunası şəxsə işarədir.

"Ruknə" dedikdə Fironun gücü, qoşunu, var-dövləti, keçmişi və təbliğatı nəzərdə tutulur. Firon öz gücünə arxalanaraq Musa ilə mübarizəyə başladı, onun dəvətinə boyun əymədi.

**Bildirişlər**

1. Peyğəmbərlərin tarixində ibrət çoxdur.
2. Cəmiyyətin islahı üçün ilkin qaynağa üz tutmaq lazımdır.
3. Güclü məntiq və aşkar möcüzə peyğəmbərlərin müxaliflər qarşısında silahıdır.
4. Azğınların hərbi, iqtisadi və ideoloji gücü onların haqqı eşitməsinə mane olur.
5. Azğınlar öz azğınlıqlarına don geyindirməyə çalışırlar. Onlar Allahın peyğəmbərinə sehrbaz və divanə kimi tanıtdırmaqla əməllərinə don geyindirirlər.
6. Yalnız xəbərdarlıq başa çatdıqdan sonra Allahın qəzəbi nazil olur.
7. Qoşun komandana kor-koranə tabe olmamalıdır. Allahın qəzəbi Fironun döyüşçülərini də yaxaldı.
8. Azğınlar, onların bütün qüdrəti Allaın qəzəbi qarşısında puçdur.
9. Azğınlar həm aşkarda həlak olur, həm də daxilən sarsılır.
10. Allahın qəzəbi bütün azğınları yaxalayır. Amma azğın başçılar xüsusi şəkildə qınanır.

*Ayə 41:*

﴿وَفِي عَادٍ إِذْ أَرْسَلْنَا عَلَيْهِمُ ٱلرِّيحَ ٱلْعَقِيمَ﴾

**"Ad qövmündə də onlara viranedici külək göndərdiyimiz vaxt (ibrət vardı)."**

*Ayə 42:*

﴿مَا تَذَرُ مِن شَيْءٍ أَتَتْ عَلَيْهِ إِلَّا جَعَلَتْهُ كَٱلرَّمِيمِ﴾

**"(Bu kulək) Üzərinə əsdiyi bir şeyi məhv etməmiş buraxmır."**

**Nöqtələr**

Həzrət Hud Ad qövmünün peyğəmbəri idi. O öz qövmünə nə qədər xəbərdarlıq etdisə də, etina göstərmədilər və əzab üçün zəmin yaratdılar.

Küləklər bəzən bərəkət gətirir, bəzən viran qoyur. "Ərrihəl-əqim", yəni viranedici kulək. Bu kulək Ad qövmü üçün əzab oldu. O o qədər yandırıcı və zəhərli idi ki, qarşısına çıxan heyvanları, ağacları, hər nəyi məhv edirdi.

"Rəmim" sözü çürümə, "tərmim" sözü çürümənin islahı mənasını bildirir.

Ad qövmü çox güclü və uca qamətli olsa da, Allahın qəzəbindən güc alan külək onları çürümüş sümüklər kimi dağıdıb uçurdu.

**Bildirişlər**

1. Külək və yağış kimi təbiət hadisələri, onların müsbət və mənfi təsirləri Allahın əlindədir.
2. Quraqlıq və qıtlıq kimi təbii bəlalar ilahi əzab ola bilər.
3. Su və kulək Allahın zalımlara qarşı çıxarılmış qoşunlarıdır.

***Ayə 43, 44:***

**﴿وَفِي ثَمُودَ إِذْ قِيلَ لَهُمْ تَمَتَّعُوا حَتَّى حِينٍ﴾ ﴿فَعَتَوْا عَنْ أَمْرِ رَبِّهِمْ فَأَخَذَتْهُمُ الصَّاعِقَةُ وَهُمْ يَنظُرُونَ﴾**

**"Səmud qövmündə (ibrtə nişanələri var). Onlara bir müddət bəhrələnin deyilən vaxt Rəbblərinin əmrindən çıxdılar. Gözləri baxa-baxa ildırım onları yaxaladı."**

***Ayə 45:***

**﴿فَمَا ٱسْتَطَاعُوا مِن قِيَامٍ وَمَا كَانُوا مُنتَصِرِينَ﴾**

**"Onların nə qalxmağa gücü vardı, nə də kimsədən yardım istəyə bildilər."**

***Ayə 46:***

**﴿وَقَوْمَ نُوحٍ مِّن قَبْلُ إِنَّهُمْ كَانُوا قَوْمًا فَاسِقِينَ﴾**

**"Onlardan öncə Nuh qövmünü (həlak etdik). Onlar fasiq bir qövm idilər."**

**Nöqtələr**

Həzrət Saleh Səmud qövmünün peyğəmbəri idi. O, qövmünün istəyi ilə dağın köksündən dəvə çıxardı və tapşırdı ki, həmin dəvəni qorusunlar. Amma onlar dəvəni öldürdülər, Salehi də təkzib etdilər.

"Hətta hinn" dedikdə Saleh qövmünə tövbə etmələri üçün verilmiş üç günlük möhlət nəzərdə tutulur. Amma onlar günahdan əl çəkmədilər və üç gün sonra ilahi əzab nazil oldu. Bu məsələ "Hud" surəsinin 65-ci ayəsində də yada salınır.

**Bildirişlər**

1. Günahkarlara möhlət verilməsi Allahın sünnəsi, qanunudur.
2. İlahi göstərişlər Allahın rübubiyyətindən qaynaqlanır və insanların tərbiyəsi üçündür.
3. İlahi hədləri aşmaq insanı məhvə aparır.
4. Su, külək və ildırım Allahın qəzəb vasitəsi ola bilər.

5. Əzabın gəlişini görmək və qaça bilməmək günahkarların zirvə həddində zillətini göstərir.

6. Keçmişdən ibrət götürməyənlər özləri başqaları üçün ibrət olur. (Ad qövmü özlərindən əvvəlki Nuh qömündən ibrət götürmədilər)

7. Nuh qövmünün başına gələnlər, onların Nuh tərəfindən min illik təbliğatdan sonra iman gətirməməsi peyğəmbər və müsəlmanlar üçün ibrətdir.

8. Fisqdən də pisi onu davam etdirməkdir.

9. Bəzən günah əhatəli və ümumi olur, əzabın nazil edilməsi üçün zəmin yaradır.

***Ayə 47, 48:***

**﴿وَالسَّمَآءَ بَنَيْنَاهَا بِأَيْدٍ وَإِنَّا لَمُوسِعُونَ﴾ ﴿وَٱلْأَرْضَ فَرَشْنَاهَا فَنِعْمَ الْمَاهِدُونَ﴾**

**"Səmanı vəsf olunmaz bir qüdrətlə ucaltdıq və biz artıranıq. Yeri döşədik. Nə gözəl döşəyənik."**

***Ayə 49:***

**﴿وَمِن كُلِّ شَيْءٍ خَلَقْنَا زَوْجَيْنِ لَعَلَّكُمْ تَذَكَّرُونَ﴾**

**"Hər şeydən cüt yaratdıq. Olsun ki, yada salıb öyüd götürəsiz."**

## Nöqtələr

"Əyd" sözü həm "yəd" sözünün cəm forması olub əllər mənasını, həm də məsdər kimi küc-qüvvə mənasını ifadə edə bilər. Quranda bu kökdən olub təsdiq mənasını bildirən müxtəlif sözlər işlədilmişdir.[1]

"Fərş" və "məhd" sözləri istirahət üçün bir döşəmək mənasını bildirir.

## Bildirişlər

1. Səma genişlənməkdədir və bu hərəkət davam edir.

2. Zövciyyət (cütlük) qanunu hər şeyə hakimdir. (Həyat zövciyyət qanunusayəsində davam edir.)

3. Quranda təbiət hadisələri ibrət üçün yada salınır.

***Ayə 50:***

**﴿فَفِرُّوا إِلَى اللَّهِ إِنِّي لَكُم مِّنْهُ نَذِيرٌ مُّبِينٌ﴾**

**"Allaha doğru qaçın. Həqiqətən, mən onun tərəfindən sizin üçün aşkar qorxudanam."**

***Ayə 51:***

**﴿وَلَا تَجْعَلُوا مَعَ اللَّهِ إِلَهًا آخَرَ إِنِّي لَكُم مِّنْهُ نَذِيرٌ مُّبِينٌ﴾**

**"Allahla yanaşı başqa məbud seçməyin. Mən onun tərəfindən sizin üçün aşkar qorxudanam."**

---

[1] "Ənfal", 62

## Nöqtələr

Bu iki ayədə "aşkar qorxudan" ifadəsi təkararlanmışdır. Başqa ayələrdə də "aşkar kitab",[1] "aşkar bəyan"[2] və "aşkar ərəbi"[3] təbirləri ilə rastlaşırıq. Bütün bu ifadələr Allahın buyuruqlarının və peyğəmbərlərin xəbərdarlıqlarının aydın və aydınladan olmasını göstərir.

Allaha doğru hərəkət zülmətdən nura, cəhalətdən elmə, iztirabdan aramlığa, xurafatdan haqqa, təfriqədən vəhdətə, şirkdən tövhidə, günahdan təqvaya doğru hərəkətdir. İmam Baqir (ə) Həcc səfərini Allaha doğru hərəkət nümunələrindən saymışdır.[4]

## Bildirişlər

1. Minlərlə maddi və mənəvi problemlərlə üzləşmiş, haqla batil arasında qalmış məhdud insanın möhkəm sığınacağa ehtiyacı var. Ən möhkəm sığınacaq isə Allahdır.

2. İnsanın Allaha doğru hərəkətdən savayı çıxış yolu yoxdur.

3. Varlıq aləminin mütaliəsi insanın diqqətini Allaha və Ona bəndəliyə yönəltməlidir.

4. Peyğəmbərlərin yolu aydın və şəffafdır.

5. Allahdan qeyrilərinə, biganələrə sığınmaq səmərəsizdir.

6. Peyğəmbərlərə xalqa xəbərdarlıq etmək, onları qorxutmaq əmr olunmuşdur.

*Ayə 52, 53:*

﴿كَذَلِكَ مَا أَتَى الَّذِينَ مِن قَبْلِهِم مِّن رَّسُولٍ إِلَّا قَالُوا سَاحِرٌ أَوْ مَجْنُونٌ﴾ ﴿أَتَوَاصَوْا بِهِ بَلْ هُمْ قَوْمٌ طَاغُونَ﴾

**"(Ey peyğəmbər, necə ki səni təkzib etdilər) Eləcə onlardan əvvəlkilər hansı peyğəmbər gəldisə ona dedilər: cadugər ya da cin vurmuşdur. (Muxaliflər tarix boyu) Bir-birlərinə sifariş etmişdilər (ki, peyğəmbərlərlə belə rəftar etsinlər)? Xeyir, onlar tüğyançı insanlardırlar."**

*Ayə 54:*

﴿فَتَوَلَّ عَنْهُمْ فَمَا أَنتَ بِمَلُومٍ﴾

**"Onlardan üz çevir və buna görə məzəmmət olunmazsan."**

*Ayə 55:*

﴿وَذَكِّرْ فَإِنَّ الذِّكْرَى تَنفَعُ الْمُؤْمِنِينَ﴾

---

[1] "Hicr", 1

[2] "Nəhl", 82

[3] "Şuəra", 195

[4] "Kafi", c. 4, s. 256

**"(İnsanlara) xatırlat, şübhəsiz, xatırlatma möminlər üçün faydalıdır."**

## Nöqtələr

52-ci ayə ötən ayələrə bir növ yekun vurur. Həzrət Peyğəmbərə (s) təsəlli verilir ki, Məkkə müşriklərindən öncəki qövmlər də öz peyğəmbərləri ilə belə rəftar ediblər.

Peyğəmbər (s) səhlənkarlığa yol vermədiyindən və xəbərdarlığı başa çatdırdığından onun inadkarlardan üz çevirib uzaqlaşması məzəmmət olunmur.

Ayələrdə həm tüğyançı kafirlərdən uzaqlaşmaq, həm də möminlərə xəbərdarlıq etmək tapşırılır. Beləcə nəzərə çatdırılır ki, xəbərdarlığa təkcə kafirlər ehtiyaclı deyil.

Xəbərdarıq edənin səmimiyyət və şövqü qarşı tərəfə daha üstün göstərir. Bu səbəbdən də Peyğəmbərə (s) əmr olunur ki, möminlərə daim xəbərdarlıq etsin. Eşitməkdə bilməkdə olmayan bir təsir var.

## Bildirişlər

1. Bütün peyğəmbərlərin müxalifləri olub və onlar böhtana məruz qalıblar. Müxaliflərin böhtanlarından qorxmayın.
2. Quran peyğəmbərlərin başqa insanlar kimi olduğunu nəzərə çatdırır.[1] Müxaliflər isə peyğəmbərləri cin vurmuş kimi tanıtdırmağa səy göstərirdilər.
3. Peyğəmbər müxalifləri tarix boyu elə danışıb rəftar etmişlər ki, sanki haqqa qarşı eyni mövqe tutmaqda razılaşmışlar. Bütün dönəmlərdə peyğəmbərlər sehrbazlıqda, divanəlikdə itdiham olunmuşlar.
4. İnsanları peyğəmbərlərə münasibətdə böhtana sövq edən onların ruhundakı tüğyandır.
5. İnsanın inadkar fərdlərə münasibətdə məsuliyyəti yoxdur.
6. Xəbərdarlıq başa çatdırıldıqdan sonra batil əhlindən üz çevirmək olar.
7. İşi yarımçıq saxlamaq pis olmaya da bilər.
8. Təbliğatçı öz dinləyicilərinin ruhiyyəsindən xəbərdar olmalıdır. Kiməsə xəbərdarlığı davam etdirmək, kimdənsə üz çevirmək lazım gəlir.
9. Əgər nəsihəti qəbul etmiriksə, öz imanımızdan şübhələnək. Çünki mömin nəsihəti qəbul edər.
10. İmanlı insan istənilən bir şəxsin nəsihətini qəbul edir.
11. Din təbliğatçıları həvəsdən düşməsinlər. Onların işi faydalıdır.
12. Möminlər də xəbərdarlığa ehtiyaclıdır.
13. Səmavi dini təlimlərin insan fitrətində kökü var. Peyğəmbərlərin vəzifəsi bəşəriyyətə onun fitrətini xatırlatmaqdır.

***Ayə 56, 57:***

**﴿وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ﴾ ﴿مَآ أُرِيدُ مِنْهُم مِّن رِّزْقٍ وَمَا أُرِيدُ أَن يُطْعِمُونِ﴾**

---

[1] "Kəhf", 110

**"Cin və insi yalnız mənə ibadət üçün yaratdım. Mən onlardan heç bir ruzi istəmirəm, istəmirəm ki, mənə təam versinlər."**

***Ayə 58:***

**﴿إِنَّ ٱللَّهَ هُوَ الرَّزَّاقُ ذُو الْقُوَّةِ الْمَتِينُ﴾**

**"Həqiqətən, Allahdır yenilməz qüvvəli ruzi verən."**

**Nöqtələr**

İmam Hüseyndən (ə) nəql olunmuş hədisdə oxuyuruq: "Allah insanları yalnız mərifət üçün yaratdı. Elə ki, Onu tanıdılar ibadət edərlər. Ona ibadət edən kəs Ondan qeyrisinə bəndəliyə ehtiyac duymur."[1]

Cin insandan öncə yaradılıb və vəzifələri var. Ayədə də insandan öncə cin yada salınır.

Quranda bütün yaranışın haqqa əsaslandığı və batil bir şey yaradılmadığı bildirilir.[2] Bütün yaranmışlar insanın bəhrələnməsi üçündür.[3] İnsan da ilahi bir məqsədlə yaradılmışdır. Bu məqsədə çatmaq üçün Allaha ibadət etmək lazımdır. Əlbəttə ibadət ümumi bir məna daşıyır. İlahi məqsədlə yerinə yetirilən hər bir iş ibadətdi.

Sual: Quranda insanın yaranış məqsədlərindən biri kimi onun sınağa çəkilməsi göstərilir. Həmin məqsəd hazırkı ayədəki məqsədlə bir araya sığırmı?

Cavab: Quran "Mulk" surəsinin 2-ci ayəsində bildirir ki, ölüm və həyat sizin sınağınız üçün yaradıldı. "Talaq" surəsinin 12-ci ayəsində isə insanın ilahi qüdrətdən xəbərdarlığı yaranış məqsədi kimi göstərilir.

Bütün bu ayələrdən belə bir nəticə çıxarmaq olar ki, insanın əsil yaranış məqsədi Allaha bəndəlikdir. Amma ibadət üçün allahı tanımaq lazımdır. İbadətdə qeyri-ilahi yolların boşlanılması və ilahi yolun tutulması insan üçün bir sınaqdır.

Sual: Əgər insan ibadət məqsədi ilə yaradılmışsa, nə üçün bu məqsəd tam şəkildə gerçəkləşmir?

Cavab: Allah-taala dəflərlə bildirir ki, məcburi şəkildə hamını itaətə şövq edə bilərdi. Amma Allah istəyir ki, bəşəriyyət düşünərək öz seçimi ilə ibadət etsin.

Sual: Allah öz bəndələrinin ibadətinə ehtiyaclıdırmı?

Cavab: Quranda təkrar-təkrar bildirilir ki, Allah təkcə insandan yox, bütün varlıq aləmindən ehtiyacsızdır. Əgər insana tövsiyə olunursa ki, evini üzü günaşə tiksin, bu o demək deyil ki, günəş bizim pəncərələrimizə ehtiyaclıdır. Əslində insan günəşin nuruna və enerjisinə möhtacdır. Bu ayədə də Allahın ehtiyacsız olduğu bildirilir.

Sual: Əgər Allah ruzi verəndirsə, nə üçün hamıya bərabər ruzi vermir?

Cavab: Ruzi vermək Allahın sifətlərindən biridir. Onun başqa bir sifəti hikmət sahibi olmasıdır. Ruzinin bərabər bölünməsi hikmətdən uzaqdır. İnsan öz təlaşları müqabilində ruzi əldə edir.

---

[1] "Təfsiri-nümunə"

[2] "Hicr", 85

[3] "Bəqərə", 29; "Casiyə", 13; "Naziat", 33

Quranda buyururlur ki, yerin ətəyindən qalxın və ruzi əldə edin.[1] Başqa bir ayədə oxuyuruq: "Allahın fəzlini soraqlayın, alış-veriş edin."[2] Müəllimin bütün şagirdlərə eyni qiymət verməsini ummayın. Allah həm də hikmət sahibidir. Çalışqan və diqqətli şagirdlər fərqləndirilməlidir.

Sual: Əgər Allah ruzi verəndirsə nə üçün qıtlıq olur?

Cavab: Bəzən qıtlıq bir cəza olur. Quranda Bəni-İsrailin cəzalandırılması ilə bağlı buyurulur ki, bəzi ruzilərin onlara haram edilməsinin səbəbi yol verdikləri zülm idi.[3] Qıtlıq bəzən sınaq olur. Quranda buyurulur ki, biz sizi aclıq, qorxu... yolu ilə sınayarıq.[4] Bəzən qıtlığın tərbiyəvi təsiri olur. Ayələrdə buyurulur ki, insanların Allaha doğru qayıdığı üçün onlara çətinliklərlə xəbərdarlıq edilir.[5]

Qıtlığın təbii səbəbləri də ola bilər. Meşələrin qırılması, su hövzələrinin çirkləndirilməsi, təbii tarazlığın pozulması cəmiyyət üçün qıtlıq kimi bir sıra çətinliklər yarada bilər.

Əgər əmin olsaq ki, ruzi Allah tərəfindəndir, bir çox hərisliklərin, tamahkarlıqların, hiyləgərliklərin, paxıllıqların, fırıldaqçılıqların, və ölçüdə-çəkidə aldatmaların kökünə balta çalınar.

## Bildirişlər

1. Həm cin, həm də insan vəzifəlidir.
2. Əsas məsələ bəşəriyyətin ibadəti və insanların ilahiləşməsidir. Allah ibadətə ehtiyaclı deyil.
3. İbadət üçün məbudu tanımaq şərtdir. Deməli, cin və ins haqqı tanımaq və bu yolda hərəkət üçün yaradılmışdır.
4. İnsan üçün unutqanlıq təhlükəsi var. Yaranış məqsədi ona daim xatırladılmalıdır.
5. Allah ehtiyacsızdır, ibadət cin və insanın öz xeyrinədir və onları inkişaf etdirir.
6. Ruzi verən bir kəsin bəndələrin ruzisinə nə ehtiyacı?!
7. Bütün imkanlar və məharətlər ruziyə çatmaq üçün bir vasitədir. Ruzini yetirən isə yalnız Allahdır.
8. Allahın ruzi verməkdə çətinliyi yoxdur.
9. Zaman ötdükcə Allahın ruzi vermək gücü azalmır.

*Ayə 59:*

﴿فَإِنَّ لِلَّذِينَ ظَلَمُوا ذَنُوبًا مِّثْلَ ذَنُوبِ أَصْحَابِهِمْ فَلَا يَسْتَعْجِلُونِ﴾

**"Həqiqətən, zülm edənlər üçün də həmməsləklərinin payı kimi (əzabdan) bir pay var. Eləsə, tələsməsinlər."**

*Ayə 60:*

[1] "Mulk", 15
[2] "Cumuə", 10
[3] "Nisa", 160
[4] "Bəqərə", 155
[5] "Ənam", 42

﴿فَوَيْلٌ لِّلَّذِينَ كَفَرُواْ مِن يَوْمِهِمُ الَّذِي يُوعَدُونَ﴾

**"Vəd olunmuş günə xatir vay halına küfr edənlərin."**

**Nöqtələr**

"Zənub" sözü pay, qismət mənasını bildirir.

Surə "Tuədunə" sözü ilə başladı, "yuədunə" sözü ilə başa çatır. Məlum olur ki, surənin əsas məqsədi məad mövzusunu açıqlamaq imiş.

Ayələrdə buyurulur ki, sitəmkarların öz sələfləri kimi əzab payı var. Onların sələfləri də məhv edildilər. Belə isə, nə üçün əzab payını almağa tələsirlər?![1]

Quran leksikonunda şirk və küfr ən böyük zülm sayılır. Allaha şərik qoşmaqla Ona zülm, insanın həqiqi məbudu qoyub məxluqlara üz tutması ilə özünə zülmü, haqqı tanımaqdan məhrum edilən ailəyə zülm bu qəbildəndir.

Əllamə Təbatəbai buyurur ki, 60-cı ayəyə əsasən 59-cu ayədə xalqa zülm yox, küfr zülmü nəzərdə tutulmuşdur.

Vəd olunmuş gün dedikdə Bədr savaşı günü də nəzərdə tutula bilər. Amma çox ehtimal ki, ayədə qiyamət günündən söhbət gedir.[2]

**Bildirişlər**

1. Allaha ibadət etməyən və yaranış məqsədindən yayınan insan zalım, bəlkə də kafirdir.
2. Allah sitəmkarlarla tarix boyu eyni sünnə əsasında rəftar etmişdir.
3. Keçmişdəkilərin tarixi sitəmkarların hökmən cəzalandırılacağına şahiddir.
4. Oxşar günahlara görə oxşar cəzalar nəzərdə tutulur.
5. Oxşar rəftarlar insanları bir-birinə bağlayır.
6. Allahın qəzəbi və lütfü üçün müəyyən zaman nəzərdə tutulur və bizim tələskənliyimizin səmərəsai yoxdur.
7. İnsanın taleti onun əməllərindən asılıdır. (Zülm və küfr əzaba səbəb olur.)
8. Gələcəyə baxış, uzaqgörənlik insanı küfr və zülmdən çəkindirir.

# "TUR" SURƏSİ

## *(52-Cİ SURƏ; 49 AYƏ)*

## *İYİRMİ YEDDİNCİ CÜZ*

## *"TUR" SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 49 ayədən ibarətdir. Surəyə onun birinci ayəsi ilə əlaqədar "Tur" adı verilmişdir.

---

[1] "Təfsiri-əl mizan"
[2] "Təfsiri-əl mizan"

"Tur" sözü Quranda on dəfə işlədilmişdir. "Tur" deyərkən Tur dağı, həzrət Musanın miqatı, Tövratın nazil olduğu yer nəzərdə tutulur.

Digər Məkkə surəılərində olduğu kimi bu surədə də daha çox qiyamətdən, pak insanlar mükafatlandırılacağından və kafirlərin cəzalandırılacağından danışılır. Surədə tövhid, peyğəmbərin müdafiəsi, səbir və sabitqədəmlik kimi məsələlərə də işarə olunmuşdur.

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

*Ayə 1, 2, 3:*

**﴿وَٱلطُّورِ﴾ ﴿وَكِتَابٍ مَّسْطُورٍ﴾ ﴿فِي رَقٍّ مَّنشُورٍ﴾**

**"And olsun Tura; o kitaba ki yazılmışdır açılmış səhifədə."**

*Ayə 4, 5, 6:*

**﴿وَالْبَيْتِ الْمَعْمُورِ﴾ ﴿وَالسَّقْفِ الْمَرْفُوعِ﴾ ﴿وَالْبَحْرِ الْمَسْجُورِ﴾**

**"And olsun o abad yerə (Beytul-Məmura); and olsun yüksəlmiş tavana; and olsun şölələnmiş dəryaya."**

*Ayə 7, 8:*

**﴿إِنَّ عَذَابَ رَبِّكَ لَوَاقِعٌ﴾ ﴿مَا لَهُ مِن دَافِعٍ﴾**

**"Rəbbinin əzabı hökmən gerçəkləşəsidir; heç nə onun qarşısını ala bilməz."**

**Nöqtələr**

"Tur" sözünün lüğət mənası dağdır. Amma belə görünür ki, hazırda Sina məntəqəsində Allahla həzrət Musanın ünsiyyətdə olduğu miqat, məhəl nəzərdə tutulmuşdur.

Tur dağı müqəddəs məkandır. Bu dağ Quranda vəsf olunur.[1]

"Kitabin-məstur" dedikdə Tövrat və Quran kimi səmavi kitablar nəzərdə tutulur. Bu kitablar nazik dəri üzərində yazılmışdı. Əlbəttə ki, bu səhifələr açıq vəziyyətdə idi.

"Riqqət" sözündən olan "rəqq" sözü yazı üçün hazırlanmış, nazik dəri mənasını bildirir. "Mənşur" sözü açılmış, "məşcur" sözü şölələnmiş mənasını bildirir.

"Beytul-məmur" Allahın evi nəzərdə tutulur. Bu ev ziyarətçilərin və hacıların hüzuru ilə abadlaşmışdır. Quranda Kəbə on dəfə "beyt" adı ilə yada salınır.[2]

Rəvayətlərdə bildirilir ki, səmada Kəbə müqabilində mələklərin təvaf etdiyi bir məhəl var və həmin məhəl də "beytul-məmur" adlanır.[3]

---

[1] "Məryəm", 52; "Taha", 12; "Qəsəs", 30

[2] "Həcc", 29

[3] "Təfsiri-nurus-səqəleyn"

"Əl bəhrul-məscur" deyərkən şöləlɘnən, aşıb-daşan dərya nəzərdə tutulmuşdur. Bu söz qiyamətdə kükrəyən dərya mənasını da ifadə edə bilər. "Təkvir" surəsinin 6-cı ayəsində də oxşar ifadə ilə rastlaşırıq. Ayədə vulkan ağzından püskürən od dəryası kimi qaynar torpağa işarə olunur.

Ötən surənin son ayəsində qiyamət vədindən danışıldı. Bu ayədə beş anddan sonra buyurulur ki, həmin vəd hökmən gerçəkləşəcək.

Bəli, vəhyin nazil olduğu cansız daş (Tur dağı) müqəddəsdir və ona and içilə bilər. Amma necə olur ki vəhhabilər vəhy mərkəzi olan qəlbə malik Peyğəmbərə (s) and içilməsini irad tutur, onun dünyadan getdikdən sonra başqa cansız varlıqlardan fərqlənmədiyini bildirirlər?!

Cahiliyyət dövründə kitab və ya yazıya and içilməsi yeni məktəbin öncüllüynü göstərir. "Qələm" surəsində də qələmə, kitaba, onun sətirlərinə and içilir.

**Bildirişlər**

1. Səmavi dinlərə aid müqəddəs məkanların unudulmaması və qorunması zəruridir.
2. Tur dağına and içməklə kitab əhlinin diqqətini cəlb edin.
3. Allah-taala insanı inandırmaq üçün şəriət və təbiət nizamına and içir.
4. İlahi vəhy ən üstün və lətif kağıza və ya dəriyə yazılmalı və təqdim edilməlidir.
5. Müqəddəs kitab daim oxunmalı, ondan istifadə olunmalıdır.
6. Faydalı və bərəkətli elm yazılmalı və yayılmalıdır.
7. Quran həm səmavi kitabı, həm onun nizamlı yazılış və yayılmasını müqəddəs sayır və and içir.
8. Evin abadlığı onun bər-bəzəyində və işıqlı olmasında yox, bu evə get-gəldədir. Belə bir ev müqəddəs və bərəkətlidir. (Allahın evi ən sadə evlərdəndir. Bununla belə o ən bərəkətli tikilidir.)
9. Təbiəti mütaliə etməklə Allahın qiyamət səhnəsini yaradacaq qüdrətinə əmin olaq.
10. Qurani-kərim insanın diqqətini müşahidə olunanlardan müşahidə olunmayanlara sövq edir.
11. Allahın qəzəbi və tənbehi onun rübubiyyətindən qaynaqlanır.
12. İnkarçıların inamsızlığı nə qədər güclü olarsa, möminlər də qiyamətə bir o qədər çox inanmalıdır.
13. Səmavi kitabların nazil olması və varlıq aləmində ilahi qüdrət cilvələrin zühuru insanları düşüncə və imana sövq etməlidir. Səmavi kitaba və ilahi qüdrət nişanələrinə diqqətsizlik əzaba səbəb olur.
14. İlahi əzaba düçar olanlar heç yolla onu özlərindən uzaqlaşdıra bilməzlər.

***Ayə 9, 10:***

﴿يَوْمَ تَمُورُ السَّمَاء مَوْرًا﴾﴿وَتَسِيرُ الْجِبَالُ سَيْرًا﴾

**“Bir gün ki, səma şiddətlə dolanar, dağlar yerindən qopar və sürətlə hərəkət edər.”**

*Ayə 11, 12:*

﴿فَوَيْلٌ يَوْمَئِذٍ لِلْمُكَذِّبِينَ﴾﴿الَّذِينَ هُمْ فِي خَوْضٍ يَلْعَبُونَ﴾

**“Həmin gün vay halına təkzib edənlərin! O kəslər ki batilə qərq olub (ilahi ayələr haqqında) iftiraya məşğul olarlar.”**

*Ayə 13, 14:*

﴿يَوْمَ يُدَعُّونَ إِلَى نَارِ جَهَنَّمَ دَعًّا﴾﴿هَذِهِ النَّارُ الَّتِي كُنتُم بِهَا تُكَذِّبُونَ﴾

**“Elə bir gün ki, Zorla oda doğru qovularlar. (Onlara deyilər) Bu daim təkzib etdiyiniz həmin oddur.”**

**Nöqtələr**

”Məvr” sözünün lüğət mənası sürətli və dairəvi hərəkətdir. Amma bu hərəkət nizamsızdır. Necə ki, külək toz-torpağı havaya səpələyir.

”Həvz” sözü əslində suya daxil olmaq, sudan keçmək mənasını bildirir. Amma adətən bu söz mənasız, batil söhbətlərə məşğul olmaq mənasında işlədilir.

”Dəə” dedikdə qəzəblə qovmaq mənası nəzərdə tutulur. Quran “Maun” surəsində yetimlərin rədd edilməsini dinin təkzib nişanələrindən sayır.

Bütün varlıq aləmi insan üçün yaradılmışdır. Elə ki, yer üzündə insanın əməl naməsi qapanır varlıq büsatı da başa çatır. Digər bir ayədə buyrulur ki, biz səma süfrəsini kağız kimi büküb yığarıq.[1]

Yalnız Allah sabit və dəyişməzdir. Yeddi qat göy də sarsılıb hərəkətli dalğalar şəklinə düşür. Yerin möhkəmlik səbəbi olan dağlar həmin gün sarsılır.

**Bildirişlər**

1. Qiyamət hadisələrinin təsviri insanların təkzib və inadkarlıqdan əl çəkməsi üçündür.
2. Qiyamətin bərpası üçün təkcə yer yox, bütün planetlər parçalanar.
3. Təkzib edənlərin heç bir əsası yoxdur. Onların təkziblərinin arxasında boş danışıqlar və iftiralar dayanır.
4. Hər bir insanın hansısa məqamda mənasız danışması mümkündür. Təhlükə ondadır ki, insan boş danışmağa və iftiralara adət etsin.
5. Kafirlərin Quranı gücdən salmaq istiqamətdəki təlaşları səmərəsizdir.
6. Peyğəmbərin müxalifləri həm cəhənnəmə sürüklənər, həm də məzəmmət olunar.
7. Qiyaməti təkzib etməklə həqiqəti pərdə arxasında saxlamaq olmaz.
8. Amansız təkzibin amansız cəzası var.
9. Davamlı və inadkarlıqdan doğan təkzibin cəzası yalnız oddur.

*Ayə 15:*

[1] “Ənbiya”, 104

﴿أَفَسِحْرٌ هَذَا أَمْ أَنتُمْ لَا تُبْصِرُونَ﴾

**“Bu (əzab da) cadudur? Siz onu görmürsünüz?”**

***Ayə 16:***

﴿اصْلَوْهَا فَاصْبِرُوا أَوْ لَا تَصْبِرُوا سَوَاءٌ عَلَيْكُمْ إِنَّمَا تُجْزَوْنَ مَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Ona daxil olun və yanın. Səbir edin, ya etməyin, sizin üçün birdir. Yalnız əməllərinizə görə cəzalanarsınız.”**

**Nöqtələr**

Müşriklər Peyğəmbəri (s) daim sehr-caduda itdiham edirdilər. Deyirdilər ki, öz işini möcüzə və vəhy kimi göstərmək üçün bizim ağlımızı oğurlayır, gözümüzə pərdə çəkir. Bu səbəbdən də qiyamət günü qınanarlar və onlara deyilər: “Bu da (bu əzab da) sehr- cadudur? Odu görmürsünüz, onun hərarətini hiss etmirsiniz?

**Bildirişlər**

1. Bəzən təkzib edənlər dünyada danışdıqları sözlə məzəmmət olunarlar. Dünyada deyirdilər ki, peyğəmbərlərin işi sehr-cadudur. Qiyamətdə eyni dillə sorğuya çəkilərlər.
2. Qiyamətdə insanın təkzib etdikləri ona göstərilər.
3. Təkzibin kökü düzgün baxışdan, bəsirətdən məhrumluqdur.
4. Ardıcıl təkzibin ardıcıl təhqirlə davamı var.
5. Yersiz itdihamlara, təhqirlərə qatılmanın cəzası cəhənnəmə atılmaqdır.
6. Bəziləri peyğəmbərlərə deyirdilər ki, bizə moizə edib-etməməyinizin fərqi yoxdur.[1] Qiyamətdə onlara bildirilər ki, səbir edib-etməməyinizin fərqi yoxdur.
7. Qiyamətin cəzaları ədalətlidir və yalnız insanın öz əməllərindən qaynaqlanır.

***Ayə 17:***

﴿إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَنَعِيمٍ﴾

**“Həqiqətən, təqvalılar bağlarda və bol nemət içindədirlər.”**

***Ayə 18:***

﴿فَاكِهِينَ بِمَآ ءَاتَاهُمْ رَبُّهُمْ وَوَقَاهُمْ رَبُّهُمْ عَذَابَ الْجَحِيمِ﴾

**“Rəbblərinin onlara verdiyinə görə şaddırlar və Rəbbləri onları cəhənnəm əzabından hifz etmişdir.”**

***Ayə 19:***

﴿كُلُوا وَاشْرَبُوا هَنِيئًا بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“(Onlara xitab olunar) Xeyir əməllərinizə görə ləzzətlə yeyin-için.”**

---

[1] “Şuəra”, 136

*Ayə 20:*

﴿مُتَّكِئِينَ عَلَى سُرُرٍ مَّصْفُوفَةٍ وَزَوَّجْنَاهُم بِحُورٍ عِينٍ﴾

**“Sıralanmış taxtlara söykənmiş halda; onları (gül üzlü, qara gözlü) hurilərlə evləndirərik.”**

**Nöqtələr**

”Həniən”, yəni sonradan əziyyəti olmayan, insana ləzzət verən şey. Bu nemətlər dünya nemətləri kimi deyil. Dünya nemətlərindən sonra, adətən, əzab-əziyyət, çətinlik gəlir.

”Hurin in” sözü “hur” və “in” sözlərindən yaranmışdır. Birinci söz qara göz, ikinci söz gözəl göz mənasını bildirir. Behişt zövcələrinin gözləri iri, qara və gözəldir.

Pak və saleh insanlarla ünsiyyət behişt ləzzətlərindən biridir. Quran dəfələrlə bu qəbil ünsiyyətləri yada salır. Sıralanmış taxtlar bu sayağı məclislərə işarədir.

Behişt və cəhənnəm əhlinin alacağı əvəzdən danışan 16 və 19-cu ayələr çox oxşardır. Onlar arasındsa zərif bir fərq var. Bu zərif nöqtə ondan ibarətdir ki, cəhənnəm əhlinə yalnız əməlləri həddində cəza vəd edilir, behişt əhli isə xeyir əməllərindən qat-qat artıq mükafatla müjdələnir.

**Bildirişlər**

1. Təqva behişt açarıdır.
2. Xeyir və bəd əməl sahiblərinin aqibət baxımından müqayisəsi haqq və batili tanımaq üçün ən yaxşı üsullardandır.
3. Behişt əhli üçün növbə növ bağlar və nemətlər var.
4. Bəzən insan ixtiyarında nemət olduğu halda müxtəlif səbəblərdən ondan bəhrələnə bilmir. Behiştdə isə bütün nemətlər insana ləzzət verir.
5. Nemətə ləzzət verən onun Allah tərəfindən lütf olunmasıdır. Söz-söhbətlə əldə olunan şeydə nə ləzzət!
6. Dünyada təqva vasitəsi ilə özünü qoruyanı qiyamətdə Allah cəhənnəm əzabından qoruyar.
7. Təqvalılar öz təqva və əməlləri ilə qürrələnməməlidirlər. Bütün nemətlər və qurtuluşlar Allah tərəfindəndir.
8. Azadlıq və ehtiram nemətin ləzzətini artırır. Behişt əhli üçün yemək-içməkdə məhdudiyyət yoxdur. Onlara “həniən” sözü ilə ehtiram göstərilir.
9. Əmin-amanlıq sayəsində daha çox ləzzət almaq mümkündür.
10. Dünya nemətləri özünəməxsus problemlərə malikdir. Onları əldə etmək, saxlamaq və istifadə etməyin çətinlikləri var. Axirət nemətləri isə heç bir problemsiz istifadə edilir.
11. Nemətlərdən istifadənin məmnunluqla müşayiət olunması kamil ləzzət üçün şərtdir.
12. Dünyada naməhrəmə göz yumanlar axirətdə gözəl zövcələrə sahib olar.

*Ayə 21:*

﴿وَالَّذِينَ ءَامَنُواْ وَاتَّبَعَتْهُمْ ذُرِّيَّتُهُم بِإِيمَانٍ أَلْحَقْنَا بِهِمْ ذُرِّيَّتَهُمْ وَمَا أَلَتْنَاهُم
مِّنْ عَمَلِهِم مِّن شَيْءٍ كُلُّ امْرِئٍ بِمَا كَسَبَ رَهِينٌ﴾

**“İman gətirən və övladları imanda onlara tabe olanların nəsillərini onlara qovuşduracağıq. Onların mükafatından heç nə azaltmarıq. (Bəli) Hər kəs qazandığının girovundadır.”**

***Ayə 22:***

﴿وَأَمْدَدْنَاهُم بِفَاكِهَةٍ وَلَحْمٍ مِّمَّا يَشْتَهُونَ﴾

**“Onlara durmadan istədikləri növdən meyvə və ət verərik.”**

## Nöqtələr

”Ələtna” sözü azaltma mənasını bildirir. Yəni övladların atalara qoşulması ataların mükafatını azaltmaz.

”Rəhin” sözü həm qrup, həm də yoldaş mənasını bildirir. Ayədə bildirilir ki, insan öz əməllərinə yoldaşdır.

İmam Sadiq (ə) 21-ci ayə haqqında buyurur: “Ayədə xeyir əməli atalarının xeyir əməlindən az olan övladlar nəzərdə tutulur. Amma Allah onları atalarına qovuşdurar ki, onların gözünə işıq olsunlar.[1]

Allah öncə imanlı insanların mömin övladlarını onlara qovuşdurar. Növbəti addımda nemətlər və imkanlar genişləndirilər.

Behişt meyvələrinin müəyyən səciyyələri var: bolluq;[2] zərərsiz olmaları;[3] cütlük;[4] daimilik;[5] icazəli olmaq;[6] hörmətlə qəbul;[7]

çeşidlilik;[8] digər nemətlərlə yanaşılıq;[9] seçimli olmaq;[10] asanlıqla əldə edilməli.[11] Behişt meyvələri çıxarsızdır, onların dadı dəyişmir və zəhmətsiz əldə olunurlar.

## Bildirişlər

1. İslamda mehvər ailə və qohum-əqraba yox, imandır.
2. Dünyada əcdadların haqq yoluna tabeçilik behiştdə onlara qatılmaqdır.
3. Nəsil və övladlarla birlikdə olmaq behişt ləzzətlərindəndir.
4. Axirətdə də övlad məhəbbəti var.

---

[1] “Kafi”, c. 3, s. 250
[2] “Zuxruf”, 73
[3] “Duxan”, 55
[4] “Ər-Rəhman”, 52;
[5] “Tur”, 22
[6] “Vaqeə”, 33
[7] “Saffat”, 42
[8] “Mursəlat”, 42
[9] “Tur”, 42
[10] “Vaqeə”, 20
[11] “Haqqə”, 23; “İnsan”, 14

5. Əgər dünya həyatında övladların varlığı məskən və ruzi baxımından çətinlik yaradırsa, behiştdə onlarla birlikdə olmağın heç bir sıxıntısı yoxdur.

6. Axirətdə nəsilin insanla birlikdə olması onun xeyir əməllərinin bəhrəsidir.

7. Qidalanmada meyvə ətdən önəmlidir.

8. Behiştdə də müxtəlif zövqlər və meyllər var. Hər kəsə onun istəyinə uyğun nemət verilər.

*Ayə 23:*

﴿يَتَنَازَعُونَ فِيهَا كَأْسًا لَّا لَغْوٌ فِيهَا وَلَا تَأْثِيمٌ﴾

**“Onlar behiştdə boş danışığa sövq etməyən və günah olmayan şərab dolu camı əldən-ələ ötürərlər.”**

*Ayə 24:*

﴿وَيَطُوفُ عَلَيْهِمْ غِلْمَانٌ لَّهُمْ كَأَنَّهُمْ لُؤْلُؤٌ مَّكْنُونٌ﴾

**“Ətraflarında (onlara xidmət üçün) sədəf içində mirvari kimi növcavanlar dolanar.”**

*Ayə 25:*

﴿وَأَقْبَلَ بَعْضُهُمْ عَلَى بَعْضٍ يَتَسَاءلُونَ﴾

**“Behişt əhlindən olan bəziləri bir-birlərinə üz tutub sual verərlər (bütün bu ləzzətlərin sirri nədədir?)”**

*Ayə 26:*

﴿قَالُوا إِنَّا كُنَّا قَبْلُ فِي أَهْلِنَا مُشْفِقِينَ﴾

**“Deyərlər: “Biz bundan öncə (dünyada) ailəmizə qarşı xeyirxah idik. (Onlara ilahi əzab barədə xəbərdarlıq edirdik.)”**

*Ayə 27:*

﴿فَمَنَّ اللَّهُ عَلَيْنَا وَوَقَانَا عَذَابَ السَّمُومِ﴾

**“Allah bizə minnət qoydu və bizi yandırıcı əzabdan qorudu.”**

*Ayə 28:*

﴿إِنَّا كُنَّا مِن قَبْلُ نَدْعُوهُ إِنَّهُ هُوَ الْبَرُّ الرَّحِيمُ﴾

**“Çünki biz bundan öncə daim Onu çağırardıq. Həqiqətən, Odur xeyir iş görən, mehriban.”**

**Nöqtələr**

Dolu qədəh (cam) “kəs”, boş qədəh “qədəh” adlanır. “Muşfiq” sözü “min” şəkilçisi ilə işlənərsə qorxu və nigarançılıq, “fi” şəkilçisi ilə işlənərsə diqqət və lütf mənasını bildirər.

”Yətənazəun” insanların zarafatla qədəhi bir-birlərinin əlindən alması nəzərdə tutulur. Bu hərəkət adətən toy günləri dostlar arasında müşahidə olunur.

Dünyada şərab insanın ağlını məhv edir, onu ədəbsizliyə sürükləyir. Bu şərab cinsi ehtirazı qızışdırır, insanı günaha sövq edir. Bu səbəbdən də Quran buyurur ki, behişt əhli bir-birlərinə qədəh təklif edərlər və bu qədəhlərdəki şərablar insanları ədəbsizliyə və günaha sövq etməz. Quran təbirincə, o pak bir şərabdır.[1]

Qurani-kərimdə "loloun məknun" ifadəsi iki yerdə işlədilmişdir: behişt zövcələri ilə bağlı[2] və behişt xidmətçiləri ilə bağlı.[3]

İsti və yandırıcı külək "səmum" adlanır. Səmum küləyi insan orqanizminə zəhər kimi təsir edir. Hədisdə buyurulur ki, əgər həmin küləkdən barmaq ucu qədəri yer əhlinin üzərinə əssə, yer və onda olan hər nə od tutub yanar.[4]

Həzrət Peyğəmbər (s) Əmirəl-möməninə (ə) buyurur: "Behişt əhlinə xidmət edən gözəl növcavanlar kafirlərin və müşriklərin övladlarıdır. Onlar nə cəhənnəmə aparası günaha yol vermiş, nə də behişt nemətlərinə çatdırası yaxşı iş görmüşlər. Onlar behiştə xidmətçi kimi gətirilər."[5]

## Bildirişlər

1. Yalnız bihudəlikdən və günahdan uzaq əyləncəyə icazə verilir.
2. Behişt çaylarında süd, bal, şərab və su axsada, bütün bunlar behişt əhlinə xüsusi qablarda təqdim olunur. Çünki münasib qab içkinin ləzzətini daha da artırır.
3. Dünya şərablarında bihudəlik və günaha yol var. Behiştdə isə mənasız və günah iş yoxdur.
4. Mənasız və günah olmayan bütün hərəkətlər caizdir.
5. Behişt xidmətçiləri gələnlərin başına pərvanə tək dolanar, məhəbbət göstərərlər.
6. Behişt xidmətçiləri xüsusi xidmətçilərdir.
7. Behiştdə istiqbala çıxanların gözəlliyi də bir nemətdir.
8. Gözəl və dəyərli şeylər üçün xüsusi örtük də bir dəyərdir.
9. Behişt əhlinin bir-biri ilə söhbəti behişt ləzzətlərindəndir.
10. Behiştin açarını dünyada axtarmaq lazımdır.
11. Canıyananlıq və qayğı behiştin açarıdır.
12. İnsan öz ailəsinə münasibətdə diqqətli, məsuliyyətli və canıyanan olmalıdır.
13. Behişt əhli behişti öz qazancı yox, Allahın hədiyyəsi sayır.
14. İnsan xeyir və mərhəmətin ilkin mənbəyini soraqlamalıdır.
15. Xeyir və mərhəmətin Allahadan savayı başlanğıcı yoxdur.
16. Allahın yaxşılıqları Onun mərhəmətindən qaynaqlanır. (Allah mənfəət, vicdan rahatlığı və ya başqalarının diqqətini cəlb etmək üçün yaxşılıq etmir.)
17. Təqvalıların behiştə yol tapması və əzabdan qurtuluşu Allahın yaxşılıq və mərhəmət cilvəsidir.

---

[1] "İnsan", 21
[2] "Vaqeə", 23
[3] "Tur", 24
[4] "Təfsiri-dürrül-mənsur"
[5] "Bihar", c. 5, s. 291

*Ayə 29:*

**﴿فَذَكِّرْ فَمَا أَنتَ بِنِعْمَتِ رَبِّكَ بِكَاهِنٍ وَلَا مَجْنُونٍ﴾**

**“(İnsanlara) Xatırlat ki, Rəbbinin lütfü ilə sən nə kahin, nə də divanəsən.”**

*Ayə 30:*

**﴿أَمْ يَقُولُونَ شَاعِرٌ نَّتَرَبَّصُ بِهِ رَيْبَ الْمَنُونِ﴾**

**“Deyirlər ki, o (peyğəmbər) ağır ölümünü gözlədiyimiz bir şairdir.”**

*Ayə 31:*

**﴿قُلْ تَرَبَّصُوا فَإِنِّي مَعَكُم مِّنَ الْمُتَرَبِّصِينَ﴾**

**“(Onlara) De ki, gözləyin, mən də sizinlə birlikdə gözləyirəm. (Siz mənim ölümümü gözləyin, mən də sizin məğlubiyyətinizi gözləyirəm)”**

## Nöqtələr

Kahin dedikdə cinlərlə əlaqəyə girib bəzi qeybi məlumatları əldən edən kəs nəzərdə tutulur. “Rəybəl-mənun” ifadəsi kiminsə ölümü ilə nəticələnən acı hadisə mənasını bildirir.

Müşriklər Peyğəmbəri divanə adlandırarkən onun ağılsız olduğunu nəzərdə tutmurdular. Çünki Peyğəmbər (s) həm də kahinlikdə və şairlikdə itdiham olunurdu. Hansı ki kahinlər və şairlər düşüncəli insanlar olur. Müşriklər divanə deyərkən cinvurmuş mənasını nəzərdə tuturdular. Onlar düşünürdülər ki, kahinlər və şairlər cinlərlə əlaqəyə girib gələcəkdən xəbər tutur, şeir yazırlar. Adi insanlar cinlərlə əlaqədə olmadıqlarından bu qəbil istedadlara malik olmur. “Saffat” surəsinin 36-cı ayəsində şair və divanə sözlərinin yanaşı işlənməsi deyilənləri təsdiqləyir.

## Bildirişlər

1. Kafirlərin yersiz itdihamlarından qorxmamaq və insanlara xəbərdarlıqla bağlı vəzifəni yerinə yetirmək lazımdır.
2. Allah öz övliyalarını sığortalayır və onları müdafiə edir.
3. Din təbliğatçısı istənilən bir böhtana tuş gələ bilər.
4. İstənilən bir eyb və nöqsan Allahın lütüf və neməti sayəsindən insandan uzaq olur.
5. Kahin və gələcəkdən xəbər verənlər Allahın mərhəmətindən uzaqdır.
6. Düşmən bir böhtanla kifayətlənmir.
7. Düşmən din başçılarının ölümü intizarındadır. Onların bu qəbil ümidlərini puça çıxarmaq lazımdır.
8. Dini rəhbər düşmənlərin böhtanları səbəbindən meydanı boş qoymamalıdır.

9. Möminlərin də düşmənlər kimi qələbəyə çatmaq üçün ümid və proqramı olmalıdır.

*Ayə 32:*

﴿أَمْ تَأْمُرُهُمْ أَحْلَامُهُم بِهَذَا أَمْ هُمْ قَوْمٌ طَاغُونَ﴾

**“Bunu (peyğəmbərə böhtan atmağı) ağılları onlara əmr edir, yoxsa azğın bir qövmdürlər?!”**

*Ayə 33:*

﴿أَمْ يَقُولُونَ تَقَوَّلَهُ بَل لَّا يُؤْمِنُونَ﴾

**“Yoxsa deyirlər ki, peyğəmbər (Quranı özündən uydurub) Allaha aid edir? (Belə deyil) Əslində onlar iman gətirmirlər.”**

*Ayə 34:*

﴿فَلْيَأْتُوا بِحَدِيثٍ مِّثْلِهِ إِن كَانُوا صَادِقِينَ﴾

**“Əgər doğru danışırlarsa, Quran kimi bir söz gətirsinlər.”**

**Nöqtələr**

Bu və bundan sonrakı neçə ayədə Allah-taala Peyğəmbər (s) müxaliflərinə on dörd məzəmmətedici sual ünvanlayır. Bununla da kafirlərin bütün bəhanələri kəsilir. Olsun ki, yalnız bu ayələrdə müxaliflər ən güclü tənqid atəşinə tutulmuşdur.

”Əhlam” sözü əqil mənasını bildirən “hilm” sözünün cəm formasıdır. Qüreyş başçıları özlərini düşüncə sahibi saydıqlarından Quran onlar haqqında buyurur ki, Quranın sehr-cadu olmasını ağılları onlara hökm edir, yoxsa haqq qarşısnda asilik göstərirlər?

“Təqəvvəlu” dedikdə bir söz uydurub onu başqasının adına yazmaq nəzərdə tutulur.

”Hədis” sözü yeni mənasını bildirir. Quranın məzmunu yeni bir şey olduğundan o “hədis” kimi yad edilir.

Allah-taala kafirləri dəfələrlə mübarizəyə çağırmışdır: bəzən onlardan istənilir ki, Quranın mislini göstərsinlər;[1] bəzən tələb yüngülləşdirilir və Quran surələri kimi on surə göstərilməsi təklif olunur;[2] bəzən isə Quran surəsi kimi bir surə göstərilməsi tələb edilir.[3] 34-cü ayədə hətta Quran həqiqətləri kimi bir həqiqət göstərilməsi kafi sayılır.

**Bildirişlər**

1. Kafirlər və müşriklər Quran ayələrini araşdırmadan Peyğəmbəri (s) sehrbaz, kahin, şair və divanə adlandırırdılar.

---

[1] “Qəsəs”, 49
[2] “Hud”, 13
[3] “Bəqərə”, 23

2. Küfr və şirkin kökü ağıl yox, haqq qarşısında asilikdir.
3. Məntiqi danışmayan və dediyindən əl çəkməyən hər bir şəxs azğındır.
4. Müşriklər böhtan və iftira ilə öz küfrlərinə don geyindirirdilər.
5. İnsan ya ağıl, ya da vəhy əsasında hərəkət etməlidir. Kafirlər nə ağıla, nə də vəhyə əsaslanırdılar.
6. Başınıza böhtanlar yağdırılarkən məntiq və dəlillərdən əl çəkməyin, müxalifləri Quran mislində bir söz deməyə çağırın.
7. Ən möhkəm dəlillər Qurandadır. Əgər Peyğəmbər (s) təkbaşına belə bir kitab uydurmuşsa, qoy müxaliflər əl-ələ verib onun oxşarını yaratsınlar.
8. Mədəniyyət meydanında da mübarizəyə çağırış lazımdır.

***Ayə 35:***

﴾أَمْ خُلِقُوا مِنْ غَيْرِ شَيْءٍ أَمْ هُمُ الْخَالِقُونَ﴿

**“Heçnədən yaradılıblar, yoxsa özləri özlərinin yaradanıdırlar?!”**

***Ayə 36:***

﴾أَمْ خَلَقُوا ٱلسَّمَاوَاتِ وَالْأَرْضَ بَل لَّا يُوقِنُونَ﴿

**“Yoxsa göyləri və yeri yaradıblar?! Yox, (həqiqət budur ki) əminlikləri yoxdur.”**

## Nöqtələr

İnsan müxtəlif itdihamlara görə öz təbliğindən əl çəkməməlidir. Ötən ayələrdə İslam peyğəmbərinə (s) ünvanlanmış böhtanlardan danışıldı. Bu ayələrdə isə Allah-taala müəyyən suallar ünvanlamaqla müxaliflərin yatmış vicdanını oyatmaq istəyir.

Quran ən ciddi fəlsəfi mövzunu ən sadə formada təqdim edir. Bu şərif ayədə iki ehtimal irəli sürülür: insanın məqsədsiz yaradılması və onun özünün özünü yaratması. Hər iki ehtimal ağıl baxımından mümkünsüzdür. Çünki insan özü bir hadisədir. Hər bir hadisənin səbəbə ehtiyacı var. Olmayan insan özü özünü necə yarada bilər?!

Müşriklər bilirdilər ki, onların, göylərin və yerin yaradanı Allahdır. Quran bu nöqtəni dəfələrlə vurğulayır. Bildirilir ki, müşriklərdən göylərin və yerin Rəbbi kimdir soruşulsa deyərlər: “Allah.” Ünvanlanmış suallarda əsas məqsəd budur ki, nə üçün müxaliflər onların doğru yola gəlişi üçün göndərilənə inanmır, itaətsizlik göstərirlər.

## Bildirişlər

1. İnsanların düşüncəsinə suallar ünvanlanması Quranın allahşünaslıq mövzusunda istifadə etdiyi üsuldur.
2. Var olmayan insan özünü necə yarada bilər? Yox əgər olubsa, olmuş şey yenidən necə ola bilər?

3. Elə sual verin ki, qarşı tərəf öz vicdanında sizin məntiqi cavabınızı hiss etsin.

4. İnsan nə özünü, nə də başqasını yaradıb.

5. İnsanda inadkarlıq bir həddə çata bilər ki, məntiqi baxımdan çıxılmaz vəziyyətə düşsə də təslim olmaz.

***Ayə 37:***

﴿أَمْ عِندَهُمْ خَزَائِنُ رَبِّكَ أَمْ هُمُ الْمُصَيْطِرُونَ﴾

**“Rəbbinin xəzinələri onların əlindədir, yoxsa (bu aləm üzərində) hökmləri var?!”**

***Ayə 38:***

﴿أَمْ لَهُمْ سُلَّمٌ يَسْتَمِعُونَ فِيهِ فَلْيَأْتِ مُسْتَمِعُهُم بِسُلْطَانٍ مُّبِينٍ﴾

**“Nərdivanları var ki, onun vasitəsi ilə (səmaların sirrini) eşitsinlər? (Əgər beləsə) Onlardan eşidən kəs aydın dəlil göstərsin.”**

***Ayə 39:***

﴿أَمْ لَهُ الْبَنَاتُ وَلَكُمُ الْبَنُونَ﴾

**“Allaha qızlar, sizə isə oğlanlar düşür (bununla özünüzü üstün tutursunuz)?”**

**Nöqtələr**

Müşriklər Allahın yaradıcılığını qəbul edirdilər. Onlar sadəcə varlıq aləminə müdiriyyəti Allahın işi saymırdılar. Bu səbəbdən də Peyğəmbərə (s) tabe olmurdular. Hazırkı ayələrdə müxaliflər suallar vasitəsi ilə məzəmmət olunur. Onlardan soruşulur ki, nə üçün Peyğəmbəri dinləmirsiniz, Allahın sərvət və qüdrəti sizin əlinizdədir; yoxsa səmaya yol tapmısınız və bir başa vəhyi dinləyirsiniz?

Cahiliyyət dövründə oğlan övlad baş ucalığı, qız isə əskiklik sayılırdı. Ayədə həmin baxışa işarə ilə soruşulur ki, nə üçün özünüzə rəva bilmədiyinizi Allaha aid edirsiniz?!

**Bildirişlər**

1. Düşməni məntiq vasitəsi ilə tərki silah etmək lazımdır. Bu səbəbdən də Quran onlara suallar ünvanlayır, asiliklərinin səbəbini soruşur.

2. İnsan məntiqi sözü istənilən şəxsdən qəbul etməlidir. Əgər müxaliflər də məntiqli bir söz deyərsə, biz onu qəbul etməyə hazır olaq.

3. Peyğəmbərin (s) nəzərinə çatdırırlar ki, ona böhtan atanlar bir vaxt Allaha da böhtan atıblar və narahat olmağa dəyməz.

***Ayə 40:***

﴿أَمْ تَسْأَلُهُمْ أَجْرًا فَهُم مِّن مَّغْرَمٍ مُّثْقَلُونَ﴾

**“Yoxsa onlardan ödənməsi ağır olan muzd istəyirsən?”**

*Ayə 41:*

**﴿أَمْ عِندَهُمُ الْغَيْبُ فَهُمْ يَكْتُبُونَ﴾**

**“Qeyb onlara məxsusdur, onlar (lövhi-məhfuza) yazırlar?”**

*Ayə 42:*

**﴿أَمْ يُرِيدُونَ كَيْدًا فَالَّذِينَ كَفَرُوا هُمُ الْمَكِيدُونَ﴾**

**“Bəlkə (haqqı aradan qaldırmaq üçün) hiylə qururlar? (Bilsinlər ki) Kafirlər özləri hiyləyə düçar olacaqlar.”**

*Ayə 43:*

**﴿أَمْ لَهُمْ إِلَهٌ غَيْرُ اللَّهِ سُبْحَانَ اللَّهِ عَمَّا يُشْرِكُونَ﴾**

**“Bəlkə Allahdan savayı bir məbudları var? Allah Ona şərik qoşulanlardan pakdır.”**

### Nöqtələr

”Məğrəm” dedikdə heç bir səbəbsiz insanın sorağına gələn maddi zərər nəzərdə tutulur. “Musqəl” sözü ağrı-acıya, ağır yükə dözmək mənasını bildirir.

Allahın qüdrətinə şərik olacaq kəs yoxdur: Xəzinələr Onundur;[1] Yaratmaq Ondandır;[2] Qeyb elmi Ona məxsusudur;[3] Hökm Onundur;[4]

Bəzi suallarınıza cavab gözləməyin. Elə suallar var ki, cavab üçün ünvanlanmır, insanın məqsədini çatdırır. Hazırkı ayələrdə Allah müxtəlif suallar cavablayır, cavab gözləmir. Çünki bu suallarda məqsəd müxaliflərin vicdanını oyatmaqdır.

Unutmamalıyıq ki, xüms və zəkat kimi dini ödənclər peyğəmbərlik müqabilində muzd deyil. Bu ödənclər cəmiyyətin ehtiyaclarının ödənməsi, ictimai ədalətin bərqərar olması üçündür.

### Bildirişlər

1. Peyğəmbərlərin xalqdan maddi umacağı olmayıb.
2. İnsanlar din təbliğatçısının öz işinə görə əvəz istəməsinə dözümsüzdür. Təbliğ proqramında bu nöqtəni nəzərə almaq lazımdır.
3. İnsanları haqqa çağırarkən onlar üçün sıxıntı yaradacaq maddi tələblərdən çəkinin.
4. İnsanların eşq və məhəbbətlə təqdim etdiyi könüllü yardımlardan istifadə etmək olar. Bir daha qeyd edək ki, insanlardan nə isə tələb etmək bəyənilmir.

---

[1] “Munafiqun”, 7
[2] “Zumər”, 62
[3] “Hud”, 123
[4] “Maidə”, 17

5. Peyğəmbər (s) müxaliflərinin nə elmi nə də əqli dəlili var. Onlar qeyb aləmindən də xəbərsizdirlər.

6. Doğru yola çağırış üsullarından biri sual-cavab üsuludur. Quranda necə soruşmaq qaydası bəyan olunur.

7. Düşmənlərin hiylələri müvəqqəti xarakter daşımır, daimidir.

8. Hiylənin acısını hiyləgərlər özü dadır.

9. Suallarımızı və məqsədlərimizi tənzimləyək.

***Ayə 44:***

﴿وَإِن يَرَوْا كِسْفًا مِّنَ السَّمَاء سَاقِطًا يَقُولُوا سَحَابٌ مَّرْكُومٌ﴾

**“(Onlar o qədər inadkardırlar ki, hətta) Səmanın bir parçasının yerə uçulduğunu görsələr (yenə iman gətirməzlər) deyərlər: “Bu bir bulud topasıdır (Allahın qəzəbi yox!).”**

***Ayə 45:***

﴿فَذَرْهُمْ حَتَّى يُلَاقُوا يَوْمَهُمُ الَّذِي فِيهِ يُصْعَقُونَ﴾

**“Beləsə onları ildırıma (Allahın qəzəbinə) düçar olacaqları günədək azad burax.”**

***Ayə 46:***

﴿يَوْمَ لَا يُغْنِي عَنْهُمْ كَيْدُهُمْ شَيْئًا وَلَا هُمْ يُنصَرُونَ﴾

**“Elə bir gün ki, hiylə və qurğuları onlara heç bir fayda verməz, heç bir kömək görməzlər.”**

**Nöqtələr**

”Kisf” sözü bir parça mənasını bildirir. Uyğun söz ayədə Allahın qəzəbi ünvanında səmadan enən daş parçasına işarədir. “Mərkum” dedikdə cəmələşmiş, “Yusəqun” dedikdə əzab ildırımı təsirindən yaranan fəlakət nəzərdə tutulur.

İnadkar insanlar hər an bir bəhanə gətirir. Onlar həzrət Peyğəmbərdən (s) səmanın bir parçasının enməsini istəyirdilər.[1] Əgər istəkləri həyata keçsə deyərlər ki, bu bir bulud topasıdır.

Yaxşılığa əmr və pisliyə qadağanın mərhələləri və məhdudiyyətləri var. 29-cu ayədə bildirildi ki, xalqa xəbərdarlıq et. Burada isə onların özbaşına buraxılması tapşırılır. Çünki onların doğru yola gələcəyinə ümid itmişdir.

İnsanların doğru yola gec gəlişi bizi yormamalıdır. Quran 14 sual ünvanladıqdan və bütün bəhanələr aradan qaldırıldıqdan sonra qarşı tərəfdən üz çevirməyi əmr edir.

**Bildirişlər**

---

[1] “Şuəra”, 187

1. İnadkarlıq insanı sağlam düşncədən məhrum edir. İnadkar insan öz təhlillərində yanılır.

2. Göz qabağında olanları da inkar edən insanın doğru yola gələcəyinə ümid yoxdur.

3. Bəziləri doğru yola çağırışa layiq deyil.

4. Allahın lütfü o qədər böyükdür ki, hətta üz çeviriləsi adama xəbərdarlığı zəruri sayır.

5. Küfr və inadkarlıq bədbəxtliyə aparır.

6. Müxaliflərə münasibətdə tələskənlik Allahın sünnəsindən kənardır.

7. Allahın qəzəbi nazil olan vaxt günahkarlar üçün fürsət qalmır və onlar ağrı-acını qəbul etməyə məcburdurlar.

8. Allahın qəzəb günü nə daxildəki hiylələrin, nə də çöldən yardımların faydası var.

*Ayə 47:*

﴿وَإِنَّ لِلَّذِينَ ظَلَمُوا عَذَابًا دُونَ ذَٰلِكَ وَلَٰكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ﴾

**“Əlbəttə, zülm edənlər üçün bundan (dünya və bərzəx əzabından) başqa əzab var. Amma onların əksəri bilməz.”**

**Nöqtələr**

Ötən ayələrə və hazırkı ayələrə nəzər saldıqda görürük ki, peyğəmbərlərin dəvətinin qəbul olunmaması zülmdür. Nəzərdə tutula bilər ki, kafirlər iki qrupdur: yalnız küfrə uğrayanlar və küfr etməklə yanaşı zülmə əl atanlar. İkinci qrupun əzabı daha ağırdır.

”Təfsiri-Qummidə” yazılır ki, bundan başqa əzab dedikdə rəcət dövrünün əzabı nəzərdə tutulur. Həmin əzab Məhəmməd (s) əhli-beytinə (ə) zülm edənləri yaxalayasıdır.

**Bildirişlər**

1. Sitəmkarlar üçün həm qiyamətdə, həm də dünyada əzab var.

2. Zalımlar bu dünyadakı acı aqibətlərindən qəflətdədirlər.

*Ayə 48:*

﴿وَٱصْبِرْ لِحُكْمِ رَبِّكَ فَإِنَّكَ بِأَعْيُنِنَا وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ حِينَ تَقُومُ﴾

**“Rəbbinin əmrini yerinə yetirmək üçün dözümlü ol. Sən bizim nəzərimizdəsən (himayəmizdəsən) və (yuxudan) qalxdığın vaxt Rəbbinə sitayiş edib Onu paklığı ilə yad et.”**

*Ayə 49:*

﴿وَمِنَ ٱللَّيْلِ فَسَبِّحْهُ وَإِدْبَارَ النُّجُومِ﴾

**“Gecənin bir vaxtı, ulduzlar gözdən itən vaxt Allaha təsbih de.”**

### Nöqtələr

Surə Allahla minacat yerinə andla başladı. Onun eyni qaydada başa çatdığını görürük.

İnsanların bütün əməl və düşüncələri Allahın nəzarəti Altında olsa da, O öz övliyalarına xüsusi diqqət yetirir. Məsələn, Nuha buyurur ki, sənin gəmi düzəltməyin bizim nəzarətimiz altındadır. İslam peyğəmbərinə (s) bildirilir ki, sənin bütün varlığın bizim nəzarətimizdədir.

Allahın təsbihi (Onun pak sayılması) Ona sitayişdən öndə gəlir. Öncə Onu pak bilmək, sonra sitayiş etmək lazımdır.

Təsbih sitayişdən mühümdür. Allah iki dəfə təsbih, bir dəfə sitayiş göstərişi verir.

”İdbarən-nucum” dedikdə ulduzların sübh işığında itdiyi fəcr tülusu nəzərdə tutulur. Təfsirçilər gecənin bir vaxtı ifadəsinin erkən sübh gecə namazına işarə olduğunu bildirmişlər. Hədisdə oxuyuruq ki, ulduzlar itən vaxtı ifadəsi sübh namazından öncə yerinə yetirilən iki rəkət nafilə namazına işarədir.[1]

### Bildirişlər

1. İnadkar insanlar qarşısında səbirli və müqavimətli olmaq lazımdır. Bəli, dini təbliğatda təkziblər və əzab-əziyyətlər qarşısında səbir və hövsələli olmaq lazımdır.
2. Allah əmrinin yerinə yetirilməsi yolunda səbir bir dəyərdir. Doğru yoldan kənarda istənilən bir yubanma inadkarlıqdır və nöqsan sayılır.
3. Allahın əmrləri insanların tərbiyə və təkamülü üçündür.
4. Peyğəmbər də Allahın himayəsinə ehtiyaclıdır.
5. İnsanın özünü Allahın nəzarəti altında bilməsi onu səbirli edir.
6. Allah zikri, Ona sitayiş və Onun təsbihi səbir və dözüm səbəbidir.
7. Gecə minacatları insanı gündüz fəaliyyətlərə hazırlayır.
8. Nəzərdə tutulmuş xüsusi vaxtlarda dua və yalvarış daha təsirlidir.

# “NƏCM” SURƏSİ

## *(53-CÜ SURƏ; 62 AYƏ)*

## *İYİRMİ YEDDİNCİ CÜZ*

### *“NƏCM” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 62 ayədən ibarətdir. “Nəcm” surəsi vacib səcdəsi olan surələrdəndir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. İlk ayədə Allah-taala ulduza (nəcm) and içir.

[1] “Kafi”, c. 3, s. 444

Surədə vəhy yeri, vəhyin Peyğəmbərin qəlbinə nazil olma qaydasına işarə olunur. “İsra” surəsində olduğu kimi bu surədə də Peyğəmbərin (s) səmaya meracından danışılır. Surənin başqa bir mövzusu müşriklərin bütlərlə bağlı xürafi ənənələridir. Surədə bu qəbil ibadətlər məhkum olunur.

“Nəcm” surəsinə qiyamətə, salehlərin və günahkarların durumuna diqqət ruhu hakimdir.

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2:***

**﴿وَالنَّجْمِ إِذَا هَوَى﴾﴿مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَى﴾**

**“And olsun batmaqda olan ulduza, həqiqətən, sizin müsahibiniz (Məhəmməd) nə azmış, nə də yoldan çıxmışdır.”**

***Ayə 3, 4:***

**﴿وَمَا يَنطِقُ عَنِ الْهَوَى﴾﴿إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى﴾**

**“O nəfsi isytəyəni də danışmır; danışdığı yalnız ona nazil olmuş vəhydir.”**

**Nöqtələr**

”Həva” sözü süquta meyl mənasını bildirir. “Həvayi-nəfs”dedikdə insanı süquta aparan həmin istək nəzərdə tutulur. “Zəll” sözü doğru yoldan azmaq məmasını ifadə edir. “Ğəva” dedikdə batil əqidədən doğan azğınlıq nəzərdə tutulur.

”Sahib” sözü dost, yardımçı mənasını ifadə edir. Bu söz Quranda peyğəmbərdən danışılarkən dəfələrlə işlədilmişdir.[1] Çünki Peyğəmbər (s) insanlarla səmimi, qayğıkeş və dostcasına rəftar edirdi.

Əvvəlki surənin son sözü “nucum” oldu. Hazırkı surə isə nəcm sözü ilə başlayır.

Təbiət görüntüləri Allahın nişanələri olduğundan onlara and içmək olar.

”Vənnəcmi iza xəva” (and olsun batmaqda olan ulduza) dedikdə ya ulduzların gözdən itdiyi sübh çağı, ya da ulduzların parçalanacağı qiyamət günü nəzərdə tutulur.

Allah və Onun peyğəmbərləri tövhid əsasında bir-birlərini təsdiqləyirlər. Allah Pryğəmbərin (s) istənilən bir sapınmadan uzaq olduğunu bildirir. Peyğəmbər (s) də Allahı pak təqdim edir.

Allah Quranda şəkk-şübhəyə yer olmadığını və Peyğəmbərin (s) nəfs əsasında danışmadığını bəyan edir.[2] Beləcə insanlara xəbərdarlıq başa çatdırılır, heç bir şəkk-şübhəyə yer qalmır.

---

[1] “Səba”, 46; “Əraf”, 184; “Təkvir”, 22

[2] “Bəqərə”, 2

Quran azğınlara xitabən bildirir ki, onlar uzun müddət Peyğəmbərlə (s) yaxın olmuşlar və Peyğəmbərin (s) doğru yoldan azmadığına şahiddirlər.

İlahi rəhbərlər bir neçə baxımdan dünyəvi rəhbərlərdən üstündür: onlar heç vaxt yanlış düşünməmişlər, heç vaxt günaha yol verməmişlər, xalqa canıyanandırlar, başqalarının nəfs istəklərinə tabe olmurlar.

Mərhum Səduq "Əmali" kitabında belə bir rəvayət nəql edir: bir gün həzrət Peyğəmbər (s) şam və xüftən namazlarından sonra xalqa müraciətlə buyurdu: "Fəcr tülusu (sübh ağartısı) zamanı bir ulduz səmadan enib sizlərdən birinin evinə düşəcək. Həmin şəxs mənim canişinimdir." Hamı deyilən vaxtı izləyirdi. İbn Abbas deyir: "Daha çox atam Abbas, Peyğəmbərin (s) əmisi intizarda idi. Fəcr tülusunda deyilən hadisə həzrət Əlinin (ə) evində baş verdi. Peyğəmbər (s) buyurdu: "Ey Əli, and olsun məni Peyğəmbərliyə seçən Allaha, məndən sonra sənin xilafət və canişinliyin qətiləşdi."

Münafiqlərdən bir qrupu bildirdi ki, Peyğəmbər (s) nəfs istəklərinə uyub öz əmisi oğlunu önə çəkir. Həmin vaxt uyğun ayələr nazil oldu.[1]

Mərhum Səduq qeyd edir ki, bütün xalqın razılığını almaq çətindir. Axı hamının dilinə necə nəzarət etmək olar? Bəziləri hətta Peyğəmbərin (s) nəfsə uyduğunu iddia etdi. Allah Peyğəmbərini (s) müdafiə edərək bildirdi ki, o nəfs əsasında danışmır.[2]

Hədisdə nəql olunur ki, Həmzə həzrət Peyğəmbərdən (s) soruşdu: "Nə üçün Əlinin (ə) qapısından savayı məscidə açılan bütün qapıları bağlamısan?" Həzrət "Nəcm" surəsinin birinci ayəsini oxumaqla əmisinə cavab verdi.[3]

Quranı keçmişlərin əfsanəsi sayan kafirlərə cavab verilir ki, Peyğəmbərin (s) dedikləri yalnız vəhydir.[4]

Həzrət Əli (ə) Ğədir-Xumda imamət və canişinliyə təyin olunduğu vaxt Peyğəmbər (s) müəyyən itdihamlarla üzləşdi. Həzrət həmin itdihamlara cavab olaraq hazırkı ayəni oxuyurdu.[5]

Quran şer kitabı olmasa da onda xüsusi bir nəzm var, qiraəti gözəl və nəzmlidir.

## Bildirişlər

1. Ulduzlar axıb sönür, bir müddət sonra məhv olur.
2. Dinin təbliği yolunda itdihamlar çox olur. Amma Allah doğru yol təbliğatçılarını müdafiə edir.
3. Peyğəmbərlər bir ömür xalq arasında yaşamış insanlardır. Onların yolunu azmadığına hamı şahiddir. Bu özü əzəmət göstəricisidir.
4. Böyük səma cisimləri məhv olduğu halda Peyğəmbər (s) və onun buyuruqları yaşayır.
5. Peyğəmbərin (s) buyuruqları dəlildir və onlara əməl olunmalıdır.

---

[1] "Təfsiri-nurus-səqəleyn"
[2] "Təfsiri-kənzul-dəqaiq"
[3] "Təfsiri-dürrül-mənsur"
[4] "Ənam", 70
[5] "Təfsiri-nurus-səqəleyn"

6. Həzrət Peyğəmbər (s) nə keçmişdə yolundan sapıb, nə də gələcəkdə doğru yoldan çıxasıdır.

7. Məqam və məsuliyyət böydükcə fərdin hifzi üçün daha artıq zəmanətə ehtiyac var.

8. Müdiriyyətdə pak insanları müdafiə etmək və onları böhtandan qorumaq lazımdır.

9. Həm Peyğəmbər (s), həm də onun buyuruqları haqdır.

10. Peyğəmbər nə şəxsi meylləri, nə də cəmiyyətin istəkləri əsasında danışır.

11. Vəhyin məzmunu, zamanı, məkanı və qədəri Allahın ixtiyarındadır.

12. Nəfs meylləri vəhylə bir araya sığmır.

*Ayə 5, 6:*

﴿عَلَّمَهُ شَدِيدُ الْقُوَى﴾﴿ذُو مِرَّةٍ فَاسْتَوَى﴾

**"(Vəhyi) Ona böyük qüdrəti olan (Allah) öyrətdi; qalib gəlmiş qüvvət sahibi (Allah)."**

*Ayə 7, 8:*

﴿وَهُوَ بِالْأُفُقِ الْأَعْلَى﴾﴿ثُمَّ دَنَا فَتَدَلَّى﴾

**"Bir halda ki o yuxarı üfüqdə idi; sonra yaxınlaşdı, daha yaxın oldu."**

*Ayə 9, 10:*

﴿فَكَانَ قَابَ قَوْسَيْنِ أَوْ أَدْنَى﴾﴿فَأَوْحَى إِلَى عَبْدِهِ مَا أَوْحَى﴾

**"Bir həddə qədər ki, uzaqlığı iki kaman qədər, ya daha az oldu; vəhyi bəndəsinə vəhy etdi."**

*Ayə 11:*

﴿مَا كَذَبَ الْفُؤَادُ مَا رَأَى﴾

**"Qəlb gördüyünə yalan demədi."**

**Nöqtələr**

Möhkəm mənasını bildirən "mirrə" sözü güc-qüdrətə işarədir. Həzrət Peyğəmbər (s) buyurur ki, "mirrə" və "kəviyy" kəslərə sədəqə halal deyil. Yəni imkanlı insanlara sədəqə verilməməlidir.[1]

"Bəna" sözü "yaxınlaşdı", "tədəlla" sözü bağlanmaq həddində çox yaxınlaşdı mənasını bildirir.

"Qab" dedikdə miqdar, "qəvs" dedikdə kaman mənası nəzərdə tutulur. "Qabə qəvsəyn" ifadəsi çox yaxınlığa, vəhy nazil olan zaman Peyğəmbərin (s) Allaha yaxınlaşmasına işarədir.

"Şədidul-qova" ifadəsi ilə bağlı müxtəlif fikirlər var. Bəziləri bu ifadənin Allaha, bəziləri isə Cəbrailə işarə olduğunu bildirir. Amma bu ad başqa məqamlarda Allaha aiddir. Məsələn, nüdbə duasında və ya zalımın şərrindən

---

[1] "Təfsiri-ruhul-məani"

qurtuluş üçün imam Hüseyndən nəql olunmuş duada uyğun ifadə qeyd olunmuş mənada işlədilmişdir.[1] Bəzi ayələrdə Allah-taala Quran müəllimi kimi təqdim olunur.[2] Oxşar ifadə "Təkvir" surəsində Cəbraillə bağlı işlədilmişdir.[3] Amma bu ayədəki "zi qüvvə" ifadəsi "şədidul-quva" ifadəsindən fəqlənir. Belə görünür ki, uyğun ifadə Allaha işarədir.

Hazırkı ayələrdə Peyğəmbərin (s) meracına işarə olunmuşdur. Biz "Nur" təfsirinin 7-ci cildində "İsra" surəsinin 1-ci ayəsi ilə əlaqədar merac haqqında danışmışdıq.

"Ruhul-məani" təfsirində bildirilir ki, cahiliyyət dövründə iki şəxs əhd-peyman bağladıqda kamanlarını qoşalaşdırır və iki kamanla bir ox atırdılar. Bu hərəkət iki şəxsin birləşməsini göstərirdi.

Mələk yuxarı üfüqdə yox, aşkar üfüqdə olur. Peyğəmbər (s) onu müşahidə edə bilər.[4]

Bəli, Allahın məkanı yoxdur və yuxarı üfüq dedikdə xüsusi bir məkan nəzərdə tutulmur. Nəzərdə tutulan Allahın uca məqamı, əzəməti və hər şeyə hakim olmasıdır.

Vəhy yer üzünə vasitə ilə gəlir.[5] Cəbrail Quranı Peyğəmbərin (s) qəlbinə nazil etdi. Hazırkı ayələrdə meracdan danışıldığı üçün hansısa vasitədən danışmaq yersizdir.

İmam Səccaddan (ə) soruşdular: "Həzrət Peyğəmbərin (s) meracının səbəbi nədir? Məgər Allahın məkanı var?" Həzrət buyurdu: "Meracda məqsəd bu idi ki, Allah ərş aləmini, oradakı qəribəlikləri və yaradıcılıqları Peyğəmbərə göstərsin."[6]

Peyğəmbərin (s) meracda aldığı dərs xüsusi bir dərs idi: Bu dərs ən üstün məkanda baş tutdu, müəllim əm güclü müəllim idi, dərs ən möhkəm sözdən, vəhydən ibarət idi.

İmamdan soruşdular ki, Peyğəmbər (s) meracda Rəbbini gördümü? Həzrət buyurdu: "Allahı qəlbi ilə gördü." Sonra həzrət hazırkı ayəni oxudu.[7]

İmam Riza (ə) buyurur: "Nəcm" surəsinin 18-ci ayəsi həmin surənin 11-ci ayəsini təfsir edir. Yəni nəzərdə tutulan Allahın zatının yox, ilahi ayələrin müşahidə edilməsidir."

## Bildirişlər

1. Din o qədər dəyərlidir ki, bu məktəbin müəllimi sonsuz qüdrət sahibi Allah olmalıdır. Şagird isə tapınmayan və məsum Peyğəmbər (s) olasıdır.
2. İlahi elmlərə yiyələnmək üçün xüsusi tutuma ehtiyac var.
3. Fərdləri tanıma yollarından biri ustadı tanımaqdır.
4. Vəhy elə ilahi təlimlər deməkdir.

---

[1] "Mustədrək", c. 5, s. 260
[2] "Ər-Rəhman", 1; "Nisa", 113
[3] "Təkvir", 20
[4] "Təkvir", 24
[5] "Şuəra", 193
[6] "Təfsiri-kənzul-dəqaiq"
[7] "Təfsiri-kənzul-dəqaiq"

5. Yersiz təhlillərə və itdihamlara cavab verin. Bəziləri deyirdilər ki, Quranı Peyğəmbərə (s) başqaları öyrədib.[1] Allah onlara cavab verir.

6. Peyğəmbərin (s) elmi Allahdandır.

7. İlahi elm ilahi qüdrətdən ayrı deyil.

8. Qeyri ilahi qüdrətlər zəifdir və yalnız Allah sonsuz qüdrətə malikdir.

9. Müəllim öz işində çalışqan olmalıdır.

10. Allahın təlimi sayəsində savadsız bir insan bəşəriyyətin müəllimi ola bilər.

11. Bütün bəşəriyyət Allahın şagirdləridir.[2] Peyğəmbər (s) isə xüsusi bir şagirddir.

12. Allahın bəşər üçün nəzərdə tutulmuş proqramları güclü və kamildir.

13. Allaha mərhələ-mərhələ, addım-addım yaxınlaşmaq olar.

14. Müəllimlə şagird arasındakı rabitə yaxın və səmimi olmalıdır.

15. Danışıqda qarşı tərəfin, müraciət olunan qövmün dilində danışaq. (Ərəb dilində iki kamanın yaxınlığı onların sahiblərinin yaxınlığını göstərir.)

16. Allaha doğru hərəkətdə məhdudiyyət yoxdur.

17. İlahi insanlar istər yerdə, istər göydə Allahın bəndələridir.[3]

18. Bəndəlik əhatəli bir işdir.

19. Həzrət Peyğəmbər (s) həm vəhyin qəbulunda, həm də onun bəyanında məsum idi.

20. Yalnız Allah tərəfindən təsdiqlənmiş batini şəhadət dəlil sayılır.

***Ayə 12, 13:***

﴿أَفَتُمَارُونَهُ عَلَى مَا يَرَى﴾﴿وَلَقَدْ رَءَاهُ نَزْلَةً أُخْرَى﴾

**“Yoxsa gördüyü barədə onunla höcətləşirsiniz? Həqiqətən, digər bir enişdə də onu gördü.”**

***Ayə 14, 15:***

﴿عِندَ سِدْرَةِ الْمُنْتَهَى﴾﴿عِندَهَا جَنَّةُ الْمَأْوَى﴾

**“Sidrətül-müntəhanın yanında; məva (əmin-aman) cənnət Onun yanındadır.”**

**Nöqtələr**

”Məra” sözündən olan “tumarunə” sözü şəkk-şübhə ilə müşayiət olunan mübahisə mənasını bildirir. Birdəfəyə nazil olma “nəzlə” adlanır. “sidrətül-muntəha” vəd olunmuş behişt yaxınlığındakı məkandır. Bu məkan Allahın lütüflərindəndir. Rəvayətlərə əsasən, İslam peyğəmbərindən (s) savayı kimsə oradan yuxarı qalxmayıb.[4]

---

[1] “Nəhl”, 103

[2] “Ələq”, 5

[3] “İsra”, 1

[4] “Təfsiri-kənzul-dəqaiq”

Hədisdə bildirilir ki, mələklərin və ya əməllərin yüksələ biləcəyi son mərhələ “sidrətül-muntəhadır”. Başqa bir rəvayətdə oxyuruq ki, sidrətul-muntəha hər yarpağında bir mələk Allaha təsbih oxuyan ağacın adıdır.[1]

Merac əhvalatı ilə bağlı şübhələr çox olduğundan Allah-taala “İsra” surəsində buyurur ki, o heç vaxt boş iş görməz və merac ali bir məqsəd daşıyır. Hazırkı surədə höcətləşənlər qınanır.

Bütün insanlar Allahın nəzarəti altında olsalar da, bəziləri xüsusi nəzarətə götürülür. Allah-taala meracda peyğəmbərinə xüsusi nəzarət edirdi. Amma başqaları da nəzarətdən kənarda deyil.[2] Təqvalılara münasibət isə fərqlidir.[3]

Bəli, Allahın nəzarəti və lütfü bəzən ümumidir, bəzən xüsusi. O öz peyğəmbərini səmada qarşıladı. “Sidrətül-müntəhada”, vəd olunmuş behiştdə ona xüsusi diqqət göstərdi. Bu məna “ətyəbul-bəyan” təfsirində qeyd olunmuşdur. Digər təfsirlərdə isə başqa mənalarla rastlaşırıq. Bildirilir ki, Peyğəmbər (s) meracda Cəbraili əsil qiyafəsində gördü və ya Allahı başqa bir dəfə batini gözlə müşahidə etdi.

Biz “ətyəbul-bəyan” təfsirinin mülahizələrinə üstünlük veririk. Çünki hazırkı ayələrdə Peyğəmbərin (s) məqamı mədh olunur. Cəbraili görmək isə ondan yuxarı məqamda olan Peyğəmbər (s) üçün imtiyaz deyil. Peyğəmbər (s) Allahı daim batin gözü ilə müşahidə etmişdir. Allahın meracda Peyğəmbərə (s) xüsusi lütfü bu ehtimalı da aradan qaldırır. Allah Peyğəmbəri (s) xüsusi bir məqsədlə səmaya qaldırdı və ona xüsusi diqqət göstərdi.

Hədisdə bildirilir ki, həzrət Peyğəmbər (s) buyurmuşdur. Mən Cəbarili Sidrətül-müntəhanın yanında gördüm. O dedi ki, Allahın mənim üçün qoyduğu son hədd buradır və bundan qabağa getsəm qanadlarım yanar.”[4]

## Bildirişlər

1. İmansız insanlarda övliyaların kəramətlərinə və Allah tərəfindən onlara göstərilən diqqətə dözüm yoxdur. Onlar bədbinlik və şəkk-şübhə ilə höcətləşirlər.
2. Gözlə görünən və hiss olunan məsələlər barədə danışmağa dəyməz. Yalnız nəzəri məsələlər mübahisə mövzusu ola bilər.
3. Təbliğ üçün hamının qəbul etməsi şərt deyil. Deyilənləri kiminsə inkar etməsi, kiminsə mübahisəyə başlaması təbiidir.
4. Haqqında danışlan mövzu ilə bağlı sual vermək və dəlil istəmək tövsiyə olunan işdir.[5] Amma boş yerə höcətləşmək və dava-dalaş məzəmmət olunur.
5. Sidrətül-müntəha əhəmiyyətli bir yerdir. Hətta behişt öz əzəməti ilə onun kənarındadır.
6. Behiştdən də uca olan var.

## *Ayə 16:*

---

[1] “Təfsiri-nümunə”; “Məcməul-bəyan”
[2] “Hədid”, 4
[3] “Nəhl”, 128
[4] “Təfsiri-hidayət”
[5] “Nəhl”, 43

﴿إِذْ يَغْشَى السِّدْرَةَ مَا يَغْشَى﴾

**“Bu zaman Sidrəni büryən bürümüşdü.”**

***Ayə 17, 18:***

﴿مَا زَاغَ الْبَصَرُ وَمَا طَغَى﴾﴿لَقَدْ رَأَى مِنْ ءَايَاتِ رَبِّهِ الْكُبْرَى﴾

**“Göz azmadı, həddi aşmadı; həqiqətən o Rəbbinin bəzi böyük nişanələrini gördü."**

**Nöqtələr**

”İsra surəsinin əvvəlində oxuduq ki, Allah öz nişanələrini göstərmək üçün Peyğəmbərini (s) gecə səfərinə çıxardı. Bu surədə isə bildirilir ki, Allah ona öz nişanələrini göstərdi.

Həzrət Peyğəmbər (s) bütün baxımlardan məsum, pak idi. Onun düşüncəsi və əməli, danışığı, elm və biliyi, qəlbi, gözü günahdan uzaq idi.

**Bildirişlər**

1. Pis şey görməmək və çox baxmamaq gözün haqqıdır.
2. Yalnız bəsirəti olan göz ilahi ayələri görmək gücündədir.
3. İlahi ayələr o qədər əhatəlidir ki, hətta yaranmışların şərəflisi həmin ayələrin bir qismini müşahidə edə bilir.

***Ayə 19, 20:***

﴿أَفَرَءَايْتُمُ ٱللَّاتَ وَالْعُزَّى﴾﴿وَمَنَاةَ ٱلثَّالِثَةَ ٱلْأُخْرَى﴾

**“Lat və üzzanı görmüsünüz? Mənatı, o üçüncü bütü.”**

***Ayə 21, 22:***

﴿أَلَكُمُ الذَّكَرُ وَلَهُ الْأُنثَى﴾﴿تِلْكَ إِذًا قِسْمَةٌ ضِيزَى﴾

**“(Elə düşünürsünüz ki) Oğlan (övlad) sizin üçündür, qız (övlad) Allah üçün? Bu ədalətsiz bölgüdür.”**

**Nöqtələr**

İnsanı səmanın yüksəkliyinə qaldırıb ona öz nişanələrini göstərən Allah qüdrətlidir, yoxsa çarəsiz daş bütlər?!

Quranda doqquz bütün adı çəkilib: Lat, üzza, mənat,[1] bəəl,[2] vudd, səva, yəuq, yəğus, nəsər.[3]

**Bildirişlər**

---

[1] “Nəcm”

[2] “Saffat”

[3] “Nuh”

1. Baxış məqsədli olmalıdır.

2. Təbliğatçı azdırıcı amillərdən və vasitələrdən xəbərdar olmalıdır.

3. Müqəddəs kitab azdırıcı amillərin adının çəkilməsini onların məhkum olunmasını nəinki qadağan etmir, hətta bu işi zəruri sayır.

4. Bəzən pis əşyaların və fərdlərin də adını çəkmək lazım gəlir.

5. İslaha azğınlıq ocağından başlamaq lazımdır. Bütpərəstlikdə mübarizədə öncə bütləri soraqlamalıyıq.[1]

6. Özünüzə qıymadığınızı başqasına rəva bilməyin. (Müşriklər qız övladı əskiklik sayır, amma mələkləri Allahın qızları hesab edirdilər.)

7. Doğru yola çağırışda suallar ünvanlamaq üsulundan istifadə etmək olar.

8. Oğlanla qız övlad arasında ayrıseçkilik salmaq bir növ ədalətsizlikdir.

***Ayə 23:***

﴿إِنْ هِيَ إِلَّا أَسْمَآءُ سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَاؤُكُم مَّا أَنزَلَ اللَّهُ بِهَا مِن سُلْطَانٍ إِن
يَتَّبِعُونَ إِلَّا الظَّنَّ وَمَا تَهْوَى الْأَنفُسُ وَلَقَدْ جَاءهُم مِّن رَّبِّهِمُ الْهُدَى﴾

**“Bu bütlər boş addan başqa bir şey deyil. Siz və atalarınız onlara ad qoymusunuz. Allah (bütlərin xeyrinə) heç bir dəlil göndərməmişdir. (Müşriklər) zənn-gümandan və nəfs istəklərindən savayı bir şey soraqlamırlar. Hansı ki, soraqlarınca Rəbləri tərəfindən doğru yol gəlib.”**

**Nöqtələr**

Quranda “sultan” sözü elmi hakimiyyət səbəbi olan dəlil mənasını bildirir.

Bütpərəstlər hər bir bütü müəyyən həqiqətin təcəllası sayırdılar. Bir büt qüdrət, o biri büt elm, başqa bir büt məhəbbət təmsilçisi kimi tanınırdı. Quran buyurur ki, bu boğazdan yuxarı adlaq və ləqəblər təsirsizdir, onların arxasında nə isə dayanmır.

**Bildirişlər**

1. Hər şüara, hər ünvana, hər ada diqqət ayırmaq lazım deyil.

2. Əcdadlar özlərindən sonrakı nəsil üçün mədəniyyət formalaşdırırlar.

3. Hətta ata-babalara kor-koranə təqlid qadağandır.

4. Şirk puç xəyallardan qaynaqlanır və onun heç bir məntiqi əsası yoxdur.

5. Əqidələr dəlillə əsaslandırılmalıdır. Əqidə əsaslarını zənn-güman və təqlid əsasında qəbul etmək yetərsizdir.

6. Doğru yol Allah tərəfindəndir, azğınlıq nəfs istəklərindən törəyir.

7. Azğın nəfsə itaət məhkum olunur.

8. Allah hamı üçün xəbərdarlığı başa çatdırır. Vəhy gəldikdən sonra kimsənin üzrü qalmır.

9. Doğru yola çağırış Allahın rübubiyyət şənindəndir.

10. Əgər hansısa yolları rəd edirsinizsə, doğru yolu göstərin.

---

[1] “Tövbə”, 12

11. Elm və vəhy yolu haqq yoldur. Amma şəxsi səliqələr, ata-babaların zövqü, əsassız təxəyyüllər, nəfs istəkləri batildir.

*Ayə 24, 25:*

**﴿أَمْ لِلْإِنسَانِ مَا تَمَنَّى﴾﴿فَلِلَّهِ الْآخِرَةُ وَالْأُولَى﴾**

**"(Düşünürsünüz ki) İnsan bütün arzularına çatır? Axirət və dünya Allaha məxsusdur."**

*Ayə 26:*

**﴿وَكَم مِّن مَّلَكٍ فِي السَّمَاوَاتِ لَا تُغْنِي شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِن بَعْدِ أَن يَأْذَنَ اللَّهُ لِمَن يَشَاء وَيَرْضَى﴾**

**"Səmalarda mələklər çoxdur, (amma) onların şəfaəti faydasızdır. Yalnız Allah biri üçün istəsə, razı olsa, şəfaət icazəsi versə (şəfaət fayda verər)."**

**Nöqtələr**

"Təmənna" sözü arzu mənasını bildirir. Arzuların mahal, məntiqsiz olması da mümkündür.[1] "Rəca" dedikdə isə həyata keçəsi arzular nəzərdə tutulur. "Təm" həyata keçməsi yaxın olan arzudur. "Əməl" ("Əlif" ilə) sözü həyata keçməsi çətin olan arzu mənasını bildirir.[2]

İslam rəftarların islahı üçün düşüncə qaynağının islahını nəzərdə tutur. İnsan izzət və qüdrət qazanmaq üçün Allahdan qeyrilərini soraqlamamalıdır. Ayələrdə bildirilir ki, bütüb qüdrət və izzət Allaha məxsusdur.[3]

Bu ayədə bildirilir ki, axirət və dünya Allaha məxsusdursa, nə üçün ondan qeyrisinin intizarını çəkirlər?!

Varlıq aləmi bizim arzularımız yox, Allahın iradəsi əsasında dövr edir. Həzrət Əli (ə) buyurur. Bəşərin bəzi qərarlarının puça çıxmasından, bəzi əhdlərinin həyata keçməməsindən Allahı tanıdım."[4]

İmam Sadiq (ə) buyurur: "Sizi Allahın qəzəbindən nə mələk, nə də peyğəmbər qurtara bilər. Şəfaət istəyən Allahın razılığını soraqlasın."[5]

Sual: Şəfaət hansısa dünyəvi bağlılıqlara, firqə yaxınlıqlarına əsaslanır?

Cavab: Xeyir. Şəfaətin özünəməxsus səciyyələri var:

a) Yalnız öz düşüncə və əməli ilə şəfaət üçün zəmin yaradan insan bağışlanır. Şəfaətə münasibətdə dünyəvi bağlılıqlar səmərəsizdir, şəfaətin öz qanunları var.

b) Dünyəvi bağlılıqlara görə güzəşt zamanı başqalarının haqqı tapdanır. Şəfaət zamanı isə kimsənin haqqı tapdanmır.

v) Şəfaət edən şəfaət olunan kəsdən heç nə gözləmir. Əksinə, dəstəbazlıqda yaxşılıq edən insan qarşı tərəfdən əvəz umur.

---

[1] "Mufrədati-Rağib"
[2] "Füruqul-luğat"
[3] "Nisa", 139; "Bəqərə", 165
[4] "Nəhcül-bəlağə", hikmət 250
[5] "Bihar", c. 8, s. 53

q) Şəfaət edənin məqsədi şəfaət olunanın qurtuluşudur. Dəstəbazlıqda isə yalnız dünyəvi faydalar nəzərdə tutulur.

d) Şəfaət tərbiyə və təkamül vasitəsidir. Çünki yalnız Allah övliyalarına yaxın, onlarla mənəvi rabitədə olanlara şəfaət nəsib olur.

Ayədə Allahın istəyi dedikdə iki ünvan nəzərdə tutula bilər: Allah istədiyinə şəfaət etmək icazəsi verir; yalnız Allahın istədiyi şəxsə şəfaət vermək olar.

Sual: Şəfaət insanı günaha sövq etmirmi?

Cavab: Qətiyyən belə deyil. Çünki kimə şəfaət olunacağı öncədən bilinmir. Digər bir tərəfdən, zəhərlənməyə qarşı dərmanın olması kimsəni zəhər içməyə təşviq etmir.

### *Ayə və rəvayətlərdə arzular mövzusu*

Arzu-istəyin müəyyən faydaları var. Arzular insanı hərəkətə, təkamülə sövq edir. Həzrət Peyğəmbər (s) buyurur: “Arzular olmasaydı ana övladına süd verməz, əkinçi nə isə əkməzdi.”[1]

Həzrət İsa qoca bir kişinin yer şumladığını gördü. O dua etdi ki, Pərvərdigara, bu kişinin arzusunu qəlbindən çıxar. Dua qəbul olduqdan sonra kişi əlindəki beli yerə qoyub yatdı. Bir qədər sonra həzrət İsa öncəki arzunun kişiyə qaytarılmasını dilədi. Dua qəbul olan kimi qoca kişi ayağa qalxıb işə başladı.[2]

Arzuları cilovlamaq zəruridir. İnsan öz imkanları, istedadları, mövcud şərait çərçivəsində nə isə arzulamalıdır. Əks təqdirdə arzular insanı hərəkətdən saxlayar. Həzrət Əli (ə) buyurur: “Sizin üçün daha çox nəfs istəklərinin tüğyanı və uzun-uzadı arzulardan qorxuram.”[3]

Arzular mənfi də ola bilər. Quranda bəzai arzular tənqid olunur. Məsələn, bəziləri Qarun kimi varlı olmağı arzulayırdılar.[4] Bəziləri də heç bir səbəb olmadan təriflənmək umurlar.[5] Başqalarından üstünlük arzusu da bəyənilmir.[6] Allah-taala möminləri varlı adamlara qiptə ilə baxmaqdan çəkindirir.[7]

İnsan bəzi arzulara heç vaxt çata bilmir. Günahkarlar qiyamət günü torpaq olmağı arzulayar.[8] Bəziləri fürsət əldən çəxdıqdan sonra Peyğəmbər (s) yolunda olmağı bəziləri əməl namələrinin sağ əllərinə verilməsini, bəziləri öncədən xeyir bir əməl göndərməyi, bəziləri də dünyaya qayıtmağı arzulayar.[9] Bütün bunlar mahal arzulardır.

### Bildirişlər

---

[1] “Bihar”, c. 77, s. 137
[2] “Bihar”, c. 14, s. 329
[3] “Nəhcül-bəlağə”, xütbə 28
[4] “Qəsəs”, 79
[5] “Ali-İmran”, 188
[6] “Qəsəs”, 83
[7] “Tövbə”, 55, 85; “Hicr”, 88; “Taha”, 31
[8] “Nəbə”, 40
[9] “Fürqan”, 27; “Haqqə”, 26; “Fəcr”, 25; “Ənam”, 27

1. Başqalarının şəfaət və yardımına ümid bəsləməyin. İnsan hər arzusuna çatmır.

2. Doğru yoldan çıxıb puç arzulara uymaq məhkum olunur.

3. Axirət və dünyada mütləq vilayət və hakimiyyət Allaha məxsusdur. Ondan qeyrilərini soraqlamayın.

4. Allahdan qeyri nə varsa müvəqqəti və davamsızdır.

5. Əsas Allahın iradəsidir. Arzularımız Allahın iradəsinə təsir göstərmir.

6. Allahın hökmü qiyamət günü özünü daha çox göstərir.

7. Allahın yaxın mələkləri də Onun icazəsi olmadan şəfaət verə bilmir. Mələklər aciz qalırsa, bütlərdən danışmağa dəyməz.

8. Axirət və dünya Allaha məxsus olduğundan Onun şəfaət icazəsi zəruridir.

9. Nə hər kəs şəfaət verə bilər, nə də hər günahkar şəfaətə nail olar. Şəfaət yalnız Allahın istədiyi şəxs üçündür və Allahın istəyi əsassız olmur.

*Ayə 27:*

﴿إِنَّ الَّذِينَ لَا يُؤْمِنُونَ بِالْآخِرَةِ لَيُسَمُّونَ الْمَلَائِكَةَ تَسْمِيَةَ الْأُنثَى﴾

**“Həqiqətən, axirətə inanmayanlar mələkləri qız adları ilə adlandırırlar.”**

*Ayə 28:*

﴿وَمَا لَهُم بِهِ مِنْ عِلْمٍ إِن يَتَّبِعُونَ إِلَّا الظَّنَّ وَإِنَّ الظَّنَّ لَا يُغْنِي مِنَ الْحَقِّ شَيْئًا﴾

**“Hansı ki, onların bununla bağlı heç bir biliyi yox. Onlar yalnız zənn-güman ardınca gedirlər. Şübhəsiz, zənn-güman (insanın) haqqa olan ehtiyacını ödəmir.”**

**Nöqtələr**

Elmi əsası olan hər bir iş haqdır. Hər bir həqiqət də elmə əsaslanır. Elm və həqiqət bir-birinin yerinə işlənən sözlərdir. Quran insanın elmdən ehtiyacsız olmadığını bəyan etmək istəyərkən elm əvəzinə haqq sözünü işlədir. Demək, haqq və elm eynidir.

Mələklərə qız adları qoyulması batil etiqadlara əsaslanırdı. Onlar mələkləri Allahın qızları sayırdılar.

Mələkləri qız şəkilində çəkən rəssamlar özlərindən xəbərsiz də olsa cahil ənənələrdən qidalanırlar.

**Bildirişlər**

1. Qiyamət mühakiməsi barədə düşünən insan ağzına gələni danışmır, hər deyilənə inanmır.

2. Ad qoymaq məsələsinə məsuliyyətsiz yanaşmayın. Başqalarına xoşagəlməz ad qoyanlar məzəmmət olunur.

3. Elmi olmayan sakit dayansın.

4. Elm olmayan yerdə zənn-güman meydan sulayır.

5. Etiqadi məsələlərdə zənn-güman bəs etmir.

*Ayə 29:*

﴿فَأَعْرِضْ عَن مَّن تَوَلَّى عَن ذِكْرِنَا وَلَمْ يُرِدْ إِلَّا الْحَيَاةَ الدُّنْيَا﴾

**“Bizim zikrimizdən üz döndərən və yalnız dünya həyatı istəyən hər kəsdən üz çevir.”**

*Ayə 30:*

﴿ذَلِكَ مَبْلَغُهُم مِّنَ الْعِلْمِ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِمَنِ اهْتَدَى﴾

**“Bu onların elm və biliyinin son dərəcəsidir. Həqiqətən, sənin Rəbbin Onun yolundan azanları və doğru yolu tutanları yaxşı tanıyır.”**

## Nöqtələr

Quran kafirlər, müşriklər, münafiqlər, cahillər, cəbhədən qaçanlar və ilahi ayələrə arxa çevirənlərdən üz döndərməyi əmr edir.[1]

### *Quranda dünyanın siması*

Yalnız dünya həyatını istəyənlər haqqındakı buyuruqda dünya ilə bağlı bir neçə nöqtə var: dünya məhduddur;[2] dünya fani bir körpüdür;[3] dünya oyun-oyuncaqdan başqa bir şey deyil;[4] dünya aldanış vasitəsidir;[5] dünyapərəstlik axirət yolunda maneədir;[6] dünya aldadıcıdır.[7]

“Hədid” surəsinin 20-ci ayəsində dünyanın beş xüsusiyyəti yada salınır. Bu beş xüsusiyyət insan həyatının beş dövrü ilə uyğun gəlir: oyun-oyuncaq (uşaqlıq dövrü); əyləncə (yenimətmə dövrü); zinət (gənclik dövrü); lovğalıq (orta yaş dövrü); sərvət toplamaq (yaşlı dövr).

Bəli, dünya məqsəd yox vasitədir. Necə ki şəban ayının duasaında oxuyuruq: “Pərvərdigara, dünyanı bizə hədəf buyurma.”

## Bildirişlər

1. Dünyapərəst və Allaha arxa çevirmiş insanlar qarşısında təslim olmayın.
2. Allahın dininə arxa çevirən, Allah adını eşitməyə dözümü olmayan insanlardan üz çevirin. (Baykot İslamda qəbul olunmuş rəftardır)
3. İslam düşmənlərinə arxa çevirmək prinsipial bir məsələdir.
4. Dinin təbliğində vaxtınızı səmərəsiz keçirməyin.

---

[1] “Səcdə”, 29; “Ənam”, 106; “Nisa”, 4; “Əraf”, 199; “Tövbə”, 95; “Ənam”, 68
[2] “Nisa”, 77
[3] “Nəhl”, 96
[4] “Ənkəbut”, 24
[5] “Hədid”, 20
[6] “Tövbə”, 38
[7] “Qəsəs”, 79

5. Bəzən qarşı tərəfə eynən onun kimi cavab vermək lazım gəlir. Allah zikrindən üz çevirənə arxa çevirin.

6. Dünyapərəstlik və Allah zikrindən uzaqlıq bir-birini tamamlayır.

7. Məzəmmət olunan bütün imkanların dünya matahı əldə etməyə sərf olunmasıdır. Əslində dünya nemətləri üçün çalışmaq bəyənilmiş işdir.

8. Dünyapərəstlik insan düşüncəsinin aşağı səviyyədə olduğunu göstərir.

9. Yalnız dünya haqqında düşünənlər azğınlardır.

10. Allahın elminə iman möminlər üçün təsəllidir.

11. Allaha arxa çevirmək və dünyaya əsir olmaq azğınlığın bariz nişanəsidir.

12. Allahın yaxşılardan da, pislərdən də eyni həddə xəbərdardır.

*Ayə 31:*

﴿وَلِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ لِيَجْزِيَ الَّذِينَ أَسَاؤُوا بِمَا عَمِلُوا
وَيَجْزِيَ الَّذِينَ أَحْسَنُوا بِالْحُسْنَى﴾

**“Göylərdə və yerdə nə varsa Ona məxsusdur. Belə ki, pis iş görənləri cəzalandırsın, yaxşı iş görənləri ən yaxşı şəkildə mükafatlandırsın.”**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, bəziləri Allahdan üz çevirib yalnız dünya haqqında düşünür. Bu ayədə buyurur ki, hər şeyə malik olan, cəza və mükafat verən, kəsdən üz çevirmək ən böyük axmaqlıqdır. Dünyanı istəyən insan da Allahdan üz çevirməməlidir. Çünki dünya da Allahın əlindədir.

Göylərdən yerdən əzəmətlidir. Ona görə də Quran öncə səmaya işarə edir.

**Bildirişlər**

1. Ədalətli cəza və ədalətli mükafat vermək üçün elm və qüdrətə ehtiyac var.

2. Varlıq aləmi məqsədlidir.

3. Allahın mükafatı insanın yaxşı əməlindən qat-qat artıq olur. Cəza isə yalnız insanın pis əməli həddindədir.

4. İnsanın talehi onun öz əlindədir.

*Ayə 32:*

﴿الَّذِينَ يَجْتَنِبُونَ كَبَائِرَ الْإِثْمِ وَالْفَوَاحِشَ إِلَّا اللَّمَمَ إِنَّ رَبَّكَ وَاسِعُ الْمَغْفِرَةِ هُوَ
أَعْلَمُ بِكُمْ إِذْ أَنشَأَكُم مِّنَ الْأَرْضِ وَإِذْ أَنتُمْ أَجِنَّةٌ فِي بُطُونِ أُمَّهَاتِكُمْ فَلَا تُزَكُّوا
أَنفُسَكُمْ هُوَ أَعْلَمُ بِمَنِ اتَّقَى﴾

**“Onlar bilmədən baş verən günahlar istisna olmaqla böyük günahlardan və aşkar çirkin əməllərdən çəkinərlər. Şübhəsiz, (onlara münasibətdə) Rəbbinin məhəməti genişdir. O sizi daha yaxşı tanıyır. O vaxt ki sizi torpaqdan yaratdı, o vaxt ki ananızın bətnində idiniz. Özünüzü eybsiz saymayın, O təqvalıları daha yaxşı tanıyır.”**

## Nöqtələr

”Fəvəahiş” sözü “fahişə” sözünün cəm formasıdır. Fahişə dedikdə dedikdə pisliyi hamıya məlum olan gübah nəzərdə tutulur. Zina fahişəyə misal ola bilər.

Lüğət və təfsir kitablarında “lə məm” sözünün mənası haqqında müxtəlif fikirlər söylənilmişdir. Məsələn: bilmədən baş verilən günah; qərara alınmış amma həyata keçməyən günah; yol verildikdən sonra tövbə qılınan günah; müqabilində əzab vəd edilməmiş günah; müqabilində cəza nəzərdə tutulmamış günah.

Allah əmrinə qarşı istənilən bir həddə müxalifət böyük sayılır. Bununla belə günahlar dərəcə etibarı ilə fərqlənir. Yalan və qeybət kimi günahların çirkinliyi daha çoxdur. Onlar müqabilində daha ağır cəza nəzərdə tutulur. Əlbəttə ki, günahın baş verdiyi zaman və məkanın da, günahkarın niyyət və elminin də, günahın müvəqqəti və ya davamlı olmasının da cəzaya təsiri var.

Günahın böyük-kiçiklik məsələsi Quranda dəfələrlə yada salınmışdır.[1]

Quranda bu da qeyd olunur ki, insanın bütün əməlləri qeydə alınır.[2] Qiyamət günü insanın əməl naməsi açılar və əməllərindən xəbər tutan insan fəryad qoparar.[3]

İmam Riza (ə) böyük günahları belə bir ardıcıllıqla təqdim edir: qətl, zina, oğurluq, şərab içmək, ağvalideynlik, savaş meydanından qaçmaq, yetimin malını zümlə yemək, ölü heyvan əti yemək, qan içmək, donuz əti yemək, Allahdan qeyrisinə kəsilmiş heyvanın ətini yemək, sələmçilik, rüşvətxorluq, qumar, əskik satmaq, pak qadınlara böhtan, həmcinsbazlıq, yalandan şahidlik, Allahın mərhəmətindən ümidsizlik, özünü Allahın əzabından amanda bilmək, Allahın mərhəmətindən ümidsizlik, zalımlara sığınmaq, yalan and, başqalarının haqqını ödəməmək, yalan, təkəbbür, israf, təbzir, xəyanət, Həcci yüngül saymaq, Allah övliyaları ilə düşmənçilik, boş işlərlə məşğul olmaq, kiçik günahın davamı.[4]

İmam Baqir (ə) insanın özünü pak saymaması ilə bağlı buyuruq haqqında bildirir: “Öz namazınız, zəkatınız, orucunuz, ibadətinizlə öyünməyin, Allah təqvalıları yaxşı tanıyır.”[5]

İmam Sadiqdən (ə) soruşdular: “İnsan özünü təriflləyə bilərmi?” Həzrət buyurdu: “Zərurət yarandıqda eybi yoxdur.” Sonra əlavə etdi: “Yusifin Misir hakiminin yanında özünü tərifləməsini, beytül-malın qorunmasında etibarlı və agah adam olduğunu bəyan etməsini eşitməmisinizmi?”[6]

Bir dəstə adam öz aralarında lovğalanaraq deyirdilər: “Dünən oruc idik, sübhədək də namaz qılmışıq.” Həzrət buyurdu: “mən dünən oruc deyildim, gecə də namaz qılmamışam.” Bəli, bəzən başqalarını lovğalıqdan çəkindirmək üçün belə danışmaq lazım gəlir.

---

[1] “Nisa”, 31; “Kəhf”, 49; “Şura”, 37; “Qəmər”, 53
[2] “Qəmər”, 53
[3] “İsra”, 13; “Kəhf”, 49
[4] “Təfsiri-nurus-səqəleyn”
[5] “Təfsiri-kənzul-dəqaiq”
[6] “Yusuf”, 55

Yəhudi bir şəxs İslam peyğəmbərinin (s) yanına gəlib onu kiçiltmək məqsədi ilə həzrət Musanın möcüzələrindən danışdı. Həzrət buyurdu: "İnsanın özünü təriflməsi yaxşı iş deyil. Amma səni başa salmaq üçün deməliyəm ki, həzrət Adəm tövbəsində, həzrət Nuh tufandan qurtulmaq üçün, həzrət İbrahim odda olarkən, həzrət Musa qorxduğu vaxt Allahı Məhəmməd (s) və onun əhli-beytinə (ə) and verdilər. Ey yəhudi! Əgər Musa məni görsəydi iman gətirərdi. Həzrət Mehdi (ə) mənim nəslimdəndir. Həzrət İsa ona yardım üçün səmadan enər və arxasında dayanıb namaz qılar."

### ***Günah məsələsinə bir baxış***

*Məsələnin mühümlüyü*

İnsanın dəyəri onun günah qarşısında müqavimətindən asılıdır. Əgər bir qram qızıla görə günah etsək, dəyərimiz bir qram qızıldır. Yox yüz qram qızıla görə günah etsək, dəyərimiz yüz qram qızldır. Həzrət Əli (ə) buyurur: "And olsun Allaha yer kürəsini mənə versələr ki, qarışqanın ağzından arpa qabığını alıb günah edim, bu işi görmərəm."[1]

*Heç bir günahı kiçik saymayaq*

Həzrət Əli (ə) buyurur: "Ən pis günah insanın kiçik saydığı günahdır.[2]

*Günahdan uzaqlıq Allaha yaxınlıq ölçüsüdür*

Rəvayətdə oxuyuruq: "Allaha müti şəxs Peyğəmbərə (s) qohum olmasa da onun dostudur. Allaha itaətsizlik edən şəxs Peyğəmbərə (s) qohum olsa da, onun düşmənidir."[3]

*Kiçik günahın böyük günaha çevrilməsi*

Bəzi hallarda kiçik günahlar böyük günaha çevrilir. Məsələn: kiçik günahı təkrarlamaq, günahı kiçik saymaq, günah edərkən şadlanmaq, üsyankarlıqla günah etmək, Allahın verdiyi möhlətə görə qürrələnmək, aşkar günah etmək, böyük şəxsiyyətlərin və tanınmış insanların günahı.

*Günahın təsirləri*

Günah sadəcə əməl naməsinə yazılmır, insanı dəyişir. Məsələn, onun qəlbi daşlaşır, nemətlərdən məhrum olur, duaları rədd edilir, ruzisi dəyişir, gecə namazı kimi bəzi ibadətlərə nail ola bilmir, qəfil bəlalara düçar olur, evi dağılır, rüsvay olur, ömrü qısalır, quraqlıq və zəlzələdən əziyyət çəkir, yoxsulluq və cəhalət

---

[1] "Nəhcül-bəlağə", xütbə 224
[2] "Nəhcül-bəlağə", hikmət 477
[3] "Vəsail", c. 15, s. 238

yaxasından yapışır, xəstələnir, qarşısına şər adamlar çıxır. Bu nəticələrin hər biri ilə bağlı ayə və rəvayətlər var.

*Günahı aradan qaldırmaq yolları*

İnsan bir sıra əməl və rəftarlarla öz günahlarını yuya bilər: namaz;[1] istiğfar, tövbə;[2] infaq, sədəqə;[3] başqalarını çətinlikdən qurtarmaq;[4] xeyir əməl;[5] böyük günahlardan uzqlıq;[6] iman və saleh əməl;[7]

cihadda iştirak;[8] salam vermək, acı doyurmaq və gecə namazı[9]

İnsanın özünü tərifləməsi Allahın nemətlərinin bəyanından fərqli bir işdir. Allah-taala insana özünü tərifləməməyi tapşırır, eyni zamanda ilahi nemətləri dilə gətirməsini göstəriş verir.[10]

## Bildirişlər

1. Nişanələri sadalamaqla yaxşı insanları tanıtdıraq.
2. Yaxşı işlər təqva və günahdan uzaqlıqla müşayiət olunduqda dəyərli sayılır.
3. Günahdan uzaqlıq insanın xarakterinə çevrilməlidir.
4. Xeyir əməl sahiblərinin ən aşkar nişanəsi onların kəbirə günahlardan yzaqlığıdır. Bu günahlar böyük qəbahət sayılır.
5. Günaha yaxınlıq insana onu daddırır. (Quranda günahdan uzaqlıq məsələsi önə çəkilir.)
6. Yer üzündə mələk axtarmayın. İnsan xətaya yol verən varlıqdır. Hətta xeyir əməl sahibləri büdrəyə bilər.
7. Tərbiyəçi eybləri örtməli, müəyyən büdrəmələri bağışlamalıdır.
8. Bir anda baş verən və inadkarlıqdan uzaq günahları bağışlamaq lazımdır.
9. Niyyətin əmələ təsiri var. Günaha yol verən şəxsin məqsədi Allaha itaətsizlik deyilsə onu bağışlamaq olar.
10. Allahın mərhəməti günah üçün səbəb ola bilməz. Istənilən bir halda günahdan çəkinmək lazımdır.
11. Hətta böyük günaha yol verənlər də məyus olmamalıdır.
12. Allahın həm elmi, həm də qüdrəti var. Amma eybləri örtür.
13. Allah nəinki bizim bu günümüzü, bətndə olduğumuz dövrü də bilir. Beləsə onun qarşısında lovğalanmayaq.

[1] "Hud", 114
[2] "Nisa", 64
[3] Bax : "Ğurərul-hikəm"
[4] "Vəsail", c. 16, s. 373
[5] "Ənkəbut", 7
[6] "Nisa", 31
[7] "Fürqan", 70
[8] "Ali-İmran", 195
[9] "Vəsail", c. 12, s. 59
[10] "Zuha"

14. Günahdan uzaqlaşanlar özünü öyməsin.

15. İlkin yaranışını, öz keçmişini, zəifliyini yada salan insan özünü öymür.

16. İnsanların islahına onların əqidəsinin islahından başlamaq lazımdır. İlahi elmə etiqad insanı özünü öyməkdən çəkindirir.

17. Əgər üstün cəhətimiz varsa, bunun səbəbkarı Allahdır. Bəs nə üçün özümüzü öyək?!

18. Özünü öyən şəxs təqvalı deyil.

19. Özünü təqvalı göstərməklə təqvalı ola bilməzsən.

*Ayə 33, 34:*

﴿أَفَرَءَيْتَ الَّذِي تَوَلَّى﴾﴿وَأَعْطَى قَلِيلًا وَأَكْدَى﴾

**"Gördünmü üz döndərəni? Azca bağışlayıb əlini sıxanı?"**

*Ayə 35:*

﴿أَعِندَهُ عِلْمُ الْغَيْبِ فَهُوَ يَرَى﴾

**"Qeyb elmini bilirmi, görürmü?!"**

*Ayə 36, 37:*

﴿أَمْ لَمْ يُنَبَّأْ بِمَا فِي صُحُفِ مُوسَى﴾﴿وَإِبْرَاهِيمَ الَّذِي وَفَّى﴾

**"Ona Musanın Tövratında olandan xəbər verilməyib? İbrahim ki (haqqı) tam əda etdi."**

**Nöqtələr**

"Əkda" sözü "kudyə", sözündən olub xəsislik, əli sıxmaq mənasını bildirir. Əslində bərk torpaq belə adlanır. "Zəffa" sözü mübaliğə formasında işlədilmişdir. Yəni həzrət İbrahim bütün hallarda vədinə vəfa etdi.

Ayənin nazil olma şəni ilə bağlı bildirilir ki, bir şəxs infaq əhli idi, ətrafındakılar ona dedilər: "Belə getsə möhtac olacaqsan." Həmin adam da infaqdan əl çəkib xəsislik göstərdi.

Allah-taala həzrət İbrahimi müxtəlif şəkillərdə mədh edir. O əhdinə vəfa edən, həlim, bəsirətli, səmimi, qane, şükür edən, sadiq, saleh, güclü, mömin, xeyirxah, dost, imam, nümunə, bütöv bir ümmət, abid, müsəlman kimi tanıtdırılır.

Quranda iki məqamda İbrahim və Musanın səhifələri yanaşı zikr olunur. Hazırkı surədə və "Əla" surəsinin 19-cu ayəsində. İbrahim hər şeyini verdi. Canını oda, qəlbini Allaha, övladını qurbanlığa, var-dövlətini iman qardaşlarına təslim etdi.

Həzrət Musanı bütün kitab əhli, həzrət İbrahimi Məkkə müşrikləri qəbul etdiyindən onların adı yanaşı zikr olunur.

Xəsislikdən danışılan bir vaxtda həzrət ibrahimin vəfalılığı və isarı qeyd edilir.

**Bildirişlər**

1. Tərbiyə prosesində göz qarşısında olan nümunələrdən istifadə edin.

2. İşdə həm meyl, həm qəlb bağlılığı, həm kəmiyyət, həm də davamlılıq mühümdür. Onlardan birinin olmaması nöqsandır. (“Təvəlla” meylin azlığını, “əta qəlila” işin azlığını, “əkda” davamsızlığı göstərir.)

3. Tərbiyə prosesində şəxlərin adı yox, onların ruhiyyələrini bəyan etmək mühümdür.

4. İnsanın süqutunun mərhələləri var. Öncə etiqadda, sonra əməldə süqut.

5. İmkansızlıqdan az infaq edən şəxs mədh olunur.[1] v İmkanlı adam yetərincə infaq etmədikdə məzəmmət olunur.

6. Bəzən hikmət əsasında az infaq edilə bilər. Məsələn, körpənin sağlamlığına xatir ona az qida verilir. Bəzən isə az ətanın səbəbi xəsislikdir və belə bir hal məzəmmət olunur.

7. Xəsisliyin müalicələrindən biri səxavətli insanları, isar əhlini yada salmaqdır.

8. İnsanın gələcəkdə varlı və ya yoxsul olacağı onun bugünkü xəsisliyindən asılı deyil.

9. Qurandan əvvəlki səmavi kitablar təhrif olunsa da, onların toxunulmamış hissələri var.

10. Səmavi dinlər arasında müştərək prinsiplər var.

11. Başqalarının kamilliklərini və xidmətlərini yada salmaqla onları dəyərləndirin.

12. Təbliğdə əl çatan nümunələrdən istifadə edək. (Besət dövründə həzrət Musa və həzrət İbrahim tanınırdı.)

13. Tərbiyədə həm müsbət, həm də mənfi nümunələr göstərilməlidir.

14. Haqq yolda vəfalılıq böyük kamilliklərdəndir.

***Ayə 38, 39:***

﴿أَلَّا تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى﴾﴿وَأَن لَّيْسَ لِلْإِنسَانِ إِلَّا مَا سَعَى﴾

**“(Bütün səmavi kitablarda var ki) Kimsə başqasının yükünü götürməyəcək. İnsan üçün yalnız çalışdıqları qalar.”**

***Ayə 40, 41:***

﴿وَأَنَّ سَعْيَهُ سَوْفَ يُرَى﴾﴿ثُمَّ يُجْزَاهُ الْجَزَاءَ الْأَوْفَى﴾

**“Tezliklə səy və təlaşı ona göstərilər. Sonra ona kamil cəzasını verərlər.”**

**Nöqtələr**

38-54-cü ayələr həzrət İbrahim və həzrət Musanın kitablarının təlimləridir və İslam bunu qəbul edir.

”Vizr” dedikdə ağır yük mənası anlaşılır. Günah özü ağır yük olduğundan “vizr” adlanır. Məmləkətin idarəçiliyinin ağır yükünü öhdəsinə götürmüş adama “vəzir” deyirlər.

[1] “Tövbə”, 79

Allah insanın yaxşı əməllərinə görə onun pis əməllərini məhv edir. Bəzən insanın istiğfarı səbəbindən ya günahları bağışlanır, ya da pislikləri yaxşılığa çevrilir. Amma insanın günahı heç vaxt başqasının ayağına yazılmır.

Mənbələrdə qeyd olunur ki, ikinci xəlifə hamilə bir qadını zina etdiyi üçün daşqalaq cəzasına məhkum etdi. Həzrət Əli (ə) buyurdu: "Onun bətnində körpə var və həmin körpə günahsızdır." Sonra həzrət hazırkı ayəni oxudu və buyurdu ki, körpə dünyaya gələnədək səbir etsinlər.[1]

Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Zinakar valideynin günahına zinadan doğulan övlad cavabdeh deyil. Sonra həzrət (s) hazırkı ayəni oxumuşdur.[2]

Sual: Əgər insan yalnız qazandığını alırsa şəfaət vasitəsi ilə behiştə daxil olmaq necə izah edilir?

Cavab: Əvvəla hazırkı ayə cahil bir düşüncə tərzini rədd edir. Cahillər deyirdilər ki, mənə filan qədər versən, günahlarımı öz öhdəmə götürərəm. Quran buyurur ki, kimsə başqasının günahını öhdəsinə götürə bilməz.

İkincisi, ayədə Allahın fəzlindən yox, ədalətindən danışılır. Ədalətə əsasən, hər kəs öz təlaşları müqabilində əvəz almalıdır. Amma Allah öz fəzli, lütfü, mərhəməti sayəsində daha artıq mükafatlandıra bilər və ya cəzanı azaldar.[3]

Üçüncüsü, rəvayətdə oxuyuruq ki, özündən sonra yaxşı və ya pis bir ənənə qoyub gedən şəxs bəşəriyyət bu yolu getdikçə əvəz alır. Deyilənlər hazırkı ayə ilə zidd deyil. Özündən sonra yol qoyub gedən insan da dolayısı ilə təlaş göstərmiş olur. Əgər onun qoyduğu yol xeyir yoldursa ömür boyu əvəz alır, pis yoldursa ömür boyu əzab çəkir. Şübhəsiz ki, düz yolda olmayan insan şəfaətdən bəhrələnmir.

Rəvayətdə bildirilir ki, insan öz ölümündən sonra saleh övladının xeyir işlərindən bəhrələnir. İnsanın yazdığı yaxşı bir kitab da onun ölümündən sonra ona fayda verə bilər.[4] İnsanın saleh nəsli onunla behiştdə görüşə bilər.[5] İnsan öz xeyir vəsiyyətindən də bəhrə götürə bilər.[6] Zikr olunan bütün hallarda insan bir başa da olmasa, dolayısı ilə təlaş göstərmişdir. Saleh övlad, vəqf, vəsiyyət, yaxşı bir kitab daimi bir təsirə malikdir.

### Bildirişlər

1. Allahın cəzası da, mükafatı da ədalətlidir.
2. Başqalarına güvənib günah işə yol verməyin. Onlar sizin yükünüzü çəkən deyil.
3. Təyinatlarınızda yaxınlarınızın xətalarını xalqın ayağına yazmayın.
4. Varlıq aləmi təlaş və ibrət meydanıdır.
5. Biz nəticədən asılı olmayaraq vəzifəmizi yerinə yetirməliyik. Çalışmaq vəzifəmizdir.

---

[1] "Bihar", c. 76, s. 49
[2] "Təfsiri-rahnoma", "Təfsiri-dürrül-mənsur"
[3] "Nisa", 173
[4] "Xisal", s. 151
[5] "Tur", 21
[6] "Kafi", c. 4, s. 315

6. Əməlin itib-batmadığına etiqad, mükafat və cəzaların inamlı olmasına inam insanı tələşa həvəsləndirir və onun ehtiyatını artırır.

7. Heç bir əməl silinib getmir.

8. Xeyir əməl sahibləri mükafat almağa tələsməsinlər.

9. İnsan əməllərinin əvəzini dünyada kamil ala bilmir. Yalnız qiyamətdə haqlar tam ödənir.

10. İnsanın müsbət addımlarına daha üstün mükafatlarla cavab verilir.

11. Dünyada cəza verilirsə də, tam cəza qiyamətdədir.

12. Qiyamətin mərhələləri, çoxsaylı dayanacaqları var. (Ayələrdən məlum olur ki, əməlin müşahidə mərhələsi onun dəyərləndirilmə mərhələsindən fərqlidir.)

*Ayə 42, 43:*

﴿وَأَنَّ إِلَى رَبِّكَ الْمُنتَهَى﴾﴿وَأَنَّهُ هُوَ أَضْحَكَ وَأَبْكَى﴾

**"Hamının sonu və dönüşü Allaha doğrudur. Odur güldürən və ağladan."**

*Ayə 44:*

﴿وَأَنَّهُ هُوَ أَمَاتَ وَأَحْيَا﴾

**"Odur öldürən də, diriltdən də."**

**Nöqtələr**

Allah vasitə ilə iş görsə də, əslində bütün fəaliyyətlər ona məxsusdur. "Huvə" ("o" şəxs əvəzliyi) əvəzliyinin təkrarı bütün işlərin Allahın iradəsindən asılı olduğunu göstərir.

Ölüm və həyat, göz yaşı ilə gülüş insanların nəzrində ziddiyyətlidir. Allah üçün bütün bunlar xeyirdir və arada heç bir ziddiyyət yoxdur.

**Bildirişlər**

1. Nə möminlər yorulsun, nə də kafirlər qürrələnsin. Hamının aqibəti Allahın əlindədir və O hamı ilə hesab çəkəcək.

2. Varlıq aləmi Allaha doğru hərəkətdədir.

3. Qəmlənəndə və şadlananda işin sonu barədə düşünün.

4. Həm mükafat və cəza, həm qəm və şadlıq Allahın əlindədir.

5. Həm gülüş, həm də göz yaşı zəruridir. Dyğulu hallarda gülüş və göz yaşına mane olmamalıyıq.

6. Həyatda ifrat və təfritə getmək olmaz, orta hədd gözlənilməlidir.

7. Allah bütün ziddiyyətli işlərə münasibətdə də eyni qüdrətə sahibdir.

8. Qiyamət günü kimin üçünsə şadlıq, kimin üçünsə qəm-qüssə günüdür.

9. Ölüm və həyat Allahın rübubiyyət cilvələrindəndir.

10. Quranın tərbiyə üsulunda ziddiyyətli məsələlərdə də tövhid prinsipi izlənilir.

*Ayə 45, 46, 47:*

﴿وَأَنَّهُ خَلَقَ الزَّوْجَيْنِ الذَّكَرَ وَالْأُنثَى﴾﴿مِن نُّطْفَةٍ إِذَا تُمْنَى﴾ وَأَنَّ عَلَيْهِ النَّشْأَةَ الْأُخْرَى﴾

**"Odur erkək və dişi olmaqla zövc yaradan; axıb tökülən zaman nütfədən; (qiyamətdə) yenidən yaranış da onun öhdəsinədir."**

***Ayə 48, 49:***

﴿وَأَنَّهُ هُوَ أَغْنَى وَأَقْنَى﴾﴿وَأَنَّهُ هُوَ رَبُّ الشِّعْرَى﴾

**"Odur ehtiyacı ödəyən və möhtac qoyan; Odur şiranın (ulduzun) Rəbbi."**

**Nöqtələr**

"Ğina" sözündən "əğma" sözü ehtiyacsızlıq mənasını bildirir. "Qunih" sözündən olan "əqna" sözü sərvət toplamaq mənasını ifadə edir.[1] Bəziləri bu sözü yoxsullaşdırmaq mənasında qəbul etmişlər.[2] Həzrət Əli (ə) "əğna" və "əqna" ayəsinin təfsiri ilə bağlı buyurur: "Allah həm ehtiyacı ödəyir, həm də insanı həmin qazancla sevindirir."[3]

"Şira" bir qrup insanın özünə məbud seçdiyin insanın adıdır. Onlar düşünürdülər ki, bu ulduz onların maddi imkanlarına təsirlidir. Quran buyurur ki, bu ulduz sizin həyatınıza təsirli deyil, Allahın məxluqudur. Bəzi təfsirçilərin nəzərincə, şira büt adıdır.[4]

Zövciyyət (cütlük) həyatın davam rəmzidir. Əgər cütlük olmasa həyat hərarətdən düşər və zaman ötdükcə süquta uğrayar.

**Bildirişlər**

1. Zövciyyət qanununu Allah müəyyənləşdirmişdir. Bu qanun insanlar arasında tənzimlənmiş qanun deyil.
2. Bir maddi ünsür üzərində ziddiyyətli proqramların işə salınması Allahın qüdrət və müdriyyət nişanəsidir.
3. Canlıların erkək və dişi olaraq cüt yaranışı həm təəccüb doğuran həqiqətlərdəndir, həm də həyatın zərurətlərindən.
4. Qadın və kişi ilkin yaranış ünsürü baxımından eynidirlər.
5. Su damlalarından canlı mövcud yaradan Allah ölmüş zərrələri də diriltə bilər.
6. Ölülərin dirildilməsi və qiyamətin bərpası zəruridir.
7. Həm yaranış, həm yaranışdakı çeşidlilik Allah tərəfindəndir. Allah həm yaranış çövhərini xəlq etmiş, həm də bu yaranışa davam vermişdir. Bu gün və sabahla bağlı müqəddəratlar da Allahın əlindədir.
8. Ehtiyacsızlığı başqalarından yox, Allahdan istəyək.

[1] "Mufrədate-Rağib"
[2] "Qamusi-Quran"
[3] "Təfsiri-Qummi"
[4] "Təfsiri-nümunə"

9. Ehtiyacsızlıq Allahın əlindədirsə, xəsislik nəyə lazım?!

10. Həm bətndəki nütfə, həm də səmadakı ulduzlar Allahın müdiriyyəti altındadır.

*Ayə 50, 51:*

**﴿وَأَنَّهُ أَهْلَكَ عَادًا الْأُولَى﴾﴿وَثَمُودَ فَمَا أَبْقَى﴾**

**“Odur öncəki ad qövmünü həlak edən; Səmudu da salamat buraxmadı.”**

*Ayə 52:*

**﴿وَقَوْمَ نُوحٍ مِّن قَبْلُ إِنَّهُمْ كَانُوا هُمْ أَظْلَمَ وَأَطْغَى﴾**

**“Onlardan öncə daha zalım və daha azğın olan Nuh qövmünü (məhv etdi).”**

*Ayə 53, 54:*

**﴿وَالْمُؤْتَفِكَةَ أَهْوَى﴾﴿فَغَشَّاهَا مَا غَشَّى﴾**

**“Lut qövmünün şəhərlərini alt-üst etdi; həmin şəhərləri (qəzəbi ilə) örtdükcə örtdü.”**

*Ayə 55, 56:*

**﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكَ تَتَمَارَى﴾﴿هَذَا نَذِيرٌ مِّنَ النُّذُرِ الْأُولَى﴾**

**“Rəbinin hansı nemətlərinə şəkk edirsən? Bu (peyğəmbər) öncəki qorxudanlar zümrəsindən bir qorxudandır.”**

## Nöqtələr

”İntifak” sözündən olan “mutəfikə” sözü alt-üst olmuş mənasını bildirir. Ad qövmünün yaşadığı şəhərlər ilahi əzab nəticəsindən alt-üst olduqlarından ayədə “vəl mutəfikətə əhva” buyurulur. “Əhva” sözü uçulub sökülmək mənasını ifadə edir. “Tətəmara” dedikdə şəkk-şübhə yaratmaqla müşahidə olunan mübahisə mənası anlaşılır.

”İnnəhum kanu hum əzləmə və ətğa” cümləsi Ad və Səmud qövmündən də zalım olan Nuh qövmünə, ya da Ad, Səmud və Nuh qövmlərinə aiddir. Bu üç qövm həlak olmuş digər qövmlərdən daha zalım və daha azğın olmuşlar.

## Bildirişlər

1. Bütün cəzalar qiyamətə saxlanılmır. Allah-taala bəzi qövmləri elə dünyada həlak edir.

2. Keçmiş qövmlərin başına gələnlərdən ibrət götürək.

3. Zülm və azğınlıq, xüsusi ilə bu yönümdə davamlı hərəkət insanı məhvə aparır.

4. Tarix, hadisələr və təbəddülatların mütaliəsində onların fəlsəfəsinə diqqət yetirilməlidir.

5. Zalımların məhvi Allahın lütf və nemətlərindən biridir.

6. Bütün peyğəmbərlərin və səmavi kitabların əsas vəzifəsi bəşəriyyətə xəbərdarlıq olmuşdur.

*Ayə 57, 58:*

﴿أَزِفَتْ الْآزِفَةُ﴾﴿لَيْسَ لَهَا مِن دُونِ اللَّهِ كَاشِفَةٌ﴾

**“Qiyamət yaxınlaşdı; Allahdan savayı həmin günü (onun çətinliklərini) aradan qaldırası kəs yox.”**

*Ayə 59, 60:*

﴿أَفَمِنْ هَذَا الْحَدِيثِ تَعْجَبُونَ﴾﴿وَتَضْحَكُونَ وَلَا تَبْكُونَ﴾

**“Bu sözlərə təəccüb edirsiniz? Gülürsünüz və ağlamırsınız?”**

*Ayə 61, 62:*

﴿وَأَنتُمْ سَامِدُونَ﴾﴿فَاسْجُدُوا لِلَّهِ وَاعْبُدُوا﴾

**“Bir halda ki qafil və həvəsbazsınız; yalnız Allaha səcdə qılın və ona pərəstiş edin.”**

**Nöqtələr**

”Azifə” dedikdə yaxınlaşan, “samid” səhv, qəflət və təkəbbür mənaları anlaşılır.

”Təfsiri-fürqanda” bildirilir ki, bu ayələr nazil olandan sonra Peyğəmbər (s) ömürünün sonunadək gülmədi, çöhrəsində yalnız təbəssüm göründü.

”Hazəl-hədis” deyərkən Quran nəzərdə tutula bilər. Çünki “Zumər” surəsinin 23-cü ayəsində də uyğun söz eyni mənanı ifadə edir.

**Bildirişlər**

1. Qiyamətin uzaq olduğunu düşünməyin.
2. Dünyanın bütün vasitələri bir yerə toplansa qiyamət problemlərindən bir zərrə azalda bilməz.
3. Bəzilərinin qiyamətə təəccübü özü təəccüb doğurur.
4. Qiyamətə inanan insan bu barədə çox düşünür, az gülür.
5. Gülüş bəəzn təkəbbür və sərxoşluğu göstərir.
6. Təkəbbür və məstliyin çarəsi səcdə və ibadətdir.

## “QƏMƏR” SUƏRSİ

***(54-CÜ SURƏ; 55 AYƏ)***

***İYİRMİ YEDDİNCİ CÜZ***

***“QƏMƏR” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 55 ayədən ibarətdir. Surənin 1-ci ayəsində "şəqqül-qəmər" məsələsinə işarə olunduğundan surə "Qəmər" adlandırılmışdır.

"Qəmər" surəsinin bütün ayələri "ra" hərifi ilə başa çatır. Öncəki surə məad mövzusunun yada salınması ilə başa çatdı. Hazırkı surə məad mövzusu ilə başlayır. Surədə daha çox qiyamət, peyğəmbərlik, peyğəmbər müxalifləri haqqında danışılır. "Qəmər" surəsində Allah-taala Nuh, Ad, Səmud, Lut və Firon qövmlərinin taleyinə işarə edir.

بِسمِ الله الرحمن الرَحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1, 2:*

﴿اِقْتَرَبَتِ السَّاعَةُ وَانشَقَّ الْقَمَرُ﴾﴿وَإِن يَرَوْا ءَايَةً يُعْرِضُوا وَيَقُولُوا سِحْرٌ مُّسْتَمِرٌّ﴾

**"Qiyamət yaxınlaşdı, ay parçalandı. Bir möcüzə gördükdə üz çevirər və deyərlər: "Bu davamlı bir sehrdir."**

*Ayə 3:*

﴿وَكَذَّبُوا وَاتَّبَعُوا أَهْوَاءهُمْ وَكُلُّ أَمْرٍ مُّسْتَقِرٌّ﴾

**"Təkzib etdilər, nəfs istəklərinə tabe oldular. Hər bir işin (sonu) dayanacağı var."**

**Nöqtələr**

Ayın parçalanma hadisəsi şiə və sünni təfsirlərində, hədis kitablarında qeyd olunmuşdur. Rəvayətlərə əsasən, kafirlər həzrət Peyğəmbərə (s) ayı parçalamağı təklif etdilər. Onlar deyirdilər: "Sehr-cadunun göylərə təsiri yoxdur. Əgər ay parçalansa Məhəmmədin (s) işi möcüzədir."

Günəş sistemindəki planetlərin bir vaxt günəşdən ayrılması, səmadakı kütlələrin ulduzlardan qopması ayın parçalanma imkanını göstərir.

Maraqlıdır ki, gecə yarı ayın parçalanması hadisəsi giriş təbliğatı olmadan baş verdi. Əksəriyyət yuxuda idi. Məkkə və şam müsafirləri, hətta Hindistan əhalisi ayın parçalanmasını müşahidə edə bildilər. Qədim Hind salnamələrində qeyd olunur ki, filan hadisə ay ikiyə parçalanan il baş verdi.

**Bildirişlər**

1. Qiyamət yaxın və labüddür. Dünyanın ömründən bir şey qalmayıb. Beləsə, diqqətsiz qalmayaq, axirət üçün azuqə toplayaq.

2. Qiyamət yetərincə həssas və mühüm andır. (Surədə heç bir müqəddiməsiz qiyamət haqqında danışılır. Necə ki zəlzələ barədə xəbər verən insan heç bir girişsiz "zəlzələ, zəlzələ" deyə haray salır)

3. Daş qəlbli insanlarla danışarkən qiyaməti yada salın.

4. Səma cisimlərinin dəyişməsi, parçalanması mümkündür.

5. Şəqqül-qəmər həzrət Peyğəmbərin (s) xüsusi möcüzələrindən idi və İslam ümmətinin qiyamətə yaxınlaşdığını göstərirdi.

6. Peyğəmbərin bir çox möcüzələri olmuşdur. Kafirlər bütün möcüzələri sehr adlanmışlar.

7. Üz döndərmək inadkarların həmişəki xasiyyətidir.

8. İnsan nəfs istəklərinə uyduğundan haqdan üz çevirir, dini təkzib edir.

9. Hər gecənin bir səhəri var. Şübhəsiz, bir gün haqq qalib gələsidir.

*Ayə 4:*

**﴿وَلَقَدْ جَآءَهُم مِّنَ الْأَنبَآءِ مَا فِيهِ مُزْدَجَرٌ﴾**

**“Həqiqətən, onların (küfürdən) əl çəkməsinə səbəb olası mühüm xəbərlər gəldi.”**

*Ayə 5:*

**﴿حِكْمَةٌ بَالِغَةٌ فَمَا تُغْنِ النُّذُرُ﴾**

**“(Həmin xəbərlər) Yetərli bir hikmət olsa da, qorxudulanlara (inadkarlara) bir faydası olmadı.”**

*Ayə 6:*

**﴿فَتَوَلَّ عَنْهُمْ يَوْمَ يَدْعُ الدَّاعِ إِلَى شَيْءٍ نُّكُرٍ﴾**

**“Onlardan üz çevir. Nida edənin onları xoşagəlməyən bir şeyə doğru (cəhənnəm əzabına) çağıracağı günü gözlə.”**

**Nöqtələr**

”Muzdəcər” sözü rədd, qadağan etmək mənasını bildirir. Yəni qiyamət xəbərləri günahın qarşısını ala bilər. “Nukur” dedikdə qaranlıq, xoşagəlməyən bir iş mənası anlaşılır.

**Bildirişlər**

1. İslahatçılar və təbliğatçılar keçmişin tarixindən xəbərdar olmalıdırlar.

2. Tarix oyanış, günahdan çəkinmə vasitəsi ola bilər.

3. Qurandakı qiyamət xəbərləri insanı küfür və günahdan çəkindirən vasitə ola bilər.

4. Tarix hikmətamizdir.

5. Allah xəbərdarlığı başa çatdırır, höccəti tamamlayır. Təəssüf ki, insanlar xəbərdarlıqlara biganə qalır.

6. İnsana nəfs istəkləri hakim olsa, nə birbaşa, nə də dolayı təbliğin təsiri olar.

7. Hikmət sahibi olan tərbiyəçi öz xəbərdarlıqlarını həqiqi dastanlar şəklində bəyan edir.

8. Quranın bildirişləri ağıla batan və dərk olunandır.

9. Peyğəmbərlərin təbliğatlarının təsirsizliyi təbliğin kəsərsizliyini və ya mövzunun zəifliyini göstərmir.

10 Canıyananlıq və məsuliyyətin həddi var. (Məsələnin mahiyyəti açıqlandıqdan və ardıcıl xəbərdarlıq olduqdan sonra üz döndərmək lazım gəlir)

Sədi deyir:

*Şoranlıq torpaqda sünbül cücərməz,*
*Nə əksən zəhmətin olası əbəs.*

11. Qiyamətdə insanları behişt və cəhənnəmə dəvət edən çağırışçılar var.

12. Qiyamət mövzuları insan üçün mübhəm və xoşagəlməzdir.

***Ayə 7:***

**﴿خُشَّعًا أَبْصَارُهُمْ يَخْرُجُونَ مِنَ الْأَجْدَاثِ كَأَنَّهُمْ جَرَادٌ مُّنتَشِرٌ﴾**

**“Onlar (qorxu və dəhşətdən) gözləri yerə dikilmiş halda pərakəndə çəyirtkələr tək qəbirlərdən xaric olarlar.”**

**Nöqtələr**

”Əcdas” sözü qəbir mənasını bildirən “cədəs” sözünün cəm formasıdır.

Gözlərin yerə dikilməsinin səbəbi ya qorxudur, ya da xəcalət.

Qiyamətdə günahkarların çəyirtkəyə oxşadılması onların qəbirlərdən çıxarkən başlarını itirməsini və heyrətə gəlməsini göstərir.

**Bildirişlər**

1. Ruhi durum cismə təsir göstərir.
2. Məad cismanidir.
3. Ən üstün misal göz qarşısında olan misaldır.

***Ayə 8:***

**﴿مُّهْطِعِينَ إِلَى الدَّاعِ يَقُولُ الْكَافِرُونَ هَذَا يَوْمٌ عَسِرٌ﴾**

**“Boyunlarını çəkmiş halda çağırışçılara doğru qaçarlar. Kafirlər deyər: “Bu çətin bir gündür.”**

**Nöqtələr**

“İhta” sözündən olan “muhtin” sözü nigarançılıq və heyrətdən boyunu çəkmək və ya sürətlə qaçmaq mənasını bildirir.

Kafirlər qiyamətdə çeşidli çətinliklərlə üzləşərlər: çarəsizlik, susuzluq və aclıq, rüsvayçılıq, sorğu, şəfaətçidən məhrumluq, azuqənin olmaması, vaxtın uzun çəkməsi, pis adamlarla qonşuluq, həsrət, təhqir, yaxşılardan uzaqlıq, başqalarının şəkk-şübhəsi.

Hansı ki, iman əhli üçün həmin gün nə qorxu, nə də qəm-qüssə var.

**Bildirişlər**

1. Qiyamət günü qəbirlərdən çıxarkən tələskənliyin səbəbi çağırışçıya dərhal cavab verməkdir.

2. İnsanlar nida və çağırış yolu ilə qiyamət səhnəsinə toplanar.

3. Qiyamət möminlər yox kafirlər üçün çətindir.

***Ayə 9:***

﴿كَذَّبَتْ قَبْلَهُمْ قَوْمُ نُوحٍ فَكَذَّبُوا عَبْدَنَا وَقَالُوا مَجْنُونٌ وَازْدُجِرَ﴾

**“Bundan (kafirlər peyğəmbəri təkzib etməmişdən) öncə Nuh qövmü bizim bəndəmizi təkzib etdi. Onlar dedilər: “O divanədir, doğru yoldan çıxıb.”**

***Ayə 10:***

﴿فَدَعَا رَبَّهُ أَنِّي مَغْلُوبٌ فَانتَصِرْ﴾

**“Nuh Rəbbini çağırdı: mən məğlub oldum, mənə yardım göstər.”**

***Ayə 11:***

﴿فَفَتَحْنَا أَبْوَابَ السَّمَاء بِمَاء مُّنْهَمِرٍ﴾

**“Biz səmanın qapılarını yağış yağdırmaqla açdıq.”**

**Nöqtələr**

Ayədə “fənsur” əvəzinə “fəntəsir” sözü işlədilmişdir. Yəni Pərvərdigara, öz dinin üçün mənə yardım göstər, mənim qələbəm Sənin yolunun qələbəsidir.[1]

”Həmər” sözündən olan “munhəmir” sözü göz yaşı, su axıtmaq mənasını bildirir.

İmam Baqir (ə) buyurur: “Həzrət Nuh 950 il aşkar və gizli təbliğ etdi. Amma azğın xalq qəbul etmədiyindən özünü məğlub saydı.[2]

Quranda cəmi bir yerdə “məğlub” sözü işlədilmişdir. Allah peyğəmbərlərə salam verərkən də yalnız bir yerdə “fil aləmin” təbirindən istifadə edir. Hər iki söz həzrət Nuhla əlaqəlidir.[3]

**Bildirişlər**

1. Allah-taala İslam peyğəmbərinə təsəlli verir və bildirir ki, nigaran olma, başqa peyğəmbərlərin də problemləri olub.

2. Keçmiş qövmlərinin tarixinin mütaliəsi insanın səbir və müqavimətini gücləndirir.

3. Allah-taala sözün əvvəlində Nuh, Ad, Səmud və Lut qövmləri haqqında danışmaqla təkzibin təhlükəsini nəzərə çatdırır.

4. Peyğəmbərlərin ən üstün səciyyəsi Allaha bəndəlik idi.

---

[1] “Mofrədate-Rağib”

[2] “Təfsiri-nurus-səqəleyn”

[3] “Saffat”, 79

5. Günahkarlar öz əməllərinə don geyindirir.
6. Peyğəmbərlər ən çətin vaxtlarda Allahın lütfünə ümid bəsləyirlər.
7. Məğlub olmaq və zəiflik haqsızlığı göstərmir.
8. Peyğəmbərlərin duası qəbuldur.
9. Duanın qəbulu üçün insanlardan ümidi üzmək şərtdir.
10. Təbii amillər də ilahi yardımçılar kimidir.
11. Mərhəmət cilvəsi bəəzn əzab vasitəsi olur.

*Ayə 12:*

﴿وَفَجَّرْنَا الْأَرْضَ عُيُونًا فَالْتَقَى الْمَاء عَلَى أَمْرٍ قَدْ قُدِرَ﴾

**"Yerdən çeşmələr qaynatdıq. Su müəyyən olunmuş iş üçün bir-birinə qovuşdu."**

*Ayə 13, 14:*

﴿وَحَمَلْنَاهُ عَلَى ذَاتِ أَلْوَاحٍ وَدُسُرٍ﴾﴿تَجْرِي بِأَعْيُنِنَا جَزَاء لِّمَن كَانَ كُفِرَ﴾

**"Nuhu taxtalar və mismarlardan düzəlmiş (gəmiyə) süvar etdik. Gəmi nəzarətimiz altında hərəkətə gəldi. (Bu iş) Təkzib və inkar olunmuş peyğəmbərin mükafatı idi."**

*Ayə 15, 16:*

﴿وَلَقَد تَّرَكْنَاهَا آيَةً فَهَلْ مِن مُّدَّكِرٍ﴾﴿فَكَيْفَ كَانَ عَذَابِي وَنُذُرِ﴾

**"Həqiqətən, biz gəmini nişanə olaraq saxladıq. İbrət götürən varmı? Necədir mənim əzabım və xəbərdarlığım?**

## Nöqtələr

"Dusur" sözü "mismar" mənası bildirən "disar" sözünün cəm formasıdır. "Nuzur" sözü "nəzir" sözünün cəm formasıdır, amma hazırda xəbərdarlıq edən yox, xəbərdarlıq mənasında işlədilmişdir.[1]

Tam bir gəmi hazırlanmasına baxmayaraq Allah-taala bir ovuc taxta və mismardan danışır. Olsun ki, məqsəd qurtuluş vasitəsi kimi gəmini ikinci plana keçirmək, Allahın iradəsini önə çəkməkdir.

Nuhun gəmisinin xüsusiyyətləri vardı: gəmi Allahın əmri ilə düzəldilmişdi, gəmini peyğəmbər düzəltmişdi, gəmi dənizdən uzaq quru bir ərazidə düzəldilmişdi (rəvayətlərə əsasən Kufə məscidinin yerində), gəmiyə bütün canlılardan götürülmüşdü, gəmi Allahın nəzarəti altında hərəkət edirdi, gəminin qarşısında dağ hüdürlükdə dalğalar vardı, yer üzündə qalan bütün möminlər gəmiyə süvar olmuşdu, bu gəmi yeganə qurtuluş vasitəsiydi.

Ayədə peyğəmbərin qurtuluş vasitəsi olmuş taxta və mismar ilahi ayələr kimi tanıtdırılır.

## Bildirişlər

[1] "Lisanul-ərəb"

1. Bulaqlar Allahın iradəsi ilə qaynayır, sular Allahın iradəsi ilə hərəkət edir.

2. Allah bir iş görmək qərarına gəldiyi vaxt göy və yer həmkarlıq edir.

3. Allahın qəzəbinin və təbii amillərin həmkarlığının hesab-kitabı var.

4. Taxta və mismar çoxdur. Amma Nuhun ixtiyarındakı taxta və mismarları qurtuluş vasitəsi edən Allah oldu.

5. Allaha xalis bəndə olsaq o bütün ehtiyaclarımızı təmin edər.

6. Allahın nəzərdə tutduğu işlər təbii vasitələr və insanın təlaşları yolu ilə həyata keçir.

7. Təkcə gəminin hazırlanması yox, onun hərəkəti də Allahın nəzarəti altında olmuşdur.[1]

8. Peyğəmbərlər inkar olunmayası nemətlərdir. Bu nemətlər müqabilində nankorluq səbəbindən Allah kafirləri cəzalandırır, peyğəmbərlərə mükafat verir.

9. Bütün cəzalar qiyamətə saxlanılmır.

10. Nuhun gəmisi İslamın zühur dövrünədək qorunmuşdur.

11. Nuhun gəmisi tarix boyu qalasıdır. (Necə ki Fironun cəsədi hifz olunub.)

12. Keçmiş qövmlərin təkamül və ya süqutundan danışan tarixi əsərlər qorunmalıdır.

13. Allahın iradəsi və övliyaların əli ilə yerinə yetirilən iş mübarəkdir. (Nuhun gəmisi həmin vaxt möminləri xilas etdi, bütün heyvan növləri qorundu. Bu iş ibrət dərsi idi.)

14. İlahi əyələrə diqqət və bəsirətlə baxmaq lazımdır.

15. İnsanın doğru yola gəlişi üçün təkcə xarici amillər bəs etmir, onda qəbul ruhiyyəsi olmalıdır.

16. Keçmiş qövmlərə verilən əzab gələcəkdəkilər üçün ibrət səbəbi olmalıdır.

17. Allahın qəhr-qəzəbi çoxsaylı xəbərdarlıqlardan sonra gerçəkləşir.

***Ayə 17:***

**﴿وَلَقَدْ يَسَّرْنَا الْقُرْءَانَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ﴾**

**“Həqiqətən, biz Quranı öyüd götürülsün deyə asan etdik. Öyüd götürən varmı?”**

**Nöqtələr**

Quran müxtəlif baxımlardan asandır. Quranın söz tərkibi onun oxunuşunu asanlaşdırmış, həm də gözəlləşdirmişdir. Dastanlar və məsəllər şəklində təqdim olunan məzmun bəşərin fitrətinə uyğundur və asanlıqla qəbul edilir.

Hazırkı ayə bu surədə dörd dəfə təkrarlanmışdır: 17, 22, 32, 40-cı ayələr.

Quran asan olsa da onun oxşarını yaratmaq qeyri-mümkündür.[2]

**Bildirişlər**

---

[1] “Hud”, 37

[2] “İsra”, 88

1. Doğru yola çağıranların vəzifəsi asan anlaşılacaq tərzdə danışmaqdır.

2. Quran asan anlaşılır, amma durğun deyil.

3. Quranın missiyası insanların fitrətini oyatmaqdır.

4. Nə qədər asan danışsaq, dinləyici bir o qədər çox olar.

5. Həm təbiət (fitrət, təkvin), həm də şəriətlə bağlı ayələr haqqında düşünmək lazımdır.

6. Qurandan hər adama bəhrələnə bilmir, bundan ötrü ləyaqət lazımdır. Qurandan bəhrələnmə qəflət yox, zikr əhlinə aiddir.

7. Münasib zəmin qəbul üçün bəs etməyə bilər. Bəzən tam şərait yaransa da insan nəfs istəkləri səbəbindən həqiqəti qəbul etmir.

***Ayə 18:***

﴿كَذَّبَتْ عَادٌ فَكَيْفَ كَانَ عَذَابِي وَنُذُرِ﴾

**“Ad qövmü (öz peyğəmbərini) təkzib etdi. Mənim əzab və xəbərdarlığım necə idi?”**

***Ayə 19:***

﴿إِنَّآ أَرْسَلْنَا عَلَيْهِمْ رِيحًا صَرْصَرًا فِي يَوْمِ نَحْسٍ مُّسْتَمِرٍّ﴾

**“Biz uğursuz bir gündə onların üzərinə ardıcıl möhkəm və soyuq küləklər göndərdik.”**

***Ayə 20, 21:***

﴿تَنزِعُ النَّاسَ كَأَنَّهُمْ أَعْجَازُ نَخْلٍ مُّنقَعِرٍ﴾﴿فَكَيْفَ كَانَ عَذَابِي وَنُذُرِ﴾

**“(Həmin bərk külək) İnsanları kökündən qoparılmış xurma ağacları tək yerindən oynatdı. Bizim əzab və xəbərdarlığımız necə idi?”**

***Ayə 22:***

﴿وَلَقَدْ يَسَّرْنَا الْقُرْءَانَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ﴾

**“Həqiqətən, biz Quranı öyüd götürülsün deyə asan etdik. Öyüd götürən varmı?”**

**Nöqtələr**

”Yəvmi nəhsin mustəmirr” dedikdə həmin bərk küləyin bir neçə gün ardıcıl davam etdiyi nəzərdə tutulur. “Fussilət” surəsinin 16-cı ayəsində də oxşar məzmunla rastlaşırıq. “Mustəmir” dedikdə ardıcıl mənası anlaşılır. “Haqqə” surəsində həmin günlərin sayı bəyan olunur. (7-gecə, 8 gün)

”Qər” sözündən olan “munqəir” sözü kökündən qoparılmış mənasını bildirir. “Əcaz” sözü arxa və ya aşağı hissə, gövdə mənası bildirən “əcuz” sözünün cəm formasıdır.

Yeni dövrün pisliyi və ya yaxşılığı ya onda baş verən hadisələrdən, ya da bizə aydın olmayan uğur və ya uğursuzluqdan asılıdır.

### Bildirişlər

1. Ad qövmü Nuh qövmünün məhvindən ibrət götürmədi.
2. Təkzib və inkar Ad qövmünün xarakterinə çevrilmişdi.
3. Xəbərdarlıq və əzab arasında rabitə var. (Öncə xəbərdarlıq, səmərəsi olmasa əzab)
4. Tarix barədə düşünün.
5. Təkzibin sonu Allahın əzabıdır.
6. Möhkəm külək kimi təbii amillər cəza vasitəsi ola bilər.
7. Dövrlər bir-birindən fərqlənir. (Bəzi dövrlər qədr gecəsi kimi mübarək, bəzi dövrlər isə uğursuzdur.)
8. Allahın iradəsi ilə külək yüksəliş və ya tənəzzül vasitəsi ola bilər.
9. Bəşəriyyət nə qədər inkişaf etsə də Allahın qəhri qarşısında çör-çöp kimidir.
10. Ad qövmü güclü bir qövm idi.
11. Tərbiyə prosesində bəzi nöqtələrin təkrarı zəruridir.
12. Tarixin nəqlində əsas məqsəd (ibrət götürülməsi) yaddan çıxmasın. (Hər hissənin bəyanından sonra əsas məqsəd qeyd edilsin.

*Ayə 23, 24:*

﴿كَذَّبَتْ ثَمُودُ بِالنُّذُرِ﴾﴿فَقَالُوا أَبَشَرًا مِّنَّا وَاحِدًا نَّتَّبِعُهُ إِنَّا إِذًا لَّفِي ضَلَالٍ وَسُعُرٍ﴾

**“Səmud qövmü xəbərdarlıq edəni (peyğəmbəri) təkzib etdi. Dedilər: “Aramızdan olan tək-tənha birinəmi tabe olaq? Belə etsək dərin bir azğınlıq və divanəliyə düçar olarıq.”**

*Ayə 25, 26:*

﴿أَأُلْقِيَ الذِّكْرُ عَلَيْهِ مِن بَيْنِنَا بَلْ هُوَ كَذَّابٌ أَشِرٌ﴾﴿سَيَعْلَمُونَ غَدًا مَّنِ الْكَذَّابُ الْأَشِرُ﴾

**“Bizim aramızdan yalnız onamı vəhy olur? Əslində o çox yalançı və xüdbindir. Gələcəkdə biləcəklər ki, yalançı və xüdbin kimdir.**

*Ayə 27:*

﴿إِنَّا مُرْسِلُو النَّاقَةِ فِتْنَةً لَّهُمْ فَارْتَقِبْهُمْ وَاصْطَبِرْ﴾

**“Həqiqətən, biz dişi dəvəni onları sınağa çəkmək üçün göndərdik. (Həzrət Salehə dedik) Onların işinin sonunu gözlə, dözümlü ol.”**

### Nöqtələr

”Suur” sözü “səir” sözünün cəm forması olub, od və “sər” sözünün cəm forması olub divanə mənasını ifadə edə bilər. Özünə vurğun adam isə “əşir” adlanır.

24-cü ayədə kafirlər peyğəmbərə deyirdilər ki, əgər sənə itaət etsək, ya yolumuzu azmış, ya da ağlımızı itirmiş olarıq. 47-ci ayədə bəyan olunur ki, günahkarlar yollarını azmışlar və cəhənnəmdədirlər.

Səmud qövmü həzrət Salehdən dağın köksündən dəvə çıxarmasını istədi. Saleh bu işi gördü, amma insanlar həmin dəvəni öldürdülər.

Kafirlər peyğəmbərləri qəbul etməmək üçün bir neçə bəhanə gətirmişlər: “O da bizim kimi insandır; o tək-tənha bir nəfərdir; biz çoxuq və çoxun bir nəfərə itaəti düzgün deyil.

Amma bu bəhanələrin heç biri məntiqi deyil. Çünki peyğəmbərin insan nəslindən olması onun imtiyazlı tərəfidir. Yalnız bəşər nəslindən olan peyğəmbər insanlara nümunə sayıla bilər. Bütün peyğəmbərlər bir nəfər olub. Çoxları təkbaşına qiyam qaldırıb böyük islahatlara nail olub. Nəhayət, əsas ardıcılların və ya rəhbərin sayı yox, haqqın qələbəsidir!

**Bildirişlər**

1. Səmud qövmünün işi ardıcıl şəkildə təkzib etmək idi.
2. Kafirlərin peyğəmbərlər qarşısında heç bir məntiqi və dəlili olmayıb. Onlar sadəcə etiraz edirdilər ki, nə üçün biz yox, o peyğəmbər olmalıdır?
3. Peyğəmbərlər adi həyat tərzi yaşamışlar.
4. Bəzən insan xaraktercə o qədər alçalır ki, məsum şəxsi peyğəmbər kimi qəbul etmir, cansız daşı-taxtanı Allah kimi qəbul edib ona pərəstiş qılır.
5. Bəzən insan o qədər süqut edir ki, məntiq və möcüzəsi olan peyğəmbərə itaəti azğınlıq sayır.
6. İnsanlar arasında şəkk-şübhə yaratmaq haqqın təkzibi üçün zəmindir.
7. Həm Quran, həm öncəki peyğəmbərlərə nazil olan zikrdir.[1]
8. İnadkar kafirlər Allahın peyğəmbərini eqoist sayırdılar.
9. Yalınçılıq və eqoistliyi hətta inadkar kafirlər də bəyənmirdi. (Bu səbəbdən də peyğəmbəri yalançı və eqoist adlandırırdılar)
10. Din təbliğatçıları ən acı sözlər eşitməyə hazır olmalıdırlar.
11. Əsassız sözlərə cavab verin.
12. Qiyamət həqiqətlərin aşkar olduğu, kafirlərin alçaldığı gündür.
13. Möcüzələr insanlar üçün sınaq vasitəsidir.
14. Peyğəmbərlər öz ümmətlərini nəzarət altında saxlayırlar.
15. Dini rəhbərlər səbirli olmalıdır.

***Ayə 28:***

**﴿وَنَبِّئْهُمْ أَنَّ الْمَآءَ قِسْمَةٌ بَيْنَهُمْ كُلُّ شِرْبٍ مُّحْتَضَرٌ﴾**

**“Onlara xəbər ver ki, su onlarla dəvə arasında bölünmüşdür. Hərə öz payını almaq üçün hazır olsun.”**

***Ayə 29, 30:***

**﴿فَنَادَوْاْ صَاحِبَهُمْ فَتَعَاطَى فَعَقَرَ﴾﴿فَكَيْفَ كَانَ عَذَابِي وَنُذُرِ﴾**

**“Onlar öz dostlarını çağırdılar. O da həddini aşıb dəvəni öldürdü. Bax gör mənim əzabım və xəbərdarlığım necədir!”**

[1] “Hicr”, 9

*Ayə 31:*

**﴿إِنَّآ أَرْسَلْنَا عَلَيْهِمْ صَيْحَةً وَاحِدَةً فَكَانُوا كَهَشِيمِ الْمُحْتَظِرِ﴾**

**“(Bu cinayətə cəza olaraq) Biz onlara dəhşətli səs endirdik. Onlar mal-qara sahibinin ağıla (yem yerinə) tökdüyü quru və qırılmış ota döndülər.**

*Ayə 32:*

**﴿وَلَقَدْ يَسَّرْنَا الْقُرْءَانَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ﴾**

**“Həqiqətən, biz Quranı öyüd götürülsün deyə asan etdik. Öyüd götürən varmı?”**

### Nöqtələr

Suyun insanlarla dəvə arasında bölünməsi mühüm ilahi sınaqlardan biri idi. İnsanlar bu əmrə itaət etməli, yalnız onlar üçün müəyyənləşmiş gündə sudan istifadə etməli idilər. “Şuəra” surəsinin 155-ci ayəsində oxuyuruq ki, həzrət Saleh su bölgüsünü insanlara elan etdi.

”Şirb” dedikdə pay nəzərdə tutulur və burada su payına işarə olunmuşdur. “Təata” dedikdə layiq olmayan bir şeyi götürmək və ya layiq olmayan bir iş görmək nəzərdə tutulur. Belə bir iş üçün cürət lazımdır. Təfail formasında olan “təata” sözündən belə anlaşılır ki, Səmud qövmü ilə dəvənin qatili arasında razılaşma olmuşdur.

”Əqər” dedikdə dəvənin öldürülməsi nəzərdə tutulur. “Həşim” quru və xırda ot mənasını bildirir. “Muhtəzir” öz mal-qarası üçün quru ot yığan kəsə deyilir.

### Bildirişlər

1. Bəzən peyğəmbərin göstərişi ilə sydan istifadəyə məhdudiyyət qoyulur.
2. Ləyaqətsiz insanlar özləri bir iş görə bilmədikdə cürətli adamları səhnəyə çağırırlar.
3. Müqəddəsliyi pozmaq üçün cürət lazımdır.
4. Şər insanlar möhlət vermədən şər törədir.
5. Göndərilən nemətə görə şükür etməsək nemətin ardınca əzab gələr.
6. Quranın tarixi mövzularının nəqlində zaman, məkan və şəxs adlarının qeyd olunması mühüm sayılmır. Əsas məsələ nəticə, ibrət götürülməsidir. (Hazırkı ayədə nə dəvəni öldürənin, nə hadisənin baş verdiyi zaman və məkanın adı çəkilmir)
7. Qatil bir nəfər olsa da, ətrafdakılar razılaşdığı üçün onlar da əzaba düçar oldu.
8. Allahın iradəsi ilə bir ümmət bir səslə məhv olur.
9. Bəzən bir ümmət bir dəfə cəsarətinə, həddi aşdığına görə məhv edilir. (Allahın dəlili olaraq göndərilmiş heyvanın öldürülməsi bir ümmətin öldürülməsidir.)
10. Allahın qəzəbi yekəpər və güclü insanları quru ot kimi biçir.

11. Quran ən üstün və ən doğru tarixləri və ibrətamiz hadisələri insanlara təqdim edir.

*Ayə 33, 34:*

﴿كَذَّبَتْ قَوْمُ لُوطٍ بِالنُّذُرِ﴾﴿إِنَّا أَرْسَلْنَا عَلَيْهِمْ حَاصِبًا إِلَّآ ءَالَ لُوطٍ نَّجَّيْنَاهُم بِسَحَرٍ﴾

**"Lut qövmü də xəbərdarlıq edəni (peyğəmbəri) təkzib etdi. Biz onların üzərinə daş gətirən külək göndərdik. Yalnız Lutun ailəsini sübh çağı xilas etdik."**

*Ayə 35, 36:*

﴿نِعْمَةً مِّنْ عِندِنَا كَذَٰلِكَ نَجْزِي مَن شَكَرَ﴾﴿وَلَقَدْ أَنذَرَهُم بَطْشَتَنَا فَتَمَارَوْا بِالنُّذُرِ﴾

**"(Bu qurtuluş) Bizim tərəfimizdən bir nemət idi. Biz şükür edən hər kəsə bu sayağı mükafat veririk. Lut xalqı bizim qəzəbimizdən xəbərdar etmişdi. Onlar isə bizim xəbərdarlıqlarımız barədə höcətləşməyə başladılar."**

*Ayə 37:*

﴿وَلَقَدْ رَاوَدُوهُ عَن ضَيْفِهِ فَطَمَسْنَا أَعْيُنَهُمْ فَذُوقُوا عَذَابِي وَنُذُرِ﴾

**"Lut qövmü qonaqlara təcavüz üçün danışığa başladılar. Biz onların gözünü kor etdik. Dadın bizim əzabımızı və xəbərdarlığımızı."**

*Ayə 38, 39:*

﴿وَلَقَدْ صَبَّحَهُم بُكْرَةً عَذَابٌ مُّسْتَقِرٌّ﴾﴿فَذُوقُوا عَذَابِي وَنُذُرِ﴾

**"Sübh çağı onların sorağınca davamlı əzab gəldi. Dadın mənim əzabımı və xəbərdarlığımı."**

*Ayə 40:*

﴿وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ﴾

**"Həqiqətən, biz Quranı öyüd götürülsün deyə asan etdik. Öyüd götürən varmı?"**

### Nöqtələr

"Nəzir sözünün cəm forması olan "nuzur" sözü qorxudanlar mənasını bildirir. "Hasib" daşları tərpədən möhkəm külək mənasını bildirir. "Bətş" dedikdə qəzəb və zorla almaq mənası anlaşılır." "Təməs" sözü məhv etmək, "təmalu" sözü mübahisəyə çəkmək mənasını bildirir.

Belə görünür ki, həzrət Lutun qonaqlarına təcavüz etmək istəyənlər öncə kor oldular, sonra darmadağın edildilər. İmam Sadiq (ə) buyurur: "Elə ki Lut qövmü həzrət Lutun evinə daxil oldu, Cəbrail bir işarə ilə onları kor etdi."[1]

[1] "Kafi", c. 8, s. 329

Lut qövmünün əhvalatında “nuzur” sözü dörd dəfə, “əzab” sözü dəfə təkrarlanır. Bu təkrarlar Lut qövmünün əməllərinə münasibətdə xəbərdarlığın ciddiliyini göstərir.

**Bildirişlər**

1. Allah-taala sanki peyğəmbərinə təsəlli verərək buyurur ki, nigaran olma, səndən öncəki peyğəmbərlər də təkziblə üzləşmişlər.
2. Ad, Səmud, Lut və Nuh qövmlərinin hər birinin özünəməxsus səciyyələri olsa da, onlar öz peyğəmbərlərini inkar etməkdə müştərəkdirlər.
3. Bir peyğəmbərin təkzibi bütün peyğəmbərlərin təkzibinə bərabərdir.
4. Allah çeşidli əzablar verə bilər.
5. Allah bir çox hallarda möminləri çıxılmaz vəziyyətdən xilas etmişdir.
6. Əzab nazil olanda yaş da qurunun oduna yanır.
7. Nemət dedikdə təkcə maddiyyat yox, həm də əzabdan qurtuluş nəzərdə tutulur. Əzabdan qurtuluş ən böyük nemətlərdəndir.
8. Peyğəmbərlərə iman Allaha şükür, qurtluş səbəbidir.
9. Allah öncə xəbərdarlığı başa çatdırır, sonra əzab göndərir.
10. Peyğəmbərlərin işi həm müjdə vermək, həm də xəbərdarlıq olsa da, xalq qəflətdə olduğundan xəbərdarlıq daha çox yer tutur.
11. Həqiqətə şübhə onun inkarı kimidir.
12. Pisliyin və fəsadın dayanacağı yoxdur. (Lut qövmü heç bir maneə tanımadan açıq aşkar günahla məşğul idi. Onlar bununla da kifayətlənməyib. Peyğəmbərin qonaqlarına əl uzatdılar.)
13. Günah ağırlaşdığı vaxt möhlət vermək düzgün deyil.
14. Peyğəmbər evində məsum qonaqlara dikilmiş pis gözlər kor olsun!
15. Allahın qəhr-qəzəbi və əzabı qarşısı alınmazdır.
16. Quranın tərbiyə üsullarından biri ibrətamiz əhvalatlar danışmaqdır.
17. Quran oxumaq bəs etmir, Qurandan öyüd götürmək lazımdır.

***Ayə 41, 42:***

**﴿وَلَقَدْ جَاءَ ءَالَ فِرْعَوْنَ النُّذُرُ﴾﴿كَذَّبُوا بِآيَاتِنَا كُلِّهَا فَأَخَذْنَاهُمْ أَخْذَ عَزِيزٍ مُّقْتَدِرٍ﴾**

**“Həqiqətən, xəbərdarlıq edənlər Fironçuların sorağına gəldi. (Amma onlar) Bizim bütün möcüzələrimizi təkzib etdilər. Biz onları yenilməz iqtidar sahibi olaraq (qəzəbimizlə) yaxladıq.”**

***Ayə 43, 44:***

**﴿أَكُفَّارُكُمْ خَيْرٌ مِّنْ أُوْلَئِكُمْ أَمْ لَكُم بَرَاءةٌ فِي الزُّبُرِ﴾﴿أَمْ يَقُولُونَ نَحْنُ جَمِيعٌ مُّنتَصِرٌ﴾**

**“Sizin kafirləriniz onlardan üstündür, yoxsa sizin üçün səmavi kitabda toxunulmazlıq verilib? Ya da deyirlər ki, biz hamımız bir-birimizin arxasıyıq.”**

***Ayə 45, 46:***

﴿سَيُهْزَمُ الْجَمْعُ وَيُوَلُّونَ الدُّبُرَ﴾﴿بَلِ السَّاعَةُ مَوْعِدُهُمْ وَالسَّاعَةُ أَدْهَى وَأَمَرُّ﴾

**“Yaxın gələcəkdə onlar məğlub olacaqlar və hamısı (bir-birinə) arxa çevirəcək. Bəli, onlara vəd olunan qiyamətdir və o gün çox ağır və çox acıdır.”**

**Nöqtələr**

”Səyuhzəm” dedikdə bir cismi dağılacaq həddə sıxmaq nəzərdə tutulur. “Ədha” sözü daha böyük müsibət mənasını bildirir.

Nuh, Ad, Səmud və Lut qövmü yalnız xəbərdarlıqları inkar edirdi. Fironçular isə ilahi ayələri və möcüzələri də qəbul etmirdilər. Bu qrup hazırkı surədə adı çəkilən beşinci və sonuncu kafir qrupudur.

**Bildirişlər**

1. İnsan kimə tabedirsə onun adamı sayılır.
2. Firon dövründə üsul-idarə istibdad idi. Digər qövmlər arasında isə qəbilə qanunları hökm sürürdü.
3. Allah insanlara xəbərdarlığı başa çatdırır.
4. Firon üsul-idarəsində peyğəmbərlər də, onların möcüzələri də, ilahi xəbərdarlıqlar da təkzib olunurdu.
5. Bəşəriyyətin taleyi onun öz əlindədir.
6. Əgər insan bütün haqq yolları öz üzünə bağlayarsa Allahın qəzəbi nazil olar.
7. Qüdrətə arxalanan Firon kimiləri ilə güc dilində danışılmalıdır.
8. Bütün qüdrətlər süquta uğrayasıdır. Yalnız Allahın qüdrəti yenilməzdir.
9. Allahın qəhr-qəzəbi onun qüdrət və yenilməzliyi ilə müşayiət olunur.
10. İnsanda bir neçə səbəbdən qürur yaranır: insan özünü başqalarından üstün sayır; düşünür ki Allahın əzabından amandadır; öz həmfikirlərinə arxalanır.
11. Allahın qəzəbini nazil edən küfür, inadkarlıq və təkzibdir. Kafirlər hamısı birdir, bir dövrün kafirləri başqa bir dövrün kafirlərindən imtiyazlı deyil.
12. Təbliğdə elə dəlillər göstərin ki, bütün bəhanə yolları bağlansın.
13. Quranın tərbiyə üsulunda həm tarix, həm xəbərdarlıq, həm dəlil, həm də etiqad var.
14. Düşmənin qürurunu sındırın. Kafirlər yalnız maddi meyarlara əsaslanır və qeybi qüdrətlərdən xəbərsizdirlər.
15. Məğrur düşmənlə sərt davranın.
16. Küfür və təkzib ünsürü istənilən bir cəmiyyətdə dağıdıcıdır.
17. Əgər kafirlər öz cəmiyyətləri ilə fəxr edirlərsə, bilsinlər ki, bu cəmiyyət dağılasıdır. Əgər bir-birlərinə güvənirlərsə, bilsinlər ki, hamı meydandan qaçasıdır.
18. Kafirləri həm dünyəvi, həm də axirət əzabı gözləyir.
19. Ən ağır dünya cəzası axirət cəzalarının yanında yüngüldür. Kafirlərin dünyada məğlubiyyəti onların axirət əzabının müqəddiməsidir.

*Ayə 47, 48, 49:*

﴿إِنَّ الْمُجْرِمِينَ فِي ضَلَالٍ وَسُعُرٍ﴾﴿يَوْمَ يُسْحَبُونَ فِي النَّارِ عَلَى وُجُوهِهِمْ ذُوقُوا مَسَّ سَقَرَ﴾﴿إِنَّا كُلَّ شَيْءٍ خَلَقْنَاهُ بِقَدَرٍ﴾

**Həqiqətən, günahkarlar azğınlıq və od içindədirlər. Oda doğru çəkiləcəkləri gün (onlara deyilər) cəhənnəmlə təması dadın. Həqiqətən, biz hər şeyi müəyyən ölçüdə yaratmışıq.”**

*Ayə 50:*

﴿وَمَآ أَمْرُنَا إِلَّا وَاحِدَةٌ كَلَمْحٍ بِالْبَصَرِ﴾

**“Bizim əmrimiz birdir, bir göz qırpında yerinə yetər.”**

**Nöqtələr**

”Suur” həm “səir” sözünün cəm forması olub şölələnmiş od, həm də “sər” sözünün cəm forması olub divanə mənasını daşıya bilər. “Yəshəbun” sözü çəkilmək (sürüklənmək), “səhab” küləyin qovduğu bulud mənasını bildirir. “Səqər” istilik nəticəsində dərinin yanması, cəhənnəm mənasını bildirir. “Ləmh” sözü isə işığın parlaması mənasını ifadə edir.

Hədisdə “inna kullə şəyin xələqnahu bi qədər” ayəsi ilə bağlı həzrət Əlinin (ə) dilindən deyilir ki, Allah-taala buyurdu: “Biz cəhənnəm əhli üçün hər şeyi onların əməlləri ölçüsündə xəlq etdik.”[1]

**Bildirişlər**

1. Günahkarlar qiyamət səhnəsində başlarını itirmiş vəziyyətdə, odda olarlar.
2. Pis yol seçməklə özünü cəhənnəmə atan insan ağılsızdır.
3. İlahi dinin inkarı ən aşkar günahdır.
4. Dünyadakı məğrurlar qiyamətdə xar olanlardır.
5. Varlıq aləmi məqsədli yaradılıb, onun dəqiq hesab-kitabı var.
6. Qövmlərin gəlişi, peyğəmbərlərin göndərilməsi, insanların cəzalandırılması və mükafatlandırılması müəyyən nizam və çərçivə əsasında baş verir.
7. Allahın işləri həm hesab-kitablı və hikmətli, həm də sürətlidir.

*Ayə 51:*

﴿وَلَقَدْ أَهْلَكْنَا أَشْيَاعَكُمْ فَهَلْ مِن مُّدَّكِرٍ﴾

**“Həqiqətən, biz sizin kimilərini məhv etdik. Öyüd götürən varmı?”**

*Ayə 52, 53:*

﴿وَكُلُّ شَيْءٍ فَعَلُوهُ فِي الزُّبُرِ﴾﴿وَكُلُّ صَغِيرٍ وَكَبِيرٍ مُسْتَطَرٌ﴾

**“Nə iş görüblərsə namələrində qeyd olunub. Hər kiçik və hər böyük iş qeyd olunub.”**

---

[1] “Təfsiri-nurus-səqəleyn”

*Ayə 54, 55:*

**﴿إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَنَهَرٍ﴾﴿فِي مَقْعَدِ صِدْقٍ عِندَ مَلِيكٍ مُّقْتَدِرٍ﴾**

**"Həqiqətən, təqvalılar bağlarda və çaylardadır. Haqq mənzildə, iqtidarlı malikin yanında olarlar."**

**Nöqtələr**

"Əşya" oxşarlar, həmfikirlər, ardıcıllar və həm məsləklər mənası nəzərdə tutulur. "Zəbur" sözünün cəm forması olan "zubur" sözü kitab, "mustətər" sözü düzülmüş, sətirlənmiş mənasını ifadə edir.

Bu ayə xəbərdarlıqla başladı, müjdə ilə başa çatdı.

**Bildirişlər**

1. Həmfikir kafirlərə əzab verilməsində Allahın sünnəsi eynidir.
2. Allahın hədələrinə ciddi yanaşaq.
3. Tarixdən ibrət götürək.
4. Heç bir əməl məhv olmur.
5. Əməllərin qeydə alınması təqvalılar üçün təsəlli, günahkarlar üçün dərddir. Bu məsələ insanı küfür və günahdan çəkindirir.
6. Kiçik günahlar böyük günahlar üçün müqəddimədir.
7. Bütün əməllər kitabda nizamla qeydə alınmışdır.
8. İnsanlar qiyamətdə yazılı sənədlər əsasında mühakimə olunar.
9. Təqvalılar həm maddi, həm də mənəvi tərəfdən kama çatasıdır.
10. Allah həm qəzəbini, həm də mərhəmətini nazil etməkdə iqtidarlıdır.
11. Behişt başdan başa sədaqət və düzlükdür. Orada zərrəcə dğallıq yoxdur.

## "ƏR-RƏHMAN" SURƏSİ

***(55-Cİ SURƏ; 78 AYƏ)***

***İYİRMİ YEDDİNCİ CÜZ***

***"ƏR-RƏHMAN" SURƏSİNİN SİMASI***

Mədinədə nazil olmuş bu surə 78 ayədən ibarətdir.

Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. "Ər-Rəhman" adı da "Əllah" adı kimi yaradanın xüsusi ad və sifətlərindəndir.

İmam Kazim (ə) buyurur: "Hər şeyin bir gəlini var. Quranın gəlini "Ər-Rəhman" surəsidir."[1]

Bu surədə "fəbiəyyi alai rəbbikuma "tukəzzibun" ayəsi 33 dəfə təkrarlanır. Bu ayə Quranda ən çox təkrarlanan ayədir. Maraqlıdır ki, bu təkrar həm insana,

[1] "Vəsail", c. 4, s. 351

həm də cinlərə müraciətdir. Onlardan soruşulur: Rəbbinizin saysız nemətlərindən hansını təkzib edirsiniz?

Ötən surədə xəbərdarlıq, bu surədə isə nemətlər təkrarlanır.

Ötən surə qiyamət haqqında söhbətlə başladı, Allahın qüdrəti haqda söhbətlə başa çatdı. Bu surə isə rəhmət barədə danışıqla başlayır, kərəm haqqında danışıqla başa çatır.

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2:***

**﴿أَلرَّحْمَنُ﴾﴿عَلَّمَ الْقُرْءَانَ﴾**

**“Rəhman Allah Quranı öyrətdi.”**

**Nöqtələr**

Allah Rəhmandır. Onun Peyğəmbəri (s) rəhmət səbəbidir;[1] Allahın kitabı da mərhəmətdir.[2]

”Rəhman” Allahın xüsusi adıdır. Bu ad Quranda 169 dəfə təkrarlanmışdır. Bu söz 114 dəfə “Bismillahir-Rəhmanir-Rəhim” cümləsinin tərkibində təkrarlanır.

Quranda bəzən “Əllah” sözü əvəzinə “Rəhman” sözü işlədilir.[3]

Danışıq və yazıda ilk söz söhbətin ünvanını göstərir. Bu surədə də Allahın nemətləri yada salındığından o “Ər-Rəhman” sözü ilə başlayır.

Bütün çalışmalarda Quran təliminə önəm verilməlidir. Ötən surədə Quranın asan olduğu dəfələrlə vurğulandı. Bu surədə isə Allah Quranın birinci müəllimi kimi tanıtdırılır.

Rəhmət cilvəsi olan elmin səciyyələri var: Allahın təlimi olsun, əhatəli olsun, müqabilində əvəz istənilməsin, daim işlək olsun, insanda bəsirət və təqva yaratsın, fərdin və cəmiyyətin dünya və axirət səadətini təmin etsin.

Quranın Allah vasitəsi ilə təlimi haqqın, mühakimənin, adi yolla əldə edilməsi mümkün olmayan biliklərin, dəlillərin, saleh əməlin, moizə-nəsihət, hidayət və rəhmətin, qeybin, ən gözəl dastanların, həqiqətləri tanımağın, ən üstün olanların, haqqı batildən seçmə mizanının, ən gözəl sözün, moizənin, təkamülün, əbədiliyi sğortalanmış kitabın təlimidir.[4]

Quranın qaynağı qüdrət və əzəmət, izzət və hikmət, lütf və rəhmət, rübubiyyətdir.[5]

**Bildirişlər**

---

[1] “Ənbiya”, 107

[2] “İsra”, 82

[3] “Məyəm”, 77; “Ənam”, 47; “Məryəm”, 45; “İsra”, 110

[4] “Ali-İmran”, 3; “Nisa”, 105; “Nisa”, 113; “Nisa”, 174; “Əraf”, 170; “Yusuf”, 57; “Yusuf”, 102; “Yusuf”, 3; “Nəhl”, 89; “Fürqan”, 33; “Şura”, 17; “Fussilət”, 42; “Qaf”, 45; “Cin”, 2

[5] “Taha”, 4; “Zumər”, 1; “Fussilət”, 2; “Vaqeə”, 80

1. Allah Quranın ilk müəllimidir.
2. Şəriət mərhəmətə əsaslanır.
3. Şübhələrə cavab verilməlidir. "Quranı Peyğəmbərə (s) insanlar öyrədib" deyənlərə "xeyr, Allah öyrədib" deyə cavab verilməlidir.
4. Quranın insana təlimi Allahın mərhəmət cilvəsidir.
5. Müəllimlik Allahın şənidir.
6. Öyrətmək və öyrənmək məhəbbət və mərhəmətə əsaslanmalıdır.
7. Quran bəşəriyyət üçün anlaşılası və tanınası bir kitabdır.

***Ayə 3:***

**﴿خَلَقَ ٱلْإِنسَانَ﴾**

**"O insanı yaratdı."**

**Nöqtələr**

İnsanın yaranışı müxtəlif baxımlardan diqqəti cəlb edir: cansız torpaqdan canlı və şüurlu bir varlığın yaranıb təkamül yolu keçməsi; təbiətin ram olunması ilə maddi ehtiyacların təmini; Quranda yada salınmış müsbət və mənfi meyllər. İnsanın səciyyələri var: tez məyus olur, hərisdir, dözümsüzdür, ziyankardır, ifrata varır, sitəm qılır, nadandır, tələskəndir, nankordur, qədirdan deyil.[1]

Quranın digər ayələrində insanın müsbət səciyyələri belə yada salınır: məsuliyyətlidir, azadlıq və seçim imkanına malikdir; yolunu dəyişə bilir, tövbə edib qiyam qaldırır; böyük istedadları və tutumu var; əbədiyyət istəyindədir; yer üzündə Allahın canişinidir; mələklərin səcdə yeridir; təqlid gece var, nümunələrdən təsirlənir və təsir göstərir; əql və fitrət qarşısında meyl və şəhvət kimi təzadlı varlığa malikdir; təfəkkür, yaradıcılıq, gücü var.

Quranın təlimindən söhbət gedəndə bu iş insanın yaranışında önəmli sayılır. Başqa elmlərin təlimi isə insanın yaranışından sonradır.[2]

**Bildirişlər**

1. İnsanı yaradan cansız təbiət yox Allahdır.
2. İnsanın yaranışı ilahi mərhəmət cilvəsidir.
3. Şəriət kitabının müəllifi həmin təbiət kitabının müəllifidir.
4. Quran insandan şərafətli və önəmlidir. (Düşüncə və mərifət cisim və maddi təbiətdən öndədir)
5. Quran bütün kitabların və insanın, eləcə də bütün yaranmışların mənbəsidir.
6. İnsan Quranı öyrənməklə kamilliyə yüksəlir.

---

[1] "İsra", 100; "Məarif", 19; "Məaric", 20; "Əsr", 2; "Ələq", 6; "Əhzab", 72; "İsra", 11; "İsra", 67; "Adiyat", 6

[2] "Ələq", 2-4

### *Ayə 4:*

﴿عَلَّمَهُ الْبَيَانَ﴾

**“Ona bəyanı öyrətdi.”**

### Nöqtələr

Həzrət Əli (ə) buyurur: “Dilinin tündlüyünü və itiliyini sənə danışmağı öyrədənə yönəltmə. Sözlərinin bəlağət və gözəlliyini danışığını qaydaya salıb gözəlləşdirənə nümayiş etdirmə.”[1]

Danışıq gücü Allahın insana hədiyyəsidir. Quran bəyan üslubu üçün göstərişlər vermişdir: dəlilli və əsaslı olsun; bəyənilmiş və ölçülü olsun; mülayim və mehriban olsun; yetərli və aydın olsun; ali-cənab və ağayana olsun; gözəl və arzulanan olsun; danışıqların üstünü olsun; hətta mübahisələrdə və tənqidlərdə gözəl tərzdə danışılsın.[2]

### Bildirişlər

1. Elm Allahın insana əta etdiyi ən üstün kamaldır. (“Əlləmə” sözü təkrarlanır)
2. Dil və lüğət tərkibi yox, bəyan gücü mühümdür.
3. Dil bəyan vasitəsidir. Bəyan Allahın hədiyyəsidir.
4. Ata və ana Allah-taalanın hər bir insanın daxilində qoyduğu danışıq istedadını üzə çıxarır, işə salır.
5. İnsanın yaranışı iki ilahi təlim arasında qərar tutmuşdur.
6. Bəyan gücü ilahi mərhəmət cilvəsidir.
7. Bir neçə dildə danışmağı bacaranlar həmin istedadın Allah tərəfindən verildiyini bilsinlər.
8. Yalnız bəyan olunan elm sitayişə layiqdir.

### *Ayə 5, 6:*

﴿أَلشَّمْسُ وَالْقَمَرُ بِحُسْبَانٍ﴾﴿وَالنَّجْمُ وَالشَّجَرُ يَسْجُدَانِ﴾

**“Günəş və ayın müəyyən hesabı var. Ot və ağac (Onun üçün) səcdə edir.”**

### Nöqtələr

”Ğufran” vəznində olan “husban” sözü hesab mənasını bildirən məsdərdir. Günəş və ayın hesabı var. Onların həcmi, ağırlığı, cazibəsi, müxtəlif hərəkətləri, hərəkət oxu, aralarında fasilə mövcuddur. Planetlər bir-birinə təsir göstərirlər və bu təsirlər hesab-kitablıdır. Bu nizamda o qədər dəqiq hesab mövcuddur ki, alimlər ay və günəşin tutulduğu vaxtı, ilin başa çatmasını öncədən xəbər verirlər.

---

[1] “Nəhcül-bəlağə”, hikmət 411

[2] “Nisa”, 9; “Bəqərə”, 235; “Taha”, 44; “Nisa”, 63; “İsra”, 23; “Bəqərə”, 83; “İsra”, 53; “Nəhl”, 125

Quran ayələrinə əsasən günəşin, ayın və ulduzların orbiti var. Bütün kürələr müəyyən məqsədə doğru üzməkdədir.[1] Kürələrin təyin olunmuş ömrü var.[2]

Gecə və gündüzün dəyişməsi, fəsillərin yaranışı, sadə və dəqiq zaman bölgüsü bütün məkan və zamanlarda hamı üçündür. İslamın namaz və oruc kimi ibadi proqramları, günəşin tülu və qürubu, ayın hərəkəti ilə tənzimlənir. Quranda buyurulur ki, gün batandan gecə qaranlığının əvvəlinədək və sübh vaxtı namazı bərpa et.[3] Gün batandan gecənin qaranlığının əvvəlinədək və sübh vaxtı namazı bərpa et;[4] günəş tülusundan öncə və onun qürubundan sonra Allaha təsbih de, ona sitayiş et;[5] orucu gecə vaxtı başa çatdır.[6]

Rəvayətlərdə bildirilir ki, ramazan ayını görəndə oruca başla, şəvval ayını görəndə onu başa çatdır.[7]

”Nəcm” dedikdə bu ayədə səmadakı ulduz yox, “şəcər” (“ağac”) sözünə uyğun olaraq ot nəzərdə tutulur.

Ayədə ot və ağacın səcdəsi deyərkən onların təbii şəkildə Allah əmrlərinə təslimçiliyi nəzərdə tutulur. Allah-taala təbiət üçün də itaət yolu müəyyənləşdirmişdir. Onlar müti olaraq bu yolu keçir, Allah qanunlarına tabe olur.

**Bildirişlər**

1. Yer və göy vahid nizamla idarə olunur.
2. Yer üzünün bitki örtüyü öz həyatına görə günəş və aya borcludur.
3. Varlıq aləmi öncədən təyin olunmuş nizama təslimdir.

***Ayə 7, 8:***

﴿وَالسَّمَاءَ رَفَعَهَا وَوَضَعَ الْمِيزَانَ﴾﴿أَلَّا تَطْغَوْا فِي الْمِيزَانِ﴾

**“Səmanı yuxarı qaldırdı, mizan müəyyən etdi ki, mizanda həddi aşmayasınız.”**

***Ayə 9:***

﴿وَأَقِيمُوا الْوَزْنَ بِالْقِسْطِ وَلَا تُخْسِرُوا الْمِيزَانَ﴾

**“Çəkini ədalət əsasında bərpa edin, tərəzidə əskiltməyin.”**

**Nöqtələr**

İlahi rəhmət, təlim və bəyan neməti, günəş və ayın nizamı, mövcudların səcdəsi Allahın ninsan və təbiətlə rabitəsindən danışırdı. Hazırkı ayələrdə isə insanın cəmiyyətlə münasibətləri bəyan olunur.

[1] “Ənbiya”, 33; “Yasin”, 40
[2] “Rəd”, 2; “Fatir”, 13; “Zumər”, 5
[3] “İsra”, 78
[4] “İsra”, 78
[5] “Taha”, 130
[6] “Bəqərə”, 187
[7] “Vəsail”, c. 10, s. 257

Ölçüdə ədalət nə artıq, nə də qarşı tərəfə zərər istəməkdir.

Kitab və mizan bir-biri üçün şərtdir. Allah-taala “Hədid”, surəsinin 25-ci ayəsində uyğun nöqtəyə toxunur. Bu ayələrdə isə həm Quran, həm də mizan yada salınır.

Təkrar məsələnin əhəmiyyətini göstərir. Ardıcıl ayələrdə mizan sözü üç dəfə təkrarlanır. Bu təkrarlanır. Bu təkrar ölçüyə diqqətin zəruriliyini göstərir.

Ölçüyə diqqətsizlik, insaf və ədaləti gözləməmək insanı günaha sürükləyir. Günah isə təkzibə aparır. “Mutəffifin” surəsində buyurulur ki, vay halına əskik satanların. Ayələrdən məlum olur ki, haram tikə günah üçün müqəddimədir. Müqəddimə isə küfr və təkzibə aparır.

Ədalət və ölçünün bərqərar olması üçün İslamın dəqiq və mühüm göstərişləri var. Rəvayətlərdə bildirilir ki, hakimin ayaqqabısı ayağını sıxan vaxt mühakimə aparmamalıdır. Sıxıntı vəziyyətində o düzgün mühakimə aparmaya bilər. Sıxıntı insanı tələsdirər və mühakimədə ədalət gözlənilməz.

### *Ticarət qaydaları*

Hədisdə oxuyuruq ki, haqq və düzgünlüyə əsaslanan ticarət dəyərlidir.[1]

Həzrət Əli (ə) göstəriş verdi ki, qəlp dinarları quyuya töksünlər. Bununla da uyğun sikkələr dövriyədən çıxırdı.[2]

Həzrət bəzən gün uzunu Kufə bazarında gəzir və arabir dayanıb buyururdu: “Ey tacirlər! Allahdan xeyir istəyin. Bərəkəti xalqa çətinlik yaratmamaqda axtarın. Müamilədə yalandan çəkinin. Zülm və ədalətsizliyə salam verməyin. Sələmə yaxın düşməyin.”[3]

### Bildirişlər

1. Səma və göyün yeri təsadüfi deyil. Səmanın yuxarı ucaldılması, ulduzlar arasındakı məsafə hikmət əsasındadır və Allahın mərhəmət cilvələrindəndir.
2. Ədalət də namaz kimidir, cəmiyyətdə ona riayət olunmalıdır.
3. Ölçü ədalətli aparılmalıdır.
4. Varlıq nizamı mizan üzərində qurulmuşdur. Bizim hətaımız da ölçülü olmalıdır.
5. Ədalət və mizan həm səmada, həm yerdə, həm də cəmiyyətdə sabitlik amilidir.
6. Cəmiyyətin qurtuluş üçün onun iki qüabada ehtiyacı var: elm və ədalət (hazırkı dünyada elm olsa da ədalət yoxdur)
7. Ədalətə çatmaq üçün Qurana əməl etmək lazımdır.
8. İşinizdə ifrat və təfritə yol verməyin.
9. İşçilərin, məsulların təbliğatçıların az işləməsi əslində əskik satmaqdır.

### *Ayə 10, 11, 12:*

[1] “Kafi”, c. 5, ticarət qaydaları
[2] “Kafi”, c. 5, s. 160
[3] “Təfsiri-nümunə”

﴿وَالْأَرْضَ وَضَعَهَا لِلْأَنَامِ﴾﴿فِيهَا فَاكِهَةٌ وَالنَّخْلُ ذَاتُ الْأَكْمَامِ﴾﴿وَالْحَبُّ ذُو الْعَصْفِ وَالرَّيْحَانُ﴾

**“Yeri yer əhli üçün qərar verdi. Orada hər cür meyvə, qılaflı xurma, qabıqlı dən və xoş ətirli ot var.”**

***Ayə 13:***

﴿فَبِأَيِّ ءَاَلآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“(Ey cin və insan) Rəbbinin hansı nemətini inkar edirsən?!”**

**Nöqtələr**

”Ənam” yaranmışlar mənasını bildirir. Cin də, insan da, digər mövcudlar da bu cərgəyə daxildir. İstənilən növ meyvə “faqihət”, xoş ətirli hər bir ot “reyhan” adlanır. “Kimm” sözünün cəm forması olan “əkmam” sözü meyvəni örtən örtük mənasını bildirir. “Kumm” dedikdə əli örtən qolluq nəzərdə tutulur. “Kummə” kubbə vəznində olub başı örtən papaq mənasını ifadə edir. Olsun ki, “əkmam” dedikdə hazırkı ayədə nargilə və xurma ağacının saçaqları nəzərdə tutulur.

”Həbb” dedikdə dən, “əsf” dedikdə yarpaqlar və bitkidən ayrılan hissələr nəzərdə tutulur.[1] Bu əsasla saman çöpünə də “əsf” deyirlər.

”Ala” nemət mənası bildirən “iləy” sözünün cəm formasıdır.

Məzəmmətlə yanaşı ardıcıl sualların təkrarlanması göstərir ki, hər bir nemətin öz növbəsində təsdiq və təkzibi var.

Hədisdə bildirilir ki, mübarək “Ər-Rəhman” surəsini oxuyan kəs “Rəbbinizin hansı nemətini inkar edirsiniz” cümləsinə çatdıqda deməlidir: “Ey mənim Rəbbim! Sənin heç bir nemətini təkzib etmirəm.”[2]

***Təkrar mövzusu***

“Fəbiəyyi alai rəbbikuma tukəzziban” ayəsi ilə bağlı təkrar mövzusunda danışırıq.

Təkrar bəzən müsbət olur. Müəyyən bir mədəniyyətin formalaşması üçün hansısa mövzuların təkrarı mühümdür. Həzrət Peyğəmbər (s) Quran və Əhli-Beyt (ə) arasında rabitəyə etiqadı möhkəmləndirmək üçün səqəleyn hədisini tez-tez təkrarlayırdı. Ev əhlini namaza çağırmaqla bağlı ayə nazil olan vaxt[3] həzrət Peyğəmbər (s) neçə ay ardıcıl sübh vaxtı Fatimənin (s.ə.) evinə gəlib, ev əhlini namaza çağırdı.[4] Həzrət bununla xalqa bildirirdi ki, mənim Əhli-Beytim (ə) Əli (ə) və Fatimənin (s.ə.) evindəkilərdir.

[1] “Mufrədati-Rağib”
[2] “Bihar”, c. 92, s. 306
[3] “Taha”, 132
[4] “Bihar”, c. 35, s. 207

Hədisdə bildirilir ki, "Əllahu Əkbər" ifadəsinin azanın başlanğıcında dörd dəfə təkrarlanmasının səbəbi insanları qəflətdən oyatmaqdır. Elə ki, diqqətlər azana yönəldi o biri cümlələri iki dəfə təkrarlamaq da bəs edir.[1]

Bəzən həzrət Əli (ə) insanların hissiyyatını oyatmaq üçün müəyyən təbirləri təkrarlayırdı. Necə ki övladına vəsiyyət edərkən "Əllah, Əllah" sözə başlayır.

Gün uzunu namazın təkrarında məqsəd hər gün Allaha doğru yaxınlaşmaqdır. Nərdivanla yuxarı qalxan insan əslində təkrar iş görür. Amma onun bu hərəkəti yüksəlişə səbəb olur. Quyu qazmaq üçün küləng vuran şəxs zahirən eyni bir işi təkrarlayır. Amma əslində mühüm bir nəticə əldə edir. İnsan hər dəfə namazda, zikr və tilavətdə Allaha doğru bir addım atır. Həzrət Peyğəmbər (s) haqqında buyurulur: "Elə ki Allaha yaxınlaşdı, iki kamandan da yaxın oldu."[2]

Bütün cümə namazlarında təqvaya çağırışın təkrarlanması təkrarın dini tərbiyədə mühüm təsirini göstərir. İnsan təkrar-təkrar nəfəs almaqla yaşayır. Kamilliklər də təkrar vasitəsiylə əldə edilir. Bir dəfə infaq edib qəhrəmanlıq göstərməklə insanda səxavət və şücaət səciyyələri xarakterə çevrilmir. Bir səciyyənin xarakterə çevrilməsi üçün onun təkrarlanması zəruridir. Pis sifətlər də təkrarlandıqda insanın ruhuna hopur.

### *Quranda təkrarın səbəbi*

Bəzən insanlara nemətləri xatırlatmaq üçün müəyyən ayələr təkrarlanır. Hazırkı ayə də buna misal ola bilər. Məqsəd bəzən günahkarları oyatmaq[3], bəzən tərbiyə (hər surənin əvvəlində "Bismillahir-Rəhmanir-Rəhim"), bəzən xəbərdarlığın başa çatdırılması[4], bəzən daha artıq ünsiyyət yaratmaq[5], bəzən yeni göstərişlərin bəyanı, bəzən bir həqiqətin qətnamə şəklində çatdırılması ("Şuəra" surəsində peyğəmbərlərin məsuliyyəti bəyan olunduqdan sonra Allahın yenilməz və mərhəmətli olmasının təkrarlanması), bəzən məqsədin bəyanı olur.

### Bildirişlər

1. Bütün varlıq aləminin bir tərbiyəçisi var. Müşriklər isə hər bir təbiət hadisəsi üçün ayrıca bir rəbb seçir.
2. Yer üzü bütün canlıların, o cümlədən insanların faydalanması üçündür.
3. Quran öncə mənəvi, sonra maddi nemətləri sadalayır.
4. İnsanın qidalanmasında meyvənin xüsusi əhəmiyyəti var. Yerin yaranışından sonra, meyvələrin yaranışından danışılır.
5. Meyvələr arasında xurmanın xüsusi dəyəri var.
6. Bitkilərin toxumu, hətta qabığı nemətdir.
7. Otların xoş ətri Allahın nemətlərindəndir.
8. İlahi ayələrin təkzibi məzəmmətə səbəb olur.

---

[1] "İləluş-şəraye", c. 1, s. 259
[2] "Nəcm", 9
[3] "Mursəlat", 15
[4] "Qəmər", 17
[5] "Əhzab", 41

9. Cinlər də insanlar kimi məsuliyyət daşıyır və yer üzünün nemətlərindən faydalanır.

10. Allah nemətləri insanların və cinlərin hərtərəfli inkişafı və tərbiyəsi üçün yaratmışdır.

***Ayə 14, 15, 16:***

**﴿خَلَقَ الْإِنسَانَ مِن صَلْصَالٍ كَالْفَخَّارِ﴾﴿وَخَلَقَ الْجَآنَّ مِن مَّارِجٍ مِّن نَّارٍ﴾﴿فَبِأَيِّ ءَاَلآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“İnsanı saxsı tək qurumuş gildən yaratdı. Cini tüstüsüz od şöləsindən xəlq etdi. Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr:**

”Səlsal” quru gil mənasını bildirir. “Səxxar” sözü bişmiş gil, “maric” sözü od şöləsi mənasını bildirir.

Quran insanın yaranış qaynağı haqqında müxtəlif təbirlər işlədir. Olsun ki bu təbirlər ayrı-ayrı mərhələlərə işarədir: torpaq;[1] su ilə qatışıq torpaq;[2] pis qoxulu gil;[3] qurumuş gil[4]

Cin gözə görünməyən varlıq mənasını bildirir. Quranda cinlərin bəzi səciyyələri bəyan olunmuşdur. Bəyan olunur ki, onların ilkin maddəsi külək və oddur. İnsan isə su və torpaqdan yaradılmışdır. Cinlər insanlardan öncə yaradılmışlar.[5] Cinlərin də insanlar kimi mömin və kafiri, kişi və qadını, doğub-törəməsi, elm və şüuru, haqqı batildən seçmə gücü, iş görmək qüdrəti var. Cinlər insanların bacarmadığı işlər görməyə qadirdir. Onlar üçün də ölüm, qiyamət, mükafat və cəza var.

**Bildirişlər**

1. Keçmişə baxış insanlarda iman və təvazönün güclənməsinə səbəb olur.
2. Ruhsuz soyuq maddədən ruhu olan hərarətli maddə, canlı varlıq yaradır.
3. İnsanın ilkin yaranış qaynağı dəyərsiz bir maddədir.
4. Cin uydurma yox, gerçək bir varlıqdır. Gözlərimiz qarşısında olmasa da, o var.
5. Həm cin, həm də insan maddi ünsürlərdən yaradılmışdır və yerdəki varlıqlardandır.
6. İstənilən bir şəxsin nemətləri təkzib etməsi məzəmmət olunur.

***Ayə 17:***

**﴿رَبُّ الْمَشْرِقَيْنِ وَرَبُّ الْمَغْرِبَيْنِ﴾**

---

[1] “Həcc”, 5
[2] “Ənam”, 2
[3] “Hicr”, 28
[4] “Ər-Rəhman”, 14
[5] “Hicr”, 27

**“İki şərq və iki qərbin Allahı.”**

***Ayə 18:***

**﴿فَبِأَيِّ ءَءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr**

Günəş ilin hər günündə də doğub qürub etsə də, onun yüksəliş və eniş qövsünə diqqət yetirdikdə iki şərq və iki qərb olduğu aydınlaşır. Qalan nə varsa bu aradadır. Bu nizam müxtəlif fəsillərin, günün saatlarının yaranmasına səbəb olur. Bəzi təfsirçilər iki şərq və iki qərb dedikdə günəş və ayın doğuş və qürubunun nəzərdə tutulduğunu bildirmişlər.[1]

Həzrət Əli (ə) öz xütbəsində hazırkı ayəni oxuyaraq buyurmuşdur: “Qışın şərqi öz əhatəsində, yayın şərqi öz əhatəsində.”[2]

**Bildirişlər**

1. Allah-taala şərqi də, qərbi də eyni cür tam əhatə edir.
2. Quran insanı kainatşünaslığa dəvət edir.
3. Quran bəşəriyyətin diqqətini həm üfüqlər, həm də Özü ilə tanışlığa yönəldir.
4. Təbiət hadisələri həm insan, həm də cin üçün nemətdir.
5. Yer elə hərəkət edir ki, şərq və qərb yaranır. Bu Allahın nemətlərindəndir.

***Ayə 19, 20, 21:***

**﴿مَرَجَ الْبَحْرَيْنِ يَلْتَقِيَانِ﴾﴿بَيْنَهُمَا بَرْزَخٌ لَّا يَبْغِيَانِ﴾﴿فَبِأَيِّ ءَءَالَآءِش رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Bir-birinə qovuşan şor və şirin iki dərya axıtdıq. Amma aralarında məsafə saxladı ki, bir-birinə qatışmasınlar. Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

***Ayə 22, 23:***

**﴿يَخْرُجُ مِنْهُمَا اللُّؤْلُؤُ وَالْمَرْجَانُ﴾﴿فَبِأَيِّ ءَءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Hər ikisindən mirvari və mərcan çıxır. Rəbbinizin hansı nemətini inkar edirisniz?!”**

***Ayə 24, 25:***

**﴿وَلَهُ الْجَوَارِ الْمُنشَآتُ فِي الْبَحْرِ كَالْأَعْلَامِ﴾﴿فَبِأَيِّ ءَءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Dənizdə düzəldilmiş dağ kimi gəmilər ona məxsusdur. Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

---

[1] “Təfsiri-nümunə”

[2] “Təfsiri-nurus-səqəleyn”

## Nöqtələr

”Mərəc” xoşlamaq, “bərzəx” iki şey arasında fasilə mənasını bildirir. “Lölö” dedikdə sədəf içindəki mirvari, “mərcan” dedikdə kiçik mirvarilər nəzərdə tutulur. Ağac budağına oxşayan və ovçuların ovladığı dəniz heyvanları da mərcan adlanır.

”Bəhr” böyük miqdarda su mənasını bildirir. Bu həm dəniz, həm çay ola bilər. “Bəhrəyn” şor və şirin su deməkdir. Adətən çay suyu şirin, dəniz suyu şor olur. Bu iki su hövzəsi eyni deyil. Onlardan birinin suyu şirin, o birinin suyu şordur.[1]

Dəniz heyvanlarının həyatı üçün şor su, bitkilərin həyatının qorunması üçün şirin su zəruridir. Quru ərazidə yaşayan heyvanlar və insanlar da şirin sudan istifadə edir.

”Mərəcəl-bəhrəyn” ifadəsi Quranda iki dəfə zikr olunur. “Fürqan” surəsinin 53-cü ayəsində və hazırkı surədə uyğun ifadə ilə rastlaşırıq. Burada kafirlərlə böyük cihaddan danışılır. Sonra iki dəniz məsələsinə toxunulur. Hazırkı surədə öncə mizandan, hesabdan, ədalətdən danışıldı. Sonra iki dəniz mövzusu açıqlandı. Bildirildi ki, şor və şirin su bir-birinə qatışmır. Onların qatışmaması ədalətlə daha çox uyğun gəlir. Bəli, əgər ədalət olsaydı və təcavüzə yol verilməsəydi, gözəlliklər özünü daha çox göstərərdi.

İslam dini fitri bir dindir. Allah insanların fitri meyllərini, ehtiyaclarını təmin etmişdir. Bu meyllərdən biri də gözəlliyə və zinətə olan meyldir. Dənizdən mirvari kimi dəyərli zinət əşyası çıxarılır.

Quran digər nemətlər haqqında danışarkən “ləhu” sözündən istifadə etmir. Gəmi haqqında danışılarkən bu sözün işlədilməsi uyğun işin Allah tərəfindən gerçəkləşdiyini bildirir. Bəli, bu işdə insanın düşüncəsi, layihəsi, fiziki gücü və materiallar Allah tərəfindəndir.

Həzrət əli (ə) hazırkı ayəni tilavət edərkən ondan soruşdular: “Bəs nə üçün bu nemətlərdən istifadə etmirsiniz?” Həzrət buyurdu: “Allah ədalətli abidlərə sadə yaşayışı vacib etmişdir ki, yoxsullar öz fəqirliyindən sıxılmasın.”[2]

İmam Sadiq (ə) hazırkı ayənin təfsiri ilə bağlı buyurur: “Əli (ə) və Fatimə (s.ə.) iki dərin dəryadır. Onlardan biri o birinə qatılmaz. Bu iki dəryadan Həsən və Hüseyn kimi mirvari və mərcan çıxmışdır.”[3]

## Bildirişlər

1. Varlıq aləmi tövhid məktəbidir. Onun səması, yeri, dəryası bir dərsdir.
2. Dəniz həm insanlar, həm də cinlər üçün bir nemətdir. İnsanların dəniz kənarında yaşayıb-yaşamamasından asılı olmayaraq bu belədir.
3. Varlıq nizamında bir mövcudun o birinə qarışması nəzərdə tutulmur. Hətta yanaşı dayanmış şirin su ilə şor su bir-birinə qatılmır.
4. Nemətlərdən faydalanmaq üçün səy və təlaşa ehtiyac var.

---

[1] “Fatir”, 12
[2] “Təfsiri-kənzul-dəqaiq”
[3] “Təfsiri-Qummi”

5. Su və torpaq bəşəriyyətin ehtiyaclarını ödəyən mənbələrdir.
6. İnsan əlindən çıxan məhsullar əslində Allah tərəfindəndir.
7. Dəniz sərnişin və yük daşınmasında sərfəli nəqliyyat vasitəsi kimi daim diqqət mərkəzində olmuşdur. Allah hazırkı ayələrdə insanın diqqətini uyğun nöqtəyə yönəldir.
8. Dəniz və onda olan nemətlər böyük nemətlərdir və Allah bu nemətləri təkzib edənləri qınayır. “Fəbiəyyi alai rəbbikuma tukəzziban” cümləsi uyğun əyələrdə üç dəfə təkrarlanır.

***Ayə 26, 27, 28:***

**﴿كُلُّ مَنْ عَلَيْهَا فَانٍ﴾﴿وَيَبْقَى وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَالْإِكْرَامِ﴾﴿فَبِأَيِّ ءَءالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Yer üzündə nə varsa fənadır. (Yalnız) Cəlal və kərəm sahibi olan Rəbbinin zatı əbədidir. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr**

”Ali-İmran” surəsinin 185-ci ayəsində oxuduq ki, hər bir insan ölümü dadacaq. “Qəsəs” surəsinin son ayəsində isə Allahın zatından savayı bütün mövcudların həlak olacağı bildirilir. Bu surədə dcə yer üzündə olanların faniliyi, yalnız Allahın zatının əbədiliyi bildirilir.

Ötən ayələrdə nemətlər sadalandı. Bu ayədə buyurulur ki, nemətlərdən bəhrələnmə dövrü qısadır. Fürsəti qənimət sayın.

Bütün mövcudlar fani olsalar da Allah yolunu seçən, işləri ilahi rəngdə olan insanın xalis niyyəti onun işlərini əbədiləşdirir.

**Bildirişlər**

1. Ölüm ümumi və əhatəli bir qanundur.
2. Allahdan savayı kimsəyə güvənməyək.
3. İnsanın dəyəri onun imkanlarından yox, Allaha yaxınlığından asılıdır.
4. Ölüm insanın təkamülündə bir addımdır.
5. Peyğəmbər Allahın xüsusi tərbiyə və müdiriyyəti altındadır.
6. Mövcudların ölümü ilahi qüdrət və kərəmin sona çatdığını göstərmir.
7. Allahın cəlalı Onun mərhəmət və rüfəti ilə yanaşıdır.
8. Ölüm nemətdir.
9. Cinlər də insanlar kimi ölür. “Sizin Rəbbiniz” müraciəti həm cinlərə, həm də insanlara aiddir.

***Ayə 29:***

**﴿يَسْأَلُهُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ كُلَّ يَوْمٍ هُوَ فِي شَأْنٍ﴾**

**“Göylərdə və yerdə nə varsa (öz ehtiyacını) Ondan istəyir. O hər gün işdədir.”**

*Ayə 30:*

**﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**"Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!"**

**Nöqtələr**

İstək həmişə dilə gətirilmir. İnsan dil açıb istəsə də, istəməsə də Allaha möhtacdır.

"Yəvm" dedikdə ayədə gün yox, mütləq zaman nəzərdə tutulmuşdur. Çünki Allah zamana sığmır, zamanın fövqündədir.

"O hər gün işdədir" ayəsinin təfsirində hədisdə deyilir: "Allah hər gün öncə görmədiyi yeni bir iş görür."[1]

Həzrət Əli (ə) "O hər gün işdədir" ayəsi ilə bağlı buyurur: "Hər gün bir günahı bağışlayır, bir qəmi aradan qaldırır. Bir qrupu yüksəldi, başqa bir qrupu alçaldır."[2]

**Bildirişlər**

1. Göy məxluqu olan mələklər də insanlar kimi Allaha əl açmışlar.
2. Allahın işləri təqlid yox, yaradıcılıqdır.
3. Mövcudların daimi ehtiyacı Allahdan daimi lütf və feyz tələb edir. (Hər an yeni və davamlı bir feyz nəzərdə tutulur)
4. Allah dünyanı yaradıb başına buraxmamışdır. O daim varlıq aləminin işlərini idarə edir.

*Ayə 31, 32:*

**﴿سَنَفْرُغُ لَكُمْ أَيُّهَا الثَّقَلَانِ﴾﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**"Ey cin və insan! Tezliklə sizi təftiş edərik. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!"**

**Nöqtələr**

"Sənəfruğ" dedikdə işdən ayrılmaq yox, mühüm işlərə diqqət yetirmək nəzərdə tutulur.

Əgər Allahın hesabında işə diqqətdən danışılırsa, hakim də mühakimə zamanı bütün digər işlərdən ayrılmalıdır. Bəli, ədalətli muhakimə ayrıca diqqət tələb edir.

Bütün işlər sorğuya çəkilər. Surənin əvvəlindən hazırkı ayəyədək müxtəlif maddi və mənəvi nemətlər sadalandı.

"Məcməül-bəyan" təfsirinin müəllifi bildirir ki, cin və insan digər mövcudlardan üstündür. Onların ağlı, seçim gücü var. Bu cəhət "siql" adlanır.

---

[1] "Təfsiri-kənzul-dəqaiq"

[2] "Təfsiri-bürhan"

### *Qiyamət hesabı*

Hesab çəkən Allahdır;[1] Allah sürətlə hesab çəkəndir.[2] Həzrət Əlidən (ə) soruşdular ki, Allah bütün yaranmışların hesabını necə aparır? Həzrət buyurdu: “Hamıya ruzi verdiyi kimi.”[3] Bütün nemətlər haqqında soruşular.[4] Hətta peyğəmbərlər də sorğuya çəkilər.[5] Bəzilərinin hesabı yüngüldür.[6] Bəzilərinin hesabı isə ağırdır.[7] Hədisdə oxuyuruq ki, hesab növünün ilahi nemət və lütflərdən asılılığı var.[8] Həqiqətən, qiyamət günü bəndələrdən onların düşüncəsi həddində soruşular. Rəvayətdə bildirilir ki, insanlarla münasibətdə sətlik göstərənlərlə ağır hesab aparılar.[9] Rəvayətdə oxuyuruq ki, əgər dünyada özünüzlə hesab çəksəniz qiyamət hesabınız yüngül olar. İmam Kazim (ə) buyurur: “Dünyada öz hesabından qəflətdə qalan insan bizdən deyil.”[10]

### Bildirişlər

1. Hesab çəkmək Allahın müdiriyyət və tərbiyə şənlərindəndir.
2. Hesaba hamı hazır olmalıdır.
3. Allah hər an bir işdədir. Bu gün əta edir, sabah hesab çəkir.
4. Bir iş onu başqa bir işdən ayırmır. Amma hesaba diqqət yetirdiyindən “sənəfruğu ləkum” ifadəsi işlədilir.
5. Allahın hesabına iman insanın nemətlərdən bəhrələnməsinə təsir göstərir.
6. Cin və insan hər ikisi vəzifəli və sorğu-suala çəkiləsi məxluqlardır.
7. Allah hesab üçün bütün imkanları səfərbərliyə alır.

*Ayə 33:*

﴿يَا مَعْشَرَ الْجِنِّ وَالْإِنسِ إِنِ اسْتَطَعْتُمْ أَن تَنفُذُوا مِنْ أَقْطَارِ السَّمَاوَاتِ وَالْأَرْضِ فَانفُذُوا لَا تَنفُذُونَ إِلَّا بِسُلْطَانٍ﴾

**“Ey cin və insan qrupu! Əgər göylərin və yerin sərhədlərindən aşa bilirsinizsə, aşın. Yalnız fövqəladə qüdrətlə çıxa bilərsiniz.”**

*Ayə 34:*

﴿فَبِأَيِّ ءَاَلآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

### Nöqtələr

---

1 “Ənbiya”, 47
2 “Ənam”, 62
3 “Nəhcül-bəlağə”, hikmət 300
4 “Təkasur”, 8
5 “Əraf”, 26
6 “İnşiqaq”, 8
7 “Rəd”, 21; “Təlaq”, 8
8 “Kafi”, c. 1, s. 11
9 “Bihar”, c. 7, s. 266
10 “Vəsail”, c. 11, nəfslə hesab babı

”Məşər” dedikdə qrup nəzərdə tutulur. Bu söz on ədədini bildirən “əşr” kökündəndir. İnsana bağlı ətrafa işarə olan “əşirə” sözü də bu kökdəndir. “Məşər” sözü Quranda üç dəfə işlədilmişdir. Hər dəfə də cin insandan öndə zikr edilir. Bunun səbəbi cinlərin sayca çoxluğu, ya da onların insandan öncə yaranışı ola bilər.[1] Bəli, bəzən insan cindən öncə zikr olunmuşdur.

”Sultan” dedikdə həm maddi qüvvə, həm də elmi güc nəzərdə tutulur.[2]

Olsun ki, 32-ci ayədə insanın yerin cazibəsindən çıxıb səmaya qalxması nəzərdə tutulur. Bu ayə qiyamətə də aid ola bilər.

Yerin təki, səma insan və cin üçün üçün ram edilmişdir. “İnistətətum” təbiri imkan, “illa bi sultan” təbiri səma və yerə nüfuzun mümkünlük rəmzidir. Quranda “sultan” sözü adətən elmi üstünlük mənasında işlədilmişdir.

**Bildirişlər**

1. Cin və insana qiyamətdə yanaşı şəkildə müraciət olunar.
2. Allahın qüdrətinə və insanın acizliyinə diqqət bizi günahdan çəkindirə bilər.
3. Cin kimi lətif varlığın da ilahi mühakimədən qaçmaq gücü yoxdur.
4. Qiyamətdə əzabdan qurtuluş yalnız əqli və şəri dəlillərlə mümkündür.

***Ayə 35:***

**﴿يُرْسَلُ عَلَيْكُمَا شُوَاظٌ مِّن نَّارٍ وَنُحَاسٌ فَلَا تَنتَصِرَانِ﴾**

**“Sizin üzərinizə odda şölə və ərimiş mis axıdılar. Belə ki, kömək istəyə bilməzsiniz.”**

***Ayə 36:***

**﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr**

”Şəvaz”dedikdə böyük od şöləsi, “nuhas” dedikdə ərimiş mis nəzərdə tutulur.

Hazırkı ayədə qiyamət belə təsvir olunur: Bir tərəfdən Allah lütfü ilə hesab aparır, digər tərəfdən insanın qurtuluş yolu yoxdur; başqa bir tərəfdən hər tərəfdən əzab gəlir; eyni zamanda kimsəkömək istəyə bilmir.

Peyğəmbərlərin gəlişindən faydalanmayan insan[3] və maddi nemətlərdən düzgün istifadə edə bilməyən kəs[4] ərimiş mis əzabının intizarında olsun.

**Bildirişlər**

---

[1] “Hicr”, 27
[2] “Ğafir”, 23; “Ğafir”, 35
[3] “Şura”, 51
[4] “Hud”, 52; “Nəml”, 63

1. Qiyamətdə od və ərimiş mis təkzib edənlərin qarşısını kəsəcək.

2. Oddan yaranmış cin də insan kimi odda yanar.

3. Gələcəkdə ehtimal olunan əzablardan xəbərdarlıq birr nemətdir. Çünki belə bir düşüncə insanı günahdan uzaqlaşdırır.

***Ayə 37, 38:***

**﴿فَإِذَا انشَقَّتِ السَّمَآءُ فَكَانَتْ وَرْدَةً كَالدِّهَانِ﴾﴿فَبِأَيِّ ءَاءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Səma parçalanan, qaynanmış yağ kimi qızaran vaxt halınız necə olar? Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

***Ayə 39, 40:***

**﴿فَيَوْمَئِذٍ لَّا يُسْأَلُ عَن ذَنبِهِ إِنسٌ وَلَا جَآنٌّ﴾﴿فَبِأَيِّ ءَاءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Həmin gün (o müstəsna məqamda) insan və cinin heç birindən günahı haqqında soruşulmaz. Bəs Rəbbinizin hansı nemətini təkzib edirsiniz?!”**

**Nöqtələr**

Rəvayətdə bildirilir ki, qiyamətin əlli dayanacağı var.[1] İnsan bu dayanacaqlarda sorğuya çəkilər.[2] Hansısa dayanacaqlarda ağızlar möhürlənər.[3] Bir dayanacaqda hamı ətrafdan yardım istəyər, digər bir dayanacaqda hamı ağlar haldadır. Bu ayədə isə buyurulur ki, kimsə sorğuya çəkilməz. Bu məqam xüsusi bir məqamdır.

Olsun ki, ayədə nəzərdə tutulan təkcə günahlar barədə danışılmamasıdır. Çünki günahkarın günahı həmin gün göz önündədir.[4] Günahkarın sirləri aşkardır.[5] Deməк, insandan günahları barədə yox, ömrü, qazancı, xərci haqqında soruşular.

Gələcəkdə səmalar parçalanar, əriyib üzülər. “Nəbə” surəsinin 12-ci ayəsində onların möhkəmliyindən danışılır. İndi isə onların yağ kimi əriyib axacağı bildirilir.

**Bildirişlər**

1. Qiyamət təbiət nizamının dağılması ilə bərpa olar.

2. Bu dünyanın sonu hər şeyin məhvi, eyni zamanda digər bir aləm üçün başlanğıcdır.

3. Cinlər də insanlar kimi günaha batır.

***Ayə 41, 42:***

---

[1] “Bihar”, c. 7, s. 126
[2] “Saffat”, 24
[3] “Yasin”, 65
[4] “Kəhf”, 49
[5] “Tariq”, 9

﴿يُعْرَفُ الْمُجْرِمُونَ بِسِيمَاهُمْ فَيُؤْخَذُ بِالنَّوَاصِي وَالْأَقْدَامِ﴾﴿فَبِأَيِّ ءَالَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Günahkarlar simasından tanınar. Başlarının tükündən və ayaqlarından tutularlar (və cəhənnəmə atılarlar). Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr**

”Sima” sözü zahiri əlamət bildirən “sum” sözündəndir. “Nəvasi” sözü “nasiyə” sözünün cəm forması olub, başın qabaq hissəsinin tükləri, kəkil mənasını bildirir.

Bu ayə sanki öncəki ayədəki suala cavab verir. Əgər günahlar barədə soruşulmursa, günahkarlar necə tanınır? Bu ayədə günahkarların simasından tanındığı bildirir.[1]

Günahkarlar simasından tanındığı kimi, xeyir əməl sahibləri də simalarından məlum olar.[2]

Qiyamətdə simalar: üzü ağ olanlar;[3] üzü qaralar;[4] şadlıq içində olanlar;[5] tutqun və qəmgin simalar;[6] gülər üzlər;[7] toz-torpağa bulaşmış simalar;[8] xar vəzəlil simalar[9]

**Bildirişlər**

1. İnsanın düşüncə və əməlləri onun çöhrəsində görünür.
2. Günahkar zillətə qərq olmuş halda ilahi əzaba düçar olar.
3. Dünyada heç bir günahdan çəkinməyənlər başlarının tükündən ayaqlarınadək ilahi göstərişlərə itaətsizlik edərlər qiyamətdə saçlarından sürünərək əzaba daxil edilir.
4. Yaxşıların pislərdən seçilməsi, onların müəyyənləşdiriləsi ilahi nemətlərdəndir.

***Ayə 43, 44, 45:***

﴿هَذِهِ جَهَنَّمُ الَّتِي يُكَذِّبُ بِهَا الْمُجْرِمُونَ﴾﴿يَطُوفُونَ بَيْنَهَا وَبَيْنَ حَمِيمٍ ءَانٍ﴾﴿فَبِأَيِّ ءَالَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

---

1 “Təfsiri-əl mizan”
2 “Mutəffifin”, 24
3 “Ali-İmran”, 106
4 “Zumər”, 60
5 “Qiyamət”, 22; “Ğaşiə”, 8
6 “Qiyamət”, 24
7 “Əbəsə”, 37
8 “Əbəsə”, 40
9 “Ğaşiə”, 2

**“Budur günahkarların inkar etdiyi cəhənnəm. Onlar qaynar və yandırıcı od və su arasında hərəkətdədir. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr**

”Həmim” qaynar su mənasını bildirir. “Həmmam” sözü də eyni kökdəndir. “An” dedikdə son dərəcə yandırıcı maye nəzərdə tutulur.

Behişt və cəhənnəmin inkarı, qiyamətə inamsızlıq insanı cəhənnəmə aparan amillərdəndir. “Muddəssir” surəsində buyurulduğu kimi, cəhənnəmə daxil olma səbəblərindən biri qiyamətin təkzibidir.

Behişt əhli təvaf (dövrə vurmaq) mərkəzidir, behişt xidmətçiləri əllərində behiş qabları onların başına dolanar.[1] Əzəmətli və təravətli gənclər daim onların başına hərlənər. Behişt əhlinin ətrafında xörək qabları, qızıl camlar dolandırılar.[2] Ağzınadək dolu qədəhlər də bu qəbildəndir.[3] Qızıl qablar və büllur qədəhlər xidmətçilərin əlindədir. [4] Cəhənnəm əhli isə özü zəlil vəziyyətdə cəhənnəm və qaynar su başına hərlənməlidir.

**Bildirişlər**

1. Günahkarlar inkar etdiklərini öz gözləri ilə görəsidirlər.
2. Günah qiyamətin təkzibi üçün zəmindir.
3. Cəhənnəm əhli əzab ətrafına dolanar.
4. Allahın ədaləti və günahkarların cəzalandırılması ilahi nemətlərdəndir.

***Ayə 46, 47:***

﴿وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِ جَنَّتَانِ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Rəbbinin məqamından qorxanlar üçün iki bağ var. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

***Ayə 48, 49:***

﴿ذَوَاتَا أَفْنَانٍ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Qollu-budaqlı, təravətli budaqları olan ağaclara malik bağlar; bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

***Ayə 50, 51:***

﴿فِيهِمَا عَيْنَانِ تَجْرِيَانِ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Həmin iki bağda həmişə iki çeşmə axır. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

---

[1] “Vaqeə”, 17
[2] “Zuxruf”, 71
[3] “Saffat”, 45
[4] “İnsan”, 15

*Ayə 52, 53:*

﴿فِيهِمَا مِن كُلِّ فَاكِهَةٍ زَوْجَانِ﴾﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Həmin iki bağda hər meyvədən iki növ var. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

## Nöqtələr

”Əfnan” dedikdə ya təzə budaq, ya da çeşidlilik mənası nəzərdə tutulur.

”Coşən-kəbir” duasının 40-cı bəndində oxuyuruq ki, Allah ən üstün məhbubdur. Bizim qorxumuz Onun zatından yox, məqamındandır. Onun agahlıq, hüzur, ədalət və əhatə məqamı insanın qəlbini əsdirir.

İlahi məqamdan qorxu insanı günahdan çəkindirir, onu behiştə çatdırır. “Naziat” surəsinin 40-cı ayəsində buyurulur ki, Rəbbinin məqamından qorxan, öz nəfsini cilovlayan hökmən vəd olunmuş behiştə daxil olar.

Qorxunu doğuran Allah və Onun məqamı ilə tanışlıq olmalıdır. Yalnız mərifət əsasında axıdılan göz yaşları dəyərlidir.[1]

”İnsan” surəsində Əhli-beyt haqqında buyurulur ki, onlar öz qidalarını yetimlərə, miskinlərə və əsirlərə verirdilər.[2] Bu ayədə isə Allahdan qorxanların Behiştə daxil olacağı vəd edilir. Deməк, Əhli-beyt (ə) behişt əhlidir.

Rəvayətdə bildirilir ki, dünya həyatında Allahdan qorxan insan axirətdə amandadır. Dünyada arxayınlıq içində yaşayan isə axirətdə qorxu keçirir.[3]

İmam Sadiq (ə) buyurur: “Hər kəs Allahın onu gördüyünə və hər deyilən sözü eşitdiyinə inansa belə bir iman onu pis işlərdən çəkindirir. Bəli, belə bir insan Allahın məqamından qorxur, öz nəfsini cilovlayır.”[4]

Hədisdə bildirilir ki, həzrət Peyğəmbər (s) imam Əliyə (ə) buyurdu: “Qurtuluşun bir neçə səbəbi var onlardan biri gizlində və aşkarda Allahdan qorxmaqdır.”[5]

Həqiqi, rəbbani alimlə sıx rabitə insanın ilahi məqamdan qorxusunu gücləndirir. Hədisdə deyilir ki, hər kəs elm öyrənmək üçün iki addım atsa, həqiqi alimin yanında iki saat əyləşsə, ustaddan iki söz öyrənsə, Allah onun üçün behiştdə iki bağ ayırar.[6] İnsanın dünya həyatında ilahi məqamdan qorxması onu axirət qorxularından amanda saxlayır.[7]

Behişt nemətlərini dərməyin çətinliyi yoxdur, onları əldə etmək üçün vaxt keçmir, bu işdə heç bir məhdudiyyət qabağa çıxmır, behişt meyvələri mövsimi deyil.[8]

---

[1] “Maidə”, 83
[2] “İnsan”, 10
[3] “Təfsiri-kənzul-dəqaiq”
[4] “Təfsiri-nurus-səqəleyn”
[5] “Təfsiri-kənzul-dəqaiq”
[6] “İrşadul-qülub”, c. 1, s. 195
[7] “Yunus”, 62
[8] “Haqqə”, 23; “Vaqeə”, 32; “Vaqeə”, 33

Loğman öz oğluna belə tövsiyə edir: “Allahdan elə qorx kimi, cin və insin ibadəti səni arxayınlaşdırmasın, Allahın fəzlinə elə ümid bağla ki, yol verdiyin ən böyük günah sənin ümidini qırmasın.” Uyğun buyuruqların oxşarı ilə həzrət Əlinin (ə) kəlamlarında rastlaşırıq.

İmam Baqir (ə) həzrət Peyğəmbərdən (s) nəql edir ki, kimsə öz əməlinə güvənməsin, güvənəck yer yalnız Allahın fəzl və rəhmətidir.

**Bildirişlər**

1. İlahi ədalət mühakiməsində irq, rəng, peşə, yaş, cinsiyyət meyar deyil.
2. Haqqın qəbulunun, saleh əməlin qaynağı Allah qorxusudur. Bu səbəbdən də behiştə daxil olmaq üçün Allah qorxusundan əlavə bir şərt qoyulmur.
3. Allahın zatı rəhmət qaynağıdır. İnsanın ilahi məqama diqqəti onun əməl və rəftarlarına, diqqətinə, günahdan çəkinməsinə səbəb olur.
4. Tərbiyə prosesində xəbərdarlıq və təşviq yanaşı olmalıdır.
5. Behiştdə həm bolluq var, həm də nemətlər əl altındadır.

*Ayə 54, 55:*

﴿مُتَّكِئِينَ عَلَى فُرُشٍ بَطَائِنُهَا مِنْ إِسْتَبْرَقٍ وَجَنَى الْجَنَّتَيْنِ دَانٍ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Behişt əhli astarı qalın ipəkdən olan döşəklərə söykənmişlər. Həmin iki bağın meyvələrini dərmək asandır. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

*Ayə 56, 57:*

﴿فِيهِنَّ قَاصِرَاتُ الطَّرْفِ لَمْ يَطْمِثْهُنَّ إِنسٌ قَبْلَهُمْ وَلَا جَانٌّ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Orada biganəyə baxmamış, bundan öncə cin və insin toxunmadığı zövcələr var. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

*Ayə 58, 59:*

﴿كَأَنَّهُنَّ الْيَاقُوتُ وَالْمَرْجَانُ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Onlar sanki yaqut və mərcandır. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr**

”Bətain” dedikdə iç üz yəni astar mənası nəzərdə tutulur. “İstədrək”, yəni qalın ipək. “Cənə” meyvə dərmək, “dan” yaxında olma mənasını bildirir. “Qasiratut-tərf” başqasına göz dikməmək mənasını bildirir. Onlar ciddi və gözəldirlər və öz zövcələrindən başqasına baxmırlar.

Bu ayələrdə behiştin təbii ləzzətlərinə işarə olunmuşdur: bağlarda və çay kənarlarında istirahət; müxtəlif qidalardan və meyvələrdən istifadə; tam asayiş və arxayınlıq; pak və gözəl zövcələr.[1]

## Bildirişlər

1. Bugünkü qorxu sabahkı arxayınlıqdır.
2. Behişt əhlinin də cinsi meylləri var.
3. Cinlərin də cinsi istəkləri var.
4. İnsanın paklığa, zövcəsinin bəkarət və gözəlliyinə meyli fitri bir meyldir və sonradan əldə olunmur.
5. Behişt zövcələri dünyadakı zövcələrdən fərqlidir. Onlara kimsə toxunmamışdır.
6. Öncə iffət, sonra gözəllik.

***Ayə 60, 61:***

﴿هَلْ جَزَاء الْإِحْسَانِ إِلَّا الْإِحْسَانُ﴾﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Sizin yaxşılığınızın mükafatı yalnız yaxşılıqdır. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

## Nöqtələr

”Ehsan” sözü iki cür mənalandırılır: yaxşı əməl və başqalarına yaxşılıq. Ayənin əvvəlində ehsan dedikdə yaxşı iş, sonra isə başqalarına yaxşılıq nəzərdə tutulur.[2]

İmam Sadiq (ə) buyurur: “Həl cəzaul-ihsani...” cümləsi kafir və mömin haqqındadır. Başqasının gördüyü xeyir işin əvəzini çıxmaq lazımdır.[3]

Quranda qarşı tərəflə eyni cür rəftarla bağlı təkrarlar var: “Məni yada salın, sizi yada salım;”[4] “Əgər qayıtsanız, biz də qayıdarıq;”[5] “Sizə toxunduqları qədər onlara toxunun;”[6] “Qadının məsuliyyəti olduğu qədər, haqqı var;”[7] “Düşməndən intiqam almaq istəsəniz, zərər gördüyünüz qədər zərbə vurun;[8] ”Allaha yardım göstərsəniz, sizə yardım göstərər;[9] “Əgər öz istəkləri ilə yoldan azsalar Allah onları başına buraxar.”[10]

Həzrət Əli (ə) Peyğəmbərdən (s) belə nəql edir: ”Tövhid neməti verilmiş kəsin mükafatı behişt deyilmi?!”[11]

---

1 “Təfsiri-kəbiri Fəxr Razi”
2 “Təfsiri-rahnoma”
3 “Təfsiri-məcməül-bəyan”; “Təfsiri-əl mizan”
4 “Bəqərə”, 152
5 “İsra”, 8
6 “Bəqərə”, 194
7 “Bəqərə”, 228
8 “Nəml”, 126
9 “Muhəmməd”, 7
10 “Səff”, 5
11 “Əmaliye Tusi”, c. 2, s. 182

**Bildirişlər**

1. Başqalarının ehsan və yaxşılığına yaxşılıqla cavab verək.
2. Allah-taalanın insana bir bu qədər ehsanı müqabilində yalnız yaxşılıq rəva deyilmi?!
3. Fərdlər yox, dəyərlər haqqında düşünün. Cinsiyyət, millət, yaş, məntəqə və qəbilə əsas deyil.
4. İstənilən şəkildə, istənilən miqdarda, istənilən bir zaman və məkanda, istənilən bir şəxsə yaxşılığın mükafatı yaxşılıqdır.
5. Qiyamət fəlsəfələrindən biri ədalətin bərpası və yaxşılıqlara cavabdır.
6. Yaxşılıqlarımız müqabilində mükafat bir nemətdir.

***Ayə 62, 63:***

**﴿وَمِن دُونِهِمَا جَنَّتَانِ﴾﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Həmin iki bağdan aşağı başqa iki bağ var. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

***Ayə 64, 65:***

**﴿مُدْهَامَّتَانِ﴾﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“(O iki bağ) Yaşıllığının şiddətindən qara rəngə çalır. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

***Ayə 66, 67:***

**﴿فِيهِمَا عَيْنَانِ نَضَّاخَتَانِ﴾﴿فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾**

**“Həmin iki bağda qaynayan iki bulaq var. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

**Nöqtələr**

”Dun” sözü bəzən qeyrisi, bəzən də aşağı mənasını bildirir. Bu səbəbdən də “və min dunihi ma cənnətan” ayəsi iki cür mənalandırılır: həmin iki behiştdən əlavə iki behişt var; övliyalar üçün iki, möminlər üçün iki başqa behişt var.[1]

”Dəhəm” kökündən olan “mudham mətan” sözü və “ədhimam” babı tünd qara rəng mənasını bildirir. Burada yaşıllığın şiddətindən qaraya çalan bağ nəzərdə tutulur. “Nəzzax” dedikdə fəvvarə vuran, qaynayan məmaları başa düşülür.

Hədisdə bildirilir ki, su, yaşıllıq, xoş çöhrə sevinc doğurur.[2] Şair bu hədisi belə qələmə alır:

*Axar su, yaşıllıq bir də ki xoş üz*

---

[1] “Təfsiri-bürhan”

[2] “Bihar”, c. 59, s. 144

*Qəlbin qüssəsini aparır sössüz.*

Bu ayələrdə behiştdə olan bu üç nemətin hər birinə işarə olunur.

**Bildirişlər**

1. Behişt ağacları daim yaşıl və təravətlidir.
2. Quran yaşıl rəngə diqqət ayırır.
3. Ən üstün ləzzət təbiət mənzərələrinin seyridir.
4. Su bir nemətdir, onun fəvvarə vurması başqa bir nemət.
5. Bulaqların qaynaması, çayların axması, şəlalələr, süd və bal, şərab və sudan arxlar vəsfə gəlməz nemətlərdir.

*Ayə 68, 69:*

﴿فِيهِمَا فَاكِهَةٌ وَنَخْلٌ وَرُمَّانٌ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Həmin iki bağda meyvə, xurma və nar var. Bəs Rəbbinizin hansı nemətini inkar edirsiniz?!”**

*Ayə 70, 71:*

﴿فِيهِنَّ خَيْرَاتٌ حِسَانٌ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Həmin bağlarda xoş xasiyyət və gözəl üzlü qadınlar var. Bəs Rəbbinizin hansı nemətlərini inkar edirsiniz?!”**

*Ayə 72, 73:*

﴿حُورٌ مَّقْصُورَاتٌ فِي الْخِيَامِ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Xeymələrdə örtünmüş hurilər var. Bəs Rəbbinizin hansı nemətlərini inkar edirsiniz?!”**

*Ayə 74, 75:*

﴿لَمْ يَطْمِثْهُنَّ إِنسٌ قَبْلَهُمْ وَلَا جَانٌّ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Behişt əhlindən öncə onlara heç bir insan və cin toxunmamışdır. Bəs Rəbbinizin hansı nemətlərini inkar edirsiniz?!”**

*Ayə 76, 77:*

﴿مُتَّكِئِينَ عَلَى رَفْرَفٍ خُضْرٍ وَعَبْقَرِيٍّ حِسَانٍ﴾﴿فَبِأَيِّ ءَالآءِ رَبِّكُمَا تُكَذِّبَانِ﴾

**“Onlar yaşıl rəng parçalar və nadir xallarla bəzənmiş balışlara söykənmişlər. Bəs Rəbbinizin hansı nemətlərini inkar edirsiniz?!”**

*Ayə 78:*

﴿تَبَارَكَ اسْمُ رَبِّكَ ذِي الْجَلَالِ وَالْإِكْرَامِ﴾

**“Cəlal və kərəm sahibi olan Rəbbinin adı mübarək olsun.”**

**Nöqtələr**

”Rəfrəs” bağçanı xatırladan yaşıl rəngli parça növüdür. “Əbqəriyy” sözü əslində cinlərə məxsus yer adını bildirir. Bu yer hamıya məlum olmur. Eyni söz başqa az tapılan və nadir şeylər haqqında işlədilir. Ayədə az tapılan xallar nəzərdə tutulmuşdur.

Dünya ləzzətləri adətən qəflət və günahla müşayiət olunur. Behiştdə isə heç bir nöqsan yoxdur, behişt zövcələri nöqsansızdır. Ayədə haqqında danışılan iki qrup bağlar arasında fərqlər var.

a) Əvvəlki iki bağda hətta ipəklər astardandır. Sonrakı iki bağda yalnız zahirdəki parçalar gözəl və əlvandır.

b) Təqavalıların iki bağında hər meyvədən iki növ var. Sonrakı iki bağda yalnız meyvələrə işarə olunur.

v) Əvvəlki iki bağdakı zövcələr haqqında bir tərif deyilir, sonrakı iki bağdakı zövcələr haqqında başqa bir tərif.

q) Bu dörd bağda oxşar səciyyə zövcələrin bakirə olmasıdır.

Behişt meyvələri arasında xurma və narın öz yeri var. Çünki o biri meyvələr ümumi şəkildə xatırlandığı halda bu iki meyvənin adı xüsusi zikr edilir.

Bütün Quranda “zil cəlali vəl ikram” ifadəsi iki dəfə hazırkı surədə işlədilmişdir.

Surə “Rəhman” sözü ilə başlayıb “ikram” sözü ilə başa çatır. Yəni bütün bu nemətlərin qaynağı Allahın rəhmət və kərəmidir.

İslam Peyğəmbəri (s) buyurur: “Behişt qadınlarının gözəl əxlaqı və gözəl simai var.”[1]

Rəvayətlərdə oxuyuruq: “Dünya həyatındakı saleh qadınlar qiyamətdə hürilərdən də gözəl olur.”[2]

Xeymələrdəki hurilər bağlardakı qadınlardan fəqlidir. Hurilərə heç bir insan və cin toxunmamışdır. Bağlardakı qadınlar isə dünyadakı salehə qadınlardır.

### Bildirişlər

1. İnsan onun hiss etdiyi, tanınmış və bağlı olduğu şeylərlə təşviq edilməlidir.
2. Xüsusi fərdlərin və əşyaların adı xüsusi çəkilməlidir. Meyvələrlə yanaşı xurma və narın adı xüsusi qeyd olunur.
3. Behişt qadınları həm yaxşı xasiyyətli, həm də gözəl çöhrəlidir.
4. Pərdə və örtük hətta behiştdə bir dəyərdir.
5. Allah bütün xeyirlərin və bərəkətlərin qaynağıdır. Allahın mübarək adına sığınmaq yaxşı işdir.
6. Bütün nemətlər, gözəlliklər, cəzalar və mükafatlar Allahın rübubiyyətindən bir cilvədir.
7. Allahın cəlal və əzəməti onun kərəm və məhəbbti ilə müşayiət olunur.

## “VAQEƏ” SURƏSİ

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Kafi”, c. 8, s. 156

## *(56-CI SURƏ; 96 AYƏ)*

## *İYİRMİ YEDDİNCİ CÜZ*

## *“VAQEƏ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 96 ayədən ibarətdir.

Qiyamətin adlarından biri “Vaqeədir”. Bu surənin ilk ayəsində uyğun hadisənin kökmən baş verəcəyi qeyd edilir. Bu səbəbdən də surə “Vaqeə” adlandırılmışdır.

Bu surənin əksər ayələri qiyamət, onun şəraiti, orada baş verən hadisələr, insanların behişt və cəhənnəmə bölüşdürülməsi haqqındadır. Bu səbəbdən də “Vaqeə” surəsinin tilavəti (oxunuşu) insanı qəflət yuxusundan oyadır.

Abdullah ibn Məsud ölüm yatağında olarkən Osman onu yoxlamağa getdi. Ondan soruşdu: “Nədən nigaransan, arzun nədir?” Abdullah dedi: “Günahlarıma görə nigaranam və Allahın mərhəmətinə ümid edirəm.” Osman soruşdu: “Sənə bir şey əta etməyimi istəyirsənmi?” Abdullah dedi: “Xeyr, ehtiyacım olanda əlini sıxdın. Dünyadan gedən vaxt nəyə ehtiyacım olacaq?!” Osman dedi: “İcazə ver sənə bir şey bağışlayım, qızlarına irs qalsın.” Abdullah dedi: “Onlar da möhtac deyil. Qızlarıma bir şey öyrətmişəm ki, heç vaxt möhtac olmazlar. Onlara “Vaqeə” surəsini oxumağı tapşırmışam. Peyğəmbərdən (s) eşitmişəm ki, hər kəs hər gecə bu surəni oxusa yoxsulluq və bədbəxtlik ondan uzaq olar.”[1]

**بِسمِ اللهِ الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

*Ayə 1, 2:*

**﴿إِذَا وَقَعَتِ الْوَاقِعَةُ﴾﴿لَيْسَ لِوَقْعَتِهَا كَاذِبَةٌ﴾**

**“Bir vaxt ki, o vaqeə (böyük qiyamət hadisəsi) baş verər; onun baş verəcəyi yalan deyil. (Kimsə onu yalan saymamalıdır)”**

*Ayə 3, 4:*

**﴿خَافِضَةٌ رَّافِعَةٌ﴾﴿إِذَا رُجَّتِ الْأَرْضُ رَجًّا﴾**

**“(O vaqeə) Alçaldan və ucaldandır. (Varlıq nizamını alt-üst edər, alçalaqları alçaldar, yaxşıları ucaldar) Bir vaxt ki yer şiddətlə titrəyər.”**

*Ayə 5, 6:*

**﴿وَبُسَّتِ الْجِبَالُ بَسًّا﴾﴿فَكَانَتْ هَبَآءً مُّنبَثًّا﴾**

**“Dağlar şiddətlə parçalanar, səpələnmiş toz halına gələr.”**

**Nöqtələr**

[1] “Təfsiri-məcməül-bəyan”

”Xəfəz” sözü alçatmaq, “rəf” sözü yüksəltmək, “rucc” sözü şiddətli titrəyiş mənasını bildirir.

”Bəss” dedikdə güclü təzyiq altında ovulma mənası anlaşılır. “Həba” sözü havadakı narın toz mənasını ifadə edir. “Munbəs” dedikdə səpələnmə mənası anlaşılır.

Bir iş və ya hadisənin baş verməsi qətiləşdikdə felin qəti keçmiş zaman formasından istifadə etmək olar. Bu səbəbdən də qiyamətlə bağlı bir çox ayələrdə keçmiş zaman formasınada olan fellərdən istifadə edilmişdir. Məsələn, əgər dəhşətli bir sel şəhər üz tutmuşsa, “sel şəhəri apardı” demək olar. Hansı ki həmin sel hələ ki şəhərə çatmamışdır.

”Ləysə livəqətiha kazibə”, yəni insanlar qiyamətdən öncəki hadisələri gördükdə bütün varlıqları ilə ona inanacaqlar. Quranda buna oxşar başqa ayələr də var.[1]

İmam Səccad (ə) buyurur: “And olsun Allaha! Qiyamət hadisəsi Allahın düşmənlərini cəhənnəmə, Allahın övliyalarını behiştə aparar.”[2] Bəli, izzət və ya zillət, ucalıq və ya əskiklik qiyamət günü bilnər. Övliyalar bildirirlər ki, həqiqi yoxsulluq və həqiqi varlılıq əməl naməsi Allaha təqdim olunduqdan sonra bilinər.[3]

### ***Qiyamət astanasında yer və dağların vəziyyəti***

Rahatca ömür sürdüyümüz, sərvətlərindən bəhrələndiyimiz.[4] yer həmin gün hərəkətə gələr, misilsiz zəlzələlər baş verər, bütün yer üzü şiddətlə titrəyər. Bu hadisəni Allah böyük hadisə adlandırır.[5] Ağır dağlar yerindən qopub parçalanar, şiddətlə bir-birinə dəyər, toz torpağa dönüb havaya qalxar.[6]

### Bildirişlər

1. Qiyamətin baş verəcəyinə və həmin gün şiddətli zəlzələlərin olacağına heç bir şübhə yoxdur.
2. Qiyamət misli olmayan yeganə vaqeədir.
3. Təbliğdə mühüm bir məsələ ilə bağlı xəbərdarlıq edərkən müqəddimələri saxlayıb əsil mətləbə keçmək lazımdır.[7]
4. Qiyamətin inkarı yalnız dünya həyatında, insanlar rifah içində yaşadıqları vaxt müşahidə olunur. Elə ki, qiyamətin əlamətləri görünür kimsə onu inkar etmir.
5. Fürsət var ikən bu hadisənin gerçəkliyinə inanaq. Hadisə baş verəndən sonra peşimançılqdan başqa işimiz olası deyil.
6. Qiyamət yalnış düşüncələrin faş olduğu, həqiqətlərin üzə çıxdığı gündür.

---

[1] “Ğafir”, 84; “Şuəra”, 201; “Həcc”, 52
[2] “Təfsiri-nurus-səqəleyn”
[3] “Ğurərul-hikəm”
[4] “Nəba”, 6; “Mulk”, 15
[5] “Həcc”, 1
[6] “Nəbə”, 21; “Haqqə”, 14; “Qariə”, 5
[7] “Haqqə”, 1; “Təkvir”, 1

7. Qiyamət zəlzələsi çox şiddətli və böyükdür.

8. Qiyamət astanasında zəlzələlərin, torpaq sürüşmələrinin baş verməsi qətidir.

***Ayə 7, 8, 9:***

﴿وَكُنتُمْ أَزْوَاجًا ثَلَاثَةً﴾﴿فَأَصْحَابُ الْمَيْمَنَةِ مَا أَصْحَابُ الْمَيْمَنَةِ﴾﴿وَأَصْحَابُ الْمَشْأَمَةِ مَآ أَصْحَابُ الْمَشْأَمَةِ﴾

**“(Həmin gün) Siz üç qrup olarsınız: yəmin əshabı (sağ tərəf əhli); kimdir yəmin əshabı?! (Onlar sanki xoşbəxtlik təcəssümdür); və (ikinci qrup) bədbəxtlik əshabı; kimdir bədbəxtlik əshabı?! (Onlar sanki bədbəxtliyin təcəssümdür)”**

***Ayə 10, 11, 12, 13, 14:***

﴿وَالسَّابِقُونَ السَّابِقُونَ﴾﴿أُوْلَئِكَ الْمُقَرَّبُونَ﴾﴿فِي جَنَّاتِ النَّعِيمِ﴾﴿ثُلَّةٌ مِّنَ الْأَوَّلِينَ﴾﴿وَقَلِيلٌ مِّنَ الْآخِرِينَ﴾

**“(Üçüncü qrup mükafat almaqda da) Öncüllər, öndə olanlardır; onlar Allah dərgahına yaxın olanlardır; onlar nemət dolu bağlarda olarlar; onların çox əvvəlkilərdən (öncəli ümmətlərdən) olar; az bir hissəsi sonrakılardan.”**

***Ayə 15, 16:***

﴿عَلَى سُرُرٍ مَّوْضُونَةٍ﴾﴿مُتَّكِئِينَ عَلَيْهَا مُتَقَابِلِينَ﴾

**“Onlar cəvahirlə bəzənmiş taxtlardadır; üzbəüz vəziyyətdə taxta söykənmişlər.”**

**Nöqtələr**

”Yumən” sözündən olan “məymənə” sözü bərəkət və səadət, “şövm” sözündən olan “məşəmə” sözü bədbəxtlik mənası bildirir. Bəzilərinin nəzərincə bu iki söz sağ və sol tərəfə işarədir. Çünki qiyamətdə əməl naməsi yaxşıların sağ, günahkarların sol əlinə verilər. Kəbədən sağda yerləşdiyi üçün bir məntəqə Yəmən, Kəbədən solda yerləşdiyi üçün digər məntəqə Şam adlandırılmışdır.

”Sullə” sözü qrup, cəmiyyət mənasını bildirir. “Dəlilun minəl axirin” ayəsinə əsasən “sullə” böyük cəmiyyət mənasını bildirir. “Surur” sözü “sərir sözünün cəm forması olub fərəhləndirən mənasını ifadə edir. “Məvzunə” dedikdə cəvahirlərlə bəzənmiş mənası başa düşülür. İmam Baqir (ə) buyurur: “Behişt əhlinin taxtları dür və yaqutla bəzənmişdir.”[1]

Mələklər hamılıqla mömindirlər və Allahın əmrinə təslimdirlər.[2] Cinlər isə iki dəstəyə bölünür: möminlər və kafirlər.[3] İnsanlar isə sonda üç qismə bölünər.

[1] “Bihar”, c. 8, s. 218

[2] “Təhrim”, 6

[3] “Cin”, 14

“Fatir”, surəsində də insanların üç qismə bölündüyü bildirilir.[1] Birinci qrupa zalımlar və günahkarlar, ikinci rupa orta səviyyədə olanlar, üçüncü qrupa bəyənilmiş insanlar daxildir.

Quranda öncüllərin nümunələri nümunələri təqdim olunur. Məsələn imanda öncüllər;[2] infaq və cihadda öncüllər;[3] xeyir işdə öncüllər.[4]

İmam Baqir (ə) peyğəmbərləri, həzrət Əli (ə) beş vaxt namaza tələsənləri öncüllərdən sayır.[5]

Allah dərgahına yaxınlar dedikdə, məkan baxımından yox, məqam baxımından yaxınlar nəzərdə tutulur. Allaha yaxınlıq boş iddialarla təsdiqlənmir, onun öz yolu və dəlilləri var. Yəhudilər deyirdilər ki, biz Allah dərgahına yaxınlarıq.[6] Quran isə buyurur ki, kamillikdə öncüllər Allaha yaxınlardır.

İnsanlar üç qrupa bölünərkən “sonrakılar, sondakılar” qrupu axırda zikr olunur. Olsun ki bunun səbəbi onların sayca azlığıdır. Amma mədh olunarkən öncə onların adı çəkilir.

## Bildirişlər

1. Qiyamətdə hüzur və məhşər səhnəsinə gətirilmə o qədər labüddür ki, bu iş sanki keçmişdə baş vermişdir.
2. Təbliğ və danışıq qaydalarına əsasən öncə məsələ xülasə şəkildə açıqlanır, sonra şərh verilir.
3. Xoşbəxtlik və ya bədbəxtlik qiyamətdə daimidir.
4. İman və əməldə öncüllük bir dəyərdir.
5. Dünyada xeyir əmələ tələsənlər axirətdə mükafat alarkən öndədirlər.
6. Yaxşılıqda öncüllər yaxınlardan olmalıdırlar.
7. Behişt mömin üçün kam almaq məhəllidir.
8. Mənəvi məqam maddi ləzzətlərdən üstündür. Öncə buyurulur ki, onlar bizim dərgahımıza yaxınlardır. Sonra isə behişt bağlarından danışılır.
9. Keçmişin saleh insanları unudulmamalıdır.
10. Şövq və məhəbbət yaratmaq üçün behiştin xüsusiyyətləri sadalanmalıdır.
11. Behişt əhli üzbəüz olmaq üçün dairəvi əyləşər.
12. Qonağın özünü rahat hiss edəcəyi yer hazırlamaq qonağı qəbul etmək qaydalarındandır.

***Ayə 17, 18 , 19:***

﴿يَطُوفُ عَلَيْهِمْ وِلْدَانٌ مُّخَلَّدُونَ﴾﴿بِأَكْوَابٍ وَأَبَارِيقَ وَكَأْسٍ مِّن مَّعِينٍ﴾﴿لَا يُصَدَّعُونَ عَنْهَا وَلَا يُنزِفُونَ﴾

---

[1] “Fatir”, 32
[2] “Həşr”, 10
[3] “Hədid”, 10
[4] “Bəqərə”, 148
[5] “Bəsairud-dərəcat”, s. 448; “Təfsiri-rahnoma”; “Təfsiri-nurus-səqələyn”
[6] “Maidə”, 18

**“Onların ətrafında həmişə cavan xidmətçi oğlanlar dolanar; dolu camlar, qədəhlər və qablarla; həmin içkilərdən nə başları ağrayar, nə də məst olarlar.”**

*Ayə 20, 21, 22, 23:*

﴿وَفَاكِهَةٍ مِّمَّا يَتَخَيَّرُونَ﴾﴿وَلَحْمِ طَيْرٍ مِّمَّا يَشْتَهُونَ﴾﴿وَحُورٌ عِينٌ﴾﴿كَأَمْثَالِ اللُّؤْلُؤِ الْمَكْنُونِ﴾

**“(Onlar üçün) İstədikləri meyvələr; iştahaları çəkən növdən quş ətləri; iri gözlü hurilər; onlar sədəf içində mirvari kimidir.”**

*Ayə 24:*

﴿جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ﴾

**“Bu əməlləri müqabilində bir mükafatdır.”**

**Nöqtələr**

”Əkvab” sözü dəstəksiz və ağızlıqsız fincan mənasını bildirən “kəvəb” sözünün cəm formasıdır. Çaydan kimi dətəsi və ağızlığı olan qab “əvariq” adlanır. “Kəs” dedikdə içki ilə dolu qab nəzərdə tutulur. “Məin” içki mənasını bildirir. “Yusəddəun” sözü baş ağrısı mənasını ifadə edir. (Məsələn deyirlər ki, sizə müsəddi olmaram. Yəni sizin sizin üçün başağrısı yaratmaram.) “Nəzəf” sözündən olan “yunzifun” sözü ağılı əldən vermək mənasını bildirir. Əslində bu söz quyunun suyunun tədricən azalmasına işarədir.

Behişt qadınları haqqında ən münasib oxşatma sədəf içində mirvaridir. Onlar gözəl və nurlu olmaqla naməhrəmlərin gözündən uzaqdırlar.

**Bildirişlər**

1. Behiştdə qonaqları qarşılayanlar və qonağı qarşılama üsulu müəyyən xüsusiyyətlərə malikdir: Hər an hazırdırlar; gözəl və ürəyə yatan qiyafədə gənclərdir; onların ürəyə yatımlığı müvəqqəti karakter daşımır; onların əlində qonağı qəbul üçün müxtəlif vasitələr var; öncə mayelər və içkilərələ qarşılayırlar; təqdim edilənlərin zərəri yoxdur; süfrəyə qoyulanlar çeşidlidir və qonaqların seçimi nəzərə alınır; öncə içkilər, sonra meyvə, daha sonra isti va dadlı xörəklər.
2. Quş əti (ağ ət) heyvan ətindən (qırmızı ətdən) üstündür.
3. İştiah yemək növünün seçimində əsasdır.
4. Yalnız behişt qadınları həm gözəl, həm iffətli və həm də pakdırlar.
5. Behiştdə kam almaq üçün bütün vasitələr var.
6. Behişt ləzzəti daimidir.
7. Təbliğ və yaxşılığa çağırış zamanı axirət mükafatına çatmaq üçün əməlin mühüm rol oynadığını unutmayaq.

*Ayə 25, 26:*

﴿لَا يَسْمَعُونَ فِيهَا لَغْوًا وَلَا تَأْثِيمًا﴾﴿إِلَّا قِيلًا سَلَامًا سَلَامًا﴾

**“Orada boş söz, başqasının günahı barədə bir şey eşitməzlər; salam-salamtlıqdan başqa söz yoxdur.”**

## Nöqtələr

”Ləğv”, yəni boş söz, “təsim”, yəni başqasını günahda suçlamaq.

Rəvayətlərdə əql haqqında bildirilir ki, əql insanın Allaha bəndəlik vasitəsi, behişt və əbədi səadətə çatma səbəbidir.[1]

Əgər insan azca düşünsə, anlasa ki, bir neçə günlük dünyada Allaha bəndəlik müqabilində əbədi axirət səadətinə çatacaq fani dünya ləzzətlərinə aldanmaz. Dünyaya xatir axirəti əldən vermək ağılsızlıqdır. Əsil zərər budur. Allah-taala Peyğəmbərə (s) müraciətlə buyurur ki, əsil ziyankarlar özlərini uduzanlardır.[2] Rəcəb ayı duasında oxuyuruq: “Pərvərdigara! Səndən qeyrisinə sığınanlar uduzdular, fayda götürmədilər.”[3]

Behişt əhli bir neçə tərəfdən salam eşidir:

a) Yəmin əshabı tərəfdən; belə bir salam olduqda ona deyilir ki, dostlarından sənə salam var.

b) Əraf əhli tərəfindən; Ərafda hamını çöhrəsindən tanıyan, behişt əhlinə salam verənlər var.[4]

v) Mələklər tərəfindən; mələklət hər yandan onlara yaxınlaşar, səbir və müqavimətlərinə xatir onları salamlayar.[5]

q) Allah tərəfindən salam; Allah-taala behişt əhlini özü salamlayar.[6]

”Səlamən səlamən” təkrarın məqsəd ya boş sözdən uzaqlıq, ya da sülh və səfa-səmimiyyətə üstünlük verilməsidir.

## Bildirişlər

1. Behiştdə insan ruhunu incidəcək səbəb yox.
2. Dünya ləzzətlərində adətən ağrı-acı, bihudəlik və günah olur. Qiyamətdə isə belə deyil.
3. Behişt salam, salamatçılıq sarayıdır. (Salam və salamatlıq olan cəmiyyətdə bihudəliyə yer yoxdur. Belə bir cəmiyyət behiştin oxşarıdır.)

***Ayə 27, 28, 29, 30:***

﴿وَأَصْحَابُ الْيَمِينِ مَا أَصْحَابُ الْيَمِينِ﴾﴿فِي سِدْرٍ مَّخْضُودٍ﴾﴿وَطَلْحٍ مَّنضُودٍ﴾﴿وَظِلٍّ مَّمْدُودٍ﴾

---

[1] “Kafi”, c. 1, s. 11

[2] “Zumər”, 15

[3] “Məfatihul-cinan”

[4] “Əraf”, 46

[5] “Rəd”, 24

[6] “Yasin”, 58

**“Yəmin əshabı; kimdir onlar? Tikansız sidr ağacları kənarında; meyvələri sıx şəkildə üst-üstə düzülmüş möüz ağacları; və davamlı bir kölgə.”**

***Ayə 31, 32, 33:***

**﴿وَمَاءٍ مَّسْكُوبٍ﴾﴿وَفَاكِهَةٍ كَثِيرَةٍ﴾﴿لَّا مَقْطُوعَةٍ وَلَا مَمْنُوعَةٍ﴾**

**“(Arxlardan) Tökülən su; və bol meyvələr; nə tükənər, nə də onlardan istifadə qadağan olunur.”**

***Ayə 34, 35, 36, 37:***

**﴿وَفُرُشٍ مَّرْفُوعَةٍ﴾﴿إِنَّا أَنشَأْنَاهُنَّ إِنشَاء﴾﴿فَجَعَلْنَاهُنَّ أَبْكَارًا﴾﴿عُرُبًا أَتْرَابًا﴾**

**“Dəyərli yataqlar; biz onları xüsusi tərzdə yaratdıq; onları bakirə qərar verdik; yaşıd və ərlərini sevən qadınlar.”**

***Ayə 38, 39, 40:***

**﴿لِّأَصْحَابِ الْيَمِينِ﴾﴿ثُلَّةٌ مِّنَ الْأَوَّلِينَ﴾﴿وَثُلَّةٌ مِّنَ الْآخِرِينَ﴾**

**“(Bu nemətlər) Yəmin əshabı üçündür; onların bir qrupu əvvəlkilərdəndir; bir qrupu sonrakılardandır.”**

**Nöqtələr**

”Sidr” əhatəli kölgəsi olan ağacdır. “Məxzud” dedikdə tikansız bitki nəzərdə tutulur. “Mənzud” sözü topa mənasını bildirir. “Məskum”, yəni şəlalə kimi tökülən, “ətrab”, yəni oxşar va yaşıd. Bu söz oxşar dişlər mənasını bildirən “təraib” sözünün oxşarıdır.

”Təlhə”, sözünün cəm forması olan “təlh” sözü möüz ağacı mənasını bildirir. Uyğun məna həzrət Əlidən nəql olunmuş rəvayətdə də təsdiqlənir.[1] Bəzi təfsirçilər “təlh”, dedikdə xoç ətirli gülləri olan ümmi-ğilan ağacına işarə olunduğunu bildirirlər.[2]

”Fəraş” sözünün cəm foeması olan “furuş” sözü yer, minik, döşək, xalı, taxt mənasını bildirir. “Mərfuə” dedikdə nəfis, dəyərli mənası anlaşılır. Həzrət Peyğəmbər (s) buyurur ki, behiştdə bir-birinin üzərindən döşənmiş əlvan ipək xalılar var.[3] Amma zahirən belə görünür ki, “furuş” dedikdə hazırkı ayədə həmyaşıd zövcələr, “mərfuə” dedikdə onların ağıl və gözəllik baxımından dəyərli olması nəzərdə tutulur. Ayənin davamı bu mənanı təsdiqləyir.

Şad, gözəl, ərini sevən və ona müti olan qadın “urub” adlanır.

Yəmin əshabı 8-ci ayədə xatırlanmış əshabdır. Qiyamətdə saleh əməl sahiblərinin əməl naməsi sağ əllərinə verildiyindən onlar yəmin əshabı adlandırılmışlar.

---

[1] “Təfsiri-nurus səqələyn”

[2] “Təfsiri-rahnoma”

[3] “Təfsiri-nurus-sqələyn”; “Kafi”, c. 2, s. 97

Rəvayətdə oxuyuruq ki, həzrət Peyğəmbər (s) ümmü-Sələməyə buyurdu: “Allah saçı ağarmış qoca möminə xanımları qiyamətdə gənc və gözəl qızlar şəklinə salar.”[1]

Sonda Allaha yaxın insanların mükafatına işarə olunur. Onlar üçün bütün mükafatlar nəzərdə tutulmuşdur. Hazırkı ayələrdə isə Yəmin səhabələri üçün nemətlər sadalandıqdan sonra “cəzaən bima kanu yəməlun” cümləsi işlədilmir. Belə çıxır ki bütün bu nemətlər əməllərin əvəzi sayılmır və Allahın xüsusi lütfüdür.

Dünya nemətlərinin bəlası var: Dünya bitkilərinin tikanı var, behişt bitkiləri isə tikansızdır; dünyadakı ağacların kölgəsi müvəqqətidir, behiştdəki ağacların kölgəsi daimi; dünya meyvələri müvəqqətidir, qiyamət meyvələri saysız və həmişəlik; əgər dünyada zövcə bəzən ərə münasib olmursa, behişt zövcələri tamami ilə münasibdir; dünyada zövcə ərə aşiq olmaya da bilər, amma behiştdə hamı aşiqdir; dünya həyatında zövcə dul da ola bilər, amma behiştdə bütün zövcələr bakirədir. Bir sözlə, behişt zövcələri yeni məxluqlardır.

Keçmiş peyğəmbərlər çox olduqlarından onların canişinləri də çox olmuşdur. Bu səbəbdən Allaha yaxınlar haqqında buyurulur ki, ötən ümmətlərdən beləleri çox olmuşlar.

**Bildirişlər**

1. Yəmin əshabının qiyamətdə yetərincə uca məqamı var.
2. Alimlər sidr ağacının müəyyən xüsusiyyətlərini tapsalar da, öyrəniləsi xüsusiyyətlər yenə var.
3. Axar su durğun sudan daha safdır.
4. Behişt və behişt nemətləri öncədən yaradılmışlar.
5. Behişt zövcələrinin bəkarəti daimidir. Əks-təqdirdə onların dünya zövcələrindən fərqi olmazdı.
6. Dünya heç vaxt yaxşı insanlardan xali olmayıb.
7. Səadətə, Allaha yaxın məqama aparan yollar daim insanların üzünə açıq olub.

***Ayə 41, 42:***

**﴿وَأَصْحَابُ الشِّمَالِ مَا أَصْحَابُ الشِّمَالِ﴾﴿فِي سَمُومٍ وَحَمِيمٍ﴾**

**“Sol tərəf (şimal) əshabı, kimdir sol tərəf əshabı? Yandırıcı külək və qaynar su arasında.”**

***Ayə 43, 44:***

**﴿وَظِلٍّ مِّن يَحْمُومٍ﴾﴿لَّا بَارِدٍ وَلَا كَرِيمٍ﴾**

**“Qatı qara tüstüdən bir kölgə; nə sərinliyi var nə də faydası.”**

***Ayə 45, 46:***

[1] “Təfsiri-nurus-səqəleyn”

﴿إِنَّهُمْ كَانُوا قَبْلَ ذَٰلِكَ مُتْرَفِينَ﴾﴿وَكَانُوا يُصِرُّونَ عَلَى الْحِنثِ الْعَظِيمِ﴾

**“Əlbəttə, onlar bundan öncə (dünyada) naz-nemət, xoş güzaran içində idilər; daim böyük günahda israr göstərirdilər.”**

*Ayə 47:*

﴿وَكَانُوا يَقُولُونَ أَئِذَا مِتْنَا وَكُنَّا تُرَابًا وَعِظَامًا أَئِنَّا لَمَبْعُوثُونَ﴾

**“Daim deyirdilər: “Ölüb torpaq və sümük olandan sonra hökmən ayağa qaldırılacağıq?”**

*Ayə 48:*

﴿أَوَ ءَابَآؤُنَا الْأَوَّلُونَ﴾

**“Babalrımız da (ayağa qaldırılacaq)?”**

**Nöqtələr**

”Səmum” dedikdə zəhər kimi bədənə təsirli yandırıcı külək nəzərdə tutulur. “Bədənin narın dəlikləri “məsam” adlanır. “Həmim” yəni qaynar su. “Yəhmum” dedikdə qara, qatı tüstü nəzərdə tutulur. “Mutrəf” qəflət içində bol nemətdən faydalanan fərd mənasını ifadə edir. “Hins” dedikdə böyük günah, daha çox xəyanətkarlıq və andın pozulması nəzərdə tutulur. “Yusirrun” sözü “israr” sözündəndir. Bu söz Quranda dörd dəfə, günaha münasibətdə təkrarlanmışdır.

Qiyamətdə şimal (sol tərəf) əshabı ağır əzabdadır: yandırıcı külək, qaynar su, qara tüstü.[1]

Gələcək və qəti hadisələrin keçmişdə baş vermiş kimi təsvir olunması Quranın üslubudur. Qiyamət haqqında bu sayaq danışılır. Sanki günahkarlar artıq qiyamət səhnəsində mühakimə olunur və onlar haqqında hökm çıxarılır.

***Behişt əhlinin cəhənnəm əhli ilə müqayisəsi***

Çox sayılı ayələrə nəzər salmaqla yəmin əshabı ilə şimal əshabı arasında müqayisə aparmaq olar: yəmin əshabı daimi kölgəlikdədir, daim meyvələrdən faydalanır, pak içkilərdən bəhrələnir. Saf sulu, südlü, şərablı, ballı çaylar kənarındadır; iki behişt və iki bağ neməti; salam və salamatçılıqdan faydalanma; ehtiramla qəbul; ilahi mərhəmət və salamdan faydalanmaq; misilsiz qəbul.

Şimal əshabı qara tüstü kölgəsindədir, bu kölgənin nə sərini, nə də faydası var; sular qaynanmış dəmir kimidir; daim su arzulayırlar; sular yandırıcı və zəhərlidir; çox çirkin sudur; çirkli və qanlı sular; sıxıntılı yer; cəhənnəm əhli bir-birini lənətləyir, qəzəb və nifrətə tuş gəlmişlər; onlar alçaldılır və baykot edilir; od və yandırıcı su başına hərlənirlər.

**Bildirişlər**

[1] “Təfsiri Mərağı”

1. Qiyamətdə insanların bir qrupu bədbəxtdir, onların əməl namələri sol əllərindədir.

2. Cəhənnəm əhlinin vəzyəti o qədər ağırdır ki, onların bədbəxtliyi təəccüb doğurur.

3. Qiyamət əzabları çox ağırdır.

4. Rifah içində məst olanlar bilsinlər ki, qərq olduqları ləzzətlər onlara böyük bədbəxtlik gətirəcək.

5. Günahı ağır və təhlükəli edən onun davamıdır.

6. Allah ədalətlidir və insan özü-özünü əzaba salır. Günahkarlar üç böyük günaha yol verdiklərindən yandırıcı külək, qaynar su və tüstü kölgəsi kimi üç işgəncəyə məruz qalmışlar.

7. Rifah və əyyaşlıq günah və məada şübhə üçün zəmindir.

8. Məadı inkar edənlərin heç bir dəlili yoxdur, sadəcə bu işi mümkünsüz sayırlar.

9. Təhlükə budur ki, insan öz yersiz şübhələrini cəmiyyətdə yaysın, başqalarının da büdrəməsini səbəb olsun.

10. Şək-şübhə yaradan insanlar cəmiyyətdəki çaşqınlığı gücləndirirlər.

***Ayə 49:***

**﴿قُلْ إِنَّ الْأَوَّلِينَ وَالْآخِرِينَ﴾**

**"De ki, keçmişdəkilər və gələcəkdəkilər."**

***Ayə 50:***

**﴿لَمَجْمُوعُونَ إِلَى مِيقَاتِ يَوْمٍ مَّعْلُومٍ﴾**

**"Hər halda müəyyən gün vəd yerində bir yerə toplanacaqlar."**

**Bildirişlər**

1. Hətta inkadkarlıqdan doğan şübhələrə cavab verilməlidir.

2. Allah həm keçmişdəkiləri, həm də gələcəkdəkiləri məhşər səhnəsinə çıxarmağa eyni dərəcədə qadirdir.

3. Bütün insanlar məlum bir gündə bir yerə toplanar.

4. Qiyamət vaxtını bilməsək də, həmin gün Allaha məlumdur.

***Ayə 51, 52, 53:***

**﴿ثُمَّ إِنَّكُمْ أَيُّهَا الضَّالُّونَ الْمُكَذِّبُونَ﴾﴿لَآكِلُونَ مِن شَجَرٍ مِّن زَقُّومٍ﴾﴿فَمَالِؤُونَ مِنْهَا الْبُطُونَ﴾**

**"Həqiqətən, ey inkarçı azğınlar! Hökmən (pis görkəmli, pis dadlı və pis qoxulu) zəkkum ağacından yeyəcəksininiz. Həmin vaxt qarınlarınızı onunla dolduracaqsınız."**

***Ayə 54, 55, 56:***

**﴿فَشَارِبُونَ عَلَيْهِ مِنَ الْحَمِيمِ﴾﴿فَشَارِبُونَ شُرْبَ الْهِيمِ﴾﴿هَذَا نُزُلُهُمْ يَوْمَ الدِّينِ﴾**

**“Üstündən qaynar su içərsiniz. Susuz dəvələr tək nuş edərsiz. Budur qiyamət günü onların qəbulu.”**

**Nöqtələr**

”Zəkkum” acı, pis qoxulu bitkinin adıdır. Onun şirəsi bədənə toxunduqda bədəni yaralayır. Zəkkum cəhənnəm əhlinin qidasıdır. “Nuzu” qonağın ilkin qəbulu üçün hazırlanmış şeyə deyilir. Dəvənin yoluxduğu xəstəliklərdən biri “him” adlanır. Həmin xəstəlikdən sonra dəvə nə qədər su içsə də susuzluğu yatmır və ölür. İstənilən qədər suyu canına çəkən çınqıllı yer də belə adlanır.

İnsan dünyada acı qidalardan imtina edir. Günahkar isə axirətdə acı qidalar yeməlidir. İnsan dünyada pis qidalardan azca yeyirsə, axirətdə günahkarlar həmin qidalardan doyunca yeməlidir. Dünya həyatında acı qidadan sonra bir şey yeyirlər ki, onun dadı getsin. Axirətdə isə acı qidanın ardınca qaynar su gəlir. Əgər insan dünya həyatında dadsız qidanı həvəssiz yeyirsə, axirət günü günahkar həmin qidalardan susuz dəvə su içdiyi kimi qəbul edir.

**Bildirişlər**

1. Cəhənnəm əhlinə ən sərt və acı sözlərlə müraciət olunur.
2. Şimal (sol tərəf) əshabı azğınlardır. Biz hər namazda Allahdan diləyirik ki, həmin zümrədən olmayaq.
3. Azğınlıqdan da pisi təkzibdir. Azğınlar bəzən ilahi tövfiqlə hidayət olur.
4. Bütün psixoloji sıxıntılar, fiziki əzablar şimal əshabı üçün qəbulun müqəddiməsidir. Görün sonralar nə baş verir!
5. Allah ədatlidir, Onun verdiyi cəzalar da ədalət çərçivəsindədir. Bütün sıxıntılar insanını öz əməllərinin nəticəsidir. Həmin gün mükafat və cəza günüdür.

***Ayə 57, 58, 59:***

**﴿نَحْنُ خَلَقْنَاكُمْ فَلَوْلَا تُصَدِّقُونَ﴾﴿أَفَرَأَيْتُم مَّا تُمْنُونَ﴾﴿ءَأَنتُمْ تَخْلُقُونَهُ أَمْ نَحْنُ الْخَالِقُونَ﴾**

**“Biz sizi yaratdıq, nə üçün təsdiq etmirsiniz? Axıtdığınızı (nütfəni) görürsünüzmü? Onu (insan şəklində) yaradan sizsiniz, yoxsa biz?!”**

***Ayə 60:***

**﴿نَحْنُ قَدَّرْنَا بَيْنَكُمُ الْمَوْتَ وَمَا نَحْنُ بِمَسْبُوقِينَ﴾**

**“Sizin üçün ölümü müəyyənləşdirən bizik. Heç vaxt (məğlub olmarıq) bizdən önə keçən olmaz.”**

**Nöqtələr**

Ötən ayələrdə bəyan olundu ki, şimal əshabı məada şübhə ilə yanaşır və deyirdi: “Ölüb-torpaq olduqdan sonra yenəmi diriləcəyik?” Bu ayədən başlayaraq

Allah-taala öz qüdrət nümunələrini sadalayır ki, qiyamətlə bağlı şübhələri aradan qaldırsın.

Quranın dəlilləri üçün zaman və məkan məhdudiyyəti, istifadə müddəti yoxdur. Nütfənin bətndə, toxumun torpaqda istənilən zaman və məkanda cücərməsi aydın məsələdir.

Ölüm vaxtının məxfi qalması səbəbsiz deyil, bunun öz hikməti, faydaları var. Ölüm vaxtını bilməyən insan bir tərəfdən hər an ölümə hazırlaşır, digər bir tərəfdən həmin vaxtı dəqiq bilmədiyindən rahat yaşayır.

Nəsil artımının nütfənin bətnə axıdılması kimi bəzi müqəddimələri insanın əlindədirsə də, həmin nütfənin inkişaf edib, kamil insana çevrilməsi yalnız Allahdan asılıdır. Bəşəriyyət bətndən kənarda nütfəni inkişaf etdirə bilərsə də yenə Allahın qüdrəti əskilməz. Yaranış Allahın əlindədir və bəşəriyyət bu işdə heç bir rol oynamır.

**Bildirişlər**

1. Nə üçün məada şəkk edilsin? İnsanı bir dəfə yaradan onu yenidən yaratmağa qadirdir.
2. İnkarçılar və etiqadsızlarla danışarkən dəlillər göstərək.
3. Yalnız dəlillərdən sonra məzəmmət etmək olar.
4. Bir dəlil və ya bir nümunə ilə kifayətlənmək olmaz.
5. Təbliğ və mübahisədə sorğu-sual üslubundan istifadə etməklə yatmış vicdanları oyadaq.
6. İlahi qüdrət həm yaranışda, həm də ölümdə özünü göstərir.
7. Ölüm təsadüfü bir hadisə deyil, onun hikməti, hesab-kitabı var.
8. Ömrün sonu və ölüm vaxtı yalnız Allahın əlindədir.
9. İnsanın ölümü Allahın acizliyini göstərmir. Bu müqəddəratın hikməti var.
10. İlahi qüdrət mütləqdir. Kimsə ölümdən qaça bilməz. Allahın bu təqdirinə qalib gəlmək, onu dəyişmək mümkünsüzdür.

***Ayə 61:***

﴿عَلَى أَن نُّبَدِّلَ أَمْثَالَكُمْ وَنُنشِئَكُمْ فِي مَا لَا تَعْلَمُونَ﴾

**“Belə ki, sizin kimisini sizə canişin edək, sizi tanımadığınız bir aləmkdə möhkəmlədək.”**

***Ayə 62:***

﴿وَلَقَدْ عَلِمْتُمُ النَّشْأَةَ الْأُولَى فَلَوْلَا تَذَكَّرُونَ﴾

**“Siz ilkin yaranışı bildiniz. Bəs nə üçün öyüd götürmürsünüz?”**

**Bildirişlər**

1. Ölümün fəlsəfəsi yeni nəsillər gətirmək, yeni təbəddülatlar yaratmaqdır.
2. Ölüm və həyatı müəyyənləşdirmək qüdrəti Allahın qiyaməti bərpa etmək qüdrətinə dəlildir.

3. Dünya dayanacaq yox, keçiddir.

4. İnsan qiyamətin nə vaxt baş verəcəyindən hansı şəraitdə qurulacağından xəbərsizdir.

***Ayə 63, 64, 65:***

**﴿أَفَرَءَيْتُم مَّا تَحْرُثُونَ﴾﴿ءَأَنتُمْ تَزْرَعُونَهُ أَمْ نَحْنُ ٱلزَّارِعُونَ﴾﴿لَوْ نَشَآءَ لَجَعَلْنَاهُ حُطَامًا فَظَلَلْتُمْ تَفَكَّهُونَ﴾**

**“Əkdiyinizi görmüsünüzmü? Onu siz cücərdisiniz, yoxsa biz? Əgər istəsək onu çör-çöpə döndərərik və siz təəccüb içində deyərsiniz...”**

***Ayə 66, 67:***

**﴿إِنَّا لَمُغْرَمُونَ﴾﴿بَلْ نَحْنُ مَحْرُومُونَ﴾**

**“Biz ziyana düşmüşük; məhrum və bədbəxtik.”**

## Nöqtələr

”Hutam” dedikdə qırılmaq, xırdalanmaq, “təfəkkəhun” dedikdə meyvə yemək mənası nəzərdə tutulur. Uyğun söz burada təəccüb və peşimançılıq mənasını bildirir. “məğrəmun” sözü ziyan ödəmək, ziyan görmək mənasını bildirir.

Əgər azca diqqət yetirsək görərik ki, yer insanı torpağa çevirdiyi halda, toxumu cücərdir. Belə ki, toxumun kökü aşağı, gövdəsi yuxarı qalxır. Toxum torpaqdakı üzvü maddələrdən faydalanır, hətta qabağına çıxan daşı adlayıb keçir. Bir dəndən bir neçə qol cücərir,və nəsil artır.

Təbiətdə istənilən bir dəyişiklik aparmaq Allah üçün asandır. Allah üçün həyat və ölüm, suyun şirinliyi və ya acılığı eyni dərəcədə asandır.

Allahşünaslıq yollarından biri mövcud vəziyyətin əksini fərz etməkdir. Yəni istənilən bir şeyin əksini təsəvvür etməklə həmin şeyin yerini və əhəmiyyətini müəyyənləşdirmək olar. Məsələn, sutka təkcə gündüz və ya gecədən ibarət olsa, sular torpağa hopsa, əkinəcəklər qurusa, kim hazırkı vəziyyəti yaratmağa qadirdir?! Bəli, insan bu nöqtələrə diqqətlə yanaşdıqda anlayır ki, istənilən bir şey üçün məhv olmaq təhlükəsi var və onların məhvi böyük fəlakətə çevrilər. Bu sayağı düşüncələr insanı nemətlərin qədrini bilməyə, Allahın lütf və qüdrəti müqabilində təzimə sövq edir.

## Bildirişlər

1. Bir toxumdan böyük bir ağac cücərdən qüdrət ölü insanı onun bir sellolu ilə yenidən dirildər.

2. Təbiətdəki dəyişikliklər Allahın iradəsinə tabedir.

3. Bəzi insanlar əlində olanlar puça çıxmamış, başı daşa dəyməmiş oyanmır.

***Ayə 68, 69, 70:***

﴿أَفَرَءَيْتُمُ الْمَآءَ الَّذِي تَشْرَبُونَ﴾﴿ءَأَنتُمْ أَنزَلْتُمُوهُ مِنَ الْمُزْنِ أَمْ نَحْنُ الْمُنزِلُونَ﴾﴿لَوْ نَشَآءُ جَعَلْنَاهُ أُجَاجًا فَلَوْلَا تَشْكُرُونَ﴾

**"İçdiyiniz suyu görürsünüz? Onun yağışlı buludlardan siz endirdiniz, yoxsa biz? Əgər istəsək, onu şor və acı edərik. Nə üçün şükür etmirsiniz?"**

**Nöqtələr**

Yağışlı ağ bulud "muzn" adlanır. "Ucac" yəni şor və təlx su.

Hədisdə oxuyuruq ki, həzrət Peyğəmbər (s) su içəndə deyərdi: "Şükür olsun Allaha ki, Öz rəhməti ilə bizə şirin su içirdi və günahlarımıza xatir onu şor etmədi."[1]

Suyun təşnəliyi yatırmasına, onun yaranışına, yağışın yağmasına, onun tamına diqqət insanı şükrə vadar edir.

Allahın ardıcıl lütfü Onun acizliyini göstərmir. Ayədə buyurulur ki, biz suyu şor etmədik, amma bu işi görə bilərik.

Nemətlərə diqqət insanın tövhid etiqadını gücləndirir, onda şükür ruhiyyəsini artırır, məadla bağlı şübhələri aradan qaldırır.

**Bildirişlər**

1. Quranın dəlilləri əhatəli, sadə və eyni zamanda dərindir. İnsanın yaranış və məada diqqəti üçün suya baxmaq bəs edər.
2. İçməli suyun nazil olması Allahın hikmət və qüdrət nişanəsidir.
3. Göydən yağış endirmək insanın gücündə deyil və Allahı tanımaq üçün yağışa diqqət bəs edir.
4. Yaranış düşüncə məktəbi, təşəkkür üçün zəmindir.

***Ayə 71, 72, 73:***

﴿أَفَرَأَيْتُمُ النَّارَ الَّتِي تُورُونَ﴾﴿ءَأَنتُمْ أَنشَأْتُمْ شَجَرَتَهَا أَمْ نَحْنُ الْمُنشِؤُونَ﴾﴿نَحْنُ جَعَلْنَاهَا تَذْكِرَةً وَمَتَاعًا لِّلْمُقْوِينَ﴾

**"Yandırdğınız odu görürsünüzmü? Onun ağacını siz yaratmısınız, yoxsa biz? Biz odu öyüd-nəsihət vasitəsi, müsafirlər üçün nemət qərar verdik."**

***Ayə 74:***

﴿فَسَبِّحْ بِاسْمِ رَبِّكَ الْعَظِيمِ﴾

**"Böyük Rəbbinin adı ilə təsbih de."**

**Nöqtələr**

"Vəri" sözündən olan "turun" sözü bir şeyi xəlvətdən çıxarmaq mənasını bildirir. "Vəra" yəni batin, bir şeyin arxası. İki çaxmaq daşını bir-birinə vurmaqla od əldə edilməsi "ira" adlanır.

---

[1] "Vəsail", c. 25, s. 257

”Qəvayə” sözündən olan “muqvin” sözü çöl, biyaban mənasını ifadə edir. Səyyah və müsafirə “məqvi” deyirlər.

47-ci ayədə məada münasibətdə şübhə bəyan olundu. Hazırkı ayələrədək Allah-taala iyirmi dəfədən artıq insanlara müraciət edib, onları öz yaranışları, su və od haqqında düşünməyə dəvət edir. Bu yolla kafirlər yersiz şübhədən uzaqlaşmağa çağırılır.

Bu ayələrdə dörd ünsür-su, torpaq, külək və od yada salınır. Bu dörd ünsür Allahın hökmünə tabedir və Onu tanıyıb qüdrətini dərk etmək üçün vasitədir.

Bu surədə Allah-taala dörd dəfə insanlara sual ünvanlayaraq buyurur ki, öz yaranışınızda, yağışın enməsində, otların cücərməsində, odun yaranmasında nə rolunuz var?

Səhrada oda olan ehtiyac sükunət məhəllində mühüm ehtiyaclardandır. Müsafirin yolda özünü soyuqdan qoruması, gecə yolu tapması, vəhşi heyvanlardan amanda qalması üçün işıq, istilik və oda ehtiyacı var.

**Bildirişlər**

1. Ağacın köksündən od çıxaran Allah yerin köksündən ölüləri çıxarar.
2. Ağacdan od çıxması iki baxımdan qiyaməti yada salır: ağacdakı enerji ehtiyatının od şəklində özünü göstərməsi, dünya odunun insana cəhənnəm odunu xatırlatması.
3. Allah-taala məada münasibətdə şəkk-şübhəni aradan qaldırmaq üçün nələrisə xatırlatdı. Bunun təsir edib-etməməsinin fərqi yox. Bəli, Peyğəmbərin (s) vəzifəsi Allaha təsbih deməkdir.

***Ayə 75, 76:***

**﴿فَلَا أُقْسِمُ بِمَوَاقِعِ النُّجُومِ﴾﴿وَإِنَّهُ لَقَسَمٌ لَّوْ تَعْلَمُونَ عَظِيمٌ﴾**

“And olsun ulduzların mövqeyinə; əlbəttə, əgər bilsəniz, bu böyük bir anddır.”

**Nöqtələr**

Heç kəs və heç nə Allahın iradəsi olmadan varlıq aləminə təsir göstərə bilməz. Bu səbəbdən də ulduzların yerə təsirinə etiqad xurafatdan başqa bir şey deyil. Kimsənin göydə bəxt ulduzu yoxdur və ulduz insanı xoşbəxt, bədbəxt edəsi deyil. İmam Kazim (ə) buyurur: “Allah ulduzları mədh edir, onların mövqeyinə and içir.”[1]

”Məvaqiin-nucum” dedikdə ulduzların yerləşdiyi və hərəkət etdiyi məhəl nəzərdə tutulur. Səma cisimlərinin hərəkət yoluna and, onların özünə anddan mühümdür. Çünki ulduzların mövqeyi kürələrdən min qat əzəmətlidir.

**Bildirişlər**

---

[1] “Təfsiri-rahnoma”

1. Allah-taala bu surədə insanın fikrini nütfə və toxumdan, su və oddan səma cisimlərinin hərəkət yolunadək gəzdirir.

2. Allah-taala bəzən əcir kimi kiçik, bəzən də kəhkəşan və ulduzlar kimi böyük şeylərə and içir. Bəli, Allah üçün kiçik və böyük, çöp və dağ eynidir.

3. Hər ulduzun özünəməxsus orbiti və yolu var.

4. Bəşəriyyət bütün səma cisimlərinin yolunu bilmir. Astronomiya sahəsində təlaşların böyüklüyünə baxmayaraq örənilənlər cüzidir.

***Ayə 77, 78:***

**﴿إِنَّهُ لَقُرْآنٌ كَرِيمٌ﴾﴿فِي كِتَابٍ مَّكْنُونٍ﴾**

“Həqiqətən, o Qurani-kərimdir. Onun hifz olunmuş kitabda yeri var.”

***Ayə 79, 80:***

**﴿لَّا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ﴾﴿تَنزِيلٌ مِّن رَّبِّ الْعَالَمِينَ﴾**

**“Ona paklardan başqası əl vurmasın. O aləmlərin Rəbbi tərəfindən endirilmişdir.”**

**Nöqtələr**

”Kitabin məknun” deyərkən lövhi məhfuz nəzərdə tutulur. “Büruc” surəsinin 21, 22-ci ayələrində də bu müddəa təsdiqlənir.

Quranda Allah və ona aid olan hər şey “kərim” sifəti ilə vəsf olunur: kərim Allah;[1] kərim Quran;[2] kərim Peyğəmbər (s);[3] vəhyin kərim nüzul vasitəsi (Cəbrail)[4]

Həzrət Əli (ə) Nəhcül-bəlağənin 152-ci xütbəsində Əhli-beyti (ə) “kəraimul-Quran” adlandırır.

İnsan da Allahın ən üstün məxluqu olaraq kəramətli sayılır.[5]

Quranın sözlərini hamı oxuyub anlaya bilər. Amma Quranın ruhiyyəsi ilə yaxınlıq xüsusi bir paklıq istəyir.[6] Təmasın xüsusi bir mənası var. Rəvayətdə bildirilir ki, yalnız Allah dərgahına yaxın olanlar Quranla təmas yarada bilir.[7]

Quran kərimdir. Çünki onun qaynağı lövhi məhfuz, “kitabin məknundur”. Quranla bəşəriyyət arasındakı vasitələr- mələklər, Peyğəmbər (s), Əhli-beyt (ə) hər biri pakdır. Quranın məqsədi aləmlərin tərbiyəsidir.

Quran pakdır.[8] Yalnız paklar ona toxuna bilər.

Quran düşmənlərin təsvir etdiyi kimi deyil. O nə peyğəmbərin təxəyyülü, nə əfsanə, nə də uydurmadır.[9] Quran başqalarının öyrətdiyi deyil, nə həm fikirlərin

---

[1] “İnfitar”, 6
[2] “Vaqeə”, 77
[3] “Duxan”, 17
[4] “Təkvir”, 19
[5] “İsra”, 70
[6] “Əhzab”, 33
[7] “Bəyyinə”, 2
[8] “Bəyyinə”, 2
[9] “Fürqan”, 5; “Ənam”, 25

düşüncə məhsuludur.[1] Əksinə, o aləmlərin Rəbbi tərəfindən bəşəriyyətin təkamülü üçün nazil edilmişdir.

Quran kəramətlər açarı, fərd və cəmiyyətin izzətidir. Qurana baxmaq, onu tilavət etmək, onun ayələri haqqında düşünmək, onu əzbərləmək, ona əsaslanmaq, ondan öyüd götürmək insanın inkişaf və kəraməti üçün bir qaynaqdır.

Quran fərdi, ictimai, iqtisadi, siyasi, ibadi, hərbi, əxlaqi, etiqadi, tərbiyəvi və ideoloji cəhətdən insanın varlığını işıqlandırır, ona nur verir, Quranda təsirsiz, nöqsanlı, yersiz, məntiqdən uzaq söz yoxdur.

### Bildirişlər

1. Allah-taala böyük şəriət sənədi, yəni Qurandan ötrü varlıq aləminin böyük hissəsi olan kəhkəşana and içir.
2. Quran son həddə kəramətlə öz maarifini insanların ixtiyarına verir və hər kəs ondan müəyyən yola faydalana bilir.
3. Quran təkcə söz və cümlələrdən ibarət deyil, onun dəyərli məzmunu var və bu məzmun Allahın yanında hifz olunmuşdur.
4. Qurandan bəhrələnməyin qaydaları var. İnsan dəstəmazsız ona əl vura bilməz.[2]
5. Quranın uca həqiqətləri şirkə, küfrə, nifaqa və inadkarlığa düçar olanlar tərəfindən dərk edilmir.
6. Quran Allahın rübubiyyət cilvələrindəndir. O bəşəriyyətin inkişaf və tərbiyəsi üçün kompleks bir proqramdır.

***Ayə 81:***

**﴿أَفَبِهَذَا الْحَدِيثِ أَنتُم مُّدْهِنُونَ﴾**

**“Siz bu (ilahi) sözlə sayqısız davranırsınız?”**

***Ayə 82:***

**﴿وَتَجْعَلُونَ رِزْقَكُمْ أَنَّكُمْ تُكَذِّبُونَ﴾**

**“Quranın təkzibini özünüzə ruzi qərar verirsiniz?”**

### Nöqtələr

”Duhn” sözündən olan “mudhinun” sözü yağ mənasını bildirir. Bu söz bəzən keçinmə, mülayimlik, bəzən isə süstlük və zəiflik mənasında işlədilir.

Əziz Peyğəmbər (s) bir qrup müsəlmanla səfərdə olarkən susuzluqla üzləşdi. İnsanlar əziyyət çəkirdi. Peyğəmbər (s) dua üçün əlini açdı, yağış yağdı. Hamının susuzluğu yatdı. Həmin arada bir şəxs dedi: “Bu yağışın yağma səbəbi filan ulduzun doğmasıdır.” Ayə nazil oldu. Peyğəmbər (s) buyurdu: “Ruzinizə şükür əvəzinə təkzib edirsiniz.”[3]

---

[1] “Nəhl”, 103; “Fürqan”, 4
[2] “Təfsiri-nurus-səqəleyn”
[3] “Təfsiri-nümunə”

Bəli, cəmiyyətdə daim elələri tapılır ki, öz varlığını və şəxsiyyətini başqalarına müxalifətdə görür. Onun hünəri yalnız başqalarına qarşı çıxmaqdır. Hamı bir araya gəlsə də bu şəxs kənara çəkilir. Hamı müxalif olduqda o uyğun məsələni təsdiqləyir. Belələrinin heç bir dəlili yoxdur, həmişə müxalif olmaqdan ləzzət alırlar. Onların baxışı hərəkətlərində, danışıq və rəftarlarında özünü göstərir. Bu qəbil insanlar saç düzümü, çöhrəsi, libası, səsi, danışığı, yazısı, hətta övladına qoyduğu adla başqalarından seçilməyə çalışır. O yalnız barmaqla göstərilmək üçün səy göstərir.

**Bildirişlər**

1. Səhlənkarlıq çox təhlükəli və məzəmmət olunası səciyyədir.
2. Dinin etiqadi əsaslarına münasibətdə diqqətsizlik məqbul deyil.
3. Dində səhlənkarlıq, süstlük və sazişçilik insanı tədricən küfrə aparır.

*Ayə 83, 84:*

﴿فَلَوْلَا إِذَا بَلَغَتِ الْحُلْقُومَ﴾﴿وَأَنتُمْ حِينَئِذٍ تَنظُرُونَ﴾

**“Bəs nə üçün can boğaza çatanda; həmin vaxt siz durub tamaşa edirsiniz.”**

*Ayə 85:*

﴿وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنكُمْ وَلَكِن لَّا تُبْصِرُونَ﴾

**“Biz ona (can verənə) sizdən daha yaxınıq, amma görmürsünüz.”**

*Ayə 86, 87:*

﴿فَلَوْلَا إِن كُنتُمْ غَيْرَ مَدِينِينَ﴾﴿تَرْجِعُونَهَا إِن كُنتُمْ صَادِقِينَ﴾

**“Əgər siz (əməllərinizə görə) cəzalandırılası deyilsinizsə, nə üçün həmin (can verdiyiniz vaxt) geri qayıtmır? Əgər doğru deyirsinizsə (nə üçün)?”**

**Nöqtələr**

Əgər məadı inkar edənlər Allahın ölüləri dirildəcəyinə şəkk edirlərsə, onun canları çıxarması haqqında nə deyirlər? Can verənin vəziyyətini görənlər anlayır ki, kimsənin əlindən bir iş gəlmir və ətrafdakılar acizdir. Bəli, canı çıxara bilən qüdrət onu geri də qaytara bilər. Əgər ölüm Allahın iradəsindən asılı deyildisə və bir təsadüf idisə, onun qarşısını almaq olardı.

İnkar edənlərə dəlillər göstərmək lazımdır. Necə ki, Allah-taala bu surədə dəfələrlə dəlil göstərir. Bəzən isə acizliyi sübuta yetirən səhnələr. Yada salınmalıdır. Necə ki, Allah-taala bu ayələrdə onların yadına salır ki, sizdə ölümü özünüzdən uzaqlaşdırmaq gücü yoxdur.

Allah istər yaxşı, istər pis bəndələrə yaxındır. Ən əsası Allaha iman və saleh əməllə yaxınlaşmaqdır.

”Din” sözündən olan “mədin” sözü cəza mənasını bildirir. “Yəvmuddin” qiyamətin adlarından biridir.

Baxmaq ayrı şeydir, görmək ayrı şey. Bir çox insanlar baxır, amma görmür. Onların fikri başqa yerdədir.

**Bildirişlər**

1. Canvermə və ölüm halı hamı üçün var.
2. Ruhun bədəndən çıxması tənəffüs yolu ilə baş verir.
3. Allah məadla bağlı şübhələri aradan qaldırmaq üçün həm qüdrətindən danışır, həm də ölümü yada salmaqla xəbərdarlığı başa çatdırır.
4. Allah-taala insana ən yaxın şəxsdən də yaxındır. Başqaları cismən yaxındırsa, Allahın yaxınlığı kamil əhatə ilə müşayiət olunur.
5. Məad, axirətdə mükafat və cəza labüddür.
6. Dünyada ruhun cismə qayıtması mümkünsüzdür.

***Ayə 88, 89:***

**﴿فَأَمَّا إِن كَانَ مِنَ الْمُقَرَّبِينَ﴾﴿فَرَوْحٌ وَرَيْحَانٌ وَجَنَّةُ نَعِيمٍ﴾**

**“Əgər o (can verən) yaxınlardan olsa; rahatlıq, rəhmət və nemət dolu behişt ona ruzi olacaq.”**

***Ayə 90, 91:***

**﴿وَأَمَّا إِن كَانَ مِنَ أَصْحَابِ الْيَمِينِ﴾ ﴿فَسَلَامٌ لَّكَ مِنْ أَصْحَابِ الْيَمِينِ﴾**

**“Əgər yəmin əshabından olsa; (ona deyilər) yəmin əshabı tərəfindən sənə salam olsun.”**

***Ayə 92, 93, 94, 95:***

**﴿وَأَمَّا إِن كَانَ مِنَ الْمُكَذِّبِينَ الضَّالِّينَ﴾﴿فَنُزُلٌ مِّنْ حَمِيمٍ﴾﴿وَتَصْلِيَةُ جَحِيمٍ﴾﴿إِنَّ هَذَا لَهُوَ حَقُّ الْيَقِينِ﴾**

**“Amma əgər (can verən) azğın təkzibçilərdən olsa, qaynaq su ilə qarşılanar. Cəhənnəmə giriş (onun cəzasıdır); həqiqətən, bu, yəqin bir haqdır.”**

***Ayə 96:***

**﴿فَسَبِّحْ بِاسْمِ رَبِّكَ الْعَظِيمِ﴾**

**“Beləsə, böyük Rəbbinin adı ilə təsbih de.”**

**Nöqtələr**

”Rəvh” dedikdə rahatlıq, asayiş və mərhəmət nəzərdə tutulur. “Reyhan” ətirli ot mənasını ifadə edir. Bu söz ruzi mənasında da işlədilir. “Təsliyyə” sözü dadmaq, yanmaq və yıxılmaq mənalarını bildirir.

Surənin başlanğıcında insanlar üç qismə bölündü. Allah dərgahına yaxınlar, yəmin əshabı və şimal əshabı. Surənin sonunda da bu üç qrupun taleyi yada salınır.

Hər kəs Allaha yaxınlığı həddində mükafatlanar. İmam Sadiq (ə) buyurur: “Əgər can verən şəxs Allaha yaxınlardan olsa, onun üçün qəbirdə ruh və reyhan, axirətdə nemət dolu behişt qərar verilər. Əlbəttə ki, 10 və 11-ci ayələrə əsasən “muqərrəbun” dedikdə iman və saleh əməldə öncüllər nəzərdə tutulur.

Ölüm zamanı yəmin əshabının yalnız nigarançılığı aradan qaldırılar və qiyamətdə mükafatlarını alarlar. Zahirən yəmin əshabı dedikdə əməl naməsi sağ əlinə veriləlenlər nəzərdə tutulur. “İsra” surəsinin 71-ci, “Haqqə” surəsinin 19-cu, “İnşiqaq” surəsinin 7-ci ayəsində bu nöqtəyə işarə olunur. Şimal əshabı dedikdə isə əməl naməsi sol əlinə verilənlərə işarə edilir. İmam Baqirdən (ə) nəql olunur ki, azğın təkzibçilər dedikdə müşriklər nəzərdə tutulmuşdur.[1]

”Fə səlamun ləkə min əshabil yəmin” cümləsi ilə bağlı bir neçə məna bəyan olunmuşdur:

a) Behişt əhlinə deyilər ki, salam olsun sənə.

b) Behişt əhli çatdıqları məqama görə Peyğəmbərə (s) salam göndərərlər.

v) Peyğəmbər bu qrupun hidayətinə xatir xeyir və salamatlıqdadır.[2]

Sual: 51-ci ayədə öncə azğınlıq sifəti, 92-ci ayədə öncə təkzibçilik sifəti bəyan olunur. Bunun səbəbi nədir?

Cavab: Belə görünür ki, birinci xitab dünya həyatına, ikinci xitab canverən məqama aiddir. Dünya həyatında insan azğınlıqdan təkzibə sürüklənir. Can verən məqam isə əzabın başlanğıcıdır və insana öncə ağır günahın cəzası verilir. Bu isə təkzibdir.

Bu ayələrdə üç qrupun canvermə məqamı haqqında danışılır. Sanki belə bir mənəvi nümayişlə insana seçim aparmaq təklif edilir.

Allaha yaxınlar və yəmin əshabının mükafatlandırılması ilə bağlı dəlil göstərilmir. Amma kafirlərin cəzalandırılması üçün dəlillər bəyan olur, onların təkzibçiliyi və azğınlığı səbəb göstərilir. Deməli, tənbeh üçün dəlil lazımdır, lütf və məhəbbət üçün səbəb axtarılmaya da bilər.[3]

İmam Sadiq (ə) buyurur: “İnsan qəbir və bərzəxdə qaynar su ilə qarşılanar. Cəhənnəmə giriş isə qiyamət vaxtı baş verər.[4]

Bu surə məadın yada salınması ilə başlayır, onun zikri ilə başa çatır.

### Bildirişlər

1. Yaxın məqama çatanlar can verəndən dərhal sonra rahatlaşarlar.

2. Yaxın məqama çatanlar üçün ölüm üç mərhəmətə zəmin yaradır. Qəm-qüssədən qurtuluş, ilahi lütflərə çatmaq, əbədi ləzzətdən bəhrələnmə.

3. Can vermə məqamı, ölüm, yaxın məqama çatanlar, yəmin və şimal əshabı ilə bağlı xəbərlərə inanaq, onlara ciddi yanaşaq.

4. Kafirlərin çətin can verməsi, onların müxtəlif şəkillərdə cəzalandırılması labüd həqiqətdir və ədalətdən kənar deyil.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Təfsiri-rahnoma”

[3] “Təfsiri-kəbiri Fəxr Razi”

[4] “Təfsiri-nurus-səqəleyn”

5. Bir ömür azğınlıq və təkzibin cəzası od içində yandırıcı içkilərlə qarşılanmaqdır. Allahda yersiz cəzalandırmaq sifəti yoxdur.

6. Qiyamətin, mükafat və cəza sisteminin mövcudluğu Allah-taalanın insanların tərbiyəsi istiqamətindəki müdiriyyətini göstərir. Belə bir müdiriyyətə görə sitayiş lazımdır.

# “HƏDİD” SURƏSİ

## *(57-Cİ SURƏ; 29 AYƏ)*

## *İYİRMİ YEDDİNCİ CÜZ*

## *“HƏDİD” SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 29 ayədən ibarətdir.

“Hədid” surəsində əqidə əsasları möhkəmləndirilməklə yanaşı ictimai və dövlətçilik zəminəsində göstərişlər verilir. Başlanğıc ayələrdə iyirmiyədək ilahi sifət bəyan olunur.

Quranın əzəməti, qiyamətdə möminlərin və münafiqlərin vəziyyəti, öncəki qövmlərin taleyi, Allah yolunda infaq, ictimai ədalətin təmini, röhbaniyyət və guşənişinliyin tənqidi hazırkı surənin mövzularındandır.

İmam Səccad (ə) buyurur: “Allah bilirdi ki, dünyanın sonlarında mövzuların mahiyyətinə varan bir zümrə olacaq. Bu səbəbdən də “Tövhid” surəsini və “Hədid” surəsinin müəyyən ayələrini nazil etdi. İnsanlar bu surələr vasitəsi ilə Allahı daha yaxşı tanıya bilər. Adı çəkilən surələrdə bəyan olunmuş sifətlərlə kifayətlənməyib ifrata varanlar həlak olasıdır.[1]

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿سَبَّحَ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾**

**“Göylərdə və yerdə olanlar Allaha təsbih deyir. Odur yenilmız hikmət sahibi.”**

***Ayə 2:***

**﴿لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾**

**“Göylərin və yerin hökmü ona məxsusdur. Dirildər, öldürər. Hər şeyə qadirdir.”**

***Ayə 3:***

**﴿هُوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾**

---

[1] “Nurus-səqəleyn”

**“Odur əvvəl və axır, zahir və batin. O hər şeydən agahdır.”**

## Nöqtələr

Ötən surənin son ayəsində Allaha təsbih söyləndi. Bu surə də Allaha təsbihlə başlayır.

Quranın səkkiz surəsi – “Nəhl”, “Hədid”, “Həşr”, “Səf”, “Cumuə”, “Təğabun”, “Əla” surələri Allaha təsbihlə başlayır. Təsbih kəlmələri Quranda 90 dəfədən artıq işlədilmişdir. Amma yalnız dörd surə Allaha həmdlə başlayır: “Həmd”, “Ənam”, “Səba”, “Fatir”. Bu təbirin müxtəlif formaları 70 dəfəyədək zikr olunur. Olsun ki bu nisbət təsbihin həmddən öndə gəldiyini, şirk, xurafat, bu qəbil təzahürlərlə mübahisənin əhəmiyyətini göstərir. Namazda da “Subhanəllah” cümləsi ”Əlhəmdulillah” cümləsindən öndə zikr olunur.

İlahi dünya görüşündə bütün varlıq aləmi Allaha təsbih halında təsvir olunur. Biz bu təsbihi anlamasaq da o həqiqətdir və düşüncəli şəkildə gerçəkləşir.[1]

Quran Allaha təsbih deyənlərin bir qisminin adını zikr edir: mələklər;[2] ildırım;[3] quşlar;[4] dağlar.[5]

Allaha təsbih problemlərdən qurtuluş vasitəsidir.[6] Əgər həzrət Yunis təsbih əhli olmasaydı qiyamət gününədək balığın qarnında qalardı. Allahın əvvəl və axır sifətləri ilə təqdimi onun əzəli və əbədi olmasını bildirir. Yəni o hər şeydən əzəlidir və hər şeydən sonra əbədi. Onun varlığı istənilən bir vücudun varlığından daha aşkardır. Eyni zamanda Allahın varlığında bir məxvilik var. Onun varlığına dəlillər çox olduğundan o zahirdir. Bütün işlərdən xəbərdar olduğu üçün isə batin sayılır.

## Bildirişlər

1. Allah istənilən bir eyib, nöqsan və acizlikdən uzaqdır. Bütün varlıq aləmi Allahın bu səciyyələrinə şəhadət verir.
2. Səmadakı təsbih deyənlər yerdəki təsbih deyənlərdən öndədir.
3. Hikmət və həyata keçən qüdrət dəyərlidir.
4. Göy və yerin əsil hakimi Allahdır. İnsanların yer üzündəki hakimiyyəti müvəqqətidir və bu hakimiyyətə görə qürrələnməyə dəyməz.
5. Yalnız yenilməzlik, hikmət, hakimiyyət və qüdrət sahibi olan Allah təsbih və təqdisə layiqdir.
6. Başlanğıc və son, qeyb və hazır Allahın əlindədir.

### *Ayə 4:*

[1] “İsra”, 46; “Nur”, 41
[2] “Bəqərə”, 30
[3] “Rəd”, 13
[4] “Nur”, 41
[5] “Ənbiya”, 79
[6] “Saffat”, 143

﴿هُوَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ يَعْلَمُ مَا يَلِجُ فِي الْأَرْضِ وَمَا يَخْرُجُ مِنْهَا وَمَا يَنزِلُ مِنَ السَّمَاءِ وَمَا يَعْرُجُ فِيهَا وَهُوَ مَعَكُمْ أَيْنَ مَا كُنتُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**“O, göyləri və yeri altı gündə yaradan, sonra hökmü altına alan kəsdir. O yerə daxil olanı da, yerdən çıxanı da, göydən enəni də, göyə qalxanı da bilir. Harada olsanız O sizinlədir. Allah sizin əməllərinizi görür.”**

**Nöqtələr**

Yerə daxil olan dedikdə toxumlar, yağış damlaları, ağacların kökü, ölülər, xəzinələr nəzərdə tutulur. Yerdən xarix olanlar isə bitkilərin gövdələri, çayların və bulaqların suyu, müxtəlif mədənlər və bu qəbildən olan başqa şeylərdir. Bütün bunlar Allaha aşkar və məlumdur.

Allahın elm və hüzuruna iman tərbiyə üçün ən güclü vasitədir. Əgər insan əmin olsa ki, Allah daim onunladır və bütün işlərini görür, heç vaxt həddi aşmaz, qanunu pozmaz.

**Bildirişlər**

1. Bəli, Allah sonsuz qüdrət sahibidir və istədiyi işi bir anda görə bilər. Amma o bütün işləri hikmətlə gördüyündən, yaranış da tədricidir.
2. Allah bütün varlıq aləmi və məxluqları üzərində hökm sahibidir.
3. Allah varlıq aləminin bütün xırdalıqlarından xəbərdardır.
4. Hər şey Allahın hüzurundadır.
5. Allahın elmi sonradan qazanılma yox, hüzuridir.
6. Allah bütün işlərimizin xırdalıqlarından xəbərdardır.

***Ayə 5:***

﴿لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَإِلَى اللَّهِ تُرْجَعُ الأمُورُ﴾

**“Göylərin və yerin hökmü ona məxsusdur. Bütün işlər ona qayıdır.”**

***Ayə 6:***

﴿يُولِجُ اللَّيْلَ فِي النَّهَارِ وَيُولِجُ النَّهَارَ فِي اللَّيْلِ وَهُوَ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ﴾

**“Gecəni gündüzə, gündüzü gecəyə daxil edir. O qəlblərin sirrindən xəbərdardır.”**

**Nöqtələr**

Quranın məqsədi Allah sifətlərinin açıqlanması, tövhidə dəvətdir. Mübarək “Hədid” surəsinin başlanğıc ayələrində bu məqsəd daha çox izlənilir.

Hakimiyyət və müdiriyyətin bir neçə əsası var: elm, qüdrət, yenilməzlik və hikmət, əhatə, işlərin qayıdışı.

## Bildirişlər

1. Allah varlıq aləmini həm yaradıb, həm də onu idarə edir.
2. Allahın nə yaradılışda, nə də idarəçilikdə şərikə ehtiyacı var.
3. Allah varlığın qaynağıdır, son qayıdış ona doğrudur.
4. Varlıq aləmi məqsədlidir və Allaha doğru hərəkətdədir.
5. Gecə və gündüzün dövrü, günlərin uzanıb qısalması ilahi müdiriyyət nümunələrindəndir.
6. Allah bizim həm işlərimizdən, həm də düşüncə və niyyətlərimizdən xəbərdardır.

*Ayə 7:*

﴿آمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَأَنفِقُوا مِمَّا جَعَلَكُم مُّسْتَخْلَفِينَ فِيهِ فَالَّذِينَ ءَامَنُوا۟ مِنكُمْ وَأَنفَقُوا لَهُمْ أَجْرٌ كَبِيرٌ﴾

**"Allaha və Onun peyğəmbərinə iman gətirin və sizi canişin qərar verdiyindən infaq edin. Sizlərdən iman gətirib infaq edənlər üçün böyük mükafat var."**

## Nöqtələr

Ayədə möminlərə xitab olunur. İman göstərişi verməkdə məqsəd imanın şərtlərinə əməl olunmasıdır. Bəli, iman iddiasında olan insan öz iddiasının sübutu üçün Allah yolunda infaq etməlidir.[1]

İnsanın xəlifə qərar verilməsi dedikdə ya onun yer üzündə Allaha canişinliyi, ya da onun öncəki qövmlərə canişin olması nəzərdə tutulur. Birinci mənaya əsasən ayə belə anlaşıla bilər: ey möminlər, siz yer üzündə Allahın canişinlərisiniz, ixtiyarınızda olan Allahın mülküdür, Allahın verdiklərindən başqalarına infaq edin.[2] İkinci mənaya əsasən, ayə belə anlaşıla bilər: siz bugünkü insanlar öncəki insanların canişinlərisiniz, əlinizdə olanlar öncə onların əlində olub; bir gün siz də olmayacaqsınız və bu mal varislərinizin əlinə düşəcək; imkan varkən infaq edin.[3]

## Bildirişlər

1. Yoxsullara köməklə müşayiət olunan iman dəyərlidir.
2. İmandan qaynaqlanan, ilahi məqsədli infaq dəyərə malikdir.
3. İnsanın nəyi varsa əmanətdir və həqiqi malik Allahdır.
4. İman və infaq bir vəzifə olsa da, Allah bunun müqabilində mükafat təyin edir. Bəli, mükafat əmələ təşviq edir.

*Ayə 8:*

[1] "Təfsiri-əl mizan"
[2] "Bəqərə", 30
[3] "Təfsiri-əl mizan"

**﴿وَمَا لَكُمْ لَا تُؤْمِنُونَ بِاللَّهِ وَالرَّسُولُ يَدْعُوكُمْ لِتُؤْمِنُوا بِرَبِّكُمْ وَقَدْ أَخَذَ مِيثَاقَكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ﴾**

**“Sizə nə olub ki, Allaha inanmırsınız? Hansı ki, peyğəmbər sizi Rəbbinizə imana çağırdı. Doğrusu, əgər inansanız, Allah sizdən (ağıl, fitrət və peyğəmbərlər vasitəsi ilə) əhd almışdır.”**

### Nöqtələr

Ayənin sonundakı “in kuntum muminin” (“əgər inansanız”) ifadəsi onun möminlərə ünvanlandığını göstərir. Beləcə, “və mə ləkum la tuminunə billah” dedikdə iman şərtlərinə əməl olunması nəzərdə tutulur. Yəni əgər siz iman gətirmisinizsə, nə üçün iman gətirməmiş kimi hərəkət edirsiniz?

Bəzi təfsirçilər ayədə zərr aləminin nəzərdə tutulduğunu bildirmişlər. Əslində zərr aləmində bütün insanlardan əhd alınmışdır. Bu ayədə isə möminlərdən əhd alınması nəzərdə tutulur.

### Bildirişlər

1. Təbliğdə bəzən məzəmmətə ehtiyac duyulur.
2. Allah insanlara xəbərdarlığı başa çatdırır.
3. Peyğəmbərlər insanları Allaha doğru dəvət edirlər. Başqaları isə insanları özünə tərəf çağırır.
4. Allah insanları öz Peyğəmbərinə (s) iman gətirməyə dəvət edir. Peyğəmbər (s) də öz növbəsində Allaha imana çağırır.

***Ayə 9:***

**﴿هُوَ الَّذِي يُنَزِّلُ عَلَى عَبْدِهِ ءَايَاتٍ بَيِّنَاتٍ لِيُخْرِجَكُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَإِنَّ اللَّهَ بِكُمْ لَرَؤُوفٌ رَّحِيمٌ﴾**

**“O sizi qaranlıqdan işığa çıxarmaq üçün öz bəndəsinə aydın və aydınladan ayələr göndərən kəsdir. Həqiqətən, Allah sizə münasibətdə böyük rüfət və rəhmət sahibidir.”**

### Nöqtələr

Bütün ilahi proqramların hikmət və səbəbləri var: Peyğəmbərliyin səbəbi insanların qurtuluşudur; namazın səbəbi Allahın zikri və Ona təşəkkürdür;[1] orucun səbəbi təqvadır;[2] Həccin səbəbi ümumi faydalardan bəhrələnmədir;[3] cihadın səbəbi fitnənin aradan qaldırılması və məktəbin qorunmasıdır;[4] qisasın səbəbi şərəfli bir həyatdır;[5] hicabın səbəbi qəlblərin paklanması və

[1] “Taha”, 14
[2] “Bəqərə”, 183
[3] “Həcc”, 28
[4] “Bəqərə”, 193
[5] “Bəqərə”, 179

zinətlənməsidir;[1] zəkatın səbəbi paklıqdır;[2] şərab və qumara qadağa qoyulmasının səbəbi onların insanı Allah yolundan çəkindirməsidir;[3]

Bəşəriyyətin cəhalət, zülm, şirk, xurafat, təfriqədən qurtuluşu yalnız vəhy nuruna üz tutmaqdır.[4]

”İnnəllahə bikum lə rəufun rəhim” cümləsində “innə”, lam hərfi, cümlənin ismi cümlə olması, mübaliğə siğəsinin işlədilməsi ilahi rüfət və rəhmətin daimiliyini, dərinliyini, əhatəsini və qətiliyini göstərir.

### Bildirişlər

1. Xalisanə bəndəlik ilahi lütfün nazil olması üçün zəmindir.
2. Təbliğatçı aydın dəlillərlə silahlanmalıdır.
3. Peyğəmbərlərin əsil məqsədi insanların cəhalət, şirk və təfriqə qaranlığından qurtuluşudur.
4. Aydın yol yalnız Allahın yoludur, bütün başqa yollar qaranlıqdır.
5. Vəhy Allahın lütfü əsasında nazil olur.
6. Rüfət və rəhmətin ən gözəl nişanəsi bəndələrin hidayətidir.

### *Ayə 10:*

**﴿وَمَا لَكُمْ أَلَّا تُنفِقُوا فِي سَبِيلِ اللَّهِ وَلِلَّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالْأَرْضِ لَا يَسْتَوِي مِنكُم مَّنْ أَنفَقَ مِن قَبْلِ الْفَتْحِ وَقَاتَلَ أُوْلَئِكَ أَعْظَمُ دَرَجَةً مِّنَ الَّذِينَ أَنفَقُوا مِن بَعْدُ وَقَاتَلُوا وَكُلًّا وَعَدَ اللَّهُ الْحُسْنَى وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ﴾**

**“Sizə nə olub ki Allah yolunda infaq etmirsiniz? Hansı ki göylərin və yerin mirası (onlarda nə varsa) Ona (Allaha) məxsusdur. Fəthdən öncə infaq və cihad edənlər (başqaları ilə) eyni deyil. Onlar sonradan infaq və cihad edənlərdən dərəcə baxımından üstündürlər. Allah onların hər ikisinə yaxşı vəd vermişdir. Allah gördüyünüz işlərdən agahdır.”**

### Nöqtələr

Qurani-kərimdə məhrumlara yardımla bağlı zəkat, xüms, sədəqə, infaq, gözəl borc, təam, isar, şəklində yüzlərlə ayə mövcuddur. İnfaqın növü, onun miqdarı, infaq edən və infaq olunan üçün şərtlər mövcuddur. Bu surənin ötən ayələrində, hazırkı ayədə və sonrakı ayələrdə məhrumlara yardım məsləsinə xüsusi diqqət yetirilmişdir.

7-ci ayədə infaq əmri verilir. Bildirilir ki, sizdə olan keçmişdəkilərin mirasıdır və aldığınız irsdən infaq edin. Bu ayədə infaqı tərk edənlər məzəmmət edilir. Xəbərdarlıq olunur ki, əldə etdikləriniz varislərə qalasıdır. Nə üçün öz əlinizlə infaq etməyəsiniz?

---

[1] “Əhzab”, 53
[2] “Tövbə”, 103
[3] “Maidə”, 91
[4] “İbrahim”, 2

Müsbət keçmiş və yaxşı işlərdə öncüllük dəyərləndirmə meyarlarındandır. Məkkənin fəthindən öncəki çətin şəraitdə infaq adi şəraitdəki infaqla eyni deyil.

**Bildirişlər**

1. İmansızlıq məzəmmət olunduğu kimi, infaqın tərki də qınanır.
2. İxlas əməllərin qəbul şərtidir.
3. Müqayisə faydalı təlim-tərbiyə üsullarındandır.
4. Allah yolunda həm maldan, həm də candan keçmək gərəkdir.
5. İnfaq cihad cəbhəsindəki döyüşçülərə arxadır.
6. Canlarından və mallarından keçmiş mücahidlər İslam cəmiyyətində üstün məqama malik olmalıdır.
7. Haqq yola sonradan qatılanlar öz keçmişlərinə görə etinasızlıqla üzləşməməlidirlər.
8. Bəzən əməllər zahirən eyni görünsə də, Allah səbəblərdən və fərdlərin ruhiyyəsindən xəbərdardır.

***Ayə 11:***

**﴿مَن ذَا الَّذِي يُقْرِضُ اللَّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ وَلَهُ أَجْرٌ كَرِيمٌ﴾**

**“Kim Allaha borc, yaxşı bir borc verən ki, Allah həmin adam üçün bunu ikiqat artırsın? Onun üçün həm də dəyərli bir mükafat var.”**

**Nöqtələr**

”Qərz” dedikdə əldə olan malın bir hissəsinin ayrılması nəzərdə tutulur. “Miqraz” dedikdə ayırmaq vasitəsi, “qərazə” dedikdə ayrılmış mal nəzərdə tutulur.

Allaha borc qiyamətdə qat-qat artıq əvəzi veriləsi infaqdır. “Qərz” sözü Quranda adətən “həsən” sözü ilə yanaşı işlənir. Gözəl borc mənasını bildirən bu ifadə borcun minnətsiz, istənilmədən, dərhal verilməsinə işarədir. Əlbəttə, zəruri və faydalı işlər üçün borc verilməlidir.

Qərzül-həsənənin (gözəl borcun) bir sıra bərəkətləri var: kin-küdurətin aradan qalxması, məhəbbətin güclənməsi, insanların şəxsiyyətinin qorunması, müfsilliyin qarşısının alınması, cəmiyyətin iqtisadi baxımdan islahı, sələmçiliyin qarşısının alınması, hərislik və tamahkarlığa nəzarət, sərvətlərin tarazlaşdırılması, qarşılıqlı yardım ruhiyyəsinin güclənməsi.

Göylərin və yerin mirasına sahib olan Allah bu ayədə insanlardan borc istəyir.

İslam tənəzzül, fəaliyyətsizliklə müxalifdir. Torpağı və suyu olan, amma çalışmayıb yoxsulluğa düşən insan Allahın mərhəmətindən uzaqdır.[1] Dualarda tənbəllikdən Allaha pənah aparılır.[2] Sərvət, elm, əxlaq və mənəviyyat baxımdan

---

[1] “Vəsail”, c. 17, s. 40
[2] “Kafi”, c. 2, s. 585

tənəzzül qınanır.[1] Rəvayətlərdə bildirilir ki, iki günü bərabər olan insan ziyandadır.[2] Düşünməmək, rəy istəməmək, şəxsi rəy üzərində inadkarlıqla dayanmaq insanı məhvə aparır.[3]

### Bildirişlər

1. Allah-taala özünü məhrumlar cərgəsinə qataraq borc istəyir. Allahın belə bir müraciyəti Onun verilən borclara zamin durmasına və borc müqabilində mükafat verəcəyinə işarədir.
2. Xeyir iş insanda xasiyyətə çevrilsə daha dəyərli olur.
3. Əməl özü yox, onun gözəlliyi mühümdür.
4. Borc malı azaltmır, əksinə artırır.
5. Bir işdə addım atmaq çətindirsə güclü stimula ehtiyac var. Maldan keçmək çətin olduğundan Allah infaq müqabilində qat-qat artıq mükafat vəd edir.
6. Borc vermək kəramət nişanəsidir. Allah səxavətli üçün səxavətlə mükafat təyin edir.
7. Başqalarının tərbiyə və inkişafı üçün onları və dəyərləndirmək lazımdır.

### *Ayə 12:*

**﴿يَوْمَ تَرَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ يَسْعَى نُورُهُم بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِم بُشْرَاكُمُ الْيَوْمَ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ذَٰلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ﴾**

**“İmanlı kişilər və qadınların nurunun onların önlərindən və sağ tərəflərindən sürətlə şölələndiyi gün (onlara deyilər) müjdə olsun bu gün sizə, ağacları altdan çaylar axan bağlarda əbədisiniz. Budur böyük qurtuluş.”**

### Nöqtələr

9-cu ayədə oxuduq ki, peyğəmbərlər insanları zülmətdən nura dəvət edirlər. Bu ayədə qeyd edilir ki, dünyada cəhalət zülmətindən nura, şirkdən tövhidə, təfriqədən vəhdətə yol tapanlara qarşılarındakı nurla yol göstərilər. “Əraf” surəsinin 157-ci ayəsində oxuyuruq ki, daim Peyğəmbərlə (s) olan Quran nuruna itaət edin.

Qiyamətdə möminlərin nuru olar. Bu və bundan sonrakı, “Təhrim” surəsinin 8-ci ayəsində həmin nura işarə olunmuşdur. Peyğəmbər (s) və möminlərin nuru onların qarşısında hərəkət edər və Allahdan dilənər ki, bu nuru kamilləşdirsin.

### Bildirişlər

1. Qiyamətdə insanlar bir-birlərini görər, başqalarının vəziyyətindən agah olarlar.

---

[1] “Tövbə”, 34; “Taha”, 114; “Muhəmməd”, 17
[2] “Bihar”, c. 68, s. 173
[3] “Vəsail”, c. 12, s. 40

2. Qadın və kişi ilahi mükafat əldə etməkdə və mənəvi təkamüldə bərabərdirlər.

3. İman nuru qiyamətdə səhnəyə gələr və möminlərə behiştə doğru yol göstərər.

4. Nemətlə müjdə özü mənəvi bir nemətdir.

5. Həqiqi qurtuluş qiyamətdə özünü göstərər.

*Ayə 13:*

﴿يَوْمَ يَقُولُ الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ لِلَّذِينَ ءَامَنُواْ انظُرُونَا نَقْتَبِسْ مِن نُّورِكُمْ قِيلَ ارْجِعُوا وَرَاءكُمْ فَالْتَمِسُوا نُورًا فَضُرِبَ بَيْنَهُم بِسُورٍ لَّهُ بَابٌ بَاطِنُهُ فِيهِ الرَّحْمَةُ وَظَاهِرُهُ مِن قِبَلِهِ الْعَذَابُ﴾

**"Münafiq kişilər və qadınların iman gətirənlərə "dayanın, sizin nurunuzdan işıq alaq" deyəcəyi gün onlara bildirilər: "Geri dönün, (dünyada) nur axtarın." Onlar arasına divar çəkilər, onun qapısından içəri mərhəmət, qapısından bayıra əzab var."**

### Nöqtələr

"Unzuruna" sözü "nəzər" kökündəndir. Əgər uyğun söz "ila" hissəsi olmadan işlənərsə, intizar və möhlət vermək mənası bildirər. Hazırkı ayədə uyğun söz "ila" hissəsi ilə işlənsəydi, baxmaq mənasını bildirərdi. "Muhəmməd" surəsinin 20-ci ayəsi buna misal ola bilər.

"İqtibas" dedikdə oddan bir hissə götürmək mənası anlaşılır. "Sur" sözü divar, bürc, uca hasar mənasını ifadə edir. Qədim vaxtlar şəhərin ətrafına bu sayağı divar çəkilərdi ki, düşmənlərin hücumunun qarşısı alınsın.

Qiyamətdə günahkarlar dörd qrupdan yardım istəyər:

a) Öz rəhbərlərindən; "İbrahim" surəsinin 21-ci ayəsində bildirilir ki, onlar öz rəhbərlərindən yardım istəsələr də mənfi cavab alarlar.

b) Möminlərdən; hazırkı ayədə uyğun nöqtəyə işarə olunur.

v) Cəhənnəmdə məmur mələklərdən, "Gafir" surəsinin 49-cu ayəsində bildirilir ki, günahkarlar mələklərdən əzablarının azaldılmasını istəsələr də, mənfi cavab alarlar.

q) Qiyamət günü günahkarlar şeytanı məzəmmət edərlər ki, azğınlıqlarının səbəbi odur. Şeytan deyər ki, məni məzəmmət etməyin, özünüzü qınayın.[1]

### Bildirişlər

1. Nifaq xəstəliyi həm kişidə, həm də qadında ola bilər.

2. Dünya həyatında cəhalət, şirk və təfriqə zülmətindən xaric olmaq istəməyənlər qiyamətdə başqalarından nur diləyərlər.

3. Münafiqlər qiyamətdə həm söz, həm də əməllə alçaldılar.

---

[1] "İbrahim", 22

4. Münafiqlər dünya həyatında zahirdə möminlərlə, batində kafirlərlə yaxın olur. Qiyamətdə də behiştin qapısınadək möminlərlə gəlir, amma sonda kafirlərlə birgə cəhənnəmə daxil olurlar.

### *Ayə 14:*

﴿يُنَادُونَهُمْ أَلَمْ نَكُن مَّعَكُمْ قَالُوا بَلَى وَلَكِنَّكُمْ فَتَنتُمْ أَنفُسَكُمْ وَتَرَبَّصْتُمْ وَارْتَبْتُمْ
وَغَرَّتْكُمُ الْأَمَانِيُّ حَتَّى جَاء أَمْرُ اللَّهِ وَغَرَّكُم بِاللَّهِ الْغَرُورُ﴾

**“Münafiqlər möminləri səsləyər ki, məgər biz sizinlə deyildik? Deyilər: “Bəli, amma siz özünüzü fitnəyə saldınız, intizarda qaldınız (möminlərə pislik gözlədiniz). (Haqq dinə) Şəkk etdiniz, (batil) arzular sizi aldatdı. Nəhayət, Allahın hökmü yetişdi və (şeytan) yalançı sizi Allah barəsində aldatdı.”**

### Nöqtələr

”Fətəntum ənfusəkum” yəni özlərini nifaq fitnəsinə düçar etdilər. “Tərəbbəs” dedikdə gözləmək mənası nəzərdə tutulur. “Əmaniyy” sözü arzu mənası bildirən “umniyyə” sözünün cəm formasıdır. “Ğərur” dedikdə aldadan mənası anlaşılır. Şeytanın ləqəblərindən “ğərur”dır.

Mömin kimsəyə pislik istəmir.[1] Münafiq isə daim başqalarına pislik arzusundadır. Mömin yəqin əhlidir, münafiq şübhə içindədir. Mömin həqiqət sorağındadır, münafiq xülyapərəstdir. Mömin şeytanın vəsvəsələri ilə rastlaşdıqda ayılır[2], münafiq isə aldanır.

Digər ayələrə əsasən münafiqlər dini möminlər üçün aldanış vasitəsi sayır və deyidilər: “Allah və Onun rəsulunun (s) vədləri aldatmaq vasitəsidir.”[3] Hazırkı ayədə isə şeytan və uzun-uzadı arzuların aldanış vasitəsi olduğu bəyan edilir.

### Bildirişlər

1. Qiyamətdə münafiqlər və möminlər bir-birləri ilə danışırlar.
2. Münafiqlər divar arxasından ah-nalə və yalvarışla danışırlar.
3. Qiyamətdə dünya təhlükələri yaddan çıxmır.
4. Mühüm olan fiziki yoldaşlıq yox, düşüncə və əməli birlikdir.
5. Təhlükə budur ki, insan dərk etdiyi halda özünü aldadıb çirkinlikləri gözəl təsəvvür edə.
6. Dünya həyatındakı uzun-uzadı arzular qiyamətlə bağlı şəkk-şübhələr üçün zəmindir.
7. Olsun ki, şeytan bağışlanma vədi ilə insanı aldadıb onu arxayın etsin.

### *Ayə 15:*

[1] “Həşr” 10
[2] “Əraf”, 201
[3] “Əhzab”, 12

﴿فَالْيَوْمَ لَا يُؤْخَذُ مِنكُمْ فِدْيَةٌ وَلَا مِنَ الَّذِينَ كَفَرُوا مَأْوَاكُمُ النَّارُ هِيَ مَوْلَاكُمْ وَبِئْسَ الْمَصِيرُ﴾

**"Bu gün nə sizdən (münafiqlərdən), nə də kafirlərdən əvəz, fidyə qəbul olunmaz. Sizin yeriniz oddur. Siz oda daha layiqsiniz. Bu çox pis sonluqdur."**

### Nöqtələr

"Məvlakum" dedikdə yardımçı mənası nəzərdə tutulur. Bu bir növ münafiqlərə tənədir. Yəni sizin yeganə qurtuluşunuz və yardımçısınız dərdinizə çarə qılacaq oddur.[1]

Dünyanın axirətdən fərqlərindən biri dünyada fidyə, əvəz qəbul olunmasıdır. Axirətdə isə fidyə qəbul olunmur. Qiyamətdə günahkar insan bütün yaxınlarını fidyə verməyə razı olur. Amma bu da qəbul edilmir.[2]

### Bildirişlər

1. Qiyamətdə dünyəvi vasitələr təsirsizdir.
2. Münafiqlər və kafirlər cəhənnəmdə yoldaşdırlar.
3. Qiyamət mömin üçün müjdə, münafiq və kafir üçün ümidsizlikdir.
4. Möminlərin mövlası, yardımçısı Allahdır. Münafiq və kafirlərin isə oddan başqa yardımçısı yoxdur.

### *Ayə 16:*

﴿أَلَمْ يَأْنِ لِلَّذِينَ ءَامَنُواْ أَن تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ وَمَا نَزَلَ مِنَ الْحَقِّ وَلَا يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِن قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ وَكَثِيرٌ مِّنْهُمْ فَاسِقُونَ﴾

**"İman gətirənlər üçün onların qəlbinin Allah zikri və haqdan nazil olan müqabilində yumşalmaq vaxtı çatmayıbmı?! Bundan öncə səmavi kitab verilmiş, uzun müddət keçdikdən sonra qəlbləri bərkimiş, çoxları fisqə düçar kəslərdən olmayın."**

### Nöqtələr

"An" sözündən olan "yəni" sözü mütləq zaman mənasını ifadə edir.

Bu ayədə Allah zikrinə sövq edən xüşu (mütilik), həm də Allah kitabın uzaqlığa aparan daş qəlblilik yada salınır. Rəvayətdə bildirilir ki, həzrət Mehdinin (ə. c.) qeyb dövrü o qədər uzun çəkər ki, insanlar dəstə-dəstə dindən çıxar.[3] Haqqında danışılan ayə kimi bir çox Quran ayələrində Allah möminləri kimlərəsə oxşamamağa, kimlərisə nümunə götürməyə çağırır. İndi bu iki qrup insana xülasə

---
[1] "Təfsiri-əl mizan"
[2] "Məaric", 11-16
[3] "Təfsiri-nurus-səqəleyn"

şəkildə nəzər salaq: doğruçulardan olun;[1] salehlərlə olun;[2] xeyir əməl sahibləri ilə olun;[3] səbirlilərlə olun.[4] Bir çox peyğəmbərlərin ətrafında çətinliklərə dözən, vuruşub öldürülən, heç vaxt təslim olmayan insanlar vardı.

Peyğəmbərlərdən ayrılmayın, onların həqiqi ardıcıllarından olun;[5] nemətə şükr edənlərdən olun;[6] ibadət əhli olun;[7] ilahi göstərişlərə əməl edənlərdən olun;[8] Allah qarşısında təslim olanlara qatılın;[9] iman əhli ilə olun;[10] ədaləti bərpa edənlərdən olun;[11] ilahi göstərişləri bərpa edənlər;[12] Allah dininə yardımçılardan olun;[13] münafiq sifət olmayın;[14] riyakar olmayın;[15] əhdi pozanlardan olmayın;[16] Peyğəmbərə (s) əziyyət verməyin;[17] Allahı yaddan çıxarmayın;[18] ümidinizi üzməyin;[19] nankor və kafir olmayın;[20] günahkarlara yardım etməyin;[21] şəkk-şübhə içində olmayın;[22] həqiqətlə düşmənçilik etməyin;[23] qafillərdən və nadanlardan olmayın;[24] Allahın ayə və nişanələrini yalan saymayın;[25] kafirlərə və dinsizlərə arxa olmayın;[26] müamilədə əskik və baha satanlardan olmayın;[27] təfriqə və ixtilafa qatılmayın.[28]

### Bildirişlər

1. Qəlbən mütilik (xüşu) olmadan iman qınanır.
2. İnsanların xüşuya dəvəti üçün iman amilindən istifadə edin. Əgər imanınız varsa, nə üçün xüşunuz yoxdur.
3. İlahi ayələrin nazil olmasına məqsəd qəlblərin xüşusudur.

---

[1] "Tövbə", 119
[2] "Yusuf", 101; "Munafiqun", 10
[3] "Ali-İmran", 193
[4] "Ali-İmran", 146
[5] "Əhzab", 21; "Mumtəhinə", 4
[6] "Əraf", 144
[7] "Hicr", 98
[8] "Ali-İmran", 79
[9] "Nəml", 91
[10] "Yunis", 104
[11] "Nisa", 135
[12] "Maidə", 8
[13] "Səff", 14
[14] "Ənfal", 21
[15] "Ənfal", 47
[16] "Nəhl", 92
[17] "Əhzab", 69
[18] "Həşr", 19
[19] "Hicr", 55
[20] "Ali-İmran", 156
[21] "Qəsəs", 17
[22] "Ali-İmran", 60
[23] "Nisa", 105
[24] "Əraf", 205; "Ənam", 35
[25] "Yunus", 95
[26] "Qəsəs", 86
[27] "Şuəra", 181
[28] "Ali-İmran", 105

4. Allahın zikri, Quran ayələrinin tilavəti qəlbdə xüşu üçün zəminə yaradır.
5. İlahi lütflərin yada salınması, Allahın əfvi və qəhr-qəzəbi xüşu vasitəsidir.
6. Keçmişdəkilərin tarixindən ibrət götürək.
7. Qəflətin davamı qəlbi daşlaşdırır.
8. İlahi sünnələr tarix boyu bütün ümmətlərə eyni cür tətbiq edilir.
9. Allahın verdiyi möhlətdən sui-istifadə etməyək.
10. Qəlbidaşlıq fisq və günah üçün zəmindir.
11. Hidayət amili təklikdə bəs etmir, ruhi hazırlıq da lazımdır.

*Ayə 17:*

﴿اعْلَمُوا أَنَّ اللَّهَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا قَدْ بَيَّنَّا لَكُمُ الْآيَاتِ لَعَلَّكُمْ تَعْقِلُونَ﴾

**“Bilin ki, Allah-taala torpağı onun ölümündən sonra dirildər. Həqiqətən, biz sizin üçün nişanələr göstərdik. Olsun ki, düşünəsiniz.”**

### Nöqtələr

Ötən ayədə Allah zikri ilə yanaşı qəlbin xüşusu barədə danışıldı. Bu ayədə torpağın öldükdən sonra dirilməsinə işarə edilir.

Hədisdə oxuyuruq ki, torpağın ölümdən sonrakı həyatı dedikdə yer üzündə zülm-sitəm ərşə dirəndikdən sonra həzrət Mehdinin (ə. c.) qiyamı ilə ədalətin bərpası, həyatın canlanması nəzərdə tutulur.[1]

Bu gün bəşəriyyət başqa planetlərdə həyat axtarır. Amma hələ ki, müsbət nəticə əldə olunmamışdır. Amma yer kürəsində həyat qaynamaqdadır. Okeanların dərinliyindən tutmuş, səmanın yüksəkliklərinədək növbənöv mikroorqanizmlər, otlar, heyvanlar, o cümlədən insan həyat sürür. Bu ayə Allahın qüdrət və əzəmət nişanələrindən birini bəyan edir. Bu nişanə torpaq kürədəki həyatdır. Bu həyata yerin günəş ətrafında hərəkəti, yerlə günəş arasındakı məsafənin nizamlanması, dənizlərin və okeanların varlığı, yağışın yağması təsirlidir.

### Bildirişlər

1. Mənəvi həyat qəlbin xüşusunda (mütilik və təvazösündə) maddi həyat payızdan sonra bahardadır.
2. Tərbiyəçi tərbiyə prosesində təbii amillərdən istifadə etməlidir.
3. Təbiət hadisələrinə dərindən nəzər salmaq lazımdır.
4. İnsanın duyğulu qəlbə, dəqiq əqlə ehtiyacı var. Qəlbin xüşusu düşüncə ilə yanaşı zikr olunur.
5. Təbiət hadisələri insanın təkamül məktəbidir.

*Ayə 18:*

﴿إِنَّ الْمُصَّدِّقِينَ وَالْمُصَّدِّقَاتِ وَأَقْرَضُوا اللَّهَ قَرْضًا حَسَنًا يُضَاعَفُ لَهُمْ وَلَهُمْ
أَجْرٌ كَرِيمٌ﴾

---

[1] “Təfsiri-nümunə”

**“Həqiqətən, sədəqə verən kişilər və qadınlar, Allaha gözəl borc verənlər üçün qat-qat artıq mükafat var. Onlar üçün gözəl əvəz olacaq.”**

### Nöqtələr

16-cı ayədə qəlbdən danışılır. 17-ci ayədə düşüncəyə, hazırkı ayədə isə rəftara işarə olunur.

Təlim-tərbiyədə addım-addım üslubu zəruridir. 16-cı ayədə məqsəd sualla nəzərə çatdırılır. Növbəti addımda ruhi hazırlıqdan və qəlblərin xüçusundan danışılır. Daha sonra elm və düşüncə önə çəkilir. Hazırkı ayədə məsələ qətiləşir. Bəli, məhrumlara kömək iki şərtlə həyata keçirir: “Allah zikri ilə qəlblər yumşalmalı, ağıl gələcəyi nəzərə almalı və insan bilməlidir ki, əkindən sonra cücərtilər baş qaldırır. Bu gün malın azalması sabah onun artımı üçün bir səbəbdir.

İnfaq və borc səxavət göstəricisidir. Səxavətin mükafatı səxavətdir.

### Bildirişlər

1. İlahi lütflərə çatmaq üçün həm sədəqə, həm gözəl borc, həm də bəhrəsi götürüləcək yardımlar lazımdır.
2. Allahın bəndələrinə borc vermək Allaha borc vermək kimidir.
3. Qadın və kişi mülkiyyət, mülkiyyət, iqtisadi problemlərin həlli, mənəvi təkamül, axirət kamilliklərinə çatmaqda bir-birlərinə yoldaşdırlar.
4. Əsas məsələ fəqirlərin qurtuluşudur. İstər infaq, istər borc yolu ilə onlar vəziyyətdən çıxarılmalıdır.
5. Borc və infaq zahirən malı azaldır. Əslində isə gözəl borc və infaq malın artım səbəbidir.
6. Mükafat təyin edilməsi insanları xeyir işə həvəsləndirir.

***Ayə 19:***

﴿وَالَّذِينَ ءَامَنُواْ بِاللَّهِ وَرُسُلِهِ أُوْلَئِكَ هُمُ الصِّدِّيقُونَ وَالشُّهَدَاء عِندَ رَبِّهِمْ لَهُمْ أَجْرُهُمْ وَنُورُهُمْ وَالَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآيَاتِنَا أُوْلَئِكَ أَصْحَابُ الْجَحِيمِ﴾

**“Allaha və Onun peyğəmbərinə iman gətirənlər başdan ayağa sadiqlər və Allahın yanında şahidlərdir. Onların mükafatı və nuru var. Küfrə uğrayanlar və ayələrimizi təkzib edənlər cəhənnəm səhabələridir.”**

### Nöqtələr

”Siddiq” dedikdə başdan ayağa düz adam nəzərdə tutulur. Onun qəlbi, dili, əməli eynidir, sədaqət onun xarakterinə hopmuşdur. Quranda İbrahim, İdris, Yusif, Məryəm kimiləri “siddiq” (sadiq) adlanır. Amma bu ayədə bütün iman əhli üçün sadiq olmaq yolu açılır. “Şuhəda” dedikdə şahidlər mənası nəzərdə tutulur, bu təbir cəbhədə şəhid olanlara da aiddir.

## Bildirişlər

1. Allaha və bütün peyğəmbərlərə iman insanın sədaqət göstəricisidir.
2. Dünyada peyğəmbərlərin hidayət nurundan bəhrələnənlər üçün qiyamətdə də nur olası.
3. Təşviq və xəbərdarlıq yanaşı təsirlidir.
4. Möminlərin həm mükafatı, həm də nuru var. Kafirlərin isə olanı əzabdır.

### *Ayə 20:*

﴿اعْلَمُوا أَنَّمَا الْحَيَاةُ الدُّنْيَا لَعِبٌ وَلَهْوٌ وَزِينَةٌ وَتَفَاخُرٌ بَيْنَكُمْ وَتَكَاثُرٌ فِي الْأَمْوَالِ وَالْأَوْلَادِ كَمَثَلِ غَيْثٍ أَعْجَبَ الْكُفَّارَ نَبَاتُهُ ثُمَّ يَهِيجُ فَتَرَاهُ مُصْفَرًّا ثُمَّ يَكُونُ حُطَامًا وَفِي الْآخِرَةِ عَذَابٌ شَدِيدٌ وَمَغْفِرَةٌ مِنَ اللَّهِ وَرِضْوَانٌ وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلَّا مَتَاعُ الْغُرُورِ﴾

**“Bilin ki, dünyanın dəyərsiz həyatı oyun, əyləncə, zinət istəyi, öz aralarında lovğalıq, mal-mülk və övladı çoxaltmaqdan başqa bir şey deyil. Eynən cücərtisi əkinçiləri heyrana salan yağış kimi. Sonra quruyar, onu saralmış görərsən, sonda çör-çöp olar. Axirətdə (dünyaya aldananları) ağır əzab, (aldanmayanları) bağışlanma və Allah tərəfindən razılıq gözləyir. Dünya həyatı qürur matahından başqa bir şey deyil.”**

## Nöqtələr

”Ğəys” dedikdə faydalı yağış nəzərdə tutulur. Zərərli yağış isə “mətər” adlanır. “Ğəys” sözü “ğiyas” sözündəndir. Faydalı yağış insanların yalvarışlarına cavab olduğu üçün belə adlana bilər.

”Yəhic” sözü heyecan sözündən olub, iki məna bildirir: otun quruması və qaynayıb daşmaq. “Hütam” dedikdə çox quruduğundan saman vəziyyətinə gələn ot mənasını bildirir.

Dünya həyatı Quranda dörd dəfə oyun-oyuncağa bənzədilir.[1]

Quran ayələrindən belə bir qənaətə gəlmək olur ki, dünya məqsəd kimi qəbul olunsa, insanı yuxuya verər, onda qürur yaradar. Amma axirət üçün əkin kimi qəbul olunan dünya kamilliyə çatmaq üçün bir müqəddimə, vasitədir. Bu halda dünya və onun nemətləri dəyər sayılır.

Ömrün hər dövründə dünyanın bir cilvəsi insanı cəzb edir. Uşaqlıq və yeniyetməlik dövründə əyləncələr, gənclik dövründə bər-bəzək, orta yaşlarda və qocalıqda var-dövlət insanı özünə məşğul edir.

Ötən ayələrdə sədəqə və qərzül-həsənədən (gözəl borcdan) danışıldı. Bu ayədə isə insanı infaqdan çəkindirən amillər bəyan olunur.

Həmin dünya həyatından bəziləri bəhrələnərək ilahi mərhəmət və razılığa çatır. Bəziləri isə elə yaşayır ki, ağır əzaba düçar olur.

---

[1] “Ənam”, 32; “Ənkəbut”, 64; “Muhəmməd”, 36; “Hədid”, 20

Təlim-tərbiyədə üç prinsip gözlənilməlidir: bəyan, misal və nəticə. “Ələmu” bəyan edir, “kəməsəli ğəysin” misal çəkir, “əzabun şədidun və məxfirə” nəticəni göstərir.

### Bildirişlər

1. Dünyanı düzgün tanımaq üçün diqqət və dərin baxışa ehtiyac var.
2. Quran insanın dünyaya baxışını islah edir.
3. Dünyanın gözəllikləri ötəridir.
4. Dünyanın baharı da, payızı da var. Əlvanlıq nə qədər çox olsa da xəzan vaxtı var.
5. Dünyanın cilvələri yalnız kafirləri aldadır, onları heyrətə gətirir.
6. Oyun və əyləncə dünya həyatının səciyyələrindəndir. İnsan bu istiqamətdə düzgün yol seçməsə axirət əzabından düçar olar.
7. Dünya zinətləri, şəxsi bəzək əşyaları, ev və maşın insanda təkəbbür yaratsa, bütün bunlar cəhənənnəmə sürükləyər.
8. Var-dövlətin çoxluğu insanı küfrə apararsa, o bədbəxt olar.
9. Övladların və cəmiyyətin çoxluğu yalnız düzgün tərbiyə zamanı dəyərli olur. Cəhənnəmə aparan çoxluq faydasızdır.
10. Kafiri küfrə sürükləyən səbəb mömini inkişaf etdirir. Kafir dünyaya aldanır, mömin isə dünyada ilahi razılıq əldə edir.
11. Büdrəmələr aradan qalxmayınca ilahi razılıq qazanmaq mümkün deyil.
12. Ağır əzab insanın öz əməllərinin nəticəsidir. Bağışlanma isə Allahın lütfüdür.
13. İnsan ümid və qorxu arasında olmalıdır.

### *Ayə 21:*

﴿سَابِقُوا إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا كَعَرْضِ السَّمَاءِ وَالْأَرْضِ أُعِدَّتْ لِلَّذِينَ ءَامَنُواْ بِاللَّهِ وَرُسُلِهِ ذَلِكَ فَضْلُ اللَّهِ يُؤْتِيهِ مَن يَشَاءُ وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ﴾

**“Rəbbinizin mərhəmətinə, genişliyi göy və yer kimi böyük, Allah və onun rəsuluna iman gətirinlər üçün hazırlanmış behiştə tələsin. Bu Allahın fəzlidir. İstədiyinə verər. Allah böyük fəzl sahibidir.”**

### Nöqtələr

Ötən ayədə bildirildi ki, işlərin sonu ya ağır əzab, ya da Allahın razılığıdır. Bu ayədə Allahın mərhəmətinə doğru tələsmək tapşırılır.

### *Quran müsabiqəsi*

Belə bir müsabiqədə hamı iştirak edə bilər. Bu, mənəviyyat müsaqibəsidir. Onu Allah keçirir. Mükafat öncədən təyin olunmuşdur. Onun üçün xüsusi zaman və ya məkan yoxdur. Mükafatın növü və xüsusiyyətləri aydındır. Hədiyyə ilahi fəzl əsasında verilir. Mükafatlandırmada heç bir məhdudiyyət yoxdur.

### Bildirişlər

1. Bəyənilməyən bir işə qadağa qoyanda onun yerinə yaxşı bir iş təklif etmək lazımdır.
2. İşə dəyər verən sürət və önəmdir.
3. Sərvət və təkəbbürə doğru yox, mərhəmət və behiştə doğru tələsin.
4. Mərhəmət və bəxşiş Allahın rübubiyyət şənindəndir.
5. Öncə bağışlanma, sonra behiştə hərəkət.
6. Dünya və axirətə münasibətdə tanışlığı artırmaqla insanlara asan seçim imkanı yaradın.
7. Aldadıcı və dəyərsiz matahlı dünyaya göz yummaq sizi behiştə çatdırar.
8. Peyğəmbərlərə iman Allaha iman şərtidir.
9. Behişt Allah-taalanın möminlərə fəzlidir.
10. İnsanların behiştə və ya cəhənnəmə gedəcəyi barədə mühakimə yürütməyin. Allah qiyamətdə öz fəzli ilə rəftar edir və bizə cəhənnəm əhli kimi görünən insan behiştə gedə bilər.

***Ayə 22:***

**﴿مَا أَصَابَ مِن مُّصِيبَةٍ فِي الْأَرْضِ وَلَا فِي أَنفُسِكُمْ إِلَّا فِي كِتَابٍ مِّن قَبْلِ أَن نَّبْرَأَهَا إِنَّ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرٌ﴾**

**“Kitabda (lövhi-məhfuzda) yazıya alınmazdan öncə nə yer üzündə, nə də canınızda bir müsibət görünməz. Həqiqətən, bu iş Allah üçün asandır.”**

### Nöqtələr

”Nəbrəəha” sözü “bər” sözündən olub yaratmaq, qərar vermək mənasını bildirir. Yeri və insanı yaradan Allah müəyyən çətinliklər də yaratmışdır. Zəlzələ, qıtlıq, sel yer üçün, müxtəlif xəstəliklər insan üçün çətinlikdir.

Tarixi mətnlərdə qeyd olunur ki, Yezid imam Hüseynin (ə) əsir düşmüş Əhli-beytinə (ə) dedi: “Sizin başınıza gələnlər əməllərinizə görədir.” Sonra o məlun “Şura” surəsinin 30-cu ayəsini oxudu. İmam Səccad (ə) belə cavab verdi: “Bu ayə bizim haqqımızda nazil olmayıb.” Sonra həzrət hazırkı ayəni oxudu. Yəni Allah öncədən Onun dininin hifzinə dözməyimiz üçün müəyyən çətinliklər yaradıb.

Bəli, bəlalar zalım üçün ədəb vasitəsi, möminlər üçün sınaq və təkamül səbəbidir. Allahın övliyaları isə bəlalar vasitəsi ilə yüksək dərəcəyə çatır.[1]

### Bildirişlər

1. Sel və zəlzələ kimi təbiət hadisələri Allah tərəfindən öncədən müəyyənləşdirilir və təsadüfi deyil. Bütün bunlar Allahın qüdrəti altındadır.
2. Varlığın hesab-kitabı var. Bütün hadisələr baş verməzdən öncə qeydə alınır.

[1] “Təfsiri-nümunə”

3. Allah üçün təzə bir hadisə yoxdur.
4. Allahın bütün təbiət hadisələrindən xəbərdarlığı sizi təəccübləndirməsin.

***Ayə 23:***

**﴿لِكَيْلَا تَأْسَوْا عَلَى مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ وَاللَّهُ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ﴾**

**"Belə ki, əlinizdən çıxana görə təəssüflənməyin, sizə əta olunana görə şadlanmayın. Allah özünü bəyənən lovğa heç kəsi sevməz."**

## Nöqtələr

"Muxtal" dedikdə xülyalara əsaslanan təkəbbür mənası nəzərdə tutulur.

Bu ayə öncəki ayə üçün dəlildir. Yəni hadisələri öncədən yazdığımızı sizə xəbər verməklə əldən çıxan nemətə görə qəmlənməməyinizi istədik. Əldə etdiyiniz nemətlərə görə də sevinməyin. Bilin ki, nemətlər sizə tapşırılmış ilahi əmanətlərdir.[1]

Acılı-şirinli bütün hadisələr eynən biri ağ, o biri qara pillələr kimidir. Məqsəd yuxarı qalxmaqdır. Qalxarkən pillələrin rənginə baxmamaq, sürətlə ötüb keçmək lazımdır.

Bank işçisi bir gün pulu təhvil alır, səhəri gün təhvil verir. Ona nə əvvəl pulu alanda sevinir, nə də sonra pulu ödəyəndə qəmlənir. O anlayır ki, sadəcə əmanətçidir. Allah-taala acı-şirin hadisələri, eniş-yoxuşları müəyyənləşdirməklə insan ruhunu yüksəltmək istəyir. Xanım Zeynəb Kərbəla hadisələrindən sonra "mən gözəllikdən başqa bir şey görmədim" söyləyir.[2] İmam Hüseyn (ə) şəhadət astanasında bu taledən razı olduğunu bildirir. Həzrət Əli (ə) bəyan edir ki, onun ölümə iştiyaqı uşağın ananın sinəsinə iştiyaqından daha çoxdur.[3]

Əgər hadisələrin baş vermə səbəbini bilsək, kimsəyə həsəd aparmaz, hərislik göstərməz, düşmənlik etməz, əsəbləşmərik. Anlayarıq ki, bütün bu səhnələr öncədən hikmət əsasında hazırlanmışdır.

Əgər bilsək ki, hər nemətə görə məsuliyyət var bu nemətə görə şadlanmarıq. Əgər xəbərdar olsaq ki, bütün nemətlərin qiyamətdə əvəzi çıxılır, əlimizdən çıxan nemətlər bizi qəmləndirməz.

Həzrət Əli (ə) buyurur: "Quranda zöhd iki sözlə bəyan olunur." Sonra həzrət hazırkı ayəni oxumuşdur.[4]

## Bildirişlər

1. Hadisələr məqsədlidir.
2. Nemətlər Allahdandır.
3. Hadisələrin səbəb və məqsədlərindən xəbərdarlıq insanı rahatlaşdırır.

---

[1] "Təfsiri-əl mizan"
[2] "Lühuf", s. 160
[3] "Nəhcül-bəlağə", xütbə 5
[4] "Nəhcül-bəlağə", hikmət 439

4. Allah-taala lövhi-məhfuzda hadisələrin qeydə alındığını bildirir ki, bəndələr nə qəmlənsin, nə də qürrələnsin.

5. Təbii qəm-qüssə və şadlıq pis deyil. Sadəcə əldən çıxanlara görə qəmlənmək və ələ gələnlərə görə şadlanmaq məzəmmət edilir.

6. Allahın müqəddəratından xəbərsiz insan güman edir ki, Allah ona hansısa fəzilətlərinə görə nemət əta edir. Buna görə də özünü başqalarından üstün sayıb lovğalanır.

7. İç təxəyyüllər insanın zahirdə qürrələnməsi üçün müqəddimədir.

*Ayə 24:*

**﴿الَّذِينَ يَبْخَلُونَ وَيَأْمُرُونَ النَّاسَ بِالْبُخْلِ وَمَن يَتَوَلَّ فَإِنَّ اللَّهَ هُوَ الْغَنِيُّ الْحَمِيدُ﴾**

**“Xəsislik edən və insanları xəsisliyə çağıranlar və (infaqdan və borcdan) üz çevirən hər kəs (özünə zərə vurur). Şübhəsiz Allah ehtiyacsız və tərifə layiqdir.”**

**Nöqtələr**

Xəsisliyin kökü insanın öz üstünlüyünü qorumasında və lovğalıqdadır. Çünki nemətlər başqalarının əlində olduqda insan nəyə görəsə lovğalana bilmir.

Həzrət Əli (ə) “nəhcül-bəlağənin” 183-cü xütbəsində buyurur: “Allahı, Allahı nəzərdə tutun. Ey bəndələr! Sağlamlıq nemətindən bəhrələndiyiniz bir vaxt xəstəlik sorağınıza gəlməmiş çalışın. Qurtuluş və asayişdə olduğunuz vaxt həyat sıxıntılarına düşməmiş çalışın. Çalışın ki, girovluq zəncirləri ilə bağlanmamış boyunlarınızı azad edəsiniz.

Gecələr ibadət üçün oyaq qalın, qarınlarınızı boş saxlayın. Xeyir işlərdə addım atın. Var-dövlətinizi ehtiyaclılara infaq edin. Maddi bədəndən götürüb ruhunuzu bəhrələndirin. Bədəninizə bağlılığınıza xatir nəfsinizin təkamülünün qarşısını almayın. Allah buyurur ki, Ona yardım etsəniz, O da sizə yardım edər, qədəmlərinizi sabitləşdirər. Buyurur ki, kimdir Allaha borc verə ki, Allah da onu qat-qat artırsın, ona böyük mükafat ayırsın. Allah zəiflik səbəbindən yardım istəməyib. Öz ehtiyacını ödəmək üçün borc tələb etməyib.

Sizdən yardım istədiyi vaxt göylərin və yerin qoşunları ixtiyarındadır. O yenilməz və hikmət sahibidir. Sizdən elə bir halda borc istəyib ki, göylərin və yerin xəzinələri Ona məxsusdur. O yeganə ehtiyacsız və həmd-sənaya layiqdir.

Şübhəsiz ki, Allah sizi sınaq istəyib. Belə ki əməlləri xeyir olan bilinsin. Yaxşı əməllərdə başqalarını qabaqlayın. Olsun ki, Allahın dərgahında Allaha yaxınlarla qonşu olasınız.”

***Rəvayətlərdə xəsislik mövzusu***

Həzrət Əli (ə) oğlu imam Həsəndən (ə) soruşdu: “Şuhh” nədir?” Həzrət buyurur: “Əlində olanı özünə şərafət sayasan, əlindən çıxanı tələf olmuş biləsən.”[1]

---

[1] “Bihar”, c. 73, s. 305

Rəvayətlərdə oxuyuruq: "Xəsis insanlarla məşfərət aparmayın";[1] "xəsisə baxmaq insanın qəlbini daşlaşdırır;"[2] "xəsislik Allaha bədgümanlıq göstəricisidir."[3]

İmam Sadiq (ə) bir gün təvaf vaxtı belə dua edirdi: "Pərvərdigara! Məni xəsislikdən qoru."[4]

Xəsislik təkcə mala aid deyil. İnsan ətrafındakılara ehtiram göstərərkən də xəsislik edə bilər. Hədisdə bildirilir ki, dində qıymayan xəsisdir.[5] Həzrət Peyğəmbər (s) buyurur: "Əsil xəsis o şəxsdir ki, mənim adım çəkiləndə salam göndərməyə."[6] Hədisdə deyilir: "Ən pis xəsis xüms və zəkat kimi dini ödəncləri qıymayan şəxsdir."[7]

### Bildirişlər

1. Xəsislik və xəsislik göstərişi təkəbbür və lovğalıq nişanələrindəndir.
2. Xəsis Allahdan uzaqdır.
3. Günah insanın xarakterinə çevrildikdə daha təhlükəli olur.
4. Xəsis bilir ki, başqaları əli açıq olsalar onun iç üzü açılır. Buna görə də başqlarını da xəsisliyə çağırır.
5. Xəsislik Allahın əmrlərindən çıxmaqdır.
6. Varlı olmaq bəs etmir, xalqın sevimlisi olmaq lazımdır. Bundan ötrü infaq etmək, gözəl borc vermək zəruridir. (Adətən xəsis insanlar varlı olur. Amma kimsə xəsisi sevmir. Bu səbəbdən də Quran Allahın varlı və tərifə layiq olduğunu bildirir)

### *Ayə 25:*

﴿لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ لِيَقُومَ النَّاسُ
بِالْقِسْطِ وَأَنزَلْنَا الْحَدِيدَ فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ وَلِيَعْلَمَ اللَّهُ مَن يَنصُرُهُ
وَرُسُلَهُ بِالْغَيْبِ إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ﴾

**"Həqiqətən, biz peyğəmbərlərimizi aşkar dəlillərlə göndərdik. Onlarla birlikdə (səmavi) kitab və ölçü vasitəsi endirdik ki, insanlar ədalətin bərpası üçün qalxsınlar. Böyük gücü olan və insanlara faydalı dəmiri endirdik. Allah aydınlaşdırır ki, kim Onu və peyğəmbərini görmədən yardım göstərər. Bəli, Allah qüvvət sahibi və yenilməzdir."**

### Nöqtələr

[1] "Nəhcül-bəlağə", məktub 53
[2] "Bihar", c. 78, s. 53
[3] "Ğurərul-hikəm"
[4] "Bihar", c. 70, s. 301
[5] "Bihar", c. 70, s. 305
[6] "Bihar", c. 73, s. 306
[7] "Ğurərul-hikəm"

”Əl bəyyinat” dedikdə aydın möcüzələr nəzərdə tutulur. Bu möcüzələr vasitəsi ilə insanlara xəbərdarlıq başa çatdırılır. “Əl kitab” dedikdə kitab şəklinə salınmış səmavi vəhy başa düşülür.

”Mizan” dedikdə ya ədalət göstəricisi olan, alış-verişdə istifadə edilən tərəzi, ya haqqı batildən seçmə meyarı olan şəriət qanunları, ya da yaxşını pisdən seçən insan ağlı nəzərdə tutulur.[1]

Dəmirin göndərilməsi “Zumər” surəsinin 6-cı ayəsində yada salınan heyvanların göndərilməsinə bənzəyir. “Hicr” surəsinin 21-ci ayəsində qeyd olunduğu kimi, bütün varlıqların ilkin qaynağı Allahın yanındadır, Allah-taala müəyyən hədlər təyin etdikdən sonra mövcudları bu aləmə endirir.[2]

Ayədə insanların Allahı və Onun rəsulunu görmədən yardım göstərməsi xüsusi vurğulanır. Aydın məsələdir ki, Allaha yardım dedikdə Onun dininə yardım nəzərdə tutulur. Bu din peyğəmbərlər tərəfindən insanlara çatdırılır.

Dəmirdən bəhrələnmək Quranda dəfələrlə qeyd olunmuş məsələdir. Zülqərneyn məhşur səddi çəkmək üçün xalqdan dəmir istədi. Həzrət Davudun əli ilə dəmirin əridilməsi Allahın xüsusi nemətlərindəndir.[3]

Bu ayədə də dəmirlə bağlı mənafedən danışılır. Qiyamətdə də günahkarlara əzab vasitələrinin bəziləri dəmirdəndir.[4]

Cəmiyyətin idarə olunması üçün üç şeyə ehtiyac var: qanun, mühakimə və icraçılıq.

**Bildirişlər**

1. Müdiriyyətdə iş tapşırdığımız şəxsə lazımı vasitələr verilməlidir.
2. Düzgün müdiriyyətdə göstəriş müdirdəndir, iş insanlardan.
3. Ədalət yalnız ilahi qanun və ilahi rəhbər vasitəsi ilə bərpa olur.
4. Peyğəmbərliyin fəlsəfəsi ədalətin bərpasıdır.
5. Allah tərəfindən xəbərdarlıq başa çatdırıldıqdan sonra göstərişlərin icrası xalqın öhdəsinədir.
6. İstənilən bir sahədə ədalət arzulanır.
7. Bütün peyğəmbərlər eyni bir məqsəd izləyir.
8. Hər hansı toplumun hökumət və təşkilatı olmalıdır ki, ədaləti bərpa edib azğınlığın qarşısını ala bilsin.
9. İlahi üsul-idarədə insanlar öz telehinə hakimdir.
10. Ədalətin təmini üçün hamının iştirakına ehtiyac var.
11. Öncə təlim-tərbiyə, sonra güc və tənbeh.
12. Ədalət qarşısındakı maneələrlə ciddi mübarizə aparılmalıdır.
13. Peyğəmbər dəvətinin qəbulu əslində Allaha yardımdır.
14. Dinin və Allah övliyalarının himayəsi riya və özünü nümayişdən uzaq olduqda dəyərlidir.
15. Güman etməyək ki Allah bizim yardımlarımıza ehtiyaclıdır.

---

[1] “Təfsiri-əl-mizan”
[2] “Təfsiri-əl mizan”
[3] “Səba”, 10
[4] “Həcc”, 22

*Ayə 26:*

﴿وَلَقَدْ أَرْسَلْنَا نُوحًا وَإِبْرَاهِيمَ وَجَعَلْنَا فِي ذُرِّيَّتِهِمَا النُّبُوَّةَ وَالْكِتَابَ فَمِنْهُم مُّهْتَدٍ
وَكَثِيرٌ مِّنْهُمْ فَاسِقُونَ﴾

**“Həqiqətən, Nuh və İbrahimi göndərdik, onların nəslində peyğəmbərlik və kitab qərar verdik. Onlardan bəziləri hidayət oldular. Amma onların çoxu fasiqlərdir.”**

**Nöqtələr**

Ötən ayədə peyğəmbərlıərin göndərilməsindən ümumi şəkildə danışıldı. Bu ayədə isə iki nümunə göstərilir.

Allah imaməti İslam peyğəmbərinin (ə) nəslindən qərar verdi. Bu o demək deyil ki, peyğəmbərlik və imamlıq nizamı padşahlıq kimi atadan oğula ötürülür. İmamların İslam peyğəmbərinin (s) nəslindən qərar verilməsinin səbəbi onların batini paklığı, güc və istedadı olmuşdur. Həzrət İbrahim öz övladları üçün imamət məqamı istədiyi vaxt ona buyuruldu ki, imamət məsuliyyəti sənin nəslindən olan ləyaqətsiz insanlara çatmaz.[1] Demək, peyğəmbər və imam seçimi üçün əsas meyar varislik yox, ləyaqətdir.

**Bildirişlər**

1. Böyük insanları yada salarkən ardıcıllığa diqqət yetirin.
2. Peyğəmbərlik məqamı xalqın seçiminə yox, ilahi təyinata əsaslanır.
3. Tarix boyu peyğəmbəri qəbul edənlər də, qəbul etməyənlər də olmuşdur.
4. Etiqadi və əxlaqi məsələlərdə çoxluq haqlı olmaq nişanəsi deyil.
5. Pak insanların nəslindən olmaq paklıq göstəricisi deyil.

*Ayə 27:*

﴿ثُمَّ قَفَّيْنَا عَلَى ءَاثَارِهِم بِرُسُلِنَا وَقَفَّيْنَا بِعِيسَى ابْنِ مَرْيَمَ وَآتَيْنَاهُ الْإِنجِيلَ
وَجَعَلْنَا فِي قُلُوبِ الَّذِينَ اتَّبَعُوهُ رَأْفَةً وَرَحْمَةً وَرَهْبَانِيَّةً ابْتَدَعُوهَا مَا كَتَبْنَاهَا عَلَيْهِمْ
إِلَّا ابْتِغَآءَ رِضْوَانِ اللَّهِ فَمَا رَعَوْهَا حَقَّ رِعَايَتِهَا فَآتَيْنَا الَّذِينَ ءَامَنُواْ مِنْهُمْ أَجْرَهُمْ
وَكَثِيرٌ مِّنْهُمْ فَاسِقُونَ﴾

**“Onlardan sonra ardıcıl olaraq öz peyğəmbərlərimizi göndərdik. Məryəm oğlu İsanı göndərdik, ona İncil verdik. Ona tabe olanların qəlbində rüfət və rəhmət qərar verdik. Amma özlərindən çıxardıqları tərki dünyalığı biz qərar verməmişdik. Yalnız Allahın razılığı üçün olardı. Amma onun haqqını lazımınca gözləmədilər. Onlardan iman gətirənlərə mükafat verdik. Amma onların çoxu fasiqlərdir.”**

**Nöqtələr**

[1] “Bəqərə”, 124

”Röhbaniyyət” sözü qorxu mənası bildirən “rəhbət” sözündəndir. Allah qorxusu səbəbindən xalqdan uzaqlaşan ibadət edənlər “röhban” adlanır.

Allah röhbaniyyəti həzrət İsanın ardıcıllarına vacib etməsə də, özləri Allahın arazılığı üçün bu işi vacib saymışdılar. Amma yenə də onun hədlərini gözləyə bilməmişdilər. Məsələn, müstəhəb namaz və orucu nəzir vasitəsi ilə özünə vacib etmiş adam onu başa çatdırmalıdır.

Ayə belə mənalandırıla bilər ki, həzrət Məsihin ardıcılları röhbaniyyət yolunu özbaşına seçmişdilər. Amma əgər onun hədlərini gözləsəydilər bizim razılığımızı qazanardılar. Necə ki, kəhf səhabələri öz dinlərini qorumaq üçün xalqdan uzaqlaşıb mağaraya çəkildilər.

”Bidət” dedikdə uenilikçilik nəzərdə tutulur. Elm və sənətdə yenilikçilik bəyənilmiş işdir. Amma dini işlərdə ilahi qanunların əsasına toxunmaq olmaz. Dini əsaslara toxunmaq bidət sayılır və heç vəchlə qəbul olunmur.

Allah kamil iş istəyir. Bu səbəbdən də yarımçıq iş görənlər məzəmmət olunur. Digər məqamlarda möminlərdən təqva və cihad şərtlərinə riyat olunması tələb edilir.[1]

### *İslam və röhbaniyyət*

Qurani-kərim müxtəlif ayələrdə röhbaniyyət və tərki dünyalığı rədd edir.[2]

Tarixi mənbələrdə bildirilir ki, müsəlmanlardan bir qrupu öz həyat yoldaşları ilə yaxınlıq etməyəcəklərinə and içdilər. Onlar daim oruc tutur, gecələr ibadətə məşğul olurdular. Peyğəmbər bu qəbil insanları məscidə toplayıb buyurdu: “Mən ailəmlə yaxınlıq edirəm, gecələr yatıram. Hər kəs mənim sünnəmi qəbul etməsə, məndən deyil.”[3]

Osman ibn Məzunun oğlu dünyasını dəyişdi. Osman evdən bayıra çıxmadı. Peyğəmbər (s) onu çağırıb buyurdu: “Allah bizə röhbaniyyət icazəsi vermir. Mənim ümmətimin röhbaniyyəti Allah yolunda cihaddır.[4]

Həzrət Əli (ə) Əla ibn Ziyadı yoxlamaq üçün onun evinə getdi. Əlanın geniş mənzili vardı. Həzrət ona buyurdu: “Sənin belə bir mənzilə axirətdə daha çox ehtiyacın var. Bu evdə böyük xeyirxahlıqlara və qonaqlıqlara ehtiyac var. Bu yolla axirəti qazana bilərsən.” Əla dedi: “Amma mənim qardaşım Asim tərkidünyalıq yolunu seçib.” Həzrət Əli (ə) Asimi çağırıb buyurdu: “Ey özünə düşmən, şeytan səni aldadıb. Nə üçün ailə-övladına rəhm etmirsən? Məgər görmürsənmi ki, Allah-taala pak nemətləri sənə halal edib və onlara arxa çevirməyini bəyənmir?” Asim dedi: “Bəs nə üçün sizin yemək və libaslarınız belə sadədir?” Həzrət buyurdu: “Mən sizdən fərqlənirəm. Allah hakimlərdən cəmiyyətdəki yoxsullar səviyəsində yaşamalarını istəyir.”[5]

---

[1] “Ali-İmran”, 102; “Həcc”, 78
[2] “Təhrim”, 1; “Əraf”, 32; “Maidə”, 87
[3] “Bihar”, c. 67, s. 117
[4] “Bihar”, c. 67, s. 115
[5] “Bihar”, c. 67, s. 118

Sufilərdən bir qrupu imam Rizaya (ə) dedilər: “Sizin libaslarınız qəşəngdir. Amma imam sadə geyinməli, onun süfrə və miniyi sadə olmalıdır.” Həzrət buyurdu: “Yusif Allahın peyğəmbəri idi. Hansı ki, qəşəng geyinir və taxta söykənirdi. İmamdan tələb olunan ədalətdir. Sonra imam hazırkı ayəni oxudu.[1]

Həzrət Peyğəmbər (s) bəzən səliqəsini gözləməyən zövcələrinə deyərdi: “Nə üçün saçların dağınıq və özün səliqəsizsən?”[2]

“İncil” sözü Allah tərəfindən tək formada işlədilmişdir. Deməк, həzrət İsaya bir İncil nazil olmuşdur. Bəs bu günki çoxsaylı incillər nədir?!

Həzrət İsanın ardıcıllarının nişanəsi rüfət və mərhəmətdir. İslam Peyğəmbərinin (s) ardıcıllarının nişanəsi isə haqq yolda olanlara rəhmət, inkarçılarla sərtlikdir.[3]

Quranda “rəuf” və “rəhim” sözləri on dəfə yanaşı işlədilmişdir. ”Rəuf” dedikdə çətinliklərin aradan qaldırılmasına canı yananlıq, “rəhim” dedikdə çətinliklər aradan qalxdıqdan sonra məhəbbət mənası nəzərdə tutulur. Rüfət şərdən uzaqlıq, rəhmət xeyir əldə olunmasıdır.

**Bildirişlər**

1. Tarix boyu peyğəmbərlər olmuş və peyğəmbərlik cərəyanı davam etmişdir.
2. Xüsusi məqama malik insanlar haqqında xoş sözlər deyilməlidir. Həzrət Nuh, İbrahim, İsanın adının xüsusi qeyd olunması ehtiram nişanəsidir.
3. Hər bir din və məktəb ardıcıllarının yaxşılarının xüsusiyyətləri yada salınmalıdır.
4. Peyğəmbərlərə ardıcıllıq qəlbin səfası, rüfət və mərhəmət üçün zəmindir.
5. Səmimiyyətə mane olan səbəblər aradan qaldırılmalı, məhəbbət amilləri yaradılmalıdır.
6. Dində yenilikçilik və bidət Allah tərəfindən məqbul sayılmır.
7. Bidət səmavi dinlərin bəlalarındandır.
8. Bir çox səmimi təlaşlar ilahi şəriət yolunda olmadığından xürafat və bidətlə sonuclanmışdır.
9. Küfr və fisq bir-birinə yaxındır. (İmanın əksi kimi küfr yox, fisqdən danışılır)

***Ayə 28:***

﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ اتَّقُوا اللَّهَ وَءَامِنُوا بِرَسُولِهِ يُؤْتِكُمْ كِفْلَيْنِ مِن رَّحْمَتِهِ
وَيَجْعَل لَّكُمْ نُورًا تَمْشُونَ بِهِ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**“Ey iman gətirənlər Allahdan qorxun, Onun peyğəmbərinə iman gətirin ki, öz rəhmətindən sizə iki bəhrə versin. Sizin üçün (dünyadan axirətə) yolu seçmək vasitəsi olan nur qərar versin, günahlarınızı bağışlasın. Allah çox bağışlayan və mehribandır.”**

[1] “Bihar”, c. 67, s. 121
[2] “Bihar”, c. 67, s. 122
[3] “Fəth”, 29

## Nöqtələr

Bu ayədə ötən ayədə haqqında danışılan məsihilərə müraciət olunması mümkündür. Onlar tərki dünyalıq haqqını ödəyib, həzrət İsadan sonra İslam peyğəmbərinə iman gətirməlidirlər ki, həm Məsihə iman savabı, həm də həzrət Məhəmmədə iman mükafatı alsınlar. İslam peyğəmbərindən (s) nəql olunmuş hədisdə oxuyuruq: “Mənə iman gətirmiş məsihilər röhbaniyyət haqqını ödəmişlər.”[1]

Əlbəttə ki bu ayə müstəqil də mənalandırıla bilər. Nəzərdə tutular ki, müsəlmanlar Allaha və Peyğəmbərə (s) olan imanlarını dərinləşdirsinlər.

”Kifləyni min rəhmətihi” dedikdə batini bir nur və ilahi bir mərhəmət nəzərdə tutula bilər.

## Bildirişlər

1. Təqva və pəhriz Allaha iman şərtidir.
2. Öz imanımızı daim dərinləşdirməliyik.
3. İman və təqvadan hər biri mərhəmət payıdır.
4. Təqvalı mömin heç vaxt çıxılmaz vəziyyətə düşmür.
5. Mömin günahsız olmur. Təqvalı şəxs isə təqva sipəri ilə meydana daxil olur. Bu səbəbdən Allah onun xətalarını bağışlayır.
6. İlahi mükafatlandırılmada yaş, irq, qəbilə, iddialar meyar deyil. Bu yönümdə meyar iman və təqvadır.

*Ayə 29:*

**﴿لِئَلَّا يَعْلَمَ أَهْلُ الْكِتَابِ أَلَّا يَقْدِرُونَ عَلَى شَيْءٍ مِّن فَضْلِ اللَّهِ وَأَنَّ الْفَضْلَ بِيَدِ اللَّهِ يُؤْتِيهِ مَن يَشَاءُ وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ﴾**

**“Belə ki, kitab əhli müsəlmanların ilahi fəzlə yolu olmadığını düşünməsin. Bilsinlər ki, fəzl Allahın əlindədir. O istədiyinə əta edir. Allah böyük fəzl sahibidir.”**

## Nöqtələr

Bu surə Allaha təsbihlə başlayır, Onun fəzlinin bəyanı ilə başa çatır.

”Qəsəs” surəsinin 51-ci ayəsində Allah-taala İslama iman gətirmiş kitab əhlinə iki qat artıq mükafat vəd edir. Bu ayədə isə müsəlmanlara buyurulur ki, əgər təqva və iman əhli olsanız mükafatınız iki qat olacaq. Beləliklə, kitab əhli güman etməsin ki, müsəlmanlar ilahi lütfdən faydalanmaq imkanında deyillər və xüsusi lütf yalnız onlara aiddir.

”Fəzlil-əzim” ifadəsi işlənmiş ayələrə diqqət yetirdikdə məlum olur ki, böyük fəzl dedikdə hidayət, behişt, bağışlanma, peyğəmbərlik, Allahın razılığını düşünmək, bəsirətli olmaq olmaq nəzərdə tutulur. Maddi nemətlər haqqında uyğun təbirlər işlədilmir.

---

[1] “Təfsiri-məcməül-bəyan”

### Bildirişlər

1. Xürafatların və azğınlıqların qarşısını qətiyyətlə alın.
2. Allahın fəzli bizim təsəvvürlərimizə yox, onun iradəsinə bağlıdır.
3. Hikmət sahibi olan Allah öz fəzlini əta etmək üçün xüsusi fərdlər seçir.

# “MÜCADƏLƏ” SURƏSİ

***(58-Cİ SURƏ; 22 AYƏ)***

***İYİRMİ SƏKKİZİNCİ CÜZ***

***“MÜCADƏLƏ” SURƏSİNİN SİMASI***

Mədinədə nazil olmuş bu surə 22 ayədən ibarətdir.

Surənin ilk ayəsindəki mübahisə məsələsi ilə əlaqədar surə “Mücadələ” (“cidal, höcət, inadkar mübahisə”) adlandırılmışdır.

Surədəki mövzularla tanış olaq:

1. Cahiliyyət dövründə talaq (boşanma) növü olan zihar qanunu.
2. Pıçıldaşmanın müsbət və mənfi tərəfləri.
3. Məclisə daxil olanlara ehtiram.
4. Allah firqəsinin (hizbullahın) şeytan firqəsindən fərqləndirilməsi.

***İYİRMİ SƏKKİZİNCİ CÜZ***

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿قَدْ سَمِعَ اللَّهُ قَوْلَ الَّتِي تُجَادِلُكَ فِي زَوْجِهَا وَتَشْتَكِي إِلَى اللَّهِ وَاللَّهُ يَسْمَعُ تَحَاوُرَكُمَا إِنَّ اللَّهَ سَمِيعٌ بَصِيرٌ﴾**

**“Həqiqətən, Allah əri ilə bağlı səninlə cidal edən, Allaha şikayətlənənən qadının danışığını eşitdi. Allah sizin ikinizin söhbətini eşidir. Həqiqətən, Allah eşidən və görəndir.”**

### Nöqtələr

Cahiliyyət dövründə spesfik bir talaq növü vardı. Həmin talaqdan sonra kişi öz zövcəsi ilə yenidən həyat qura bilməzdi. Qadının isə ümumiyyətlə yenidən ərə getmək hüququ olmurdu. Bu növ talaq zihar adlanırdı.

İslam peyğəmbərinin (s) dövründə bir şəxs öz zövcəsini bu sayağı boşayaraq dedi: “Sən mənim üçün anam kimisən.” Həmin qadın İslam peyğəmbərinin (s) yanına gəlib əhvalatı danışdı. Həzrət buyurdu: “Allah tərəfindən bu məsələ ilə bir

qanun nazil olmayıb.” Qadın narahat olub dedi: “Mən öz bədbəxtliyimdən Allaha şikayətlənirəm. Gəncliyim və sağlamlığım əlimdən çıxıb. Əgər övladlarımı ərimə təhvil versəm, onlar məhv olub gedər. Onları özümlə saxlasam aclıq çəkərlər.”

Çox keçmədi ki, bu surənin ayələri nazil oldu. Göstəriş verildi ki, bu qəbil addım atanlar kəffarə ödəməlidir və talaq da baş tutmamışdır. Amma həmin kişinin nə qul alıb azad etmək, nə altımış fəqiri doyurmaq, nə də iki ay oruc tutmaq imkanı vardı. İslam peyğəmbəri (s) ona bir miqdar kömək etdi və həmin şəxs altımış yoxsula qəza verib, kəffarəni ödədi. Sonra ailəsinin yanına qayıtdı.[1]

Allah-taala bu bir ayədə üç dəfə hər şeyi eşitdiyini vurğulayır. Belə ki, insanlar Allahla ünsiyyətə çağırılır.

## Bildirişlər

1. Danışdığımız sözlərə diqqətli olaq, Allah dediklərimizi eşidir.
2. Allah bizim dualarımızı, ah-nalələrimizi dinləyir.
3. Həzrət Peyğəmbər (s) rəhbər olduğu halda hamı onunla rahatca görüşüb, öz problemlərini açıqlaya bilirdi.
4. İslamda münasibət açıqlamaq və əqidə azadlığı var. Bu azadlıq elə bir həddədir ki, bir qadın cəmiyyətin rəhbəri ilə mübahisə edir.
5. Çıxılmaz vəziyyətə düşdükdə Allah və Onun övliyalarına sığınaq.
6. Hadisələr, ehtiyaclar, ah-nalələr, çıxılmaz vəziyyətlər qanunlar tənzimlənməsi üçün zəmindir.
7. Hər şeyi eşitmək və görmək, xalqın problemlərindən agah olmaq qanun verən tərəf üçün şərtdir.

### *Ayə 2:*

﴿الَّذِينَ يُظَاهِرُونَ مِنكُم مِّن نِّسَائِهِم مَّا هُنَّ أُمَّهَاتِهِمْ إِنْ أُمَّهَاتُهُمْ إِلَّا اللَّائِي وَلَدْنَهُمْ وَإِنَّهُمْ لَيَقُولُونَ مُنكَرًا مِّنَ الْقَوْلِ وَزُورًا وَإِنَّ اللَّهَ لَعَفُوٌّ غَفُورٌ﴾

**“Sizlərdən öz zövcələrinə münasibətdə zihar edənlər (bilsinlər ki) onlar (zövcələr) onların anası deyillər. Onları dünyaya gətirən kəslər onların anasıdır. Onlar xoşagəlməz və batil sözlər danışırlar. Əlbəttə, Allah çox əfv edən və bağışlayandır.”**

## Nöqtələr

Ötən ayənin izahında qeyd olundu ki, cahiliyyət dövründə talaq növlərindən biri zihar idi. İnsanlar öz zövcələrini “səninlə yatmaq anamla yatmaq kimidir” deməklə onlardan ayrılırdılar. İslam bu növ talağı haram buyurdu, belə bir talağa əl atan kişi üçün kəffarə təyin edildi.

”Zur” dedikdə batil və yalan söz nəzərdə tutulur.

Bu ayədən öncə zihar edənlər Allah tərəfindən bağışlandı.

## Bildirişlər

---

[1] “Təfsiri-nümunə”

1. Peyğəmbərlərin risalətlərindən biri xürafat və yanlış ənənələrin aradan qaldırılmasıdır.

2. Cahiliyyət dövründə qadına münasibətdə zülümlərdən biri zihar qanunu idi. İslam bu qanunu ləğv etdi, zihar müqabilində ağır cərimə təyin olundu.

3. Xürafat, yanlış adət-ənənələrlə mübarizə məntiqi və dəlillər əsasında aparılmalıdır.

4. Bəzən haqlı bir nalə bəşəriyətə qurtuluş gətirən bir cərəyanla sonuclanır.

5. Qaba və güc dilində danışıq cahiliyyət dövrünün davamlı xüsusiyyətlərindən idi.

6. İstənilən bir problemin həlli üçün şəri, qanuni yol var. Ərlə arvadın bir-birindən ayrılması üçün talaq qanunu var. Bu qanun hər iki tərəf üçün hüquqlar və vəzifələr nəzərdə tutur. Zihar və istənilən qeyri-qanuni yolla ayrılıq isə batildir.

7. Allah günahları həm bağışlayır, həm də onlara göz yumur.

8. Günah böyüksə, Allahın əfvi də böyükdür.

***Ayə 3:***

﴿وَالَّذِينَ يُظَاهِرُونَ مِن نِّسَائِهِمْ ثُمَّ يَعُودُونَ لِمَا قَالُوا فَتَحْرِيرُ رَقَبَةٍ مِّن قَبْلِ أَن يَتَمَاسَّا ذَٰلِكُمْ تُوعَظُونَ بِهِ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ﴾

**“Zövcələrinə münasibətdə zihara əl atan, sonra sözlərindən dönənlərin kəffarəsi yaxınlıq etməzdən öncə bir qul azad etməkdir. Bu, ibrət götürməyiniz üçündür. Allah əməllərinizdən tam xəbərdardır.”**

### Nöqtələr

Quran bilmədən baş vermiş qətl hadisəsi, yalan and, zihar müqabilində kəffarə olaraq qul azad edilməsini nəzərdə tutur.

### Moizə

Moizə dedikdə xatırlatma, xəbərdarlıq nəzərdə tutulur. Moizə qarşı tərəfin qəlbini yumşaltmaq, onda qəbul üçün zəmin yaratmaq üçün bir nemətdir. Moizənin İslamda xüsusi yeri var: Allah moizə edir;[1] Peyğəmbərə (s) moizə etmək əmr olunur;[2] Quran moizə edir;[3]

Moizənin növləri var:

a) Danışıqla moizə; Loğmanın öz oğluna moizəsi buna misal ola bilər.[4]

b) Əməl və rəftarla moizə; rəvayətlərdə tapşırılır ki, təkcə dilinizlə yox, həm də əməlinizlə xalqı yaxşılığa dəvət edin.[5]

---

[1] “Nisa”, 58
[2] “Nisa”, 63
[3] “Ali-İmran”, 138
[4] “Loğman”, 13
[5] “Bihar”, c. 67, s. 309

v) Tənbeh və cəza yolu ilə moizə; ayədə qeyd olunduğu kimi qul azad edilməsi bir növ moizədir.

Ailə məsələlərində Quran moizəyə xüsusi yer ayırır:

a) Kişilərə moizə etmək tapşırılır.[1]

b) Talaq haqqında deyilir ki, iddə müddəti başa çatdıqdan sonra istər ayrılıq, istər birgə yaşayış ədalətlə gerçəkləşməlidir.[2]

v) Ziharla bağlı kişilərə moizə olunur.

q) Valideyn övladla moizə dilində danışmalıdır.

### Bildirişlər

1. Cahiliyyət dövründə kişilər qadınlara zülm edirdilər.
2. İslamda çıxılmaz vəziyyət yoxdur. İstənilən bir şəxs doğru yola qayıda bilər.
3. Cərimə günahın qarşısını alır və büdrəməyə nəzarət yoludur.
4. Zövcəyə hər sözü demək olmaz. Bəzi sözlərin ağır kəffarəsi var. Danışdığınız sözlərə görə məsuliyyət daşıyırsınız.
5. Zövcəyə zülmün cəriməsi var.
6. İslam qulların azadlığa çıxması üçün istənilən bir fürsətdən istifadə edir.
7. İslamda qadın əziz tutulur, onu təhqir etməyin kəffarəsi var.
8. Ailə nizamının hifzi üçün İslamda cərimələr nəzərdə tutulur.
9. İnsanların pis işdən uzaqlaşmasında bəzən söz təsirsiz olur və cəriməyə ehtiyac duyulur.
10. İslamda cərimə intiqam almaq yox, tərbiyə üçündür.
11. Cərimələrin ödənməsində hiyləyə yol verilməməlidir, Allah hər şeyi görür.

### *Ayə 4:*

﴿فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ شَهْرَيْنِ مُتَتَابِعَيْنِ مِن قَبْلِ أَن يَتَمَاسَّا فَمَن لَّمْ يَسْتَطِعْ فَإِطْعَامُ سِتِّينَ مِسْكِينًا ذَلِكَ لِتُؤْمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَتِلْكَ حُدُودُ اللَّهِ وَلِلْكَافِرِينَ عَذَابٌ أَلِيمٌ﴾

**“Əgər bir kəs (azad etmək üçün qul) tapmasa, zövcəsi ilə yaxınlıqdan öncə iki ay ardıcıl oruc tutsun. Bunu bacarmayan altımış miskini doyursun. Bunun səbəbi Allaha və Onun rəsuluna iman gətirməyinizdir. Bu ilahi qanundur. Kafirlər üçün ağrılı əzab var.”**

### Nöqtələr

Quranda on dəfədən artıq “hüdud” sözü işlədilmişdir. Bu sözlərin əksəri ailə haqları ilə bağlı istifadə olunur.

[1] “Nisa”, 34;
[2] “Təlaq”, 3

Azad etmək üçün qul tapmayan kəs iki ay ardıcıl oruc tutmalıdır. Rəvayətlərə əsasən həmin orucun 31 gününü ardıcıl tutan şəxs qalan hissəsini ara verə-verə tuta bilər. Bu hökm Əhli-beyt (ə) tərəfindən yüngülləşdirici tədbirdir.[1]

”Qəbli ən yətəmassa” ifadəsi bu ayədə iki dəfə təkrarlanır. Bu təkrarda məqsəd cərimə verməmiş zövcə ilə yaxınlığın qadağan olduğuna önəm verməkdir.[2]

**Bildirişlər**

1. Cərimə çeşidli olmalıdır.
2. Cahanşümul dinin qanunları bütün dövürlərə tətbiq oluna bilməlidir ki, insanlar çıxılmaz vəziyyətə düşməsin. Bəzən qul azad etmək, bəzən oruc tutmaq mümkünsüz ola bilər.
3. İslamda nəzərdə tutulmuş cərimələrin cəmiyyət üçün bir sıra faydaları var: qullar azad olunur; oruc tutmaqla insanlar özlərində səbir və müqavimət səciyyəsi tərbiyə edir; təam verildikdə aclar doyurulur.
4. Cərimənin dərəcələri olmalıdır. Zaman və məkan şəraiti, insanların gücü nəzərə alınmalıdır.
5. İlahi hökmlər yüngülləşdirilə bilər, dondurula bilməz.
6. İlahi cərimələr tətbiq olunarkən malınızdan və imkanlarınızdan əskiltsə də, imanınız güclənir.
7. Cərimələrin fəlsəfəsini, cəzaların illətini aydınlaşdırın ki, insanlar bunları qəlbən qəbul etsin.
8. İlahi hədlərə əməl olunmaması, bu hədlərə etinasızlıq küfrdür.

***Ayə 5:***

**﴿إِنَّ الَّذِينَ يُحَادُّونَ اللَّهَ وَرَسُولَهُ كُبِتُوا كَمَا كُبِتَ الَّذِينَ مِن قَبْلِهِمْ وَقَدْ أَنزَلْنَا**
**آيَاتٍ بَيِّنَاتٍ وَلِلْكَافِرِينَ عَذَابٌ مُّهِينٌ﴾**

**“Həqiqətən, Allah və Onun rəsulu ilə düşmənçilik edənlər öncəkilər rüsvay olduğu kimi rüsvay olmuşlar. Həqiqətən, biz aydın nişanələr göndərdik. Kafirlələr üçün zəliledici əzab var.**

**Nöqtələr**

”Yuhaddunəllahə” dedikdə maneələr yaradılması, ilahi hədlərə müxalifət nəzərdə tutulur. Bu müxalifət ya dəmir və zorla, ya da inadkarlıq və pozuculuqla həyata keçə bilər.

”Kəbt” sözündən olan “kubitu” sözü əzmək, əldən salmaq mənasını bildirir.

Bu surədə də “innəlləzinə yuhaddunəllahə və rəsuləhu” cümləsi iki dəfə təkrarlanmışdır. Hər iki ayədə ilahi hədlərin pozulması müqabilində cəza olaraq alçalma və zillət nəzərdə tutulur.

---

[1] “Təfsiri-nurus-səqəleyn”; “Təfsiri-nümunə”

[2] “Təfsiri-əl mizan”

## Bildirişlər

1. Cəhalət qanunlarına bağlılıq və ilahi hədlərə etinasızlıq Allah və onun rəsulu ilə müharibədir.

2. Haq və batil savaşında məğlubiyyət və rüsvayçılıq yalnız batil üçündür.

3. Allah-taala özünə münasibətdə iman və ya savaşa ciddi yanaşdığı kimi Peyğəmbərinə (s) münasibətdə iman və savaşa da xüsusi əhəmiyyət verir.

4. İlahi hökmlərin icrasında bəhanə axtarmayın, bunun axırı pisdir.

5. Müxaliflərə xəbərdarlıq edin.

6. Əgər batil əhlinin rüsvayçılığına şübhəniz varsa, tarixə müraciət edin.

7. Tarixin öz qanunları, sünnələri var.

8. Haqqın həmişə düşməni olub.

9. Yalnız xəbərdarlıq başa çatdırıldıqdan sonra ilahi əzab nazil olur.

10. Allahın nişanələri haəm aydın, həm də çoxsaylıdır.

11. Peyğəmbərlərə münasibətdə düşmənçilik onlara qarşı təhqir sayılır. Bu səbəbdən də uyğun münasibətin cəzası alçaltma və zəlalətdir.

12. Haqq qarşısında bəhanəşillik və düşmənçilik ya küfrdür, ya da küfrlə sonuclanır.

### *Ayə 6:*

﴿يَوْمَ يَبْعَثُهُمُ اللَّهُ جَمِيعًا فَيُنَبِّئُهُم بِمَا عَمِلُوا أَحْصَاهُ اللَّهُ وَنَسُوهُ وَاللَّهُ عَلَى كُلِّ
شَيْءٍ شَهِيدٌ﴾

**“Bir gün Allah onları hamılıqla ayağa qaldırar ki, gördükləri işlərdən xəbərdar etsin. Allah onları başdan-ayağa hesablamışdır, onlar özləri isə unutmuşlar. Allah hər şeyə şahiddir.”**

## Nöqtələr

Bu ayədə bütün insanların qiyamət günü ayağa qaldırılacağına işarə olunur. Başqa ayələrdə də uyğun mövzu açıqlanmışdır.[1]

Allahın hesabı ilə oxuyuruq: “Bu necə kitabdır ki, bizim kiçik və böyük əməllərimiz qeydə alınıb, hamısı hesablanıb!”[2]

Allahın şəhadəti ilə yanaşı başqalarının da şəhadəti mövcuddur.[3]

”Şəhid” sözü Quranda bəzən aydın, bəzən isə şahid mənalarında işlədilir. Bu ayədə ikinci məna nəzərdə tutulur.

## Bildirişlər

1. Allahın qəhr-qəzəbi həm dünyada, həm də axirətdə özünü göstərir.

2. Məad ilahi qüdrət və elmin zühur səhnəsidir.

3. Qiyamət məhkəməsi açıq və ümumidir.

[1] “Kəhf”, 47
[2] “Kəhf”, 49
[3] “Ğafir”, 51

4. Günahkara onun xətalarını anladaq.

5. Düşmənçilik edənlər bilsinlər ki, onların bütün addımları qeydə alınır. Onlar özləri unutsalar da, heç nə yaddan çıxmır.

6. Öz kiçik büdrəmələrinizi nəzərdən qaçırmayın. Allah dəqiq hesab aparır.

7. Büdrəmələrin yaddan çıxması onları əməl naməsindən silmir.

8. Aləm Allahın hüzurundadır, Allahın hüzurunda günah etməyin.

***Ayə 7:***

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ يَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ مَا يَكُونُ مِن نَّجْوَى
ثَلَاثَةٍ إِلَّا هُوَ رَابِعُهُمْ وَلَا خَمْسَةٍ إِلَّا هُوَ سَادِسُهُمْ وَلَا أَدْنَى مِن ذَلِكَ وَلَا أَكْثَرَ إِلَّا هُوَ
مَعَهُمْ أَيْنَ مَا كَانُوا ثُمَّ يُنَبِّئُهُم بِمَا عَمِلُوا يَوْمَ الْقِيَامَةِ إِنَّ اللَّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“Allahın göylərdə və yerdə olanı bildiyini görmürsənmi?! Aralarında pıçıldaşan üç nəfərin dördüncüsü, beş nəfərin altıncısı Allahdır. Onlar az da, çox da olsalar, istənilən bir yerdə Allah onların arasındadır. Sonra qiyamət günü gördükləri işlər onlara xəbər veriləcək. Həqiqətən, Allah hər şeydən tam xəbərdardır.”**

## Nöqtələr

”Tər” sözü “röyət” sözündən olub, görmək mənasını bildirir. Bu söz bəzən anlamaq mənasında da işlədilir. Hazırda uyğun məna nəzərdə tutulur.

”Nəca” sözündən olan “nəcva” sözü təhlükədən qurtuluş mənasını ifadə edir. “Nəcvət” uca bir yerdi və yer üzünün digər hissələrindən ayrıdır. Başqalarının eşitməyəcəyi asta və ya dinləyicini təhlükədən uzaqlaşdıran söhbət nəcva adlanır. Nəcva dedikdə həm də günahkarların xəlvət bir yerdə yığıncağı nəzərdə tutulur. Onlar ahəstə, kimsənin eşitməyəcəyi tərzdə danışırlar. Onlara elə gəlir ki, söhbətlərindən kimsə xəbər tutmayacaq.

Quran Allahın sirlərdən və pıçıldaşmalardan xəbərdar olduğunu dəfələrlə qeyd edir.[1]

Bu və bundan öncəki ayədə on dəfə Allahın elminə işarə olundu. Ayənin əvvəlində də, sonunda da Allahın elmi yada salınır.

Ötən ayələrə nəzər saldıqda ilahi elmin xüsusiyyətləri məlum olur. Allah bütün xırdalıqlardan xəbərdardır. Allahın elmi dəqiqdir, qazanılma (“hüsuli” deyil, onun elmində unutqanlıq yoxdur, Allahın elmi sayəsində insanlar unutduqları əməllərini yada salır, Allah bütün varlıq aləmindən əvvəldən sonadək xəbərdardır, Allah bilsə də dünya həyatında kimsəni rüsvay etmir, ilahi elm mövsüni deyil, Allahdan göydən də, yerdən də tam xəbərdardır.

## Bildirişlər

1. Əgər insan baxarkən haqqı öyrənib anlamırsa bu baxış məzəmmət olunur.

---

[1] “Tövbə”, 78; “Zuxruf”, 80

2. Allah göylərdən də, yerdən də, böyükdən də, kiçikdən də, aşkardan da, gizlidən də eyni dərəcədə xəbərdardır.

3. İnsanların çoxluğu, Onların danışığının çeşidliliyi Allahın elminə təsir göstərmir. Allah onların bütün əməl və sözlərindən agahdır.

4. Allahın vücudu qeyri-məhdud olduğundan o həmişə bizimlədir.

5. Məkan və zaman ilahi elmə təsirsizdir.

6. Qiyamətdə xəbər verən kəs dediklərinə özü şahid olmuşdur.

*Ayə 8:*

﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ نُهُوا عَنِ النَّجْوَى ثُمَّ يَعُودُونَ لِمَا نُهُوا عَنْهُ وَيَتَنَاجَوْنَ بِالْإِثْمِ وَالْعُدْوَانِ وَمَعْصِيَتِ الرَّسُولِ وَإِذَا جَاؤُوكَ حَيَّوْكَ بِمَا لَمْ يُحَيِّكَ بِهِ اللَّهُ وَيَقُولُونَ فِي أَنفُسِهِمْ لَوْلَا يُعَذِّبُنَا اللَّهُ بِمَا نَقُولُ حَسْبُهُمْ جَهَنَّمُ يَصْلَوْنَهَا فَبِئْسَ الْمَصِيرُ﴾

**“Gizli danışıq qadağan ediləndən sonra yenə ona qayıdan, günah, sitəm və peyğəmbəri itaətsizlik üçün bir-birləri ilə pıçıldaşan kəsləri gördünmü?! Onlar sənin yanına gəldikləri vaxt Allahın səni salamladığı sözlərlə salamlamırlar. Öz aralarında deyirlər: “(Əgər bu şəxs peyğəmbərdirsə) Nə üçün Allah bizi dediyimiz sözlərə görə cəzalandırmır?” Daxil olacaqları cəhənnəm onlara bəsdir. Necə də pis sonluq və pis yerdir.”**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, Allah pıçıldaşanların yanındadır və onları eşidir. Bu ayədə isə məxfi söhbət nümunələrindən biri bəyan olunur. Bu söhbətdə müxaliflər peyğəmərə qarşı bir araya gəlmişlər.

”Yəsləvnəhə” sözü yandırmaq üçün bir yerə daxil etmək mənasını bildirir.[1]

**Bildirişlər**

1. Möminlər arasında pıçıldaşmaq qadağan olunmuş bir işdir.

2. Pis işdən çəkindirənlər ummasınlar ki, onların sözü ilə xalq pis işdən çəkinəsidir.

3. Günahın təkrarı, xəbərdarlıqlara etinasızlıq daha ağır günaha aparır.

4. İnsan addım-addım yolunu azır. (Öncə fərdi günahlar, sonra başqalarına təcavüz və ilahi rəhbərlə müxalifət)

5. Məsum peyğəmbərə itaət vacibdir. (Bu səbəbdən də peyğəmbərə istənilən bir şəkildə itaətsizlik tənqid olunur.)

6. Aşkar tariflərə aldanmayın. (Münafiqlər aşkarda həddindən artıq tərif edir, xəlvətdə Peyğəmbərin (s) buyuruqlarına qarşı çıxırdılar.)

7. Həddi aşan şirin dil və tərif nifaq göstəricisidir.

8. Hətta yaranmışların şərəflisini tərif edərkən hədd gözləyək.

---

[1] “Təfsiri-əl mizan”

9. Allah münafiqlərin nəinki məxvi söhbətlərini açıqlayır, hətta onların qəlbində olanı ifşa edir.

10. Allahın verdiyi möhlət onun razılığını göstərmir.

11. Nifaqın sonu cəhənnəmdir.

12. Pis danışıq insanı pis aqibətə düçar edir.

***Ayə 9:***

**﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِذَا تَنَاجَيْتُمْ فَلَا تَتَنَاجَوْا بِالْإِثْمِ وَالْعُدْوَانِ وَمَعْصِيَتِ الرَّسُولِ وَتَنَاجَوْا بِالْبِرِّ وَالتَّقْوَى وَاتَّقُوا اللَّهَ الَّذِي إِلَيْهِ تُحْشَرُونَ﴾**

**“Ey iman gətirənlər! Xəlvət danışanda günah, sitəm, peyğəmbərə itaətsizliyə yer verməyin. Yaxşı iş və təqva haqqında danışın. Allahdan qorxun ki, ona doğru məhşur olasısınız.”**

## Nöqtələr

Xəlvəti və pıçıltılı söhbətin fərqli hökmləri ola bilər: Əgər sirrin açılması İslamın və müsəlmanların ziddinədirsə belə bir xəlvəti söhbət vacibdir; əgər belə bir söhbət başqalarında qorxu və iztirab yaradacaqsa, haramdır; əgər başqalarına köməkdən və təqvadan danışılırsa, müstəhəbdir.

”Birr” dedikdə istənilən bir xeyir iş nəzərdə tutulur. Onun nümunələri “Bəqərə” surəsinin 177-ci ayəsində göstərilmişdir.

İnsan tədricən böyük günahlara yol verir. “İsim” (üç nöqtəli sa) dedikdə şərab içmək kimi fərdi günah nəzərdə tutulur. “Üdvan” sözü başqalarının hüquqlarına təcavüz mənasını bildirir. “Məsiyətur-rəsul” dedikdə ictimai göstərişlərə, ilahi rəhbərə qarşı müxalifət nəzərdə tutulur.[1]

Danışığın mövzusu və məzmunu onun dəyərini göstərir. Əgər söhbət mövzusu yaxşılıq və təqvadırsa, bu barədə pıçıltı ilə danışmaq dəyər sayılır. Əgər mövzu günah, sitəm və fitnəkarlıqdırsa, məxfiyanə danışıq haramdır. Əlbəttə ki, bəzən söhbətin mahiyyəti yaxşı olsa da, onun yeri olmur. Məsələn, möminlər arasında iki nəfərin pıçıldaşaraq danışması bu qəbildəndir.

## Bildirişlər

1. Mömin möhtərəmdir, hətta pisliyə qadağa qoyarkən onun hörmətini qoruyun.

2. Yaxşılğa çağırış, pisliyə qadağa, təlim-tərbiyədə haqq və batil, onların nümunələri müəyyənləşdirilməlidir.

3. Birdəfəlik aşkar və ya məxfi söhbət yolunu tutmaq olmaz. Bəzən pisliyə qadağa da məxfi şəkildə həyata keçir.

4. Məbada məzəmmət olunmuş məxfi söhbəti məsləhətli söhbət kimi qələmə verək.

5. Təqva, pəhrizkarlıq və məada diqqət insanın xoşagəlməz söhbətlərdən çəkinməsi üçün zəmindir.

---

[1] “Təfsiri-əl mizan”; “Təfsiri-nümunə”

*Ayə 10:*

﴿إِنَّمَا النَّجْوَى مِنَ الشَّيْطَانِ لِيَحْزُنَ الَّذِينَ ءَامَنُواْ وَلَيْسَ بِضَارِّهِمْ شَيْئًا إِلَّا
بِإِذْنِ اللَّهِ وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ﴾

**"Həqiqətən, pıçıldaşma iman gətirənləri qəmləndirəsi şeytan əməllərindəndir. Hansı ki, Allahın izni olmadan heç bir zərər yetirən (məxfi danışıq) yox. Möminlər yalnız Allaha təvəkkül etsinlər."**

### Bildirişlər

1. Həddi aşmaq, israfçılıq insanı şeytana qardaş etdiyi kimi[1] pıçıldaşma da insanı şeytan sifət edir.
2. Müsəlmanlar arasında qorxu və qəm-qüssə yaradan aşkar və gizli bütün söhbətlər şüytan işidir.
3. Allahın istəyi olmayanca kimsənin zərər yetirə bilməməsinə inam narahatçılıqları aradan qaldırır.
4. Möminlər Allah tərəfindən qorunur.
5. Münafiqlərin təlaşları ilahi qüdrətin fövqündə deyil.
6. Düşmənin psixoloji hücumlarının qarşısını alaq.
7. İstənilən bir narahatçılıq və qəm-qüssənin çarəsi Allaha təvəkkül etməkdir.
8. Allaha təvəkkül üçün iman lazımdır, bu hər adamın işi deyil. Allah möminləri himayə edir, amma möminlər də Allaha təvəkkül etməlidirlər.

*Ayə 11:*

﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِذَا قِيلَ لَكُمْ تَفَسَّحُوا فِي الْمَجَالِسِ فَافْسَحُوا يَفْسَحِ اللَّهُ
لَكُمْ وَإِذَا قِيلَ انشُزُوا فَانشُزُوا يَرْفَعِ اللَّهُ الَّذِينَ ءَامَنُواْ مِنكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ
دَرَجَاتٍ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ﴾

**"Ey iman gətirənlər, sizə deyilsə ki, məclisdə yer açın, yer açın ki, Allah da sizin üçün yer açsın. Əgər deyilsə ki, ayağa qalxın, ayağa qalxın. (Böyüklük haradasa oturmaqla deyil) Allah sizlərdən iman gətirib elm və bilik sahibi olanları yüksək dərəcəyə çatdırar. Allah gördüyünüz işlərdən tam xəbərdardır.**

### Nöqtələr

"Təfəssəhu" genişləndirmək, yer vermək mənasını bildirir. "Ənşuzu" dedikdə böyüklərə ehtiram üçün ayağa qalxmaq nəzərdə tutulur.

Ötən ayədə bildirildi ki, məxfi söhbət, pıçıldaşma başqalarında narahatlıq yaradır. Bu ayədə isə məclisə daxl olanlara yer vermək şadlıq və məhəbbət amili kimi tanıtdırılır.[2]

---

[1] "İsra", 27

[2] "Təfsiri Mərağİ"

Allah Quranda bir neçə qrupun xüsusi məqam və dərəcəyə malik olduğunu bildirir: peyğəmbərlər, mücahidlər, namazqılanlar, infaq əhli, saleh möminlər və alimlər.

Olsun ki, ayədə möminlər və alimlərə ehtiram göstərərək ayağa qalxmaq tapşırılır.[1]

### *Bir xatirə*

Mərhun Təbərsi "Ehticac" kitabında nəql edir ki, imam Hadinin (ə) dövründə şiə fəqihlərindən biri azğın bir nasibi ilə mübahisəyə qatılmış və öz baxışlarını sübuta yetirmişdi. Bu fəqih ələvi və haşimilərin iştirak etdiyi məclisə daxil olanda imam Hadi (ə) onu məclisin yuxarı başında əyləşdirdi. Bu ehtiram məclisdəkiləri narahat etdi. Bir şəxs bu münasibətin səbəbini soruşdu. İmam buyurdu: "Quranın hökmünə razısınızmı?" Onlar razılıqlarını bildirdilər. İmam hazırkı ayəni oxudu.

Bəli, mömin alim adi mömindən üstündür. Mömin qeyri-mömindən fərqləndiyi kimi, alim də başqalarından fərqlənir. Quranda bilənlə bilməyənin eyni olmadığı nəzərə çatdırılır.[2] İmam Hadi (ə) həmin fəqihə nasibiyə qalib gəldiyi mübahisəsinə görə hörmət göstərdi. Belə bir üstünlük bütün üstünlüklərdən şərəflidir.[3]

### Bildirişlər

1. İmanın şərtləri var və onlara əməl etmək zəruridir.
2. Məclisə yenicə daxil olanlara yer vermək yaxşı işdir.
3. İstənilən bir məclisdə başqalarına yer vermək zəruridir.
4. İlahi göstərişlərə əməl olunması daha artıq mükafat almaq üçün zəmindir.
5. Başqalarının işinə kömək Allahın sizin işlərinizə köməyi üçün zəmindir.
6. Hətta oturub-durmaqda ictimai qaydalara riayət etmək İslamın göstərişidir.
7. İlahi mükafatlar bizim əməllərimizə münasibdir. Başqalarına yol açmaq insanın özü üçün açılışdır.
8. Bəzən böyüklər və alimlər məclisə daxil olanda onlara hörmət olaraq başqalarına ayağa qalxmaq göstərişi vermək olar.
9. Elm Allahın hədiyyə və fəzlidir.
10. Elm və bilik sahibləri cəmiyyətdə üstün məqama malik olmalıdırlar.
11. Alimin əməlinin mükafatı böyükdür.[4]
12. Məclisə daxil olana ehtiram göstərib ayağa qalxarkən səmimi olmaq lazımdır.
13. Oturub-durarkən Allahı yaddan çıxarmayaq.

### *Ayə 12:*

---

[1] "Təfsiri-nümunə"
[2] "Zumər", 9
[3] "Təfsiri-fürqan"
[4] "Təfsiri-tibyan"

**﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِذَا نَاجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَةً ذَلِكَ خَيْرٌ لَّكُمْ وَأَطْهَرُ فَإِن لَّمْ تَجِدُوا فَإِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ﴾**

**"Ey iman gətirənlər! Əgər peyğəmbərlə xüsusi bir söhbətiniz olsa məxfi söhbətdən qabaq sədəqə verin. Bu sizin üçün daha üstün, daha eybsizdir. Əgər (sədəqə verməyə imkanınız) olmasa, həqiqətən, Allah bağışlayan və mehribandır. (Sədəqə vermədən də xüsusi söhbətə qatıla bilərsiniz)"**

**Nöqtələr**

Bir gün varlılardan bir dəsətəsi Peyğəmbərlə (s) xəlvəti söhbətləşirdi. Onlar bu işi özləri üçün bir növ iftixar sayırdılar. Amma Peyğəmbərin (s) onlarla pıçıldaşması yoxsulları narahat etdi. Əmr olundu ki, Peyğəmbərlə (s) xəlvəti söhbət üçün sədəqə verilsin. Bu yolla yoxsulların narahatlığı aradan qalxdı. Eləcə də əmr olundu ki, zəruri bir məsələ olmadıqda Peyğəmbərin (s) vaxtını almasınlar.

Həzrət Əli (ə) buyurur: "Məndən öncə və məndən sonra kimsənin əməl etmədiyi ayə sədəqə ayəsidir. Bir dinarım vardı, onu on dirhəmə dəyişib, on dəfə sədəqə verdim. Bundan sonra həzrət Peyğəmbərlə söhbətə başladım."[1]

**Bildirişlər**

1. İman insan üçün məsuliyyət yaradır.
2. Sədəqəni işə başlamamışdan vermək lazımdır.
3. Müəllim təhsil üçün haqq müəyyənləşdirə bilər. O bu haqqı özü də ala bilər, başqalarına da həvalə edə bilər.
4. İslamda sədəqə miqdarı təyin olunmur ki, insan özü bir qərar çıxarsın.
5. Yoxsulluğun aradan qaldırılması üçün bütün vasitələrdən istifadə olunmalıdır. Peyğəmbərlə (s) xüsusi görüş üçün sədəqə ödənməlidir.
6. Peyğəmbərlə görüşün, yoxsa pulun üstün tutulması insanın əqidəsini göstərir.
7. Sədəqənin fərd və cəmiyyət üçün bir çox faydaları var.
8. Dünyaya bağlılıq nöqsan, dünyadan azadlıq paklıqdır.
9. Sədəqə bir növ paklanmaqdır.[2]
10. Paklıq iki növdür: fiziki[3]və ruhi.
11. İslam hökmlərində çıxılmaz vəziyyət yoxdur.
12. Qanun verən kəs bütün insanları nəzərə almalıdır.
13. Yoxsullar sədəqə üçün pul tapmadıqlarına görə xəcalət çəkməsinlər. Onlar Allahın mərhəmətindən bəhrələnir.
14. İslamda yoxsulluq gizlənilir. Amma bu səmavi dində kimsə yoxsul olduğu üçün rədd edilmir, ləyaqətsiz sayılmır.

***Ayə 13:***

---

[1] "Təfsiri-kənzul-dəqaiq"; "Təfsiri-nümunə"; "Təfsiri-dürrül Mənsur"

[2] "Tövbə", 103

[3] "Maidə", 6

﴿أَأَشْفَقْتُمْ أَن تُقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَاتٍ فَإِذْ لَمْ تَفْعَلُوا وَتَابَ اللَّهُ عَلَيْكُمْ فَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ وَاللَّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ﴾

**“Xəlvəti söhbətdən öncə sədəqə verəcəyinizdən narahat oldunuz? Əgər sədəqə vermədinizsə, Allah da sizə lütf göstərdisə, namazı bərpa edin, zəkat ödəyin, Allah və Onun rəsuluna itaət edin. Allah gördüyünüz işlərdən agahdır.”**

### Nöqtələr

”İşfaq” bir şey əldən çıxarkən yaşanan narahatlıq, qəlbdəki qəm-qüssədir.[1]

Ayədən məlum olur ki, Peyğəmbərlə (s) xüsusi söhbətdən öncə sədəqə verilməsi bir sınaq idi. Bu yolla sadiq və aşiq möminlər başqalarından seçilirdi. Allah bu insanlar hökmə əməl etmədikləri üçün geri çəkilmədi. Bəli, bu bir sınaq idi.

Bu ayədə malına qıymamazlıqdan, Peyğəmbərlə (s) söhbətdən çəkinən bəzi səhabələr məzmmət olunur.

### Bildirişlər

1. Peyğəmbərlə (s) məhrəmanə söhbət vacib və ya müstəhəb bir iş deyildi. Sadəcə arada xəsislik məsələsi olduğundan qarşı tərəf məzəmmət edilir.
2. İnsanları bir dəfə sədəqə vermək qorxutmur. Onlar ardıcıl şəkildə sədəqə verməkdən çəkinirlər.
3. Peyğəmbərin ona müti olmayan səhabələri də vardı. (Onlardan bəziləri qəti hökmlərə də əməl etmirdilər)
4. Əgər müstəhəb əməlləri yerinə yetirmirsinizsə, heç olmaya, vacib vəzifələrə münasibətdə səhlənkarlıq göstərməyin. Allah-taala sədəqədən çəkinən insanlara “zəkat verin” buyurur.
5. İnsan məzəmmət olunarkən ona çıxış yolu göstərilməlidir.
6. İtaətsizlik göstərənlərdən ümidinizi üzməyin. Onlarla ədalətli rəftar edin. Allah bir əmrə itaət etməyənləri başqa bir əmrə itaətə çağırır.
7. Namaz və zəkatla əldən çıxardığınız xeyir işlərin əvəzini ödəyin.
8. Din Allahla fərdi rabitə deyil. Yoxsullara yardım, Peyğəmbər (s) hökmlərinə itaət də dini hökmlərdəndir.
9. Əməllərinizin necəliyinə diqqətli olun, Allah bütün əməllərdən agahdır.

### *Ayə 14:*

﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ تَوَلَّوْا قَوْمًا غَضِبَ اللَّهُ عَلَيْهِم مَّا هُم مِّنكُمْ وَلَا مِنْهُمْ وَيَحْلِفُونَ عَلَى الْكَذِبِ وَهُمْ يَعْلَمُونَ﴾

**“Allahın qəzəbinə düçar olmuş qrupla dostluq əlaqəsi quranları görmədinmi? Bunlar nə sizdəndir, nə də onlardan. Onlar yalandan and içirlər, özləri də bunu bilirlər.”**

---

[1] “Təfsiri-əl mizan”

*Ayə 15:*

**﴿أَعَدَّ اللَّهُ لَهُمْ عَذَابًا شَدِيدًا إِنَّهُمْ سَاء مَا كَانُوا يَعْمَلُونَ﴾**

**“Allah onlar üçün ağır əzab hazırlamışdır. Çünki gördükləri iş çox pisdir.”**

**Nöqtələr**

Quranda müxtəlif qrupların Allahın qəzəbinə gəldiyi bildirilir. Amma olsun ki, bu ayədə qəzəbə gəlmiş dedikdə yəhudilər nəzərdə tutula. Çünki uyğun təbir Quranda üç dəfə qəti şəkildə onlar haqqında işlədilmişdir.

Allahın qəzəbinə gələnlərlə dostluq rabitəsi quranlar münafiqlərdir.

**Bildirişlər**

1. Allahın qəzəbinə gələnlərin hakimiyyət və himayəsini qəbul etmək məzəmmət olunası işdir.
2. Aləmlərə rəhmət olan Peyğəmbərdən (s) üz çevirən insan, şübhəsiz ki, qəzəbə üz tutub.
3. İnsanın möminləri azğınlardan fərqləndirməsi zəruridir.
4. Yalan and münafiqlərin xasiyyətidir.
5. Münafiqlər ardıcıl şəkildə müqəddəsliklərdən istifadə edirlər.
6. Münafiqlər bilərəkdən qanunu pozurlar.
7. İlahi əzabın səbəbi insanların öz əməlləridir.

*Ayə 16:*

**﴿اتَّخَذُوا أَيْمَانَهُمْ جُنَّةً فَصَدُّوا عَن سَبِيلِ اللَّهِ فَلَهُمْ عَذَابٌ مُّهِينٌ﴾**

**“Andlarını özlərinə sipər etdilər, insanları Allahın yolundan çəkindirdilər. Onlar üçün zəliledici əzab var.”**

*Ayə 17:*

**﴿لَن تُغْنِيَ عَنْهُمْ أَمْوَالُهُمْ وَلَا أَوْلَادُهُم مِّنَ اللَّهِ شَيْئًا أُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾**

**“Onların malları və övladları heç vaxt Allahın onlara qəzəbindən bir şey əskiltməz. Onlar od əhlidirlər, oradan qalasıdırlar.”**

**Nöqtələr**

İnsanları haqq yoldan uzaqlaşdırmaq üçün cin və insandan olan şeytanların müxtəlif üsulları var. Məsələn, hazırkı ayədə haqqında danışılan yalan and, haqqa qarşı sərmayə yatırmaq,[1] yabançı mədəniyyətlərin təbliği və şayiə yayılması,[2]

[1] “Ənfal”, 36

[2] “Loğman”, 6

bidət və yeni dinlərin qondarılması,[1] pisliklərin gözəl, şeytan əməllərinin zinətli göstərilməsi.[2]

### Bildirişlər

1. Münafiqlər məzhəbdən məzhəbə qarşı istifadə edirlər.
2. Münafiqlərin əzabı ağırdır.
3. Qurandakı xəbərdarlıqlar çox ciddidir. Axirətdə mal və övlad faydasızdır.
4. Dünya ilə axirət arasında ciddi fərqlər var. Məsələn, var-dövlət və övladlar axirətdə təsirsizdir.
5. Xəbərdarlıq edərkən hədəfə aldığınız əməllərin səbəbini araşdırın. Bir çox fitnələrin kökü var-dövlət və övladlarla öyünməkdir.
6. Dünyada nifaq cəhənnəmdə əbədilik səbəbidir.

*Ayə 18:*

﴿يَوْمَ يَبْعَثُهُمُ اللَّهُ جَمِيعًا فَيَحْلِفُونَ لَهُ كَمَا يَحْلِفُونَ لَكُمْ وَيَحْسَبُونَ أَنَّهُمْ عَلَى شَيْءٍ أَلَا إِنَّهُمْ هُمُ الْكَاذِبُونَ﴾

**“Elə bir gün ki Allah onları hamılıqla ayağa qaldırar, sizə and içdikləri kimi Allaha da and içərlər. Güman edərlər ki, yerləri möhkəmdir. Bilin ki, onlar həmin yalançılardır.”**

### Nöqtələr

Qiyamətdə yalan and içiləcəyi Quranda dəfələrlə təkrarlanmış məsələdir. “Ənam” surəsində bildirilir ki, onlar and içərək müşriklərdən olmadıqlarını iddia edərlər.

And insanı tədricən inandırdığı üçün yalan andlara qarşı çıxmaq, insanları da yalnışlıqdan qorumaq lazımdır.

Yalançı ləğəbi münafiqlərin dünya və axirətdəki ünvanlarındandır. “Munafiqun” surəsində bildirilir ki, Allah münafiqlərin İslam peyğəmbəri (s) haqqındakı andını yalan saydı. Bu ayədə isə münafiqlər qiyamət səhnəsində yalançı kimi təqdim olunur.

### Bildirişlər

1. Əgər yalan insanın xasiyyətinə çevrilsə, o qiyamətdə də yalandan and içər.
2. Münafiqlər xülya dünyada qərq olmuşlar.
3. Münafiqlərin həyatı başdan-başa yalan və yanlışlıqdır.

*Ayə 19:*

---

[1] “Zumər”, 8
[2] “Nəml”, 24

﴿اسْتَحْوَذَ عَلَيْهِمُ الشَّيْطَانُ فَأَنسَاهُمْ ذِكْرَ اللَّهِ أُوْلَئِكَ حِزْبُ الشَّيْطَانِ أَلَا إِنَّ حِزْبَ الشَّيْطَانِ هُمُ الْخَاسِرُونَ﴾

**"Şeytan onlara hakim olmuşdur. Allah zikrini onlara unutdurur. Onlar şeytan firqəsidirlər. Bilin ki, şeytan firqəsi həmin ziyankarlardır."**

**Nöqtələr**

Həzrət Əli (ə) buyurur: "Əgər haqq və batil aşkar şəkildə bəyan olunsa, problem yaranmaz. Amma haqla batilin qatışıq şəkildə təqdimatı fitnəyə və şeytanın hakimliyini səbəb olur."[1] İmam Hüseyn (ə) Kərbəlada Yezid qoşununa müraciətlə şeytanın öz ardıcıllarına hakim olduğunu bildirdi.[2]

Şeytanın üsulu belədir, o insanı addım-addım özünə doğru çəkir,[3] bəzən uzaqdan daş atırmış kimi təlqin edir,[4] bəzən nüfuzu olmasa da ünsiyyətə qatılır,[5] bəzən qəlbə nüfuz edir,[6] bəzən qəlbə nüfuz edib yerini möhkəmləndirir,[7] bəzən də insana qardaş olur,[8] bəzən isə insan şeytana mürid olur və şeytan ona tam hakim kəsilir.

**Bildirişlər**

1. Mömin şeytanla təmasda olduqda Allahı yada salır,[9] münafiq isə təmasda olduqdan sonra şeytanın qulu olur və bir daha ayılmır.
2. Yalan and şeytanın hakimiyyəti üçün müqəddimədir.
3. Allaha biganə qaldıqca şeytan firqəsinə yaxınlaşırıq.
4. Hər firqəyə qoşulmayaq. Bəzi firqələr şeytan firqəsidir.
5. Əsil ziyan maddi ziyan yox, şeytana itaətdir.

***Ayə 20:***

﴿إِنَّ ٱلَّذِينَ يُحَادُّونَ اللَّهَ وَرَسُولَهُ أُوْلَئِكَ فِي الأَذَلِّينَ﴾

**"Həqiqətən, Allah və Onun rəsuluna qarşı çıxanlar insanların ən zəlil zümrəsindədirlər."**

**Nöqtələr**

Zahirən belə görünür ki, bu ayə öncəki ayələrin davamıdır və münafiqlərin hərəkətindən danışır. Hazırkı surənin 5-ci ayəsində Allah və Onun rəsuluna qarşı çıxanların məhvi haqqında danışıldı.

---

[1] "Nəhcül-bəlağə", xütbə 50
[2] "Təfsiri-nurus-səqəleyn"
[3] "Nur", 21
[4] "Həcc", 52
[5] "Əraf", 201
[6] "Nas", 5
[7] "Zuxruf", 36
[8] "İsra", 27
[9] "Əraf", 201

Möminlərin qarşılaşdıqları çətinliklər ötəri, biranlıq və asradan qaldırılası olur.[1] Amma münafiqlərin zilləti əbədi, izzəti müvəqqətidir.

**Bildirişlər**

1. Nifaq və ikiüzlülük insanı bir səviyyəyə alçaldır ki, o Allah və Allahın rəsuluna qarşı çıxır.
2. Müsəlmanları zəlil sayanlar[2] özləri ən böyük zillətə düçar olasıdır.
3. Haqqa qarşı çıxan istənilən bir şəxs ən ağır şəkildə alçalacaq.
4. Peyğəmbərin (s) göstərişi Allahın göstərişidir. Peyğəmbərlə (s) savaş Allaha qarşı savaşdır.
5. İzzət yalnız Allah və Onun rəsuluna məxsusdur. Onlara qarşı çıxanlar ən açalmış şəxslər olar.
6. Allah və Onun rəsulunun göstərişlərinə qarşı müxalifətin sonu dünya və axirətdə zəlalətdir.

***Ayə 21:***

**﴿كَتَبَ اللَّهُ لَأَغْلِبَنَّ أَنَا وَرُسُلِي إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ﴾**

**“Allah hökm etmişdir ki, şübhəsiz, Mən və Mənim peyğəmbərim (kafirlər və münafiqlərə) qalib olacağıq. Həqiqtən, Allah yenilməz qüdrət sahibdir.”**

**Nöqtələr**

Haqqın batil üzərində qələbəsi Allahın sünnəsi, qanunudur. Bir bu qədər təhqirlərdən, pozuculuqlardan, fitnə-fəsadlardan, müharibələrdən sonra İslam peyğəmbərinin (s) adı əbədiləşib, yoxsa ona müxaliflərin? Həzrət İbrahim xatırlanır, yoxsa Nəmrud? İmam Hüseyn (ə) əzizdir, yoxsa Yezid? İmam Hüseyn (ə) Bəni-Üməyyəni rüsvay edərək bəşəriyyətə azadlıq dərsi verdi. Yezid necə?

Sual: Əgər haqq qalibdirsə, nə üçün bəzən ona tərəfdarlar məğlub olur?

Cavab: Əgər övlad nemət sayılırsa, bu o demək deyil ki, hamiləlik dövrünün çətinlikləri olmamalıdır. Nəzərdə tutulan budur ki, bütün mövcud çətinliklərə baxmayaraq övlad nemətdir. Haqqın batil üzərində qələbəsi də iman, sabitqədəmlik və birlik sayəsində gerçəkləşir.[3] Amma süstlük, təfriqə, itaətsizlik güclü olarsa məğlubiyyət də labüdləşər.[4]

Rəvayətlərə əsasən Allahın batil üzərində qələbə ilə bağlı vədi imam Mehdinin (ə. c.) zühur dövründə gerçəkləşəcək.

***Ayə 22:***

---

[1] “Ali-İmran”, 123
[2] “Munafiqun”, 8
[3] “Əhqaf” 13; “Ali-İmran”, 139
[4] “Ali-İmran”, 152

﴿لَا تَجِدُ قَوْمًا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ يُوَادُّونَ مَنْ حَادَّ اللَّهَ وَرَسُولَهُ وَلَوْ
كَانُوا آبَاءهُمْ أَوْ أَبْنَاءهُمْ أَوْ إِخْوَانَهُمْ أَوْ عَشِيرَتَهُمْ أُوْلَئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ
وَأَيَّدَهُم بِرُوحٍ مِّنْهُ وَيُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا رَضِيَ
اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ أُوْلَئِكَ حِزْبُ اللَّهِ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ﴾

**“Allaha və qiyamətə inandığı halda Allaha və Onun rəsuluna qarşı çıxan kəsə mehribanlıq göstərən qövm tapmazsan. Onların ataları, oğulları, qardaşları, qohumları olsa belə! Allah onların qəlbində imanı sabitləşdirmiş, onları özü tərəfindən bir ruhla təsdiqləmişdir. Onlar ağacları altdan çaylar axan bağlara daxil edilər. Orada əbədi qalarlar. Allah onlardan razıdır, onlar da Allahdan. Onlar Allahın firqəsidir. Bilin ki, yalnız Allahın firqəsi qalib və nicat tapmışdır.”**

## Nöqtələr

Riza məqamı təslim məqamından üstündür. Riza məqamına çatmış insan nəinki Allahın göstərişlərinə təslim olur, hətta qəlbən də bu göstərişləri qəbul edir.

İman küfrlə bir araya sığmır. Nuha övladının onun əhlindən olmaması bildirildi.[1] İbrahim biləndə ki əmisi yolunu azıb, ondan üz döndərdi.[2] Hətta İslam peyğəmbərinə (s) müşriklər üçün bağışlanma diləmək qadağan olunur.[3]

### *Təvəlla və təbərra (Allah dostu ilə dostluq, Allah düşməni ilə düşmənçlik)*

“Mücadələ” surəsində dəfələrlə təvəlla və təbərradan danışılır. Bu bəyanatlar Allah dostu ilə dostluğun və Allah düşməni ilə düşmənçiliyin əhəmiyyətini göstərir. İmam Riza (ə) buyurur ki, dinin kamilliyi bizim vilayətimizin qəbulunda və bizim düşmənlərimizdən uzaqlıqdadır. İmam Sadiqdən (ə) onların vilayətini qəbul edən, amma onların düşmənlərinə məhəbbət göstərən bir şəxs haqqında soruşdular. Həzrət buyurdu: “Bizim düşmənimizə arxa çevirməyib, bizə məhəbbətindən dəm vuranlar yalançıdır.”[4]

İmam Sadiq (ə) buyurur: “Allah-taala öz peyğəmbərlərindən birinə vəhy etdi ki, möminlərə desin: “Mənim düşmənlərim kimi geyinməsinlər, mənim düşmənlərim kimi yeməsinlər, mənim düşmənlərim kimi rəftar etməsinlər, mənim düşmənlərim kimi olmasınlar. Belə etsələr, mənim düşmənlərimdən sayılarlar.”[5] Rəvayətlərdə oxuyuruq: “Məgər din sevgi və nifrətdən başqa bir şeydirmi?!”[6]

Quranda bir neçə ilahi təsdiq qeyd edilir: Cəbraillə təsdiq;[7] Allahın xüsusi təsdiqi; möminlərin yardımı ilə təsdiq;[1] Allahın gözə görünməyən qoşunları ilə təsdiq.[2]

---

[1] “Hud”, 48
[2] “Tövbə”, 113
[3] “Tövbə”, 113
[4] “Bihar”, c. 27, s. 58
[5] “Vəsail”, c. 3, 279
[6] “Bihar”, c. 65, s. 63
[7] “Maidə”, 110

Qurani-kərimdə Allahın razılığı və Allahdan razılıq məsələsi bir neçə dəfə qeyd olunur: Doğru danışan və düzgün rəftar edənlər haqqında;[3] yaxşı işdə öncüllər haqqında;[4] həqiqi möminlər haqqında.

Allah və Onun rəsuluna qarşı müxalifət o qədər çirkindir ki, bu məsələyə Quranda dörd dəfə toxunulur. Hər dəfə Allah bu əməl müqabilində qəzəbini nazil edəcəyini bildirir. Hazırkı surədə də (5, 20, 22-ci ayələr) müxtəlif şəkillərdə uyğun hədələrlə rastlaşırıq: başı aşağılıq, zillət, mərhəmətdən uzaqlıq, oda daxil olma, cəhənnəmdə əbədilik.[5]

## Bildirişlər

1. Bir qəlbdə iki məhəbbət yaşatmaq olmaz. Allahla dostluq Onun düşmənləri ilə dostluqla bir araya sığmaz. Quranda buyurulur ki, Allah insanın sinəsində iki qəlb yaratmayıb.[6]

2. Eyblərin kökünü qazın. Allah düşmənləri ilə dostluq insanın düşüncəsini, əməllərini, əxlaqını dəyişir. Bu səbəbdən də o yanlış dostluğun kökünü baltalamaq lazımdır.

3. İslamda bütün əlaqələrin Allah razılığı əsasında qurulması nəzərdə tutulur.

4. Ailə və qohumluq rabitələri üçün də qırmızı xətt var.

5. Allah dörd yaxın kəslə (ata, oğul, qardaş və qohum) inkarlarına xatir rabitələrin qırılması müqabilində dörd lütfünü qeyd edir: iman, yardım, behişt və rizvan.

6. İmanın dəyəri onun sabitliyindədir. Müvəqqəti və mövsümi iman puçdur.

7. Öncə möhkəm iman, sonra yardımlardan faydalanma.

8. Din təkcə insanla Allah arasındakı fərdi rabitə deyil. Bu münasibət ictimai rabitələri müəyyənləşdirir.

9. Mükafat təkcə axirətə aid deyil. Sabit iman və ilahi yardımlar dünyadakı mükafatlardandır.

10. Allahın firqəsi (“Hizbullah”) Allahın düşmənləri ilə dost olmur.

11. Allahın firqəsindən olmaq üçün milliyyət, dil, məntəqə şərt deyil. Hər bir müqavimətli və sabitqədəm mömin Allah firqəsindən ola bilər.

12. Qurtuluş və müvəffəqiyyətlə müşayiət olunan qələbə dəyərlidir. Ayələrdə Allah firqəsinin qalib olduğu bildirilir.[7]

13. Nemətin davamlılığı behişt nemətlərindən biridir.

14. Bizim Allahdan razı olmağımız məsələnin bir tərəfidir. Ən mühümü Allahın bizdən razılığıdır.

15. Qiyamətdə iki növ nemət var: maddi və mənəvi.[8]

---

[1] “Ənfal”, 62
[2] “Tövbə”, 40
[3] “Maidə”, 119
[4] “Tövbə”, 100
[5] “Tövbə”, 63
[6] “Əhzab”, 4
[7] “Maidə”, 56
[8] “Tövbə”, 72

# “HƏŞR” SURƏSİ

## *(59-CU SURƏ; 24 AYƏ)*

## *İYİRMİ SƏKKİZİNCİ CÜZ*

### *“HƏŞR” SURƏSİNİN SİMASI*

24 ayədən ibarət olan bu surə Mədinədə nazil olmuşdur.

Surənin 2-ci ayəsində işlədilmiş “həşr” sözü ilə əlaqədar surə belə adlandırılmışdır. Ayədə “həşr” deyərkən qiyamət yox, insanların köç üçün bir yerə toplaşması nəzərdə tutulur.

Surənin başlanğıcında və sonunda mövcudların Allaha təsbihindən danışılır. Surənin əsas məzmunu münafiqlərin Mədinə yəhudiləri ilə həmkarlığı təşkil edir. Onlar əl-ələ verərək müsəlmanların əleyhinə planlar cızır. Quran buyurur ki, onların planları baş tutası deyil, qazancları yalnız rüsvayçılıq və məğlubiyyətdir.

بِسمِ الله الرحمن الرَحِيمِ

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

﴿سَبَّحَ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“Göylərdə və yerdə olanlar Allaha təsbih deyir. (Allahı paklığına görə öyür) Odur qüvvət və hikmət sahibi.”**

**Nöqtələr**

Quranda “təsbih” sözü 85 dəfəyədək işlədilmişdir. Namazın da mətnində rüku, səcdə, qiyam kimi məqamlarda Allaha təsbih ifadələri ilə rastlaşırıq.

”Təsbih” sözünün lüğət mənası suda və ya havada iti hərəkətdir. Bu söz dini termin kimi Allahı bütün eyblərdən pak bilmək, ibadətdə sürət mənasını ifadə edir.

Allahın sifətləri iki qrupa bölünür: sübutiyyə və səlbiyyə. Sübutiyyə sifətlər Allahın elm, qüdrət kimi kamilliklərini bəyan edir. Səlbiyyə sifətlər isə Allahın bütün naqis sifətlərdən, acizlik, cəhalət, möhtaclıqdan uzaq olduğunu bildirir. Təsbih səlbiyyə, həm-səna isə sübutiyyə sifətlərin zikridir.

Quran və namazın mətnində bəzi hallarda təsbih və həmd-səna yanaşı gəlir.[1] Bu nümunələrdə sübutiyyə və səlbiyyə sifətlər birlikdə ifadə olunur. Belə ki, Allaha təsbih deyib, Ona həmd-səna söyləyən şəxs Onu həm eyblərdən pak bilir, həm də lütflərinə görə Ona təşəkkür edir.

---

[1] “İsra”, 44

### *Mövcudların təsbihi*

Bəziləri bildirirlər ki, mövcudlar təşrii yox, təkvini təsbih deyir. Yəni onların təsbihi dillə yox, halladır. Hər bir yaranmış Allahın elm, hikmət və qüdrətinə bir dəlildir. Onlar Allahın istənilən nöqsandan pak, acizlikdən uzaq olduğunu göstərir. Belə bir vəziyyətdə mövcudların dillə təsbihinə ehtiyac qalmır. Onların varlığı özü elə Allaha təsbihdir.

Amma Quran ayələrindən belə aydın olur ki, mövcudların təsbihi dedikdə onların dillə təsbihi nəzərdə tutulmuşdur:

Əgər mövcudların hikmətli yaranışı Allaha təsbihdirsə, biz bunu anlamalıyıq. Amma Allah-taala "İsra" surəsinin 44-cü ayəsində buyurur ki, siz mövcudların təsbihini anlamırsınız.

Əgər mövcudların varlığı təsbihdirsə, bu təsbih üçün xüsusi bir vaxt müəyyənləşməyib. Hansı ki, bəzi ayələrdə mövcudların xüsusi vaxtlarda təsbihi qeyd olunur.[1] Quran bəzən ildırım kimi hadisələri yada salır. Ayədə ildırımın Allaha təsbihindən danışılır.[2] Əgər varlıq təsbih nişanəsidirsə, bir tikili kimi öz mühəndis və memarına sitayiş edirsə, nə üçün buyurulur ki, mövcudlar öz namaz və təsbihlərindən agahdırlar, bu iş kor-koranə deyil.[3]

Əgər təsbih təkvinidirsə, nə üçün dağlar yalnız həzrət Davudla təsbih deyirdi? Öncə deyilənlərə əsasən, dağlar həzrət Davud olmadan da təsbih deməli idi.[4]

Varlıq aləmindəki mövcudlar Allahın təsbihindən ayrılmır. Bəzi ayələrdə bu təsbih keçmiş zamana, bəzilərində indiki və gələcək zamana aid edilir.

### Bildirişlər

1. Göylərdə və yerdəki mövcudlar bir növ şüur və idraka malikdir.
2. Əgər bəzi insanlar təsbih əhli deyilsə, əvəzində bütün varlıq aləmi Allaha təsbih deyir.
3. Varlığı təsbihə vadar edən Allahın qüvvət və hikmətidir.
4. Adi insanlar qüdrətə çatdıqda özünə nəzarət edə bilmir. Amma Allah həm qüdrət, həm də hikmət sahibdir.

***Ayə 2:***

﴿هُوَ الَّذِي أَخْرَجَ الَّذِينَ كَفَرُوا مِنْ أَهْلِ الْكِتَابِ مِن دِيَارِهِمْ لِأَوَّلِ الْحَشْرِ مَا
ظَنَنتُمْ أَن يَخْرُجُوا وَظَنُّوا أَنَّهُم مَّانِعَتُهُمْ حُصُونُهُم مِّنَ اللَّهِ فَأَتَاهُمُ اللَّهُ مِنْ حَيْثُ لَمْ
يَحْتَسِبُوا وَقَذَفَ فِي قُلُوبِهِمُ الرُّعْبَ يُخْرِبُونَ بُيُوتَهُم بِأَيْدِيهِمْ وَأَيْدِي الْمُؤْمِنِينَ
فَاعْتَبِرُوا يَا أُولِي الْأَبْصَارِ﴾

---

[1] "Sad", 18
[2] "Rəd", 13
[3] "Nur", 41
[4] "Sad", 18

**“Odur kitab əhlində küfr edənləri ilk dəfə evlərindən çıxaran. Hansı ki, siz onların (asanlıqla) bayıra çıxacağını güman etmirdiniz. Özləri də elə düşünürdülər ki, qüllə və hasarları onları Allahın qəzəbindən qoruyacaq. Amma Allahın qəzəbi onları güman etmədikləri yolla yaxaladı. Qəlblərinə qorxu və dəhşət düşdü. Belə ki, öz evlərini öz əlləri və möminlərin əli xaraba qoyurdular. Ey bəsirət sahibləri, ibrət götürün.”**

## Nöqtələr

Üç yəhudi qəbiləsi, Bəni-Nəzir, Bəni-Qürəyzə, Bəni-Kinqa Mədinəyə hicrət etmişdi. Onlar Peyğəmbərlə (s) sülh və tərəfdaşlıq müqaviləsi imzalamışdılar. Amma Ühüd savaşından sonra onlardan bir qrupu Məkkə müşrikləri ilə birlikdə plan qurmağa başladılar. Peyğəmbər (s) bu işdən xəbər tutdu. Qarşıdurma oldu və bu qarşıdurmada yəhudilərin Kəb ibn Əşrəf adlı başçısı öldürüldü. Yəhudilər arasında çaxnaşma düşdü və onlar qalaya sığındılar. Müsəlmanlar Peyğəmbərin (s) göstərişi ilə qalanı mühasirəyə aldılar. Bir neçə günlük mühasirə və döyüşdən sonra yəhudilər qəbul etdilər ki, Mədinədən çıxsınlar. Onlar var-dövlətlərindən gücləri çatanı götürdülər və müsəlmanlara qismət olmasın deyə evlərini uçurdular.[1]

”Həşr” sözü yığışıb sükunət məhəllindən çıxmaq mənasını bildirir.

İlahi yardımlardan biri də düşmənin qəlbində qorxu yaranmasıdır.[2] Bəli, düşmən qəlbindəki qorxu səbəbindən qaçır, müsəlmanlar qan-qadasız qələbəyə nail olur. Hədisdə bildirilir ki, həzrət Mehdiyə (ə. c.) üç qoşun yardıma gələr: mələklər, möminlər və qorxu.[3]

Tarix dayanacaq yox, bir keçiddir. “Fətəbiruk” dedikdə zahirdən ötüb batinə çatmaq mənası nəzərdə tutulur. “İbarət” sözü sözdən mənaya keçmək mənasını ifadə edir. “Təbiri xab” dedikdə yuxunun zahirindən onun batininə nüfuz etmək mənası anlaşılır.

Düşünmək və ibrət götürmək bir ibadətdir. Rəvayətdə nəql olunur ki, Əbuzərin əsas ibadəti düşüncə və ibrət idi.

Allahın nə mərhəməti, nə də qəzəbi bizim hesablarımızla müəyyənləşmir.[4]

Allah qəlblərə hakimdir. O bəzən aramlıq, bəzən də qorxu nazil edir.[5]

## Bildirişlər

1. Allahın kafirlərə qəzəbi hikmətə əsaslanır və yəhudilərin xəyanətkarlığından qaynaqlanır.
2. Xəyanətkar və hiyləgər yəhudilərin sarsıntıları Allahın izzət göstəricisidir.
3. Bütün qələbələr Allahdandır.
4. Kitab əhlinin hesabı fitnəkarların hesabından fəqlidir.

---

[1] “Təfsiri-nümunə”
[2] “Ənfal”, 12; “Ali-İmran”, 151
[3] “Təfsiri-nümunə”
[4] “Təlaq”, 3
[5] “Fəth”, 4

5. Vətəndən sürgün ilahi əzablardandır.
6. Allahın qəzəbi ilkin mərhələdə müqabil tərəfi məhv edə bilər.
7. Kimsənin gücünü davamlı saymayın.
8. Kafirlərin hesabatları çox vaxt həqiqətdən uzaq olur.
9. İctimai öhdəliklərini yerinə yyetirməyənlərin cəzası vətəndən sürgündür.
10. Savaş və cihadda təkcə hərbi texnika və maddi imkanlara güvənmək olmaz.
11. Bəzən düşmənin tikililərini uçurmaq olar.
12. Allah istəsə, dost da düşmən də eyni bir yükdən yapışar.
13. Allah həm səbəb salır, həm də səbəbi təsirsizləşdirir. Belə olur ki, qorxu səbəbindən qalalar gücdən düşür.
14. Tarixin mütaliəsi əyləncə yox, ibrət vasitəsidir.
15. Tarixdən istifadə üçün bəsirət lazımdır.

*Ayə 3:*

**﴿وَلَوْلَا أَن كَتَبَ اللَّهُ عَلَيْهِمُ الْجَلَاء لَعَذَّبَهُمْ فِي الدُّنْيَا وَلَهُمْ فِي الْآخِرَةِ عَذَابُ النَّارِ﴾**

**“Əgər Allah onlar üçün ev-eşiklərindən çıxmağı müəyyənləşdirməsəydi, həqiqətən, dünyada əzaba düçar olardılar. Əlbəttə ki, axirətdə odda əzabları var.”**

*Ayə 4:*

**﴿ذَلِكَ بِأَنَّهُمْ شَاقُّوا اللَّهَ وَرَسُولَهُ وَمَن يُشَاقِّ اللَّهَ فَإِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ﴾**

**“Bu cəzanın səbəbi onların Allah və Allahın rəsuluna qarşı düşmənçiliyidir. Hər kəs Allahla düşmənçilik etsə, (bilsin ki) Allahın cəzası ağırdır.”**

**Nöqtələr**

”Cəla” dedikdə hansısa problemlər səbəbindən vətəni tərk etmək nəzərdə tutulur.

”Şəqq” sözündən olan “şaqqu” sözü çat yaranması, ayrılıq, düşmənçilik mənalarını bildirir.

”Mücadələ” surəsinin 21-ci ayəsində buyurulur ki, həm qələbə, həm də vətəndən uzaqlıq Allahın iradəsindən asılıdır.

Hazırkı ayənin oxşarı ilə “Ənfal” surəsində rastlaşırıq. Həmin surənin 13-cü ayəsində Bədr savaşı haqqında danışılır.

Allahın “şədidul-iqab” olması onun “Ərhəmur-rahimin” olmasına zidd deyil. Hər sifətin öz məqamı var. “İftitah” duasında uyğun nöqtəyə toxunulur.

**Bildirişlər**

1. Xəyanətkarlığın ən yüngül cəzası sürgün və vətəndən uzaqlıqdır. Bəni-Nəzir qəbiləsi öz fitnəkarlıq və xəyanətinə görə ağır cəzaya məhkum idi. Amma həmin cəza sürgünlə əvəz olundu.

2. Bəni-Nəzirin sürgün olunmasının səbəbi onların yəhudiliyi yox, düşmənçiliyi idi.

3. Allah ədalətlidir və Onun cəzaları insanın öz əməllərinə əsaslanır.

4. Səmavi rəhbərə qarşı cəbhə yaratmaq Allaha qarşı dayanmaqdır.

*Ayə 5:*

﴿مَا قَطَعْتُم مِّن لِّينَةٍ أَوْ تَرَكْتُمُوهَا قَائِمَةً عَلَى أُصُولِهَا فَبِإِذْنِ اللَّهِ وَلِيُخْزِيَ الْفَاسِقِينَ﴾

**“Xurma ağacından kəsdiyiniz də, onu yerində saxlamağınız da Allahın istək və əmri ilə oldu. Allah (istəyirdi) fasiqləri xar etsin.”**

**Nöqtələr**

Rağibin “Mufradatda” bildirdiyinə əsasən, “linə” sözü yumşaqlıq mənasını bildirir. Xurmanın meyvəsi yumşaq olduğundan onu belə adlandırmışlar.

İslam öz döyüşçülərinə suyu zəhərləməyi, ağacları kəsməyi qadağan edir. Amma bəzən ağaclar hərəkətə mane olduqda və ya kafirlərə mənəvi zərbə vurmaq lazım gəldikdə bu qəbil hökm verilir. Olsun ki, bu ayə müsəlmanların ağacların kəsilməsi ilə bağlı şübhələrinə son qoymaq məqsədi daşıyır. Quran buyurur ki, bu əmr Allah tərəfindən idi.

**Bildirişlər**

1. Savaş meydanında bütün hərəkətlər komandanın nəzarəti altında olmalıdır.

2. Zəruri hallarda mənzilləri sökmək, ağacları qırmaq olar.

3. Ağacların saxlanması və ya kəsilməsinin hədləri var, bu iş Allahın razılığı ilə həyata keçməlidir.

4. Günah insanın mal-mülkünü puça çıxara bilər.

5. Cəbhədə düşməni alçaltmaq caizdir.

*Ayə 6:*

﴿وَمَا أَفَاءَ اللَّهُ عَلَى رَسُولِهِ مِنْهُمْ فَمَا أَوْجَفْتُمْ عَلَيْهِ مِنْ خَيْلٍ وَلَا رِكَابٍ وَلَكِنَّ اللَّهَ يُسَلِّطُ رُسُلَهُ عَلَى مَن يَشَاءُ وَاللَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Allahın onlardan (onlara məxsus maldan) öz rəsuluna qaytardığı üçün nə at çapmış, nə dəvə sürmüsünüz. Peyğəmbəri istədiyinə qalib edən Allahdır. Allah hər şeyə qadirdir.”**

**Nöqtələr**

”Əfa” qayıdış mənasını bildirir. Burada savaş və qansız əldə olunan qənimətlərin İslam rəhbərinin ixtiyarına verilməsi nəzərdə tutulur. Uyğun sözün işlənməsində məqsəd mal-mülkün onun əsil sahibi olan ilahi övliyaya

qaytarılması ola bilər. Çünki Allah hər şeyi möminlər və onlardan da öncə peyğəmbərlər üçün yaratmışdır. Başqaları şəri və ürfi şəkildə mülkə sahib olsalar da, əsil sahib Allahın övliyalarıdır.

”Əvcəftum” dedikdə at və dəvə sürülməsi nəzərdə tutulur. “Xəyl” sözü at, “rikab” sözü dəvə mənasını bildirir.

Müsəlmanların ixtiyarına verilmiş mal-mülk bir neçə növdür:

a) Cəbhədə savaş yolu ilə əldə olunmuş qənimət; bu qənimət mücahidlərə məxsusdur, amma xümsü verilməlidir.

b) Hücum və savaşsız əldə olunan mal-mülk; bu mal “fəy” adlanır. Ayədə onun hökmü bəyan olunmuşdur.

v) Xam torpaqlar, dağlar, çaylar, qamışlıqlar kimi ənfal adlanan mülklər. “Ənfal” surəsinin əvvəlində sadalananların hökmü bəyan olunmuşdur.

Bu ayəyə əsasən hücum və savaşsız əldə olunan mal-mülk Peyğəmbərin (s) ixtiyarındadır. Mücahidlərin bu mülkdə payı yoxdur. Peyğəmbər (s) öz səlahiyyətinə müvafiq olaraq həmin malı qruplar arasında bölür.

İslami göstərişlərin hikməti var. Cəbhədə iştirakla əldə olunan şey mücahidin mülküdür. Əgər bu mal üçün zəhmət çəkilməmişsə, həmin mal səmavi rəhbərə çatır.

### Bildirişlər

1. “Fəy” qanunu bütün peyğəmbərlərin dövründə işlək olmuşdur.

2.Mal-mülk məsələlərində hətta Peyğəmbər (s) Allahın izni olmadan hökm vermir.

3. Bəzən qələbə savaş və cihadsız əldə olunur.

4. Övliyaların hakimiyyəti Allahın iradə və əmrinə əsaslandığından dəyərlidir.

5. Allahın iradəsi olan yerdə qalalar və hasarların faydası yoxdur.

*Ayə 7:*

﴿مَّا أَفَاءَ اللَّهُ عَلَى رَسُولِهِ مِنْ أَهْلِ الْقُرَى فَلِلَّهِ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى
وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ كَيْ لَا يَكُونَ دُولَةً بَيْنَ الْأَغْنِيَاءِ مِنكُمْ وَمَا آتَاكُمُ
الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ﴾

**“Allahın abadlıqlar əhlindən öz peyğəmbərinə qaytardığı Allaha, peyğəmbərə, onun qohumlarına, yetimlərə, miskinlərə və yolda qalanlara məxsusdur. Belə ki, bu mal təkcə varlıların arasında dövr etməsin. Peyğəmbərin sizin üçün gətirdiyini alın, qadağan etdiyindən çəkinin. Allahdan çəkinin ki, Allah ağır cəza verəndir.”**

### Nöqtələr

”Dulət” sözü fırlanma, bir malın əldən-ələ ötürülməsi mənasını bildirir.

Qurani-kərimdə Peyğəmbər (s) əhli beytinə (ə) iqtisadi baxımdan himayə, xumsun bir hissəsinin onlara ödənməsi və bu qəbil digər məsələlərə dörd dəfə işarə olunmuşdur.[1]

Hazırkı surənin 4-cü ayəsində Peyğəmbərə (s) müxaliflərə ağır əzab vəd olundu. Peyğəmbərin (s) öz ixtiyarında olan malı necə bölməsinə etiraz edənlərin də eyni cəzaya düçar ediləcəyi bildirilir.

Bu ayədə öncə hökm, sonra hökmün dəlili bəyan olunur. Sonda Peyğəmbərin (s) hakimiyyət qanunları yada salınır.

Allah-taala Əhli-beytə (ə) həm maddi, həm də mənəvi dəstəyi tövsiyə edir.[2]

Fəy malın bölünməsi ilə bağlı bu ayədə altı hal nəzərdən keçirilir. Amma bütün hallarda malı bərabər bölmək zəruri deyil.[3]

Fəy mal Peyğəmbərin (s) şəxsi malı sayılmır. Bu mal onun ictimai mövqeyini möhkəmləndirmək üçündür. Bu səbəbdən də İslam peyğəmbərindən (s) də sonra həmin mal canişinlərin, yəni Əhli-beytin (ə) ixtiyarına verilir. Qeyb dövründə isə ədalətli fəqihlər həmin malın xərclənməsinə nəzarət edir.

Üzərində döyüşçülərin zəhməti olan qənimətlərin yalnız xümsü altı qrup arasında bölünür.[4] Döyüşçülərin zəhməti olmayan yerdə həmin qənimət bütünlüklə eyni altı qrupa xərclənir.

## Bildirişlər

1. Quran qanunları ümumi qanunlardır və təkcə xüsusi şəraitlərdə işlək deyil.
2. Fərari kafirlərin malın dini rəhbərin ixtiyarındadır.
3. İslam üsul-idarəsinin iqtisadi dayağa ehtiyacı var. Bu dayaqlardan biri də savaşsız əldə olunan maldır. Bu mal kafirlərin fərariliyi nəticəsində müsəlmanlara çatır.
4. Danışıqda ədəb və şəni gözləmək lazımdır. Öncə Allahın, sonra Peyğəmbərin (s), daha sonra başqalarının adını çəkmək münasibdir.
5. Allahın payı Peyğəmbərin (s) nəzarəti altında din yolunda xərclənir.
6. Yoxsulluqla mübarizə İslamın özəl prinsiplərindəndir.
7. Əgər var-dövlətin dövriyədən çıxarılaraq müsəlmanların əlində toplanması qadağandırsa, şübhəsiz ki, bu iş kafirlər üçün də caiz deyil.
8. İslam nizamında iqtisadi proqram hazırlayanlar sərvətin bir qrup adamın əlində toplanmamasının zəruriliyini nəzərdən qaçırmamalıdırlar.
9. Peyğəmbərin (s) göstərişlərinə itaət vacibdir. Çünki Peyğəmbər (s) məsumdur. Əgər Peyğəmbər (s) məsum olmasaydı ona nə üçün-niyəsiz itaət zəruri sayılmazdı.
10. Peyğəmbərin (s) qanunlarına əməl olunmalıdır.
11. Bütün göstərişlərin Quranda bəyan olunması zəruri deyil. Peyğəmbərin (s) buyuruğuna əməl edilməlidir.
12. Peyğəmbər göstərişlərinin icrasında tələsək.

[1] "Ənfal", 41; "Həşr", 7; "İsra", 26; "Rum", 38
[2] "Şura", 23
[3] "Təfsiri-əhsənul-hədis"
[4] "Ənfal", 41

13. Mal-mülk bölgüsündə çaşqınlıq ehtimalı çoxdur. Bu işlərdə təqvalı olmaq lazımdır.

14. Peyğəmbərə (s) nə üçün-niyəsiz itaət təqva nümunəsidir.

15. Təqvasızlığın ciddi cəzası var.

16. Ağır cəza barədə düşünmək təqvanı gücləndirir.

*Ayə 8:*

﴿لِلْفُقَرَآءِ الْمُهَاجِرِينَ الَّذِينَ أُخْرِجُوا مِن دِيارِهِمْ وَأَمْوَالِهِمْ يَبْتَغُونَ فَضْلًا مِّنَ اللَّهِ وَرِضْوَانًا وَيَنصُرُونَ اللَّهَ وَرَسُولَهُ أُوْلَئِكَ هُمُ الصَّادِقُونَ﴾

**“(Fəyin bir hissəsi) Evləri və malları əllərindən alınmış mühacir yoxsullar üçündür. Onlar Allahın fəzl və razılığı sorağındadırlar, Allaha və Onun rəsuluna yardım edirlər. Onlar həmin doğruçulardırlar.”**

## Nöqtələr

Bu ayədə altı növ bölgü məsələsinə bir növ şərh verilir. Bildirilir ki, miskinlər və yoldan qalanlar arasında hicrət və Allah rəsuluna yardım kimi imtiyazlı olanları tapın.

Yoxsullar arasında sürgün olunmuş din hamiləri üstünlüyə malikdir.

## Bildirişlər

1. Ehtiyaclıların bizim malımızda gözü olmasa da, biz onlara yardım əli uzatmalıyıq.

2. Vətənə məhəbbət təbii bir haqdır və bu haqqı əldən almaq zülmdür.

3. Yalnız o adamların dindarlıq iddiası həqiqidir ki, yoxsulluq və yurdsuzluqla yanaşı Allah və Peyğəmbər (s) yardımçısı olmuşlar.

4. Yalnız daimi kamilliklər mədh olunasıdır.

5. Dünya axirətlə birlikdə dəyərə malikdir.

6. İxlaslı insanlar Allahın lütfünü öz haqları yox, Onun fəzli sayırlar.

7. Sədaqət dildə yox, işdə bilinir.

*Ayə 9:*

﴿وَالَّذِينَ تَبَوَّؤُوا الدَّارَ وَالْإِيمَانَ مِن قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمْ حَاجَةً مِّمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَى أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ وَمَن يُوقَ شُحَّ نَفْسِهِ فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

**“Darul-hücrə (Mədinə) və imanda mühacirlərdən əvvəl möhkəmlənənlər, onlara doğru hicrət edənləri dost tutanlar, mühacirlərə verilənə qəlblərində ehtiyac duymayanlar, özləri ağır yoxsulluqda olduqları vaxt mühacirləri özlərindən üstün tutanlar, nəfsinin xəsisliyindən qorunanlar həmin doğruçulardır.”**

## Nöqtələr

”Təbəvvəu” sözü bir məkanda enmək mənasını bildirir.[1] “Xəsasə” dedikdə insan həyatını parçalayan yoxsulluq nəzərdə tutulur. “Yuq” sözü nəzarət mənasını bildirir. “Şuhd” dedikdə hərisliklə müşayiət olunan xəsislik mənası başa düşülür.[2]

Allah mühacirlərə pay ayırmaqla yanaşı ənsar və Mədinə əhlini mədh edir. Onlar mühacirləri öz evlərində yerləşdirdilər və ilahi göstərişlərə nə üçün-niyəsiz əməl etməklə imanlarını kamilləşdirdilər.

Hədisdə oxuyuruq ki, imam Cavad (ə) gecənin əvvəlindən sübhədək bir dua oxuyardı: “Pərvərdigara, məni xəsislikdən hifz et.” Yaxınlarından biri soruşur ki, nə üçün həzrət yalnız bu duanı oxuyur? İmam buyurur: “Xəsislikdən də təhlükəli bir şey varmı?!”

Digər bir hədisdə oxuyuruq: “Xəsislik və iman bir qəlbdə yerləşməz.”

İnsan yalnız Allahın yardımı ilə xəsislikdən qurtula bilər.

Bir çox kamilliklər xəsislikdən qurtuluşla bağlıdır.

Bir qrupu mədh edərkən o birini yaddan çıxarmaq olmaz. Ötən ayədə mühacirlər mədh olunurdu, bu ayədə ənsardan danışılır.

Mühacirlərə məhəbbət qonaqpərvərlikdən üstündür. Əgər qonaq bir neçə günlük gəlmişsə, mühacir birdəfəlik köç etmişdir.

Mədh edərkən ardıcıllıq gözlənilməlidir. Öncə mühacirlər, sonra ənsar mədh olunur. Növbəti ayədə isə tabeindən danışılır.

İsar, ehtiyacı olanı başqasına vermək kamillikdir. Amma bu işdə orta həddi aşmaq olmaz. “Fürqan” surəsinin 67-ci ayəsində Allahın bəndələri vəsf olunarkən onların infaqda orta həddi gözlədiyi bildirilir. Bu məsələ imam Sadiqdən (ə) nəql olunmuş rəvayətlərdə də təsdiqlənir.[3]

### Bildirişlər

1. Başqalarına xidmət üçün zəmin yaratmaq özü də bir dəyərdir.
2. İnsan həm zahirən, həm batinən özünü zinətləndirməlidir.
3. İman əhlinə məhəbbətin dayanacağı yoxdur.
4. Başqalarının isar və müsbət ruhiyyəsini dilə gətirin.
5. Əsil dostluq odur ki, insanları ad-sanına görə yox, kamilliklərinə görə sevəsiniz.
6. Cəmiyyətdə yaxşılıqların artımı üçün insanların mərəhəmət hissindən bəhrələnək.
7. Özünü kamil göstərmək yox, daxilən kamil olmaq dəyərlidir.
8. Allah həsədçi olmayanları mədh edir. Adətən mal bölgüsündə həsəd ortaya çıxır. Amma Peyğəmbər (s) qəniməti təkcə mühacirləri versə də, ənsar ona göz dikmədi.
9. Uca və dərindən baxış Quranda mədh olunur.
10. Dostluğu bildirmək bəs etmir, işdə dost olmaq lazımdır.
11. İnsanın can-dildən bağışlaması kamillikdir.

---

[1] “Təfsiri Marağİ”
[2] “Mufrədati-Rağib”
[3] “Təfsiri-nurus-səqəleyn”

12. Xəsislikdən qurtuluş xoşbəxtlik səbəbidir.

13. Xəsislik nəfsə qatılmışdır. Xəsislikdən qurtaran təkcə malından yox, canından da keçməyə hazır olur.

14. Xəsis nicat tapa bilməz.

***Ayə 10:***

**﴿وَالَّذِينَ جَاؤُوا مِن بَعْدِهِمْ يَقُولُونَ رَبَّنَا اغْفِرْ لَنَا وَلِإِخْوَانِنَا الَّذِينَ سَبَقُونَا بِالْإِيمَانِ وَلَا تَجْعَلْ فِي قُلُوبِنَا غِلًّا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَا إِنَّكَ رَؤُوفٌ رَّحِيمٌ﴾**

**“Mühacirlər və ənsardan sonra gələnlər dedilər: “Pərvərdigara, bizi və imanda bizdən öncül olan qardaşlarımızı bağışla, qəlblərimizdə möminlərə qarşı kin qoyma. Pərvərdigara, həqiqətən, Sən rəuf və mehribansan.”**

## Nöqtələr

Ötən ayələrdə mühacirlər və ənsar mədh olundu. Bu ayədə tabeindən danışılır. Peyğəmbərdən başqa bütün müsəlmanlar tabein sayıla bilər.

8-10-cu ayələrdə vəhdət amillərinə işarə olunmuşdur: məhəbbət, isar, dua, xidmət, hərislik və həsəddən uzaqlıq, xəsislikdən uzaqlıq, qardaşlıq, qəlbigenişlik, kin-küdurətdən uzaqlıq.

### *Bağışlanma və bağışlanma istəyi (istiğfar)*

Quranda bağışlanma mövzusu ilə bağlı 200-dən çox təbir işlədilmişdir. Həm özümüz bağışlanma diləməli, həm də Allahın övliyalarından özümüz üçün dua istəməliyik.[1] Şübhəsiz ki, müşriklər və münafiqlər üçün istiğfarın heç bir səmərəsi yoxdur.[2] Möminlər üçün isə hətta mələklər də bağışlanma diləyir.[3]

Amma bağışlanmanın müxtəlif amilləri var: ilahi rəhbərə itaət;[4] təqva;[5] xalqı bağışlamaq;[6] dəlil-sübutlu söhbət;[7] gözəl borc;[8] tövbə.[9]

## Bildirişlər

1. Yalnız öz ardıcıllarının kamala çatması üçün yol göstərən məktəb kamildir.

2. Keçmişdəkilərə dua bugünkülərin vəzifəsidir.

3. Yanlış təsəvvürün qarşısını almaq üçün öncə öz büdrəmələrimizə görə, sonra başqalarının büdrəmələrinə görə bağışlanma diləyək.

4. Bütün müsəlmanlar qardaşdırlar və bir-birləri üçün dua edirlər.

---

[1] “Yusuf”, 97
[2] “Munafiqun”, 6; “Tövbə”, 113
[3] “Ğafir”, 7
[4] “Ali-İmran”, 31
[5] “Ənfal”, 29
[6] “Nur”, 22
[7] “Əhzab”, 70, 71
[8] “Təğabun”, 17
[9] “Nisa”, 110

5. Qədimdən imanlı olmaq bir dəyərdir.

6. Mömin günahdan sğortalanmayıb. Amma o günaha yol verən kimi tövbə qılır.

7. Həqiqi qardaşlıq yalnız iman sayəsində mümkündür.

8. Din qardaşlığında zaman, məkan, irq məhdudiyyətləri yoxdur.

9. Xeyir dua ilə qəlblərdən kin-küdurəti çıxaraq.

10. Mömin başqalarına pislik istəmir.

11. Allahdan yardım diləmədən özünü tərbiyə etmək mümkünsüzdür.

12. İslahatlarda nöqsanların kökünü axtarmaq lazımdır. Bir çox günahların kökü kin-küdurət, həsəd və düşmənçilikdir.

13. Allahın rüfət və mərhəməti duaların qəbulu üçün əsasdır.

***Ayə 11:***

**﴿أَلَمْ تَر إِلَى الَّذِينَ نَافَقُوا يَقُولُونَ لِإِخْوَانِهِمُ الَّذِينَ كَفَرُوا مِنْ أَهْلِ الْكِتَابِ لَئِنْ أُخْرِجْتُمْ لَنَخْرُجَنَّ مَعَكُمْ وَلَا نُطِيعُ فِيكُمْ أَحَدًا أَبَدًا وَإِن قُوتِلْتُمْ لَنَنصُرَنَّكُمْ وَاللَّهُ يَشْهَدُ إِنَّهُمْ لَكَاذِبُونَ﴾**

**“Münafiqləri görmədinmi, öz qardaşlarına, kitab əhlindən küfr edənlərə belə deyirlər: “Əgər siz qovulsanız, biz də sizinlə xaric olacağıq. Sizə qarşı kimsəyə tabe olmayacağıq. Sizə qarşı hücum və ya savaş olsa hökmən sizə yardım edəcəyik.” Allah şahiddir ki, münafiqlər yalan deyir.”**

### Nöqtələr

Mühacirlər, ənsar və tabein mədh olunduqdan sonra hazırkı ayələrdə münafiq və kafirlərin xarakteri açıqlanır. Əgər öncəkilər bağışlanmaya dəvət edirdisə, sonuncular inadkarlıq və müqavimətə çağırır.

Təfsirdə bildirilir ki, münafiqlər Peyğəmbərin (s) qəzəbinə gəlmiş yəhudilərə onlara yardımçı olduqlarını çatdırdılar.

”Həqiqətən, möminlər qardaşdır” ayəsinə əsasən qardaşlıq yalnız iman əhlinə aid olan bir səciyyədir. Münafiqin kafirlə qardaşlığı saxta və zahiri bir qardaşlıqdır. Həqiq qardaşlıqda isar var. Zahiri qardaşlıqda isə belə deyil.

### Bildirişlər

1. İlkin İslam dövründə kafirlərlə məxfiyanə əlaqə saxlayan münafiqlər vardı. Onlar öz vədləri ilə kafirlərə ümid verirdilər.

2. İslam cəmiyyətinin rəhbəri daxildəki münafiqlərin xarici düşmənlərlə əlaqəsindən xəbərdar olmalıdır.

3. Münafiq kafirin qardaşıdır.

4. Kitab əhlindən yalnız bir hissəsi müsəlmanlara düşmən mövqe tutmuşdur.

5. Yalançı başqalarını inandırmaq üçün qətiyyətlə danışır.

6. Münafiq ictimai-siyasi məsələlərdə İslam rəhbərinə tabe olmur.

7. Münafiqlər hətta öz dostlarına da yalan danışırlar.

*Ayə 12:*

﴿لَئِنْ أُخْرِجُوا لَا يَخْرُجُونَ مَعَهُمْ وَلَئِن قُوتِلُوا لَا يَنصُرُونَهُمْ وَلَئِن نَّصَرُوهُمْ لَيُوَلُّنَّ الْأَدْبَارَ ثُمَّ لَا يُنصَرُونَ﴾

**"Həqiqətən, əgər kafirlər ixrac olunsalar, münafiqlər onlarla getməyəcək. Əgər (kafirlər) hücum və müharibə ilə üzləşsələr münafiqlər onlara yardım göstərməyəcək. Əgər onlara yardım üçün ayağa qalxsalar (təhlükə zamanı) onlara arxa çevirəcəklər. Sonra (kafir və münafiqlərdən heç birinə) kömək göstərilməz."**

**Bildirişlər**

1. Kafirlərin məğlubiyyət xəbəri və münafiqlərin öz vədlərinə dönük çıxmaları müsəlmanların ruhiyyəsini gücləndirir.
2. Münafiqlərin təmtəraqlı təbliğatından qorxmayın, onlar əməl əhli deyil, meydanı bir anda boş qoyur.
3. Nifaq o qədər çirkindir ki, Allah kafirlərə münafiqlərin namərdliyini xatırladır.
4. Nifaqın sonu alçalma və tənhalıqdır.

*Ayə 13:*

﴿لَأَنتُمْ أَشَدُّ رَهْبَةً فِي صُدُورِهِم مِّنَ اللَّهِ ذَٰلِكَ بِأَنَّهُمْ قَوْمٌ لَّا يَفْقَهُونَ﴾

**"Şübhəsiz, münafiqlərin qəlbində sizdən qorxu onların Allahdan qorxusundan daha güclüdür. Bunun səbəbi onların anlamaz qövm olmasıdır."**

**Nöqtələr**

"Rəhbə" dedikdə əməldə özünü göstərən qorxu nəzərdə tutulur.

Bu ayə öncəki ayə üçün dəlil ola bilər. Münafiqlər müharibədən qorxur. Əgər cəbhəyə getsələr qaçırlar. Çünki onların imanı yoxdur, ilahi qüdrətdən xəbərsizdirlər. Onlar qılıncların parıltısını görür və Allahdan çox sizdən qorxurlar.

**Bildirişlər**

1. Müxaliflərin qəlbində mömindən qorxu var.
2. Allah əvəzinə insanlardan qorxmaq nifaq göstəricisidir.
3. Münafiqlər anlamırlar ki, müsəlmanların izzət və qüdrətinin səbəbi Allahın iradə və lütfüdür.
4. Xalqdan qorxu və Allaha qarşı cəsarət insanın darbaxışlılığını və düşüncəsizliyini göstərir.

*Ayə 14:*

**﴿لَا يُقَاتِلُونَكُمْ جَمِيعًا إِلَّا فِي قُرًى مُّحَصَّنَةٍ أَوْ مِن وَرَاءِ جُدُرٍ بَأْسُهُمْ بَيْنَهُمْ**
**شَدِيدٌ تَحْسَبُهُمْ جَمِيعًا وَقُلُوبُهُمْ شَتَّى ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لَّا يَعْقِلُونَ﴾**

**"Münafiqlər (o qədər qorxaqdırlar ki) sizə qarşı hamılıqla döyüşmürlər. Yalnız mühafizəli məntəqələrdə, divar arxasında (vuruşurlar). Onların öz aralarında savaşları daha ağırdır. Sən onların əlbir olduğunu düşünürsən. Hansı ki, qəlbləri pərakəndədir. Bunun səbəbi onların anlamayan bir qövm olmasıdır."**

**Nöqtələr**

"Qərye" sözündən olan "qura" sözü insanların toplanış məhəlli mənasını bildirir. Bu yer şəhər və ya kənd ola bilər. "Hisn" sözündən olan "muhəssənə" sözü qala mənasını ifadə edir. "Qurən muhəssənə", yəni divarlar və ya xəndəklər vasitəsi ilə qorunan məntəqə.

Vəhdət və əlbirliyin dəyəri azca düşünməklə hamıya aydın olur. Bu səbəbdən də ayədə bildirilir ki, onlar anlamırlar. Bütün qüdrətin Allaha məxsus olduğunu, Allahdan çox insanlardan qorxmağın yanlışlığını dərk etmək üçün xalis və dərin tövhid düşüncəsinə ehtiyac var.

**Bildirişlər**

1. Düşmənlərin və onların tərəfdaşlarının ruhiyyəsini, vuruş üsulunu düzgün dəyərləndirmək zəruridir.
2. Ehtiyatlı olun ki, münafiqlər özləri üçün güclü mühafizəyə malik sığınacaq düzəltməsinlər. Bu iş onları daha təhlükəli edir.
3. Batində kökü olmayan zahiri birliyin heç bir dəyəri yoxdur.
4. Texniki imkanlar və maddi təchizat əmin-amanlıq üçün bəs etmir. Kafirlər bir belə təchizata malik olduqları halda müxtəlif problemlər yaşayır.
5. Düşməni alçaltmaq və zəiflətmək zəruridir.
6. Savaş zamanı daxili ixtilaf düşüncəsizlik göstəricisidir.

***Ayə 15:***

**﴿كَمَثَلِ الَّذِينَ مِن قَبْلِهِمْ قَرِيبًا ذَاقُوا وَبَالَ أَمْرِهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾**

**"(Bəni Nəzir yəhudiləri) Onlardan bir qədər əvvəl (münafiqlərin yuxuya verdiyi) kəslər kimidir. Onlar öz azğınlıqlarının acısını daddılar. Onlar üçün ağrılı əzab var."**

**Nöqtələr**

"Vəbal" dedikdə bir işin pis sonluğu nəzərdə tutulur.

Mömin bir ağaca iki dəfə ilişmir. Bəni Nəzir yəhudiləri isə münafiqlərin Bəni Qinqa yəhudilərini aldatdığını yaddan çıxarıb, yenidən onlara aldandılar.

**Bildirişlər**

1. İnsanları və qrupları tanımaq üçün onların keçmişini araşdırın.
2. Cəmiyyətin rəhbəri qövmlərin və qrupların tarixindən agah olmalıdır.
3. Təlim-tərbiyədə xalqın anlayacağı nümunələrdən istifadə edin.
4. Maddi problemlər kafirlərin cəzasından bir şölədir.
5. Tarixin sabit qanunları var. Əgər kafirlər bir yolu gedib onun acısını dadmışlarsa, siz də bu yolu getsəniz eyni aqibətlə rastlaşasısınız.
6. Acılıqlar və şirinliklər öz əməllərimizin nəticəsidir.
7. Münafiqlərlə həmkarlığın həm dünya, həm də axirətdə əzabı var.

***Ayə 16:***

**﴿كَمَثَلِ الشَّيْطَانِ إِذْ قَالَ لِلْإِنسَانِ اكْفُرْ فَلَمَّا كَفَرَ قَالَ إِنِّي بَرِيءٌ مِّنكَ إِنِّي أَخَافُ اللَّهَ رَبَّ الْعَالَمِينَ﴾**

**“(Kitab əhlinin münafiqlərə aldanması) Şeytanın (insanı) aldatması kimidir. Bir vaxt insana dedi: “Kafir ol.” Elə ki kafir oldu belə dedi: “Mən səndən uzağam, aləmlərin Rəbbi olan Allahdan qorxuram.”**

***Ayə 17:***

**﴿فَكَانَ عَاقِبَتَهُمَا أَنَّهُمَا فِي النَّارِ خَالِدَيْنِ فِيهَا وَذَلِكَ جَزَاء الظَّالِمِينَ﴾**

**“Belə ki, onların ikisinin (şeytan və kafirlərin) sonu həmişəlik odda qalmaqdır. Sitəmkarların cəzası budur.”**

**Nöqtələr**

Bu ayədə münafiqlər şeytana bənzədilir. Onlar şeytan kimi xalqa vəd verir, Amma vədlərinə əməl etmirlər. Bir çox şəxslər, hətta dövlətlər öz yaxınlarına vəd verir, amma təhlükə yaranan kimi onları tənha qoyurlar.

İbn Abbas bu ayələrlə bağlı bir macəra nəql edir: Bəni-İsrail qövmündə uzun illər ibadət edib məşhurlaşmış Bərsisa adlı bir abid vardı. Xalq öz xəstələrini onun yanına gətirirdi. Bu nəhayət bir gün varlı qadın ona müraciət etdi. Abid şeytanın vəsvəsələri ilə bu qadına əl uzatdı, günaha batdı. Sonra onu öldürüb basdırdı. Qadının yaxınları məsələnin nə yerdə olduğunu anladılar. Məntəqə hakimi onu həbs edib, haqqında edam hökmü çıxardı. Həmin anda şeytan abidə yaxınlaşıb dedi: “Mənim vəsvəsələrim səni bu günə saldı. Əgər mənə səcdə etsən, səni azadlığa çıxararam.” Abid dedi: “Səcdə etmək gücüm yoxdur.” Şeytan dedi: “Qaşlarınla səcdə et.” Abid qaşları ilə səcdə işarəsi etdi. Buna baxmayaraq onu dara çəkdilər.[1]

Şeytan hərəni bir yolla aldadıb Allahdan uzaqlaşdırır: Bəni-İsraildən olan abidi ibadəti ilə aldadıb günaha çəkdi; Qarun öz elmi ilə qürrələnib yolunu azdı;[2] Bələm Baura ismi-əzəmi bildiyi halda nəfs istəklərinə aldandı;[3] Samiri öz elm və

---

[1] “Təfsiri-məcməül-bəyan”; “Təfsiri-Qurtubi”; “Təfsiri-ruhul-bəyan”
[2] “Qəsəs”, 78
[3] “Əraf”, 157

hünərinə uyaraq yoldan çıxdı;[1] kimlərisə var-dövləti qürrələndirdi;[2] bir başqaları oğul övladlarına uydu;[3] kimlərsə hakimiyyətə aldandı;[4] bəziləri ulduzlara aldandı.[5]

### *Münafiqlərin şeytana bənzərliyi*

Həm münafiqlər, həm də şeytan möminlərin düşmənidir;[6] hər ikisi insanları günah və küfrə çağırır;[7] onların hər iksindən uzaqlaşmaq zəruridir;[8] hər ikisinin min üzü var;[9] hər ikisi xeyrixahlıq şüarı ilə insanları aldadır;[10] hər iksinin yeri cəhənnəmdir.[11]

### Bildirişlər

1. Məsələnin qarşı tərəfə isbatı və ya daha artıq nüfuz üçün müəyyən nümunələrdən və təcrübələrdən istifadə etmək olar.
2. Münafiqlərin vəsvəsə və təhrikləri şeytan vəsvəsələrinin nümunəsidir.
3. Şeytan yalnız dəvət edir. Öz ixtiyarı ilə azğın yolu seçən insan özüdür.
4. Şeytan yarı yoladək yoldaşdır.
5. İnsan bir həddə alçalır ki, şeytan da ondan qaçır.
6. Şeytan və münafiqlər guya Allahdan qorxduqları üçün günahkarlara verdikləri vədə əməl etmirlər.

### *Ayə 18:*

﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ اتَّقُوا اللَّهَ وَلْتَنظُرْ نَفْسٌ مَّا قَدَّمَتْ لِغَدٍ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ﴾

**“Ey iman gətirənlər! Allahdan qorxun, hər kəs sabah üçün göndərdiyinə baxsın. Allahdan qorxun ki, Allah gördüyünüz işlərə dərindən bələddir.”**

### Nöqtələr

Bu ayədə təqva göstərişi təkrarlanır. Bunun müxtəlif mənaları ola bilər: birinci göstəriş təqvaya, ikinci göstəriş təqvanın keyfiyyətinə aid ola bilər; birinci götəriş xeyir işlərə çalışmağı, ikinci göstəriş günahlardan çəkinməyi nəzərdə tuta

[1] “Taha”, 96
[2] “Tövbə”, 56
[3] “Muddəssir”, 13
[4] “Zuxruf”, 51
[5] “Fəcr”, 9; “Şuəra”, 149
[6] “yasin”, 60; “Munafiqun”, 4
[7] “Bəqərə”, 268; “Tövbə”, 67
[8] “Bəqərə”, 208; “Munafiqun”, 4
[9] “Bəqərə”, 14
[10] “Taha”, 120; “Bəqərə”, 11
[11] “Həşr”, 17; “Nisa”, 145

bilər; olsun ki birinci təqva göstərişində keçmiş günahlara tövbə, ikinci təqva göstərişində gələcək üçün ehtiyat yığmaq tapşırılır.

Rəvayətdə oxuyuruq ki, para xurma və ya xoş bir sözlə qəlbləri sevindirin. Belə olmasın ki, Allah bizə qulaq, göz, başqa nemətlər verdiyi halda qiyamətdə azuqəmiz olmadığından xəcalət çəkək. Həmin gün bəziləri qurtuluş vasitəsi axtarsa da, öncədən hazırlıq görmədiyindən əziyyət çəkər.[1]

## Bildirişlər

1. İman təqva zəminidir, imanın səmərə verməsi üçün təqvalı olmaq lazımdır.
2. Varislərdən xeyir gözləməyək, hərə öz aqibəti haqqında düşünsün.
3. Axirət üçün ehtiyat yığdığımız saleh əmələ diqqətli olaq.
4. Nəfslə hesab çəkmək lazımdır. (Əgər bu gün diqqətli olsaq sabah pis vəziyyətdə qalmarıq)[2]
5. Qiyamət yaxındır.[3]
6. İnsanın öz aqibətinə görə narahatlığı iman şərtidir.
7. Təqva nəfslə hesab üçün zəmindir, nəfslə hesab təqvanı gücləndirir.
8. Kimsə hansısa məqamda özünü sğortlamış saymasın.
9. Allahın hər şeydən xəbərdar olduğuna inanmaq təqva səbəbidir.

### *Ayə 19:*

﴿وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنسَاهُمْ أَنفُسَهُمْ أُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ﴾

**“Allahı unudan və Allah tərəfindən özləri özlərinə unutdurulan kəslər kimi olmayın. Onlar həmin fasiqlərdir.”**

### *Ayə 20:*

﴿لَا يَسْتَوِي أَصْحَابُ النَّارِ وَأَصْحَابُ الْجَنَّةِ أَصْحَابُ الْجَنَّةِ هُمُ الْفَائِزُونَ﴾

**“Od əhli ilə behişt əhli eyni deyil. Behişt əhli həmin nicat tapanlardır.”**

## Nöqtələr

Allahı unudanlar zümrəsinin ən aydın nümunəsi münafiqlərdir. “Tövbə” surəsinin 67-ci ayəsində münafiqlər haqqında bildirilir ki, onlar Allahı unutduqlarından Allah da onları unutdu. Əlbəttə Allah unutqan deyil. Allah unutdu deyərkən Allahın öz lütfünü kəsməsi nəzərdə tutulur.[4]

Unutqanlıq insan üçün ən təhlükəli bəladır. İnsanların bir qrupu dördayaqlılardan da pisdir. Çünki onlar qəflətdədirlər.[5] Bəli, Allahdan, qiyamət günündən, ilahi ayələrdən qəflət insanı heyvandan da aşağı mərhələyə alçaldır.[6]

---

[1] “Təfsiri-nurus səqəleyn”
[2] “Nəbə”, 40
[3] “Məaric”, 6
[4] “Məryəm”, 64
[5] “Əraf”, 179
[6] “Tövbə”, 67; “Sad”, 26; “Taha”, 126

Allahı unudan insan yolunu azır, heç bir məqsəd izləmir, qanunlara riayət etmir, nəfs istəklərinə qul olur, bütün hərəkətləri azğın istəklərin təminatına yönəlir. Bu, insan üçün ən böyük təhlükədir.

Allahın lütfünü unudan insan məyus olub çıxılmaz vəziyyətə düşür.

Allahın əfvini undan insan özünü çıxılmaz vəziyyətdə görür və istənilən günaha əl atır.

İlahi rəhbərləri undan insan zalım rəhbərlərə üz tutur.

Allahın qanunu unudan insan səs gələn tərəfə qaçıb başını itirir.

Allahın yolunu unudan insan min bir yol ayrıcında başını itirir.

Allahın övliyalarını unudan insan pis dostların əlində oyuncaq olur.

Allahın nemətlərini unudan insan başqalarına yaltaqlanır.

Allahı unudan şəxs heç şübhəsiz yaranış məqsədinə diqqətsiz qalasıdır. Yaranış məqsədinə diqqətsiz insan isə ömür və istedadlarını hədərə verəsidir.

İnsan fitrətən Allahşünasdır. Unutqanlıq onu sonradan tapır.

**Bildirişlər**

1. Möminlər üçün Allahı unutmaq təhlükəsi var və onlar xəbərdarlığa ehtiyaclıdır.
2. İlk addımı insan özü atır və sonra unutqanlıq cəzasına məhkum olunur.
3. Allahın cəzaları insanın əməllərini münasibdir.
4. Günah Allaha diqqətsizliyin bəhrəsidir.

***Ayə 21:***

**﴿لَوْ أَنزَلْنَا هَذَا الْقُرْءَانَ عَلَى جَبَلٍ لَّرَأَيْتَهُ خَاشِعًا مُّتَصَدِّعًا مِّنْ خَشْيَةِ اللَّهِ وَتِلْكَ الْأَمْثَالُ نَضْرِبُهَا لِلنَّاسِ لَعَلَّهُمْ يَتَفَكَّرُونَ﴾**

**“Əgər bu Quranı dağa nazil etsəydik, heç şübhəsiz, həmin dağın Allahın qorxusundan kiçildiyinə vu uçulub-dağıldığını görərdin. Biz bu məsəlləri insanlar üçün çəkirik, olsun ki, düşünələr.”**

**Bildirişlər**

1. Tərbiyə üsullarından biri dolayı yolla məzəmmətdir.
2. İlahi kitab olan Quranda nöqsan yoxdur. Sadəcə, insanlarda yetərli istedad yoxdur.
3. Mənəvi həqiqətlərin bəyanında misallardan istifadə Quran üslubudur.
4. Necə olur ki, möhtəşəm dağ Quranın əzəməti qarşısında kiçilir, amma bəzi insanların qəlbi daşdan da bərkmiş kimi Qurandan təsirlənmir?
5. Varlıq aləminin şüuru var. Quran dağa nazil olacağı halda dağın kiçiləcəyi, sarsılacağı bildirilir.
6. Kiçilmə və qorxu ilahi ayələr haqqında düşüncənin səmərəsidir.
7. Qurandakı misallar barədə lazımınca düşünülməsə onlar yanlış anlaşılar.

***Ayə 22:***

﴿هُوَ ٱللَّهُ ٱلَّذِي لَآ إِلَٰهَ إِلَّا هُوَ عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ هُوَ الرَّحْمَنُ الرَّحِيمُ﴾

**“O özündən savayı heç bir məbud olmayan, qeyb və aşkardan agah Allahdır. O mehriban və bağışlayandır.”**

### Nöqtələr

”Həşr” surələrinin son ayələrinin tilavəti rəvayətlərdə çox tapşırılır. Uyğun ayələri oxuyan şəxs bir çox faydalar əldə edir. Bu faydalardan biri də günahların bağışlanması, şəhid məqamı həddinə çatmaqdır.

Ehtimal olunur ki, insan bu ayələri oxuyarkən ismi-əzəm də arada oxunmuş olsun. Çünki həmin ayələrdə 15-17 ilahi sifət bəyan olunur və hər bir sifət Allahın sonsuz şamilliyini göstərir.

Həqiqi məbudun elmi, rəhməti, ucalığı, yenilməzliyi, qüdrəti, əzəməti, kamil təsiri olmalıdır. Bu sifətlər isə yalnız Allahda var.

Quranda istənilən bir məqamda öncə qeyb, sonra aşkar yada salınır. Bu ardıcıllıq qeybin əhəmiyyətini, ya da daha çox yada salındığını göstərir.

İmam Sadiq (ə) buyurur: “Baş verməyənlər qeyb, baş verənlər aşkardır.”[1]

### Bildirişlər

1. Birlik və yeganəlik ən ilk və ən mühüm ilahi sifətdir.
2. Hamının soraqladığı kəs Allahdır.
3. Allah qeybdən də, aşkardan da eyni dərəcədə xəbərdardır.
4. Allah hər şeydən xəbərdar olsa da, öz bəndələri ilə mərhəmətlə davranır. Onun elmi insanı qorxudur, rəhməti ümid verir. Tərbiyədə qorxu ilə ümid arası hal təsirlidir.
5. Allahdan savayı bütün mövcudların elm və rəhməti məhduddur.

### *Ayə 23:*

﴿هُوَ اللَّهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ ٱلْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ سُبْحَانَ اللَّهِ عَمَّا يُشْرِكُونَ﴾

**“Odur Özündən savayı məbud olmayan, mülk sahibi, hər eybdən pak, salamatlıq bəxş edən, əmin-amanlıq gətirən, hər şeyə hakim, yenilməz qüdrət sahibi, qəbul etdirən və ucada dayanan Allah. O şərik qoşduqları hər şeydən pakdır.”**

### Nöqtələr

”Məlik” dedikdə insanlar üzərində hökm sahibi olan, “quddus” dedikdə istənilən nöqsandan pak, “muhəymin” dedikdə hakim mənaları anlaşılır. “Cəbbar” sözü iki mənada işlənə bilər: məcbur etməyə qadir və əvəz çıxan.

---

[1] “Təfsiri-rahnoma”; “Məaniyul-əxbar”, s. 46

”Sәlam” sözü savaş vә şәrlә yox, salamatçılıq vә xeyirlә rәftar edәn kәs mәnasını bildirir. “Mömin” dedikdә isә әmin-amanlıq gәtirәn, insanı qoruyan kәs mәnası anlaşılır.[1]

Dünyadakı hakimlәr başdan-ayağa möhtac, mәhdud vә naqisdirlәr. İnsanlar onlardan amanda deyil, daim tәhlükә gözlәyir. Amma Allah-taala müqәddәs, eyb vә nöqsandan pak, salamatlıq bәxş edәn, hәr şey üzәrindә hökm sahibi olan, yenilmәz, hökmünü qәbul etdirәn vә ucada dayanmış hakimdir.

### Bildirişlәr

1. Varlığın yeganә mәbudu mütlәq hökm sahibi olan kәsdir.
2. Allahın hakimiyyәti istәnilәn zülm, nöqsandan uzaqdır, tam müqәddәsdir.
3. Allah öz mәxluquna heç bir zәrәr toxundurmur.
4. Allah varlıq üzәrindә kamil tәsirә malikdir.
5. Müşriklәrin Allah haqqındakı tәsәvvürlәri yanlışdır.

### *Ayә 24:*

**﴿هُوَ اللَّهُ ٱلْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ لَهُ الْأَسْمَاءُ الْحُسْنَى يُسَبِّحُ لَهُ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾**

**“Odur xaliq, fәrqli yaradan, surәt verәn Allah. Әn üstün adlar vә sifәtlәr Ona mәxsus. Göylәrdә vә yerdә olanlar Ona tәsbih deyir, Odur misilsiz qüdrәt vә hikmәt sahibi.”**

### Nöqtәlәr

”Bari” dedikdә fәrqli, çeşidli şәkildә yaradan mәnası anlaşılır.

Quranın tәsbihlә başlayıb, tәsbihlә başa çatan yeganә surәsi bu surәdir. Surәnin әvvәlindә Allahın izzәt vә hikmәt, sonunda yenilmәzlik vә hikmәt sifәtlәri zikr edilir.

### Bildirişlәr

1. Allah mәxluqlarını yaradarkәn kimdәnsә vә ya nәdәnsә nümunә götürmәmiş, Özü hәr şeyә surәt bәxş etmişdir.
2. Bütün kamilliklәrә malik olan kәs varlığın tәsbihinә layiqdir.
3. Mövcudların tәsbihi varlıq alәminin bir növ elm vә şüura malik olduğunu göstәrir.
4. Mövcudların tәsbihi tәsbihdәn uzaq insanlara bir xәbәrdarlıqdır.
5. Allahın qüdrәti zor yox, hikmәtә әsaslanır.

## “Mumtәhinә” surәsi

[1] “Tәfsiri-әl mizan”

## *(60-CI SURƏ; 13 AYƏ)*

## *İYİRMİ SƏKKİZİNCİ CÜZ*

## *“MUMTƏHİNƏ” SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 13 ayədən ibarətdir. Surənin 10-cu ayəsində mühacir qadınların imtahana çəkilməsindən danışıldığı üçün o “Mumtəhinə” yəni imtahana çəkilən qadın adlandırılmışdır.

Surədə Allaha məhəbbətdən, Allah düşmənləri ilə dostluğa qadağadan danışılır. Müsəlmanlara tövsiyə olunur ki, həzrət İbrahimi özlərinə nümunə götürsünlər.

Qurani-kərimin 114 surəsi arasında 9 surənin başlanğıcında düşmənə diqqət, onu tanımaq məsələsi önə çəkilir.[1]

Quranda düşməni tanımaqla bağlı ayələr əhkamdan danışan ayələrdən çoxdur. Bu səmavi kitabda 191 dəfə “zəllə”, 521 dəfə “kufr”, 37 dəfə “nifaq”, 45 dəfə “sədd” sözləri işlədilmişdir.

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَتَّخِذُوا عَدُوِّي وَعَدُوَّكُمْ أَوْلِيَاء تُلْقُونَ إِلَيْهِم بِالْمَوَدَّةِ وَقَدْ كَفَرُوا بِمَا جَاءكُم مِّنَ الْحَقِّ يُخْرِجُونَ الرَّسُولَ وَإِيَّاكُمْ أَن تُؤْمِنُوا بِاللَّهِ رَبِّكُمْ إِن كُنتُمْ خَرَجْتُمْ جِهَادًا فِي سَبِيلِي وَابْتِغَاء مَرْضَاتِي تُسِرُّونَ إِلَيْهِم بِالْمَوَدَّةِ وَأَنَا أَعْلَمُ بِمَا أَخْفَيْتُمْ وَمَا أَعْلَنتُمْ وَمَن يَفْعَلْهُ مِنكُمْ فَقَدْ ضَلَّ سَوَاء السَّبِيلِ﴾**

**“Ey iman gətirənlər! Mənim düşmənimi və öz düşməninizi dost bilməyin. Siz onlarla dostluq yolu tutursunuz, onlar isə sizin üçün göndərilən haqqı inkar edirlər. Onlar sizi və peyğəmbəri Rəbbiniz olan Allaha iman səbəbindən (Məkkədən) çıxardılar. Əgər mənim yolumda cihad və razılığımı qazanmaq üçün (vətəninizdən) çıxmısınızsa (onlarla dostluq etməyin). Siz məxfi şəkildə onlara dostluğunuzu bildirirsiniz. Hanıs ki, mən sizin məxfi və agah işlərinizdən agaham. Sizlərdən kim belə etsə, hökmən, doğru yolu itirmişdir.”**

### Nöqtələr

”Əduvv” sözü həm bir nəfərə, həm də bir qrupa aid edilə bilər. Amma hazırkı ayədə qrup nəzərdə tutulmuşdur. Çünki həmin sözə qarşı cəm formada olan “əvliya” sözü işlədilir.[2]

---

[1] “Bəraət”, “Əhzab”, “Muhəmməd”, “Mumtəhinə”, “Munafiqun”, “Məaric”, “Bəyyinə”, “ Kafirun”, “Məsəd”

[2] “Təfsiri-əl mizan”

Peyğəmbərin (s) və müsəlmanların xaric olması dedikdə onlarla pis rəftar nəzərdə tutulur. Belə ki, Peyğəmbər (s) və onun ətrafındakılar kafirlərin pis rəftarlarından qurtulmaq üçün Məkkədən çıxdılar.[1]

Təfsirlərdə bildirilir ki, Peyğəmbərin (s) yaxınlarından biri bir qadın vasitəsi ilə Məkkə müşriklərinə məktub göndərdi və onları Peyğəmbərin (s) Məkkənin fəthi ilə bağlı planlarından xəbərdar etdi.

Cəbaril bu məsələni həzrət Peyğəmbərə (s) çatdırdı. Peyğəmbər (s) məktubu qadından almaq üçün həzrət Əli (ə) və bir qrup müsəlmanı Məkkəyə doğru yola saldı. Həzrət hətta qadını harada tapa biləcəklərini dedi. Yolu salınmış dəstə Peyğəmbərin (s) dediyi yerdə qadını tapdı. Qadın belə bir məktubdan xəbərsiz olduğunu bildirdi. Bəziləri onun sözlərinə inandılar və istədilər ki, Mədinəyə qayıtsınlar. Amma həzrət Əli (ə) buyurdu: "Nə Cəbrail Peyğəmbərə (s) yalan deyib, nə də Peyğəmbər (s) bizə. Heç şübhəsiz, nəzərdə tutulan məktub bu qadındadır." Sonra həzrət qılıncını çəkib məsələnin ciddi olduğunu qadına anlatdı. Qadın saçları arasından məktubu çıxarıb həzrətə təhvil verdi.

Məktubu Peyğəmbərə (s) gətirdilər. Həzrət Peyğəmbər (s) məktubu yazan şəxsi, Hatəb ibn Əbu Bəltəəni çağırıb məzəmmət etdi. Hatəb dedi: "Mən xain deyiləm, amma yaxınlarım Məkkədə olduğundan istədim onlara qarşı münasibəti yumşaldım." Peyğəmbər (s) onu bağışladı və hazırkı ayələr nazil oldu.

Maraqlıdır ki, bu qadın Məkkədən Mədinəyə qayıtdı və Peyğəmbərdən (s) yardım istədi. Həzrət (s) ondan soruşdu: "İslamı qəbul edirsənmi?" Qadın bu işdən imtina etdi. Həzrət (s) buyurdu: "Mühacirlərə üçünmü Məkkədən hicrət etmisən?" Qadın belə olmadığını bildirdi. Həzrət (s) soruşdu: "Bəs nə üçün Mədinəyə gəlmisən?" Qadın dedi: "Gəlmişəm ki sizdən kömək istəyəm." Həzrət (s) buyurdu: "Məkkədə sənin ətrafındakı cavanlar hanı? (Həzrət bu sözü ilə xanəndə qadının Məkkədə müştərilərinə işarə etdi." Qadın dedi: "Məkkə camaatı Bədr savaşında məğlub olandan sonra kimsə məni axtarmır. (Qadın bu sözlə Məkkə əhlinin ruhi düşkünlüyünə işarə etdi) Həzrət (s) göstəriş verdi ki, qadına kömək göstərilsin. (Bəli, qərib kafir də olsa ona kömək göstərildi)[2]

Bu əhvalatdan aydın olur ki, hərbi sirri qorumaq çox mühümdür və həzrət Əli (ə) bu iş mühüm olduğu üçün qadını öldürməklə hədələdi.[3]

### *Düşməni tanımağın zəruriliyi*

Quranın müxtəlif ayələrində düşmənlərin proqramları, hiylələri açıqlanır və müsəlmanların vəzifələri onlara xatırladılır:

a) Düşmənin düşüncə və arzuları: iman əhlinin ən qatı düşməni, şübhəsiz ki, yəhudilər və müşriklərdir;[4] nə kitab əhlindən olan kafirlər, nə də müşriklər müsəlmanlara onların Rəbbi tərəfindən yardım göstərilməsini arzulamır;[5] onlar

[1] "Təfsiri-əl mizan"
[2] "Təfsiri-məcmül-bəyan"
[3] "Təfsiri-əl mizan"
[4] "Maidə", 82
[5] "Bəqərə", 105

sizinlə saziş üçün güzəştə getməyinizi istəyirlər;[1] sizin əziyyətdə olmağınızı arzulayırlar;[2] arzu edirlər ki, sizin silah və sərmayəniz olmasın.[3]

b) Düşmənin hiylələri: düşmənlər müsəlmanlara qarşı istənilən hiyləyə əl atır;[4] onlar azğındırlar və sizi də azdırmaq istəyirlər.[5]

v) Düşmənin rəftarları: kafirlər sizin aşkar düşmənlərinizdir;[6] onlar Allaha və möminlərə hiylə qurmaq istəyirlər;[7] sizə qalib gəlsələr düşməniniz olarlar;[8] möminlərə nazil olana sübhlər inanır, axşamlar onu inkar edirlər.[9]

q) Düşmən qarşısında müsəlmanların vəzifələri: onlar düşməndirlər, onlardan həzər qılın;[10] düşmənə qarşı gücünüz çatanı hazırlayın;[11] özgələrinə sirr verməyin.[12]

## Bildirişlər

1. Etiqadlı cəmiyyət Allah düşmənləri ilə rabitə qurub səmimi davrana bilməz.
2. Allaha iman Allahın düşmənləri ilə dostluq rabitəsinə icazə vermir.
3. Allahın düşmənləri əslində elə möminlərin düşmənləridir.
4. Kafirlər bizə düşmən olsalar da, bu düşmənçiliyin əsas səbəbi Allaha qarşı düşmənçilikdir.
5. Düşmənlərlə dostluq onları daha da cəsarətləndirir.
6. Öz əmr və qadağalarınızı əsaslandırın.
7. Xarici siyasətdə əqələr dini meyarlar əsasında qurulmalı və kəsilməlidir.
8. Din siyasətdən ayrı deyil. (Düşmənlərlə rabitənin kəsilməsi Quranda əks olunmuş siyasi bir göstərişdir)
9. Kafirlər təkcə əqidənizlə düşmən deyil. Onlar sizi məhv etmək fikrindədir.
10. Kafirlərin sizinlə düşmənçiliyi Allaha imanınıza görədir.
11. Kafirlərlə o vaxt rabitə qurmaq olar ki, onlar sizin dəyərlərinizə ehtiram göstərsinlər, fitnə-fəsad törətmək fikrində olmasınlar.
12. İslam müsəlmanlara izzət istəyindədir. (Sizin əqidənizi inkar edən, sizə qarşı fitnə-fəsad törədənlərlə dostluq bir zillətdir)
13. Bir qəlbə iki dostluq sığmaz.
14. Cihad səmimi, Allaha xatir olmalıdır.
15. Allah kafirlərlə məxfi rabitələrdən agahdır.
16. Allahın elminə diqqət insanı günahdan çəkindirən səbəblərdəndir.

---

[1] "Qələm", 9
[2] "Ali-İmran", 118
[3] "Nisa", 102
[4] "Tariq", 15
[5] "Nisa", 42
[6] "Nisa", 101
[7] "Bəqərə", 9
[8] "Mumtəhinə", 2
[9] "Ali-İmran", 72
[10] "Munafiqun", 4
[11] "Ənfal", 60
[12] "Ali-İmran", 119

17. Tərbiyə prosesində əmr və qadağalara ehtiyac var. Həm dəlil göstərmək lazımdır, həm stimul yaradılmalıdır, həm də xəbərdarlığa ehtiyac var.

18. Bir çox möminlərin aqibəti pis olur.

19. İlk addımda İslam uğrunda vuruşan, amma sonra düşmənlərlə rabitə səbəbindən bədbəxt olanlar çoxdur.

20. Din düşmənləri ilə məxfi rabitələr sayəsində mənafe əldə etmək planı doğru yoldan çıxmaq, bədbəxtliyə üz tutmaqdır.

### *Ayə 2:*

**﴿إِن يَثْقَفُوكُمْ يَكُونُوا لَكُمْ أَعْدَآءً وَيَبْسُطُوا إِلَيْكُمْ أَيْدِيَهُمْ وَأَلْسِنَتَهُم بِالسُّوءِ وَوَدُّوا لَوْ تَكْفُرُونَ﴾**

**“Əgər sizə qalib gəlsələr düşməniniz olacaqlar. Əlləri və dilləri pisliklə sizə uzanacaq. Onlar sizin (öz dininizdən uzaqlaşıb) küfr etməyinizi istəyirlər.”**

### Nöqtələr

”Səqf” sözü tapmaq, üzləşmək mənasını bildirir.

Həzrət Əli (ə) “Nəhcül-bəlağənin” 53-cü məktubunda Malik Əştərə xitabən yazır: “Hətta sülhdən sonra düşmənlərin hiylələrindən həzər qıl. Çünki düşmən bəzən sizi yuxuya vermək üçün yaxınlaşır.”

”Ğurərul-hikəm” kitabında həzrətin dilindən nəql olunur: “Düşmən səni tərifə başlasa belə özünü amanda bilmə. Düşmən su kimidir, bəzən istiləşsə də, sonda soyuyur.”

### Bildirişlər

1. Kafirlərlə rabitələri kəsməyin beş dəlili var: Onlar sizin məktəbinizi qəbul etmirlər, rəhbər və ümmətə dözümsüzdürlər, qalib gəlsələr düşmənçiliklərini işə salarlar, əlləri və dilləri ilə sizi incidərlər, sizi dininizdən çıxarmaq istəyirlər.
2. Düşmən sizə ideoloji baxımdan hakim olmaq fikrindədir.
3. Düşmənin bir an susması onun dostluğunu göstərmir. Onlar sadəcə zərbə vurmaq imkanı olmadığından bir an dayanırlar.
4. Düşmən həm hərbi, həm də ideoloji hücumdadır.
5. Düşmənin əl və dil uzatmasının kökü onun iç istəklərindədir.
6. Düşmənlər sizinlə düşmənçilikdə əlbirdirlər.
7. Düşmənin hərbi və ideoloji zərbələrdə məqsədi sizi dininizdən ayırmaqdır.
8. Haqqı inkar etməyincə düşmən sizdən razı qalmaz.[1]

### *Ayə 3:*

**﴿لَن تَنفَعَكُمْ أَرْحَامُكُمْ وَلَا أَوْلَادُكُمْ يَوْمَ الْقِيَامَةِ يَفْصِلُ بَيْنَكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾**

[1] “Bəqərə”, 217

**“Qiyamət günü sizin üçün nə qohum-əqrabanızın, nə də övladlarınızın bir faydası var. (Həmin gün Allah) Sizinlə onlar arasında ayrılıq salacaq. Allah əməllərinizi görür.”**

### Nöqtələr

İnsanı düşmənə yaxınlaşdıran səbəblərdən biri də ailə və qohumluq rabitələrini qorumaqdır. Bu səbəbdən Quran buyurur ki, ailə və qohum-əqrabanızdan qiyamət günü heç bir fayda yoxdur, onlara görə günaha yol verməyin.

Qiyamət günü yaxınların acizliyi və vasitələrin gücdən düşməsi Quranda dəfələrlə bəyan olunur: qiyamət günü insanlar arasında rabitələr səmərəsizdir;[1] həmin gün səbəblər təsirdən düşər.[2]

### Bildirişlər

1. Qohumluq hisləri bəzən insanı düşmənlərə yaxınlaşdırır.
2. Düşmənlərə hansı məqsədlə yaxınlaşırsınız? Onlar sizin küfrə batmağınızı istəyir, əlləri və dilləri sizin ziddinizədir, qiyamətdə bir faydaları yoxdur.
3. Allahdan savayı bütün güvənc yerlərinin təsirsizliyi və qiyamət səhnəsində tənhalığınız haqqında düşünün. Bu düşüncələr kafirlər qohum-əqrabanız olsa belə sizi onlardan uzaqlaşdırar.
4. Qiyamət günü Allah azğınları möminlərdən ayırar. Beş günlük dünyaya xatir onlara yaxınlaşmağa dəyərmi?
5. Allahın hər şeydən xəbərdar olduğu barədə düşünmək insanı günahdan uzaqlaşdırır.

### *Ayə 4:*

﴿قَدْ كَانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِي إِبْرَاهِيمَ وَالَّذِينَ مَعَهُ إِذْ قَالُوا لِقَوْمِهِمْ إِنَّا بُرَاء
مِنكُمْ وَمِمَّا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاء
أَبَدًا حَتَّى تُؤْمِنُوا بِاللَّهِ وَحْدَهُ إِلَّا قَوْلَ إِبْرَاهِيمَ لِأَبِيهِ لَأَسْتَغْفِرَنَّ لَكَ وَمَا أَمْلِكُ لَكَ مِنَ
اللَّهِ مِن شَيْءٍ رَّبَّنَا عَلَيْكَ تَوَكَّلْنَا وَإِلَيْكَ أَنَبْنَا وَإِلَيْكَ الْمَصِيرُ﴾

**“Həqiqətən, İbrahim və onunla olanlarda sizin üçün yaxşı bir nümunə var. Çünki onlar müşrik qövmlərinə dedilər: “Həqiqətən, biz sizdən və sizin Allah əvəzinə pərəstiş etdiklərinizdən zara gəlmişik. Biz sizi inkar edirik, aramızdakı düşmənçilik əbədidir. Bir Allaha iman gətirsəniz, belə olmaz. İbrahimin öz atasına “şübhəsiz, sənin üçün bağışlanma diləyəcəyəm və bunda başqa şeyə gücüm yox” deməsi istisnadır. Pərvərdigara, Sənə təvəkkül etdik, sənə yalvardıq, qayıdışımız sənə doğrudur.”**

### Nöqtələr

---

[1] “Muminun”, 110

[2] “Bəqərə”, 166

”Usvə” sözü ardıcıllıq mənasını bildirən “təəsi” sözündəndir.

Ötən ayələrdə bəzi müsəlmanların öz qohum-əqrəbalarını qorumaq üçün kafirlərlə gizli və ya aşkar əlaqə saxladığından danışıldı. Bu ayədə isə bildirilir ki, kafirlərdən və müşriklərdən uzaqlığı həzrət İbrahim və onun ardıcıllarından öyrənin.

Həzrət İbrahim atasının küfr və şirk yolunda möhkəm dayandığını görüb ondan ümidini üzdü və uzaqlaşdı. İbrahim atası üçün bağışlanma diləməklə ona doğru yola qayıdış yolu saxladı. “Tövbə” surəsinin 114-cü ayəsində bu nöqtəyə işarə olunur.

Quranda iki kişi və iki qadın nümunə olaraq tanıtdırılır: həzrət İbrahim və İslam peyğəmbəri (s), Fironun zövcəsi və həzrət Məryəm.[1] Fironun zövcəsi və həzrət Məryəm Nuh və Lutun zövcələrinin ziddinə olaraq nümunə kimi təqdim olunur.

İmam Hüseyndən (ə) nəql olunmuş rəvayətdə[2] xanım Fatimə (s.ə.) də nümunə kimi təqdim edilir. Həzrət Mehdi (ə. c.) buyurur: “Allah rəsulunun (s) qızı mənim üçün gözəl nümunədir.”[3]

Həzrət İbrahimin müəyyən səciyyələri Quranda bəyan olunmuşdur: çətin ilahi sınaqda möhkəmlik;[4] məsciddə xidmət;[5] Allah qarşısında təslimçilik;[6] Allah dərgahına yalvarış, səbir və həlimlik;[7] İbrahimin təklikdə bir ümmət olması;[8] vəfalılıq;[9] qəhrəmanlıq;[10] hicrət;[11] güzəşt və isar.[12]

## Bildirişlər

1. Tərbiyə və təbliğ prosesində müşahidə olunan, əməli nümunələr göstərmək lazımdır.
2. Peyğəmbərlər nümunə, onların tərbiyə etdiyi insanlar şəxsiyyətlərdir.
3. Zaman dini və mənəvi ideallarn rolunu zəiflətmir. Həzrət İbrahim bu gün də bizim üçün nümunədir.
4. Nümunəvi şəxslər ətrafında pis adamların varlığı onlardan uzaqlaşmaq üçün səbəb deyil. Quran İslam peyğəmbəri (s) və həzrət İbrahimi nümunə kimi tanıtdırır. Hansı ki hər iki peyğəmbərin əmisi haqq yolda deyildi.
5. Yaxşı və pis nümunələr var.
6. İlahi rəhbərə yoldaşlıq, onunla düşüncə və əməldə həmrəylik zəruridir.

---

[1] “Əhzab”, 21; “Təhrib”, 11, 12
[2] “Məqtəli-əbu Məxnəf”, s. 86
[3] “Bihar”, c. 53, s. 180
[4] “Bəqərə”, 124
[5] “Bəqərə”, 125
[6] “Ali-İmran”, 67
[7] “Tövbə”, 114
[8] “Nəhl”, 120
[9] “Nəcm”, 37
[10] “Ənbiya”, 57
[11] “Ənkəbut”, 26
[12] “Saffat”, 103

7. Müşriklərə etirazda qətiyyət bir dəyərdir.

8. Qohumluq rabitələri və ictimai bağlılıqlar haqqın izharına mane olmamalıdır.

9. Etiraz və üz çevirmənin əsasını qarşı tərəfin Allaha şərik qoşması, Allahdan uzaqlığı və şirk vasitələrinə bağlılıq təşkil edir.

10. Qarşı tərəfdən əqidə əsasında, məqsədli şəkildə üz çevirilməlidir.

11. Qarşı tərəfdən üz çevirməyin, bəraətin söz və əməl mərhələləri var.

12. İman istənilən şəkildə şirkdən saf olmalıdır.

13. Küfr və şirk qarşısında cəbhə yaratmaq və qətiyyət üçün təvəkkül, dua, məad etiqadına ehtiyac var.

14. Təvəkkül dedikdə guşənişinlik, süstlük nəzərdə tutulmur. Təvəkkül edən insan kafir və müşriklərdən üz çevirir, qətiyyətli mövqe tutur, eyni zamanda təvəkkül edir.

15. Təvəkkül nigarançılıqların dərmanıdır. Qətiyyətlə üz çevirməyin də mənfi təsirləri olduğundan təvəkkülə ehtiyac var.

16. Haradasa çıxış edib, qərarınızı bildirəndə Allahı yada salmaqla nəfsinizi cilovlayın.

17. İnsan yalnız Allaha təvəkkül etməli, Allah dərgahına əl açmalıdır.

18. Allahın övliyaları Özlərini nəyəsə malik bilmir, ilahi qanunların dəyişilməsi ilə razılışmırlar.

19. Bütün varlıq aləminin, eləcə də bizim yolumuz Allaha doğrudur.

***Ayə 4:***

**﴿رَبَّنَا لَا تَجْعَلْنَا فِتْنَةً لِّلَّذِينَ كَفَرُوا وَاغْفِرْ لَنَا رَبَّنَا إِنَّكَ أَنتَ الْعَزِيزُ الْحَكِيمُ﴾**

**“Pərvərdigara, bizi kafirlər qarşısında möhnətə salma, bizi bağışla. Pərvərdigara, Sən qüvvət və hikmət sahibisən.”**

## Nöqtələr

”Fitnə” sözünün lüğət mənası qatışılıq, imtahan, əzab, bəla və əziyyətdir. Müsəlmanlara əziyyət kafirlər üçün bir imtahandır. Bu yolla onların xəbisliyi, inadkarlığı üzə çıxır. Onlar öz qələbələri ilə öyünür və güclərinə əsasən özlərini haqlı sayırlar.

Ötən ayələrdə bəraətdən, qətiyyətdən, kafirlərlə dostluqdan çəkinməkdən danışıldı. Bu ayədə ötən ayədəki mövzular dua şəklində təkrarlanır. Allahdan istənilir ki, müsəlmanlar müxaliflərin əlində alət olmasın.

## Bildirişlər

1. Xitab dua qaydalarındandır. Adətən Qurandakı dualar “Rəbbəna” xitabı ilə başlayır.

2. Müsəlmanlar iqtisadi, hərbi, mədəni sahədəki müqabilələrində kafirlərə üstünlük verməməli, özlərini asılı vəziyyətə salmamalıdırlar.

3. Din və siyasət yanaşıdır. İnsan Allahdan bağışlanma diləməklə kafirlərdən üz çevirir. Dualardan biri siyasi, digəri mənəvi çalardadır.

4. Bəzən günahlar insanı fitnəyə düçar edir.

5. Elə bir kəsin dərgahına üz tutaq ki, həm qüdrət, həm də hikmət sahibidir.

6. Kafirlərin əlində alətə çevrilməmək bir izzətdir.

7. Bir çox qüdrət sahibləri hikmətdən uzaq rəftar edir. Allah isə həm qüdrət, həm də hikmət sahibidir.

***Ayə 6:***

**﴿لَقَدْ كَانَ لَكُمْ فِيهِمْ أُسْوَةٌ حَسَنَةٌ لِمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَمَن يَتَوَلَّ فَإِنَّ اللَّهَ هُوَ الْغَنِيُّ الْحَمِيدُ﴾**

**"Həqiqətən, onlarda sizin yaxşı nümçunə var. O kəslər üçün ki, Allah və son günə inanır üz çevirən (bilsin ki) Allah ehtiyacsız və mədh olunmuşdur."**

**Nöqtələr**

Hazırkı ayə və "Əhzab" surəsinin 21-ci ayəsində həzrət İbrahim və həzrət Məhəmmədin nümunə olması qeyd edildi. Allah və qiyamətə ümid insanın nümunə götürməsi üçün şərtdir.

"Rəbbəna" xitabı üç dəfə təkrarlandıqdan sonra yenə qeyd olunur ki, onlar nümunədirlər. Yəni təkcə bəraətdə, üz çevirməkdə yox, həm də dua və minacatda onlardan örnək götürün.

**Bildirişlər**

1. İlahi nümunələrin istifadə müddəti yoxdur.

2. Nəinki peyğəmbərlər, hətta onların sədaqətli ardıcılları sizin üçün nümunədirlər.

3. Düzgün əqidə rəftar və əxlaqda münasib nümunə götürülməsindən asılıdır. (Bəli, qəlbində ümid nuru olanlar düzgün nümunələrdən faydalanır. Üz çevirənlər isə ümidsiz kəslərdir)

4. Yalnız sabit iman dəyərlidir.

5. İnsanların ilahi nümunələrdən üz çevirməsi Allah və Onun övliyalarına zərər vurmur.

***Ayə 7:***

**﴿عَسَى اللَّهُ أَن يَجْعَلَ بَيْنَكُمْ وَبَيْنَ الَّذِينَ عَادَيْتُم مِّنْهُم مَّوَدَّةً وَاللَّهُ قَدِيرٌ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ﴾**

**"Ümid var ki, Allah siz və düşmənlik etdiyiniz kəslər arasında (Məkkənin fəthində İslamı qəbul etmələri vasitəsi ilə) dostluq bərqərar etsin. Allah qadirdir, bağışlayan və mehribandır."**

**Nöqtələr**

By ayədə kafir qohumları ilə əlaqələri kəsdiyinə görə həqarət hiss edən müsəlmanların nəzərinə çatdırılır ki, bu nigarançılıq gələcəkdə aradan qalxacaq, həmin yaxınların bir çoxu İslamı qəbul edəcək .

Nəzərə alsaq ki, qəlbən düşmənçilik küfrə nifrətdən qaynaqlanır, demək, bu düşməçiliyin dostluğa çevrilməsi üçün qarşı tərəf iman gətirməlidir. Başqa heç bir vasitə ilə bu düşmənçilik aradan qalxası deyil.

### Bildirişlər

1. Kafirlərin doğru yola gələcəyindən ümidinizi üzməyin.
2. Ədavətin səbəbləri var və onu daimi saymaq olmaz. Şərait dəyişdikdə düşmənçilik dostluğa çevrilə bilər.
3. Qəlbləri dəyişmək, məhəbbət yaratmaq Allahın əlindədir.
4. Siz kafirlərlə gizli dostluqdan əl çəkin, Allah sizə həqiqi dostluq nəsib etsin.
5. Ədavətin məhəbbətə çevrilməsi sizi təəccübləndirməsin. Allah hər işə qadirdir.
6. Kafirlərin keçmiş əməlləri bağışlana bilər.
7. Allahın əfvi Onun mərhəmətindən qaynaqlanır.

***Ayə 8:***

﴿لَا يَنْهَاكُمُ اللَّهُ عَنِ الَّذِينَ لَمْ يُقَاتِلُوكُمْ فِي الدِّينِ وَلَمْ يُخْرِجُوكُم مِّن دِيَارِكُمْ أَن تَبَرُّوهُمْ وَتُقْسِطُوا إِلَيْهِمْ إِنَّ اللَّهَ يُحِبُّ الْمُقْسِطِينَ﴾

**“Allah sizinlə din uğrunda vuruşmayan, sizi evlərinizdən çıxarmayanlara yaxşılığı və onlarla ədalətli rəftarı qadağan etmir. Həqiqətən, Allah ədalət yolunu tutanları sevir.”**

### Nöqtələr

Kafirlər iki qrupdur: bir qrupu müsəlmanlarla düşmənçilik edir, onlara qurğu qurur; ikinci qrup düşmənçilik etmir, bu istiqamətdə hər hansı addım atmır. Ötən ayələrdə buyuruldu ki, nə üçün düşmənçilik edən kafirlərlə dostluq edirsiniz? Göstəriş verildi ki onlardan uzaqlaşın, Allahla dostluq sizə bəs edər. Hazırkı ayədə ikinci qrup kafirlər haqqında buyurulur ki, onlarla yaxşı rəftar edin, bu zümrə ilə rabitə qurmağınızın eybi yoxdur.

İslamın xarici siyasəti ətrafdakıları cəzb etmək prinsipinə əsaslanır. Bu cazibə müəyyən yollarla əldə olunur:

1. Yaxşılıq; onlarla yaxşı davranın.
2. Ədalət; onlarla ədalətli rəftar edin.
3. Araşdırma üçün möhlət; onlara araşdırma üçün möhlət verin.[1] Əgər onlar möhlət istəsə, Allahın kəlamını eşitsinlər deyə onlara möhlət verin.
4. Sülh təklifinin qəbulu; əgər onlar sülh təklif etsələr, bu təklifi qəbul edin.[2]

---

[1] “Tövbə”, 60
[2] “Ənfal”, 61

5. Onlara maddi yardım; arada ülfət yaratmaq üçün zəkatdan onlara pay verin.[1]

6. Onların əmanətinə xəyanət etməyin, onlarla bağladığınız əhdə vəfa qılın, müqavilələri möhtərəm sayın, onların valideyninə yaxşılıq edin.

Bu ayəyə əsasən, İslam hakimiyyəti altında yaşayan və düşmənçilik etməyən kafirlər ictimai hüquqlardan bəhrələnir.

**Bildirişlər**

1. Əziyyət verməyən kafirlər o birilərindən fərqlənir.
2. İslam hətta kafirlərə münasibətdə yaxşılıq və ədalət dinidir.
3. İlahi məhəbbət elan etməklə qarşı tərəfi təşviq edin.

***Ayə 9:***

﴿إِنَّمَا يَنْهَاكُمُ اللَّهُ عَنِ الَّذِينَ قَاتَلُوكُمْ فِي الدِّينِ وَأَخْرَجُوكُم مِّن دِيَارِكُمْ
وَظَاهَرُوا عَلَى إِخْرَاجِكُمْ أَن تَوَلَّوْهُمْ وَمَن يَتَوَلَّهُمْ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ﴾

**“Allah sizə yalnız din səbəbindən sizinlə vuruşanlarla, sizi öz yurdunuzdan çıxaranlarla, sizi yurdunuzdan çıxaranlarla əl-ələ verənlərlə və onlarla dostluq edənlərlə dostluğu qadağan edir. Onlar həmin sitəmkarlardır.”**

**Nöqtələr**

Bu ayənin təfsirini yazdığım vaxt İsrail yerdən və göydən müsəlman məntəqələrinə hücum etmiş, müsəlmanları öz torpaqlarından çıxarmışlar. Bir çoxları şəhid olmuşdur. Bu ayəyə əsasən bütün müsəlmanlara vacibdir ki, sionist rejimi ilə rabitələri kəssin, onları dost saymasın. Bu ayə də Quranın siyasi ayələrindəndir.

Bu ayə öncəki ayə ilə eyni məzmunda olsa da şəffaflığa xatir Allah məsələni ayrıca vurğulayır.

**Bildirişlər**

1. İstər birbaşa, istər dolayısı ilə zülm etmək haramdır. (Bəli, təcavüzkar kafirləri himayə edənlər onların günahına şərikdir)
2. Məzlum vəziyyətdə olsanız da kafirlərlə rabitələri kəsin. Söhbət yaxşılıqdan yox, dostluqdan gedir.
3. İnsanları vətənindən çıxarmaq qadağandır. Bu qəbil zorlularla cihad adı altında mübarizə aparmaq olar.
4. İnsanpərvərlik adı altında təcavüzkar kafirlərlə sülhə getmək qadağandır.

***Ayə 10:***

[1] “Tövbə”, 60

﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِذَا جَاءكُمُ الْمُؤْمِنَاتُ مُهَاجِرَاتٍ فَامْتَحِنُوهُنَّ اللَّهُ أَعْلَمُ بِإِيمَانِهِنَّ فَإِنْ عَلِمْتُمُوهُنَّ مُؤْمِنَاتٍ فَلَا تَرْجِعُوهُنَّ إِلَى الْكُفَّارِ لَا هُنَّ حِلٌّ لَّهُمْ وَلَا هُمْ يَحِلُّونَ لَهُنَّ وَآتُوهُم مَّا أَنفَقُوا وَلَا جُنَاحَ عَلَيْكُمْ أَن تَنكِحُوهُنَّ إِذَا آتَيْتُمُوهُنَّ أُجُورَهُنَّ وَلَا تُمْسِكُوا بِعِصَمِ الْكَوَافِرِ وَاسْأَلُوا مَا أَنفَقْتُمْ وَلْيَسْأَلُوا مَا أَنفَقُوا ذَلِكُمْ حُكْمُ اللَّهِ يَحْكُمُ بَيْنَكُمْ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**"Ey iman gətirənlər! (Kafirlər ərlərindən ayrılıb) Sizin yanınıza hicrət edən mömin qadınları (iman baxımından) sınayın. Allah onların imanından daha çox xəbərdardır. Əgər onların mömin olduğunu görsəniz, kafirlərin yanına qaytarmayın. Nə bunlar onlara, nə də onlar bunlara halaldır. Kafir ərlərinin ödədiklərini (mehriyyəni) onlara ödəyin. Onlarla evlənməyiniz günah deyil. Bir şərtlə ki, mehriyyələrini ödəyəsiniz. Kafir zövcələri nikahınızda saxlamayın. Onlara ödədiyinizi kafirlərdən alın. Necə ki, (müsəlman olmuş və sizə qoşulmuş qadın) kafir ərlərinin ödədiyini sizdən istəməlidirlər. Bu, Allahın sizin üçün müəyyənləşdirdiyi ilahi hökmdür. Allah agah hikmət sahibidir."**

## Nöqtələr

Hüdəybiyyə sülhünün maddələrindən biri bu idi ki, Mədinə müsəlmanlarına üz tutmuş müşrik Məkkə müşriklərinə qaytarılmalıdır. Bu ayədə buyurulur ki, uyğun maddə müsəlmanlara sığınmış mühacir qadınlara aid deyil.

Bu ayə Quranın hüquqi və ictimai ayələrindəndir.

İslamı qəbul edib İslam cəmiyyətinə qatılmış kafir qadının mehriyyəsi onun kafir ərinə qaytarılır. Bu mehriyyə beytül-maldan ödənir.[1]

"İsəm" saxlamaq vasitəsi mənasını bildirən "ismət" sözünün cəm formasıdır.

Bu ayədə İslam məktəbinin ədalət sevər siması özünü göstərir. Əvvəla hicrət etmiş qadın tənha buraxılmır, ikincisi, onun kafir ərinin haqqı ödənir, üçüncüsü, qadının təbii ehtiyacları ödənir.

Qadın ərindən uzaqlaşmaq, yeni həyat qurmaq, casusluq, var-dövlət əldə etmək məqsədi ilə də vətəni tərk edə bilər. Bu səbəbdən də hicrət etmiş qadın sınağa çəkilir.

Kafirlər bir neçə qrupdur:[2] onlardan bir qrupu küfrdə israrlıdır və onlardan üz çevirmək lazımdır; digər bir qrupu toplum şəklində sizinlə düşməçiliyi tərk edir;[3] başqa bir qrupu parçalanmışdır, ailədə ya ər İslamı qəbul edir, ya da arvad.

Mehriyyə hökmü bəyan olunarkən öncə "nəfəqə" sözü işlədilir. İkinci izdivacın mehriyyəsindən danışılarkən "qucurəhunnə" sözü işlədilir. Bu sözün işləndiyi başqa beş ayəyə əsasən, bu söz ikinci dəfə izdivac edən dul qadınlar haqqında istifadə olunur.

---

[1] "Təfsiri-əl mizan"; "Təfsiri-nümunə"; "Təfsiri-fürqan"

[2] "Təfsiri-kəbiri Fəxr Razi"; "Təfsiri Məraği"

[3] Hazırkı surənin 7-ci ayəsi

Ərlə arvaddan birinin iman gətirməsi onların əqdini pozarsa və əqddən öncə qadın kafir olarsa, əqd baş tutmaz. İmam Baqir (ə) buyurur: "Kitab əhlindən olan (yəhudi və məsihi) qadınla izdivac yaxşı deyil."[1]

**Bildirişlər**

1. Qadınlar din seçimində və dini vəzifələrin icrasında ərə tabe deyil. Onlar hətta dinini qorumaq üçün hicrət edə bilər.
2. Küfrdən imana döndüyünü iddia edənlər sınanmalıdır.
3. Sınaq casusluq və bu kimi başqa təhlükələr ehtimal olunduqda baş tutur.
4. İnsanlara bədbinliklə baxmayaq. (İmtahan olunmadıqları halda onlar mömin çağırılır)
5. Allahın bizim işlərimizdən xəbərdarlığı hər hansı məsuliyyəti öhdəmizdən götürmür.
6. İnsanlarla rəftarda yersiz şübhələrə qapılmamlı, zahiri meyarlara əsaslanmalıyıq.
7. Bir yəqinliyi o biri ilə əvəz edin. (Qadın öncə kafir olduğundan onun imanına əmin olmaq lazımdır)
8. Ailə məsələlərində imanın mühüm rolu var. Əgər kafir qadın iman gətirsə, onu kafir ərinə qaytarmayın. Çünki kafir ər ailə mühitini korlayır.
9. Kafirin müsəlman üzərində istənilən cür hakimiyyəti qadağandır. Hətta ailədə də bu prinsip gözlənilir. Ayədə buyurulur ki, müsəlman qadın kafir ərə tabe olmamalıdır.[2]
10. Cəmiyyət və mühit fərdə təsirlidir.Küfr mühiti müsəlman qadının imanını əlindən ala bilər.
11. Ərlə arvaddan birinin küfrü onların əqdini gücdən salır.
12. Ərin arvada şəxsi məhəbbəti ilə kifayətlənməyin. Ər arvadı sevsə də, pozğun cəmiyyət qadının ruhunu sıxıntıya salır.
13. İzdivacın bünövrəsi imandır. Kafir mömінin tayı deyil.
14. Boşanma iqtisadi haqların tapdanması deyil. Hətta kafirin də ödədiyi məbləğ müsəlman tərəfindən ödənməlidir.
15. Hər bir izdivacın ayrıca bir mehriyyəsi var. (Kafir ərin ödədiyi mehriyyə ona qaytarılmalı ikinci izdivac üçün ayrıca mehriyyə verilməlidir.
16. Düşmənçilik etməyən kafirlərin mülkiyyət haqqı qorunur.
17. Qadının ilkin ehtiyacı ləyaqətli ərdir.
18. Öncə kafir olması müsəlmanlığı qəbul etmiş şəxsin izdivacı üçün maneə deyil.
19. Mehriyyə qadının haqqıdır.
20. Həm cinsi, həm də iqtisadi ehtiyac ödənməlidir.
21. Qarşı tərəfin qadın, tənha, qərib, yeni müsəlman olmasından sui-istifadə etməyin.

---

[1] "Təfsiri-nurus-səqəleyn"
[2] "Nisa", 141

22. Küfr ayrılığın açarıdır. İzdivac, həyat yoldaşı və övladlara məhəbbət ayrılığa mane olmur.

23. Haqlar qarşılıqlı tərəfdə qorunmalıdır. Nə sizin, nə də kafirlərin haqqı tapdana bilər. (Əgər müsəlman qadın kafir olsa və kafirlərə qoşulsa, ona verdiyiniz mehriyyəni kafirlərdən alın. Kafir qadın müsəlmanlara qoşulsa kafirin onun üçün ödədiyi mehriyyəni qaytarın)

24. İslamda sığınacaq haqqı var. Amma insan öncə sınanmalı, sonra kafirlərin onun üçün ödədiyi xəzinə qaytarılmalıdır. Kafirlərin tələb etmək haqqı var.

25. İlahi göstərişlər hikmət və elmə əsaslanır.

*Ayə 11:*

﴿وَإِن فَاتَكُمْ شَيْءٌ مِّنْ أَزْوَاجِكُمْ إِلَى الْكُفَّارِ فَعَاقَبْتُمْ فَآتُوا الَّذِينَ ذَهَبَتْ أَزْوَاجُهُم مِّثْلَ مَا أَنفَقُوا وَاتَّقُوا اللَّهَ الَّذِي أَنتُم بِهِ مُؤْمِنُونَ﴾

**“Əgər zövcələrdən biri kafirlərə doğru keçsə, sizə bir ziyan dəysə (ödədiyiniz mehriyyəni kafirlərdən ala bilməsəniz) onları təqib edin. Zövcələri gedənlərə sərf etdikləri həddə ödəyin. İman gətirdiyiniz Allahdan qorxun.”**

**Nöqtələr**

Ötən ayədə kafir ərlərin haqqının ödənməsindən danışıldı. Bu ayədə müsəlmanların öz haqqını almasına işarə olunur.

**Bildirişlər**

1. Haqq təxirə salınsa belə haqq sahibinə çatmalıdır.

2. Müsəlmanın imanına xatir düşdüyü ziyan İslam hökuməti tərəfindən ödənməlidir.

3. Müsəlmanların mülkünü hifz etmək onlara dəyimiş ziyanı aradan qaldırmaq üçün kafirlər təqib olunmalıdır.

4. Öz haqqınızı almaq üçün qiyam edin.

5. Zərər görmüş insanlar beytül-mal və ya qənimətlər hesabına himayə olunmalıdır.

6. Haqqınızı alarkən qəzəbinizə nəzarət edin.

7. Maddi məsələlərdə büdrəmə üçün zəmin var.

8. Həm zərər görmüş insan zərərin ödənməsini tələb etdikdə, həm də cəmiyyət bu zərəri ödəyərkən təqvalı olmalı, həddi aşmamalıdır.

9. Təqva həqiqi iman göstəricisidir.

*Ayə 12:*

﴿يَا أَيُّهَا النَّبِيُّ إِذَا جَاءَكَ الْمُؤْمِنَاتُ يُبَايِعْنَكَ عَلَى أَن لَّا يُشْرِكْنَ بِاللَّهِ شَيْئًا وَلَا يَسْرِقْنَ وَلَا يَزْنِينَ وَلَا يَقْتُلْنَ أَوْلَادَهُنَّ وَلَا يَأْتِينَ بِبُهْتَانٍ يَفْتَرِينَهُ بَيْنَ أَيْدِيهِنَّ

وَأَرْجُلِهِنَّ وَلَا يَعْصِينَكَ فِي مَعْرُوفٍ فَبَايِعْهُنَّ وَاسْتَغْفِرْ لَهُنَّ اللَّهَ إِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Ey peyğəmbər, imanlı qadınla sənə beyət etmək üçün yanına gəldikdə, Allaha şərik qoşmasalar, oğruluq etməsələr, zinaya yol verməsələr, övladlarını öldürməsələr, pis işə görə itdiham olunmasalar (övladlarını haqsız yerə birinə aid etməsələr), heç bir xeyir işdə sənə itaətsizlik göstərməsələr onların beyətini qəbul et. Allahdan onlar üçün bağışlanma dilə, Allah bağışlayan və mehribandır.”**

## Nöqtələr

Məkkənin fəthi günü həzrət Peyğəmbər (s) Səfa dağında kişilərdən beyət aldığı vaxt qadınlar da ona beyət etmək istədilər. Bu ayə nazil oldu və beyət şərtləri bəyan edildi. Qadınların beyəti zamanı əlləri bir-birinə toxunmasın deyə öncə Peyğəmbər (s), sonra qadınlar əllərini su olan qaba salardılar.[1]

Bu ayədə bəyan olunan şərtlər etiqadi və əxlaqi prinsiplərdəndir, həm qadınlar, həm də kişilər ona əməl etməlidir.

## Bildirişlər

1. Qadın müstəqil, ixtiyarlı, seçim haqqı olan hüquqi bir şəxsdir. Belə ki, ilkin İslam dövründə qadınlar bilavasitə Peyğəmbərlə (s) ünsiyyətdə olur, öz baxışlarını açıqlayırdılar.
2. İslam rəhbəri öz rəftarlarında qadın və kişiyə fərq qoymur. Onunla hamı əlaqə saxlaya bilər.
3. Din siyasətdən ayrı deyil. (Beyət siyasi bir göstərişdir)
4. Müsəlmanların kəmiyyət göstəricisi sizi mənəvi dəyərlərə biganələşdirməsin. Sıralarınıza hər adamı qəbul etməyin.
5. Əmin-amanlıq İslam üsul-idarəsində diqqət mərkəzində saxlanılan mövzulardandır. İstər mal-mülk, istər ailə, istər sağlamlıq, istər ərazi yönümündə əmin-amanlığa ehtiyac var. İctimai-siyasi əmin-amanlıq da bu qəbildəndir.
6. Əqidənin islahı əməllərin islahından müqəddəmdir.
7. İman təklikdə bəs etmir, İslam cəmiyyətinin rəhbərinə əməli beyət lazımdır.
8. Qadının günahdan qorunması cəmiyyətin sağlamlığı üçün zəmindir.
9. Şirk heç vəchlə qəbul olunmur.
10. Pisliyə qadağa qoyarkən onun etiqadi, iqtisadi, cinsi, ictimai təzahürlərinə qarşı çıxın.
11. İnsanların şəxsiyyətini qorumaq mühümdür. İnsani şəxsiyyət zərrəcə ləkələnməməlidir.
12. İslam cəmiyyətində rəhbərlik prinsipi mühümdür. Bütün xalq rəhbərə tabe olmalıdır.
13. Günah zəminəsi olmasa doğru yolu getmək asandır.

---

[1] “Təfsiri-məcməül-bəyan;” “Təfsiri-nurus-səqəleyn”

14. Qadınlar etiqadi, ictimai-siyasi, əxlaqi məsələlərdə kişilərlə çiyin-çiyinə iştirak edir, islam Peyğəmbəri (s) onlarla vəhy əsasında ədalətlə davranır.

15. Beyət şərtləri şəffaf, beyət edənlərin gücünə uyğun olmalıdır. (cahiliyyət dövründə oğruluq, zina, övladı öldürmək, böhtan halları çox idi)

16. Həzrət Peyğəmbər (s) ona beyət edənlərə dua üçün vəzifəlidir.

17. Allah övliyalarına üz tutmaq, onları vasitəçi seçmək caizdir, onların duaları qəbuldur. Əks təqdirdə Allah belə bir göstəriş verməzdi.

18. İslamın qəbulu küfr dövründəki əməlləri islah etsə də, Peyğəmbərin (s) duasına ehtiyac var.

19. İnsanların keçmişdəki pis əməlləri onlara dua etməmək üçün səbəb deyil.

20. Allahın rəhmət və əfvi duaların qəbulu üçün zəmindir.

### *Ayə 13:*

﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ لَا تَتَوَلَّوْا قَوْمًا غَضِبَ اللَّهُ عَلَيْهِمْ قَدْ يَئِسُوا مِنَ الْآخِرَةِ كَمَا يَئِسَ الْكُفَّارُ مِنْ أَصْحَابِ الْقُبُورِ﴾

**“Ey iman gətirənlər, Allahın qəzəbinə gəlmiş dəstəni özünüzə himayəçi, dost, köməkçi götürməyin. Onların axirətə ümidi yoxdur. Necə ki kafirlər qəbir əhlindən (onların geri dönüşündən) məyusdur.”**

### Nöqtələr

”Təvəlla” dedikdə bəzən dostluq, bəzən vilayətin qəbulu nəzərdə tutulur.

Bu ayədə qəzəbə gəlmişlər deyərkən yəhudilər nəzərdə tutulur. Ayədə Məkkə müşrikləri, axirət savabına ümidsiz yəhudilər, qiyaməti inkar edən müşriklər kafir kimi təqdim edilir.[1]

İlk ayədə Allah düşmənləri və müsəlmanlar haqqında danışıldı. Son ayə də eyni məzmundadır. Bu surə yeganə surədir ki, onun 1-ci və sonuncu ayəsi “ya əyyuhəlləzinə amənu” ﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا﴾ müraciəti ilə başlayır.

Qəzəbə gəlmiş qövmlər dedikdə kim nəzərdə tutulur?

Quranda yəhudilər haqda bildirilir ki, onlar Allahın qəzəbinə gəlmişlər.[2] Qafillər və münafiqlər haqqında da eyni təbirlə rastlaşırıq.[3] “Ğafir” surəsinin 35-ci ayəsinə əsasən əməlsiz alimlər də Allahın qəzbinə gələsidir.

Qarun, Firon, Əbu-Ləhəb, Bələm Baura kimiləri də Quranda qəzəbə gəlmişlər kimi tanıtdırılır.

Axirətə ümidsizlik Allahın qüdrət, hikmət və ədalətinə ümidsizlikdir. Axirəti qəbul etməyən kəs çıxılmaz vəziyyətə düşmüşdür. Əslində belələrinin heç bir dəlili yoxdur. Onlar o qədər ümidsizdirlər ki, hazırda ölməyi dünya həyatının acılarını yaşadıqdan sonra ölməkdən üstün tuturlar. Onların nəzərincə, ölüm yoxluqdur və təlim-tərbiyənin heç bir faydası olmayacaq. Partladılası bir binanı təmin edib qorumağın əbəs olduğunu iddia edirlər. Deyirlər ki, əgər puç olub

---

[1] “Təfsiri-əl mizan”

[2] “Ali-İmran”, 112

[3] “Fəth”, 6

gedəcəyiksə, nə üçün dünya ləzzətlərindən çəkinək? İlahi sorğuya etiqadsız bu insanlar bacardıqca daha çox ləzzət almağa çalışırlar.

**Bildirişlər**

1. Allahın dostları Onun qəzəbinə gələnlərlə rabitə saxlamır.

2. Kitab əhli qiyamətə etiqadlı olsa da yolunu azdığından qiyamətdə kafirlərlə bir cərgədə dayanır.

# "SƏFF" SURƏSİ

## *(61-Cİ SURƏ; 14 AYƏ)*

## *İYİRMİ SƏKKİZİNCİ CÜZ*

## *"SƏFF" SURƏSİNİN SİMASI*

14 ayədən ibarət olan bu surə Mədinədə nazil olmuşdur.

Surənin 14-cü ayəsindəki "səff" sözü ilə əlaqədar surə "Səff" adlandırılmışdır.

Surədə daha çox İslam dininin başqa səmavi dinlərdən üstünlüyü, Allah yolunda cihad və ilahi peyğəmbərlərin himayəsi mövzusunda danışlır.

Hazırkı surə, "Hədid" və "Həşr" surələri "səbbəh", "Cumuə" və "Təğabun" surələri "yusəbbih", "İsra" surəsi "subhanə", "Əla" surəsi "səbbih" sözü ilə başlayır.

**بِسمِ الله الرحمن الرَحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿سَبَّحَ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾**

**"Göylərdə və yerdə olan Allah üçün təsbih deyir. Odır qüdrət və hikmət sahibi."**

**Bildirişlər**

1. İslam dünya görüşündə bütün varlkıq aləmi şüurlu tanıtdırılır. Onlar hər biri Allaha təsbih deməklə məşğuldur.

2. Təsbih və təqdisə yalnız sonsuz qüdrət və misilsiz hikmət sahibi layiqdir.

***Ayə 2:***

**﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ﴾**

**"Ey iman gətirənlər, nə üçün dediyinizə əməl etmirsiniz?"**

*Ayə 3:*

﴿كَبُرَ مَقْتًا عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ﴾

**“Əməl etmədiyiniz bir şeyi deməyiniz Allah yanında böyük qəzəbə səbəb olur.”**

## Nöqtələr

”Məqt” dedikdə güclü qəzəb mənası anlaşılır.

Bu ayədəki məzəmmətin oxşarı ilə “Bəqərə” surəsinin 44-cü ayəsində rastlaşırıq.

İnsan öz dediklərinə bəəzən zəiflik, bəzən etinasızlıq səbəbindən əməl etmir. İkinci hal məzəmmət olunur.

Əməlsiz alim meyvəsiz ağaca, yağışsız buluda, susuz quyuya, balsız arıya, sapsız iynəyə, kitab daşıyan ulağa bənzədilir.

Hədisdə bildirilir ki, əməlsiz elm insanın əleyhinə dəlildir. Əməl olunmayan elm elə bir xəzinədir ki, ondan infaq olunmur.[1] Ədalətdən danışıb ona riayət etməyən insan qiyamətdə ən ağır peşimançılığa düçar olar.[2]

Həzrət İsa buyurur ki, insanların ən zalımı elmi məşhur, əməlindən xəbər olmayan insandır.[3] İmam Sadiq (ə) buyurur ki, əməli sözünü təsdiqləməyən insan alim deyil.[4]

İmam Sadiq (ə) vədə xilaflığın bu ayənin hədəflərindən biri sayır və buyurur: “Möminin vədi nəzir kimidir, amma kəffarəsi yoxdur.”[5]

Təfsirçilərin buyuruqlarına əsasən, ayə cihaddan danışıb, cihaddan boyun qaçıran insanlar haqqında nazil olub. Əlbəttə ki, ayə əməli olmayan bütün şüarçı insanlara aiddir.

## Bildirişlər

1. İman əməl və sədaqətlə yanaşı olmalıdır. Əks təqdirdə insan məzəmmətə layiqdir.
2. Tənqiddən öncə müsbət nöqtələri bəyan edin. Axı imanı olan nə üçün əməl etməsin?
3. Tərbiyə üsullarından biri məqamında məzəmmətdir.
4. Əhdə vəfa vacibdir, vədə xilaflıq kəbirə günahlardandır.
5. Bütün varlıq aləmi Allaha təsbih dediyi halda insanın əməlsiz sözləri ilə Allahı qəzəbləndirməsi necə də pisdir.
6. Əməlsiz söz təhlükəlidir.
7. Əgər bu gün rastlaşdığınız çətinlik boş vəd və yalan şüarlarla həll olursa, gələcəkdə bunun böyük təhlükəsi var.

---

[1] “Əmaliye-Səduq”, s. 343
[2] “Bihar”, c. 2, s. 30
[3] “Misbahul-şəriə”, s. 368
[4] “Kafi”, c. 1, s. 36
[5] “Kafi”, c. 2, s. 363

*Ayə 4:*

﴿إِنَّ اللَّهَ يُحِبُّ الَّذِينَ يُقَاتِلُونَ فِي سَبِيلِهِ صَفًّا كَأَنَّهُم بُنْيَانٌ مَّرْصُوصٌ﴾

**“Həqiqətən, Allah Onun yolunda səd çəkib döyüşənləri sevir. Onlar sanki dəmir tikilidir.”**

### Nöqtələr

”Bunyan” dedikdə tikili nəzərdə tutulur. “Mərsus” sözü qurquşun mənasını bildirir. “Bunyanun mərsus”, yəni qurşuğundan düzəlmiş tikili.

Olsun ki ayə cihad şuarı verib cihaddan boyun qaçıranlara ünvanlanmışdır. Bu səbəbdən Allah onları qəzəbə gəlmiş sayır. Əməl edənlər isə Allahın sevimlisidir. Həzrət Əli (ə) Süffeyn savaşında ətrafındakıların ruhiyyəsini qaldırmaq üçün hazırkı ayəni oxudu.[1]

### Bildirişlər

1. Tərbiyə prosesində həm qəzəb, həm də mərhəmətə ehtiyac var. (Ötən ayədə Allahın qəhr-qəzəbindən, bu ayədə isə mehribanlığından danışıldı.
2. İnsanı pis işdən çəkindirmək zəruridir. Yaxşı işə yönəltmək üçün isə təşviq lazımdır.
3. Allahın razılıq və məhəbbəti möminlər üçün ən üstün təşviqdir.
4. Çətin işlərdə güclü stimula ehtiyac var. Ən güclü stimul isə Allahın sevimlisi olmaqdır.
5. Mücahid möminlər Allahın dostlarıdır. Onlar Allah yolunda canlarını təqdim edir, Allah da onları sevir.
6. Adi şəraitlərdə birliyi qorumaq və təfriqədən uzaq olmaq lazımdır. Amma savaşa qalxmış kafirlər qarşısında möminlərin cərgələri nüfuzedilməz olmalıdır.

*Ayə 5:*

﴿وَإِذْ قَالَ مُوسَى لِقَوْمِهِ يَا قَوْمِ لِمَ تُؤْذُونَنِي وَقَد تَّعْلَمُونَ أَنِّي رَسُولُ اللَّهِ إِلَيْكُمْ فَلَمَّا زَاغُوا أَزَاغَ اللَّهُ قُلُوبَهُمْ وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ﴾

**“Bir zaman Musa öz qövmünə dedi: “Ey mənim qövmüm! Mənim Allahın elçisi olduğumu bildiyiniz halda nə üçün əziyyət verirsiniz?” Onlar öz yollarını azdıqlarından Allah da onların qəlblərini azdırdı. Allah fasiq qövmü hidayət etməz.”**

### Nöqtələr

”Zağ” sözü “ziğ” sözündən olub yoldan çıxmaq mənasını bildirir. İnsanın ruhu doğru yola meyllidir. Amma insan özü onu döndərir.

Ötən ayələrdə əməlsiz sözdən danışıldı. Bu ayədə elmə zidd əməl tənqid olunur. Onlar Allahın elçisini tanıdıqları halda ona əziyyət verirlər.

---

[1] “Təfsiri-ruhul məani”

Allah öz ədalət və hikməti, insanların əməlləri əsasında cəzalandırır və ya mükafat verir. Allah ağıl və fitrət, peyğəmbərlər göndərmək yolu ilə insanları hidayət edir. Müsbət cavab verənin hidayəti artırılır. Həqiqəti bildiyi halda yoldan çıxanları Allah özbaşına buraxır.[1]

Musanın qövmü ona çox əziyyət verdi: dedilər ki, Allahı aşkara görməsək heç vaxt sənə iman gətirmərik.[2] Onlar bir növ yeməklə kifayətlənmədilər.[3] Nəzərdə tutduqları meydanı tərk etməyincə oraya daxil olmayacaqlarını bidirdilər.[4] Musaya xitabən dedilər ki, sən və Allahın onlarla vuruşun, biz burada oturmuşuq.[5] Onlar həzrət Musadan bütpərəstlərin bütü kimi məbud istədilər.[6] Nankorluq edərək deilər ki, biz səndən əvvəl də, səndən sonra da əziyyətdə olmuşuq.[7]

İslam peyğəmbəri (s) də müşrik və münafiqlər tərəfindən bir çox əziyyətlər görmüşdü. Bəziləri Peyğəmbər (s) tez inanandır deməklə daim onu incidirdilər.[8] Allah Peyğəmbəri (s) incidənlərə ağrılı əzab vəd edir.[9] Allah bəyan edir ki, Peyğəmbər (s) ona əziyyət verənlərə bunu açıqlamaqdan xəcalət çəkir.[10]

İslam peyğəmbərinə (s) qarşı mənfi addımlardan biri də bu idi ki, bir qisim müsəlmanlar cihaddan boyun qaçırırdılar. Onlar evlərini qorumalı olduqlarını, havanın istiliyini, yolun uzunluğunu, naməhrəm Rum qadınlarını görməklə günaha düşəcəklərini, fərdi təchizatın azlığını bəhanə gətirirdilər.[11]

Ötən ayələrdə insanlar öz sözlərinə əməl etmədikləri üçün qınandı və Allahın mücahidləri sevdiyi bildirildi. Məlum olur ki, hazırkı ayədə əzab-əziyyət deyərkən cihadda süstlük nəzərdə tutulur.

## Bildirişlər

1. Həzrət Musanın həyatı ibrətamizdir və onun dərslərini unutmaq olmaz.
2. Böyük şəxsiyyətlərin həyat tarixçəsi ilə tanışlıq insan üçün təsəllidir.
3. Bəzən yaxınlar biganələrdən də çox çətinlik yaradır.
4. Pisliyə qadağada insanların duyğularından istifadə edək.
5. Yaxınların əziyyəti qəzəbə və onların rədd edilməsinə səbəb olmamalıdır.
6. Elm və xəbərdarlıq insan üçün məsuliyyət yaradır. Agah insanlardan bildiyinə əməl etməsi gözlənilir.
7. Dini rəhbərlərə əziyyət verən söz və hərəkətlər insanın yolunu azması ilə nəticələnir.

---

[1] "Muhəmməd", 17
[2] "Bəqərə", 55
[3] "Bəqərə", 61
[4] "Maidə", 22
[5] "Maidə", 24
[6] "Əraf", 138
[7] "Əraf", 129
[8] "Tövbə", 61
[9] "Tövbə", 61
[10] "Əhzab", 53
[11] "Əhzab", 13; "Tövbə", 81; "Tövbə", 42; "Tövbə", 49

8. Söz və əməldə azğınlıq qəlb, ruh, şəxsiyyət, mədəniyyət və düşüncədə azğınlığın müqəddimsədir.

9. Günah ilahi hidayətdən məhrumluqla nəticələnir.

***Ayə 6:***

**﴿وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقًا لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ فَلَمَّا جَاءهُم بِالْبَيِّنَاتِ قَالُوا هَذَا سِحْرٌ مُّبِينٌ﴾**

**“Bir vaxt İsa ibn Məryəm Bəni-İsrailə dedi: “Həqiqətən, mən Allahın sizə doğru göndərilmiş peyğəmbəriyəm. Özümdən öncə gəlmiş Tövratı təsdiq edirəm. Sizi məndən sonra gələcək və adı Əhməd olan peyğəmbərlə müjdələyirəm.” Elə ki, onlar üçün aydın möcüzə gəldi, belə dedilər: “Bu aşkar bir sehrdir.”**

**Nöqtələr**

Şübhəsiz ki, bu gün yəhudi və məsihilərin əlində olan Tövrat və İncil həzrət Musa və həzrət İsaya nazil olmuş İncil deyil. Bu kitablar onların yaxınları və özlərindən sonrakı ardıcılları tərəfindən tərtib olunmuş kitablardır. Bu kitabları səthi nəzərdən keçirdikdə deyilənlərə şahid oluruq. Yəhudi və məsihilərin də bundan artıq iddiası yoxdur.

Şübhəsiz ki, həzrət Musa və İsanın təlimlərindən bir hissəsi nu kitablarda əks olunmuşdur. Bu səbəbdən də hazırkı Tövrat və İncildəki bəyanatları tamamı ilə inkar etmək olmaz. Bu kitabların mətnləri iki peyğəmbərin təlimri ilə başqa insanların düşüncələrinin qatışığıdır. Hazırkı kitablarda növbəti peyğəmbərin zühuru ilə bağlı əlamətlər yalnız İslam peyğəmbərinə tətbiq oluna bilər. Yuhanna incilində üç yerdə “Farqlit” sözü işlədilmişdir. Bu söz adətən “təsəlli verən” kimi tərcümə olunur. İndi “Təfsiri-nümunə” əsasında Yuhanna incilinin mətnini nəzərdən keçirək: “Mən atadan istəyəcəyəm ki, sizin üçün başqa bir təsəlli verən göndərsin və o sizinlə əbədi qalsın;”[1] elə ki o təsəlli verən gəldi mənim haqqımda şəhadət verəcək;”[2] sizə doğru deyirəm ki, mənim getməyim faydalıdır. Mən getməsəm təsəlli verən yanınıza gəlməyəcək.”[3]

İncilin yunancadan götürülmüş siriyani mətnlərində təsəlli verən əvəzinə “Parqlita” sözü işlədilmişdir. Yunan mətnində isə “Perqlitus” sözü ilə rastlaşırıq. Bu söz yunancadan tərcümədə sitayiş olunası şəxs mənasını bildirir. Ərəb dilində “Məhəmməd” və “Əhməd” sözləri eyni mənanı daşıyır.

Amma kilsə xadimləri bu sayağı tərcümənin İslamın xeyrinə olduğunu görüb “Firqlitus” sözünü “paraklitus” sözü kimi yazmağa başlamışlar. Beləcə “sitayiş olunan şəxs” mənası “təsəlli verən” mənası ilə əvəz olunmuşdur. Bununla belə böyük bir peyğəmbərin zühur müjdəsi müqəddəs kitabda açıq-aşkar nəzərə çarpır.

---

[1] Bab 14, cümlə 16

[2] Bab 15, cümlə 26

[3] Bab 16, cümlə 8

Fransa böyük ensiklopediyasında deyilir: "Məhəmməd (s) İslam dininin təsisçisi, Allahın elçisi və son peyğəmbərdir. "Məhəmməd" dedikdə çox həmd olunan mənası anlaşılır. Bu söz "həmd" kökündəndir. "Məhəmməd" sözü ilə "Əhməd" sözü eyni məna daşıyır. Çox ehtimal ki, ərəb xristianlar bu sözü "farqlit sözünə işlətmişlər. "Əhməd" dedikdə çox həmd olunmuş mənası anlaşılır. Bu söz "pirqlitus" sözünün tərcüməsidir. Yanlış olaraq bu söz "praklitus" şəklinə salınmışdır. Müsəlman alimlər təkrar-təkrar bildirirlər ki, bu söz İslam peyğəmbərinin (s) zühuruna işarədir. Qurani-kərim də "Səff" surəsinin 6-cı ayəsində bu nöqtəyə toxunur."

İslam peyğəmbərinin (s) adı Əhməd olmuşdurmu?

a) Tarix kitablarında bildirilir ki, İslam peyğəmbərinin (s) uşaq yaşından iki adı olmuşdur: "Məhəmməd" və "Əhməd". Onu hər iki adla çağırırmışlar. Peyğəmbərə (s) birinci adı onun babası Əbdül Mütəllib, ikinci adı anası Amənə qoymuşdur. Bu mövzuda "sireye ələvi" mənbəsində ətraflı danışılır.

b) Həzrət Peyğəmbəri (s) onun Əbu Talib dəfələrlə "Əhməd" adı ilə çağırmışdır. Hazırda "Divani-Əbu Talib" adı ilə tanınan kitabdakı bir çox şerlərdə İslam peyğəmbəri (s) Əhməd adı ilə yada salınır.

*Əhmədin qətlinə verilir fərman,*
*Rəhbərliyə razı olmur bir insan.*

c) Həzrət Peyğəmbərin (s) müasiri olmuş Həssan ibn Sabitin şerlərində də Əhməd adı ilə rastlaşırıq:

*Əhmədlə hicrana dözməyən biri*
*Daim zikr edirdi ol Peyğəmbəri.*

Hədisdə oxuyuruq ki, İslam peyğəmbəri (s) buyurmuşdur: "Mənim adım yerdə Məhəmməd, səmalarda Əhməddir."[1]

## Bildirişlər

1. Həzrət İsanın həyat tarixçəsi diqqətə layiq və yadda saxlanılasıdır.
2. Həzrət Musa Bəni-İsraildən idi. Çünki onlara "ey qövmüm" deyə müraciət edirdi. Həzrət İsa isə onlara müraciət olaraq "ya Bəni-İsrail" söyləyirdi. Bunu onun Bəni-İsraildən olmadığını göstərir.
3. İsa Allahın peyğəmbəridir, Ona Allah deməyin.
4. İlahi tərbiyədə müxtəlif siniflər var. Hər sinif o biri sinif üçün müqəddimə, hər müəllim o biri müəllim üçün təsdiqçidir.
5. İslam ən kamil dindir. Çünki bu kitabda ən üstün və ən kamil Peyğəmbərlə (s) müjdə verilir.
6. Allahın övliyaları arasında həsəd yox, müjdə var.

[1] "Təfsiri-Bürhan"

7. İsa həm müjdələnən, həm də müjdə verəndir. O İslam peyğəmbərinin (s) gəlişi ilə müjdə verir, Allah onu bu xəbərlə müjdələyir.[1]

8. Öz dəvətlərinizdə həm keçmişi, həm bu günü, həm də gələcəyi nəzərə alın.

9. İnsanların təqdimatında heç bir şübhəyə yer qoymamağa çalışın.

10. İnadkarlıq elə bir dərddir ki, heç bir müjdə insana təsir etmir.

*Ayə 7:*

﴿وَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ الْكَذِبَ وَهُوَ يُدْعَى إِلَى الْإِسْلَامِ وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

**"İslama dəvət olunduğu halda Allaha iftira yaxandan (Quranı sehr adlandırandan) zalımı kimdir?! Allah sitəmkar qövmü hidayət etməz."**

**Nöqtələr**

Quranda "əzləmu" sözü 16 dəfə işlədilmişdir. Onlardan 15-i etiqadi və ideoloji məsələlərlə bağlıdır.

Hazırkı surənin 5-ci ayəsində "Allah fasiq qövmü hidayət etməz", hazırkı ayədə isə "Allah zalım qövmü hidayət etməz" buyurulur. Ayələrdəki ünvan fərqi belə izah oluna bilər:

a) Musaya əziyyət verənlər özləri haqq yoldan çıxmışdılar. Peyğəmbərin (s) dövründəki inadkarlar isə başqalarına iftira yaxmaqla da zülmə yol verirdilər.

b) İslam peyğəmbərinin (s) müxalifləri həzrət Musa və İsadan sonra İsanın müjdələrini inadkarlıqla qarşıladılar. Daha artıq zülmün daha ağır cəzası var.

Zülm üç nöcdür: insanını özünə zülmü, xalqa zülmü, əqidə məktəbinə zülmü. Ən ağır zülm əqidə məktəbi və dinə zülmdür.[2]

**Bildirişlər**

1. Həzrət İsanın müjdələrini və İslam peyğəmbərinin (s) möcüzələrini qəbul etməyən kəs ən böyük iftiraya yol vermişdir və ən zalım fərddir.

2. Peyğəmbərlərə qarşı iftira Allaha qarşı iftiradır. Onlar Peyğəmbəri (s) sehrdə suçlayırdılar. Allah onların əməllərini özünə qarşı iftira sayır.

3. Allah və Onun dininə qarşı iftira ən pis iftiradır.

4. Ən böyük zülm təkamülün, haqqpərəstliyin, ibadətin qarşısını almaqdır.

5. Ən pis zülm odur ki, zalıma xəbərdarlıq başa çatdıqdan sonra o öz zülmünü davam etdirsin.

6. Allaha qarşı iftiranın nəticəsi ilahi hidayətdən məhrumluqdur.

7. Hidayət və zəlalət Allahın əlindədir. Amma insan öz iradəsi ilə zəmin yaradır.

*Ayə 8:*

---

[1] "Ali-İmran", 45

[2] "Təfsiri-ətyəbul-bəyan"

﴿يُرِيدُونَ لِيُطْفِؤُوا نُورَ اللَّهِ بِأَفْوَاهِهِمْ وَاللَّهُ مُتِمُّ نُورِهِ وَلَوْ كَرِهَ الْكَافِرُونَ﴾

**“Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Hansı ki Allah öz nurunu kafirlərin xoşuna gəlməsə belə kamilləşdirəndir.”**

*Ayə 9:*

﴿هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ﴾

**“O öz peyğəmbərini bütün dinlərə qalib etmək üçün hidayət və haqq dinlə göndərən kəsdir. Qoy müşriklərin xoşu gəlməsin!”**

**Nöqtələr**

”Tövbə” surəsinin 32, 33-cü ayələri bu surənin 8 və 9-cu ayələrinin oxşarıdır.

Düşmən Allahın nurunu söndürmək üçün müxtəlif yollardan istifadə edir. Məsələn, müasir olmamaqda itdiham edir,[1] ayələri zənn-güman sayır,[2] Peyğəmbərin (s) buyuruqlarını yalan hesab edir,[3] ayələri səthi, dəyərsiz tanıtdırır,[4] Allaha rəqib uydurur,[5] insanların ilahi ayələri dinləməsinə mane olur,[6] iman məktəbinə tənə vurur, möminləri təhqir edir,[7] Allahın dinini məsxərəyə qoyur,[8] məscidləri viran qoymağa çalışır,[9] dini təhrif etməyə səy göstərir, dində bidət yaradır,[10] dini həqiqətləri ört-bastır edir,[11] Allahın dinini parçalayır,[12] haqqı batilə qatır,[13] dində ifratçılıq yaradır,[14] müsəlmanları bir-birinə qarşı savaşa qaldırı.[15]

Allah üç dəfə vəd edir ki, İslam bütün dinlər üzərində qalib gələsidir.[16] “Rum” surəsinin 6-cı və “Həcc” surəsinin 47-ci ayələrində Allahın öz vədinə əməl etdiyi bildirilir.

Mütəvatir (sayı mötəbərliyini göstərən) rəvayətlərdə oxuyuruq ki, İslam həzrət Mehdinin (ə. c.) zühuru dövründə bütün dinlər üzərində qələbə çalasıdır.

Həzrət Əli (ə) buyurur: “And olsun canım əlində olan Allaha, hər sübh və axşam azan səsi gəlməyən, şəhadət kəlmələri eşidilməyən şəhər və kənd qalmaz.”[17]

---

[1] “Ənam”, 25
[2] “Ənbiya”, 5
[3] “Əhqaf”, 8
[4] “Ənfal”, 31
[5] “İbrahim”, 30
[6] “Fusilliət”, 26
[7] “Tövbə”, 12
[8] “Maidə”, 57
[9] “Bəqərə”, 114
[10] “Hədid”, 27
[11] “Bəqərə”, 159
[12] “Bəqərə”, 85
[13] “Bəqərə, 42
[14] “Maidə”, 77
[15] “Bəqərə”, 217
[16] “Tövbə”, 33; “Fəth”, 28; “Səff”, 9
[17] “Təfsiri-məcnül-bəyan”; “Təfsiri-kənzul-dəqaiq”; “Təfsiri-bürhan”

İslam tarixi 8-ci ayənin gerçəkləşdiyini sübuta yetirir. Düşmən gecə-gündüz işgəncə verməklə, iqtisadi blokadalar qurmaqla, müharibələr törətməklə, münafiqləri ayağa qaldırmaqla, müsəlmanlar arasında təfriqə salmaqla, səlib yürüşləri ilə, əxlaqsızlığı yaymaqla, istismarla məşğul olsa da İslam günbə gün güclənməkdədir.

**Bildirişlər**

1. Düşmən daim Allahın hidayət nurunu söndürmək barədə düşünür.
2. Quran ilahi nurdur.
3. Din nurdur. Yəni insan din vasitəsi ilə doğru yolu tanıyıb hərəkət edir.
4. Düşmənin bütün proqramları haqq qarşısında aciz və səmərəsizdir.

*Günəş üfürməklə sönməz heç zaman,*
*Dəniz mudarlanmaz it ayağından.*
*İt "hav-hav" edəsi karvan keçəsi,*
*Hər kəs istəyincə bir yol seçəsi.*

5. İslamın düşmənə qarşı ən mühüm silahı təbliğatdır.

*Allah çırağının dəyişməz halı,*
*Hər kəs üfürərsə yanar saqqalı.*

6. İslam kamil və əbədi dindir.
7. Allahın iradəsinə heç bir müxalifət mane ola bilməz. Bu yönümdə şirk də, küfr də təsirsizdir.[1]
8. Həm küfr həm də şirk cəbhəsi İslamın genişlənməsindən narahatdır.
9. Peyğəmbərlər xalqın yox, Allahın iradəsi ilə seçilir.
10. İslam haqq olduğu üçün qalibdir.
11. Gələcək İslama məxsusdur.
12. İslam məktəbi bəşəriyyətə ümid verir.
13. Yalnız kamil və həmişəlik hakimiyyət dəyərlidir.
14. İslamdan savayı bütün dinlər tarix səhnəsini tərk edir. Yalnız İslam əbədidir.
15. İslamın müxtəlif qələbə amilləri var: Allahın iradə və yardımları, məsum və ləyaqətli rəhbərlik, cəmiyyətin təbii ehtiyacı, haqlı olmaq, məktəbin kompleks və kamil olması.

***Ayə 10:***

**﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ هَلۡ أَدُلُّكُمۡ عَلَىٰ تِجَارَةٖ تُنجِيكُم مِّنۡ عَذَابٍ أَلِيمٖ﴾**

**"Ey iman gətirənlər, sizi ağrılı əzabdan xilas edəcək ticarəti göstərimmi?"**

---

[1] "Tövbə", 33

*Ayə 11:*

﴿تُؤْمِنُونَ بِاللَّهِ وَرَسُولِهِ وَتُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ ذَٰلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ﴾

**"Allaha və Onun rəsuluna iman gətirin, malınız və canınızla Allah yolunda cihad edin. Bu, əgər bilsəniz, sizin üçün daha yaxşıdır."**

*Ayə 12:*

﴿يَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَيُدْخِلْكُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ ذَٰلِكَ الْفَوْزُ الْعَظِيمُ﴾

**"(Bu halda) Allah sizin günahlarınızı bağışlayar, sizi ağacları altdan çaylar axan bağlara, əbədi behiştə könül oxşayan evlərə daxil edər. Bu böyük qurtuluşdur."**

**Nöqtələr**

Ötən ayədə İslam dininin bütün dinlər üzərində qələbəsindən danışıldı. Amma bu işin gerçəkləşməsi üçün üç şərt var: kamil və cahanşümül qanun (bu Qurandır, Allahın kamilləşdirdiyi və kimsənin söndürə bilməyəcəyi nur); məsum rəhbərin varlığı (həzrət Mehdi (ə. c.) xalqın hazırlığı.

Bu ayələr "Tövbə" surəsinin 111-ci ayəsinə uyğundur.

Ticarət bir neçə cür ola bilər: pis ticarət;[1] faydasız ticarət;[2] az qazanclı ticarət;[3] zərər gətirən ticarət;[4] çox ziyanlı ticarət;[5] rüsvayedici ticarət;[6] kasad ticarət;[7] davamlı ticarət;[8] xilas edici ticarət;[9] faydalı ticarət.[10]

Həzrət Əli (ə) buyurur: "Sizin dəyəriniz behiştdir. Özünüzü ucuz satmayın."[11]

Dünya Allah övliyalarının ticarət məhəllidir.[12] Maraqlıdır ki, həzrət Əli (ə) bu sözləri dünyanın ardınca danışan birinə söyləmişdir.

Allahla ticarətdə sərmayəni Allah özü verir və yüksək qiymətə müamilə edir.

İslam məktəbində bir çox maddi işlərin mənəvi oxşarı var. Məsələn: maddi qida və mənəvi qida;[13] maddi libas və mənəvi libas;[14] maddi zinət və mənəvi

---

[1] "Bəqərə", 90
[2] "Bəqərə", 16
[3] "Nisa", 77
[4] "Zumər", 15
[5] "Əsr", 2;
[6] "Həcc", 11
[7] "Tövbə", 24
[8] "Fatir", 29
[9] "Səff", 10
[10] "Nəhcül-bəlağə", xütbə 193
[11] "Bihar", c. 70, s. 132
[12] "Nəhcül-bəlağə", hikmət 131
[13] "Muminun", 51; "Əbəsə", 24
[14] "Nəhl", 81; "Əraf", 26

zinət;[1] maddi səfər, mənəvi səfər;[2] maddi ruzi və mənəvi ruzi;[3] maddi şirinlik və mənəvi şirinlik;[4] maddi mükafat və mənəvi mükafat;[5] maddi ata və mənəvi ata;[6] maddi hicrət və mənəvi hicrət.[7]

Hədisdə oxuyuruq ki, həzrət Əli (ə) buyurmuşdur: "Mən ağır əzabdan qurtuluş səbəbi olan faydalı ticarətəm. Allah Quranda buna işarə etmişdir."[8]

## Bildirişlər

1. İnsanları onları onların iman ünvanı və ləqəbi ilə çağırın.
2. Öncə xalqı hazırlamaq, sonra ona yol göstərmək lazımdır.
3. Ticarətdə göstərişə ehtiyac var.
4. Mənəvi ticarəti hamı dərk etmir. Yalnız Allaha imanlı möminlərə bu məna aydındır.
5. İnsan fitrətən fayda axtarır və onun sabit olmasını istəyir.
6. Əsil fayda Allahın qəzəbindən qurtuluşdur.
7. Təhlükədən qurtuluş fayda əldə etməkdən mühümdür.
8. Ticarət təkcə dünya işlərinə aid deyil.
9. Peyğəmbərlərə ardıcıllıq faydalı ticarətdir.
10. İmanın müxtəlif dərəcələri var.
11. Dini təbliğatda insanların diqqətini cəlb edəcək ünvan və mövzularda istifadə edin. Ticarət və qazanc mövzusu diqqəti cəlb edir. Bu səbəbdən də Allaha iman faydalı ticarət ünvanı kimi tanıtdırılır.
12. İman təkcə qəlb etiqadı yox, həm də təlaş və cihaddır.
13. Allaha iman Peyğəmbərə (s) iman ilə, malla cihad canla cihadla müşayiət olunur.
14. Müvəqqəti, mövsümi iman və cihad səmərəsizdir.
15. Səthi iman mühüm işlər üçün yetərsizdir.
16. İman əməldən müqəddəmdir.
17. Dinin hifzi mal və canın hifzindən önəmlidir. Dini qorumaq üçün mal və candan keçmək lazımdır.
18. Cihad məsuliyyəti kimsənin öhdəsindən götürülmür. Kimi mal, kimi can, kimi də həm mal, həm də canla cihad etməlidir.
19. Təbliğdə yüngül vəzifələrdən başlayıb ağır vəzifələrə keçək. (Öncə mal ilə, sonra can ilə cihad)
20. İşləri dəyərli edən ixlas, Allahın razılığını düşünməkdir.
21. Bir çox çətinliklər bizim üçün faydalıdır, amma anlamırıq.
22. İnsan fitrətən xoşbəxtlik sorağındadır. Allah insana xoşbəxtlik vəd edir.

---

[1] "Əraf", 31; "Hucurat", 7
[2] "Bəqərə", 383; "İnşiqaq", 6
[3] "Bəqərə", 22; "Ramazan ayının duası"
[4] "Nəhcül bəlağə", hikmət 251; "Bihar", c. 87, s. 201
[5] "Bəqərə", 25; "Tövbə", 72
[6] "Bələd", 3; "Bihar", c. 36, s. 11
[7] "Ənfal", 72; "Muddəssir", 5
[8] "Təfsiri-kənzul-dəqaiq"

23. Behişt bəhanəyə yox, bahasına verilir.

24. Kamil əməlin kamil mükafatı var.

25. İlahi lütflərdən faydalanmaq üçün paklanmaq və pak qalmaq lazımdır. (Öncə bağışlanma sonra behişt və qurtuluş)

26. İnsan böyük əzab və böyük qurtuluş arasındadır. O Allah müamilə vasitəsui ilə əzabdan qurtulur, feyzə çatır.

*Ayə 13:*

﴿وَأُخْرَى تُحِبُّونَهَا نَصْرٌ مِّنَ اللَّهِ وَفَتْحٌ قَرِيبٌ وَبَشِّرِ الْمُؤْمِنِينَ﴾

**“Sevdiyiniz başqa bir nemət Allah tərəfindən yardım və yaxın qələbədir. (Ey peyğəmbər) möminlərə müjdə ver.”**

## Nöqtələr

Behiştə giriş və ilahi əfv ilahi əzabdan qurtuluş nümunəsidir. Amma ilahi fəth başqa bir nemət olduğundan, Allah onu ayrıca qeyd edir.

## Bildirişlər

1. Mükafatlar təkcə axirətdə deyil, onların bir hissəsi dünyada verilir.
2. Mükafat təşviqedici olmalıdır.
3. Mücahidlər üçün iki xoş sonluq var: şəhadət (behiştə giriş) və qələbə.
4. Qələbini hərbi təchizatdan və gücünüzdən yox, Allahın iradəsindən asılı bilin.
5. İşıqlı gələcəyə ümid döyüşçülərə güc verir.
6. Allah öz vədlərinə əməl edir.[1]
7. Döyüşçüləri maldan və candan keçməyə təşviq üçün onlar müjdə verin.

*Ayə 14:*

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ كُونوا أَنصَارَ اللَّهِ كَمَا قَالَ عِيسَى ابْنُ مَرْيَمَ لِلْحَوَارِيِّينَ مَنْ أَنصَارِي إِلَى اللَّهِ قَالَ الْحَوَارِيُّونَ نَحْنُ أَنصَارُ اللَّهِ فَآمَنَت طَّائِفَةٌ مِّن بَنِي إِسْرَائِيلَ وَكَفَرَت طَّائِفَةٌ فَأَيَّدْنَا ٱلَّذِينَ ءَامَنُواْ عَلَى عَدُوِّهِمْ فَأَصْبَحُوا ظَاهِرِينَ﴾

**“Ey iman gətirənlər, Allaha yardımçı olun. Necə ki, İsa ibn Məryəm öz həvarilərinə dedi: “Allah yolunda mənə yardımçılar kimdir?” Həvarilər dedilər: “Biz Allahın yardımçılarıyıq.” Bəni-İsraildən bir dəstəsi iman gətirdi, bir dəstəsi kafir oldu. İman gətirənlərə düşmənlərinə qarşı yardımçı olduq, qalib gəldilər.”**

## Nöqtələr

”Həvariyyun” həzrət İsanın yardımçıları olub və onlar on iki nəfərdir. Hazırkı İncildə onların adı zikr olunur.[1] “Həvariyyun” sözü “hur” kökündəndir. Uyğun

---

[1] “Nəsr”, 1; “Fəth”, 1

söz yumaq və ağartmaq mənasını bildirir. Onlar ağ libas geyib pak qəlbə malik olduqlarından və başqalarını paklğıa çağırdıqlarından belə adlandırılmışlar.

İmam Sadiq (ə) buyurur: “Şiələrimiz bizim həvarilərimizdir. İsanın həvariləri düşmənlərə və yəhudilərə qarşı ona kömək etmədilər. Bizim şiələrimiz isə bizə kömək edir, bizim yolumuzda şəhid olur və işgəncələri dözürlər. Allah bizim yolumuzda çəkdikləri çətinliklərə görə onlara yaxşı mükafat versin.”[2]

Dəvətin qəbul və göstərişə əməl edilməsi üçün oxşar halları yada salmaq təsirlidir. Həzrət İsanın yardımçılarının yada salınması bu qəbildəndir.

**Bildirişlər**

1. Mömin addım-addım inkişaf etməlidir. Ötən ayələrdə Allahla ticarətə dəvət edildi. Bu ayədə rəsmi şəkildə Allaha yardımçı olmağa çağırılır.

2. Allahın bizim yardımlarımıza ehtiyacı yoxdur. Çünki bütrün yardımlar və qələbələr Onun tərəfindəndir. Allaha yardımçı olmaq bizim özümüz üçün iftixardır.

3. Allahın peyğəmbərləri insanları özlərinə tərəf yox, Allaha doğu çağırırlar. Onların çağırışında firqə mənafeləri yoxdur.

4. Peyğəmbərlər düşmən üzərində qələbə qazanmaq üçün təbii yollar keçmişlər. Onlar hərbi vasitələrdən, xalqın gücündən faydalanmışlar.

5. Rəhbər öz ətrafındakıları yaxşı tanımalıdır.

6.Yaxınlardan əhd almaq beyətin təzələnməsi, vəfadarlığın elanıdır.

7. Dini rəhbərlərin dəvətinə cavab verək.

8. İnsan azaddır. O peyğəmbərlərin dəvətini qəbul edib xoşbəxt ola bilər, bu dəvətə arxa çevirib bədbəxt ola bilər.

9. Peyğəmbərələrə iman gətirməyənlər də olub. Bəziləri küfrə uğrayıb, bəziləri iman gətirib. Biz də öz çağırışımızda hamıdan müsbət cavab gözləməyək.

10. İman ilahi yardımlardan faydalanma rəmzidir.

11. Həzrət İsa həm özü, həm də onun yardımçıları ilahi yardımdan faydalanırdılar. Allah peyğəmbərinə yardım göstərdiyi kimi, onun ardıcıllarına da yardım göstərir.

## *Əlhəmdulillahi Rəbbil-aləmin*

[1] “Təfsiri-nümunə”

[2] “Təfsiri-kənzul-dəqaiq”